AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ

NAXÇIVANSKOE OTDELENİE NAÜİONALĞNOY
AKADEMİİ NAUK AZERBAYDCANA

NAKHCHIVAN SECTION OF THE NATIONAL
ACADEMY OF SCIENCES OF AZERBAIJAN

XƏBƏRLƏR

İCTİMAİ VƏ HUMANİTAR ELMLƏR SERİYASI

ИЗВЕСТИЯ

СЕРИЯ ОБЩЕСТВЕННЫХ И ГУМАНИТАРНЫХ НАУК

NEWS

THE SERIES OF SOCIAL AND HUMANITIES SCIENCES

Cild 7, №1

Naxçıvan - 2011

Redaksiya heyəti:

Akademik **İ.M.Hacıyev** (baş redaktor), akademik **İ.Ə.Həbibbəyli**, Akademik **N.M.Vəlixanlı**, AMEA-nın müxbir üzvü **Y.M.Mahmudov**, professor **Ali Birinci** (Türkiyə), AMEA-nın müxbir üzvü **Ə.A.Quliyev**, professor **Şükrü Haluk Akalın** (Türkiyə), AMEA-nın müxbir üzvü **V.H.Əliyev**, professor **Osman Horata** (Türkiyə), AMEA-nın müxbir üzvü **Ə.X.Nuriyev**, AMEA-nın müxbir üzvü **Q.İ.Qədirzadə**, AMEA-nın müxbir üzvü **V.B.Baxşəliyev** (məsul katib), tarix elmləri doktoru, professor **F.Y.Səfərli**, iqtisad elmləri doktoru, professor **A.İ.Şirəliyev**, filologiya elmləri doktoru, professor **M.A.Cəfərli**, filologiya elmləri doktoru **A.N.Bağırov**, filologiya elmləri doktoru **Y.S.Səfərov**, filologiya elmləri üzrə fəlsəfə doktoru **F.H.Rzayev**, siyasi elmlər üzrə fəlsəfə doktoru **R.Z.Rəhimli**.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin
«Xəbərlər»i, 2011, № 1, 320 s.

Jurnal 25 noyabr 2004-cü il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir (şəhadətnamə №1140).

© «Tusi» nəşriyyatı, 2011

M Ü N D Ə R İ C A T

TARİX

İlhami Əliyev. XVII əsrin II yarısı və XVIII əsrin əvvəllərində Naxçıvanda siyasi vəziyyət.....5
İsmayıl Hacıyev. Qondarma yolla yaradılan müvəqqəti inzibati-idarəetmə vahidi: "Erməni vilayəti".....11
Emin Şıxəliyev. Erməni iddialarının psixoloji, dini mahiyyəti.....18
Yaşar Rəhimov. Konstantin Nikitinin "Naxçıvan şəhəri və Naxçıvan qəzası" məqaləsi Naxçıvan bölgəsi tarixinin mənbəyi kimi.....24
Fəxrəddin Səfərli. Naxçıvanda tarix elminin inkişafı (1991-2011-ci illər).....32
Məmməd Məmmədov. Yeni və müasir Naxçıvan: inkişafdan intibaha doğru.....37
Sara Hacıyeva. Xatirə abidələri üzərində həkk edilən nəbati təsvirlər haqqında.....47
Fəxrəddin Cəfərov. Cəlil Məmmədquluzadə Naxçıvan qəza polis pristavının köməkçisi kimi.....52
Həmzə Cəfərov. Azərbaycanda qadın və qızların ictimai-siyasi fəallığının artırılmasına dair (XX əsrin 20-30-cu illəri).....59
Vüqar Rəhimzadə. Demokratik inkişaf proseslərində söz azadlığı və müstəqil mətbuat...64

ARXEOLOGİYA VƏ ETNOQRAFİYA

Vəli Baxşəliyev. Naxçıvanda Erkən Tunc dövrünə aid yeni tapıntılar.....71
Toğrul Xəlilov. Gilançay vadisinin yeni arxeoloji abidələri.....79
Zeynəb Quliyeva. Arpaçay vadisi tayfalarının incəsənəti və ideologiyası.....85
Qadir Qədirzadə. Xalq təqvimindən – çərşənbələr.....89
Asəf Orucov. On iki heyvanla bağlı türk təqvimi.....96

AZƏRBAYCAN DİLİ

Абульфаз Гулиев. Место и роль венгерской среды в формировании азербайджанского языковеда профессора Бекира Чобанзаде.....100
Firudin Rzayev. Qədim Naxçıvan əhalisinin etnogenezində Qıpçaq türkləri.....107
Adil Bağırov. Orxon və Yenisey abidələrində işlənən zoonimik adların müasir türk dillərindəki izləri.....114
Rəşad Zülfüqarov. Ordubad dialektində heyvandarlıq terminləri.....121
Səyyar Məmmədov. Culfa şivələrində felin əmr şəklinin və keçmiş zamanın işlənməsi.127
Zülfiyyə İsmayıl. XIX əsr Azərbaycan ədəbi dilində qeyri-təyini ismi birləşmələr.....134
Şirməmməd Qulubəyli. Müasir Azərbaycan dilində ismin çıxışlıq halına dair.....140
Çinarə Rzayeva. Hüseyn Cavidin dilində alınma sözlər ("İblis" əsəri əsasında).....146
Elmar Hüseynov. Babək rayon oronimlərinin məna çalarlarına görə qruplaşdırılması....151
Yusuf Gedikli. Türkçede "tanrı, allah" adlarının türediği *de+ ~ *di+ yuvası.....157

FOLKLOR VƏ ƏDƏBİYYAT

İsa Həbibbəyli. Akademik Məmməd Cəfər Cəfərovun həyatı və elmi-ədəbi fəaliyyəti...164
Fərqanə Kazımova. Türkiyə-Azərbaycan ədəbi-mədəni əlaqələrinin inkişafında professor Abbas Zamanovun rolu (Professor Abbas Zamanovun anadan olmasının 100 illiyi

münasibətilə).....173
Fərman Xəlilov. Mirzə Əli Möcüzün həyatının Şəbüstər mərhələsi (1906-1920).....178
Lütviyyə Əsgərzadə. Cavid yaradıcılığında humanizm və sülh.....184
Səbuhi İbrahimov. Naxçıvan mədəniyyətinə dair orta əsr əlyazma mətnlərinin tarixi kökləri.....190
Hüseyn Həşimli. "Yeni füyuzat" jurnalı və poeziyanın yaradıcılıq axtarışları.....195
İman Cəfərov. Məhkum şərqə münasibətdə Hafiz Şirazi şeiri "Molla Nəsrəddin" tənqidi realizm müstəvisində.....202
Ramiz Qasımov. XI-XIII əsrlərdə Naxçıvanda ədəbiyyat.....211
Aygün Orucova. "Ədəbi dövrün başçısi"nın ədəbiyyat və sənətə baxışı.....216
Fəxrəddin Eylazov. Mahmud Şəbüstərinin "Gülşəni-raz" əsəri və onun tərcümə əlyazmaları haqqında.....222
Xumar Məmmədova. "Molla Nəsrəddin" jurnalı Amerika alimi Janet Aferinin tədqiqatında.....227
Məhsəti İsmayıl. Azərbaycan toylarında xınayaxma mərasimi və xına.....233
Əkrəm Hüseynzadə. Naxçıvanda İlanlı dağı və Əlincə qalası ilə bağlı rəvayətlər və semantik şərhlər.....240

İNCƏSƏNƏT

Nizami Alıyev. Bəhruz Kəngərlinin məişət janrındakı əsərləri haqqında.....246
Ələkbər Qasımov. Tarixi şəxsiyyətlərə həsr olunmuş əsərlərin Naxçıvan teatrında səhnə təcəssümü.....253

İQTİSADİYYAT

Asif Şirəliyev. Ümummilli lider Heydər Əliyevin aqrar nəzəriyyəsi və aqrar siyasəti.....261
Polad Əliyev. İqtisadi nəzəriyyədə milli gəlirin bölüşdürülməsi ilə bağlı müasir konsepsiyalar.....266
Cavadxan Qasımov. Naxçıvan Muxtar Respublikasında aqrar sektorda məşğulluğun bəzi xüsusiyyətləri.....272
Davud Nasiri. Böyük Azərbaycanda azad iqtisadi zonalarin yaradılması və sərhədyanı ticarətin perspektivləri.....279
Nuriyyə İbrahimova. Regionlarda aqrar istehsalın dayanıqlı inkişafının və istehsal-iqtisadi əlaqələrin qurulmasının obyektiv zəruriliyi.....284
Tural Məmmədov. Kənd turizminin inkişaf etdirilməsi yolları.....289
Həsən Məmmədov. Regionların sosial-iqtisadi inkişaf strategiyasının nəzəri-metodoloji aspektləri.....297

BİBLİOQRAFİYA

Məhərrəm Cəfərli, Rafiq Babayev. Etnokosmik yaddaş: yeni baxış sistemi.....301

YUBİLEYLƏR, XATİRƏLƏR

İsmayıl Hacıyev. Elmimizin aparıcı və tanınmış nümayəndəsi.....307
İsa Həbibbəyli. Tarixçi borcu və vətəndaşlıq mövqeyi.....311

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

TARİX

İLHAMİ ƏLİYEV
AMEA Naxçıvan Bölməsi
E-mail: ilhamialiyev05@yahoo.com

XVII ƏSRİN II YARISI-XVIII ƏSRİN ƏVVƏLLƏRİNDƏ NAXÇIVANDA SİYASİ VƏZİYYƏT

(Redaksiya heyətinin üzvü, t.e.d., prof. F.Y.Səfərli tərəfindən təqdim edilmişdir)

Səfəvilər dövlətinin mövcud olduğu dövrdə XVII əsrin II yarısı və XVIII əsrin 20-ci illərinədək olan zaman kəsiyi tamam fərqli bir mərhələ olmuşdur. Əvvəla, hələ XVII əsrin II rübündən başlayaraq birinci və sonuncu dəfə idi ki, Osmanlı-Səfəvi müharibələrinə belə uzun fasilə verilirdi. İkincisi, Səfəvi torpaqlarında iqtisadi, siyasi və mədəni inkişaf baxımından ən güclü tənəzzül dövrü məhz bu zaman kəsiyində baş vermişdi.

Naxçıvan ölkəsinin siyasi həyatında bu dövrün xarakterik xüsusiyyətləri özünü qabarıq şəkildə biruzə vermişdir. Qeyd etdiyimiz tənəzzül illərinin əsas səbəbi XVI əsrin sonu XVII əsrin əvvəllərində qısa fasilələrlə davam edən Osmanlı-Səfəvi müharibələri və onların acı nəticələri idi ki, onlardan da daha çox əziyyət çəkən Azərbaycan bölgələrindən biri Naxçıvan mahalı idi. Bir tərəfdən başqa Səfəvi torpaqları kimi XVI əsrin sonlarında Osmanlı imperiyası tərəfindən işğal edilməsi, digər tərəfdən isə Osmanlı və Səfəvi ordularının törətdiyi qırğınlar, dağıntılar, talanlar və ən əsası isə I şah Abbasın həyata keçirdiyi "Böyük sürgün" siyasəti, haqqında bəhs etdiyimiz dövrdə bölgədə yaşayış səviyyəsinin minimuma enməsi ilə nəticələnmişdi. Bunlarla yanaşı bölgədə siyasi sabitliyin pozulmasına təsir edən amillərdən biri də iqtisadi tənəzzülün baş verməsi idi. Belə ki, XVII əsrin 70-ci illərində Azərbaycan ərazisində baş verən quraqlıq Naxçıvan mahalından da yan keçməmişdi. Bu da həmin illərdə Naxçıvanda onsuz da ağır olan iqtisadi vəziyyətin daha da pisləşməsinə gətirib çıxardı. Hələ 60-cı illərin əvvəllərindən Azərbaycanda başlayan ərzaq qıtlığı quraqlıq dövründə daha da artdı. Çörək çatışmazlığı Təbriz, Qarabağ, Gəncə, Qafan, İrəvan bölgələri ilə yanaşı Naxçıvanı da bürümüşdü (23, s. 302). Həmin illərdə Naxçıvan ölkəsində, xüsusilə də onun cənub-şərq hissəsində şiddətli aclıq başladı (10, s. 137). Aclıq səbəbindən əhali arasında oğurluq və qarət halları artmışdı. Kənd-

lilər böyük dəstələrlə şəhərlərə doğru axışır, dövlətin taxıl ambarlarına hücumlar edib qarət edir, varlıların malikanələrini dağıdırdılar (2, s. 294; 10, s. 138). Bu da hakim siniflə yoxsul təbəqə arasında qarşıdurmanın yaranmasına səbəb olurdu və nəticədə əhalinin kütləvi qiyamları baş verirdi. Vəziyyətin belə ağır vaxtlarında Naxçıvan hakimi də taxıl çatışmadığı üçün başqa Azərbaycan bölgələrindəki kimi, 1673-cü ildə taxıl ixracını qadağan etdi (10, s. 137; 20, s. 94). Ərzaq məhsullarının qıtlığı bir tərəfdən də bazarda qiymətlərin artmasına, bahalaşmaya səbəb olmuşdu. İ.İ.Petruşevski göstərir ki, bu zaman Naxçıvan da daxil olmaqla, Azərbaycanın əksər bölgələrində buğda və arpanın qiyməti kəskin şəkildə qalxmışdı (23, s. 302).

Bu dövrdə dövlətin iqtisadi sahədə belə çətinliklərlə qarşılaşmasının bir səbəbi də Səfəvi şahlarının fəaliyyətsizliyindən asılı idi. Məsələn, şah Sultan Hüseyn (1694-1722) dövlət işlərini baş vəziri Fətəli xana həvalə etmişdi. Bu da saray məmurlarının ölkəni istədikləri kimi idarə etməsinə imkan yaradırdı. Nəticədə məmur özbaşınalığı, kənd təsərrüfatının tənəzzülü, vergilərin artırılması və s. səbəblər ölkədaxili vəziyyətin gərginləşməsinə gətirib çıxarırdı. Dövlət xəzinəsinin boşalması elə həddə çatmışdı ki, hətta bəzi sahələrdə bir neçə il idi ki, maaşları ödəmək mümkün olmurdu. Belə ki, 1677-ci ildə Naxçıvan, Culfa və İrəvanda hərbi sahədə iki il müddətinə maaşları verilməyən Qacar və Bayat tayfalarından olan döyüşçülərin üsyanı baş verdi. Üsyançılarla mübarizədə geriyə çəkilən vilayət hakimi Səfiqulu xan qalaya sığındı. Lakin, tezliklə şahın yeni təyin etdiyi hakim bu üsyanı amansızlıqla yatırmağa müvəffəq oldu (2, s. 294). Bu qarşıdumalar Naxçıvan əhalisinin vəziyyətini və bölgənin siyasi durumunu gərginləşdirirdi. Bu azmış kimi şah Sultan Hüseynin 1699-1702-ci illərdə həyata keçirdiyi bütün ölkə əhalisinin siyahıya alınması (11, s. 74) məsələsi insanların acınacaqlı günlərinin başlanmasına rəvac verdi. Boşalmış dövlət xəzinəsini aşağı təbəqələrin var-yoxdan çıxarılması hesabına doldurmaq üçün şahın həyata keçirdiyi bu kampaniya xalqın son qəpiklərinin əlindən alınmasını nəzərdə tutmuşdu. Siyahıya almanın çox dəqiqliklə yerinə yetirilməsi bu işin məqsədini aydın şəkildə göstərir. O, dövr mənbələrindən birində deyilir ki, şah bu barədə belə bir fərman vermişdi: "Kim gizlənəni və gizlədəni tapsa və onun barəsində şaha xəbər versə, gizlədənin başı şaha, əmlakı isə xəbər verənə çatacaqdır" (3, s. 19). Bundan sonra artırılan vergilər əhalinin vəziyyətini kəskin şəkildə pisləşdirdi. Təbii ki, bu Naxçıvan bölgəsi də daxil olmaqla bütün Azərbaycanda əhalinin haqlı narazılığına səbəb oldu (23, s. 301) və əksər bölgələrdə XVIII əsrin əvvəllərində üsyanlar baş verdi. Bu haqda 1715-ci ildə Azərbaycan ərazisindən keçib İrana gedən Rusiya səfiri A.P.Volınski öz təəssüratında belə yazmışdı: "Səfəvilər dövlətində çox az yer tapmaq olar ki, orada hökumətə qarşı üsyan baş verməmiş olsun" (6, s. 16; 4, s. 99). Bu üsyanlar Səfəvi hakimiyyətinin sarsılmasının başlıca səbəblərindən biri olmuşdur (6, s. 11). Qəsri-Şirin müqaviləsindən əvvəlki siyasi gərginlikdən, yəni Osmanlı-Səfəvi müharibələrinin dağıdıcı təsirlərindən fərqli olaraq artıq daxili çəkişmələr Naxçıvanda da vəziyyətin normallaş-

masına mənfi təsir göstərirdi. Hadisələrin bu cür cərəyan etməsinin səbəbi yuxarıda qeyd etdiyimiz kimi mərkəzi hakimiyyət, onun yeritdiyi səhv siyasət və iqtisadi sahədə dərin tənəzzülün davam etməsi idi. Ən acınacaqlı hal isə siyasi gərginliyin daha da artması və şahın 1722-ci ildə üsyançı Əfqan tayfaları tərəfindən taxtdan salınması oldu. Səfəvilər imperiyasında siyasi vəziyyətin belə ağır olduğu vaxtda Rusiya və Osmanlı dövlətləri Səfəvi torpaqlarına açıq müdaxilə etməyə başladılar (9, s. 40). Elə həmin ildə Rusiya çarı I Pyotr böyük bir ordu ilə hücum edib Xəzəryanı əraziləri tutdu. Sonra müəyyən səbəblər üzündən geriyə çəkilsə də, növbəti illərdə yenidən həmin torpaqları zəbt etdi (21, s. 201). Osmanlılar isə öz növbəsində 1723-cü ilin yazında Səfəvi torpaqlarına hücum etməyə başladılar. Bu zaman Rusiya türklərlə müharibə etməkdənsə Səfəvilərlə razılığa gəlməyi üstün tutdu. 1723-cü il, iyulun 12-də Moskvada bağlanan Rusiya-İran müqaviləsinə görə Rusiya Dərbənd, Bakı, Gilan, Mazandıran və Astrabadı aldı, əvəzində II Təhmasibin taxtını qorumağı və bu dövlətə ediləcək hər hansı hücum zamanı kömək edəcəyinə söz verdi (5, s. 748). Lakin bundan sonra Osmanlılar Səfəvi torpaqlarının əksər hissəsini işğal etdiyindən həmin müqavilə də öz qüvvəsini itirdi. Nəticədə şah II Təhmasibin formal hakimiyyətinin mövcud olduğu az bir qism Səfəvi torpaqları (Astarabad, Mazandaran və Gilanın bir hissəsi) istisna olmaqla, yerdə qalan ərazilər Osmanlı və Rusiya dövlətləri arasında bölüşdürüldü. 1724-cü il, iyunun 12-də İstanbulda bağlanan sülh müqaviləsinin şərtlərinə görə Azərbaycanın Xəzəryanı torpaqları Rusiyaya, qalan ərazisinin əksər hissəsi isə Osmanlılara verildi (13, s. 29-30).

Bu ədalətsiz işğal nəticəsində Naxçıvan bölgəsi də Osmanlılar tərəfindən tutuldu. Əvvəlcə Naxçıvanın hansı şəraitdə və necə işğal edilməsinə diqqət yetirək. Qeyd edək ki, hələ 1723-cü ilin oktyabrında Sultan III Əhmədin əmrilə Osmanlı qoşunu İbrahim paşa və digər üç paşanın rəhbərliyi ilə Tiflis istiqamətində Azərbaycan üzərinə hücum etdi. Bu zaman Gəncə şəhərini tutmaq istəyən türk qoşunu ağır məğlubiyyətə uğrayaraq geri çəkildi. Müvəffəqiyyətsizliyə görə İbrahim paşaya qəzəblənmiş sultan onun yerinə Arifi Əhməd paşanı sərəsgər təyin etdi, sonuncuya artıq başqa vəzifə – İrəvan şəhərini tutmaq tapşırığı verildi (13, s. 25). Beləliklə, bu əmri yerinə yetirən Arifi Əhməd paşa öz qoşunu ilə 1724-cü il, avqust ayının ortalarında hücum edərək İrəvan qalasını mühasirəyə aldı. Ancaq Osmanlılar burada qala müdafiəçilərinin sərt müqaviməti ilə üzləşdilər. Yalnız avqust ayının sonlarında türklər İrəvanı tuta bildilər (13, s. 31). Hələ qala uğrunda mübarizə gedən zaman Osmanlı qoşunları II Təhmasibin İrəvan müdafiəçilərinə köməyə göndərdiyi 10 min nəfərlik qoşunun (digər bir ədəbiyyatda (16, s.12) 30 minlik qoşun) qarşısını almaq məqsədilə Naxçıvan istiqamətində hərəkət etdilər (14, s. 99). Həmin vaxt Arifi Əhməd paşa Bəyazid hakimi Mahmud paşaya, Ələşkert bəyi Xəlil bəyə və başqalarına cənuba, Naxçıvana doğru hərəkət etməyi əmr etdi (16, s. 12). Bu əmrdən aydın olur ki, Naxçıvan istiqamətində göndərilən Osmanlı hərbi qüvvələri İrəvan qalası uğrunda vuruşan türk qoşununun bir hissəsi idi və bu əməliyyatı yerinə yetirənlərin məq-

sədi isə köməyə gələn Səfəvi qoşununun qarşısını almaq olmuşdu. Beləliklə Osmanlılar Naxçıvan yaxınlığında kömək üçün göndərilən qızılbaşları məğlub etdikdən sonra (13, s. 32), 1724-cü il, sentyabrın əvvəllərində Naxçıvan şəhərini tutdular (16, s. 12). Bundan sonra, sentyabrın 10-da onlar Ordubad üzərinə hücuma keçdilər. Ordubad yaxınlığında, Osmanlılarla Naxçıvan hakimi Mənsur xanın 8 minlik qoşunu arasında bir saat davam edən döyüş türklərin qələbəsi ilə başa çatdı (19, s. 44; 13, s. 32). Mahal hakiminin Ordubad yaxınlığında Osmanlılarla mübarizəsi göstərir ki, Naxçıvan tutulan zaman yerli hakimiyyət orqanları müqavimət göstərməmiş, əvəzində hərbi qüvvə ilə birlikdə Ordubada doğru hərəkət etmiş, lakin onlar burada da, məğlubiyyətdən yaxa qurtara bilməmişdilər.

Sülh müqaviləsində göstərilən Azərbaycan torpaqlarının, xüsusilə də, Naxçıvan bölgəsinin işğalını başa çatdırdıqdan sonra Osmanlılar bu yerlərdə öz üsul-idarələrini qurmağa başladılar. Əvvəlki işğal zamanında (1588-1603) olduğu kimi, yenə də, 1724-cü ildə onlar "Naxçıvan sancağı" inzibati ərazi bölgüsünü tətbiq etdilər. Yəni digər Azərbaycan bölgələrində olduğu kimi Naxçıvan mahalında da onun əksər ərazilərinin daxil olduğu eyni adlı sancaq yaradıldı. Qeyd etmək lazımdır ki, 1724-1726-cı illər ərəfəsində Osmanlılar Naxçıvan sancağı ilə yanaşı bu bölgədə Ordubad sancağını da təşkil etmiş, lakin dəftər qüvvəyə minən vaxt onun saxlanılmasını lazım bilməmişlər (15, s. 11).

Bu zaman Naxçıvanın Osmanlılar tərəfindən idarə edilməsi burada siyasi sabitliyin bərqərar olmasına gətirib çıxardı. Ən əsası belə vəziyyət müvəqqəti olsa da, bölgədə müharibələrin davam etməsini dayandırdı. Çünki İstambul sülhü (1724) ilə bu torpaqları ələ keçirmək istəyən dövlətlər hərəsi öz payını əldə etmişdi. Tətbiq edilən Osmanlı üsul-idarəsi vergilərin nizamlı şəkildə toplanmasını təmin etməklə yanaşı, daxili gərginliyə də müəyyən qədər son qoydu. Yenə də türklər Naxçıvan sancağının müfəssəl dəftərini tərtib etmək üçün 20 yaşdan yuxarı (kişi cinsindən olan) əhalini siyahıya aldılar. 1727-ci ildə həmin müfəssəl dəftər Osmanlı hökumətinin fərmanı ilə qüvvəyə mindi. Bu sənədin 3 ilə hazırlanması göstərir ki, mövcud hakimiyyət orqanları bu işin təşkilinə xüsusi diqqət yetirirdilər.

Osmanlılar tərəfindən bölgədə kənd təsərrüfatının canlandırılması əhalinin yaşayış səviyyəsinin az da olsa qalxmasına kömək etdi. Artıq bütün Naxçıvan ərazisində hətta boş kəndlərin əkinə yararlı torpaqlarının əkilib-becərilməsi insanların məşğuliyyət sahələrinin artmasına imkan yaratmışdı. Bu zaman Osmanlı üsul-idarəsi bölgədə asayişin qorunmasını təmin edirdi. Belə ki, dirlik (torpaq) sahibləri onlara verilən dirlik ərazisində əmin amanlığa cavabdeh olan şəxs kimi bölgədə asayişi qorumalı, kəndlinin canının, malının, mülkünün toxunulmazlığını təmin etməli idi (7, s. 25). Təbii ki, Osmanlılar bu idarəçilik qayda-qanunlarını həyata keçirməklə insanların əldə etdikləri məhsullardan bir çox vergilər alaraq, xeyli gəlir götürürdülər. Amma vergi mükəlləfiyyətləri yerinə yetirmək çətin olsa da, əvəzində qazanılmış siyasi sabitlik təsərrüfat işlərinin həyata keçirilməsində kəndlilərə geniş imkanlar yaratmışdı. Bütün bunlar Os-

manlıların əldə etdikləri qazanc hesabına bölgədə siyasi vəziyyəti stabilləşdirdiklərini göstərir. Lakin bu torpaqlarda Osmanlı idarəçiliyi çox da uzun sürmədi. 1736-cı ildə Muğan qurultayında özünü şah elan edən Nadir Səfəvilər sülaləsinin hakimiyyətinə son qoydu və Naxçıvan da daxil olmaqla Azərbaycan torpaqlarını işğaldan azad etdi.

Ümumiyyətlə, Səfəvilərin son dövründə bütün Azərbaycan ərazisində, xüsusilə də, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsində istər daxili, istərsə də, xarici müdaxilələrin təsirindən mürəkkəb siyasi vəziyyət yaşanmışdı. Ən azı İstanbul sülhünün nəticələri bütöv Azərbaycan üçün fəlakətin başlanğıcı idi. Çünki, bu müqavilədən sonra ölkə ərazisi dörd yerə bölündü. Səfəvi, Osmanlı, Rusiya dövlətləri və sultandan yarımasılı olan Şirvan xanlığı arasında bir xalqın tarixi torpaqları parçalandı. Müvəqqəti davam edən bu bölgü vahid mədəniyyətin sarsılmasına səbəb olsa da, qısa zaman kəsiyində (12 il) siyasi gərginliyin azalmasını təmin etmiş oldu. Amma ən acınacaqlısı o idi ki, İstanbul müqaviləsi gələcəkdə – XIX əsrin əvvəllərində Azərbaycan torpaqlarının Rusiya və İran dövlətləri arasında bölüşdürülməsinin təməlini atmış oldu.

ƏDƏBİYYAT

1. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı: Qartal, 1998, 280 s.
2. Azərbaycan tarixi: 7 cilddə, III c. (XIII-XVIII əsrlər), Bakı: Elm, 1999, 584 s.
3. Cəlalyan Y.H. Alban ölkəsinin qısa tarixi (1702-1722-ci illər). Bakı: İşıq, 1992, 50 s.
4. Dadaşova R.İ. Səfəvilərin son dövrü (İngilisdilli tarixşünaslıqda). Bakı: Nurlan, 2003, 439 s.
5. Esat U. Tarihde ermeniler ve ermeni meselesi. İstanbul: Belge Yayınları, 1987, 798 s.
6. Əliyev F.M. XVIII əsrin birinci yarısında Azərbaycanda ticarət. Bakı: Azərbaycan SSR Elmlər Akademiyasının nəşriyyatı, 1964.
7. İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Z.Bünyadov və t.e.n. H.Məmmədov. Bakı: Elm, 1996, 184 s.
8. İslam S. Ermənilərin Birinci Pyotrla görüşü. Bakı: Azərnəşr, 1993, 32 s.
9. Qarayev E.F. İ.Soymonun "Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarının, imperator böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri" adlı səyahətnaməsi Azərbaycan tarixinin mənbəyi kimi. Bakı: ADPU, 2006, 141 s.
10. Məmmədov R.A. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 158 s.
11. Məmmədov S.A. Azərbaycan XV-XVIII əsrin birinci yarısında. Bakı: APİnin nəşri, 1981, 102 s.
12. Mustafayev T.T. XVIII əsrin birinci yarısında Azərbaycanda Rusiyaya meylin güclənməsi. Bakı: Elm, 1986, 88 s.
13. Mustafazadə T.T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı: Elm, 2002, 372 s.

14. Mustafazadə T.T Naxçıvan diyarı XVIII-XIX yüzilliyin əvvəllərində / Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri, Bakı: Təhsil, 2006, s. 98-113.
15. Naxçıvan sancağının müfəssəl dəftəri. Giriş və tərcümənin müəllifləri akademik Z. Bünyadov və t.e.n. H. Məmmədov. Bakı: Elm, 2001, 376 s.
16. Naxçıvan sancağının müfəssəl dəftəri. Giriş və tərcümənin müəllifləri akademik Z. Bünyadov və t.e.n. H. Məmmədov. Bakı: Sabah, 1997, 336 s.
17. Nəcəfli G.C. Ermənilərin Azərbaycanın Naxçıvan bölgəsini ələ keçirmək üçün tərtib etdiyi layihələr / Naxçıvan bu gün: islahatlar, perspektivlər, Bakı: Nurlan, 2008, s. 105-112.
18. Nəcəfli G.C. XVIII əsrdə Azərbaycanda erməni dövləti yaradılması cəhdləri. Bakı: Elm, 2007, 248 s.
19. Səfərli F.Y. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. Bakı: Elm, 2003, 392 s.
20. Дневник Закария Акулисского. Ереван: АРМФАН, 1939, 139 с.
21. История Ирана. М.: Изд-во МГУ, 1977, 488 с.
22. Мамедов С.А. Исторические связи Азербайджанского и Армянского народов во второй половине XVII – первой трети XVIII в. Баку: Элм, 1977, 263 с.
23. Петрушевский И. П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI- начале XIX вв. Л.: Изд-во ЛГУ, 1949, 384 с.

Ильхами Алиев

ПОЛИТИЧЕСКОЕ ПОЛОЖЕНИЕ НАХЧЫВАНА ВО ВТОРОЙ ПОЛОВИНЕ XVII И В НАЧАЛЕ XVIII ВЕКОВ

В статье говорится о напряженной политической ситуации в Нахчыване во время последнего периода правления Сефевидов, которая произошла в результате Сефевидо-Османской войны и экономического спада. Было отмечено, что Нахчыван оказался под властью османцев, как и другие регионы Азербайджана, в соответствии с условиями Стамбульского соглашения (1724).

Ilhami Aliyev

THE POLITICAL SITUATION IN NAKHCHIVAN AT THE SECOND HALF OF THE 17th AND THE BEGINING OF 18th CENTURIES

In the article it is dealt with the strained political situation survived in Nakhchivan region at the last period of the Safavids in the result of Ottoman-Safavid wars and the economical decline. It is shown that Nakhchivan fell under the authority of the Ottomans as the other Azerbaijan regions according to the condition of the Istambul peace (1724).

İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

İSMAYIL HACIYEV
AMEA Naxçıvan Bölməsi
E-mail: İsmayil_haciyev@yahoo.com

QONDARMA YOLLA YARADILAN MÜVƏQQƏTİ İNZİBATİ-İDARƏETMƏ VAHİDİ: "ERMƏNİ VİLAYƏTİ"

Erməni millətçiləri uzun illərdir ki, "Böyük Ermənistan" dövləti yaratmaq xülyası ilə dəridən-qabıqdan çıxır, bir sıra iri dövlətlərə yarınır və bununla da arzularına çatmaq istəyirlər. Məlumdur ki, Erməni dövləti IV əsrdə tarix səhnəsindən silinmiş, 387-ci ildə Ermənistan İran və Bizans arasında bölüşdürülmüşdür. 428-ci ildə isə İran erməni çarlığının varlığına son qoyulmuşdur (1, s. 262). XI-XIV əsrlərdə isə ancaq Türkiyə ərazisində Kilikiya erməni çarlığı mövcud olmuşdur. XX əsrin əvvəllərinədək faktiki erməni dövləti olmamışdır. Onlar müxtəlif dövlətlərin tərkibində yaşamışlar. Ermənilər XVIII əsrdən başlayaraq Azərbaycan ərazisində erməni dövlətinin yaradılmasına cəhdlər göstərmişlər (2). Rusiya ermənilərin bu niyyətlərini dəstəkləmiş və onları öz fəaliyyətlərinə istiqamətləndirmişdir. Hələ I Pyotrun dövründən başlayaraq Rusiya regionda başlıca rəqibləri olan Osmanlı və Səfəvi imperiyalarını daxilindən zəiflətmək üçün erməni kartından istifadə etmişdir. II Yekaterina da bu siyasətin gerçəkləşdirilməsində ermənilərdən bir alət kimi faydalanmağa çalışmışdır.

XIX əsrin əvvəllərindən başlayaraq Cənubi Qafqazın tutulması Rusiya imperiyasının işğalçılıq siyasətində mühüm yer tuturdu. 1813-cü ilə qədər Şimali Azərbaycanın bir sıra xanlıqları Rusiya tərəfindən tutuldu. Sonrakı müharibələr zamanı Azərbaycan dövlətləri olan Naxçıvan (1827, iyun) və İrəvan (1827, oktyabr) xanlıqlarının ərazisi işğal olundu.

Naxçıvan xanlığı Rusiya tərəfindən, əsasən dinc yolla ələ keçirildi. Lakin çar hökuməti bu yolla ələ keçirdiyi Qarabağ, Şəki və Şirvan xanlıqlarından fərqli olaraq, Naxçıvan xanlığı ilə müqavilə imzalamadı. Bununla birgə, Rusiya imperiyası tərkibində Naxçıvan xanlığına müəyyən imtiyazlar verildi. Naxçıvan və Ordubadın ələ keçirilməsində Kalbalı xanın oğlanları Ehsan xan və Şıxəli bəyin xidməti nəzərə alınaraq onlar həmin torpaqlara naib təyin edildi (3, s. 41).

İrəvan xanlığı süqut etdikdən sonra xanlıq üsuli-idarəsi dərhal ləğv olundu. Qeyd etməliyik ki, "Gəncə xanlığı istisna olmaqla Gülüstan müqaviləsinə kimi işğal olunmuş Azərbaycan xanlıqları ərazisində xanlıq üsuli-idarəsi dərhal

ləğv edilməmişdi" (4, s. 358). Xanlığın ləğv edilməsi bir tərəfdən xanlıq üsuli-idarəsinin saxlanmasının təhlükəli nəticələr verə biləcəyi ilə, digər tərəfdən də İrəvan xanlığının ərazisində etnik tərkibin dəyişdirilməsi planları ilə bağlı idi.

İrəvan qalasının işğalından cəmi bir neçə gün sonra, hələ müharibə başa çatmamış, Qafqazda hərbi əməliyyat aparan rus qoşunlarının baş komandanı İ.F.Paskeviç 1827-ci il oktyabr ayının 6-da İrəvan Müvəqqəti İdaretmə Komitəsi təşkil etdi. Bu komitə üç üzvdən ibarət idi: general-leytenant Krasovski (sədr), İrəvan qalasının komendantı podpolkovnik Borodin və bir də erməni yepiskopu Nerses Aştaraketsi (5, s. 144). Xanlıq ərazisində azərbaycanlı əhali mütləq çoxluğa malik olmasına baxmayaraq, Müvəqqəti İdarəetmə Komitəsinin tərkibinə azərbaycanlıların nümayəndəsi salınmamışdı. Müvəqqəti İdarəetmə Komitəsi aşağıdakı vəzifələri yerinə yetirməli idi:

1. Xanlıq ərazisində idarəetmə işlərinin həyata keçirilməsi və həmin ərazidə Rusiyanın mənafeyinə uyğun gələn qayda-qanunların bərqərar edilməsi;
2. Xanlığın sərhədlərinin, xanlıq daxilində olan İrəvan və Sərdarabad qalalarının mühafizəsinin və bu ərazidə yerləşən rus qoşunlarının təminat və təchizat məsələlərinin həll edilməsi;
3. Xanlıq ərazisində təhlükəsizliyin təmin edilməsi, xanlıq daxilində qarovul xidmətinin təşkili üçün erməni əhalidən piyada və süvari drujinaların təşkil edilməsi;
4. Gürcüstanla işlək əlaqələrin təmin edilməsi və həmin əlaqələrin Dilican və Aparandan keçməklə yaradılması;
5. Gürcüstanla ticarət əlaqələrinin bərpa edilməsi, xanlıq ərazisində pambıqçılığın inkişaf etdirilməsi və duz mədənlərində duz hasilinin artırılması;
6. İrəvan xanının bütün əmlakının siyahıya alınması və onun dövlətin xeyrinə müsadirə olunması (6, s. 71).

Naxçıvan və Ordubadda Ehsan xan və Şıxəli bəy naib kimi fəaliyyət göstərir və onlara rus məmurlarından pristavlar təyin edilmişdi. Bütün idarəetmə məsələləri onların qarşılıqlı razılığı əsasında həll edilməli idi (7, s. 72).

Naxçıvan və İrəvan xanlıqlarının işğalı və Rusiyaya ilhaq edilməsi ermənilərin Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq arzusuna yeni təkan verdi. Onlar Rusiyaya bağlı erməni inzibati-ərazi vahidi yaradılmasını istəyirdilər. Hətta bu barədə əslən erməni olan X.Y.Lazarev çar I Nikolaya layihə də təklif etmişdi. Lakin belə bir qurumun yaradılması Rusiyanın maraqlarına uyğun deyildi. Rusiya İrəvan xanlığı ərazisində elə bir ərazi-idarəetmə vahidinin yaradılmasını məqsədəuyğun hesab edirdi ki, o Rusiyanın mənafeyinə uyğun gəlsin. Rusiya əraziyə ermənilər köçürsə də, bu ərazilərin idarəsinin ermənilərə tapşırılmasını məqsədəuyğun hesab etmirdi.

Türkmənçay müqaviləsi bağlandıqdan sonra İrəvan və Naxçıvan xanlıqlarının idarəçiliyi dəyişdirildi. Çar I Nikolayın 1828-ci il martın 21-də verdiyi fərman ilə İrəvan və Naxçıvan xanlıqları əsasında "Erməni vilayəti" yaradıldı. Həmin fərmanda deyilirdi: "İranda bağlanan traktata uyğun olaraq İrandan Ru-

siyaya birləşdirilmiş İrəvan və Naxçıvan xanlıqları bundan sonra bütün işlərdə "Erməni vilayəti" adlandırılsın və o, bizim titula daxil edilsin. Bu vilayətin quruluşu və onun idarə edilməsi qaydaları haqqında hökumət öz vaxtında lazımi göstərişlər alacaqdıq" (8, s. 178-179).

"Erməni vilayəti" İrəvan və Naxçıvan xanlıqlarının ərazisi əsasında yaradılan müvəqqəti inzibati-idarəetmə vahidi idi. Bu fərmanın imzalanması ilə əvvəlcə yaradılmış İrəvan Müvəqqəti İdarəetmə Komitəsi ləğv edildi. "Erməni vilayəti" heç də erməni dövləti deyildi. Lakin bu, tarixi Azərbaycan torpaqlarında İrəvan və Naxçıvan xanlıqlarının ərazisində yaradılacaq gələcək Ermənistanın təməli idi. Çar hökuməti tarixi Azərbaycan torpaqları əsasında "Erməni vilayəti" yaratması ilə I Pyotrdan başlayaraq ermənipərəst siyasətin həyata keçirildiyini təsdiq edirdi.

Əlahiddə Qafqaz korpusunun komandiri, general-adyutant Paskeviçlə Krasovski arasında ziddiyyətlər yarandı. Nerses Aştaraketsinin fırıldaqları və azərbaycanlılara qarşı qəddarlıqları üzə çıxdı. Ona görə də 1828-ci ilin aprelində Krasovski İrəvanı tərk etdi. Arxiyepiskop Nerses isə Rusiyanın maraqlarını əks etdirməyən bir ruhani kimi qiymətləndirildi və tezliklə onun zərərli bir adam kimi "Erməni vilayəti"ndən sürgün edilməsi məqsədəuyğun hesab edildi. Bunun üçün bir bəhanə də tapıldı. Paskeviç onu Bessarabiyadakı erməni yeparxiyasının rəhbəri vəzifəsinə göndərilməsinə nail oldu (4, s. 366).

"Erməni vilayəti" inzibati planda iki qəza və bir dairədən ibarət idi. İrəvan və Naxçıvan qəzaları və Ordubad dairəsi. Qəza rəhbərləri kimi Ehsan xan və Şıxəli bəy öz vəzifələrində saxlanılmışdı. Ermənilər isə güman edirdilər ki, Rusiya qoşunlarının vilayətə gəlməsi ilə hər şey onların dediyi kimi olacaq, azərbaycanlı bəylər və xanlar qarşısında olan borclarını daha yerinə yetirməyəcəklər. Qəzalar rayonlara bölünürdü. Rayonların rəhbərliyində mirablar, məliklər, ağalar saxlanıldı. Vilayət idarəsinin rəisi vəzifəsinə A.Çavçavadze təyin edildi. İdarənin üzvlüyünə iki rus hərbiçisi, erməni və azərbaycanlılardan ibarət imtiyazlı təbəqənin nümayəndələri daxil idi. Vilayətin idarəçiliyi, polis, məhkəmə orqanları, maliyyə təsərrüfatı rus hərbiçilərinin, mülki məmurların əlində idi (9, s. 192).

1830-cu ildən "Erməni vilayəti"nin idarəsi əslən erməni olan D.O.Bebutova (Bebutyan) həvalə edildi. D.Bebutov fəaliyyətinin ilk dövründən burada ermənilərin mövqelərini gücləndirməyə başladı (10, s. 41). Azərbaycanlı xanlara, bəylərə, ağalara qarşı güclü bir təqib kampaniyası başladı, idarəetmə metodunda dəyişiklik edildi. D.Bebutovun təkbaşına rəisliyi gücləndirildi, əvvəllər mövcud olan məşvərətçi orqanlar ləğv edildi (4, s. 367).

Ermənilərin təkidi ilə vilayətin yeni statusunun möhkəmləndirilməsi naminə onun gerbi də qəbul olundu. Ermənilərin təkidi ilə qəbul olunmuş bu gerbdə həmin ərazilərin türklərlə bağlılığını xatırladan bir əlamət yox idi. Gerbin aşağı hissəsində Ağrı dağının şəkli çəkilmişdi. Onun fonunda tac və Eçmiədzin (Üçmüəzzin) monastırı, gerbin yuxarı hissəsində isə Rusiya taxt-tacının emble-

mi olan ikibaşlı qartal təsvir edilmişdi. Gerb Rusiya çarı tərəfindən 1833-cü il fevral ayının 27-də təsdiq olundu (6, s. 78).

Çar hökuməti 1833-cü il iyunun 23-də "Erməni vilayəti"nin idarəsinin quruluşu haqqında Əsasnamə qəbul etdi. İrəvan vilayətinin inzibati-ərazi bölgüsündə dəyişiklik edildi. Əyalət dörd dairəyə – İrəvan, Şərur, Sürməli və Sərdarabada bölündü. Dairələr də mahallardan ibarət idi. Naxçıvan əyaləti və Ordubad dairəsi əvvəlki inzibati-ərazi bölgüsündə qalırdı (11, s. 448). Bu Əsasnamə Naxçıvan əyaləti və Ordubad dairəsində polis idarə sistemini olduğu kimi saxladı. Polismeyster təyin olunan Ehsan xan və Şıxəli bəy bilavasitə "Erməni vilayəti" rəisinə tabe idi (7, s. 72). Məhkəmə sistemində dəyişiklik edildi. Naxçıvan əyalət məhkəməsi yaradıldı.

1836-cı ildə "Rusiyanın erməni kilsəsinin idarəedilməsi haqqında Əsasnamə" qəbul edildi. Əsasnamə erməni ruhanilərinin siyasi hüquqlarını konkret çərçivəyə salırdı və onlara dövlət işlərinə qarışmağı qadağan edirdi (4, s. 368). Rusiya ərazisində yaşayan ermənilər yeparxiyada birləşməli idilər. Əsasnaməyə əsasən, Qarabağdakı katolikosluq ləğv olunur və Eçmiədzinin bir yeparxiyasına çevrilirdi. Ermənilər Qarabağ katolikosluğunun müstəqilliyinə son qoydular. Qarabağ yeparxiyası Rusiya ərazisində yaradılan 7 erməni yeparxiyasından birinə çevrildi və tamamilə erməni kilsəsindən asılı vəziyyətə düşdü (6, s. 81-82).

Çar Rusiyasının və onun işğalçılıq siyasətinə xidmət edən ermənilərin Azərbaycan torpaqları olan İrəvan və Naxçıvan əyalətlərini "Erməni vilayəti" kimi qələmə verməsini təkzibedilməz tarixi faktlar rədd edir. Çunki çar Rusiyasının ermənilər İran və Türkiyədən həmin ərazilərə kütləvi surətdə köçürməsindən əvvəl, sonradan "Erməni vilayəti" adlandırılan ərazinin əhalisi 107224 nəfər idi. Əhalinin 76,5 faizini azərbaycanlılar, 24,5 faizini ermənilər təşkil edirdi (5, s. 144). Azərbaycanlıların əhalinin etnik tərkibində bu cür üstünlük təşkil etməsi həmin torpaqların tarixi Azərbaycan ərazisi olduğunu təsdiq edir.

Rusiya-İran (1826-28) və Rusiya-Türkiyə (1828-29) müharibələri dövründə və müharibədən sonra İran və Türkiyədən ermənilərin kütləvi surətdə bu yerlərə köçürülüb gətirilməsinə baxmayaraq, çar hakimiyyət orqanları "Erməni vilayəti" ərazisində demoqrafik vəziyyəti birdən-birə dəyişdirə bilmədi. İrəvan və Naxçıvan xanlıqlarının işğalını həyata keçirmiş rus generalı Paskeviç, hətta ermənilərin köçürülüb gətirilməsindən sonra belə, İrəvan bölgəsi əhalisinin dörddə üç hissəsinin Azərbaycan türkləri olduğunu etiraf edirdi (12, s. 888). Fransız mənşəli rus tədqiqatçısı U.Şopen Paskeviçin tapşırığı ilə 1829-32-ci illərdə "Erməni vilayəti"ndə kameral siyahıyaalma keçirmişdir. Burada kəndlərin və əhalinin sayı göstərilmişdir. "Erməni vilayəti"ndə olan 1125 kəndin 1111-də ancaq Azərbaycan türkləri yaşayırdı (13, s. 26). Müharibə nəticəsində vilayətin ərazisində 359 kənd, o cümlədən 310 kənd İrəvan əyalətində, 42 kənd Naxçıvan əyalətində, 6 kənd Ordubad dairəsində xaraba qalmış, əhalisi didərgin düşmüşdü (11, s. 510).

U.Şopenin kameral təsvirinin nəticəsinə görə, burada 164450 nəfər əhali qeydə alınmışdı. Onlardan 81749 nəfər azərbaycanlılar, 25151 nəfər köçürülməyədək burada yaşayan ermənilərdir. Müharibədən sonra buraya İrandan 35560 nəfər, Türkiyədən isə 21666 nəfər erməni köçürülmüşdü (5, s. 144-145).

Tanınmış rus tədqiqatçısı N.Şavrov ermənilərin Cənubi Qafqaza köçürülməsi prosesini və köçürülüb gətirilmiş ermənilərin sayını araşdırdıqdan sonra 1911-ci ildə yazırdı: "Hazırda Cənubi Qafqazda yaşayan 1 milyon 300 min ermənin 1 milyondan çoxu bu diyarın yerli əhalisi deyil. Onları bura biz köçürüb gətirmişik" (14, s. 63).

"Erməni vilayəti"nin əyalət və dairələrində gəlmə ermənilərin artımı və yerli azərbaycanlıların çar təzyiqinə davam gətirməyərək İran və Türkiyə ərazilərinə köçməsi nəticəsində əhalinin etnik tərkibindəki fərq ermənilərin xeyrinə dəyişirdi. Məsələn, "Erməni vilayəti"ndə Türkmənçay müqaviləsinə qədər 22,5 min erməni yaşayırdısa, sonrakı iki il ərzində onların sayı az qala üç dəfə artdı və 64, 5 min nəfərə çatdırıldı. Naxçıvan əyalətində ermənilərin sayı 2,1 min nəfərdən 1,7 min nəfərə, Ordubad dairəsində isə 1,8 min nəfərdən 3,3 min nəfərə çatdırıldı (15, s. 230). İrəvan əyalətinin 119 kəndinə, Naxçıvan əyalətinin 61 kəndinə, Ordubad dairəsinin 11 kəndinə ermənilər köçürüldü (16, s. 8). Nə qədər erməni köçürülsə də azərbaycanlılar əhalinin böyük əksəriyyətini təşkil edirdi.

Çar hökuməti Şimali Azərbaycanın işğalı zamanı erməni amilindən bir alət kimi istifadə etdi. Ermənilərin çar ordusuna göstərdiyi "xidmət" müqabilində onlara işğal olunmuş Azərbaycan torpaqlarında – İrəvan və Naxçıvan xanlıqlarının ərazilərində "Erməni vilayəti" adlandırılan ərazini "bəxşiş" verdi. Bununla ermənilər çar Rusiyasının himayəsi və köməyi ilə Cənubi Qafqazda özlərinə ərazi bazası yaratdılar.

Çarizmin bu əyalətlərində, bütövlükdə Şimali Azərbaycanda yaratdığı inzibati-idarə sistemi əhali arasında ciddi narazılıq yaradırdı. Buna görə də çar hökuməti vəziyyəti stabilləşdirmək məqsədilə inzibati-idarə sahəsində islahatlar hazırlamağa başladı.

1837-ci ildə senator Qanın sədrliyi altında komisiya göndərildi. Ona yerlərdə müvafiq məlumatlar toplamaq və idarələr yaratmaq üçün lahiyə hazırlamaq göstərişi verilmişdi. Lakin komissiya diyarı öyrənmədən müəyyən təkliflər əsasında islahat lahiyəsini hazırladı. Çar I Nikolay 1840-ci il aprelin 10-da Zaqafqaziya diyarının idarəsi üçün təsisatlar adlı sənədi imzaladı. Çar hökuməti Cənubi Qafqazın işğalını və burada möhkəmlənməklə bağlı siyasətini həyata keçirdikdən sonra 1840-cı il 10 aprel qanunu ilə "Erməni vilayəti"ni ləğv etdi (5, s. 145). Cənubi Qafqazın ərazisi müəyyənləşdirildi və onun idarə edilməsi üçün Gürcüstan-İmeretiya quberniyası və Xəzər vilayəti yaradıldı. Quberniya və vilayət qəzalara, qəzalar sahələrə bölünürdü. İrəvan və Naxçıvan ərazisi çar Rusiyasının inzibati bölgüsünə əsasən "qəza" statusu ilə 1841-ci il yanvarın 1-də Gürcüstan-İmeretiya quberniyasının tərkibinə qatıldı (17, s.101). Ordubad

vilayəti Naxçıvanla birlikdə Naxçıvan qəzasını əmələ gətirirdi (3, s. 44). Naxçıvan qəzası Naxçıvan, Ordubad və Dərələyəz sahəsinə (nahiyəsinə) ayrılırdı.

1840-cı il 10 aprel qanunu yeni idarə sistemi yaratdı, yerli məmurlar vəzifələrindən kənarlaşdırıldı. Bu dəyişikliklər Naxçıvanda da tətbiq edildi, Ehsan xan və Şıxəli bəy vəzifəsindən çıxarıldı. Ehsan xan süvari dəstəsinin komandiri təyin olundu.

Çarizmin Cənubi Qafqazın idarə edilməsi ilə bağlı həyata keçirdiyi islahat özünü doğrultmadı. Əhali bu idarəetmə formasından ciddi narazı idi. Ona görə də çar I Nikolayın göstərişi ilə Qafqazda canişinlik yaradıldı. 1846-cı il 14 dekabr fərmanı verildi. Bu fərmanla Cənubi Qafqazın inzibati-idarə sistemində dəyişiklik edildi. Dörd quberniya – Tiflis, Kutais, Şamaxı və Dərbənd yaradıldı. İrəvan və Naxçıvan qəzalarının tərkibinə daxil olan Naxçıvan bölgəsi də Tiflis quberniyasına verildi. 1849-cu il iyunun 9-da isə İrəvan quberniyası yaradıldı. Quberniyanın təşkilində 5 qəza müəyyən edildi: İrəvan, Aleksandropol, Novobayazit, Naxçıvan və Ordubad. Naxçıvan qəzası Naxçıvan və Dərələyəz sahələrinə (məntəqələrinə) bölünmüşdü. Ordubad qəzası 1870-ci ildə isə Şərur sahəsi Naxçıvan qəzası ilə birləşdirildi. 1874-cü ildə Şərur-Dərələyəz və Sürməli qəzaları yaradıldı. Beləliklə, 1840-cı ildən yaradılan 1841-ci ildən tətbiq edilən quberniya və qəza inzibati-ərazi bölgüsü müxtəlif dəyişikliklərə məruz qalsa da 1917-ci ilə qədər qalmışdır.

Çar Rusiyası Qafqazı, eləcə də Cənubi Qafqazı işğal etmək üçün müəyyən yol və vasitələrdən istifadə etdi. Belə vasitələrdən biri də ermənilər idi. Çarizm ermənilərin "xidmətləri"ni qiymətləndirdi, onlara güzəştlər edildi, dövlətlərini yaratmaq üçün şərait yaratdı, lakin XIX əsrdə bunu reallaşdıra bilmədi. "Erməni vilayəti"ni yaratmaqla qondarma inzibati-ərazi vahidi formalaşdırdı. Bu isə gələcəkdə erməni dövlətinin yaradılmasına hesablanmış bir addım idi.

ƏDƏBİYYAT

1. Köçərli T. Nəqşi-cahan, Naxçıvan. Bakı, 1998, 460 c.
2. Nəcəfli G. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı: Nurlan, 2007, 248 c.
3. Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı: Elm, 2008, 264 c.
4. Süleymanov M. Erməni millətçiliyi və təcəvüzkarlığı tarixindən. Bakı: Hərbi nəşriyyat, 2008, 398 c.
5. Naxçıvan ensklopediyası. 2 cilddə, I c., Naxçıvan, 2005, 358 c.
6. Парсамян В.А. История армянского народа. Кн. I Ереван, 1972.
7. Мильман А. Политический строй Азербайджана в XIX – начале XX веков. Баку, 1966.
8. Собрание актов, относящихся к обозрению истории Армянского народа. Ч.1, М., 1933.

9. Rəhimova A. “Erməni vilayəti”nin tarixşünaslığına dair / “Tarix və onun problemləri” jurnalı. Bakı, 2002, №3, s.190-194.
10. Hacıyev İ. Ermənilərin Naxçıvana qarşı ərazi iddialarının əsassızlığı və tarixi həqiqətlər // Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri. Bakı: Təhsil, 2006, 504 s.
11. Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи. СПб., 1852, 123 с.
12. Акты, собранные Кавказской Археологической Комиссией (АКАК). Тифлис, 1874, т. VII, sənəd 438.
13. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi (AMEA-nın müxbir üzvü Y.Mahmudovun elmi redaktorluğu ilə). Bakı: Çaşıoğlu, 2009, 576 s.
14. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье. СПб., 1911.
15. Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX-начале XX в). Баку, 1999, 300 с.
16. İsmayılov İ. Yaddaşımızın yaralı səhifələri. Bakı: Şirvannəşr, 2000, 106 c.
17. Piriyev V. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı: Müəllim, 2006, 148 c.

Исмаил Гаджиев

ВЫМЫШЛЕННО СОЗДАННАЯ ВРЕМЕННАЯ АДМИНИСТРАТИВНО – УПРАВЛЕНЧЕСКАЯ ЕДИНИЦА «АРМЯНСКАЯ ОБЛАСТЬ»

В статье исследуется формирование и деятельность административно-управленческой единицы «Армянская область», искусственно созданной в обмен за оказанные «услуги» армянами во время захвата Северного Азербайджана и использования армянского фактора царским правительством. На основе фактов доказывается, что «Армянская область» это еще не Армянское государство. Показывается, что переселение армян из Ирана и Турции в Иреванскую и Нахчыванскую области было обдуманным шагом с целью создания в будущем Армянского государства.

Ismail Hajiyev

“ARMENIAN PROVINCE” – PROVISIONAL ADMINISTRATIVE UNITY SET UP IN A CONCOCTION WAY

The tsar government’s use of Armenian factor as an implement during the occupation of North Azerbaijan, the set up and activity of the artificial administrative unity “Armenian province” as a substitute for their “service” is searched in the paper. It is substantiated by the facts the “Armenian province” had not been Armenian state for the time being. It is indicated that the deportation of Armenians from Iran and Turkey to North Azerbaijan territories, especially to Iravan and Nakhchivan provinces was a step counted on the Armenian state to be established.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

EMİN ŞIXƏLİYEV
AMEA Naxçıvan Bölməsi
E-mail: emin.amea@yahoo.com

ERMƏNİ İDDİALARININ PSİXOLOJİ, DİNİ MAHİYYƏTİ

(Redaksiya heyətinin üzvü, t.e.d., prof. F.Y.Səfərli tərəfindən təqdim edilmişdir)

Ermənilər müntəzəm olaraq soyqırımına məruz qaldıqlarını iddia etməkdə və hər il bu məsələni bütün dünya ölkələrinin, xüsusilə də böyük dövlətlərin parlamentlərinin gündəminə gətirməkdədirlər. Əsl həqiqətdə isə ermənilərin iddia etdikləri soyqırımı Osmanlı dövlətinin öz təhlükəsizliyi naminə erməni üsyanlarının və türklərin qətl edilmələrinin qarşısını almaq üçün hazırlamış olduğu müdafiə tədbiri idi. Belə ki, erməni komitələri və partiyalarının fəaliyyətinə son verilmiş, İstanbulda 2345 nəfər erməni terroristi həbs edilmişdir (7, s. 146). Yəni burada heç bir ölüm və cinayət hadisələrindən söhbət gedə bilməz. Əgər söhbət Osmanlılar tərəfindən ermənilərin təhcirindən gedirsə, münaqişə bölgələri ilə münaqişə təhdidi altındakı bölgələrdə yaşayan ermənilərin yerlərinin dəyişdirilməsinə qərar verilən Təhcir (Köç) Qanunu 27 may 1915-ci ildə qəbul edilmişdir (7, s. 41). Qeyd etmək lazımdır ki, bu qanunda "erməni" kəlməsinin olmaması, qanunun sadəcə üsyan və düşmənlərlə əməkdaşlıq edənlərə qarşı çıxarıldığı 3 maddəlik qərarda öz əksini tapmışdır. (8, s. 149). Bu hadisələrin ermənilər tərəfindən soyqırımı olaraq dünya ictimaiyyətinin şüuraltına yerləşdirməyə çalışmaları onların tarixi həqiqətləri necə təhrif etməsi baxımından son dərəcə əhəmiyyətlidir. Məşhur amerikan tədqiqatçısı Səmyuel Uimzin də qeyd etdiyi kimi, ermənilərin "soyqırımı" iddiaları mifoloji təxəyyüldən başqa bir şey olmayıb, sadəcə nağıldır (10, s. 62). Bu iddialar ermənilərin etnopsixoloji xəstəliyinin məhsuludur və onun nəzəri əsasını ermənilərin milli təhlükəsizlikləri üçün başlıca təhdid olaraq qəbul edilən "qonşularından duyulan qorxu" ənənəsi təşkil edir. Bunun səbəbi isə ermənilərin tarix boyunca milli dövlətlərinin olmamasıdır. Ümumilikdə etno-psixoloji xəstəlik vəziyyətini özünəməxsus şəkildə dəyərləndirən görkəmli türk alimi, professor Vamik Volkan belə bir izah verir ki, millətlərin kimliyində keçmişdə əldə etdikləri uğurlar və qarşılaşdıqları faciələr böyük rol oynamaqdadır. Bunlar "seçilmiş zehni psixi xəstəliklər və zəfərlər"dir. Bəzi millətlər seçilmiş olduqlarını düşünərək, tarixi həqiqətlərdən uzaqlaşmaqda və müəyyən mənada mifologiyaya söykənməkdə-

dirlər. Mifoloji təsəvvürlər sıx-sıx yad edilməkdə və nəsildən-nəsilə ötürülməkdədir (11). Düzdür, ermənilərin tarixi keçmişlərində əldə etdikləri uğurlar olmasa da, onlar öz milli kimliklərini qoruyub saxlamaq üçün mifologiyalara söykənməkdə və özlərini buna inandırmaqdadırlar. Bu baxımdan ermənilərdə belə bir zehni-psixi xəstəlik müşahidə olunmaqdadır. Onlar özlərini "qurban edilən millət" olaraq təsəvvür etməkdədirlər. Yəni ermənilər "zavallı və yaxşı", türklər isə "pis və insanlıqdan uzaq məxluqdurlar". Dolayısı ilə "qurban edilən ermənilər" türklər tərəfindən soyqırımına insafsızca məruz qaldıqlarına inanmaqdadırlar. Digər bir ifadə ilə, erməni kimliyi "yaxşının pis tərəfindən məhv edilməsi" anlayışı üzərində qurulmuşdur. Avrasiya Strateji Araşdırmalar Mərkəzinin əməkdaşlarından tədqiqatçı Gündüz Aktan erməni kimliyi ilə bağlı qeyd edir ki, erməni kimliyinin tərifinin əksini isbat etmək onların kimliklərini puç edəcəyi üçün tarixi həqiqətlərə dair məlumatlar zehni bir senzuradan keçirilib rədd edilməkdə və ya görməzdən gəlinməkdədir (1). Bu vəziyyət ermənilərin yaratdıqları öz mifoloji keçmişlərinə fanatik dərəcədə bağlı olduqlarını göstərməkdədir. Bu baxımdan soyqırım iddiaları erməni kimliyini qoruyub saxlamaq və "Böyük Ermənistan" iddiasının reallaşması üçün əldə tutulan ən böyük vasitədir. Halbuki faktiki materiallar ermənilərin soyqırımına məruz qaldıqlarını deyil, əksinə soyqırımını törətdiklərini isbat etməkdədir. 1905-1907, 1918-ci illərdə həm Anadolu türklərinə, həm də Azərbaycan türklərinə qarşı törədilən kütləvi qırğınlar, 1948-1953-cü illərdə azərbaycanlıların deportasiyası məsələsi, 1988-ci illərdən etibarən baş verən hadisələr, Dağlıq Qarabağ, Ermənistan-Azərbaycan münaqişəsi, Xocalı soyqırımı, Azərbaycan torpaqlarının 20 %-nin işğal edilməsi bunun əyani sübutudur. Qeyd etmək lazımdır ki, erməni məsələsi Qərb dövlətlərinin siyasi və dini münasibətləri kontekstində aktuallaşaraq, Türkiyə ilə birlikdə Azərbaycana, daha doğrusu Ermənistan-Azərbaycan münaqişəsinə də təsir etmişdir. İstər ErmənistanTürkiyə, istərsə də Ermənistan-Azərbaycan münasibətlərində ermənilərin mövqeyini dəstəkləyən və bu münasibətini rəsmi orqanlarda sabit strategiyaya çevirən Qərb dövlətləri məsələyə real prinsiplər çərçivəsində yanaşmamaqdadırlar. Erməni məsələsinin davam etməsi əslində Qərbin maraqlarına uyğundur. Şübhəsiz ki, ortada ciddi səbəblər vardır ki, bunlardan biri keçmişdən miras qalan xaçlı zehniyyətidir. Türk tədqiqatçıları Əli Çimen və Göknur Göğebakan isə yazırlar ki, xaçlı səfərlərini təşkil edənlər uzaq diyarlardan gələn qərblilər idi, lakin bu səfərlərə qarşı əvvəlcədən mübarizə aparanlar isə türklər olmuşlar. Xaçlıların 200 ilə yaxın davam edən hakimiyyətlərinə son verənlər də türklər idilər (3, s. 111).

Digər türk tədqiqatçısı Mətin Aydoğan isə göstərir ki, Qərbdə anti-türkiyə və ümumilikdə antitürk bir düşüncənin yayğın olduğu həqiqətdir və bu düşüncə artıq tarixi ənənəyə çevrilmişdir. Türklərin Qərblə münasibətləri 1600 illik müharibə və münaqişələrlə dolu bir keçmişə sahibdir. Orta Asiyadan gələn şimallı Hun axınçıları Qərbi Roma imperiyasının süqutuna səbəb olaraq qul hegemonluğuna əsaslanan İlk Çağı sona çatdırdılar və Orta Əsrlər dövrünü baş-

latdılar. Fateh Sultan Məhəmməd isə Şərqi Roma imperiyasının varlığına son verərək çözülməyə başlayan və qul hegemonluğuna əsaslanan Orta Əsrlərin süqutuna səbəb oldu. Türklər Qərbi Roma imperiyasının süqutundan 1699-cu il Karlovitsa müqaviləsinə qədər tam 1300 il Qərb üzərində qəti üstünlüyünü qoruyub saxladı. Avropalıların xristianlıqdan istifadə edərək təşkil etdikləri Xaçlı Səfərlərinə türklər sinə gərdilər və onları ağır məğlubiyyətə uğratdılar (2, s. 181-182).

Məhz bu baxımdan hal-hazırda türk dünyasına qarşı xaçlı zehniyyətinin formalaşması göründüyü kimi, heç də təsadüfi deyildir. Qənaətimizcə, Ermənistanın Qərb dünyasında dəstəklənməsi və xristian təəssübkeşliyi məsələsi ümumi antitürk mövqe çərçivəsində dəyərləndirilə bilər. Ermənistanın Qərb dövlətləri tərəfindən dəstəklənməsinin digər bir səbəbi isə Qərb-xristian dünyasının şüuraltında gizlənən "günahlardan arınma və ya təmizlənmə" psixologiyasından qaynaqlanır. Məsələyə açıqlıq gətirmək üçün yenə də keçmişə ekskurs etməyi son dərəcə vacib hesab edirik.

Məlum olduğu kimi, xristian Avropa ölkələri yəhudiləri Hz. İsanın, dolayısı ilə Tanrının qatilləri (Godkiller) olaraq görmüş və bu səbəbdən ilk günah inancında olduğu kimi, bütün yəhudi nəslini məsul tutmuşlar (4, s. 381). Beləliklə, Tanrının öldürülməsi günahından təmizlənməsi mümkün olmayan qanı kirli ikinci dərəcəli insanlar sinfi kimi tanınan yəhudilər ən aşağı irq olaraq qəbul edilmişlər. Qeyd edək ki, eramızdan əvvəlki dövrlərdə də Assuriya, Babil və Roma tərəfindən sürgünə məruz qalan yəhudilər 1290-cı ildə İngiltərədən, 1394-cü ildə Fransadan, 1492-ci ildə də İspaniyadan deportasiya edilmişdilər. Yəhudilərin deportasiya edilmələri onların dini səbəblərdən qovulması şəklində xarakterizə olunmaqdadır (12, s. 132). Nəticədə antisemitizm ideologiyası formalaşmışdır. XX əsrin əvvəllərində də nasistlərin idarəsi altında alman yəhudilərinin vətəndaşlıqları əllərindən alınmış və müxtəlif vəzifələrə gəlmələri qadağan edilmişdir. İkinci Dünya müharibəsinin başlanması ilə yəhudilərin kütləvi surətdə öldürülmələrinə hökm verilmiş və beləliklə, musəvi yəhudilərin Nasist Almaniyası tərəfindən soyqırımı gerçəkləşdirilmişdir (6, s. 13-31; 9, s. 13-40). Yəhudi soyqırımında məsuliyyət bilavasitə Almaniyanın üzərinə düşsə də, xristian olmaları səbəbi ilə ümumilikdə Qərb-xristian dünyası günahkarlıq duyğusuna qapılmışdır. Yəhudilərə qarşı törədilən xolokostun (yəhudi soyqırımının) Qərb-xristian şüuru üzərindəki təsirləri o qədər dərindir ki, onun səbəb olduğu dərin psixoloji gərginlik xristianların həssasiyyətinə toxunmuş və bu təsir üstündən illər keçsə də, özlərini günahkar hiss etmələrinə yol açmışdır. Onların erməni məsələsinə baxışı daha çox bu şüurun bilavasitə tarixdən miras qalmış hadisələri ilə əlaqəlidir. Bu günahlardan arınmaq üçün guya türklər tərəfindən törədilən qondarma "erməni soyqırımı"nın yəhudi soyqırımına öncülük təşkil etdiyi iddiası ortaya atılmış, hətta musəvilərin məhv edildiyi qaz otaqlarının türklər tərəfindən icad edildiyi və Hitlerin belə bir addım atmasında türklərin başlıca rol oynadığı da iddia edilmişdir. "Hitler soyqırımı türklərdən öy-

rəndi" şüarı əsl həqiqətdə "biz əslində belə cinayətlərə yol vermərik, bu işdə müsəlman türklərin barmağı var" məntiqiylə işləyən bir mexanizma ilə günahlardan arınma metoduna baş vurulmuşdur. Yəni burada musəvilərin düşməni olaraq xristianlar deyil, guya xristianlara yol göstərən və onları cinayətlərə sövq edən müsəlman türklər göstərilir. Halbuki yəhudi mənşəli amerikalı tarixçi Daqobert Ranesin sözləri bu iddiaları kökündən təkzib etməkdədir. Valideynləri İkinci Dünya müharibəsi dövründə nasistlər tərəfindən öldürülən müəllif yəhudi soyqırımı barəsində xristian kilsəsini ittiham edərək deyirdi: "Hitlerin musəvilərə qarşı törətdiyi vəhşi cinayətlər onsuz da daha əvvəllər xristian kilsəsi tərəfindən yəhudilərə tətbiq edilirdi. Bu ilk zərbə deyildi... Musəvi kitablarının və yəhudilərin yandırılması... Hitler bunların hamısını kilsədən öyrəndi. Keçmiş dövrlərdə kilsə yəhudi uşaqlarını və qadınları diri-diri yandırarkən, Hitler onlara daha sürətli ölüm bağışladı. Əvvəlcə qaz otaqlarında öldürdü, sonra da yandırdı" (5, s. 109).

"Müqəddəs dəhşət: dini cinayətlər tarixi" kitabının müəllifi Ceyms A.Haut təkzibedilməz materiallar əsasında yazır ki, insanlıq tarixinin ən əffedilməz ləkələrindən olan nasistlər tərəfindən yəhudilərə qarşı tətbiq edilən soyqırımı cinayəti eyni zamanda dini zəmində də gerçəkləşdirilmişdir. Bu cinayət əsrlərdir xristianlığın musəvilik haqqındakı təlimlərinin acı meyvəsi idi. Əgər Tanrının adından musəvilərə qarşı nifrət aşılanmamış olsaydı, bu cinayətlər baş verməzdi. Nasistlər eyni ilə xristian ənənələrinə görə hərəkət etdilər. Hitlerin törətdiyi soyqırımı musəvilərə qarşı uzun illərdən bəri qidalanan nifrətin ən yüksək həddi idi (5, s. 105-106).

Xristian rahibləri və ümumilikdə kilsə tərəfindən insanların beyinlərinin musəvi düşmənçiliyi ilə doldurulduğunu da qeyd edən Ceyms A. Haut onu da yazır ki, din xadimləri sizə kimi öldürəcəyinizi söyləməz, sadəcə kimdən nifrət edəcəyinizi deyərlər. Kilsə daim gənclərə onların ən həssas dövrlərində musəvilərin İsanı öldürdüyünü və bu səbəblə Tanrının yəhudiləri əbədiyyətə qədər lənətlədiyini öyrətmişdir. 2 min il boyunca musəvilərə qarşı törədilən bütün cinayətlərdə kilsənin barmağı vardır. Harada xristian kilsəsi varsa, orada musəvi düşmənçiliyi vardır. Nasistlər də hakimiyyətə gəldiklərində öz cinayətlərini məhz bu reallıq üzərində qurdular (5, s. 109-110).

Ortaya çıxan məqam budur: müəyyən mənada Qərb-xristian dünyası günahlardan arınmaq və özlərinə bəraət qazandırmaq üçün tarixdə ilk soyqırımını törədənlərin xristianlar deyil, ilk dəfə məhz xristian ermənləri soyqırımına məruz qoyan müsəlman türklər olduğunu iddia etməkdədirlər. Bu baxımdan Qərb-xristian ictimaiyyətinin nəzərində öz dini və siyasi mənafelərinə uyğun olaraq ermənilərə xüsusi rəğbət yaratmaq məqsədi ilə *"xristianliği rəsmən qəbul edən ilk dövlət və millət Ermənistan və ermənilərdir. Tarixdə ilk dəfə xristian ermənilər müsəlman türklər tərəfindən soyqırımına məruz qalmışlar"* şəklində təbliğatlara geniş yer ayırmaqdadırlar.

Şübhəsiz ki, məhz "tarixdən miras qalan xaçlı zehniyyəti və keçmişdə törətdikləri günahlardan təmizlənmə metodologiyası" kimi amillər qondarma erməni soyqırımının hər il beynəlxalq arenada dünya ölkələrinin parlamentlərinin gündəminə gətirilməsi və müzakirə edilməsinin əsas səbəblərindəndir. Yuxarıda sadalanan amillərdən yola çıxaraq belə bir nəticəyə gəlmək mümkündür ki, işin içinə keçmişdən miras qalan düşmənçilik hissləri, "xristian qardaşlığı və təəssübkeşliyi" girdiyinə görə, bu dövlətlərlə Ermənistan arasındakı məsafə azalmaqda və birlikdə fəaliyyət göstərə bilməkdədirlər. Azərbaycan üzərindəki beynəlxalq təzyiqlərin artmasının səbəblərini də məhz bu amillərdə axtarmaq lazımdır. Düzdür, keçmişdən miras qalan düşmənçilik hissləri Azərbaycandan daha çox Türkiyəyə şamil olunur. Lakin ortada qlobal erməni məsələsi olunca, bu amil dolaylı olaraq öz növbəsində Azərbaycana da təsir edir. Bir tərəfdən Azərbaycan həm Türk və İslam dünyasının bir parçasıdır, digər tərəfdən də müharibə Qərbin maraqlarına cavab verən Ermənistanla aparılmaqdadır. Məhz bu baxımdan Ermənistan-Azərbaycan münaqişəsində əsas diqqət və dəstək Ermənistana verilməkdədir. Azərbaycanın cəlb olunduğu münaqişə lokal Ermənistan-Azərbaycan münaqişəsi çərçivəsində deyil, qlobal erməni məsələsi çərçivəsində diqqəti cəlb etməkdədir. Əslində bu, keçmişdən miras qalan xristian Qərb-Türkiyə qarşıdurmasının əsas tərkib hissəsidir. Burada Ermənistan Qərb dövlətlərinin maraqlarının icraçısı, Azərbaycan isə əsas məqsəd, yəni onların maraqlarının gerçəkləşməsi yolunda kiçik maneədir. Əgər münaqişədə Azərbaycan lehinə qərarlar qəbul edilərsə və ya Ermənistana təzyiqlər göstərilərsə, o zaman "erməni kartı" qismən də olsa zəifləyər və "günahlardan arınma metodologiyası" iflas edə bilər. Yəni din faktoru sırf xristian ermənilərə göstərilən rəğbətdən deyil, türklərə qarşı xaçlı zehniyyətindən, kökü xristian-yəhudi düşmənçiliyinə əsaslanan günah duyğularından və əbədi ləkədən qurtulmaq prinsiplərindən qaynaqlanır.

ƏDƏBİYYAT

1. Aktan Gündüz. Erməni olayları və kimlik sorunu. "Radikal" qəz., 2000, 04 Ekim.
2. Aydoğan Metin. Bitmeyen oyun: Türkiye'yi bekleyen tehlikeler. İstanbul: Kumsaati yayınları, 2003, 422 s.
3. Çimen Ali, Göğebakan Göknur. Tarihi değiştiren savaşlar. İstanbul: Timaş yayınları, 2009, 432 s.
4. Davutoğlu Ahmet. Stratejik derinlik: Türkiye'nin uluslararası konumu. İstanbul: Küre yayınları, 2010, 584 s.
5. Haught James A. Kutsal dehşet: dinsel cinayetler tarihi. İstanbul: Aykırı yayınları, 1999, 160 s.
6. Marschalko Louis. Yahudi. İstanbul: Sebil yayınevi, 1993, 333 s.
7. Metel Ali Balkan. Ermeni mezalimi ve gerçekler. İstanbul: Yeni Batı Trakya

Dergisi yayınları, seri №6, 207 s.
8. Özkan Zafer. Tarihsel akış içerisinde terörden politikaya ermeni meselesi. İstanbul: Er Ofset San. ve Tic. AŞ, 2001, 282 s.
9. Uğur Ali. Dünya gündemindeki İsrail. İstanbul: Burak yayınevi, 1998, 224 s.
10. Uimz Səmyuel A. Ermənistan – terrorçu "xristian" ölkənin gizlinləri. Bakı: OKA Ofset Azərbaycan-Türkiyə Nəşriyyat-Poliqrafiya şirkəti, 2004, 386 s.
11. Vamık Volkan. Center for Development Research (ZEF Bonn): Facing Ethnic Conflicts, 14-16 December 2000. http://www.zef.de/download/ethnic_conflict/volkan.pdf
12. Yahya Harun. Kabala ve masonluk. İstanbul: Araştırma yayıncılık, 2003, 688 s.

Эмин Шихалиев

СУТЬ РЕЛИГИОЗНЫХ И ПСИХОЛОГИЧЕСКИХ ПРИТЕНЗИЙ АРМЯН

В статье изучается армянский вопрос и суть психологии и религии. К этой проблеме надо относиться в психологическом и религиозном контексте, но и одновременно в аспекте расизма. Это истина, что на Западе распространена антитурецкая неприязнь, которая превратилась в историческую традицию. Являющийся важным фактором турецкой вражды, оказал свое влияние не только на Турцию но и на Азербайджан. Так как Азербайджан является частью тюркского и исламского мира, в армянско-азербайджанском конфликте поддерживается армянская сторона.

Emin Shikhaliyev

THE PSYCHOLOGICAL AND RELIGIOUS ESSENCE OF THE ARMENIAN CLAIMS

In this article was researched the psychological and religious essence of the Armenian question. It is necessary to look at the problem not only from psychological and religious context, at the same time from point of view racialism. This is in fact it has widely spread generally Turkish opposition thought in the West and this thought have been turned to historical tradition. This mentality basic composition part of the Turkish hostility has influenced not only Turkey, at the same time Azerbaijan. Azerbaijan is the part of the Turkish and Islam world. From this viewpoint support is shown to the Armenia in Armenian-Azerbaijan conflict.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

YAŞAR RƏHİMOV
AMEA Naxçıvan Bölməsi
E-mail: yrahimov@yahoo.com

KONSTANTIN NİKİTİNİN "NAXÇIVAN ŞƏHƏRİ VƏ NAXÇIVAN QƏZASI" MƏQALƏSI NAXÇIVAN BÖLGƏSİ TARİXİNİN MƏNBƏYİ KİMİ

(Akademik İ.M.Hacıyev tərəfindən təqdim edilmişdir)

XIX əsrdə Naxçıvanda olmuş rus müəlliflərinin diyarın tarixinə həsr olunmuş əsərləri böyük maraq doğurur. Bu dövrün Naxçıvan tarixinin bir çox problemlərini əks etdirən yazılı mənbələrdən biri də K.A.Nikitinin "Naxçıvan şəhəri və Naxçıvan qəzası" adlı məqaləsidir. Bu məqalə 1882-ci ildə "Qafqaz ölkəsi və tayfalarının təsviri üçün materiallar" adlanan məcmuənin ikinci buraxılışında nəşr edilmişdir. 129 il öncə Tiflisin Qafqaz Təhsil Dairəsi idarəsinin nəşriyyatında nəşr edilmiş bu məqalə Naxçıvan bölgəsinin tarixi ücün qiymətli bir mənbədir. Məqalə bir bölmədən, 33 səhifədən ibarətdir.

Məqalənin başlanğıcında Naxçıvan şəhərinin mövqeyi, tarixi abidələri, Nuh peyğəmbərlə, dunya tufanı, Nuhun gəmisi haqqındakı əfsanə və rəvayətlərdə Naxçıvanın özunəməxsus yer tutması təsvir olunmuşdur. Naxçıvan şəhərinin çox qədim tarixə malik olduğunu qeyd edən rus muəllifi Konstantin Nikitin göstərir ki, Naxçıvan şəhəri müxtəlif şərq xalqlarının rəvayətlərində izləri qalan və Bibliyada yazılan bəşər tarixinin və onunla birlikdə böyük dünyəvi hadisələrin baş verdiyi bir mövqedə yerləşmişdir. 6-cı səhifədə göstərilir ki, 610-cu ildə Bizansda hakimiyyətə gələn imperator II İrakli Sasanilərə qarşı yürüşdə Sasani hökmdarı II Xosrova qarşı döyüşdə Naxçıvan qalasını dağıtmışdır. Bundan başqa, digər Bizans imperatoru II Vasili (975-1025) Vaspurakan vilayəti ilə birlikdə Naxçıvanı da yandıraraq dağıtmışdır. XIII əsrdə monqollar şəhəri qarət etmiş, XIV yüzillikdə (1360-cı ildə) türk sultanı Muradın, həmin əsrdə Teymurun oğlu Miranşahın hakimiyyəti altına keçmişdir. Bütün bu hadisələr Naxçıvan şəhərinin tənəzzülünə səbəb olmuşdur. Şəhər əldən-ələ keçmiş, yerli əhali qarətə, köləliyə və ölümə məruz qalmışdı.

Mənbədə göstərilir ki, Makedoniyalı İsgəndər, Atilla başda olmaqla hunlar, Çingiz xan və Teymurləng öz qüdrətli orduları ilə bu şəhərdən keçib getmişlər. Naxçıvan şəhəri Nadir şahın dövründə də dağıdılmış və bu şəhərdə

daşın üstündə daş qalmamışdır. Ancaq şəhər əvvəlki vəziyyətdə olmasa da bərpa edilmişdir. Rus müəllifi K.A.Nikitin yazırdı ki, hər dağıntıdan sonra bu şəhər əvvəlki görkəmi ilə olmasa da, əfsanəvi simurq quşu kimi yenidən dirçəlirdi. O, XVIII və XIX əsrlərə özünün əvvəlki zənginliyi və gözəlliyini tamamilə itirmiş bir şəhər kimi daxil olmuşdu. Özünün keçmiş gözəlliyini və ticarət şöhrətini itirmiş Naxçıvan şəhərində əhalinin sayı 150 mindən 6 minə enmişdir. 10 fevral 1828-ci ilə qədər İran dövlətinin tabeliyində olmuş, ancaq Türkmənçay müqaviləsindən sonra Rusiyaya birləşdirilmişdir.

Müəllif şəhərin qədimliyini sübut edən abidələr içərisində Naxçıvan duz mədənlərindən tapılmış daş balta və külüngləri xüsusi qeyd edir. Bu daş balta və külünglər 1870-ci ildə Naxçıvan duz mədənlərindən tapılmışdır. Buradakı duz mədəninin nəzarətçisi olan Beyer həmin baltalardan 2 ədədini Naxçıvan şəhər məktəbinə bağışlamış, qalanlarını isə Peterburq və Tiflis muzeylərinə göndərmişdir. Bu baltalardan duz çıxarılmasında istifadə olunmuşdur.

Tədqiqata cəlb olunan mənbədə Naxçıvan şəhərinin diqqəti cəlb edən aşağıdakı tarixi abidələrinin adları sadalanır:

1) Şəhərin cənub hissəsində köhnə qala abidəsinin dağılmış divarları-bu abidə iranlıların işğalından az sonra tikilmişdir. 2) Məscid-Naxçıvandan Ordubada gedən yolun üstündə yerləşir. Məscidin yanında, künc tərəfdə 2 minarə vardır. 3) Məscidin yanındakı qüllə – on bərabərüzlü prizma şəklindədir. Atabəyin birinci vəzirinin qabağında tikilmişdir. 4) Kiçik qüllə-şəhərdən Ordubada gedən yolun üstündə yerləşir. Onun yanındakı məscid müsəlmanlar tərəfindən müqəddəs bir yer kimi istifadə olunur. 5) 1322-ci ilə aid olan qızıl fars medalı üstündə ərəb dilində yazısı var. Bu medal Naxçıvan şəhərinin köhnə hissəsindən qazıntı zamanı tapılmışdır. 6) Dördbucaqlı qızıl lövhə-rombformalı olub, qazıntı zamanı şəhərin həmin hissəsindən tapılmışdır. 7) Abbasabad qalası – Naxçıvanın cənub-şərq hissəsində, Araz cayının sahilindən 8 verst kənarda yerləşir. Qala İrəvanın tutulmasından sonra 1828-ci ildə Paskeviç tərəfindən dağıdılmışdır. 8) Qızılburun-Naxçıvan şəhərinin cənub-şərqində, Araz çayından 12 verst kənarda axırıncı vadinin çıxışında yerləşir. Yaxınlıqdakı dərənin yanında qırmızı dördbucaqlı daşdan tikilmiş qala vardır.

Məqalənin 10-cu səhifəsindən başlayaraq Naxçıvan şəhərinin sərhədləri, çayları, su mənbələri, iqlimi, bağçılıq, şəhərin xarici görünüşü, əhalisi haqqında maraqlı məlumatlar verilir. Mənbə Naxçıvanın İrəvan quberniyasının şəhəri olduğunu və Araz çayından 8 verst kənarda yerləşdiyini göstərir. Burada göstərilir ki, Naxçıvan şəhərinin tam mərkəzindən keçən çaydan çəkilən arx vasitəsilə şəhərin bütün zəmiləri, bağları, bostanları suvarılırdı. Naxçıvançay bütün uzunluğu boyu ətrafında yaşayan sakinlər tərəfindən istifadə olunur. Çay yayda – dəhşətli istilərdə o dərəcədə quruyur ki, balaca bir bulağa çevrilir. Bu cür su çatışmazlığı zamanı şəhərdə yaşanan həyəcan insanların suya olan ümumi tələbatından doğur. Rus müəllifi K.Nikitin suyu bölüşdürmək üçün səlahiyyətləri olan mirab və cuvarlardan bəhs edərək yazırdı: Şəhər boyu mövcud suyu bö-

lüşdürmək və paylaşdırmaq üçün onlara bütün səlahiyyətlər verilmişdir. Çox vaxt müştərilərlə mirablar arasında dava düşür və haray-həşir qopur. Bu cür xoşagəlməz hallar suyu öz bağlarına, bostanlarına və təsərrüfatlarına aparmaq istəyən şəxslərlə adi işçilər arasında da olur. Şəhər əhalisinin içməli su ilə təhcizatı haqqındakı məsələ maraq doğurur. Mənbədən aydın olur ki, Naxçıvan qəza məktəbinin nəzarətçisi olan bir əylislinin 1860-cı ildə öz xərci hesabına çəkdirdiyi su boruları vasitəsilə şəhər əhalisinin içməli suya olan tələbatı ödənilirmiş. İçməli su şəhərə suçular tərəfindən adi qaydada iki ulaq vasitəsilə daşınırdı. Hər ulaq dörd ədəd küplə təhciz olunur. Həmin dörd küpdə olan suyun ümumi qiyməti 4-5 qəpikdir. Şəhərin qərb və cənub hissəsində yerləşən iki bulağın suyundan da istifadə olunur. Hər iki bulağın suyu təmiz və keyfiyyətlidir.

Mənbədən aydın olur ki, şəhərdə bütün evlər birmərtəbəlidir, onlar yastı damlarla örtülü olub, küçə tərəfdən gildən tikilmiş hündür divarlarla əhatə olunmuşdur. Küçələr dar, əyri və çirkli olduğundan şəhər hədsiz dərəcədə yaraşıqsız və kədərli görkəmə malikdir. Şəhərdəki bütün əyri küçələri dolansan da boz-sarı divarlardan başqa heç nəyə rast gələ bilməzsən. Naxçıvanda memarlıq baxımından çox sadə görünüşü olan dörd məscid var və onlar Asiya üslubunda tikilmişlər.

K.A.Nikitinin Naxçıvan şəhərində yaşayan əhalini cinsinə, tərkibinə, dininə və sənətinə görə tərtib etdiyi cədvəl diqqəti cəlb edir. Həmin cədvəldən məlum olur ki, bu dövrdə Naxçıvanda 6877 nəfər yaşayırmış. Onlardan 3720 nəfər kişi cinsli, 3157 nəfər isə qadın cinsli idi. Lakin mənbədə verilən rəqəmləri olduğu kimi qəbul etmək düzgün olmaz. Çünki rus müəllifinin tərtib etdiyi cədvəldə Naxçıvan şəhərində yaşayan əhali belə qruplaşdırılmışdır: hərbçilər-204 nəfər, məmurlar-77, tacirlər-360 nəfər, sənətkarlar-120, torpaq sahəsi olanlar və fəhlələr-2953 nəfər. Əgər 409 nəfər məmuru və 198 nəfər dini rütbəlini 7177-yə əlavə etsək, onda Naxçıvan şəhərində yaşayan əhalinin sayı 8000 nəfər olar. Cədvəldən o da məlum olur ki, Naxcıvan şəhərində yaşayan əhalinin 4697 nəfərini və ya bütün əhalinin 2/3 hissəsini müsəlmanlar (tatarlar) təşkil edirmiş. Fikrimizcə, bu rəqəmləri reallıq kimi qəbul etmək, onlara inanmaq düzgün olmazdı. Bunun da əsas səbəbi digər rus müəllifləri kimi Naxçıvan şəhər məktəbinin inspektoru Nikitinin erməni və ermənipərəst müəlliflərdən aldığı material və məlumatlardan istifadə etməsi olmuşdur. Məqalədə rast gəldiyimiz bu cür hallar, xüsusilə əhalinin sayı və tərkibi haqqında verilən yanlış fikirlər məqalənin elmi əhəmiyyətini azaldır. Erməni mənşəli tərcüməçilərin verdikləri məlumat və materiallar bütün tədqiqatlarda tənqid süzgəcindən keçirilməklə, dəqiq və hərtərəfli araşdırılmalıdır.

K.A.Nikitinin "Naxçıvan şəhəri və Naxçıvan qəzası" adlı məqaləsində XIX əsrin sonlarında Naxçıvan şəhərində istifadə edilən çəki (dolya, nuxud, misqal, bisti, çərək, batman, xarvar və s.), ölçü (mşkan, ponza, siya, çərək, batman) və uzunluq vahidləri (qrek, siya, ağac və s.) haqqında ətraflı məlumat verilir. Həmin çəki, ölçü və uzunluq vahidlərinin müasir dövrdə maraq doğurdu-

ğunu nəzərə alıb, onların bir neçəsinin miqdarını göstərməyi məqsədəuyğun hesab edirik. Nuxud=3,698 dolyaya (dolya-44 milliqrama bərabər rus çəki ölçüsü), misqal=28 nuxuda, stil=50 misqala və ya 1400 nuxuda, bisti=800 misqala və ya 1400 nuxuda, çərək=4 bistiyə, batman=4 çərəyə, xarvar=25 batmana bərabər idi.

Məqalənin 19-cu səhifəsindən başlayaraq Naxçıvan qəzasının sərhədləri, mövqeyi, ərazisi, su mənbələri və suvarma sistemi, əhalisi, onun məşğuliyyəti, sənayesi, mineral suları, duz sənayesi və s. haqqında məlumat verilir. Qəzanın sərhədlərindən bəhs edən müəllif yazır ki, Naxçıvan qəzasının ərazisi: şimaldan Dərələyəz dağları onu qonşu Şərur-Dərələyəz qəzasından ayırır. Şərqdə qəzanı Zəngəzur qəzasından ayıran Qarabağ dağları, cənub və cənub-qərbdə İran sərhədi ilə axan Araz çayı, şimal-qərbdə Şərur düzənliyinin cənub hissəsi ilə sərhədlənmişdir. Naxçıvan qəzası bütün Qafqazda ən məhsuldar və bərəkətli torpaqları olan qəzalardan biridir. Lakin su catışmazlığı hər yerdə hiss olunur. Müəllif yazır ki, həqiqətən də Şaxtaxtıdan Abbasabada (50 verstlik məsafə) və Naxçıvan çaydan Culfaya qədər olan ərazidə nə bir çay, nə də bir kanal vardır. Su təminatı baxımından Naxçıvan qəzasının ərazisindən 3 kiçik çay axardı: bunlar Naxçıvan çay, Əlincə çay və Gilan çaydır. Qəzanın ən böyük çayı isə Araz çayıdır. Nüvədiçay, Ordubadçay və Vənənd çaylarının da adlarını çəkən müəllif onları o qədər də əhəmiyyətli hesab etmir. Şahtaxtı və Qarğalıq (mənbədə Karaqlu kimi göstərilib) arasındakı 10 verstlik bir ərazidə hər iki tərəfdən Araza kiçik dağ çayları tökülür. Qarğalıq postundan 2 verst aşağıda Araz çayı üzərində salınmış iki körpü diqqəti cəlb edir. Qıvraq kəndindən cənuba tərəf Araz cayı boyunca Naxçıvana qədər olan ərazi münbit olmayan və bitki bitməyən yerlərdir. Məskunlaşmamış və bərəkətsiz olan bu yerlər kədər və təəssüf hissi doğursa da, Naxçıvan duz mədənləri burada yerləşir.

Mənbədə qəzada olan kecid-gömrük məntəqələri və ticarət haqqındakı məlumatlar maraq doğurur. 22-ci səhifədə göstərilir ki, qəzada Araz çayının axını Şərur gömrük-karantin sərhəd xidmətinin yerləşdiyi Şahtaxtı kəndindən başlayır. Maku, Xoy və Səlmasdan gələn İran malları karvan yolu ilə bu məntəqədən keçirilir. Bu yol ilə ildə 200.000 manat (rubl) dəyərində mal gətirilir. Burada həm də Arazı kecmək üçün bərə keçidi qurulmuşdu. Culfa keçid məntəqəsindən bəhs edən müəllif yazır ki, Arazın şimalında yerləşən Culfa keçid məntəqəsi İrandan Qafqaza gedən əsas karvan yollarının üzərindədir. İndi bu yolla ildə tərkibində 100-dək dəvə, at olan 80-90 karvan gedir. Bu karvanlara yüklənmiş iran və türk malları 1.600.000 manat dəyərindədir. Bu ticarət Naxçıvan gömrüyü ilə keçirilir. K.A.Nikitin Naxçıvan qəzasında əhalinin məskunlaşdığı ərazini üç hissəyə bölür; birinci hissə Naxçıvan şəhərinin mərkəzindən Naxçıvançayın yuxarı axarına qədər idi. İkinci hissə Culfadan başlayaraq Ordubad da daxil olmaqla, Mehri istiqamətinə qədər uzanırdı. Nəhayət, əhalinin ən az məskunlaşdığı sonuncu hissə Əlincəçayın ətrafında idi. Naxçıvan düzənliyinin qalan hissəsi susuz, meşəsiz və bitki bitməyən ərazilərdən ibarət idi.

Qəzada 36 min nəfər yaşayırdı. Başqa sözlə, hər bir kv. verstə 8 nəfər düşürdü. Məskunlaşmış ərazi 210 kv. verst və ya bütün ərazinin iyirmidən bir (1/20) hissəsini təşkil edirdi. Əhalinin əsas məşğuliyyət sahələri taxılçılıq, bağçılıq, bostançılıq, arıçılıq və ipəkçilikdir. Qəzada əkinə yararlı torpaqlar 53.000 desyatindir. Kənd təsərrüfatında əsas sahə bağçılıqdır. Aşağıdakı meyvə bağları vardır: ərik, alça, üzüm bağları. Naxçıvan qəzasında üzüm bağları daha geniş sahələri əhatə edir. Qəzada çox az yer olar ki, Naxçıvanda olduğu qədər çoxlu və bol üzümü olsun. Burada özünün rənginə, böyüklüyünə, forma və keyfiyyətinə görə 60 növdə üzüm vardır. Ağ, qara, qırmızı, çəhrayı, yaşıl, göy, açıq sarı, sarı rəngli üzümlər bu qəbildəndir. Müxtəlifliyinə görə bu növ üzümlər yerli adlarla adlandırılır. Məs: zeyni, xəlili, kişmişi, haça-baş, əsgəri, səbzi, xərci, misqalı, şir-şiri, təbərzə, kərim-kəndi, qulama və s. Bunların içərisində şirniyyat və ya çərəz üçün ən yaxşısı əsgəri üzümüdür, haça-baş adlı üzüm növünü isə qışadək saxlamaq mümkündür. Naxçıvan üzümündən hazırlanmış şərab dad və keyfiyyətinə görə kaxetiyadakından da üstündür. Naxçıvan şərabı hətta xarici xeres və madar şərablarından da tərifəlayiqdir.

Müəllif göstərir ki, son zamanlar tütün istehsalı da artırıldı: hazırda onun bir pudu 10-30 manatdır. Qəzada arıçılıq və balıqçılıq o qədər də mühüm əhəmiyyət kəsb etmir. Araz çayında sazan və som, dağ caylarında isə kiçik, ancaq dadlı forel balıqları olur.

İndi burada barama qurdlarının xəstəliyinə görə ipəkçilik tənəzzül dövrünü kəçirir. Qəzada Amerika pambığından da üstün olan pambıqçılıq inkişaf etdirilir.

Sənayenin əhatə dairəsi o qədər də geniş deyil. Evdar qadınlar yun və həsir məmulatı, xalçalar, kəndirlər toxumaqla məşğul olurdular. Qəzada primitiv texnikaya əsaslanan sənaye sahələri çox məhdud şəkildə idi. Aşağıdakı rəqəmlər əhalinin yaşayış və güzəranından xəbər verir: qəzada 4 min at, 20 min iribuynuzlu, 33 min qoyun və 11 min keçi var idi.

Qəza minerallar cəhətdən çox zəngin idi. Naxçıvan şəhəri yaxınlığında yüksək keyfiyyətli gips hasil olunurdu. Qızılburunda və Culfa yaxınlığında qırmızı qum və kiçik daşlar çıxarılırdı. Biçənək kəndinin yaxınlığında kükürd zavodu var idi. Qəzanın bir çox yerində dəmir və mis filizinə, Dərələyəz dağlarında isə qurğuşun və gümüş filizinə rast gəlmək mümkündür. Culfa yaxınlığında hasil olunan zəy və mərgümüşdən qarışdırılaraq alınan sarı rəngli maddə (nura yağı) saçların və tüklərin müalicəsində əlverişli hesab edilirdi.

Qəza minerallar cəhətdən də varlıdır. Sirab kəndində çoxsaylı karbon tərkibli mineral sular vardır. Naxçıvandan 7 verst kənarda dağ çaylarının axdığı təpədə "Naxşı-Nərgiz" adlı mineral su bulaqlarına Biçənək kəndi (Gömür kəndi ilə Gecəzurun arasında) yaxınlığında daha çox rast gəlinir. Tərkibində çoxlu dəmir olan bu mineral sular Şuşa yaxınlığında çıxan suları xatırladır. Bar-bərəkəti ilə seçilən Naxçıvan qəzasının rəqibi müxtəlif növlü mineral sulara görə qonşu Dərələyəz qəzasıdır. Burada həmçinin digər minerallara – müxtəlif rəngli gilə

(onun bir növündən sabun əvəzinə istifadə edilirdi) obsidiana, mərmərə, saxsı gilə, zəyə, dağ daşlarının müxtəlif formalarına rast gəlinir.

Məqalənin son səhifələrində verilmiş Naxçıvan duz sənayesi, Culfa, tumbulluların xarakteri adlı yarımbaşlıq diqqəti cəlb edir. Burada yazılır ki, İrəvandan Naxçıvana gedən yolda təpələr, yüksəkliklər və bitki örtüyündən məhrum olan bir ərazi ilə qarşılaşırıq. Naxçıvana 12-15 verst qalmış yolun sol tərəfində Naxçıvan duz sənayesi adlandırılan daş duz yataqları vardır. Su olmadığına görə bu ərazidə heç bir sakin və kənd yoxdur. Məmurlar, fəhlələr, duzçıxaranlar torpaq qazmalarda yerləşirlər. Suyu Naxçıvandan 12 verst kənar olan bir ərazidən gətirirlər. K.Nikitin duz hissələrinin və parçalarının ən çox gilli dağların tərkibində olduğunu və duz qatlarının qalınlığı və kipliyinin heç də hər yerdə eyni olmadığını qeyd edir. Müəllif yazır ki, yolun lap kənarında yerləşən birinci mağaranın yarısı dağıldığı üçün o yararsızdır. Dağların mərkəzində yerləşən və indi duz çıxarılan ikinci mağara isə çox dərində olduğu üçün orada işıqsız işləmək mümkün deyil. Heç bir işçidən duzun müəyyən edilmiş həcmdə və miqdarda çıxarılması tələb edilmir.

Duz mədənində çalışan hər bir işçi gün ərzində 40 pud duz çıxarır. Çıxarılmış daş duzun hər pudu üçün 1,5 qəpik, narın duzun hər pudu üçün 0,5 qəpik ödənilirdi. Məlumatdan aydın olur ki, Naxçıvanda hər il 200.000 pud duz (120.000 pud daş duz, 80.000 pud narın duz) çıxarılırmış. Çıxarıldığı yerdə bir pud duz 10 qəpiyə satılırdısa, Naxçıvandan kənarda 18-25 qəpik, Şuşada isə 60-75 qəpik idi. Çıxarılmış duz yerli əhalinin tələbatını ödəməklə yanaşı, Ordubada, Yenibəyazidə, Şuşaya, İrana və b. yerlərə göndərilirdi.

Culfanın tarixindən bəhs edən müəllif yazır ki, Culfa-Tarudağla Araz çayı arasındakı ensiz zolaqda, Əlincəçayın qarşısındakı ərazidə yerləşir. Hələ lap qədimdən Araz çayı üzərindən salınmış iki və ya üç körpünün qalıqları hələ də qalmaqdadır; İrandan Zaqafqaziyaya və əksinə aparılan karvan malları bu körpüdən keçirmişlər. Bu körpülərdən nə vaxtsa roma qoşunları da keçib getmişlər. Körpülər dağıldıqdan sonra burada yaranmış əlverişli mövqedə-çayın hər iki tərəfində hələ də qalıqları qalan karvansara tikilmişdir. Culfa şəhəri şimal tərəfdən qala və etibarlı qapılarla müdafiə olunurdu.

Hələ 1600-cü ildə Culfada 50.000-dən çox adam yaşayırdı. 1605-ci ildə Şah Abbasın qoşunları tərəfindən şəhər qarət olunmuş, Culfadan 12.000 ailə İrana köçürülərək İsfahan yaxınlığında yerləşdirildi. Yaxın zamanlaradək burada yaşayan 10-12 ailə qeyri-sağlam mühitə və əlverişsiz hava şəraitinə görə 2-3 verst kənara köçüb orada məskunlaşmışdı.

Tumbullular. Mənbədə Tumbul kəndi və onun əhalisinin özünəməxsus cəhətləri belə təsvir edilir: Naxçıvanın 5, Arazın isə 6 verstliyində Tumbul kəndi yerləşir. Bu kəndin sakinləri tumbullular adı ilə məşhurdular. Buranın əhalisi digərlərindən köklü şəkildə fərqlənir. Əsl tumbullu hündürboy və arıqsifətlidir. Verilən mənbədə təsvir olunan Tumbul kəndi və onun əhalisinin məişət təsvirinin açıqlanması onu göstərir ki, bu ərazidə yaşayan əhali sırf müsəlman türklə-

ridir. Bir məsələni qeyd etməyi lazım bilirik ki, Tumbul kəndi və tumbullular məsələsi ilə bağlı mətbuatda – "Təhsil problemləri" (№19-20, 290- 291, 1-10 aprel 2007-ci il) qəzetində yazı nəşr etdirmişik.

K.A.Nikitinin adı gedən məqaləsi haqqında akademik İ.Həbibbəylinin məqalələrində (2, s. 74-75, 77; 3, s. 22-24; 4, s. 610-611) çox maraqlı və zəngin məlumatlar vardır.

Beləliklə, ermənipərəstliyi, müəyyən təhrif və çatışmazlıqları istisna edilməklə K.A.Nikitinin bu məqaləsi özündə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsinin tarixinə dair zəngin məlumatlar əks etdirməsi baxımından çox qiymətli və sanballı mənbədir.

ƏDƏBİYYAT

1. Никитин К. Город Нахичевань и Нахичеванский уездь. Сборник материалов для описания местностей и племен Кавказа. Вып. 2, Тифлис, 1882, 142 с.
2. Nəbibbəyli İ. Ə. Naxçıvanda elm və mədəniyyət / Azərbaycan tarixində Naxçıvan, Bakı: Elm, 1996, s. 73-91.
3. Həbibbəyli İ. Naxçıvan şəhərinin yaşı – beş min il / Nax. MR-nin yaranması: tarix və müasirlik Naxçıvan, 2007, s. 20-27.
4. Həbibbəyli İ. Gəmiqaya dünyası: Nuh peyğəmbər, Naxçıvan və Gəmiqaya / Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007, s. 602-611.

Яшар Рагимов

СТАТЬЯ КОНСТАНТИН НИКИТИНА «ГОРОД НАХИЧЕВАНЬ И НАХИЧЕВАНСКИЙ УЕЗДЬ» – ИСТОЧНИК ИСТОРИИ НАХЧЫВАНА

Многие проблемы Нахчыванской истории нашли свое отражение в произведениях русских авторов. Одним из письменных источников об истории Нахчывана XIX века является статья К.А.Никитина «Город Нахичевань и Нахичеванский уездь» - источник истории Нахчывана. В статье были раскрыты вопросы, связанные с нашей историей, а отдельные части и разделы книги были исследованы. Обращается внимание на существование в источнике неимеющих научных оснований ложных исторических фактов. Несмотря на определенные ошибки и недостатки, статья К.А.Никитина «Город Нахичевань и Нахичеванский уездь» считается очень весомым источником Нахчыванской истории XIX века.

Yashar Rahimov

KONSTANTIN NIKITIN'S ARTİCLE "THE NAKHCHIVAN CITY AND NAKHCHIVAN PROVINCE" AS SOURCE OF THE HISTORY OF NAKHCHIVAN REGION

Some problems of Nakhchivan history have been reflected in the works of the Russian authors. One of the written sources about the history of Nakhchivan in the 19th century is K.A.Nikitin's article "The Nakhchivan city and the Nakhchivan province". İn this article was learnt the problems which connected with our history and it has researched the part and chapters of the book. It has been bring to the attention the cases of mistaken historical facts which, doesn't have scientific base. K.A.Nikitin's article "The Nakhchivan city and the Nakhchivan province" is reliable and heavy source for the 19th century Nakhchivan history, but there are some distorions and insufficiencies in this book.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

FƏXRƏDDİN SƏFƏRLİ
AMEA Naxçıvan Bölməsi
E-mail: hacifexreddin@yahoo.com

NAXÇIVANDA TARİX ELMİNİN İNKİŞAFI (1991-2011-ci illər)

(Akademik İ.M.Hacıyev tərəfindən təqdim edilmişdir)

XX yüzilliyin 80-ci illərinin sonlarında Dağlıq Qarabağ problemi ilə əlaqədar bütün Azərbaycanda, o cümlədən Naxçıvanda başlayan güclü böhran bölgədə tariximizlə bağlı aparılan elmi tədqiqatlara da öz mənfi təsirini göstərmişdi. Ulu Öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından və ölkədə ictimai-siyasi sabitliyin bərpasından sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, müasir Naxçıvanın qurucusu və memarı Vasif Talıbovun rəhbərliyi ilə bölgədə tərəqqi başladı. 1995-ci ilin dekabrından başlanan bu tərəqqi az sonra intibaha çevrildi. Tərəqqi və intibah illərində Naxçıvan MR-da həyatın bütün sahələri yüksək inkişaf səviyyəsinə çatdı. Muxtar Respublika geridə qalmış aqrar ölkədən inkişaf etmiş kənd təsərrüfatı, sənaye, elm, təhsil və mədəniyyət mərkəzinə çevrildi, hətta xaricə məhsul ixrac etməyə başladı. Bu hərtərəfli inkişafın çərçivəsində Naxçıvanda tarix elminin inkişafı diqqəti cəlb edir.

Naxçıvanda tarix elminin inkişafında 1996-cı il dönüş nöqtəsi oldu. Naxçıvan MR Ali Məclisi Sədrinin Sərəncamı ilə bu ildə Naxçıvan şəhərində keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumu həmin dönüşün başlanğıcı oldu (7).

Naxçıvanda tarix elminin inkişafında Ali Məclis Sədrinin təşəbbüsü, Ümummilli liderimiz Heydər Əliyevin sərəncamı ilə 2002-ci ilin avqustunda AMEA Naxçıvan Bölməsinin və onun nəzdində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun yaradılması mühüm mərhələ oldu. Bununla da ermənilərin Azərbaycana qarşı ərazi iddialarında əsas yer tutan Naxçıvanın tarixinin bütün problemlərinin, həmçinin diyarın arxeologiyasının, etnoqrafiyasının, ümumiyyətlə maddi-mədəniyyət abidələrinin dərindən, ətraflı və sistemli şəkildə öyrənilməsi üçün münbit şərait yaradıldı, bu sahədə tədqiqatçılara böyük imkanlar və geniş meydan verildi.

Bölgədə tarix elminin inkişafında Muxtar dövlətimizin başçısı Vasif Talıbovun imzaladığı bir sıra Sərəncamların əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Əshabi-Kəhf, Gəmiqaya, Açıq Səma altında muzey, tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması, Nuh türbəsinin bərpası və s. haqqında imzalanan sərəncamlar bölgədə tarix elminin inkişafı və tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsində mühüm rol oynamışlar.

Bu Sərəncamlardan irəli gələn vəzifələrin həyata keçirilməsi istiqamətində bir sıra uğurlu işlər həyata keçirilmişdir. Tarixçi alimlər Gəmiqaya abidəsində kompleks tədqiqatlar aparmış, Muxtar Respublika ərazisindəki tarix-mədəniyyət abidələrini qeydə alaraq pasportlaşdırmış, həmin abidələr əsasında Azərbaycan və ingilis dillərində "Naxçıvan abidələri ensiklopediyası" hazırlanaraq nəşr etdirilmiş, Naxçıvanda ermənilərə məxsus abidələrin olmaması sübuta yetirilmişdir (5). Etiraf etmək lazımdır ki, yüksək dövlət qayğısı olmasaydı bu cür möhtəşəm və ağır işi qısa müddətdə başa çatdırmaq mümkün olmazdı. Bu məsələ ilə əlaqədar Ali Məclisin Sədri vaxtaşırı işçi qrupu qəbul etmiş, vəziyyətlə tanış olmuş, yaranmış problemləri yerindəcə həll etmiş, işin keyfiyyətinə müsbət təsir edən töfsiyyə və tapşırıqlarını vermişdir. Nəticədə qarşıya qoyulan məqsəd uğurla həyata keçirilmişdir.

2010-cu ildə işıq üzü görən "Naxçıvan tarixi atlası" tarixçi alimlərimizin ən böyük uğurlarındandır (6). Həmçinin, Naxçıvanda ilkin şəhər mədəniyyətinin 5 min il əvvəl meydana gəlməsi istiqamətində tarixçilərimizin apardığı tədqiqatlar da əldə olunan uğurlar sırasındadır. Son illərdə tarixçi alimlərimizin Naxçıvan tarixinin müxtəlif problemlərinə, arxeologiyasına, etnoqrafiyasına, epiqrafikasına və s. aid bir sıra sanballı əsərlər işıq üzü görmüşdür. Təkcə AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşları 2010-cu ildə bölgə tarixinin müxtəlif problemlərinə dair 10 kitab, 130-dan artıq məqalə nəşr etdirmişlər (1, s. 18, 23).

Naxçıvanda yaşayıb yaradan tarixçi alimlər öz fəaliyyətləri ilə Azərbaycan miqyasından kənara çıxaraq, tanınmış alimlərlə əlaqələr saxlayır, bir sıra xarici ölkələrdə keçirilən mötəbər elmi konfrans və simpoziumlarda iştirak və çıxış edir, Azərbaycan həqiqətlərini dünyaya çatdırırlar. Həmçinin, bəhs etdiyimiz dövrdə Naxçıvan şəhərində də bir sıra Respublika və Beynəlxalq miqyaslı konfranslar, simpoziumlar keçirilmişdir. Çox yaxşı haldır ki, muxtar respublika rəhbəri bu elmi məclislərin bir neçəsində iştirak və çıxış etmişdir. Bu sıradan Ali Məclis Sədrinin Gəmiqayada 2001, 2002 və 2005-ci illərdə aparılan tədqiqatların yekunlarına həsr olunan və 2005-ci ildə abidənin özündə keçirilən müşavirədə (9) və 2009-cu ildə Naxçıvan şəhərində keçirilən "Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan" beynəlxalq simpoziumunda iştirakını və çıxışını xüsusilə vurğulamaq yerinə düşər (8, s. 10-16). Bütün bunlar isə öz növbəsində bölgədə tarixi tədqiqatların inkişafına öz müsbət təsirini göstərmişdir.

Son 15 ildə keçmiş irsə hörmət və ehtiram, muxtar respublika ərazisindəki tarix-mədəniyyət abidələrinə diqqət və qayğı yüksək səviyyədə olmuşdur.

İntibah dövrü kimi xarakterizə olunan bu müddətdə bölgədəki bir sıra tarix-mədəniyyət abidələrində, müqəddəs yerlərdə (Əshabi-Kəhf, çoxlu məscidlər, imamzadələr, xanəgahlar, türbələr, hamamlar və s.), ümumiyyətlə 46 abidə bərpa və abadlıq işləri aparılmış, onlara yeni həyat verilmişdir. Ali Məclisin Sədri abidələr bərpa və təmir olunarkən işlərin gedişi ilə yerində tanış olmuş, tövsiyə və tapşırıqlarını vermiş, orijinallığın saxlanmasına və keyfiyyətə xüsusi diqqət yetirmişdir. Naxçıvan şəhərində Nuh peyğəmbərin və Hüseyn Cavidin qəbri üzərində möhtəşəm türbələrin ucaldılması tarixi keçmişimizə hörmət və ehtiramın parlaq ifadəsidir..

İntibah dövründə Naxçıvanda tariximizin müxtəlif dövrlərinə aid maddi-mədəniyyət nümunələrinin qorunub saxlandığı, nümayiş və təbliğ etdirildiyi, həm də elmi tədqiqatlar aparıldığı muzeylər də diqqətdən kənarda qalmamışdır. Muxtar Respublikanın Ali vəzifəli şəxsinin tapşırığı ilə bir sıra muzeylərdə təmir-bərpa işləri aparılmış, Naxçıvan Dövlət Tarix Muzeyi yeni binaya köçürülmüş, "Xalça Muzeyi" üçün yeni bina inşa edilmiş, xüsusi Sərəncamla Açıq səma altında muzey, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi yaradılmışdır (4).

Bölgədə aparılan elmi tədqiqatların genişləndirilməsinin, keyfiyyətinin yüksək ixtisaslı kadrlardan asılı olduğunu nəzərə alaraq bütün siyasi fəaliyyəti ərzində yeni alim kadrların hazırlanmasına böyük önəm verən Ali Məclisin Sədri Bakıda hazırlanan kadrlarla kifayətlənmədi, Naxçıvanda da tarixçi kadrların hazırlanması sahəsində əvəzolunmaz işlər gördü. Bu məqsədlə o, Naxçıvanda "Filologiya" ixtisası ilə yanaşı "Vətən tarixi" ixtisası üzrə alimlər hazırlamaq üçün Dissertasiya Şurasının yaradılmasına nail oldu və 1996-cı ildən başlayaraq NDU-da "Vətən tarixi" ixtisası üzrə alim kadrlar hazırlanmağa başlandı. 2006-cı ildən AMEA Naxçıvan Bölməsində "Vətən tarixi" ixtisası ilə yanaşı arxeoloq kadrların da hazırlanmasına başlanmışdır (2, s. 69). Əgər intibaha qədər Naxçıvanda 1 nəfər də olsun tarix elmləri doktoru yox idisə, intibah illərində yaradılan yüksək münbit şəraitin nəticəsi olaraq Naxçıvanda 5 tarix elmləri doktoru, 20-dən artıq tarix elmləri üzrə fəlsəfə doktoru hazırlanmışdır. Çox fərəhli haldır ki, artıq Naxçıvanda hazırlanan tarixçi kadrların içərisində həm də diyarın arxeologiyası, etnoqrafiyası, epiqrafikası, numizmatikası ilə məşğul olan tədqiqatçılar da yetişmişdir. Naxçıvanda yüksək ixtisaslı tarixçi kadrların yetişdirilməsində Birdəfəlik Dissertasiya Şuralarının böyük rolu olmuşdur.

Hazırda NDU-da və AMEA Naxçıvan Bölməsində doktorantura və dissertantlıq yolu ilə tarixçi kadrların hazırlanması sahəsində uğurlu işlər aparılır. 1997-ci ildən etibarən NDU-da magistratura yolu ilə tarixin müxtəlif problemləri üzrə elmdə ilk addımlarını atan gənc tarixçi kadrların hazırlanması da intibah dövrünün uğurlarındandır.

Aparılan uğurlu və məqsədyönlü siyasət öz bəhrəsini vermiş, nəticədə Naxçıvanda böyük tarixçilər ordusu formalaşmışdır. Qeyd etmək yerinə düşər ki, AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu 2003-cü ilin yanvarında 1 nəfər tarix elmləri doktoru, 3 nəfər tarix elmləri üzrə fəlsəfə

doktoru və bir neçə dissertantla fəaliyyətə başlamışdır. Hazırda İnstitutda 4 nəfər tarix elmləri doktoru (onlardan biri akademik, ikisi müxbir üzv, biri professordur), 7 tarix üzrə fəlsəfə doktoru çalışmaqdadır.

Naxçıvanda təkcə Naxçıvan MR-sı üçün deyil, həmçinin Azərbaycanın digər ali təhsil ocaqları, hətta İran və Türkiyə Respublikaları üçün də kadrlar hazırlanır. Naxçıvanda yaşayan və yetişən tarixçi alimlər Bakıya opponent kimi dəvət olunur, AMEA Naxçıvan Bölməsi və NDU müxtəlif Dissertasiya Şuraları tərəfindən aparıcı müəssisə kimi seçilir.

Naxçıvan Muxtar Respublikasında tarix elminin inkişafında Ali Məclis Sədrinin dəstəyi ilə yaradılan "Qeyrət", "Əcəmi", "Tusi", "Qızıldağ", "Təhsil" və s. bu kimi nəşriyyatların, AMEA Naxçıvan Bölməsinin, Naxçıvan Dövlət Universitetinin, Naxçıvan Müəllimlər İnstitutunun Xəbərlərinin, «Naxçıvan» ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik yurnalının da xüsusi rolu olmuşdur. Bakıda, Gəncədə və digər şəhərlərdə, hətta MDB dövlətlərində çalışan tarixçi alimlər əsərlərini Naxçıvanda nəşr olunan və Ali Attestasiya Komissiyası tərəfindən tanınan nüfuzlu jurnallarda nəşr etdirməyə üstünlük verirlər.

Bütün bunlar heç də asanlıqla əldə olunmamış, Ali Məclis Sədrinin yorulmaz, dönməz, ardıcıl və məqsədyönlü fəaliyyəti sayəsində başa gəlmişdir. 16 dekabr 1995-ci ildə Muxtar Respublikaya rəhbər seçilərkən "Mənim ayrıca bir fəaliyyət proqramım olmayacaqdır. Fəaliyyətimi görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik proqramının Naxçıvanda dönmədən həyata keçirilməsinə həsr edəcəyəm" (3, s. 6) – deyən Vasif Talıbovun xalq tərəfindən haqlı olaraq "intibah dövrü" kimi dəyərləndirilən son 15 illik zaman kəsiyində həyata keçirdiyi möhtəşəm işlər, yaratdığı möcüzələr, bütövlükdə şah əsəri olan müasir Naxçıvan bir daha təsdiq edir ki, Ulu Öndər Heydər Əliyevin işləyib hazırladığı, Azərbaycan Prezidenti İlham Əliyevin və Ümummilli liderin ən yaxın silahdaşı Vasif Talıbovun şəraitə uyğun olaraq yaradıcılıqla inkişaf etdirdiyi inkişaf strategiyası bütün zamanlar üçün alternativi olmayan və ölkəmizi daha işıqlı gələcəyə aparan mükəmməl bir təlimdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin 2010-cu il elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat. Naxçıvan: Tusi, 2010, 106 s.
2. Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının misilsiz inkişaf yolu. "İntibahın 15 ili" kitabında, s. 29-88. Naxçıvan: Əcəmi, 2010, 280 s.
3. Həbibbəyli İ. Yeniləşən Naxçıvanın möhtəşəm hesabatı. "İntibahın 15 ili" kitabında, s. 5-28. Naxçıvan: Əcəmi, 2010, 280 s.
4. "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı. "Şərq qapısı" qəz., 26 oktyabr 2010-cu il, sayı: 200 (20114).
5. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan, 2008, 521 s.

6. Naxçıvan tarixi atlası. Bakı, 2010, 56 s.
7. Naxçıvan tarixinin səhifələri. "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun materialları. Bakı: ADPU-nun mətbəəsi, 1996, 222 s.
8. "Nuh peyğəmbər: Dünya tufanı və Naxçıvan" mövzusunda keçirilən beynəlxalq simpoziumda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışı. Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan (24-25 aprel 2009-cu ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan: Əcəmi, 2010, 300 s.
9. "Şərq qapısı" qəz., 22 iyul 2005-ci il, sayı: 139 (17.815).

Фахраддин Сафарли

РАЗВИТИЕ ИСТОРИЧЕСКОЙ НАУКИ В НАХЧЫВАНЕ (1991-2011 гг)

В статье описывается развитие исторической науки в Нахчыване в 1995-2010-ых годах, характеризующийся как период возрождения. Было отмечено, что в указанном периоде в Нахчыване историческая наука достигла своего расцвета. В Нахчыванском отделении НАНА был создан Институт Истории, Этнографии и Археологии. За это время было подготовлено много историков, расширился масштаб исторических исследований. Были написаны многие статьи, книги и монографии, касающиеся различных проблем истории Нахчывана.

Fakhraddin Safarli

THE DEVELOPMENT OF HISTORY SCIENSE IN NAKHCHIVAN (in 1991-2011 years)

In the article it is dealt with the development of history in Nakhchivan in 1995-2010, which characterized as a period of Renaissance. It is marked that, in the showing time history has developed highly in Nakhchivan. Nakhchivan Department of ANAS and Institute of History, Archaeology and Ethnography has been established its structure. This time many historian personnel have prepared, the scale of the investigations has expanded. Many monographs, books and articles have been written, about the different problems of the Nakhchivan history.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

MƏMMƏD MƏMMƏDOV
AMEA Naxçıvan Bölməsi
E-mail: mm62@mail.ru

YENİ VƏ MÜASİR NAXÇIVAN: İNKİŞAFDAN İNTİBAHA DOĞRU

(Akademik İ.M.Hacıyev tərəfindən təqdim edilmişdir)

Son on beş il ərzində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni həyatında böyük irəliləyişlər yaranıb. Dünənə qədər adi və ucqar bir əyalət mərkəzini xatırladan, işıqsız, qazsız qalan və digər məişət problemləri ilə çırpınan Naxçıvan son illər Şərqin, Avropanın inkişaf etmiş şəhərləritək yenidən qurulub, gözəlləşib. Təməli xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işlədiyi dövrdə qoyulan yeni həyat quruculuğu xətti uğurla davam etdirilib. 1995-cı il dekabrın 16-da birinci çağırış Naxçıvan MR Ali Məclisinin sessiyasında Ali Məclisin Sədri seçilən Vasif Talıbov Ulu öndərin quruculuq və inkişaf xəttini konkret bir regionda davam etdirərək ağır blokada şəraitində yaşayan, davamlı olaraq enerji qıtlığı keçirən, kommunikasiya əlaqələrinin olmaması ucbatından xammal, material gətirilməsində ciddi problemlərlə üzləşən – Naxçıvanda öz gərgin zəhməti və əməyi ilə fəal yaradıcı gücə malik olmasını sübut edib. "Mənim ayrıca bir fəaliyyət proqramım olmayacaqdır. Fəaliyyətimi görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik proqramının Naxçıvanda dönmədən həyata keçirilməsinə həsr edəcəyəm" – deyərək siyasət meydanına qədəm qoyan Ali Məclisin Sədri Böyük öndərin siyasi kursuna münasibətdə sözlə əməlin, dərin sədaqətlə konkret işin vəhdəti nəticəsində istəyinə nail olub (8, s. 27). Tələbkarlıq və prinsipallıq, yaradıcılıq və təxəyyül, intizam və məsuliyyət, düşüncə və təfəkkür, xeyirxahlıq və humanizm, yurdsevərlik və vətənpərvərlik onun siyasi portretinin əsas cizgilərini təşkil edir (8, s. 6). Qurucu-rəhbər obrazının bütün əsas səciyyəvi xüsusiyyətləri də onun simasında cəmləşib. Muxtar Respublikanın yeni inkişaf mərhələsinə-intibah dövrünə qədəm qoymasında da bu amil önəmli rol oynayıb.

Ümummilli lider Heydər Əliyev dörd il sonra da ondakı bu keyfiyyətləri yüksək qiymətləndirərək deyib: "Mən ümümiyyətlə demək istəyirəm ki, Naxçıvanda işlər lazımi səviyyədə gedir. Vasif Talıbovu bu vəzifəyə seçəndə mən onun bir çox xüsusiyyətlərini bilirdim. Amma o çox gənc idi. Daxilən bir az fikirləşdim ki, gəncliyinə görə bəlkə də ağır, çətin olar. Ancaq o sübut etdi ki, vətəni-

nə, millətinə, xalqına sədaqətli olan adam yaşından asılı olmayaraq böyük işlər görə bilər" (2).

Prezident İlham Əliyev də çıxışlarının birində bu amili yüksək qiymətləndirərək deyib: "Bəzən sual verirlər ki, uğurlu siyasətin əsas səbəbi nədir. Mən hesab edirəm ki, xalqa olan məhəbbətdir. Doğma torpağa olan məhəbbətdir. Əgər bu varsa, deməli, rəhbərlikdə olan şəxslər də öz doğma xalqına ləyaqətlə, məhəbbətlə xidmət edirlər. Bu Naxçıvanda var və məni çox sevindirir" (2). Dövlət başçımız başqa bir çıxışında isə bununla bağlı belə deyib: "Mən Naxçıvanın rəhbəri Vasif Talıbovun fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Onun fəaliyyəti nəticəsində burada bu işlər görülür və o da sizə arxalanır. Öz fəaliyyəti ilə ulu öndər Heydər Əliyevin tutduğu yolu Naxçıvanda davam etdirir. Bu çox böyük nailiyyətdir" (9, s. 137).

Naxçıvan diyarının iyirmi il bundan əvvəlki dövrü bir növ qaynar qazana bənzəyirdi. Onda bu torpaq həqiqətən də özünün ağır, məşəqqətli günlərini yaşayırdı. "Ölüm və ya olum" dilemması qarşısında qalmışdı. Elə bu yerdəcə kimsə soruşa bilər ki, bəs nə əcəb bu torpaq məkrli və xəyanətkar planların qurbanına çevrilmədi? Cavabı isə qısa və aydındır: Əgər həmin ağır, ictimai-siyasi proseslərin qarışdığı illərdə tale Heydər Əliyevtək müdrik, uzaqgörən bir siyasətçini bu torpağa xilaskar göndərməsəydi, onda bu diyarın indiki varlığından və inkişafından danışmaq da əbəs olardı. Ulu öndər Naxçıvan Ali Məclisinin Sədri vəzifəsində işlədiyi qısa vaxt ərzində böyük uzaqgörənliklə qəbul etdiyi siyasi qərarlarla nəinki regionu ağır bəlalardan, oddan-alovdan xilas etdi, eləcə də onun uzun müddətə hesablanmış inkişaf strategiyasını işləyib hazırladı. Bu gün də muxtar respublika həmin strategiya üzrə inkişaf edir.

Düz on beş il bundan əvvəl bölgədə start götürən yeni həyat quruculuğu xətti də bu amilə söykənir. Elə o vaxtdan həyata keçirilən tədbirlər vüsət və sürət etibarı ilə də digər rayonlarda aparılan analoji işlərdən fərqlənir. Bəlkə, bu ilk növbədə Avropanın, eləcə də Şərqin qabaqcıl ölkələrinin təcrübələrindən, arxitektura üslublarından geniş istifadə olunması ilə bağlıdır. Amma bir vaxtlar, daha doğrusu miladi tariximizin XI-XII əsrlərində təməli qoyulan, orta əsrlərdə məşhur olan Naxçıvan memarlıq məktəbinin ənənələri də unudulmayıb. Şərq memarlığı ilə Avropa memarlığının qarşılıqlı sintezindən bacarıqla istifadə olunur. Nuh peyğəmbərin məzarüstü türbəsinin bərpa edilməsi, böyük romantik şair Hüseyn Cavidin məqbərəsinin ucaldılması, Azərbaycan tarixinin, mədəniyyətinin, folklorunun – bir sözlə milli irs və düşüncə tərzinin unikal ifadə vasitəsinə çevrilmiş onlarla tarixi-memarlıq abidəsinə yeni nəfəs verilməsi də, dediklərimi sübutlayır (10).

Regionun şəhər və rayon mərkəzlərində, kəndlərində görülən işlər, tikilən binalar, salınan körpülər, çəkilən yollar da göz oxşayır, könül açır. Bu sırada yeni tikilən ali, orta ixtisas və ümumtəhsil məktəblərini, səhiyyə ocaqlarını, mədəniyyət müəssisələrini xüsusi qeyd etməyə dəyər. Onların hər biri görünüşü ilə

diqqəti cəlb edir. Hər bir obyektdə müasir tikinti mədəniyyətinin, texnologiyanın son nailiyyətlərindən istifadə olunub.

Son on beş ildə həyata keçirilən məqsədyönlü və ardıcıl tədbirlər sayəsində region tərəqqidən intibaha doğru böyük inkişaf yolu keçib. Sosial-iqtisadi inkişafın özünəməxsus modeli yaradılan Naxçıvanda tikinti-quruculuq işləri böyük zövq və istəklə aparılır, muxtar respublikanın inkişafına, gələcəyinin möhkəm təməllər üzərində qurulmasına xidmət edən layihələr reallaşdırılır. Bunu bir neçə statistik rəqəmlərlə açıqlamaq istəyirəm: Bu müddət ərzində muxtar respublikada 364 yeni sənaye müəssisəsi işə düşüb. Əsas kapitala 2 milyard manata yaxın investisiya yönəldilib. Bu investisiyadan səmərəli istifadə nəticəsində 393 inzibati bina, mənzil-kommunal təsərrüfatı sahəsində 593 obyekt, 406 su nasos stansiyası və subartezian quyusu, 119 körpü, 45 məişət evi və ticarət mərkəzi, 231 elm və təhsil müəssisəsi, 173 səhiyyə müəssisəsi, 33 idman obyekti və s. tikilib (8, s. 45). Cəmi 7 min nəfərə yaxın sakini olan Şərur şəhərində müasir tipli olimpiya-idman kompleksinin tikilib istifadəyə verilməsi kiçik şəhərə böyük idman mədəniyyəti gətirib. Sərhəd bölgəsi olan Heydərabadda tikilən müasir obyektlər, ikimərtəbəli yaşayış evləri qəsəbəyə şəhər görkəmi verib.

Ötən il daxili tələbatdan artıq istehsal olunmuş 62 milyon 220 min ABŞ dolları dəyərində sənaye məhsullarının respublikamızın digər bölgələrinə, həmçinin qonşu və xarici ölkələrə ixrac olunması da regionun getdikcə artan iqtisadi potensialından xəbər verir. Sahibkarlıq fəaliyyəti və ticarət üçün yaradılmış münbit şəraitin nəticəsi olaraq xarici ticarət əlaqələrinin coğrafiyası xeyli genişlənib. İki il bundan əvvəlsə ilk dəfə olaraq idxal ixracı üstələyərək xarici ticarətdə müsbət saldo yaradıb.

Həyata keşirilən mühüm quruculuq tədbirlərindən biri də 10394 hektar sahədə yeni yaşıllıq zolaqlarının – meşə massivlərinin, meyvə bağlarının salınması olub. Yaşıllıq zolaqları muxtar respublika ərazisinin artıq 8 faizini əhatə edir. Halbuki on il bundan əvvəl bu rəqəm cəmi bir faizi təşkil edirdi ("Şərq qapısı" qəzeti, 29 yanvar, 2011).

Təbii ki, bölgəyə dövlətin qayğı və dəstəyinin çox olması ilk növbədə regionun yerləşdiyi geosiyasi mövqedən irəli gəlir. Çünki Naxçıvan ölkəmiz üçün həmişə strateji əhəmiyyət kəsb edən bölgə olub. Tarixə nəzər salsaq görərik ki, muxtar respublika bir yandan geostrateji mövqeyi və zəngin təbii sərvətləri ilə diqqəti özünə cəlb edibsə, digər tərəfdən əlverişli tranzit imkanlarına malik olması, Böyük İpək Yolunun üzərində yerləşməsi onu iri ölkələrin maraqlarının kəsişdiyi əraziyə çevirib (5). Bütün bunlarsa Naxçıvanı qədim dövrlərdən dəfələrlə hərbi və siyasi savaş meydanına çevirib.

Naxçıvan şəhəri bizim eranın onuncu əsrində Naxçıvan şahlığının, on ikinci əsrdə qüdrətli Atabəylər dövlətinin, on səkkizinci əsrdə siyasi səhnədə əhəmiyyətli rol oynayan Naxçıvan xanlığının, 1918-ci ildə 1 milyondan artıq əhaliyə malik Araz-Türk Respublikasının paytaxtı olub və Azərbaycan dövlətçiliyinin, siyasi və diplomatik münasibətlər sisteminin formalaşmasında mühüm mər-

hələ təşkil edib (7, s. 120). Naxçıvanın muxtariyyət əldə etməsindən sonra formalaşmış xarici dövlətlərlə əlaqələr sahəsində təcrübəsi Azərbaycan dövlətçiliyinin daha da zənginləşməsinə xidmət edib. Amma bu müddətdə məkrli erməni iddiaları daim onun başı üzərində olub.

Ötən əsrin 90-cı illərinin əvvəllərində bu təhlükə yenidən baş qaldırdı. Naxçıvan Muxtar Respublikasının rəhbəri olan ulu öndər Heydər Əliyev xarici dövlətlərlə münasibətdə qonşuluq prinsipinin əsaslarını yaradaraq tətbiq etdikdən sonra İran və Türkiyə ilə mehriban münasibətlər quruldu, Araz çayı üzərində Şahtaxtı-Poldəşt, Sədərək-Dilucu körpüləri salındı. Sadələşdirilmiş rejimdə işləyən yeni sərhəd-keçid məntəqələri yaradıldı (1, s. 10). İranın və Türkiyənin Naxçıvan Muxtar Respublikasında konsulluqları fəaliyyətə başladı. O dövrdə böyük uzaqgörənliklə tətbiq olunan düzgün siyasi xətt Naxçıvanın işğalının qarşısını almaqla bərabər, son dərəcə ağır blokada şəraitində olan bölgədə yaşayışı və inkişafı təmin etdi (4).

Dahi öndər siyasi fəaliyyətinin ayrı-ayrı dövrlərində bu torpağın möhkəmlənməsinə və onun inkişafına xüsusi qayğı göstərib. Bu amil də torpaqlarımıza zaman-zaman göz dikən bədxah və yaramaz erməni millətçilərinin məkrli plan və niyyətlərinin puç olmasında önəmli rol oynayıb. "Mən son vaxtlar Naxçıvanın inkişafı ilə əlaqədar bəzi tədbirlər həyata keçirmək barədə qərarlar vermişəm. Bunlar lazımdır. Nə üçün? Çünki Naxçıvanın vəziyyəti, onun coğrafi vəziyyəti və Naxçıvana qarşı ermənilərin daimi ərazi iddiası Naxçıvanı xüsusi inkişaf etdirmək məsələsini qarşımıza qoyur. Naxçıvan Azərbaycanın ən qədim torpaqlarından biridir. Naxçıvanda Azərbaycanın milli mədəniyyətini, memarlığını, rəssamlığını nümayiş etdirən abidələr vardır.

Biz Azərbaycanın xüsusi ağır şəraitdə olan bir hissəsini gərək o qədər inkişaf etdirək ki, oradakı problemlər insanları narahat etməsin. Həmin insanlar orada daim yaşasınlar. Azərbaycan torpağını qorusunlar, saxlasınlar. Bax, bunlara görə bu qərarlar qəbul olunmuşdur" (2).

Prezident İlham Əliyev də bu siyasi xətti uğurla davam etdirir, ulu öndərin tövsiyə və tapşırıqlarını layiqincə yerinə yetirir. O, çıxışlarının birində bununla bağlı deyib: "Xalqımızın ümmümmilli lideri Heydər Əliyev Naxçıvana çox diqqətlə yanaşırdı. Ona görə yox ki, burada anadan olmuşdu, bura onun vətəni idi. Ona görə ki, siyasi xadim kimi Naxçıvanın Azərbaycan üçün əhəmiyyətini çox gözəl başa düşürdü" (3).

Ötən ilin oktyabr ayında muxtar respublikaya növbəti səfəri çərçivəsində keçirdiyi görüşlərdə dövlət başçısı qazanılan uğurların hansı mənbədən, gücdən qaynaqlandığını da açıqlayaraq müstəqil dövlətçilik tariximizin ağır və çətin dövrlərinin bəzi məqamlarını xatırladıb: "Heydər Əliyev siyasəti Azərbaycanın bütün bölgələrində özünü büruzə verir. Hər bir yerdə, hər bir şəhərdə, hər bir rayonda quruculuq, abadlıq işləri aparılır. Böyük investisiyalar qoyulur. İqtisadi və sosial məsələlər öz həllini tapır" (10).

Heç şübhəsiz ki, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarına uyğun olaraq həyata keçirilən tədbirlərin çox olması da regionun yerləşdiyi geosiyasi mövqe ilə bağlıdır. Blokada şəraitində olmasına baxmayaraq bölgədə aparılan tikinti-abadlıq işləri düşmənlərimiz üçün göz dağına çevrilir. Xüsusən də, ucqar və sərhəd yaşayış məskənlərində – Havuşda, Şadada, Qaraağac və Heydərabadda tikilənlər. Məgər düşmənlərimiz Naxçıvanı iqtisadi blokadanın ağrıları şəraitində yaşamağa məcbur edəndə onların başlıca məqsədləri bu torpağı iqtisadi cəhətdən zəiflətməklə onu ələ keçirmək istəyindən ibarət olmayıbmı? Top-tüfənglə niyyətlərinə çata bilməyəndə istəyiblər ki, bu əzəli oğuz-türk yurdunda yaşayan insanların əhval-ruhiyyəsini aşağı salmaqla onları öz eveşiklərindən, ocaqlarından "perik" salsınlar... (9, s. 222)

Amma müdriklərimizin belə bir sözü, kəlamı da var ki, sərkərdə igid olsa heç zaman ordunu bada verməz. Son illərdə belə bir deyim də formalaşıb ki, elin-obanın başçısı, ağsaqqalı öz yerində oturanda – əyləşəndə, əhalinin yaşayışında, gün-güzəranında çətinliklər, problemlər yaranmır, el ilə gələn dərd-bəla da toy-bayramla həll olunur. Təki rəhbər ağıllı və tədbirli, qətiyyətli bir lider olsun. Naxçıvan MR-in bugünkü sosial-iqtisadi inkişafında da, qazanılan uğurlarda da bu amil önəmli rol oynayır. Bu səbəbdən muxtar respublika nəinki iqtisadi və sosial böhrandan qısa vaxt ərzində yaxa qurtarıb, həmçinin onun dinamik inkişafı təmin edilib.

2003-cü ildən bu günədək Naxçıvan Muxtar Respublikasında 44 min 647 yeni iş yeri açılmışdır ki, onun da 29 min 393-ü və yaxud 66 faizi daimi iş yerləridir (5). Bu isə o deməkdir ki, ərazisi əsasən xarici dövlətlərlə sərhəddə yerləşən, sadələşdirilmiş birgə gömrük-keçid qaydaları fəaliyyət göstərən bir regionda bu qədər iqtisadi cəhətdən fəal əhalinin iş dalınca yaxın-uzaq ünvanlara, qonşu ölkələrə getməsinə ehtiyac qalmayıb.

Hazırda muxtar respublika əhalisininin 89 növdə ərzaq, 153 növdə qeyri-ərzaq olmaqla, 242 növdə məhsula olan tələbatı tamamilə yerli istehsal hesabına ödənilir (5).

Ərzaq təhlükəsizliyi ilə yanaşı, enerji təhlükəsizliyi də bu gün xüsusi diqqət yetirilən sahələrdəndir. Bu istiqamətdə muxtar respublikada böyük layihələr həyata keçirilib. Vaxt var idi ki, bölgədə elektrik enerjisi gün ərzində uzun fasilələrlə verilirdi. O da qonşu ölkələrdən baha qiymətə alınma hesabına. Dövlət başçısının "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2 may 2005-ci il tarixli sərəncamından sonra vəziyyət tamam dəyişdi. Enerji təsərrüfatının gücləndirilməsi sahəsində mühüm tədbirlər görüldü. Modul və qaz-turbin elektrik stansiyaları, Heydər Əliyev su anbarı üzərində elektrik stansiyası tikildi. Qısa vaxt ərzində muxtar respublika elektrik enerjisi alan bölgədən elektrik enerjisi ixrac edən regiona çevrildi. Hazırda muxtar respublika Türkiyəyə gündə 16 meqavat elektrik enerjisi verir (9, s. 187).

20 meqavat gücündə olan Biləv Su Elektrik Stansiyası Naxçıvan MR-də həyata keçirilən ən böyük infrastruktur layihələrindən biridir. Stansiyanın tikintisinə 2008-ci ilin mart ayından başlanılmış və qısa müddətə başa çatdırılmışdır. Gilançay üzərində tikilən stansiyada Avstriya istehsalı olan 2 turbin və generatorlar quraşdırılmışdır.

Stansiyanın açılış mərasimində iştirak edən dövlət başçısı demişdir: "Mən çox şadam ki, Naxçıvanda nəzərdə tutduğumuz bütün məsələlər bu gün öz həllini tapır. Muxtar respublika uğurla inkişaf edir, burada quruculuq-abadlıq işləri çox sürətlə gedir, bütün sosial məsələlər həllini tapır, yeni müəssisələr, fabriklər açılır, yollar çəkilir... Biləv Su Elektrik Stansiyasının açılışı, sadəcə olaraq görülən işlərin yeni mərhələsidir. O, təbiətdən qaynaqlanan bir enerjidir, gücdür. Su mənbələrimizdən səmərəli istifadə etmək üçün Azərbaycanda çoxlu tədbirlər görülüb və bu tədbirlər ardıcıl şəkildə həllini tapır" (10).

Prezident İlham Əliyev 87 kilometr uzunluğunda olan Naxçıvan-Sədərək magistral avtomobil yolunun açılışında da iştirak etmişdir. Böyük İpək Yolunun bir hissəsi sayılan bu yol Kəngərli, Şərur və Sədərək rayonlarını birləşdirir. Avropa standartları əsasında salınan yolun ümumi en sahəsi 23, asfalt qatının eni 17,2 metrdir. Magistral 4 zolaqlıdır. Zolaqları 1 metr enində xətt ayırır. Bununla bərabər, yolun hər iki istiqamətində təhlükəsiz zona salınıb ("Azərbaycan" qəzeti, 5 oktyabr, 2010).

Sirr deyil ki, hər bir cəmiyyətin tərəqqisi təhsilin inkişafından və onun əhəmiyyətinin düzgün qiymətləndirilməsindən asılıdır. Təsadüfi deyil ki, ölkənin ağır və çətin dövründə – 1995-ci ildə keçirilən tədbirlərin birində "Mən müəllim sənətini, müəllim işini və zəhmətini yüksək qiymətləndirirəm. Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, müəllimə xərcləməlidir" – deyən Ümummilli lider təhsilin maddi bazasının gücləndirilməsini vacib və təxirəsalınmaz vəzifələrdən biri hesab edirdi.

Prezident İlham Əliyev də öz fəaliyyətində dəfələrlə bu xəttə sadiq olduğunu sübut etmişdir. Ötən il muxtar respublikaya səfəri çərçivəsində keçirdiyi görüşlərin birində dövlət başçısı demişdir: "Mən müəllimlərin əməyini çox yüksək qiymətləndirirəm. Hər bir ölkənin inkişafı üçün müəllimlərin fəaliyyəti başlıca rol oynayır. Çünki ölkə təbii sərvətlərlə zəngin ola bilər, ölkənin digər imkanları, yəni, maliyyə imkanları geniş ola bilər. Amma əgər peşəkar kadrlar yoxdursa, intellektual potensial yüksək səviyyədə deyilsə, o ölkələr həmin imkanlardan heç vaxt səmərəli şəkildə istifadə edə bilməyəcəklər" ("Azərbaycan" qəzeti, 5 oktyabr, 2010).

Məhz təhsilə dövlət səviyyəsində bu cür yüksək qiymətin verilməsinin nəticəsidir ki, son 10 ildə muxtar respublikada 68 min 374 şagirdlik 168 məktəb binası, 1398 yerlik 14 uşaq bağçası, 18 musiqi məktəbi, 9 məktəbdənkənar tədris müəssisəsi tikilib və ya yenidən qurulub. Yeni təhsil müəssisələrində müəllim və şagirdlər üçün nümunəvi şərait yaradılmış, fənn kabinələri, laboratori-

yalar, açıq və örtülü idman qurğuları müasir avadanlıqla təchiz edilmiş, ən yeni informasiya və kommunikasiya texnologiyaları tətbiq olunmuşdur.

"Naxçıvanda iqtisadi inkişaf sürətlə gedir. Keçən il ümumi daxili məhsul artmışdır, bu il də artır, templər yüksəkdir. Bütün bu gözəl nəticələri biz Naxçıvanın dəyişən, gözəlləşən simasında görürük". Cənab İlham Əliyevin prezidentlik fəaliyyəti dövründə ölkəmizdə sosial problemlərin həlli, eləcə də səhiyyənin inkişafı ümdə vəzifələr sırasına çıxarılıb. Regionların sosial iqtisadi inkişafına dair Dövlət Proqramı da bu sahədə mövcud olan problem və çatışmazlıqları həll etməyə real imkan yaradıb. Ölkədə səhiyyə şəbəkələrinin genişləndirilməsi, onların maddi-texniki bazalarının möhkəmləndirilməsi istiqamətində konkret vəzifələr də müəyyənləşib. Bu səbəbdəndir ki, hər il böyük həcmlə artan dövlət büdcəsinin xeyli hissəsi sosial siyasətin həllinə yönəldilir (5). Bu siyasətin davam etdirilməsinin vacibliyindən danışan dövlət başçısı bu amilin ölkənin iqtisadü gücü ilə də sıx bağlı olduğunu bildirib: "Mən istəyirəm ki, hər bir xəstəxana onun yerləşməsindən asılı olmayaraq müasir səviyyədə olsun. Azərbaycanda hər bir sahədə müasirlik, yenilik və keyfiyyət özünü daim göstərsin və Azərbaycan xalqı bu gözəl imkanlardan bəhrələnsin. Bu, bir tərəfdən insanlara olan diqqətin və qayğının əlamətidir, digər tərəfdən Azərbaycanın bugünkü imkanlarını göstərir" (10).

Onu da qeyd edək ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq Naxçıvanda aparılan genişmiqyaslı quruculuq tədbirləri sırasında yeni səhiyyə ocaqlarının tikilməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi də mühüm yer tutur. Bu gün muxtar respublikanın hər bir rayonunda ən müasir tələblərə cavab verən mərkəzi xəstəxana binalarının tikintisi proqramı uğurla icra olunmaqdadır. Belə ki, bölgədə 5 mərkəzi xəstəxana binası tikilmiş, 1 mərkəzi xəstəxananın inşası isə davam etdirilir. Naxçıvan şəhərində ətraf bölgələrdə analoqu olmayan diaqnostika-müalicə və doğum mərkəzləri istifadəyə verilmiş, bundan başqa 42 xəstəxana, 51 həkim ambulatoriyası, 56 feldşermama, 17 tibb məntəqəsi tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuşdur (8, s. 280). Naxşıvan Müalicə Diaqnostika Mərkəzi, Duzdağ Fizioterapiya Mərkəzi, Naxçıvan şəhər Doğum Mərkəzi, Şərur, Şahbuz, Culfa rayon mərkəzi xəstəxanaları üçün inşa olunan obyektlər Avropa standartları əsasında qurulub. Ötən il Sədərək rayon mərkəzi xəstəxanası üçün inşa olunan yeni binanın açılış mərasimində Prezident İlham Əliyev iştirak edib (10).

Muxtar respublikada reallaşdırılan səmərəli demoqrafik və sosial-iqtisadi siyasətin uğurlu nəticəsidir ki, son illər ərzində əhalinin orta ömür müddəti 4,2 il yüksələrək 74,4 ilə çatıb. Muxtar respublikan tarixində ilk dəfə olaraq ötən il ərzində doğulan körpələrin on min nəfəri ötməsi də iqtisadi inkişafın, sosial vəziyyətin ürəkaçan olmasından irəli gəlib. Halbuki, sovet dönəmində, daha doğrusu, 1988-ci ildə bu rəqəm indikindən 34,3 faiz az olub. Müqayisə olunan dövrdə əhalinin sayı isə 115,6 min nəfər artaraq 410 min nəfərə çatıb (5).

Demoqrafik inkişafa dair daha bir müsbət nümunə: Əgər ötən əsrin səksəninci illərinin sonlarında muxtar respublikada bir kvadrat kilometrə düşən əhalinin sayı cəmi 55 nəfər təşkil edirdisə, ötən ilin sonunda bu göstərici 76-a çatıb. Hər min nəfər hesabı ilə bir yaşa qədər ölən uşaqların sayı isə 28,3 nəfərdən 1,2 nəfərə enib. Təbii ki, əhali artımının dinamikliyi demoqrafik siyasətin səmərəliliyini təsdiqləyir.

Regionların sosial-iqtisadi inkişafının Dövlət Proqramına uyğun olaraq həyata keçirilən tədbirlərdə başlıca məqsəd sosial-iqtisadi problemləri həll etməklə əhali üçün daha yaxşı yaşayış şəraiti yaratmaqdır. Naxçıvanda quruculuq və abadlıq tədbirlərinin yüksək sürətlə, böyük zövqlə, canıyananlıqla aparılması da təbii ki, ilk növbədə bu amala xidmət edir. Görülən işlər sosial-iqtisadi inkişafımızda böyük irəliləyişlərin bəhrəsi olmaqla bərabər, adamların təfəkkür, düşüncə və psixologiyalarında da müəyyən dəyişikliklərin yaranmasına səbəb olur. İnsanların həyata və cəmiyyətə olan baxışları xeyli dəyişir, torpağa bağlılıq hissləri artır. Bunun nəticəsidir ki, min bir əziyyətlə yaradılanlar, tikilənlər, qurulanlar əvvəlki dövrlərdə olduğu kimi, dağıdılmır, əksinə, onlara sahiblik hissi yarandığından göz bəbəyi kimi qorunub saxlanılır.

Az vaxt ərzində regionun iqtisadi göstəriciləri də xeyli yüksəlib. Dünənə qədər sahibsiz qalan, yaxud xammal şəklində yaxın-uzaq ünvanlara satılan yeraltı təbii sərvətlərdən müasir texnoloji avadanlıqların tətbiqi hesabına səmərəli istifadə muxtar respublika sənayesində iqtisadiyyatın aparıcı sahəsinə çevrilməsinə səbəb olub. Ötən illər sənaye müəssisələrinin maliyyə vəsaitlərinə olan tələbatının ödənilməsi üçün səmərəli kredit mexanizmi qurulub, satış problemlərinin həlli üçün yerli və xarici bazarlara çıxış imkanları maksimum sadələşdirilib. Həyata keçirilən tədbirlər sayəsində muxtar respublikanın sənaye sektorunda 12 min nəfərdən artıq adam işlə təmin olunub, onların gücü ilə müəssisələrdə 237 adda məhsul istehsal edilir (5).

Bir sözlə, XXI əsrin Naxçıvanı sürətlə, dinamik inkişaf edən, gündən-günə gözəlləşən bir bölgəyə çevrilib. Ulu öndərin "Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin" sözləri, bu gün artıq həqiqətə çevrilib.

Artıq Heydər Əliyev dövlətçilik məktəbinin Naxçıvan modeli də formalaşıb. Bu məktəbdə tədris olunan dərslərin başlıca qayəsini milli dövlətçilik, vətənpərvərlik, yurda, torpağa bağlılıq hissləri təşkil edir (10). Müasir dünya standartları səviyyəsində qurulan hər obyekt, yaradılan şərait isə adamlara yeni bir mədəniyyət aşılayır. Bu yeniliyin təsiridir ki, bu gün Naxçıvanda küçə və meydanlar, park və xiyabanlar öz təmizlikləri ilə daha çox seçilirlər.

Naxçıvan indi yalnız regional deyil, dövlətlərarası əməkdaşlıqda da yaxından iştirak edir. Azərbaycan-Türkiyə, Azərbaycan-İran əlaqələri konteksində o, aparıcı rol oynayır. Son illər Naxçıvan ölkəmizlə yaxından əməkdaşlıq edən xarici dövlətlər, beynəlxalq qurumlar üçün həm də cəlbedici regiona və etibarlı

tərəfdaşa çevrilib. Bu gün muxtar respublikanın Türkiyə, İran İslam Respublikası ilə bərabər Avropanın inkişaf etmiş bölgələrindən biri olan Avstriya ilə də sıx əməkdaşlıq əlaqələri mövcuddur.

2009-cu il oktyabr ayının 2-də və 3-də Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə görüşünün Naxçıvanda keçirilməsi də muxtar respublikanın tanıdılmasında önəmli rol oynayıb ("Azərbaycan" qəzeti, 4 avqust, 2009).

Muxtar Respublika Ali Məclisinin Sədri Vasif Talıbov artıq XXI əsr Avropa siyasətinin qəbul etdiyi yeni simalardandır ("525-ci qəzet" 19 yanvar, 2011).

ƏDƏBİYYAT

1. Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 2008, 840 s.
2. Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi mərasimində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi // "Azərbaycan" qəz., 1999, 14 oktyabr.
3. Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyi mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi // "Azərbaycan" qəz., 2009, 05 avqust.
4. Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyi mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun çıxışı // "Azərbaycan" qəz., 2009, 05 avqust.
5. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sesiyasında Ali Məclisin Sədri Vasif Talıbovun məruzəsi // "Şərq qapısı" qəzeti, 2011, 26 yanvar.
6. Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri Muxtar Respublikasının yaranması: Tarix və müasirlik (beynəlxalq simpoziumun materialları). Bakı: Təhsil, 2006, 504 s.
7. Naxçıvan Ensklopediyası. 2 cilddə, II c., Naxçıvan: 2005, 381 s.
8. Həbibbəyli İ., Hacıyev İ., İsmayılov B. İntibahın 15 ili. Naxçıvan: Əcəmi, 2010, 280 s.
9. Məmmədov M. Siyasətdə Naxçıvan dərsləri. Bakı: Araz, 2009, 416 s.
10. Məmmədov M. Yeniləşən Naxçıvan // "Azərbaycan" qəz., 2011, 14 yanvar.

Мамед Мамедов

НОВЫЙ И СОВРЕМЕННЫЙ НАХЧЫВАН: ОТ РАЗВИТИЯ ДО ВОЗРОЖДЕНИЯ

В статье описываются политические процессы и социально-экономическое развитие, происходившие в 1995-2010-ых годах в Нахчыванской Автономной Республике. В этом развитии особая роль принадлежит Председателю Али Меджлиса Васифу Талыбову. Автор приходит к вы-

воду, что это развитие и прогресс являются следствием проводимой политики общенационального лидера нашего народа Г.Алиева. Этот период впервые привлекается к исследованию.

Mammad Mammadov

NEW AND MODERN NAKHCHIVAN:
TOWARDS RENAISSANCE FROM DEVELOPMENT

In this article was researched social, political processes and influence of this movement to social, economical development in Nakhchivan Autonomous Republic in 1995-2010. In this progress it has informed the special role of Vasif Talibov the Chairman of the Highest Assembly of Nakhchivan Autonomous Republic. The author comes to a conclusion that, it has achieved to this progress thanks to Haydar Aliyev the National Leader of Azerbaijan. This time have been involved to investigation for the first time.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

SARA HACIYEVA
AMEA Naxçıvan Bölməsi
E-mail: Shajiyeva@yahoo.com

XATİRƏ ABİDƏLƏRİ ÜZƏRİNDƏ HƏKK EDİLƏN NƏBATİ TƏSVİRLƏR HAQQINDA

(Redaksiya heyətinin üzvü, t.e.d., prof. F.Y.Səfərli tərəfindən təqdim edilmişdir)

Naxçıvan MR ərazisindəki Orta əsr qəbirüstü xatirə abidələri üzərində bir çox təsvir və ornamentlərlə yanaşı nəbati naxışlar da həkk edilmişdir. Bu cür təsvirlər arasında ağac, budaq, yarpaq, gül, çiçək rəsmləri çoxluq təşkil edir. Xatirə abidələri üzərində həkk edilən gül (zanbaq, qərənfil, lalə və s.) təsviri əsasən tək, əksər vaxtlarda isə başdaşıların çatma hissəsində həkk edilirdi. Bu təsvirlər içərisində müxtəlif formalara, hətta buketə, güldana qoyulmuş gül dəstəsinə və s. də rast gəlinir. Gül rəsmi həkk olunan məzar daşlarına Ordubad şəhərindəki "Malik İbrahim" və eyni adlı rayonun Vələver kənd qəbirstanlıqlarında indiyədək qalan başdaşılar və sənduqələr üzərində rast gəlinir.

Şahbuz rayonunun Külüs, Culfa rayonunun Gülüstan kənd qəbristanlıqlarında qeydə alınmış məzar daşları üzərində ağac təsvirləri vardır. Toplanmış ədəbiyyat materiallarına görə ağac təsvirinin maddi-mədəniyyət nümunələri üzərində həkk edilməsi bir sıra amillərlə izah edilir. Məsələn, qədim türk mifologiyasına görə, ağac yaşıllıq, həyat, dirilik, əbədiyyət rəmzi kimi tanınmışdır. Elm aləmində sitayiş olunan ağaclara əsasən "Həyat ağacı", "Dünya ağacı", "Əbədiyyət ağacı" deyirlər. Ağaca tapınma təbiətə inamın ən qədim, bəlkə də ilkin inamlarından biri hesab edilmişdir (7, s. 25).

"Həyat ağacı" motivi Orta Asiya kökənli bir motiv olub istifadə edilməsi m.ö. VIII yüzillərə qədər gedib çıxır. Bunu Azərbaycanda və onun ayrılmaz hissəsi olan Naxçıvan bölgəsindəki ən qədim dövrlərə aid qayaüstü təsvirlər də təsdiq edir. Ağac təsvirinin bir çox maddi-mədəniyyət abidələri üzərində yer alması göstərir ki, ağacın müqqəddəsləşdirilməsi bütün türk xalqlarında olduğu kimi, Azərbaycan ərazisində də qədim zamanlardan mövcud olmuşdur. Azərbaycan folklorunda, arxeoloji materiallarda və qədim mədəniyyət abidələrimiz olan qayaüstü təsvirlərdə də "Həyat ağacı" ilə bağlı çoxlu nümunələr mövcuddur. Həmçinin ağac təsvirinə xalçaçılıq, toxuculuq, bədii tikmə, məzarüstü xatirə abidələri və s. üzərində geniş şəkildə rast gəlinir. Hətta Babək rayonunun

Gərməçataq kəndində qeydə aldığımız toxuculuq aləti olan həvə üzərində ağac təsviri həkk edilmişdir.

H.Q.Qədirzadə toplanmş etnoqrafik materiallara əsaslanaraq qeyd edir ki, insanların təsəvvürlərinə görə, "Həyat ağacı" insana əbədi həyat bəxş edir, xəstələri sağaldır, onların meyvələri, budaqları və yarpaqları şəfa vericidir (6, s. 270). Əski türk inamına görə, Həyat ağacı yeraltı və yerüstü dünyanı, təbiət gözəlliyini, axirət və əbədi dünyanı anladır. Qədim Azərbaycanda Həyat ağacı ən nəcib, ən yüksək ideyaların timsalı kimi, ölməzlik və daimi həyat rəmzi kimi tanınmışdır (8, s. 54).

Araşdırmalar göstərir ki, insanlar uzaq keçmişdə kainatın varlığını təmsil edən "su, od, torpaq və hava" kimi dörd təbii ünsürün məhsulu olan bitkiyə sitayiş etmişlər. Zaman dəyişdikcə bu hər dövrün öz ideoloji və estetik xüsusiyyətlərinə uyğun olaraq müxtəlif forma və şəkillərdə olmuşdur. Məlum olduğu kimi, keçmiş zamanlarda "Müqəddəs ağacı" palıd, zeytun, əncir, sərv ağacları, bəzən isə hətta adi çiçək və ya yarpaq da təmsil etmişdir (4, s. 10).

Şərq əfsanəsinə görə, Həvva (anamız) öldükdən sonra onun qəbri üzərində həyat (dirilik) ağacı bitmişdir. Rəvayətə görə, həmin ağac dünyanın hər bölgəsində ümumbəşər miqyasında Həyat (Həvva) rəmzi rolunu oynayır (1, s. 13). Qədim türklər ağaca ana onqonu, onqonların anası, qəbilələrin, xalqların, ulu babaların anası kimi baxmışlar (9, s. 228). Əgər nəzərə alsaq ki, bəşəriyyətin, insan övladının atası Adəm (ə.s), anası isə Həvva hesab edilir, bu fakta əsaslanıb demək olar ki, Şərq əfsanəsində söylənilən və müxtəlif xalqların düşüncəsində də özünə yer tapan həyat ağacının ana ilə əlaqələndirilməsində bir məntiq vardır.

Tarixi mənbələrin verdiyi məlumata görə, ağac simvolu bir sıra xalqlarda ana rəmzi kimi tanınmışdır. İnsanların yaratdıqları ilk heykəllər ana heykəlləri olmuşdur. Bu heykəllərin bədənlərinə dirilik ağacı, sxematik sünbül təsvirləri çəkmişlər. Başqa yerlərdə olduğu kimi, Azərbaycanda da belə heykəllər müxtəlif dövrlərin yaşayış yerlərindən, məbədlərdən, qəbirlərdən tapılmışdır (5, s. 97).

Şaman əfsanələrində göstərilir ki, Qazax xalqının dini baxışlarına görə, dünyanın üç qatını (göy aləmini, orta dünyanı və yeraltı dünyanı) birləşdirən Dünya ağacı (Bay Dirək) dünyanın tən ortasında əzəldən yaranmışdır. Göy təpə ucalır, Göy təpənin zirvəsində isə Bay Dirək boy atır. Adam ölməmişdən qırx gün qabaq ruh göyərçin donunda bədəni tərk edir və uçub Bay Dirəyin yanına gedir. Bay Dirəyin tökülən və yenidən boy atan yarpaqlarında adamların adları yazılıb. Ruh da öz yarpağını tapıb onun üstünə qonur (12, s. 132-133). Məzar daşları üzərindəki ağac təsvirlərinin üstündə quş rəsmlərinini həkk edilməsi çox ehtimal ki, bu cür inamla əlaqəlidir. Çünki qədim insanlar quşa ruhun simvolu kimi baxmış və onu ruhun daşıyıcısı hesab etmişlər. Naxçıvan MR ərazisində qeydə alınmış məzar daşları üzərində də bu cür təsvirlərə rast gəlinir.

Lənkəran-Astara bölgə əhalisinin inamlarına görə, o dünyada "Cənnət ağacı" deyilən böyük bir ağac var ki, hər yarpağı bir insan taleyidir. Kimsə

dünyadan köçəndə onun həmin ağacdakı yarpağı düşür (11, s. 17). Bir sıra türk xalqlarının mifoloji inamına görə, Dünya Ağacı insanların ruhlarını bəd qüvvələrdən, düşmənlərdən qoruyur (7, s. 25). Fikrimizcə, məzar daşları üzərindəki ağac təsvirinin həkk edilməsi həm ana simvolunun, həm də axirət dünyası ilə əlaqəli olan əbədiyyət rəmzinin ifadəsi kimi qəbul etmək mümkündür. Lakin qəbirüstü abidələr üzərində ağac təsvirinin həkk edilməsi daha çox ruhun bəd qüvvələrdən qorunması inamı ilə bağlı hesab etmək daha məntiqə uyğundur.

Qeyd edək ki, ağacın müqəddəs hesab edilməsi Naxçıvan ərazisindəki çoxlu sayda ağac adı ilə adlandırılan pirlərdən də məlum olur. Buna misal olaraq Gal kəndindəki "Ağaclı pir", Nəhəcirdəki "Tut piri", Axuradakı "Qaradağ piri", Cəlilkənddəki "Tut piri", Şahbuz rayonunun Qızıl Qışlaq kəndindəki "Cəviz piri" və s. göstərmək olar. Həmçinin Ordubad rayonunun Tivi kəndi ərazisində "Cərgə cəviz piri", Bist kəndindəki "Xar tut piri", və s. kimi müxtəlif ağacların adı ilə bağlı olan pirlər vardır (10, s. 32-36). Bu cür müqəddəs ziyarətgahların hər hansı bir ağac adı ilə adlandırılmasından da məlum olur ki, ağac həm qədim dövrdə, həm də islam dini meydana gəldikdən sonra hər zaman müqəddəs hesab edilmişdir.

Qeyd etmək olar ki, ağacın müqəddəsliyi təkcə qədim mifologiyalarla məhdudlaşmır, həmçinin İslam dininin müqəddəs kitabı Qurani-Kərimdə, dini rəvayətlərdə də bir çox ağaclar müqəddəs hesab edilmişdir.

Burhan Oğuz Anadolu məzar daşları üzərində rast gəlinən nəbati təsvirlərin geniş yayıldığını qeyd edərək yazır ki, islami əfsanələrdə bəzi bitkilər Peyğəmbər və ya ailəsi ilə əlaqələndirilmişdir. Məsələn, yasəmən Hz. Peyğəmbərin, qızı Fatimənin çiçəyi hesab edilmişdir. İslam əfsanələrinə görə, gül Məhəmməd Peyğəmbərin kəsdiyi dırnağının və ya üzündən düşən bir neçə tər damlasının rəmzidir. Həmçinin xalq arasında qızılgül uğur gətirən bir çiçək kimi də tanınır. Bu cür inamla əlaqəli motivlər Osmanlı təsviri sənətində də özünü göstərir (2, s. 46-47).

İslam dini düşüncələrinə görə "lalə" motivi vəhdəti-vücudu, yəni Allahı simvolizə edir. Allah ismindəki hərflər ilə lalə sözünün yazılışındakı hərflərin əbcəd hesabına görə sayı eynidir. Gülün təsviri sənətdə görünməsinin səbəbi isə ilahi gözəlliyi simvolizə etməsi və ya Hz.Məhəmmədin rəmzi olmasından qaynaqlanmışdır. Gül eyni zamanda cənnət çiçəyi hesab olunmuşdur.

Müqəddəs "Qurani-Kərim"in "Ər-Rəhman" surəsinin 12-ci ayəsində göstərilir ki, (Yaşıl ikən yarpaq, quruluğunda saman olan) saçaqlı, dənli bitkilər və xoş ətirli çiçəklər (reyhan, qızılgül, yasəmən, bənövşə, qərənfil) və s. vardır. Bəzi ayələrdə isə bitkilərin müqəddəsliyinə işarə edilərək hətta ona and içilir. Məsələn, "Ət-Tin" (Əncir) surəsinin 1-ci ayəsində Əncir və Zeytunun müqəddəsliyinə işarə edilərək "And olsun Əncirə və Zeytuna" deyilir.

Heç təsadüfi deyildir ki, "Qurani-Kərim"in "Ər-Rəhman" surəsinin 6-cı ayəsində göstərilir ki, "Otlar da ağaclar da, (Allaha) itaət edər". Bu baxımdan orta əsrlər dövrünə aid olan digər sənət əsərləri kimi, məzarüstü abidələr üzə-

rində həkk edilən gül, çiçək və başqa bitki təsvirlərinin müqqəddəs varlığa itaət anlamını ifadə etməsi kimi izah etmək olar.

Nəticə olaraq qeyd etmək olar ki, Naxçıvan bölgəsi Orta əsrlər dövrü ümummüsəlman mədəniyyətinə daxil olduğundan, məzarüstü abidələr üzərində islami bilgilərin və təriqət düşüncələrinin yer alması da təbii bir hal idi. Nəbati təsvirlərin sənət əsərləri, o cümlədən də xatirə abidələri üzərində geniş şəkildə yer alması qədim türk mifologiyası ilə yanaşı, islami əfsanələrlə də bağlı hesab etmək olar. Bu baxımdan məzarüstü abidələr üzərində həkk edilən nəbati motivli təsvirlərə hər iki mədəniyyətin nümunəsi kimi yanaşmaq lazımdır.

ƏDƏBİYYAT

1. Bəxtiyarova R. Azərbaycanda ağac ayini. Bakı: Araz, 2002, 118 s.
2. Burhan O. Mezartaşında simgeleşen inamlar. İstanbul, 1983, 128 s.
3. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı: Şərq-Qərb, 2007, 160 s.
4. Əfəndi R., Əfəndi T. Azərbaycan bəzək sənəti. Bakı: Çaşıoğlu, 2002, 80 s.
5. Əhmədov Q. Bu günə necə gəlib çıxmışıq. Bakı: Azərnəşr, 1989, 118 s.
6. Qədirzadə H.Q. Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr. Bakı: Elm, 2003, 368 s.
7. Rzayev N. Əsrlərin səsi. Bakı: Azərnəşr, 1974, 86 s.
8. Seyidov M. Qızıl döyüşçünün taleyi. Bakı: Gənclik, 1984, 108 s.
9. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989, 496 s.
10. Səfərli H., Xəlilov T. Gəmiqaya və çevrəsində ziyarətgah-pirlər (II məqalə). Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, № 1(13), 2008, s. 32-36.
11. Şahbazov Lənkəran-Astara bölgəsi əhalisinin islamaqədərki inamları (tarixi-etnoqrafik tədqiqat). Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın Avtoreferatı. Bakı: Mars-print, 2006, 24 s.
12. Şaman əfsanələri və söyləmələri. Bakı: Yazıçı, 1993, 144 s

Сара Гаджиева

О РАСТИТЕЛЬНЫХ ОРНАМЕНТАХ НА МЕМОРИАЛЬНЫХ ПАМЯТНИКАХ

В статье говорится о растительных орнаментах, изображенных на мемориальных памятниках средневековья. Указано, что эти рисунки и изображения связаны с древнетюркской мифологией и Исламской религиозной верой средних веков.

Sara Hajiyeva

ABOUT THE NATURE DESCRIPTIONS SCRAPED ON THE MEMORIAL MONUMENTS

In the article it is dealt with the nature descriptions of the tree, flower, rose and so on scraped on the memorial monuments, which concern to the Middle Ages.

It is marked that these drawings are the descriptions which having a relation to the ancient Turkish mythology and the religious faiths of Islam in the Middle Ages.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

FƏXRƏDDİN CƏFƏROV
Naxçıvan MR Arxiv İdarəsi

CƏLİL MƏMMƏDQULUZADƏ NAXÇIVAN QƏZA POLİS PRİSTAVININ KÖMƏKCİSİ KİMİ

(Akademik İ.M.Hacıyev tərəfindən təqdim edilmişdir)

Görkəmli yazıçı və publisist Cəlil Məmmədquluzadənin anadan olmasının 140 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 6 fevral 2009-cu il tarixli sərəncamı və bu sərəncamın icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 fevral 2009-cu il tarixli imzalanmış sərəncamı ilə bağlı Muxtar Respublikada kütləvi tədbirlər geniş vüsət almış, həmçinin C.Məmmədquluzadənin həyat və fəaliyyəti geniş öyrənilərək dövrü mətbuatda işıqlandırılır [1, 2009, 6 fevral; 2009, 15 fevral].

Qeyd etmək istərdim ki, bir çox arxivlərdə (Gürcüstan, Ermənistan, Azərbaycan, Naxçıvan, və s.) C.Məmmədquluzadə ilə bağlı çoxlu sənədlər mühafizə olunmaqdadır. Son illərdə Naxçıvan MR dövlət arxivində aparılan araşdırmalar nəticəsində C.Məmmədquluzadə ilə bağlı çap olunmamış sənədlər və xatirələr aşkar edilmişdir. İstərdik oxucularımıza bu sənədlərdən bir neçəsi haqda qıssa da olsa məlumat verək.

Məlumdur ki, 22 fevral 1869-cu ildə Naxçıvan şəhərində anadan olan Cəlil Məmmədquluzadə 1887-ci ildə Zaqafqaziya (Qori) müəllimlər seminariyasını bitirdikdən sonra həmin ilin sentyabr ayında İrəvan qəzasının Uluxanlı qəsəbəsindəki birinci dərəcəli məktəbdə pedoqoji fəaliyyətə başlamışdır. Az sonra, yəni oktyabrda Şərur qəzasının Baş Noraşen ikisinifli zemstvo məktəbinin keçmiş müəllimi Əliməmməd Xəlilovun xəstələnib müalicəyə getmək zərurəti qarşısında qaldığından müvəqqəti olaraq İrəvan Quberniyası Xalq Məktəbləri İdarəsi C.Məmmədquluzadəni Baş Noraşen məktəbinə dəyişmişdir.

1890-cı ilin yanvar ayına kimi Baş Noraşen məktəbində müəllimlik etmiş C.Məmmədquluzadə 15 yanvar 1890-cı ildə valideynlərinin yaşadığı Naxçıvan şəhərinin cəmi 5 verstliyində olan Nehrəm məktəbinə təyinat ala bilmişdir. 1897-ci ilin iyul ayında burada çalışan C.Məmmədquluzadə öz ərizəsi əsasında Nehrəm məktəbinin müdiri vəzifəsindən azad edilmiş, İrəvana gedərək

1897-ci ilin avqust ayından İrəvan qəza Polis İdarəsində tərcüməçi vəzifəsində işləmişdir.

Dövlət arxivində C.Məmmədquluzadə haqqında mühafizə olunan ilkin sənədlərdən biri C.Məmmədquluzadənin Nehrəm ikisinifli müsəlman məktəbinin nəzarətçisi (müdiri) işlədiyi dövrdə, yəni 17 iyul 1891-ci ildə İrəvan qubernatoru həzrətlərinə Naxçıvanda savadsız ruhanilər haqda göndərdiyi xahişnaməsidir. Xahişnamədə C.Məmmədquluzadə yazır: "Sizə məlum olduğu kimi müsəlmanların təhsil alması məsələsi müsəlman ruhaniliyi ilə sıx bağlıdır. Əgər bu istiqamətdə son dövrlərdə məktəblərin sayının artırılması yolu ilə tərəqiyyə nail olunsa da, bir faktı gözdən qaçırmaq lazım deyil ki, savadsız və fanatik qazilərinin şəxsində müsəlman ruhaniliyi Sizə həvalə edilmiş quberniyada müsəlman əhalisinin savadlanmasına ciddi manedir. Müsəlman ruhaniliyinin həmin nümayəndələrinin nə dərəcədə öz məsələlərinə uyğun olmamasını, mükəmməllikdən uzaq olan ləvazimat və məxariclər sübut edir. Bu da onun nəticəsidir ki, ruhani işləri heç bir savadı olmayan dövlət dilini bilməyən şəxslərə tapşırılır. Həmin ruhanilər savadlı, təhsilli adamlarla əvəz olunsa bu öz bəhrəsini verər.

Deyilənlərə əsaslanaraq xahiş edirəm məni hazırda boş olan Naxçıvan qəza qazisi vəzifəsinə təyin edəsiniz.

Zaqafqaziya Müəllimlər Seminariyasında kurs bitirmişəm. Cəlil Məmmədquluzadə. 17 iyul 1891-ci il". Lakin qazi təyin edilib,edilməməsi haqda sənədə rast gəlmədik [2, v. 5-6].

Rast gəlinən başqa bir sənəd C.Məmmədquluzadənin Naxçıvan şəhər Polis İdarəsinə dəyişilməsi haqqında özünün əlyazması ilə yazdığı məlumat xarakterli məktubdur. Məktubda yazılır: "İrəvan quberniya İdarəsinə İrəvan qəza Polis İdarəsinin tərcüməçisi Mirzə Cəlil Məmmədquliyevdən məlumat məktubu. Mən 10 il xalq müəllimi kimi qulluq edib, 1897-ci ildə İrəvan qəza Polis İdarəsinə tərcüməçi kimi o məqsədlə girdim ki, gələcəkdə daxili polis xidmətinə keçim. Lakin daxili polisə girməyin yaxın vaxtlarda mümkün olmayacağını görəndə mən İrəvanda məktəb müdirinin müavininə müəllim vəzifəsinə yerimi dəyişməyim haqda ərizə vermişdim. İndi Naxçıvanda açılan polis pristavının köməkçisi yerinin boş olduğunu nəzərə alıb Əlahəzrət cənab İrəvan qubernatorundan acizanə xahiş etməyi şərəf hesab edirəm ki, Əlahəzrət məni bu vəzifəyə yerimi dəyişsin. Mirzə Cəlil Məmmədquliyev. 18 fevral 1899-cu il" [2, v. 5-6].

C.Məmmədquluzadənin yazmış olduğu məktubu ilə əlaqədar İrəvan quberniya İdarəsi 2 mart 1899-cu ildə İrəvan Polis İdarəsinə göndərdiyi məktubda yazırdı: "İrəvan quberniya İdarəsinin 1 mart 1899-cu il sərəncamı ilə İrəvan qəza Polis İdarəsində tərcüməçi işləyən Məmmədquliyev Naxçıvan şəhər Polis İdarəsinə pristav köməkçisi təyin edilmişdir.

İrəvan quberniya İdarəsi bu haqda Polis İdarəsinə bildirməklə yeni vəzifəyə təyin edilmiş Məmmədquliyevi həmin yerə göndərsin" [2, v. 5].

C.Məmmədquluzadə 1899-cu ilin mart ayından 1901-ci ilin fevral ayına kimi Naxçıvan şəhər 2-ci dairə polis pristavının köməkçisi vəzifəsində işləmiş-

dir.

Başqa bir sənəd isə C.Məmmədquluzadənin tutduğu vəzifədən azad olunması haqqında 22 yanvar 1901-ci ildə yazdığı ərizədir. C.Məmmədquluzadə ərizəsində yazırdı: "Siz Əlahəzrətlərinə yazdığım ərizəmlə bildirmək istəyirəm ki, sağlamlığımın pozulması ilə əlaqədar bundan sonra qulluğumu davam etdirə bilmədiyimi nəzərə alıb məni işdən azad edəsiniz və xahiş edirəm ki, işə girməyim və çıxmağım haqda attestatımı özümə qaytarasınız. Cəlil Məmmədquliyev" [2, v. 6].

Naxçıvan qəza Polis İdarəsi 26 yanvar 1901-ci ildə C.Məmmədquluzadənin işdən azad edilməsi haqda İrəvan quberniya İdarəsinə göndərdiyi məktubda yazırdı: "Naxçıvan şəhər polis pristavının köməkçisi Cəlil Məmmədquliyevin xahişini nəzərə alaraq 23 yanvar 1901-ci ildə onun tutduğu vəzifədən azad edildiyindən onun qulluğu haqqında olan attestatını özünə qaytarmasını xahiş edirəm" [3, v. 1-3].

Başqa bir sənəd C.Məmmədquluzadə Naxçıvan şəhər 2-ci dairə polis pristavının köməkçisi vəzifəsində işlərkən 1900-cu ilin əvvəllərində Naxçıvan şəhərinin Sarvanlar məhəlləsində uzunluğu 60 arşın, eni 30 arşın olan kiçik torpağın ona satılmasına dair Naxçıvan şəhər starostu (başçısı) Cəfərqulu xan Naxçıvanski ərizə ilə müraciət etmişdir.

Naxçıvan şəhər müvəkkillərinin 26 fevral 1900-cu il tarixdən şəhər başçısı Cəfərqulu xan Naxçıvanskinin sədrliyi ilə keçirdiyi öz iclasının gündəliyində bir çox məsələlərlə yanaşı C.Məmmədquluzadənin ərizəsi müzakirə edilmişdir.

İclas protokolunda yazılmışdır: "Məmmədquliyev bildirir ki, Sarvanlar məhəlləsində şəhər bağının qərb hissəsində boş ərazi var, həmin ərazidən yol salınması nəzərdə tutulub, yolun cənub hissəsində isə uzunluğu 60 arşın, eni 30 arşın olan sahə boş qalacaq. Buna görə də C.Məmmədquliyev xahiş edir ki, orada özünə daş ev tikdirməsi üçün həmin ərazinin mülkiyyət hüququ 100 manat məbləğində ona satılsın. Deyilənləri dinləyərək şəhər müvəkkilləri iclası yekdilliklə qərara alır: Cəlil Məmmədquliyevin Sarvanlar məhəlləsindəki torpağa görə təklif etdiyi qiymət şəhər üçün əlverişli hesab edilsin və həmin torpağın C.Məmmədquliyevə 100 manata satılmasına icazə verilsin" [4, v. 1-3].

Sarvanlar məhəlləsindəki torpağının 100 manata Cəlil Məmmədquluzadəyə satılması, bir vaxtlar, yəni XIX əsirin əvvəllərində və eləcə də ortalarında Naxçıvan şəhərinə köçürülmüş erməni varislərində olan Nazar Badalyan 1900-cu ilin mart ayında Naxçıvan şəhər başçısı Cəfərqulu xana xahişnamə göndərərək həmin torpağı üçqat (300 manata) qiymətə ona satılmasını xahiş etmiş və xahişnaməsində yazmışdır ki, əgər daha yüksək təklif edən şəxslər olarsa, onda ona bu haqda bildirilsin və ya satışlar keçirilsin.

24 mart 1900-cu ildə Naxçıvan şəhər başçısı Cəfərqulu xan Naxçıvanskinin sədrliyi ilə Naxçıvan şəhər müvəkkillərinin iclasında N.Badalyanın xahişnaməsi müzakirə edilmişdir.

Müzakirə zamanı şəhər müvəkkillərindən T.Xəlilov bildirmişdir ki, bu sahə barədə 26 fevral tarixdə aparılan müzakirələrdə o vaxt nəzərə alınıb. Cəlil Məmmədquliyevin atası dəyəri bir neçə min manat olan həyətli və bağçalı evini cüzi bir mükafat olan 300 manat müqabilində Puşkin yolunun tikilməsi üçün ayırıb, özü isə böyük ailəsi ilə birlikdə hal-hazırda kirayədə yaşayır, buna görə də Xəlilov xahiş edib ki, Bədəlyansın şəhər torpağı barədə xahişnaməsi rədd edilsin. Digər müvəkkillər də Yeqizarovdan başqa bildirdilər ki, Bədəlyansın xahişnaməsi gecikmiş kimi rədd edilməlidir.

Bunları dinləyərək şəhər müvəkkillərinin iclası 8 səslə qərara alıb: Sarvanlar məhəlləsindəki sahənin ev tikdirməsi üçün 300 manat ona satılması barədə Bədəlyansın xahişnaməsi rədd edilsin" [5, v. 17].

Dövlət arxivində Cəlil Məmmədquluzadə ilə bağlı bir çox sənədlərlə yanaşı C.Məmmədquluzadə haqqında xatirələrdə mühafizə edilir.

Həmin xatirələrdən biri 1918-1920-cı illərdə erməni daşnaqlarına qarşı vuruşan qırmızı partizan Əkbər Abbasovun C.Məmmədquluzadə haqqında 31 dekabr 1966-cı il tarixli xatirəsidir. Ə.Abbasov xatirələrində yazır: "Mən Cəlil Məmmədquluzadəni 1916-cı ildən tanıyıram. İlk əvvəl onun buraxdığı "Molla Nəsrəddin" jurnalını alıb oxuyanlara nifrət edirdilər. C.Məmmədquluzadəni dinsiz adlandırırdılar, xüsusilə onun öz doğma kəndi olan Nehrəm kəndinin cəhalətdə qalan adamları ona lənət yağdırırdılar. Kəndlərdə, şəhərlərdə ruhanilər tərəfindən C.Məmmədquluzadənin jurnalını oxuyanlara nifrət edirdilər. Bu vəziyyət geridə qalan savadsız kütlələrə artıq təsir bağışlayırdı. Bu çətin dözülməz vəziyyətə əhəmiyyət verməyən C.Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalını vaxtlı-vaxtında dayanmadan Çar hökuməti əleyhinə yazılar isbat edirdi ki, "Molla Nəsrəddin" jurnalını kütlə içərisində yaymaq, paylamaq işində aktiv iştirak edən dostları var.

"Molla Nəsrəddin" jurnalının yayılmasında yaxşı iştirak edən adamlar sosialist inqilabına yol açmışlar. Belə ki, 1914-cü ildə "Molla Nəsrəddin" jurnalının pərdəsi altında C.Məmmədquluzadənin qardaşı Mirzə Ələkbər Məmmədquluzadə Naxçıvan şəhərində Dəmirçixana küçəsi (indiki Sabir) Süleyman xan evini kirayə götürərək jurnalı yaymaq məqsədilə "loğəntə" restoran açaraq, Sosial demokratların yığıncaq yeri təşkil edərək inqilabçıların oraya gəlib-getməsi yaradıldı. O, zaman jurnalın rolu daha da artmış və kütlələrə yaxşı təsir bağışlamışdır. Bununla da Sosial demokrat partiyasının iştirakçılarına bir yol açmışdır. Həmçinin çar hökuməti tərəfindən onların əhaliyə, zəhmətkeş kütlələrinə vurulan zərbənin qabağını alırdı. Həmin binada polis hökmranlığına və terror partiyası təşkil olunmuşdur. "Canbezar", "Əncümən" adı ilə bu işdə aktiv iştirak edənlərdən Rəcəbəli Abbasov, Kəlbəli Salmanov, Hüseynağa Novruzov, Ə.Rüstəmov, Muxtar Allahverdiyev, M.B.Bəktaşi və başqaları vərəqlərin yayılmasında yaxından iştirak edirdilər.

1915-ci ildə mən partiyanın intibahnamə vərəqələrini gecələr aparıb divarlara yapışdırırdım. Sərkisovun ipək zavodunda işləyən (150-200) fəhlələr

arasında yaymaq üçün divara vərəqləri yapışdıranda məni pristav müavini Cabbar ağa Vəzirov tutub divanxanaya apardı. Orada pristav Benduqudze mənə akt yazıb həbsə saldırdı. Bir çox əziyyətdən sonra məktəb direktoruna yazıb məni məktəbdən 5-ci sinifdən qovdular. Bu minval ilə demokrat partiyasının üzvü Ələkbər Məmmədquluzadə, Rəcəbəli Abbasov Təbriz şəhərinə gedərək orada təşkilatı davam etdirmək üçün köhnə "Əncümən" küçəsi deyilən Əbdüləli Şəkilinin evlərini kirayə götürərək "Molla Nəsrəddin" jurnalını yaymağa başladıq.

Təbrizin valisi Rzaqulu Mirzənin əhaliyə göstərdiyi təzyiq, zülm hərəkatlarını görən, şəhərə aclıq salan valiyə jurnal göz yuma bilməzdi. "Molla Nəsrəddin" jurnalının 101-ci №-də Rzaqulu Mirzə şansanetkalarla tans edərək öz şah libasını bir mütürüf qıza geyindirib onun qadın paltarını özü geyib mütürüflərlə tans oynamaq siması jurnalda çıxmışdır. Həmin məcara Təbriz əhalisinə böyük Rzaqulu Mirzə Təbrizdən qaçaraq nüfuzdan düşür və əhali içərisində nifrət qazanır.

Bu vəziyyət Təbriz əhalisinə xüsusilə zəhmətkeşlərə böyük həyəcan hissi oyatmışdır.

Əhali arasında "Molla Nəsrəddin" jurnalının yayılması böyük nüfuza malik olur. Təbrizin yerli demokratları, ziyalı kütləsi C.Məmmədquluzadəyə olduqca böyük hörmət bəsləyirdilər. Jurnalın tirajı böyüyür. Bununla əlaqədar olaraq C.Məmmədquluzadə "Ölülər" adlı pyesinin tamaşaya qoyulmasını irəli sürür. Nəhayət, ziyalıların köməyi ilə "Ölülər" pyesini tamaşaya qoymaq üçün dövlətdən icazə alınır. 1921-ci ilin aprel ayının 21-də "Ölülər" pyesi tamaşaya qoyulur. Gecə tamaşa gedən vaxt polis məmurları, ruhanilər tamaşa gedən teatr binasını mühasirəyə alırlar ki, tamaşa verənləri çıxanda tutsunlar. Bu məlumatı mən konsula çatdırdım. Konsul Kulbras məndən xahiş etdi ki, tənəffüsün vaxtını uzat, mən məsələni həll edim. Konsul gedib Tehran hökuməti ilə Moskva rəhbərlərinə məlumat verərək bir saatdan sonra qoşun teatr binasından çəkilib getdi. "Ölülər" pyesini axıra qədər davam etdirdik.

Bu macəradan sonra C.Məmmədquluzadəyə Təbriz əhalisi böyük hörmət və ehtiram bəsləyirdi. O vaxt C.Məmmədquluzadənin qızı Münəvvər xanım qadınlar arasında öz təbliğatını və azadlıq hərəkatından danışırdı və öz çadrasını Təbrizdə açmışdır.

İkinci bir fakt Vəliyədin arvadı hamama 4 atlı karetada gedən vaxt bir nəfər fərrac qaça-qaça bazar camaatına bildirir və deyir ki, "ruyi bə divar", yəni üzünüzü divara çevirin karetaya baxmayın.

Həmin ildə Təbriz mülkədarları, böyük sahibkarlar kəndliləri istismar edir və onların taxıllarını anbarlara yığaraq camaat içərisində aclıq salmışdılar. Bu vəziyyəti görən "Molla Nəsrəddin" jurnalı tez-tez bunu öz məcmuəsində işıqlandırırdı. 1921-ci ildə Təbrizdə çıxan "Molla Nəsrəddin" jurnalının 1-ci №-də Təbrizin bələdiyyə rəisi Hacı Nizami Dölanın əhaliyə tutduğu divan haqqında "Molla Nəsrəddin" jurnalının redaktoru C.Məmmədquluzadə onun hərəkətlərinə göz yummamışdır və əhalinin aclıqdan xilas etmək üçün bir neçə mül-

kədar və təzyiq göstərənlərdən Şeyx Əbdül Kərim ağanın öldürülməsi məsələsi partiyanın qarşısında dururdu. Bu minval ilə anbarlar açılıb taxılı satışa buraxırlar. Əhali içərisində aclıq məsələsi aradan qaldırılır. Öz murdar hərəkətlərini görən hökumət məmurları şəhəri tərk edib Tehrana qaçırlar.

1922-ci il aprel ayının 28-də C.Məmmədquluzadə Azərbaycan Xalq Komissarlar Şurasının sədri N.Nərimanovun imzası ilə teleqramma, alır Onu Maarif Komissarı təyin edilməsi bildirir və Bakıya çağırır, yolxərci olaraq 100 tümən göndərir və tezliklə gəlməsini xahiş edir. Teleqrammanı və pulu alan kimi C.Məmmədquluzadə öz ailəsi ilə birlikdə Təbriz şəhərini tərk edib Bakıya gəlir. Bakıda yenə də "Molla Nəsrəddin" jurnalına başçılıq etməyə başlayır. Mən Naxçıvan şəhərində "Molla Nəsrəddin" jurnalında müvəkkil olub, jurnalın yayılmasını təşkil edirdim. 1931-ci ildə tək onun ilə birlikdə jurnalın yazı abunə işində ona kömək etmişəm. İmza: Ə.Abbasov. 31 dekabr 1966-cı il" [6, v. 1-7].

Ümumiyyətlə, arxiv sənədlərində istər Naxçıvan, istərsə də Gürcüstan, Ermənistan, Azərbaycan və İranın arxivlərində Cəlil Məmmədquluzadə ilə bağlı çoxlu sənədlər mühafizə olunur. Xüsusi ilə Gürcüstan Respublikasının tarix və dövlət arxivlərində Cəlilin həyat və fəaliyyəti haqda çoxlu sənədlər vardır. Baxmayaraq ki, bu sənədlərin çox hissəsini bizim ziyalılarımız, tədqiqatçılarımız, cəlilşunaslarımız aşkar edərək öz əsərlərində, elmi məqalələrində işıqlandıraraq oxucularımıza çatdırmışlar. Lakin hələ də, arxivlərdən Cəlil Məmmədquluzadə ilə bağlı arxivlərdə üzə çıxarılmayan sənədlər var. Əminəm ki, bütün sənədlər üzə çıxarılaraq oxucularımıza çatdırılacaqdır.

ƏDƏBİYYAT

1. "Azərbaycan " qəz., 2009, 6 fevral; "Şərq qapısı" qəz., 2009, 15 fevral.
2. Nax. MRDA, f. 23m, s. 1, iş 862, v. 5-6.
3. Nax. MRDA, f. 24m. s. 1, iş 1632, v. 1-4.
4. Nax. MRDA, f. 23m. s. 1, iş 1887, v. 1-3.
5. Nax. MRDA, f. 30m. s. 1, iş 3/11, v. 11-17.
6. Nax. MRDA, f. 314, s. 5[a], iş 87, v. 1-7.

Фахраддин Джафаров

ДЖАЛИЛ МАМЕДГУЛУЗАДЕ КАК ПОМОЩНИК ПОЛИЦЕЙСКОГО ПРИСТАВА В НАХЧЫВАНСКОМ УЕЗДЕ.

Эта статья о Джалиле Мамедгулузаде, о его работе в разных просветительских учереждениях, о трудовой деятельности в органах полиции и о его воспоминаниях.

Fakhraddin Jafarov

GALIL MAMMADGULUZADE HAS WORKED NAKHCHIVAN CATASTROPHE ASSISTANT OF THE POLICE-OFFICER

Nakhchivan city assistant of the police-official Galil Mammadguluzade have been lightened the life and the activities in this article.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

HƏMZƏ CƏFƏROV
Naxçıvan Dövlət Universiteti

AZƏRBAYCANDA QADIN VƏ QIZLARIN İCTİMAİ-SİYASİ FƏALLIĞININ ARTIRILMASINA DAİR (XX əsrin 20-30-cu illəri)

(Akademik İ.M.Hacıyev tərəfindən təqdim edilmişdir)

SSRİ kimi çoxmillətli və çoxkonfessial bir ölkədə müsəlman qadınlarının və qızlarının emansipasiyası ilə bağlı problemlərin həlli bolşeviklərin milli siyasətinin əsas məsələlərindən birini təşkil edirdi.

Hakimiyyətə gəlmiş kommunistlər Azərbaycanda qadın və qızların kişilərlə bərabər yeni cəmiyyət quruculuğuna cəlb edilməsinə xüsusi diqqət yetirirdilər [1, s. 220-225; s. 322-326]. Xüsusən kəndlərdə qızların komsomola cəlb edilməsi üçün geniş kampaniyalar aparılırdı. Onlar arasında işin çətinliyini nəzərə alaraq, həmin komsomolun prinsiplərinə uyğun olmayan güzəştlərə əl atılırdı: gənc qızların zəmanətsiz komsomola qəbul edilməsi, 12 yaşından qəbul, qızlar üçün ayrıca özəklərin təşkili və s. İlk mərhələdə qızlar arasında iş əsasən qadın klubları və kəndli qadın guşələri vasitəsilə aparılırdı. Qızların ümumi təhsilə cəlb olunmasına xüsusi diqqət verilirdi. Artıq 1926-cı ildə respublikada 10 min qız məktəbə gedirdi [4, s. 95].

Qızların ictimai-siyasi fəalığının artırılması barədə partiya göstəricilərinə baxmayaraq, bu fəallığın dərəcəsi yenə də aşağı səviyyədə qalmaqda idi. Xüsusən türk-qızlarının komsomolda faizi çox az idi. Buna görə də həm partiya, həm də komsomol forumlarında türk qızları arasında işi qüvvətləndirmək, fəal qızları komsomola cəlb etmək, bu məqsədlə müxtəlif iş formalarından (qızlar arasında müxtəlif iclas və yığıncaqların keçirilməsi, qadın şöbələri işinin canlandırılması, qızların azadlığa çıxmasına mane olan bir sıra adət-ənənələrə qarşı mübarizə və s.) istifadə edilməsi təklif olunurdu.

Bolşevik hakimiyyəti özünün yeni cəmiyyət quruculuğunda ən mühüm nailiyyətlərindən birini qadın və qızların ictimai proseslərə geniş cəlb edilməsində görür, onların partiyada, komsomolda, sovetlərdə, həmkarlar ittifaqlarında, istehsal sahələrində daha fəal iştirak etməsinə çalışırdı. Görülən tədbirlərə baxmayaraq qızların komsomolçular arasında sayı çox az idi. Məsələn 1923-cü ildə qızlar ALKGİ üzvlərinin 5,1%-in, 1924-cü ildə 4,8%, 1925-ci ildə 8%, 1926-cı ildə 9,6%-in təşkil edirdi.

1934-1935-ci illər ərzində ÜİLKGİ MK-nın gənc qızlar arasında iş haqqında bir neçə: "Gənc qızlar arasında işin yaxşılaşdırılması tədbirləri haqqında", ÜİLKGİ Başqırdıstan Vilayət komitəsinin məruzəsi üzrə MK-nın "Milli gənc qızlar arasında iş haqqında" və s. qərarı qəbul edildi. Bu qərarların qəbul edilməsindən sonra Azərbaycanda gənc qızlarla işi yaxşılaşdırmaq məqsədi ilə bəzi tədbirlər həyata keçirildi. Gənc qızlar arasında iş aparmaq məqsədilə ALKGİ MK yanında rəhbər işçilər hazırlayan ikiaylıq kurslar açılmışdı. Oraya 30 nəfər qız qəbul olunmuşdu [2, s. 4, iş 2219, s. 27].

ALKGİ MK təkcə 1935-ci ildə milli gənc qadınlar arasında işlə bağlı xüsusi müşavirə (14 may 1935-ci il) [2, s. 4, iş 2206, s. 35-36], rayon qadın konfransları və Azərbaycanın gənc qadınlarının I qurultayını keçirmişdi. Qurultayda etiraf edilmişdi ki, ÜİLKGİ MK-nın Başqırdıstan VKK işinə aid qərarı "bütünlüklə və tamamilə" Azərbaycanın komsomol təşkilatlarına da aiddir [2, s. 4, iş 2219, s. 9]. Həmin qərardan sonra ALKGİ MK gənc qadınlar arasında işin vəziyyətini araşdırarkən qadınlar haqqında sovet qanunçuluğunun kobud surətdə pozulması faktları, hətta komsomol işçiləri tərəfindən qadınlara münasibətdə bir sıra cinayətlər və təhqirlərə yol verildiyi aşkara çıxarılmışdı. Xüsusən Ağdam, Şuşa və Lənkəranda bu sahədə daha çox qanunsuzluqlara yol verilmişdi.

Gənc qadın və qızların ictimai-siyasi proseslərə cəlb edilməsi yollarından biri onların komsomol sıralarına cəlb edilməsi idi. Xüsusən azərbaycanlı qızların komsomola daxil olmaları üçün geniş təbliğat-təşviqat işi aparılırdı. Lakin buna baxmayaraq qızların sayı komsomolda yenə də aşağı idi. Məsələn, 1935-ci ilin ortaları üçün ALKGİ-nin 108881 nəfər üzvündən və namizədindən yalnız 18644 nəfəri qız idi ki, onlardan da cəmi 9012 nəfəri azərbaycanlı idi. 1934-cü ildə komsomola daxil olmuş 9624 nəfərin cəmi 1650 nəfəri, 1935-ci ilin I yarısında isə qəbul edilmiş 6215 nəfər üzvdən cəmisi 1037 nəfəri qız idi. Bakı təşkilatında isə hətta qızların sayı 1934-cü ilə nisbətən 1935-ci ildə müəyyən qədər aşağı düşmüşdü [2, s. 4, iş 2219, s. 8-9]. Ümumilikdə isə 1926-1937-ci illər ərzində Azərbaycan komsomolunda qızların sayı 10,5%-dən 17,6%-ə (yaxud 4865 nəfərdən 24640 nəfərə) çatmışdı ki, onların da təqribən yarısını azərbaycanlılar təşkil edirdi [5, s. 26]. Qızların komsomolda rəhbər vəzifələrə irəli sürülməsi sahəsində də problemlər mövcud idi. Azərbaycan üzrə 4400 ilk komsomol təşkilat katibindən yalnız 80 nəfəri, 74 rayon komsomol komitə katibindən isə yalnız 4 nəfəri qız idi. Bunun əsas səbəblərindən biri qızlardan komsomol kadrlarının hazırlanması məsələsinə diqqət yetirilməməsi, qızlara inamsızlıq kimi mənfi əhvali-ruhiyyənin mövcudluğu idi. Hətta Bakı şəhərində qızlar ictimai işlərə çox zəif irəli çəkilirdi. Buradakı 644 ilk təşkilat rəhbərindən cəmi 40 nəfər qız komitə katibi və komsorq vəzifəsində çalışırdı [2, s. 4, iş 2219, s. 9].

1935-1937-ci illərdə komsomol işinə 1010, həmkarlar və təsərrüfat orqanlarında işə isə 120 nəfər qız qəbul edildi [3, s. 2, iş 31, s. 8].

Qurultay bəzi məhkəmə-prokurorluq orqanlarını qadınların hüquqlarına münasibətdə qanun pozuntularına qarşı qeyri-qənaətbəxş mübarizə apardıqlarını qeyd edərək, qadın hüquqlarının pozulması ilə əlaqədar işlərə tez baxılmasına kömək etmək üçün məhkəmə-prokurorluq orqanları ətrafında gənc qadınlardan ibarət geniş ictimaiyyətin yaradılmasını, həmçinin bu məqsədlə «yüngül suvari» dəstələrindən istifadə edilməsini zəruri saymışdı.

ÜİLKGİ MK-nın V plenumunun (1938-ci il) "milli respublika və vilayətlərdə komsomol təşkilatlarının işi haqqında" qərarında milli respublikalarda (Azərdaycan, Özbəkistan, Qazağıstan) komsomolun feodal-təhkimçilik qalıqlarına qarşı mübarizə aparmadığı göstərilirdi.

V plenumdan sonra qızlardan 12 nəfər prokurorluq sistemində prokurorun köməkçisi, 14 nəfəri müstəntiq, 2 nəfəri isə mərkəzi aparata irəli çəkilmişdi. Qadınlardan 8 nəfəri xalq hakimi, 25 nəfəri vəkil, 3 nəfəri Ali Məhkəmə üzvü idi, hüquq məktəbində 35 nəfər qız oxuyurdu ki, onun da 20 nəfəri azərbaycanlı idi. Azərbaycan prokurorluğu 1938-ci ildə qadın və qızlara qarşı törədilmiş cinayətlə bağlı 945 iş açılmışı, onlardan 654-ü məhkəməyə verilmişdi ki, bu işlər üzrə 1200 nəfər ittiham edilmişdi. Lakin bir çox rayonlarda qızların şikayətlərinə, o cümlədən qız ərə verilməsinə yenə də diqqətsiz yanaşılması halları davam edirdi [2, s. 9, iş 19, s. 36-37]. Bu dövrdə qadın hüquqlarının qorunması sahəsində bir sıra qanunvericilik aktları qəbul edilmiş, qadınların öldürülməsi Azərbaycan SSR Cinayət Məcəlləsində əks-inqilabi terror aktı kimi təsbit olunmuşdu.

ÜİLKGİ V plenumu (1938-ci il) milli respublikalarda gənc qadınların qurultayını keçirməyi və buraya gənc qadınlar arasında iş və qadınlara münasibətdə təhkimçilik qalıqlarına qarşı mübarizə məsələlərini müzakirə etməyi tapşırmışdı [2, s. 9, iş 15, s. 90-91, iş 21, s. 100-102].

Plenumun tapşırığına əməl edilərək, 1939-cu ilin yanvarın 13-17-də gənc qadınların II Ümumazərbaycan qurultayı keçirildi. Qurultayda iştirak edən 452 nəfərdən 289 nəfəri azərbaycanlı, 63 nəfəri rus, 63 nəfəri erməni, 13 nəfəri talış, 3 nəfəri yəhudi, 3 nəfəri ləzgi, 3 nəfəri gürcü, 5 nəfəri tatar, 14 nəfəri isə digər millətlərdən idi. Partiya tərkibinə görə onların 71 nəfəri partiya üzvü və üzvlüyünə namizəd, 329 nəfəri komsomolçu, 52 nəfəri bitərəf idi. Qurultay iştirakçılarının 159 nəfəri staxanovçu və zərbəçi, 13 nəfəri SSRİ, Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetlərinin deputatları idi [2, s. 9, iş 16, s. 108]. İştirakçıların 14 nəfərinin ali, 252 nəfərinin orta, 75 nəfərinin isə natamam orta təhsili var idi. Nümayəndələr arasında 4 nəfər mühəndis, 3 nəfər həkim, 22 nəfər müəllim, 14 nəfər orta tibb heyəti, 11 nəfər sürücü-traktorçu, 168 nəfər kolxozçu, 133 nəfər şagird və 97 nəfər digər peşə nümayəndələri var idi.

Qurultayda göstərilmişdi ki, komsomol təşkilatlarının və xalq təhsili orqanlarının zəif işi nəticəsində gənc qadınlar arasında siyasi tərbiyə işi tamamilə qeyri-qənaətbəxşdir. Qız və gənc qadınlara münasibətdə feodal-təhkimçilik qalıqları aradan qaldırılmayıb, kiçikyaşlı qızların nişanlanması və ərə veril-

məsi, çadra örtülməsi və s. hələ də davam edir. Bütün bunlar sübut edir ki, komsomol təşkilatları, Xalq Maarif Komissarlığı, məhkəmə və prokurorluq orqanları keçmişin biabırçı irsi ilə qətiyyətli mübarizə aparmırlar. Qurultayda məhkəmə və prokurorluq orqanları qadınların hüquqlarını pozanları məsuliyyətə kifayət qədər cəlb etmədiklərinə, təhsil orqanları qızları kütləvi surətdə məktəbdən kənarlaşdırdığına, qadınlar arasında savadsızlığın ləğv edilməsi işini zəif apardığına, Səhiyyə Komissarlığı və yerli səhiyyə orqanları gənc analara pis xidmət göstərdiyinə, səhiyyə sistemində gənc qadınları zəif irəli çəkildiyinə, Xalaq Torpaq Komissarlığı isə qızlar arasında Staxanov hərəkatının genişləndirilməsi işini zəif aparıdığına, gənc staxanovçu qızların qabaqcıl təcrübəsinin öyrənilməsi və yayılması ilə məşğul olmadığına, gənc qadınlardan kənd təsərrüfatı üçün traktorçu, kombaynçı, sürücü və s. kadrlar hazırlanmasını həyata keçirmədiyinə, onlar arasında aqrotexniki təhsil pis qurulduğuna, OSOAVİAXİM və bədən tərbiyəsi, idman təşkilatları qızlar arasında müdafiə-idman işlərinin genişləndirilməsi haqqında I qurultayın qərarını yerinə yetirmədiklərinə və qızları idman cəmiyyətlərinin sıralarına cəlb edilməsi üçün lazımi iş aparmadıqlarına görə tənqid atəşinə tutulmuşdular [2, s. 9, iş 21, s. 1-4].

Qadın və qızları kənddə, kolxozlarda, qiraət komalarında, klublarda, yataqxanalarda mədəni-kütləvi işi genişləndirməyə çağıran qurultay İncəsənət İşləri üzrə İdarə qarşısında teatrlar, özfəaliyyət dərnəkləri üzərində rəhbərliyi yaxşılaşdırmaq, kəndlərə, sovxoz və kolxozlara professional teatrların, ansambılların müntəzəm səfərlərini təşkil etmək tələbini qoymuşdu [2, s. 9, iş 21, s. 8].

Qurultayda komsomol təşkilatlarından gənc analar arasında işi yaxşılaşdırmaq, onları ictimai işlərə geniş cəlb etmək tələb edilmişdi. Səhiyyə Komissarlığına 1939-40-cı illərdə təhsillərini başa vuracaq pediatr həkimlərin uzaq kənd rayonlarına göndərilməsini təklif edən qurultay prokurorluq orqanlarını rayonlara getməyən imtina etmiş həkimləri məsuliyyətə cəlb edib nümunəvi proseslər təşkil etməyə çağırdı.

Qızların müdafiə-bədən tərbiyəsi işinə geniş cəlb edilmələri üçün onlar arasında kütləvi izahat işi aparmaq təklif edilmiş, qızlar arasında təyyarəçi, paraşütçü-nişançı, suvari hazırlamaq üçün kontrol rəqəmlər müəyyənləşdirilmişdi.

Qurultayın ən mühüm qərarlarından biri sovet, təsərrüfat, ədliyyə, mədəniyyət, təhsil, bədən tərbiyəsi və idman, komsomol, həmkarlar təşkilatlarının diqqətini qızların rəhbər işlərə cəsarətlə cəlb edilməsinə, onlardan yeni kadrlar yetişdirilməsinə, qızlar arasında siyasi, mədəni-kütləvi işi yaxşılaşdırmağa diqqət yetirmələrini tələb etməsi oldu [2, s. 9, iş 21, s.12-14].

Qadın problemlərinin həllində müəyyən əyintilərə, bayağılığa yol verilməsinə, milli, dini xüsusiyyətlərin, əxlaqi dəyərlərin pozulmasına baxmayaraq, 20-30-cu illərdə Azərbaycanda qadınların, o cümlədən gənc qadın və qızların təhsil və mədəni səviyyəsinin, ictimai-siyasi fəallığının artırılması istiqamətində atılan addımlar onların siyasi və hüquqi cəhətdən azad olunması cəmiyyətin fəal və bərabərhüquqlu üzvlərinə çevrilməsinə şərait yaratdı.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi, 7 cilddə, VI c., Bakı: Elm, 2000, 568 s.
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi. Siyasi Sənədlər Arxivi (ARPİİ SSA), f. 158.
3. ARPİİ SSA, f. 159.
4. «Красные восходы», 1926, № 2-3.
5. Məmmədov İ.M. Azərbaycan komsomolu sosializm quruculuğu uğrunda mübarizədə kommunist partiyasının sadiq köməkçisidir (1926-37-ci illər). Doktorluq dissertasiyasının avtoreferatı. Bakı, 1974, 52 s.

Гамза Джафаров

О ПОВЫШЕНИИ ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКОЙ АКТИВНОСТИ ЖЕНЩИН И ДЕВУШЕК В АЗЕРБАЙДЖАНЕ (20-30 ГГ XX ВЕКА)

Автор в статье опираясь на исторические факты, исследовал общественно-политические условия в Азербайджане в 20-30 гг. XX века, основные мероприятия и деятельность, проведенные в этих условиях органами правительства среди женщин и девушек, привлечение их в социальные процессы.

В статье также было раскрыто основное значение решений, принятых на I и II съездах женщин.

Hamza Jafarov

ABOUT EXTENDING OF WOMEN'S AND GIRLS' SOCIO-POLITICAL ACTIVITIES IN AZERBAIJAN

The author has thoroughly investigated the socio-political condition in Azerbaijan over the years of 20-30 of 20th century and the work of authority organs carried out among women and girls and measures executed in that condition, the involvement of women and girls in the social affairs.

The article also elucidates the essence of resolutions made during the I-II congresses of women and reflects the forthcoming duties.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

VÜQAR RƏHİMZADƏ
AMEA-nın İnsan Hüquqları İnstitutu
E-mail: vuqarrehimzade@mail.ru

DEMOKRATİK İNKİŞAF PROSESLƏRİNDƏ SÖZ AZADLIĞI VƏ MÜSTƏQİL MƏTBUAT

(Akademik İ.M.Hacıyev tərəfindən təqdim edilmişdir)

Demokratik dövlət quruculuğu prosesində siyasi təsisatların inkişaf xüsusiyyətlərinin elmi-nəzəri cəhətdən öyrənilməsi praktik əhəmiyyət kəsb edir. Siyasi təsisatların, o cümlədən mətbuat vasitələrinin demokratik dövlət quruculuğunda əhəmiyyətini göstərən amillərdən biri onların çoxcəhətli xarakterdə olmasıdır. Belə ki, totalitar idaraçilik dövründə cəmiyyətin siyasi sisteminin özəyini təşkil edən və xüsusi siyasi təsisat olan dövlətin fəaliyyətində insanlar lazımi səviyyədə iştirak edə bilmirdilər. Hazırda isə vəziyyət fərqli xarakter daşıyır. Demokratik dövlət quruculuğunun mahiyyəti özü tələb edir ki, insanlar dövlətin idarə olunması prosesində yaxından iştirak etsinlər. Bu baxımdan, siyasi sistemin mühüm elementlərindən biri olan dövlətin quruculuq sahəsində xüsusi əhəmiyyət kəsb etməsi aktual olaraq qalır. Digər siyasi təsisatların da demokratik dövlət quruculuğu prosesində fəaliyyətinin öyrənilməsi zəruridir. Totalitar rejim şəraitindən uzaqlaşıb müstəqil dövlət qurmağı qarşısına xüsusi məqsəd qoymuş ölkələrdə siyasi təsisatların təşəkkül və inkişafı milli spesifik xüsusiyyətləri özündə birləşdirir. Başqa sözlə, sovet rejimindən azad olmuş ölkələrdə siyasi təsisatlar heç də eyni məcrada inkişaf edə bilməz, onlar müxtəlif inkişaf xüsusiyyətlərinə malik siyasi qurumlar kimi cəmiyyətdə özünəməxsus yer tuturlar.

Dövlət quruculuğuna mühüm əhəmiyyət verən müdrik siyasətçi, ulu öndər Heydər Əliyev özünün dərin məzmunlu nitq və çıxışlarında, görüş və müsahibələrində xatırladırdı ki, bu sahədə istənilən nailiyyətlər qazanmaq üçün ölkədə ilk növbədə demokratiyanın inkişafını diqqət mərkəzində saxlamaq lazımdır. Bəşər cəmiyyətinin uzun əsrlər boyu can atdığı bu yol ilə getmək dövlət quruculuğu sahəsində həyata keçirilən tədbirlərin əsasıdır. Ümummilli liderimizin müdrik siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə demokratiyanın davamlı inkişafına və insanların Konstitusiyada təsbit edilmiş hüquq və azadlıqlarının qorunmasına böyük önəm verir.

Ümummilli liderimiz Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə qayıdışından sonra respublikamızda ictimai-siyasi sabitliyin tam bərqərar olması, vətəndaşların təhlükəsizlik təminatının və qanunçuluğun gücləndirilməsi, sosial-iqtisadi problemlərin həlli istiqamətində ardıcıl addımların atılması söz və mətbuat azadlığının müdafiəsi sahəsində də əsaslı irəliləyişlərə zəmin yaratmışdır. Sözsüz ki, azad mətbuat demokratik cəmiyyətin tərkib hissəsidir və Azərbaycan mətbuatı tarix boyu mütərəqqi ideyaların carçısı kimi çıxış etmiş, xalqımızın istəklərinin reallaşmasına öz töhfəsini vermiş, milli müstəqillik mübarizəsinin güclənməsində, milli mənəvi dəyərlərin zənginləşməsində, milli özünüdərkin, mədəniyyətin formalaşmasında böyük rol oynamışdır.

Bu faktorlara münasibət kontekstində mətbuat tariximiz bir neçə mərhələyə bölünür. 1988-ci ilin sonlarından etibarən Azərbaycanda müstəqil mətbuat yaranmağa başladı. Lakin 1988-1993-cü illərdəki mətbuat, sözün əsl mənasında, azad hesab edilə bilməz. Azərbaycan mətbuatı öz müstəqilliyinə yalnız 1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə nail oldu.

Ölkəni sivil dövlətlər sırasına çıxarmaq üçün dövlət quruculuğunda demokratik dəyərlərdən geniş istifadə olunmasına böyük ümid bəsləyən Heydər Əliyev bu nailiyyətin qazanılmasında ən etibarlı yolu demokratiya yolu ilə getməkdə görürdü.

Sözügedən dövrdə baş verən proseslər anarxiya və xaosdan yaranmaqla özünün mürəkkəb təbiəti ilə diqqət çəkir. Belə ki, ölkə hərc-mərcliyin baş verdiyi sosial-siyasi böhran içində boğularaq müxtəlif destruktiv qüvvələrin eksperiment poliqonuna çevrilmişdi. Bu dövrdə respublikada hakimiyyətə iddialı şəxslərin öz ambisiyalarını həyata keçirmək üçün istənilən metodlardan istifadə etmələri xaosa və qarışıqlığa gətirib çıxarırdı. Ölkədə qanunçuluğun zəif olması üzündən anarxizm tendensiyaları güclənərək vəziyyəti daha da dözülməz edirdi. Ayrı-ayrı qüvvələr xarici təsirlər nəticəsində destruktiv addımlar ataraq ölkənin suverenliyini təhlükəyə sürükləmək cəhdində bulunurdular. Ölkənin təkcə ictimai-siyasi həyatı deyil, digər sferalar da ciddi kataklizmlərlə zəngin idi. Xüsusilə qeyd etmək lazım gəlir ki, iqtisadiyyat tamamilə iflic vəziyyətinə düşmüş, buna görə də sosial-iqtisadi durum acınacaqlı hal almışdı. Təsərrüfat əlaqələrinin pozulması müəssisələrin fəaliyyətini çətinləşdirmiş, yüz minlərlə insanın işsiz qalmasına səbəb olmuşdu. İqtisadi problemlər burulğanında boğulan insanlarda gələcəyə inamsızlıq hissi üstünlük qazanırdı ki, bu da ölkəni çulğalayan çətinliklərin öhdəsindən gəlmək üçün zəruri olan insan potensialının deqradasiyasına səbəb olurdu. Ümumi şəkildə qeyd etdiyimiz bu problemlərdən başqa, bir sıra digər çətinliklər, habelə birincilərdən törəyən alt problemlər ölkə reallığının acı notları kimi özünü göstərirdi. Ulu öndər, böyük dövlət xadimi Heydər Əliyev qısa müddət ərzində öz müdrik siyasəti ilə bütün bu problemləri uğurla həll etdi və Azərbaycanı sürətli inkişafa apara bildi. Tarix elmləri doktoru, professor İradə Hüseynova qeyd edir: "ümummilli lider Heydər Əliyev çoxşaxəli fəaliyyəti ilə sübut etmişdir ki, güclü iqtisadiyyata, müstəqil xarici siyasətə, de-

mokratik imicə, mənəvi-intellektual yüksəlişə malik olmayan xalq güclü dövlət qura bilməz" (1, s. 70-81).

Cəmiyyətin demokratikləşməsi, insanın demokratik inkişaf şəraitində yaşamı ilk növbədə kütləvi informasiya vasitələri ilə, tirajlanan sözlə həyata keçirilir. Məhz elə buna görədir ki, müasir dünyada demokratik tərəqqinin ən əsas göstəricilərindən biri kütləvi informasiya vasitələrinin azadlığıdır. Azərbaycanda insan hüquqlarının, siyasi plüralizmin, vətəndaş cəmiyyətinin mövcudluğu, demokratikləşmə prosesinin geniş vüsət alması faktı demokratik institut kimi formalaşmış kütləvi informasiya vasitələrinin müstəqil fəaliyyətində, onların inkişafı üçün formalaşmış hüquqi təminatlarda öz təsdiqini tapmaqdadır.

Ümummilli lider Heydər Əliyevin məqsədyönlü və düşünülmüş siyasəti ilə Azərbaycan iqtisadi tənəzzüldən tərəqqi yoluna çıxdı, sabit, demokratik ölkə, etibarlı tərəfdaş imici qazandı və bu mövqeyini illər keçdikcə daha da möhkəmləndirdi.

Tarixi inkişafın indiki mərhələsində demokratik dövlətin ən mühüm keyfiyyətlərindən biri insan hüquq və azadlıqlarının qorunması və buna təminat verilməsidir. İnsan hüquqlarının müdafiəsi Azərbaycan xalqının adət-ənənələri ilə sıx bağlıdır. Belə ki, xalqımızın dini, fəlsəfi və mədəni dəyərlər sistemində insan ləyaqətinə hörmət həmişə prioritet amillərdən sayılmışdır.

Azərbaycanın dövlət başçısı ölkədə demokratik dövlət quruculuğu prosesinin genişlənməsində, bu sahədə mühüm uğurların qazanılmasında demokratiyanın inkişaf etdirilməsini mühüm amil hesab edir. Təsadüfi deyildir ki, dövlət başçısı 14 oktyabr 2005-ci ildə Azərbaycan gənclərinin IV Forumunun yekun toplantısında müstəqil dövlətin qarşısında duran başlıca məqsədi belə səciyyələndirib: "Azərbaycanda demokratik cəmiyyətin, hüquqi dövlətin yaranması bizim başlıca məqsədimizdir. Harada tərəqqi, inkişaf varsa, o yerdə demokratik cəmiyyət mövcuddur. Mən tam əminəm ki, ölkədə nə qədər neft, qaz, başqa təbii ehtiyatlar olsa belə, əgər ölkə azad deyildirsə, demokratiya tam bərqərar edilməyibsə, həmin ölkənin gələcəyi o qədər də uğurlu olmayacaqdır" (3, s. 54).

İnsan haqları hər bir cəmiyyətin özəlliklərindən, insanların dünyagörüşündən asılı olaraq keyfiyyət müəyyənliyinə malik olur. Yəni bir sıra mənbələrdə göstərildiyi kimi, insan haqlarının universal xarakteri nisbi anlayış olmaqla, onun bəşəriliyini göstərmək baxımından mötəbərdir. Reallıqda isə cəmiyyətdəki münasibətlər, insanların aid olduqları sosial xarakteristikalar (qrup, milli, konfessional və s. aidlilik) insan haqlarını sırf milli çərçivəyə salır. Bu o deməkdir ki, ingilis, fransız, yapon və digər millətlərə xas olan insan haqları ideallarının digər toplumlar tərəfindən olduğu kimi qəbul edilməsi mümkünsüzdür. Başqa sözlə, bütün cəmiyyətlər üçün ortaq olan, optimal olan mütləq nəsnələr yoxdur. Filosof Cəmil Əhmədlinin qeyd etdiyi kimi, optimallıq anlayışı həmişə konkret məzmuna malik olur. Bütün cəmiyyətlər və ölkələr üçün eyni meyarlı və eyni məzmunlu optimallıq utopiyadır. Hər ölkədə mövcud olan norma və prinsiplərin optimallığı ölkədəki obyektiv və subyektiv amillərlə şərtlənir (4, s. 38).

İnsan haqlarının bir ictimai-siyasi dəyər olmaqla siyasi mədəniyyət və etika məsələsi olduğunu qeyd etmək lazım gəlir. Belə ki, insan haqları ictimai münasibətlərə və insana rasional bir əsasla yanaşır. Bu isə insanın rasional varlıq olaraq həm özünü, həm də cəmiyyəti idarə edə biləcəyi məntiqini formalaşdırır. Belə bir məntiq təbii olaraq "insan haqq və azadlıq sahibi olmalıdır" fikrini daha da genişləndirmişdir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi insanın ən təbii hüquqlarını müəyyən edərək, 10 dekabr 1948-ci ildə BMT Baş Məclisinin üçüncü sessiyasında 217 A (III) qətnaməsi ilə qəbul edilmişdir. Bu sənədin 18-ci maddəsində deyilir:

"Hər bir insan fikir, vicdan və dini etiqad azadlığına malikdir; bu hüquq, dinin və ya əqidənin dəyişdirilməsi azadlığı, öz dininə və ya əqidəsinə həm təkbaşına, həm də başqaları ilə birlikdə etiqad etmək azadlığı, təhsildə, ibadətdə və dini və ritual mərasimlərin kütləvi və ya fərdi yerinə yetirilməsi azadlığını nəzərdə tutur" (5).

Son 10 ildə həyata keçirilən islahatların nəticəsi olaraq bu gün Azərbaycanda söz və mətbuat azadlığı sahəsindəki mövcud vəziyyət qabaqcıl demokratik ölkələrlə müqayisə edilə bilər. Respublikada mətbu nəşrlərin sərbəst fəaliyyətinə, jurnalistlərin öz iradələrini azad ifadə etməsinə bütün hüquqi imkanlar yaradılıb. 2003-cü ildə xalqın iradəsi ilə prezident seçilərək səlahiyyətlərinin icrasına başlayan cənab İlham Əliyev respublikada söz və mətbuat azadlığını demokratiyanın fundamental prinsipi kimi qəbul edir. Dövlət başçısı milli mətbuatın qabaqcıl dövlətlərin mütərəqqi ənənələrinə əsaslanmaqla, eyni zamanda xalqın tarixi-milli xüsusiyyətlərini qorumaqla inkişaf etməsini vacib sayır.

Söz azadlığı insan hüquq və azadlıqları ilə bağlı bütün beynəlxalq xartiya və konvensiyaların ana xəttini təşkil edir. İnsan Hüquqları Bəyannaməsi (1948), İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi haqqında Avropa Konvensiyası (1950), Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Müqavilə (1976), İnsan Hüquqları üzrə Amerika Konvensiyası (1978), İnsan və Xalqların Afrika Xartiyası, Avropa Şurası Parlament Assambleyasının söz və kütləvi infomasiya azadlığının qorunması ilə bağlı 428 saylı qətnaməsi (1970) və digər bu kimi saysız-hesabsız beynəlxalq sənədlərdə özünüifadəetmə azadlığı ən ali hüquq qismində təsbit olunmuşdur. Azərbaycan Respublikası Avropa Şurasına üzv olmaqla onun bir sıra konvensiyalarına, o cümlədən İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi haqqında 1950-ci il Konvensiyasına qoşulmuşdur. Konvensiya Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Avropa Şurasına üzv olma ərəfəsində – 25 yanvar 2001-ci ildə Strasburqda imzalanmış və 25 dekabr 2001-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya edilmişdir.

Azərbaycanda söz və mətbuat azadlıqlarının əsas prinsipləri ölkənin Əsas Qanununda – Azərbaycan Respublikasının Konstitusiyasında öz təsbitini tapmışdır. Konstitusiyanın 47 və 50-ci maddələri ilə ölkənin hər bir vətəndaşının söz, fikir və məlumat azadlığına birbaşa və etibarlı təminat verilir. Konsti-

tusiyanın xalqa verdiyi çox ciddi azadlıq hüquqlarından biri mətbuatla, söz, fikir azadlığı ilə bağlıdır. Konstitusiyanın 47-ci maddəsinin I bəndində de-yilir: "Hər kəsin fikir və söz azadlığı vardır" (8, s. 575).

Azərbaycan Prezidenti İlham Əliyevin 2008-ci il 31 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyası"nda ölkəmizdə söz və məlumat azadlığının, KİV-lərin müasir dövrün tələblərinə uyğun inkişaf etdirilməsi və onların mövcud problemlərinin aradan qaldırılması üçün mühüm tədbirlər müəyyənləşdirilmişdir. Konsepsiyanın tələblərinə uyğun olaraq 2009-cu il aprelin 3-də Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi informasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılmış və KİV layihələrinin maliyyələşdirilməsinə başlanmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Mətbuat Şurasının yeni binasının açılışında iştirak edərkən bildirmişdir : "... bütövlükdə söz azadlığı hər bir ölkə üçün, ölkənin inkişafı üşün ən vacib olan məsələlərdən biridir. Söz azadlığı, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması Azərbaycanda çox vacib olan məsələlərdir" (9, s.2).

Dövlət başçısının Sərəncamında adı çəkilən konsepsiyada qeyri-hökumət təşkilatlarına dövlət dəstəyinin təmin olunmasının əsas vasitələri, dövlətimizin və cəmiyyətimizin inkişafı naminə vacib olan problemlərin həlli məqsədilə həyata keçiriləcək layihələrin və proqramların maliyyələşdirilməsinin şərtləri və bir sıra digər zəruri müddəalar öz əksini tapmışdır (10, s. 1).

2010-cu il mətbuat tarixində daha mühüm hadisələrlə yadda qaldı. Belə ki, dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə mətbuatımızın 135 illik yubileyinin ölkəmizdə geniş şəkildə qeyd olunması, həmin ərəfədə Mətbuat Şurasının yeni binasının istifadəyə verilməsi və möhtərəm Prezidentimizin açılış mərasimində iştirakı, "Azərbaycan milli mətbuatının 135 illiyi ilə əlaqədar tədbirlərin maliyyələşdirilməsi və Azərbaycan Respublikasının kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımının göstərilməsi haqqında", "Mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri haqqında", həmçinin, milli mətbuatın inkişafındakı xidmətlərinə görə, 100-ə yaxın jurnalistin fəxri adlarla təltif olunması haqqında sərəncamları bu qayğının davamlılığını təsdiqləyir. Bütün bunlar həqiqi qələm sahibləri üçün böyük mənəvi dividenddir. Onlar peşələrinə diqqətlə yanaşıldığını görür və bu amil, heç şübhəsiz, gələcək fəaliyyətlərinə müsbət təsir göstərir. Digər tərəfdən, jurnalistikanın cəmiyyətdə nüfuzu artır. Jurnalistlərin mənzil problemlərinin həlli ilə bağlı imzalanmış Sərəncam isə xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə ayrılmış 5 milyon manat məbləğində vəsait mətbuat tarixində müsbət mənada böyük bir hadisə idi. Ümumiyyətlə, dünyada analoqu olmayan bir hadisə idi. Mətbuata qayğıya ehtiyacı olan heç bir ölkədə dövlət tərəfindən məhz belə miqyaslı mütərəqqi addımların atılmasına dair təcrübə yoxdur. Dövlət başçısı jurnalist ictimaiyyəti ilə görüşündə görülən işlərin yalnız başlanğıc olduğunu vurğuladı. Mətbuata dövlət tərəfindən

qayğının bu səviyyədə olduğu halda, onun dəyərləndirilməsi vacib məqamlardandır. Bu mənada, 2010-cu ildə "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin "Jurnalistlərin dostu" mükafatı ilə bağlı keçirdiyi sorğunu xüsusi vurğulamaq lazımdır. Sorğunun nəticələri jurnalist ictimaiyyətinin obyektiv yanaşma tərzinin təsdiqi baxımından müstəsna səciyyə daşıdı. Keçirilən sorğunun nəticələrinə uyğun olaraq Prezident İlham Əliyevin "Jurnalistlərin dostu" nominasiyasının qalibi olması tamamilə təbii idi və hər bir sağlam düşüncəli jurnalistin ürəyindən olan bir istək idi. "Gülüstan" sarayında Prezident İlham Əliyevin iştirakı ilə keçirilən təqdimetmə mərasimində bir daha qeyd etdi ki, hüquqi dövləti azad mətbuatsız təsəvvür etmək mümkün deyil. Məhz buna görə Azərbaycanda söz azadlığı, vicdan azadlığı, plüralizm meyilləri gücləndirilməlidir. "Azərbaycan dövləti və Azərbaycan iqtidarı, əlbəttə, bu sahədə öz işini elə qurmalıdır ki, bu azadlıqlar Azərbaycanda tam şəkildə bərqərar olunsun. Son illər ərzində görülmüş işlər onu göstərir ki, biz düzgün yolla addımlayırıq, Azərbaycanda hüquqi dövlət quruculuğu prosesi uğurla gedir".

Qloballaşan dünyamız bu gün sürətlə inkişaf edən informasiya texnologiyaları ilə qarşı-qarşıya qalıb. Bu, özlüyündə nə qədər mütərəqqi bir inkişaf faktı olsa da, həmin inkişaf XXI yüzillikdə mədəni irsə qarşı təcavüz təhlükəsini get-gedə daha qabarıq şəkildə artırmaqdadır. Bu isə narahatlıq doğurmaya bilməz.

Müasir mətbuat ənənələri Azərbaycan şəraitinə uğurla tətbiq olunmuşdur. Ölkəmizdə yeni ictimai-siyasi, sosial-iqtisadi idarəçilik sistemlərinin məqsədəmüvafiq tətbiqinə nail olunmuşdur. Siyasi müstəvinin demokratik dəyərlər üzərində təşəkkül tapması üçün mətbuat tərəfindən zəruri addımlar atılmışdır. Ümumqəbul olunmuş dəyərlərin Azərbaycan cəmiyyətində dayanıqlı status alması üçün cəmiyyət həyatının bütün sferalarında mətbuatın maarifləndirici, təşəbbüsləri tanıtmaq funksiyasına nail olunmuşdur. Bütün bunlar ölkə həyatında canlanma yaratmış, insanların inam hissinin bərpa edilməsi üçün həyata keçirilən quruculuq işlərinə təkan vermiş, ümumi inkişafa müsbət sirayət etmişdir. Eyni zamanda, beynəlxalq qurumlar ilə konstruktiv əməkdaşlıq, beynəlxalq təcrübənin milli xüsusiyyətlərə uyğunlaşdırılması ilə bağlı təbliğat ölkənin demokratikləşməsində mütərəqqi rol oynamışdır. Azərbaycan Respublikasında bu istiqamətdə atılan addımların kompleks şəkildə olması, ümumi inkişaf strategiyasına tabe etdirilməsi təmin edilmişdir.

ƏDƏBİYYAT

1. Hüseynova İ. Siyasi kurs: davamlılıq konsepsiyası // Dirçəliş – XXI əsr, 2007, № 110-111, s. 70-81.
2. Mehdiyev R. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. Bakı: Azərbaycan, 2006, 584 s.
3. İlham Əliyev. İqtibaslar və təhlil / Elmi redaktor və ön sözün müəllifi fəlsə-

fə elmləri doktoru, prof. R.Mehdiyev. Bakı: Azərbaycan, 2006, 328 s.
4. Cəmiyyət. İdeologiya. Təfəkkür: məqalələr toplusu / AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, Bakı: Bakı Universiteti , 2004, 202 s.
5. İnsan hüquqları haqqında beynəlxalq Bill, Bakı, 1999, 45 s.
6. Əliyev Ə. İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi. Bakı: Azərbaycan Hüquqşünaslar Assosiasiyası, 2009, 490 s.
7. Hüseynova İ. Liderlik nümunəsi // Dirçəliş – XXI əsr, 2008-2009, № 130-131, s. 90-98.
8. Mətbuat qanunvericiliyi və təcrübə. Bakı: Hüquq maarifçiliyi cəmiyyəti, 2001, 684 s.
9. Prezident İlham Əliyev Mətbuat Şurasının yeni binasının açılışında iştirak etmişdir // Respublika, 23 iyul 2010.
10. Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // "Azərbaycan" qəz., 28 iyul 2007.

Вугар Рагимзаде

В ДЕМОКРАТИЧЕСКОМ РАЗВИТИИ СВОБОДА СЛОВА И НЕЗАВИСИМАЯ ПРЕССА

В статье рассмотрены современные особенности свободы слова в Азербайджане, место и роль определённых Конституцией основных прав человека в демократическом устройстве общества. Отмечается, что современные обязанности прессы должны обуславливаться оперативным подходом к общественным процессам, объективным отношением к освещению общественных процессов. Место и роль современных традиций прессы в утверждении демократических ценностей должны быть рассмотрены в общественном контексте.

Vugar Rehimzadeh

INDEPENDENT OF THE PRESS AND THE FREEDOM OF THE EXPRESSING IN THE DEVELOPMENT OF DEMOCRACY

In this article have been reviewed the modern level of the freedom of the expressing, main roles of the human rights expressed by the Constitution in the democratic society. It has been notified that, the modern tasks of the press are the flexible highlights of the news of the society and to have true and impartial position. The democracy supporting role of the modern press have been reviewed at the background of the social context.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

ARXEOLOGİYA VƏ ETNOQRAFİYA

VƏLİ BAXŞƏLİYEV
AMEA Naxçıvan Bölməsi
E-mail: velibahshaliyev@mail.ru

NAXÇIVANDA ERKƏN TUNC DÖVRÜNƏ AİD YENİ TAPINTILAR

Bu dövr Azərbaycanda Kür-Araz mədəniyyəti adı ilə tanınmışdır. Azərbaycanda (16 ; 24, 268-273), o cümlədən Naxçıvanda yaşayış yerləri və qəbir abidələri ilə təmsil olunan bu mədəniyyətə aid xeyli abidə aşkar olunmuş və geniş şəkildə tədqiq edilmişdir (6, 54-60; 7, s. 101-102, 183; 17, s. 55-57).

Naxçıvanda son illər aparılan araşdırmalar zamanı Ərəbyengicə, Aşağı Daşarx, Xələc, Ovçulartəpəsi, Sədərək və başqa abidələrdə Kür-Araz mədəniyyəti ilə bağlı xeyli maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. Sədərək Kültəpəsində də aşkar olunan arxeoloji materialların bir qrupu Erkən Tunc dövrünə aiddir. Bu mədəniyyətə aid keramika nümunələri həm Sədərək Tarx-Diyarşünaslıq muzeyində, həm də abidənin araşdırılması zamanı aşkar olunmuşdur. Onların ən qədim nümunələri qara rəngli sarı, ya da boz astarlı keramikadan ibarət olub saman qarışıq gildən hazırlanmışdır. Lakin belə keramika yalnız iki nümunə ilə təmsil olunmuşdur. Onlardan biri küpə tipli qabın parçasına aiddir. Konik boğazlı bu küpənin ağzının kənarı xaricə qatlanmışdır (Şəkil 1, 1). Bu parça xaricdən qara, daxildən isə sarı rənglidir. İçəri üzündə saman qarışığı aydın seçilir, lakin xarici səthində belə izlərə rastlanmır. Xarici səthi yaxşı hamarlanmışdır. Cila yoxdur. İkinci kasa tipli qaba aiddir. Konusvari gövdəli, ağız hissədə bir qədər içəri yığılan bu kasa formaca Eneolit qablarını xatırladır. O, içəridən boz, xaricdən isə sarı rənglidir. Hər iki üzündə incə saman qarışığı izlənir. Bu kasa hər iki üzdən yaxşı hamarlanmışdır. Ovçulartəpəsində bu tip keramika küpə tipli qabların parçaları ilə təmsil olunmuşdur. Bu tip keramika Kür-Araz keramikasının ən qədim nümunələri hesab olunur və arxeoloji ədəbiyyatda "Proto-Kür-Araz keramikası" adlandırılmışdır (26, p. 14-15). Bənzər keramika nümunələri Naxçıvanda Ovçulartəpəsində (8, s. 16), Xələcdə (35, s. 78), I Maxta Kültəpəsində, arxeoloji araşdırmalar zamanı Şortəpə, Aşağı Daşarx abidələrdə rastlanmışdır. Proto-Kür-Araz keramikası həmçinin Muğan-Qarabağ ovalı-

ğında Qarahacı və Cüttəpə yaşayış yerlərindən aşkar olunmuşdur (15, tabl. 8, 5, 11). Qeyd etmək istəyirik ki, Azərbaycan abidələrində Porto-Kür-Araz keramikasının olduqca müxtəlif tiplərinə rastlanmışdır. Onların bir qismi daraqvari alətlə naxışlanmış, bir qismi məməcikşəkilli çıxıntılar sırası ilə əhatə olunmuş, başqa bir qismi isə saman qarışıq gildən hazırlanmışdır (30, c. 137; 15, tabl. 8, 5, 11). Ovçulartəpəsi və Sədərəkdə aparılan araşdırmalar zamanı Eneolit dövrünə aid keramika nümunələrində Kür-Araz mədəniyyəti üçün xarakterik olan astarlı keramikaya rastlanmışdır. Şübhəsiz ki, bu tip qablar Eneolit dövründən Kür-Araz mədəniyyətinə keçid dövrünü əks etdirir və bu mədəniyyətlərin müəyyən zaman kəsiyində qovuşduğunu təsdiq edir. Porto Kür-Araz keramikası Şərqi Anadoluda Doğu Bəyazit (27, p. 391, pl. V), Çətənli (28, pl. IV, 3, 4) və Mərənd ətrafındakı abidələrdən də aşkar olunmuşdur. Buna bənzər keramika Şərqi Anadolu, Cənubi Azərbaycan, xüsusilə Naxçıvan daxil olmaqla Araz çayının orta axarlarını əhatə etmişdir. Fikrimizcə, bu mədəniyyətin formalaşdığı əsas region məhz bu ərazi olmuşdur. Kür-Araz mədəniyyətinə aid ən qədim nümunələrin bu ərazidən aşkar olunması bunu sübut edir.

Digər qrupa daxil olan keramikanın xarici səthinə qara, daxilinə isə qırmızı rəng çəkilmişdir. Bu keramika parçalarının üzərində şarşəkilli "Naxçıvan qulpları" var. Araşdırmalar bu tip keramikanın da Kür-Araz mədəniyyətinin erkən mərhələlərində meydana gəldiyini göstərir. Sədərək yaşayış yerindən aşkar olunan bu tip qabların boğazı silindrik olub, ağzının kənarı xaricə qatlanaraq yastılanmışdır (Şəkil 1, 2-4). Onların bəzisi xaricdən (Şəkil 1, 3), bəzisi isə hər iki üzdən cilalanmışdır (Şəkil 6, 4). Sonuncunun ağzının içərisində qırmızı boya izləri saxlanmışdır. Küpə tipli qabların biri çəhrayı astarlı olub, hər iki üzdən yaxşı hamarlanmışdır (Şəkil 2, 2). Qablardan birinin içərisinə, ağzının kənarına xaricdə şabalıdı rəng çəkilmişdir (Şəkil 2, 3). Sədərək Tarix-Diyarşünaslıq muzeyindəki çəhrayı astarlı nümunələrin biri spiral ornamentlə naxışlanmışdır. Spiral ornament Kür-Araz keramikasının ən qədim ornametlərindəndir. Bu tip ornamentlər Azərbaycan, o cümlədən Naxçıvan (4, tablo XI, tablo 13), Cənubi Qafqaz və Şərqi Anadolu abidələrində yayılmışdır (19, s. 67, рис. 21). Digər nümunənin üzəri həndəsi ornamentlə, xüsusilə paralel xətlər arasına alınmış cızma xətlərlə naxışlanmışdır. Çəhrayı astarlı qablarda spiral ornamentlər Kür-Araz mədəniyyətinin ikinci mərhələsi üçün xarakterik hesab edilir (19, s. 122). Lakin Karazda bu tip ornament birinci mərhələdə də vardır. C. Burney Karaz keramikasının böyük qrupunu erkən mərhələyə aid etmişdir (12, p. 182-189). Qeyd edək ki, bu tip spiral ornamentlərə dəyişilmiş formalarda Kür-Araz mədəniyyətinin bütün mərhələlərində rast gəlinir. Spiral ornamentlərin ən qədim nümunələri I Kültəpə (1, tablo XIX, 4) və Göytəpədən (11, s. 89; 19, s. 90, рис. 35, 32) məlumdur.

Çəhrayı astarlı keramika Naxçıvanda I Kültəpə (1, s. 125-136), II Kültəpə (18, s. 103; 4, s. 43-64;), I Maxta Kültəpəsi (Aşurov S.H. 2002, s. 44-53), Ovçulartəpəsi (8, s. 16-17), Ərəbyengicə (34, s. 19-46) və digər abidələrdən əl-

də edilmişdir. Bənzər keramika məmulatı Naxçıvanın Erkən Tunc dövrü abidələrində tez-tez rast gəlinən nümunələrdir. Şərqi Anadoluda üzərində Naxçıvan qulpları olan Kür-Araz keramikası Çətənli ve Muradiyə düzənliyindən (28, s. 326-327, tablo VII) çəhrayı astarlı qablar Güzelova (21, Lev. XIV), Plur (22, Lev. XV), Sos Höyük (32, 329 vdd), Karaz (20, s. 389), Qaragündüz (36, fig. 8), Cinis höyük (3, s. 69) və digər yaşayış yerlərində yayılmışdır. Kür-Araz mədəniyyətinə aid bu tip keramika Urmiya hövzəsində Göytəpə (11, s. 34) və Yanıqtəpə (13, p. 134-152; 14, p. 57-61) kimi abidələrdən də məlumdur. Lakin son illərin araşdırmaları zamanı İran Azərbaycanının Araz vadisində bu mədəniyyətə aid bir çox abidə aşkar edilmişdir. Bu abidələrin qazıntısı ilə bizim tanışlığımız çəhrayı astarlı keramikanın bu abidələr üçün də xarakterik olduğunu göstərir. Kür-Araz mədəniyyətinin meydana gəlməsi və formalaşması ilə bağlı məsələlər bir çox əsərlərin tədqiqat obyekti olmuşdur (19, s. 60-160; 18, s. 14-125). Bu əsərlərdə həmçinin Kür-Araz mədəniyyətinin tarixi ilə bağlı məsələlərə toxunulmuşdur (23, p. 299-320 ; 10, p. 82-87). Son illərin arxeoloji araşdırmaları, Kür-Araz mədəniyyətinin ən qədim tarixi ilə bağlı araşdırmalar zamanı II Kültəpədən alınan kömürün analizi e.ə.3360-3335 (10, p. 86), I Maxta Kültəpəsindən götürülən kömür analizi e.ə. 3316 (10, p. 87), Ovçulartəpəsindən götürülən kömür isə e.ə. 3320-ci ili göstərmişdir.



Şəkil 1



Şəkil 2

Qeyd edək ki, Ovçulartəpəsindən götürülən kömür analizi çəhrayı astarlı qabların aşkar olunduğu təbəqədən götürülmüşdür. M.Frangipane və G.Palumbi qırmızı-qara keramikanın təqribən e.ə. IV minilliyin ortalarında Son Eneolit

kontekstində meydana gəldiyini, Arslantəpə və Təpəcikdə Son Uruk təsirinin və cənub ənənələrinin göründüyünü qeyd etmişlər (25, s. 234). Lakin bu tip qablarda saman qarışığı yoxdur. Bizcə qırmızı-qara keramika adı altında qırmızı astarlı qara rəngli keramika nəzərdə tutulur. Daha sonra tədqiqatçılar bu tip keramikanin Mərkəzi və Şərqi Anadoluda e.ə. 3700-3400-cü illərdə meydana çıxdığını qeyd etmişlər (25, 253). Kür-Araz mədəniyyəti üçün daha dəqiq stratiqrafiya verən abidələrdən biri Naxçıvanda II Kültəpə yaşayış yeridir. Bu abidənin qazıntısında biz bilavasitə iştirak etmişik. II Kültəpə abidəsində qırmızı astarlı qara rəngli keramika Kür-Araz mədəniyyətinin ikinci mərhələsində meydana çıxır (18, s. 103; 9, s. 11-16). II Kültəpənin erkən mərhələsi üçün boz rəngli anqoblu keramika xarakterikdir. Bu təbəqədən altda isə samanlı keramikanın forma verməyən parçalarına rastlanmışdır. Şortəpə (35, foto 108, foto 109), I Maxta Kültəpəsi (4, s. 118, tablo V, 1-3) və Xələcdə (35) boz rəngli keramikanın daraqlanmış nümunələrinə də rastlanmışdır. Ümumiyyətlə, araşdırmalar Kür-Araz mədəniyyətinin çəhrayı astarlı qablardan əvvəl müəyyən mərhələlərdən keçdiyini göstərir. Bu mərhələlər Naxçıvan abidələrində aydın şəkildə izlənilir. 2010-cu ildə Ovçulartəpəsindən götürülən kömür analizləri e.ə. V minilliyin sonu və IV minilliyin əvvəllərini göstərmişdir. Bu Naxçıvanın Kür-Araz mədəniyyətinin vətəni olduğunu təsdiq edir.

Kür-Araz mədəniyyətinə aid olan keramika nümunələrinin bir qrupu qırmızı rəngdə bişirilmiş, lakin onların divarları arasında boz rəngli təbəqə qalmışdır. Onların birincisi xaricdən, ikinci isə hər iki üzdən yaxşı cilalanmışdır. Lakin qeyd etmək lazımdır ki, Naxçıvanda əldə edilən keramika məmulatının rəng çaları olduqca müxtəlifdir. Onlar arasında qəhvəyi və sarı rənglilər də vardır. Bu tip keramika məmulatı da Naxçıvan abidələrində geniş yayılmışdır. Ovçulartəpəsində və Duzdağda aparılan araşdırmalar erkən mərhələdə çəhrayı rəngli kertamikanın da yayıldığını göstərir. Ovçulartəpəsində çəhrayı rənglilərin bir qismi saman qarışıq gildən hazırlanmışdır. Bizim əvvəlki illərdə apardığımız araşdırmalar zamanı saman qarışığı olan sarı rəngli "Naxçıvan qulpları"na da rastlanmışdır. Amma Naxçıvan abidələrində saman qarışığı qəhvəyi və qara rəngli nümunələrdə də rastlanır. Araşdırmalarla bu tip keramikanın da erkən meydana çıxdığı müəyyən edilmişdir. Odur ki, bu tip Kür-Araz keramikasının, xüsusilə samanlı keramikanın daha qədim olduğu ehtimal edilir.

Kür-Araz mədəniyyətinin müəyyən qrupu boz-qara rəngdə bişirilmiş keramika nümunələrindən ibarətdir. Bu qrupa daxil olan keramika məmulatı hər iki üzdən boz, ya da qara rənglidir. Bəzilərinin xarıci səthi cilalı, bəziləri isə cilasızdır. Onlardan birinin xarici səthinə qara boya çəkilmişdir. Bu qabların bəzisinin üzəri oval batıqla naxışlanmışdır. Onların çoxu xaricdən yaxşı cilalanmışdır (Şəkil 2, 1; Şəkil 2, 4). Bu tip qablar Ərəbyengicə yaşayış yeri üçün xüsusilə xarakterikdir (34, s. 19-46). Lakin Ərəbyengicədə bu tip çölməklərin bəzisinin xaricinə və ağzının kənarına qara boya çəkilmişdir (34, s. 28, Şəkil 6, 2 ; s. 31, şəkil 13, 1). Bəzilərinin isə içərisinə qırmızı boya çəkilmişdir (34, s. 25).

Bu tip qablar Naxçıvanın digər abidələrindən də vardır (4, tablo XII, 1). Belə qablar II Kültəpə, I Maxta Kültəpəsi, Xornu və başqa abidələrdə aşkar olunmuşdur. Bu tip qablar Arslantəpənin "kral məzarı"ndan tapılan çölməklərlə bənzərdir (25, fig. 15, b; 23, fig. 16, 6). Onlar Norşuntəpənin 20-14-cü təbəqələrindən aşkar olunan çölməklərlə eyni tiplidir (31, abb. 5, 7). Şübhəsiz ki, bu tip qablar uzun müddət ərzində istifadə olunmuşdur. Əgər Arslantəpədə onlar e.ə. 2900-2700-cü illərlə tarixlənirsə, Norşuntəpədə e.ə. 2700-2500-cü illərlə tarixlənir (31, p. 428, abb. 1). Bu isə Kür-Araz mədəniyyətinin orta və son mərhələsinə uyğun gəlir.

Bu qrupa daxil olan çölmək tipli qabların bəzisinin ağzının kənarından gövdəsinə birləşən qulpu var. Ağzının kənarı xarıcə qatlanan, ağzının altında enli batıq zolaq olan belə qablar Kür-Araz mədəniyyətinin son mərhələsi üçün xarakterikdir. Yuxarıda qeyd etdiyimiz kimi, qabların bəzisi oval batıqla naxışlanmışdır. Göytəpədə bu tip naxışlar K_2 və K_3 təbəqələrində rast gəlinir. II Kültəpədə bu tip ornament Kür-Araz mədəniyyətinin orta və son mərhələsinə aid keramika məmulatında rastlanır (18, şəkil 13, 8; şəkil 15, 3, 5, 11; 4, s. 23, tablo XVIII, 7, 14).

Ümumiyyətlə, Naxçıvanda Kür-Araz mədəniyyətinin bütün dövrlərinə aid keramika məmulatı aşkar edilmişdir. Araşdırmalar göstərir ki, Kür-Araz mədəniyyətinin qədim dövrünə aid olan keramika yalnız rels şəkilli ağız kənarı olanlar deyil. Naxçıvan abidələrindən, o cümlədən Sədərəkdən aşkar olunan saman qarışıq keramika məmulatının araşdırılması ağız kənarı ucda incələrək xaricə qatlamış silindrik boğazlı, yaxud qabarıq gövdəli, ağzının kənarı xeyli yana əyilən tiplərin də qədim olduğunu göstərir. Yeni tapıntılar xüsusilə Sədərək, Ərəbyengicə, Xələc və Ovçulartəpəsinin arxeoloji materialları Kür-Araz mədəniyyətinin formalaşması ilə bağlı təsəvvürləri müəyyən qədər dəyişir və Son Eneolit mədəniyyətinin bu mədəniyyətin formalaşmasına təsir etdiyi çox-saylı faktlarla təsdiq olunur.

Bununla belə, Kür-Araz mədəniyyətini hind-avropalılara, qafqaz-iber dil ailəsinə, yaxud xurritlərə aid edənlər hələ də öz fikirlərindən əl çəkməmişlər. Halbuki, bu mədəniyyətlə bağlı dil faktları demək olar ki, yoxdur. Deyilən fikirlər yalnız qeyri-elmi hipetozlara əsaslanır. Kür-Araz mədəniyyətinin yayıldığı ərazidə maddi-mədəniyyət nümunələrinin heyrətamiz bənzərliyinə baxmayaraq, bu mədəniyyətdə lokal xüsusiyyətlərin izləndiyi qeyd edilmişdir. Şübhəsiz ki, Kür-Araz mədəniyyətinin formalaşmasında müxtəlif xalqlar iştirak etmişdir və onu yalnız müəyyən bir xalqa bağlamaq düzgün sayıla bilməz. Son illərin araşdırmaları göstərir ki, Naxçıvan daxil olmaqla Cənubi Azərbaycanın Arazboyu vadisi bu mədəniyyətin əsas ocaqlarından biri olmuşdur. Kür-Araz mədəniyyətinin formalaşması ilə bağlı "dağdan endilər" deyənlər də öz fikirlərini yenidən nəzərdən keçirməlidirlər. Çünki Cənubi Qafqazın yüksək dağlıq zonalarında bu mədəniyyətin ilkin formasına rastlanmamışdır. Əksinə, Arazbo-

yu vadidə yerləşən abidələr çoxtəbəqəli olması ilə fərqlənir və Kür-Araz mədəniyyətinin bütün mərhələlərini ardıcıl izləməyə imkan verir.

ƏDƏBİYYAT

1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982.
2. Алиев В.Г. Новые археологические исследования памятников энеолита и бронзы Нахичеванской АССР / АЭИА. Баку: Елм, 1986, с. 5-11.
3. Alparslan Ceylan. Doğu Anadolu Araştırmaları (Erzurum-Erzincan-Kars-İğdır). Erzurum: Güneş Vakfı yayınları, 2008, 366 s.
4. Aşurov S.H. Naxçıvanın İlk Tunc dövrü keramikası. Bakı: Elm, 2002.
5. Aşurov S.H., Baxşəliyev V.B., Hüseynova S.A., Əliyeva F.A., Əliyev O.K. I Maxtada 2009-cu il qazıntıları. Azərbaycanda arxeoloji tədqiqatlar 2009. Bakı: Xəzər Universiteti, 2010, s. 65-69.
6. Baxşəliyev V.B. Naxçıvanın Kür-Araz mədəniyyəti // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2007, № 1, s. 54-60.
7. Baxşəliyev V.B. Naxçıvanın arxeoloji abidələri. Bakı: Elm, 2008, 304 s.
8. Bakhchaliyev V., Marro C., Ashurov S. Ovçulartəpəsi. Bakı: Elm, 2010, 154 s.
9. Bakhchaliyev V., Marro C. The Archaeology of Nakhchivan: Ten years of new discoveries. İstanbul: Ege, 2009, 118 p.
10. Bakhchaliyev V., Lauren R. and Ashurov S. The chronology of Kura-Arakses sites: 2006 Excavations at Kultepe II and Maxta I. In Azerbaijan – Land between East and West, Baku, 2009, p.82-87.
11. Brown T.B. Excavaton in Azerbaijan 1948.London: John Murray, 1951, 179 p.
12. Burney C.A. Eastern Anatolia in Chalcolithic and Early Bronze Age. AS, VIII, 1958, p.157-199.
13. Burney C.A. The Excavations at Yanıc Tepe Azerbaijan 1961. Second preliminary Report // İraq, 1962, vol. XXIV, p. 2, p. 134-152.
14. Burney C.A. The Excavations at Yanıc Tepe Azerbaijan 1962. Third preliminary Report // İraq, 1964, vol. XXVI, p. I, p. 57-61.
15. Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı I minilliyin əvvəlində. Bakı: Elm, 2000.
16. Исмаилзаде Г. Азербайджан в системе раннебронзовой культурной общности Кавказа. Баку: Нафта-пресс, 2008, 304 с.
17. İbrahimli B., Qədirzadə H. Plovdağda arxeoloji qazıntılar. Azərbaycanda arxeoloji tədqiqatlar 2008. Bakı: Xəzər Universiteti, 2008, s. 55-60.
18. Сеидов А.Г. Памятники Куро-Аракской культуры Нахичевани. Баку, Билик, 1993, 164 с.
19. Кушнарева К.Х., Чубинишвили Т.Н. Древние культуры Южного Кавказа. М.-Л.: Наука, 1970, 190 с.
20. Koşay H.Z. Erzurum-Karaz Kazısı raporu, Belleten, 91, 1959, s. 349-413.

21. Koşay H.Z., Vary H. Güzelova kazısı. Ankara, 1967, 140 s.
22. Koşay H.Z., Vary H. Pulur Kazısı. 1960 Mevsimi Çalışmaları. Ankara, 1964.
23. Lyonnet B. La Mésopotamie et le Caushape du Nord au IVème et au début du IIIème millénaires av. n.è.: leurs rapports et les problèmes chronologiques de la culture de Majkop. Etat de la question et nouvelles propositions. In C. Marro and H. Hauptmann (ed.), Chronologie des Pays du Caushape et de l'Euphrate aux IVème-IIIème Millénaires. Actes du Colloque d'Istanbul, 16-19 décembre 1998. Varia Anatolica XI, 2000, Paris , p. 299-320.
24. Lyonnet B., Guliyev F. Excavation at Mentesh Tepe. Azərbaycanda arxeoloji tədqiqatlar 2009. Bakı: Xəzər Universiteti, 2010, s. 268-273.
25. Frangipane M., Palumbi G. Red-Blac Ware, Pastoralism, Trade, and Anatolian-Transcaucasian interactions in the 4th-3rd millennium BC. Les cultures du Caucase. Sous la direction Bertille Lyonnet. CNRS EDISIONS, Paris, 2007, p. 233-255.
26. Marro C. Late Chalcolithic ceramic cultures in the Anatolian Highlands. ANES, Edited by Karen S.Rubinson and Antonio Sagona. Leuven-Paris-Dudley, 2008, p. 9-37.
27. Marro C. and A. Ozfirat. Pre-classical Survey in Eastern Turkey. First preliminary Report: the Agrı Dag (Mount Ararat) region. In Anatolia Antiqua, 2003, XI, IFEA, Paris, p. 385-422.
28. Marro C. and A. Özfirat. "Pre-classical Survey in Eastern Turkey. Third preliminary Report: the Dogubeyazit region". In Anatolia Antiqua, 2005, XIII, IFEA, Paris, p. 319-356
29. Ashurov V.S. Excavations at Ovchular Tepesi (Nakhchivan, Azerbaijan). First preliminary report: the 2006-2008 seasons. Anatolia Antiqua, 2009, XVII, p. 31-87.
30. Нариманов И.Г. Культура древнейшего земледельческо – скотоводческого населения Азербайджана. Баку: Элм, 1987.
31. Hauptmann H. Zur chronologie des 3. Jahrtausends V. CHR. Am oberen Euphrat Aufgrund der stratigaphie des Norshuntepe. Chronologie des Pays du Caushape et de l'Euphrate aux IVème-IIIème Millénaires. Varia Anatolica XI, Paris, 2000, s. 419-438.
32. Sagona A. Sos hoyuk and the Erzurum region in late prehistory: a provisional chronology for northeastern Anatolia Area. Anatolica XI Chronologies des pays du Caucuses et de L\ euphrate aux I et III Millenaries, edited by C.Marro and H Hauptmann, 2000, Paris, p. 329-373.
33. Seyidov A.Q. Naxçıvan e.ə. VII-II minillikdə. Bakı: Elm, 2003, 334 s.
34. Seyidov A., Baxşəliyev V. Ərəbyengicə. Bakı: Nurlan, 2009, 160 s.
35. Seyidov A., Baxşəliyev V. Xələc. Bakı: Elm, 2010
36. Sevin Veli and Aynur Özfırat. Van-Karagündüz Excavations. İstanbul University/ s Contributions to Archaeology in Turkey(1932-2000), 2001, s. 140-144.

Вели Бахшалиев

НОВЫЕ НАХОДКИ ЭПОХИ РАННЕЙ БРОНЗЫ НА ТЕРРИТОРИИ НАХЧЫВАНА

Исследование показывает, что Нахчыван был одним из ранних очагов Куро-Араксской культуры. В Нахчыване были обнаружены керамические изделия почти всех периодов Куро-Араксской культуры. Среди них была так называемая в археологической литературе “Прото Куро-Араксская” керамика. Аналоги черных, залощенных керамических изделий с розовой подкладкой, Куро-Араксской культуры, известны из памятников Азербайджана, Южного Кавказа и Восточной Анатолии. Исследования показывают, что Куро-Араксская культура до появления черноглиняной керамики с розовой подкладкой прошла некоторые этапы. Керамические изделия с примесью мякины и с розовой подкладкой были древнейшими экземплярами Куро-Араксской культуры. Новые находки из Овчулартепеси датируются концом V и началом IV тысячелетия до н.э.

Veli Bakhshaliyev

NEWLY FINDS THE EARLY BRONZE AGE IN THE TERRITORY NAKHCHIVAN

Investigations show that Nakhchivan was one of early settlements of Kuro-Araxes culture. Pottery of all periods of Kuro-Araxes culture has been found in Nakhchivan. Among of them there are so-called in the archaeological literature “Proto-Kuro-Araxes” pottery has been revealed. Analogs of black burnished pottery with a pink lining of Kuro-Araxes culture are known from monuments of Azerbaijan, Southern Caucasus and East Anatolia. Researches show that Kuro-Araxes culture passed some stages before occurrence of black ceramics with a pink lining. Pottery with chaff temper and a pink lining was ancient examples of Kuro-Araxes culture. Newly finds of Ovchulartepesi dated the end of V and of the beginning of IV millennium BC.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

TOĞRUL XƏLİLOV
AMEA Naxçıvan Bölməsi
E-mail: x.toqrul@gmail.com

GİLANÇAY VADİSİNİN YENİ ARXEOLOJİ ABİDƏLƏRİ

(AMEA-nın müxbir üzvü V.B.Baxşəliyev tərəfindən təqdim edilmişdir)

Naxçıvanda müxtəlif dövrlərə aid çoxlu miqdarda arxeoloji abidələr var. Onların əksəriyyətində tədqiqat işləri aparılaraq Azərbaycan arxeologiyasının bir çox problemlərinə aydınlıq gətirilmişdir. Bir qrup abidələr isə hələ də öyrənilməyibdir. Gilançay vadisinin yuxarısında aparılan arxeoloji araşdırmalar zamanı bu sahədə müəyyən uğurlar əldə edilmiş və bir sıra yeni arxeoloji abidələr aşkar olunmuşdur. 2005-2008-cı illərdə bu ərazidə aşkar olunmuş yeni qayaüstü təsvirlər, Dəmyələr, İlikliqaya, Qumluq yaşayış yerləri və nekropolları belə abidələrdəndir. Gilançay vadisində 2008-2010-cu illərdə bizim apardığımız arxeoloji araşdırmalar nəticəsində daha bir neçə yeni arxeoloji abidə aşkar olunubdur. Zəy dərəsi, Haçaqaya, Təkəsaqqallı zəmi, Pətəkqoyulan, Güney yaşayış yeri və nekropolları bu tip abidələrdəndir.

Haçaqaya yaşayış yeri və nekropolu Ordubad rayonunun Tivi kəndi ərazisində, kəndin cənub-qərbində, Gilançayın sol sahilində, eyni adlı dağın üzərində yerləşir. Abidəyə qalxarkən yol boyu qayaaltı sığnaqlara rast gəlinir.

Yaşayış yeri şimaldan və cənubdan qayalıq, şərqdən və qərbdən yarğanla əhatə olunubdur. Sahəsi 3 hektardan artıqdır. Yaşayış yerinin əlverişli strateji-coğrafi mövqedə yerləşməsi Yuxarı Gilançay boyundakı ərazinin bir hissəsini nəzarətdə saxlamaq üçün olduqca əhəmiyyətlidir. Abidənin yerləşdiyi ərazi zəngin otlaq sahələrinə malik olduğundan burada heyvandarlığın inkişafı üçün əlverişli şərait var. Yaşayış yerinin yaxınlığında təbii bulağın olması orada insanların məskunlaşmasına şərait yaradan əsas amillərdən birini təşkil edir.

Abidədə aparılan kəşfiyyat xarakterli arxeoloji tədqiqatlar burada insanların mövsümi həyat tərzi keçirdiyini göstərir. Bunun nəticəsində çox az miqdarda (0,5-1m qalınlığında) mədəni təbəqə yığılıbdır. Kül və torpaq laylarından ibarət olan mədəni təbəqə təbii aşınma nəticəsində dağılıbdır. Yaşayış yerindəki dağılmış evlərin yerində daş yığınları, torpaq qarışıq təpəciklər, üzərini otlar örtən dördkünc formalı çalalar qalıbdır. Dağılmış bina qalıqlarına əsasən oradakı evlərin dördkünc planda tikildiyi bilinir. Onların bir çoxu ovalvari formalı təpə-

nin üzərindəki kiçik düzənlik ərazidə, bir qismi dərənin kənarında, bulağın yanındadır.

Haçaqaya nekropolu eyni adlı yaşayış yerinin yaxınlığında, təpə üzərində, qumluq ərazidə yerləşir. Sahəsi 1,5 ha yaxındır. Nekropolun ərazisi cənubdan yaşayış yeri, şimaldan və şərqdən dərə ilə əhatə olunub. Nekropoldakı qəbirlər təbii aşınma nəticəsində dağıldığından onların quruluşu haqqında bitkin fikir söyləmək bir qədər çətindir. Lakin nisbətən yaxşı qalmış qəbirlərə əsasən onların daş qutu tipli olduğunu ehtimal etmək olar.

Haçaqaya yaşayış yeri və nekropolundan əldə olunan yerüstü arxeoloji materiallar keramika məmulatlarından ibarətdir. Onlar boz və çəhrayı rəngli olmaqla iki qrupa bölünür. Əldə olunan hər iki qrup qabların əksəriyyəti narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilibdir. Bəziləri iri qum qarışığı olan gildən hazırlanıbdır. Çəhrayı rəngli qablar boz rənglilərə nisbətən çoxluq təşkil edir. Onların çoxu tünd, bir qismi isə açıq çəhrayı rənglidir. Bəzilərinin üzəri his təbəqəsi ilə örtülübdür.

Yaşayış yerindən əldə olunan çəhrayı rəngli keramika məmulatları sadə və boyalı olmaqla iki qrupa bölünür. Çəhrayı rəngli sadə keramika məmulatları küpə, kasa, çölmək tipli qablardan ibarətdir.

Küpələrin əksəriyyətinin ağzı azca xaricə qatlanıbdır (şəkil 1, 1, 3). Onların boğazları qısa və ya silindrik şəkildə düzəldilibdir.

Kasa tipli qabların gövdələri qabarıq və ya konusvari formalıdır. Onların əksəriyyətinin ağzı xaricə qatlanaraq dəyirmiləşibdir. Bir qrupunun ağzı içəri yığılıbdır (şəkil 1, 10).

Çölmək tipli qabların hamısı qabarıq gövdəli, yastı oturacaqlı, gen ağızlı hazırlansa da, ağız kənarlarının quruluşuna görə bir-birindən fərqlənir.

Yaşayış yerindən əldə olunmuş çəhrayi rəngli boyalı keramikaların bir qrupu ornamentlərinə görə I Kültəpə (1, s. 85-86), II Kültəpə (9, s. 47), Şortəpə (10, şəkil 27, 8), Qazançıqala (6, şəkil 13, 5, 12, 16) və s. abidələrindən tapılan Orta Tunc dövrünə aid qablarla oxşarlıq təşkil edir. Onların üzəri qara rənglə qoşa enli xətlər arasına alınmış bucaq formalı ornamentlə naxışlıdır (şəkil 1, 7, 8).

Yaşayış yerindən əldə olunan boz rəngli keramika məmulatlarının hamısı sadədir. Onların bir qrupunu forma verməyən hissələr təşkil edir. Forma verən keramikalar küpə, kasa, çölmək tipli qablardan ibarətdir. Onlar forma və xüsusiyyətlərinə görə çəhrayı rənglilərlə oxşarlıq təşkil edir.

Küpə tipli qablar qabarıq və ya şar gövdəli düzəldilibdir. Onların boğazları qısa və uzundur. Əksəriyyətinin bir, bəzilərinin hər iki üzü hamarlanıbdır.

Çölmək tipli qabların hamısı qabarıq gövdəli, yastı oturacaqlı, gen ağızlı düzəldilibdir. Kasa tipli qabların bir qisminin gövdəsi qabarıq və ya silindrik, bir qrupu isə konusvari formalıdır.

Haçaqaya nekropolundan əldə olunan gil qablar eyni adlı yaşayış yerindən aşkar edilən keramika məmulatları kimi boz və çəhrayı rəngli olmaqla iki

qrupa bölünür. Onların hamısı narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilibdir. Çəhrayı rəngli qablar boz rənglilərə nisbətən çoxluq təşkil edir.

Nekropoldan əldə olunan çəhrayı rəngli keramikaların əksəriyyəti küpə, çölmək tipli qablardan ibarətdir.

Küpə tipli qablardan bir qrupunun üzəri cilalanıbdır. Boğazı silindrik formada düzəldilib, ağzı xaricə qatlanıbdır (şəkil 1, 2).

Çölmək tipli qablar gen ağızlı, qabarıq gövdəli, yastı oturacaqlı düzəldilibdir. Onların bəziləri düz ağız kənarlıdır. Bir qrupunun ağzı xaricə qatlanıbdır. Nekropoldan aşkar edilən xaricə qatlanmış ağız kənarlı çölməklərdən birinin ağzının kənarı çızma xətlə naxışlanmışdır (şəkil 1, 4). Bu qab naxışlanma motivinə və ornamentlərinə görə Mərdangöl (3, tab. XXV, 16, 17), I Boyəhməd (11, s. 32, şəkil 11, 4, 5), Dəmyələr (7, s. 84-93), Mingəçevir (2, tab. XVIII, 14, 15; tab. XLIII, 8), Gəncəçay (12, s. 136-138), Qarqarçay, Tərtərçay (8, s. 160-163) və s. arxeoloji abidələrindən tapılan bir qrup çölməklərlə oxşarlıq təşkil edir.

Yaşayış yerindən və nekropoldan əldə edilən keramika nümunələrinin öyrənilməsi onu göstərir ki, hər iki abidədən əldə olunmuş gil qablar hazırlanma texnologiyasına, forma və xüsusiyyətlərinə görə bir-biri ilə oxşarlıq təşkil edir. Yaşayış yerindən toplanılmış monoxrom rəngli keramikalardan fərqli olaraq sadə qabların bəziləri Son Tunc-Erkən Dəmir dövrünə aid xüsusiyyət daşıyır. Əldə olunmuş maddi-mədəniyyət nümunələrinin kompleks şəkildə öyrənilməsi onu göstərir ki, Haçaqaya yaşayış yeri və nekropolu e.ə. III-I minilliklərə aiddir.

Təkəsaqqallı zəmi. Tivi kəndindən qərbdə, Tivi-Bist şose yolunun sağ tərəfində qeydə alınıbdır. Sahəsi 4 ha yaxındır. Yaşayış yeri şərqdən dərin dərə, qərbdən Gilançayla, şimaldan və çənubdan isə otlaq sahələri ilə əhatə olunur. Buradakı yaşayış binasının qalıqları tamamilə dağıldığından onların yerində daş yığınları, üzərini otlar örtən dördkünc formalı çalalar qalır. Abidənin şərq tərəfində nisbətən salamat qalmış divar qalığı var. Uzunluğu 10-15 m, hündürlüyü 2-2, 3 m, eni 1, 5 m-ə yaxın olan divar heç bir bərkidici məhlul olmadan iri daşlarla yerin relyefinə uyğun olaraq ziqzaq formada tikilibdir. Bu divar qalığı tikinti texnikasına görə Naxçıvandakı Erkən Dəmir dövrünün müdafiə divarları ilə, siklopik tikililərlə oxşarlıq təşkil edir. Yaşayış yerinin bir hissəsinin sel sularının təsirindən dağılması nəticəsində oradakı mədəni təbəqə üzə çıxıbdır. Aparılan kəşfiyyat xarakterli araşdırma zamanı abidədə mədəni təbəqənin az yığıldığı müəyyən olunubdur. Yaşayış yerində mədəni təbəqənin çox az saxlanılması, onun yerləşdiyi ərazinin xeyli otlaq sahələrinə malik olması, heyvan adı ilə (təkəsakkallı) tanınması və digər amillər abidənin maldar tayfalarla bağlı olduğunu qeyd etməyə əsas verir.

Zəy dərəsi yaşayış yeri. Tivi kəndinin ərazisində, Gilançayın sol sahilində yerləşir. Sahəsi 2 ha yaxındır. Abidə şərq tərəfdən dərə ilə iki hissəyə bölünübdür. Onun xeyli hissəsi sel sularının və Gilançayın təsiri nəticəsində dağılıbdır. Yaşayış yerindəki tikintilər dağıldığından onların yerində daş yığınları,

üzərini otlar örtən dördkünc formalı çalalar qalır. Abidədən əldə olunmuş keramika məmulatları boz və çəhrayı rəngli olmaqla iki qrupa bölünür. Çəhrayı rəngli qablar narın qum qarışığı olan gildən düzəldilibdir. Onların bir qrupunun ağzı azca xaricə qatlanıbdır, bəziləri düz ağız kənarlıdır. Yaşayış yerindən tapılan düz ağız kənarlı küpə tipli qablardan birinin hər iki səthi hamarlanaraq yaxşı bişirilibdir (şəkil 1, 6). Tünd çəhrayı rəngli küpə tipli qab nisbətən nazik divarlıdır. Onun ağzı azca xaricə qatlanıbdır, boğazı silindrik formada düzəldilibdir (şəkil 1, 5).

Zəy dərəsi nekropolu eyni adlı qədim yaşayış yerininin yaxınlığında qeydə alınıbdır. Sahəsi 0, 5 ha yaxın olan nekropoldakı qəbirlər yamacda, dərənin qırağında olduğuna görə təbii aşınma nəticəsində dağılıbdır. Buna görə də oradakı qəbirlərin tipini müəyyənləşdirmək çətinlik törədir. Nisbətən salamat qalmış qəbirlər onların daş qutu tipli olduğunu qeyd etməyə əsas verir.

Nekropoldan tapılan tünd çəhrayı rəngli küpə tipli qab silindrik boğazlı, bikonik gövdəlidir. Onun ağız kənarı azca xaricə qatlanıb, hər iki səthi hamarlanıbdır (şəkil 1, 9).

Yaşayış yerindən və nekropoldan əldə olunmuş küpə tipli qablar Haçaqaya, Dəmyələr (7, şəkil 6, 4, 5), Haqqıxlıq (5, şəkil 19, 4), Muncuqlutəpə (3, şəkil 70, 1), Gəncəçay (12, s. 130) abidələrindən və digərlərindən tapılan Son Tunc-Erkən Dəmir dövrünə aid bir qrup qablarla oxşarlıq təşkil edir.

Pətəkqoyulan yaşayış yeri Tivi kəndinin ərazisində Gilançayın sol sahilində, şose yolundan yuxarıda, "Yetim İbrahimin bağı"nın yaxınlığında qeydə alınıbdır. Abidədəki yaşayış binasının qalıqlarının çoxu dağıldığından onların yerində daş yığınları qalır. Yaşayış yerinin bəzi yerlərində nisbətən salamat qalmış bina qalıqları var. Onlar daş və möhrə ilə dördkünc formada tikilibdir. Abidənin ətrafında qeydə alınan divar qalıqları tikinti texnikasına görə bir qədər fərqlidir. Onlar siklopik tikililər kimi heç bir bərkidici məhlul olmadan iri və xırda daşlarla tikilibdir. Yaşayış yeri kəşfiyyat xarakterli tədqiqatlar nəticəsində öyrənilibdir. Oradan əldə olunmuş keramika məmulatlarının bir qrupu və tikinti qalıqları Erkən Dəmir dövrünə aid xüsusiyyətlər daşıdığından abidənin həmin dövrə aid olduğunu ehtimal etmək olar.

Yuxarı Gilançay vadisində tərəfimizdən qeydə alınmış yeni arxeoloji abidələrin tədqiqi Gəmiqaya təsvirlərinin təsadüfən çəkilmədiyini bir daha sübut edir və bu ərazinin qədim yaşayış məskənlərindən biri olduğunu göstərir. Arxeoloji abidələrin dövr etibarı ilə Gəmiqaya abidəsi ilə yaxınlıq təşkil etməsi, ona yaxın ərazidə yerləşməsi onların Gəmiqaya təsvirləri ilə eyni mədəniyyətə aid olduğunu qeyd etməyə əsas verir.



Şəkil 1. Haçaqaya yaşayış yeri və nekropolundan tapılan keramikalar (1-4, 7, 8, 10); Zəy dərəsi yaşayış yeri və nekropolundan tapılan keramikalar (5, 6, 9).

ƏDƏBİYYAT

1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 314 с.
2. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур. Баку: Изд-во АН Азерб. ССР, 1959, 191 с.

3. Асланов Г.М., Ибрагимов Б.И., Кашкай С.М. Древние некрополи Хараба-Гилана. Баку: Нурлан, 2003, 101 с.
4. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку: Элм, 1991, 256 с.
5. Baxşəliyev V.B. Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti. Bakı: Elm, 2002, 128 c.
6. Baxşəliyev V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti. Bakı: Elm, 2004, 320 s.
7. Baxşəliyev V.B. Dəmyələr nekropolu Erkən Dəmir dövrünün yeni abidəsidir / AMEA Naxçıvan Bölməsinin Xəbərləri, № 4, Naxçıvan: Tusi, 2006, s. 84-89.
8. Cəfərov H.T. Azərbaycan e.ə. IV minilliyin sonu-I minilliyin əvvəllərində (Qarabağın Qarqarçay və Tərtərçay hövzəsinin materialları əsasında). Bakı: Elm, 2000, 187 s.
9. Əliyev V.H. Azərbaycanda tunc dövrunün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 164 s.
10. Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şərurun arxeoloji abidələri. Bakı: Elm, 1993, 181 s.
11. Novruzlu Ə.İ., Baxşəliyev V.B. Culfa bölgəsinin arxeoloji abidələri. Bakı: Elm, 1992, 108 s.
12. Nərimanov İ.N. Gəncəçay rayonunun arxeoloji abidələri. Bakı: Az. SSR EA Nəşriyyatı, 1958, 142 s.

Тогрул Халилов

НОВЫЕ АРХЕОЛОГИЧЕСКИЕ ПАМЯТНИКИ В ДОЛИНЕ ВЕРХНЕГО ГИЛАНЧАЯ

В статье изучаются новые археологические памятники в верхнем течении долины Гиланчая. Систематизируются керамические материалы, найденные в этих памятниках. Установлено, что археологические памятники связаны с полукочевым скотоводством.

Togrul Khalilov

THE NEW ARCHEOLOGICAL MONUMENTS IN THE VALLEY OF UPPER GILANCHAY

In the article was investigated newly archeolagical monuments in the valley of upper Gilanchay. The ceramic materials discovered in these monuments are systematized. It is determined, that both those archeological monuments are connected with the half-nomadic cattle breeding.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

ZEYNƏB QULİYEVA
AMEA Naxçıvan Bölməsi

ARPAÇAY VADİSİ TAYFALARININ İNCƏSƏNƏTİ VƏ İDEOLOGİYASI

(AMEA-nın müxbir üzvü V.B.Baxşəliyev tərəfindən təqdim edilmişdir)

Naxçıvanda məskunlaşan qədim tayfaların dini inancları incəsənət əsərlərində də əks olunmuşdur. Başqa sözlə, incəsənət ideologiyanın təzahür formalarından biri kimi meydana çıxmışdır. Məlumdur ki, qədim tayfalar ilk vaxtlar anlaya bilmədikləri təbiət qüvvələrinə sitayiş etmiş və bunları müxtəlif əşyaların üzərində əbədiləşdirmişlər. Həbibullayev qeyd edir ki, qabların üzərindəki düzbucaqlı və üçbucaqlılar insanı əhatə edən dağların, sınıq və dalğalı xətlər isə suyun, yaxud yağışın rəmzi ola bilərdi. Su həyat bəxş etdiyi üçün məhsuldarlıqla bağlı olmuşdur (1, s. 46). Yaycı nekropolundan əldə edilən keramika bu baxımdan çox maraqlıdır. Buradan tapılan küpələrdən birinin gövdəsində üçbucaqlı, rombşəkilli həndəsi motivlər, digərinin üzərində sınıq və dalğavari xətlər yuxarıdakı fikri təsdiq edir. Qeyd etmək lazımdır ki, dalğavari xətlər tətbiqi incəsənətdə tez-tez rast gəlinən motiv olduğundan bəzən "su ornamenti", "ilan yolu" və s. kimi adlarla xatırlanır. Etnoqrafik materiallardan məlum olduğu kimi, dalğavari xətlər təkcə axar suyu deyil, bərəkət və məhsuldarlığın qoruyucusu kimi ilanın da simvolu ola bilərdi (2, s. 252). Bu tipli naxışlara Xələc qədim yaşayış yerindən tapılan qabları da nümunə göstərmək olar. Buradan əldə edilən boz rəngli qablardan biri üçbucaq şəkilli batıq ornamentlə, digəri dalğavari batıq xətlərlə naxışlanmışdır. Arpaçay vadisindən aşkar edilən keramika məmulatlarının üzərində tez-tez rastlanan bu naxışlar yerli tayfaların ideologiyasında suyun və ilanın mühüm yer tutduğunu göstərir. Bəzi saxsı parçaları üzərində sünbülşəkilli ornamentlərin olması da bolluq, bərəkət rəmzi hesab oluna bilərdi. Ovçulartəpəsi yaşayış yerində naxışlar kəsmə, cızma xətlərlə, oval batıq və məməcikşəkilli çıxıntılarla təmsil olunmuşdur (8, s. 17).

Arpaçay vadisində rast gəlinən buta təsviri maraqlı naxışlardan biridir. Bu cür ornamentlərə Xələc və Ovçulartəpəsi keramikasında təsadüf edilmişdir (9, s. 19) (şəkil 6). Bu ornamentasiya yerli incəsənətin təkmilləşdiyini göstərməklə bərabər, həm də qədim dini inanclardan hesab olunurdu. Doqquz rəqəmini xatırladan buta göy aləminin qatlarını təmsil etdiyi üçün müqəddəs sayılmış-

dır. Qeyd etmək lazımdır ki, bu təsvirin bənzərinə I Maxta Kültəpəsində də rastlanmışdır.

Tədqiqatçılar qeyd edirlər ki, Tunc dövrü insanları təbiət qüvvələri ilə yanaşı, həmçinin iri və xırda buynuzlu heyvanlara sitayiş etdikləri üçün bu ideologiya onların mənəvi dünyasını zənginləşdirmişdir. Onlar tapındıqları varlıqları düşündükləri kimi müxtəlif materialların üzərinə köçürmüş, yaşayış yerlərində onlardan ritual məqsədlə istifadə etmişlər (10, s. 286). Bunu öküz başı formasında hazırlanmış ocaq qurğularının timsalında izləmək mümkündür. Bir vaxtlar Şortəpə qədim yaşayış yerində qazıntı aparmış Ələkbərov bu cür ocaq qurğusuna rast gələrkən bunun öküz kultu ilə bağlı olduğunu qeyd etmişdir (4, s. 254). Buradan tapılan fiqurun buynuzvari çıxıntısı qırılmışdır. Buna baxmayaraq bu fiqur öz quruluşunu qoruyub saxlamışdır. Ərəbyengicədən manqal tipli ocaq qurğusunun bir hissəsinin tapılması göstərir ki, Arpaçay vadisində ocağa sitayiş ayini mövcud olmuşdur (11, s. 37). Qeyd etmək lazımdır ki, Kür-Araz mədəniyyəti qablarının üzərində rast gəlinən yarımşarformalı qulplar da öküz kultu ilə əlaqələndirilir. Tədqiqatçılar onların mühafizə xarakterli olduğunu göstərirlər (9, s. 283). İsmayılovun fikrincə malın burnuna bənzər yarımşarşəkilli qulplar od püskürən öküzün simvolu olmuşdur (12, s. 16). Arpaçay vadisinin Şortəpə yaşayış yerində bu tipli qulplar daha çox təmsil olunmuşdur.

I Maxta Kültəpəsindən tapılan öküz və inək formasında hazırlanmış heyvan fiqurları daha maraqlı quruluşa malikdir. Bu fiqur təkcə insanların gördüklərinin deyil, eyni zamanda zəngin təxəyyülünün məhsulu idi. Buynuzların ayparaya bənzədilməsi qədim insanların məhsuldarlığı göy cisimləri ilə əlaqələndirməsinin təzahür forması hesab edilir (5, s. 47).

Faktlar göstərir ki, Arpaçay vadisində səma cisimlərinə sitayiş edildiyi qədər totemizm də geniş yayılmışdır. Yerli tayfalar öz ideologiyalarını bəzən ocaq qurğuları, bəzən də qabların üzərindəki təsviri sənət nümunələri ilə ifadə etməyə çalışmışlar. Qədim tayfaların bədii təxəyyülünün inkişafı özünü daha çox boyalı keramikada göstərmişdir. Yaycı, Qızılburun, Şahtaxtı, Kültəpədən tapılan monoxrom və polixrom boyalı qablar üzərindəki ornamentlər orijinal və mürəkkəb kompozisiyası ilə fərqləndiyi üçün tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Tədqiqatçılar keramika məmulatları üzərində təsvir edilən quş, keçi, maral, at və insan rəsmlərinin simvolik məna daşıdığını, qədim miflərlə əlaqədar olduğunu qeyd edirlər (2, s. 179; 5, s.78). V.Baxşəliyev bu təsvirlərə bir qədər də aydınlıq gətirmiş və vəhşi heyvanların quşlara hücumunu göy aləmi ilə (zərif quşlar) qaranlıq aləmin (vəhşi quşlar) mübarizə səhnəsi kimi xarakterizə etmişdir (5, s.78). Qədim Şərq nağıllarında rast gəlinən qaranlıqla işıq, xeyirlə şər arasında mübarizə tarixin bu alaqaranlıq səhifələrindən süzülüb gəlirdi. Bəlkə də qabların üzərindəki təsvirlər nağıllarımızın ilk rüşeymləri idi. Yaycıdan tapılan küpə üzərindəki mənzərə bu baxımdan daha diqqətəlayiqdir: qab üzərində iki cərgə heyvan təsvirləri çəkilmiş, birinci cərgə quş, ikinci cərgə isə maral, it, keçi və qoyun təsvirləri ilə bəzədilmişdir. Tədqiqatçıların bu cür mürək-

kəb kompozisiyaları Şumer mədəniyyəti ilə əlaqələndirməsi (6, s. 41) Arpaçay vadisində yaşayan tayfaların onlarla ideoloji yaxınlığından və bir-birinə olan inteqrasiyadan xəbər verir. Bəzi qabların üzərində şaquli istiqamətdə ziqzaq formalı bir neçə qatlı xətlərin çəkilməsi də təbiət hadisələrinin – şimşək çaxmasının simvolu ola bilərdi.

Qədim tayfaların ideologiyası onların dəfn adətlərində də özünü göstərir. 1969-cu ildə Dizə kurqanından aşkar edilən qəbirlər bu barədə fikir yürütməyə imkan verir. Qəbirlərdən üzə çıxarılan parç və banka tipli qablar yerli tayfaların axirət dünyasına inanclarından xəbər verir (6, s. 42).

Arpaçay vadisi tayfalarının ideologiyasında tayfa başçısının ilahiləşdirilməsi amilinə də təsadüf edilir. Ərəbyengicə qədim yaşayış yerindən əldə edilən yuvarlaq tuf daşı üzərindəki antropomorf təsvir (şəkil 9) bu baxımdan xüsusi əhəmiyyət daşıyır (11, s. 32). Şəkildə insan sifətinin əsas cizgilərinin çəkilməsi insan amilinin dəyərləndirilməsinin göstəricisi hesab edilə bilər. Tayfa başçılarının ilahiləşdirilməsini tayfa başçısına aid kurqanların nümunəsində izləmək mümkündür. Onların yanında yaxınlarının, xidmətçilərinin, bəzən də heyvanların basdırılması qəbirlərin böyük və hündür olmasına zəmin yaradırdı. Kurqanların kromlexlə əhatə edilməsi tədqiqatçılar tərəfindən əhalinin dini inancları ilə əlaqələndirilir. V.Əliyev qeyd edir ki, konsentrik dairə incəsənətdə və arxitekturada qədim tayfaların günəşə sitayişinin təzahür forması olmuşdur (2, s. 169). Beləliklə, tədqiqatçıların fikirlərinə istinad edərək belə bir qənaətə gəlmək olar ki, dəfnlərdə dairəyə alma günəşə sitayiş və tayfa başçısının ilahiləşdirilməsini göstərirdi. I Maxta Kültəpəsindən aşkar edilən ziyarətgah, onun içərisində bir sırada düzülmüş üç büt, onların yaxınlığındakı nalşəkilli ocaq qurğusu da qədim insanların inandığı tanrıları, tayfa başçılarına və əcdadlara olan inancların ən bariz nümunələrindəndir. Tədqiqatçılar bu ziyarətgahın qəbilə mərasimlərinin həyata keçirilməsi üçün istifadə edildiyini irəli sürürlər (5, s. 40).

Beləliklə, araşdırmalar göstərir ki, Arpaçay vadisində yaşayan tayfalar Tunc dövründə güclü təxəyyülə, zəngin ideologiyaya və yüksək bədii zövqə sahib olmuşlar. Bu tayfalar digər türk tayfalarında olduğu kimi səma cisimlərinə, məhsuldarlıq və bərəkət ilahələrinə, əcdadlara, totemlərə, axirət dünyasına inanc gətirmiş, təbiət qüvvələrini, tayfa başçılarını müqəddəsləşdirmişlər. Onlar öz inanc və ideologiyalarını qabların, məişətdə və təsərrüfatda istifadə etdikləri əşyaların üzərində əks etdirərkən öz zəngin təxəyyüllərinin məhsullarını da əlavə etməklə bir-birindən maraqlı incəsənət nümunələri yaratmışlar.

ƏDƏBİYYAT

1. Azərbaycan Etnoqrafiyası. 3 cilddə. II c., Bakı: Şərq Qərb, 2007, 384 s.
2. Абибуллаев О. Энеолит и бронза на территории Нахичеванский АССР. Баку: Элм, 1982, 316 с .
3. Алиев В. Г. Культура эпохи средней бронзы Азербайджана. Баку: Элм,

1991, 256 с.
4. Алекперов А.К. Крашенная керамика Нахичеванского края и Ванское царство // Советская археология, 1937, № 4, с. 249-264.
5. Baxşəliyev V. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti (e. ə. VI-I minilliklərə aid arxeoloji abidələr əsasında). Bakı, Elm, 2004, 320 s.
6. Baxşəliyev V. Naxçıvanın arxeoloji abidələri.- Bakı: Elm, 2008, 304s.
7. Baxşəliyev V., Marro C., Aşurov S. Ovçulartəpəsi (2006-2008-ci il tədqiqatlarının ilk nəticələri / (First Preliminariy Report: the 2006-2008 seasons) – Bakı: Elm, 2010, 156 s.
8. Baxşəliyev V.B. Azərbaycan arxeologiyası. Bakı: Elm, 2007, 240 s
9. Seyidov A., Baxşəliyev V., Mahmudova V. Xələc. Bakı: Elm-2010 218 s.
10. Seyidov A. Naxçıvan e. ə. VII-II minilliklərdə. Bakı: Elm, 2003, 339s.
11. Seyidov A., Baxşəliyev V. Ərəbyengicə. Bakı: Nurlan, 2009, 160 s.
12. Исмаилзаде Г. Азербайджан в системе раннебронзовой культурной общности Кавказа. Баку: Nafta-Press, 2008, 304 с.

Зейнаб Гулиева

ИСКУССТВО И ИДЕОЛОГИЯ ПЛЕМЕН АРПАЧАЙСКОЙ ДОЛИНЫ

Исследования показывают, что племена Арпачайской долины в эпоху бронзового века обладали богатым идеологическим воображением и выражали его посредством образцов искусства. На предметах исскуства, особенно на очажных подставках, выражались идеологические представления древних поселенцев Арпачайской долины. Идеологические представления, также выражены в керамических изделиях и погребальных обрядах.

Zeyneb Kuliyeva

ARPACHAY VALLEY KINS ART AND IDEOLOGY

Researches show that, tribes of the Arpachay valley during the Bronze Age possessed rich ideological imagination and expressed it by means of samples of art. On subjects of art, especially in andiron supports ideological representations of ancient settlers of the Arpachay valley were expressed. In ideological representations, in pottery and funeral ceremonies also are expressed

Researches show that the tribes of Arpachay valley had a rich ideology and they had expressed it with art examples.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

QADİR QƏDİRZADƏ
AMEA Naxçıvan Bölməsi
E-mail: kadirkadirzade@yahoo.com.tr

XALQ TƏQVİMİNDƏN – ÇƏRŞƏNBƏLƏR

Azərbaycan etnoqrafiyasında və folklorşünaslığında geniş şəkildə araşdırılmış məsələlərdən biri də xalq təqvimi ilə bağlı problemdir. Tədqiqatçılar daha çox qışın yola salınıb yazın qarşılanması məsələlərinə diqqət yetirirlər. Sovetlər dönəmində bu məsələlərin öyrənilməsinə o dərəcədə diqqət verilməsə də keçən əsrin 80-ci illərinin sonlarından başlayaraq bununla bağlı çox sayda kitablar, məqalələr nəşr edildi. Təqvim adətlərinin, onunla bağlı inamların ayrı-ayrı sahələri ilə yanaşı qışın yola salınması, yazın qarşılanması ilə əlaqəli məsələlər də geniş tədqiqata cəlb edilmişdir. Bu öz əksini B.Abdullayevin "Haqqın səsi" (1), "Azərbaycan mərasim folkloru" (2), R.Əsgərovun "İqlimdən-iqlimə, təqvimdən-təqvimə" (5), A.Nəbiyevin "İlaxır çərşənbələr" kitabında (7), digər kitablarda (3, 4), müxtəlif toplularda (8) və məqalələrdə tapmışdır. Təbii ki, bunların böyük əhəmiyyəti vardır. Lakin müsbət tərəflərlə yanaşı problemin öyrənilməsində yerli materiallardan, xüsusən etnoqrafik çöl materiallarından geniş istifadə edilmədiyindən müəyyən məsələlər dolaşıq salınmışdır. Bu özünü daha çox çərşənbələr, Novruz bayramı, Quyruq doğdu və s. göstərir. Hər şeydən öncə müəlliflərin eyni mövqedən çıxış etməməsi vahid fikrə gəlməyə imkan vermir. Bunun başlıca səbəbi isə onların bəzilərinin yerli materiallardan az istifadə etmələri, onları birbaşa xalqın özündən deyil dolayısı ilə toplamaları və ya toplatdırmalarından qaynaqlanır. Bunları nəzərə alaraq son illərdə daha çox dolaşıq salınan çərşənbələrlə əlaqəli məsələyə münasibət bildirməyi məqsədəuyğun hesab edirik. Qeyd edək ki, bizdən əvvəl bu məsələ G.Yoloğlunun yazılarında müzakirə movzusuna çevrilmişdir (10, s. 134-152). Bizim əvvəlki yazılarımızda, A.Orucovun dissertasiya işində (9) problemin Naxçıvanla əlaqəli ümumi tərəflərindən bəhs olunsa da müəyyən məsələlərin elmi izahına ehtiyac duyulur. Biz yazını nəşrə hazırlayarkən tarixi mənbələrdən, hər hansı müəllifin əsərindən çox başlıca diqqəti xalq arasından toplanmış materiallara yönəltmişik. Çünki onlar təhrif olunmamaqla reallığı daha çox əks etdirirlər.

Naxçıvanda xalq arasında qışın son ayı Çillə-beçələr, və ya çərşənbələr adı ilə dörd yerə bölünür. Göyüzünün daha çox buludlu olması ilə əlaqədar ola-

raq bu dövr Boz ay da adlanır.

Xalq arasında olan inama görə Kiçik çillədən sonrakı ilk çərşənbədən başlayaraq Novruz bayramına qədərki hər çərşənbədə təbiətdə müəyyən dəyişikliklər baş verir. Toplanmış etnoqrafik materiallara söykənərək demək olar ki, Naxçıvanda hər çərşənbənin ayrıca adları vardır. Həmin adlar bölgələr üzrə fərqlənsələr də birinci çərşənbə – Əzəl, Yalançı çərşənbə, ikinci çərşənbə – Xəbər, Külə çərşənbə, üçüncü çərşənbə – Quyruqlu, Qara Çərşənbə, dördüncü – Axır (İlaxır) çərşənbə adlanır. Cuzi fərqlərlə belə bölgü G.Yoloğluda da vardır (10, s. 139). Toplanmış materiallara əsaslanaraq deyə bilərik ki, xalq arasında son dövrlərə qədər adlar belə bilinmişdir. Bununla yanaşı çərşənbələr təbiətdə baş vermiş dəyişikliklərlə, özgə sözlə desək dörd ünsürlə əlaqələndirilir. Belə əlaqə olmasına baxmayaraq xalq çərşənbəni onun əlamətləri ilə adlandırmırdı. Son dövrlərdə müxtəlif məqalələrdə, xüsusən televiziya verilişlərində çərşənbələr xalq arasında olan adlarına görə deyil dörd ünsürə uyğun – Su, Od, Torpaq və Yel çərşənbələri deyilməyə başlanmışdır. Digər çərşənbələrin adı unudulsa (unutdurulsa) da Axır çərşənbə qalmaqdadır. İstər-istəməz düşünməli olursan çərşənbənin axırı olduğu kimi əvvəli də olmalıdır, Yəni, yuxarıda dediyimiz adlar qorunub saxlanmalıdır. Digər xoşagəlməz hal eyni gündə, ayrı-ayrı televiziya kanallarında çərşənbələrin müxtəlif adlarla təqdim edilməsidir. Beləki, kanalın birində Su çərşənbəsi, digərində Od çərşənbəsi qeyd edilir. Bunlar bir tərəfə, guya xalq arasında hər çərşənbənin aid olduğu ünsürlərlə bağlı mərasimlərin keçirildiyi qeyd edilir. İnama görə hər çərşənbə bir ünsürü təmsil edir. Xalq arasında olan məlumatlara söykənərək demək olar ki, Axır çərşənbə müstəsna olmaqla digər çərşənbələr geniş şəkildə qeyd edilməmişdir. Sadəcə olaraq Ordubadın bəzi kəndlərində, həmin gündə, axşam od yandırmaq adəti olmuşdur. Əlavə olaraq heç bir adətə əməl edilməmişdir. İnama görə günlərin əsas əlaməti el arasında Cəmrə, Cəmərə, Cəlimə adı ilə bilinən dəyişiklikliyin baş verməsidir. Bu, "Cəmrə düşməsi" adlanır. Deyirlər ki, Əvvəl (Əzəl), Yalançı çərşənbədə Cəmrə suya düşdü, sular çoşmağa, qızmağa, dəyişilməyə başladı. İnama görə həmin gündən quyuların suyu artır, suların donuşluğu aradan qalxır, Quyruqdoğduda kəsərdən düşmüş (tərkibi dəyişilmiş) şor sular (mineral bulaqlar) müalicəvi xüsusiyyətlərini bərpa edirlər. Bu dövrdən yazın ilk əlaməti olan suların bulanması baş verir. Sonrakı cərşənbələrdə Cəmrə ardıcıl olaraq oda, torpağa, yelə (küləyə) düşdüyünə inanılır. Öncə Cəmrə məsələsinə açıqlama gətirmək istərdik. Araşdırmalar nəticəsində sözün ərəb mənşəli "cəmərət"dən yarandığı, sözün kökünün "cmr"-buxar, hərarət anlamına gəldiyi məlum olmuşdur. "Fərhənge Səbba" lüğətində sözün üç mənada işləndiyi yazılmışdır ki, bundan biri buxar, hərarət, yəni istilik, enerji anlamına gəlməsidir. Lüğətdə yazılır ki, bu qışın axır ayında, yeddi gündən bir yerdən qalxan hərarəti anladır (6, s. 340). Oxşar fikirlər Qahirədə nəşr edilmiş "Tacəl Əruz" kitabında da öz əksini tapmışdır (11, s. 564). (Tərcümədə yardımçı olduğuna görə F.Elyazova minnətdarlıq edirik). Beləliklə Cəmrənin Cəmərət sozünün təhrif edil-

miş forması olduğunu müəyyən edə bildik. Bizcə sözün əlavə şərhinə ehtiyac qalmır, xalq arasında olan inama tam aydınlıq gəlir. Sular bulansa da, qaynayıb coşsa da havalar soyuq olduğundan xalq bunu Yalan çərşənbə, Əzəl çərşənbə adlandırır. İkinci çərşənbədə havaların isinməsi, yazın əlaməti olan bəzi çiçəklərin açılması baş verir ki, bu Xəbər çərşənbə adlanır. Həmin dövrdən ağaclara qulluq, ildən asılı olaraq bəzi məhsulların əkilməsi başlanır, subay heyvanlar yaxın örüşlərə otarılmağa çıxarılır, bəzi köçəri quşlar, xüsusən leyləklər qayıdırlar. Xəbər gəlsə də istilik dəyişkən olduğundan yaşlılar bunu aldadıcı hesab etməklə qaramalı açıq havaya çıxarmamağı məsləhət görürlər. "Qanın oyanması" adlanan bu dövr insanlar üçün çox qorxulu hesab edilir. El arasında deyirlər ki, günəşin işarmasına baxmayın, hələ torpaq qızmayıb, insana tez soyuq dəyər. Belə xüsusiyyətlərinə görə Naxçıvanın bəzi yörələrində bu çərşənbə "Külə», yəni tam olmayan, kəsir çərşənbə adlanır. Sözün ilk çiçək görünməsi ilə əlaqəli olduğunu yazan bəzi müəlliflər onun "Gülə çərşənbə" adlandığını deyirlər. Lakin sonrakı, üçünçü çərşənbənin, yəni torpaq çərşənbənin Qara çərşənbə ilə yanaşı Quyruqlu çərşənbə də adlanması sözün külə olduğunu deməyə imkan verir.

Üçüncü çərşənbə – Qara / Quyruqlu çərşənbə torpağın qızması, onun buxalaması ilə ələmatdardır. El arasında deyirlər ki, Cəmrə torpağa düşür, torpaqdan buxar qalxır, deməli o qızmışdır, yaz əkininə başlamaq olar. Xüsusən yazlıq arpa yubadılmadan əkilməlidir. Bir az yubansa onun məhsuldarlığı aşağı olacaqdır. Ümumiyyətlə yazlıq arpanı yazın ilk günlərinə qədər əkmək məsləhət görülür.

Çərşənbənin "Qara çərşənbə" adlanmasını iki mənada izah edirlər:

1. Xalq arasında olan adətə görə "qara bayram"ı keçirilməmiş mərhumlara bu çərşənbə ərzində "qara bayram" keçirilir, ailələr yasdan çıxırlar. Bir qayda olaraq qırxı çıxmamış mərhumlara "qara bayram" edilmir. Lakin qırxı yaxınlaşan mərhumların qırxı ilə "qara bayram"ı birləşdirilir. Bir sözlə, xalq "Axır çərşənbə"yə və Novruza yasdan çıxmış halda getməyə çalışır.

2. Çərşənbənin qara adlanması qarların tamamilə əriməsi, torpağın qaralması ilə də əlaqələndirilir.

Bu çərşənbədə evlərin, həyət-bacanın yığışdırılması başa çatdırılır. İmkan daxilində qışdan çıxmış evlərə müəyyən bəzək vurulur, yəni bayramsayağı bəzədilirdi:

Bayram olub, qızıl palçıq əzərlər,
Naxış vurub otaqları bəzərlər,
Taxçalarda düzmələri düzərlər,
Qız-gəlinin fındıqçası, hənası,
Həvəslənər anası, qaynanası .

Ustad Şəhriyarın bu misraları elimizdə, obamızda bayrama hazırlıqla bərabər ənənəvi evlərimizin quruluşu, onların bəzənməsi ilə bağlı dəyərli məlumat verir. Naxçıvan ərazisindən toplanmış materiallara söykənərək demək olar ki, burada da Axır çərşənbəyə qədər bu işlər görülməli idi. Yaşlı məlumatçıların söy-

lədiklərinə görə ətrafda olan qırmızı və ya ağ torpaqdan gətirib suda həll edər və süpürgə vasitəsilə onu evin divarlarına vurardılar. Bu el arasında "Evin çırpılması" adlanırdı. Taxçalı, rəfli evlərə gəlincə onlar Ordubad şəhərində və bəzi kəndlərdə tək-tək qalmaqdadır.

Bu çərşənbə ilə Axır çərşənbə arasında yerinə yetiriləçək ən başlıca vəzifələrdən biri lazım olacaq şirniyyatın, ərzaq məhsullarının, qız-gəlinə aparılacaq İlaxır payının hazırlanmasıdır. Bu məsələdə yardımlaşmaya böyük önəm verilirdi. Bayram hazırlığı olmayan ailələrə qohumlar, yaxın qonşular tərəfindən, gizli şəkildə köməklik göstərilirdi. Elə şərait yaradılırdı ki, əziz gündə kimsə məyus olmasın.

İlin Axır çərşənbəsi, Cəmrənin küləyə düşdüyü çərşənbə. Bu çərşənbə Naxçıvanda çox təntənəli şəkildə qeyd olunur. El arasında deyirlər ki, bu gündən başlayaraq vədə yelləri, bayram yeli əsəcək, hava dəyişəcək, köçəri quşlar, xüsusən qaranquş gələcək. Vədə yeli ilə bağlı xalq arasında deyirlər ki, hər şey vədəyə baxsa da, vədə heç nəyə baxmaz. Ustad Şəhriyar bayram yelini yazın başlanğıcı hesab edir:

Bayram yeli çardaxları yıxanda,
Novruz gülü, qar çiçəyi çıxanda,
Ağ buludlar köynəklərin sıxanda,
Bizdən də bir yad eyləyən sağ olsun,
Dərdlərimiz qoy dikəlsin, dağ olsun.

Həmin gündə bir sıra vaçib məsələlərə əməl edilir: hər kəs evində olmağa çalışır, qız-gəlinlərə pay göndərilir, qəbirlər ziyarət olunur, bayram süfrəsi açılır, bir sıra şirniyyat və yeməklərlə yanaşı mütləq plov bişirilir. Xalq arasında plov İlaxır çərşənbənin atributu sayılır. Kimsəsizlər, xəstələr yad edilir. Qohum və qonşular tərəfindən yasdan çıxmamış ailələrin ocağı yandırılıb, onların həyətində qazan asılır. Axşam, gün batanda həyətlərdə tonqal yandırılır və ailə üzvləri tonqal üzərindən atılırlar. Bu vaçib əməllərdən sonra qız-gəlinin, oğlan uşaqlarının qapıları pusması, niyyət etməsi, şal atması, müxtəlif əyləncəli oyunları, falaçma və s. başlayır ki, bu da gecəyarısına qədər davam edir. Səhər erkən, Günəş doğmamışdan bütün insanlar çay, çeşmə, bulaq başına gəlib su üstündən tullanar, sudan dilək diləyib, dərd-sərlərinin onun üstünə tokülüb axmasını, yeni ilə dərd-bəlasız getməyi arzulayarlar. Qadınlar çeşmədən, bulaqdan "İlaxır suyu" və "Bərəkət daşı" adlanan kiçik daşlar götürərlər. "İlaxır suyu"nu gələn ilin Axır çərşənbəsinə qədər saxlayar, ondan xamraya qatar, müxtəlif xəstəliklərin müalicəsində istifadə edərdilər. Qalan suyu qızılgülün və ya bar ağacının dibinə tökərdilər. Daşlar isə bərəkət rəmzi olaraq yağ küpəsinə, unluğa və digər ərzaqların içərisinə qoyulardı. Bərəkətli olsun deyə kişilərin belə daşları kisələrinə qoyduqları da söylənilir. Növbəti ildə həmin daşlar bulağa, çeşməyə atılıb yenisi götürülürdü. Beləliklə, Axır çərşənbədə bütün ünsürlar – su, od, torpaq və hava birləşib tamı, bitkini yaradırdı. Yuxarıda da qeyd etdiyimiz kimi Axır çərşənbə müstəsna olmaqla Naxçıvanda heç bir çərşənbədə hər hansısa

adətə, inama əməl edilməməklə heç bir mərasim keçirilməmişdir. Bu yazıda bizim məqsədimiz çərşənbələrin xysusiyyətlərindən bəhs etmək olduğundan adət və inamların üzərində çox dayanmayıb yaradılışda dörd ünsürün ardıcıllığından bəhs etmək istərdik. Yəni xalq arasında olan adət və inamların yaradılışla, təbii dəyişmələrlə bağlılığı məsələsindən ki, bu bütün mübahisələrin sonu, elmi möhürdür. Öncə qısaca olaraq yaradılış haqqında: Dini mənbələrdə, mifaloji mətnlərdə, bir sıra yazılı qaynaqlarda yaradılışın əsasını su, istilik anlamında enerji, hərəkət, torpaq və hava, nəfəs təşkil edir. Qədim Şumer əfsanələrinə görə öncə tanrılar movcud idi, bütün dünya isə dərin sularla örtülmüşdü. Tanrıça Namu dərin sulardan palçıq götürüb ona özlərinə oxşar şəkildə forma verir, sonra nəfəs püləyirlər. Oxşar inama Altay türklərində Ülgenin insanı yaratması motivində rast gəlirik. Səmavi dinlərdə də yaradılış su, hərəkət, daxili enerji, torpağın (palçığın) insan formasına salınması, sonda ona nəfəsin, havanın verilməsi ilə başa çatır. Dörd ünsürün birləşməsi ilə tamın yaranması. Bu ilkin insana, Adəm(ə.s.)a da aiddir. Qurani Kərimdə sonrakı insanların bir qətrə sudan, nitvədən, bişmiş yumurtadan yarandığı xəbər verilir ki, bunun da mayasında enerji dayanır. Təbiətdə olan bütün flora və fauna dörd ünsürün birləşməsindən yaranır, doğulur. Bu insanlarda və digər bala doğuran canlılarda dərin düşüncə tələb edən proses olsa da bir toxumun cücərməsində açıq müşahidə ediləndir. Dörd ünsür olmadan həyat yoxdur. Toxumunda mayası donuq halda, daxili enerjinin təsiri ilə hərəkətə gələ bilən, istiliyə, köklərini atmaq, qida almaq üçün torpağa, bütün bu proseslərdə boğulmamaq üçün havaya, nəfəsə möhtac olan bitki bunun parlaq misalıdır. Özgə sözlə desək onun da Cəmrətə ehtiyacı var. Yaz da doğulma, var olma, oyanma məqamıdır ki, o dörd ünsürün birləşməsi nəticəsində baş verə bilər. Bu inanış, reallıq özünü dərk edən hər bir insana və insanlığa aiddir. Biz türklər həmin inamların mayasını qorumaqla onu özümüzə məxsus adət və mərasimlərlə zənginləşdirib, özümüzünküləşdirib, qoruyub saxlamışıq.

Bu məsələnin bürclər üzərində izahına da ehtiyac var ki, keçmiş bilim adamları buna çox önəm verirlər. Çünki bu dəyişilmə insanların yoza bilməsindən yuxarıda olmaqla daha çox elmi xüsusiyyətlərə malikdir. Xalq arasında olan inama görə çillə-beçələr dörd dəyişikliyin təmsilçisidir. Biz yuxarıda bunları ardıcıllığı ilə verdik. İndi isə qədim mənbələrdə, astronomik təqvimdə ortaq cəhətləri nəzərdən keçirək. İlk çərşənbə Kiçik çillədən sonrakı, yəni qışın son ayının ilk çərşənbəsinə, indiki təqvimə görə fevralın 20-dən sonraya uyğun gəlir. Astronomik təqvimə, bürclərə münasibətinə görə Günəş Balıq bürcünə daxil olur. Balıq isə suyun təmsilçisidir. Ümümiyyətlə, qədim mənbələrə görə bürclər üçlü qaydada bölünərək dörd ünsürü əhatə edirlər. Həmin bölgüyə görə Balıq, Xərçəng, Əqrəb suyu, Qoç, Şir, Oxatan odu, Buğa, Qız, Oğlaq torpağı, Ekizlər, Tərəzi, Dolça havanı təmsil edir. Bunları nəzərə alsaq qışın son ayı Balıq (su), yazın ilk ayı Qoç (od, istilik), yazın orta ayı Buğa (torpaq), yazın son ayı Ekizlər (hava). Beləliklə bu bölgü bir xalq deyiminə də uyğun gəlir: "Qışın

bir ayı yazdandır, payızın bir ayı qışdan". Bu ifadədən erkən yazın Kiçik çillədən sonra başlandığını söyləmək olar. Heç təsadüfi deyil ki, xalq arasında Çilləbeçələr, Boz ay, Ağlar-gülər adları ilə yanaşı bu aya "Bayram ayı" da deyilir. Qışdan bir ay alan yaz el arasında "tərlan quş" adlandırılır və deyilir: "Yaz bir tərlan quşdur, tutdun tutdun, tutammadın uçub gedəcək". Bu o deməkdir ki, ilin əsası qışın sonundan, ilk oyanmadan Cəmrət düşməsindən başlayır, bir ay müddətinə təbiət yenidən doğulub, nəfəsə gəlir. Bu dörd bitkinlik halında əhalinin məşğuliyyəti, xüsusən əkinçilik və maldarlıqla bağlı bütün işlər başa çatdırılmalıdır ki, sonrakı yetişmə və yığılma dövründə əl boş qalmasın. Burada bir deyimi də xatırlamaqda fayda görürük: "Qorxmayın qışdan ki, qabağı yazdır, qorxun yazdan ki, qabağı qışdır".

Nəticə olaraq çərşənbələr həyatın, doğulmanın, var olmanın əsası olan dörd ünsürlə – su, od, torpaq və hava ilə bağlı yaranmışdır. Bir də vurğulamaqda fayda görürük ki, Axır çərşənbə müstəsna olmaqla qalan üç çərşənbədə heç bir mərasim keçirilməyib. Mərasim, şənlik varolmadan, bütövləşmədən sonra baş verər ki, bu da İlaxırdadır. İlin Axır çərşənbəsi olsa da hələ il başa çatmayıb. Ona görə də Axır çərşənbə nə qədər təntənəli keçsə də ona bayram deyilmir. Novruz isə bu təntənələrin zirvəsi, ilin təhvil-təslimi, yeni günün başlanması bayramıdır. Xalq təqvimi dərindən araşdırıldıqca onun elmi əsaslara söykəndiyi, xalqımızın milli kimliyi, düşüncə tərzi ilə bağlılığı ortaya çıxır. Bunlara əsası olmayan əlavələrin edilməsi qondarmadan özgə bir şey deyil. Hansı təbiət ünsürü ilə bağlılığından asılı olmayaraq xalqın min illər qoruyub saxladığı, müxtəlif inamlarla zənginləşdirdiyi, daha çox türk düşüncə tərzi ilə bağlı olan çillələrin adlarının qorunub saxlanmasına, onlara keçmişdə olduğu kimi əməl edilməsinə böyük ehtiyac var: Əzəl / Yalançı çərşənbə, ikinci çərşənbə – Xəbər / Külə çərşənbə, üçüncü çərşənbə – Quyruqlu / Qara Çərşənbə, dördüncü – Axır / İlaxır çərşənbə.

ƏDƏBİYYAT

1. Abdullayev B. Haqqın səsi. Bakı: Azərnəşr, 1989, 144 s.
2. Abdulla B. Mərasim folkloru // Azərbaycan ədəbiyyatı tarixi, 6 cilddə, I c., Bakı: Elm, 2004, s. 98- 154.
3. Babayev T. El ocaq başına yığışar. Bakı: Azərnəşr, 1998, 204 s.
4. Bünyadov T., Babayev T. Xalq təqvimi // Azərbaycan etnoqrafiyası, 3 cilddə, III c., Bakı: Şərq-Qərb, 2007, s. 235-249.
5. Əsgərov R. İqlimdən-iqlimə, təqvimdən təqvimə. Bakı: Elm, 1987, 82 s.
6. Fərhənge Səbba Lüğət. Tehran: Səbba, 1365 H.Ş., 1192 s.
7. Nəbiyev A. İlaxır çərşənbələri. Bakı: Azərnəşr, 1992, 62 s.
8. Novruz bayramı ensiklopediyası. Bakı: Şərq-Qərb, 2008, 208 s.
9. Orucov A. Azərbaycanın Naxçıvan bölgəsində xalq təqvimi ilə bağlı adətlər, inanclar və mərasimlər. Tarix ixtisası üzrə fəlsəfə doktoru dissertasiyası. 164 s.

10. Yoloğlu G. Mövsüm mərasimləri. Bakı: Xəzər Universitetinin nəşriyyatı, 2009, 218 s.
11. Zübeydi. Tacəl Əruz. II c., Qahirə: Əl-xuda, 1342 H.Ş. 1003 s.

Гадир Гадирзаде

ИЗ НАРОДНОГО КАЛЕНДАРЯ – ЧЕРШЕНБЕЛЕР (СРЕДЫ)

В статье были исследованы обычаи и верования, связанные с народными календарями, особенно с чершенбелер (среды) в Нахчыване. Было выявлено, что последний месяц зимы в Нахчыване называется Боз ай (Серый месяц), Чиллебечелер, Байрам айы (Месяц Праздника). В этом месяце в народе отмечаются четыре чершенбе (среда): 1. Еввел чершенбе (первая, начальная среда) – Ялан чершенбе (Среда обманщица); 2. Кюле чершенбе (Среда безхвостая) – Хебер чершенбе (Среда предвестница); 3. Гуйруглу чершенбе (Среда с хвостом) – Гара чершенбе (Черная среда); 4. Ахыр чершенбе (Последняя среда).

Важно отметить, что в народе каждые дни чершенбе связаны с отдельными элементами природы – су (вода), од (огонь), торпаг (земля) и кюлек (ветер). Собранные материалы показывают, что только в Ахыр чершенбе проводятся разные церемонии.

Kadir Kadirzade

FROM PEOPLE CALENDAR-WEDNESDAYS

In this artcle was researched habit and faiths connected with people calendar, especially Wednesdays in Nakhchivan. It has been defined that, four Wednesdays are marked in the last month of the winter (Boz ay, Chille-beceheler, holiday month) among people: 1. First / liar-wednesday, 2. Tailless / gossiper wednesday, 3. With tail / black Wednesday, 4. Last Wednesday. It is necessary to note that, each of this Wednesdays is connected with four elements – water, fire, land and wind / weather. It is not being keeped to any habit and faiths exception with being Last Wednesday in Nakhchivan.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

ASƏF ORUCOV
AMEA Naxçıvan Bölməsi
E-mail: aseforucov@yahoo.com.tr

ON İKİ HEYVANLA BAĞLI TÜRK TƏQVİMİ

(AMEA-nın müxbir üzvü Q.Qədirzadə tərəfindən təqdim edilmişdir)

Təqvim adətlərinin öyrənilməsində əsas məsələlərdən biri də türk xalqlarının qədimdən istifadə etdiyi "12 heyvanlı" türk təqvimidir. Bu təqvimin hər ayı bir heyvan adı ilə anılmış, mövcud təqvimdə olduğu kimi bir ildə 12 ay olmuşdur. İl başı 22 dekabr (gündüzlərin uzanmağa başladığı gün) idi. Bəzi mənbələr il başının Novruz bayramından (10), bəziləri isə yanvar, fevral aylarından hesablandığını qeyd edirlər (5, s. 227). Bəzi araşdırmacılar "Divani-lüğəti Türkə" əsaslanaraq yazır ki, müasir təqvim kimi bu təqvimdə də hər üç ay bir mövsüm hesab edilmiş, hər mövsümə müəyyən ad verilmişdir. Bunlar yeni gündən (Novruzdan) sonra gələn Oğlak ay (yaz), Uluğ oğlak ay (yay), Uluğ ay (payız) və Ay qışdır. Aylar isə sıra ilə birinci ay, ikinci ay, üçüncü ay... və on ikinci ay deyə adlandırılmışdır. İbrahim Hakkı bəhs olunan təqvimdə il üç mövsümdən, hər mövsümün dörd aydan ibarət olduğunu qeyd etmişdir (2, s. 266).

"12 heyvanlı" türk təqvimi ilk əvvəllər Ay təqvimi ilə əlaqəli olmuş, sonralar Göy türklər zamanı Günəş təqviminə çevrildiyi söylənilməkdədir (4, s. 227-228).

İ.Kafesoğlu yazır ki, bəzi araşdırıcılar "12 heyvanlı" təqvimin Çin mənşəli olduğunu israr edir. Ancaq buna baxmayaraq bu təqvimdəki il adlarının yüzdə doxsanı türkcədir və bir türk üçün heyvan adlarından istifadə qədər təbii bir şey olmaz. Qədim türkün dinində, sənətində, təsərrüfat həyatında bu qədər yer tutan heyvan onun zaman hesablamasında ön planda yer tutmuşdur (3, s. 345).

Eduard Cavannes "12 heyvanlı" türk təqvimi adlı araşdırmasında Asiyada işlədilən "12 heyvanlı" təqvimin türklərə aid təqvim sistemi olduğunu və çinlilərin bu təqvimi türklərdən aldığını bildirir (10). Çin qaynaqlarında da hunların çinlilərdən fərqli bir təqvimdən istifadə etməsi ilə bağlı məlumatlar mövcud olmuşdur. Ancaq bu təqvimin hansı təqvim olduğu bilinməməkdədir. Yusupcan Yasin yazır ki, çinlilərin bəhs etdiyi təqvim türklərin e.ə II minillikdə istifadə etdikləri "12 heyvanlı" türk təqvimidir. Çünki qaya rəsmlərində çinlilər öz təqvimlərini verməklə bu təqvimi də onunla yanaşı göstərmişlər. Həmçinin,

müəllif qeyd edir ki, hunların mərkəzi yerlərində yer alan Çağay dağlarında "12 heyvanlı" türk təqvimi işlənmişdir. Bu təqvimdə yer alan heyvanların hər biri dairə içərisində ardıcıl olaraq verilmişdir. Bu qayada cızılan rəsmlərin e.ə V və ya IV minilliklərə aid olduğu bilinməkdədir (9, s. 75-76).

C.Heyət Orxon kitabələrinin də tarixləndirilməsinin "12 heyvanlı" türk təqvimi ilə aparıldığını qeyd etmişdir (1, s. 158).

Toplanmış etnoqrafik çöl materiallarından aydın olur ki, Naxçıvan bölgəsində də çox qədim zamanlardan on iki heyvanla bağlı türk təqvimindən istifadə edilmişdir. Belə ki, qədim türk təqviminə əsasən, Günəşin zahiri illik hərəkəti hər on iki ildən bir təkrar eyni nöqtəyə düşür. Bu təqvimə əsasən hər il bir heyvanın üstündə təhvil olur. On iki heyvanın bir-birini əvəz etməsinə görə ilin hansı heyvanın üstə təhvil olacağını müvafiq sıralamaya görə əvvəlcədən bilirdilər. İlin başlanğıcı adətən Novruz bayramından hesablanır. Xalq arasında ilin təhvil olmasını suya salınmış balıqlar vasitəsilə müəyyən edərdilər. Belə ki, yaşlı insanlar bir yerə toplaşıb su dolu tasın içərisinə 3 balıq buraxardılar. İl təhvil olan kimi balıqlar arxası üstə çevrilərdi. Bununla da ilin təhvil olduğunu bilərdilər. Digər bir məlumata görə isə ilin hansı heyvanın üstündə təhvil olmağını suya əridilmiş qurğuşun salmaqla bilmək olardı. İnama görə əridilmiş qurğuşunu suya saldıqda il hansı heyvanın üstündə təhvil olarsa, qurğuşun həmin heyvanın formasını alar.

On iki heyvanlı türk təqvimində il aşağıdakı heyvanların üstündə təhvil olur. 1. Siçan, 2. Öküz, 3. Pələng, 4. Dovşan, 5. Timsah (Əjdaha) (yerli materiallarda əjdaha daha çox ilan kimi işlədilir), 6. İlan, 7. At, 8. Qoyun, 9. Meymun, 10. Xoruz, 11. İt, 12. Qaban (Donuz). Naxçıvan bölgəsində toplanmış Dünya Tufanı ilə əlaqəli rəvayətdə də bildirilir ki, Nuh (ə.s) gəmiyə ilk olaraq bu heyvanları götürmüşdür. Toplanmış materialların araşdırılması sübut edir ki, bu heyvanlardan 4-ü məfkur: at, dovşan, ilan, qaban. 4-ü mismil: qoyun, öküz, xoruz, balıq (xalq arasında toplanmış materiallarda timsah yerinə bəzən balıq işlədilir). 4-ü isə murdardır: meymun, it, siçan, pələng (7, s. 24).

Bu heyvanların qədim totemlərin əcdadları olduğu da irəli sürülməkdədir.

O.Süleymanov yazır ki, siçan günəş işarəsinin bilavasitə xələfidir. Bəlkə buna görə, asiyalıların tarixi günəş təqvimi siçandan başlanır (6, s. 244)?!

Bu təqvimin yaranması haqqında da xalq arasında belə bir rəvayət bilinməkdədir. Əvvəllər insanlar illəri necə adlandıracaqlarını bilmirdilər. Yığışıb bir yerə məsləhətləşdilər ki, gəzintiyə çıxaq ilk olaraq qarşımıza hansı heyvanlar çıxsa, sıra ilə o heyvanların adlarını illərə verək. Beləcə, bu insanların qarşısına on iki adda heyvan çıxır ki, biz yuxarıda bu heyvanların adlarını sadalamışıq. Bəhs etdiyimiz təqvimdə il hansı heyvanın üstündə təhvil olarsa, həmin heyvanın xüsusiyyətinə görə ilin necə olacağını əvvəlcədən müəyyən etmək olmuşdur. Rəvayətə görə, insanlar da həmin heyvanın xüsusiyyətlərini daşıyır. Siçan ilinin əvvəlində dünyaya gələn uşaq ağıllı, gözəl xasiyyətli, ilin ortasında

doğulan uşaq yalançı və pis xasiyyətli olar. Dovşan ilində doğulan insanlar adətən varlı, gözəl olarlar. Xalq arasında olan inama görə, il əgər at üstə təhvil olarsa, həmin il qaçaqaç, it üstə təhvil olarsa, insanlar birbirləri ilə yola getməzlər, qarma-qarışıqlıq salar, siçan üstə il təhvil olarsa, bolluq, firavanlıq olar. İlin dovşan, ilan üstə gəlməsi də düzlük, doğruluq, bolluq deməkdir. Eyni zamanda hər bir il üçün xalq meteorologiyası mövcud olmuşdur. Məsələn; siçan ilində havaların yağmurlu, pələng ilində qış qısa və soyuq, at ilində yaz xoş, qış yumşaq və uzun, it ilində qış mülayim və isti olacağına xalq arasında inam var idi.

Çox təəssüf ki, bəhs olunan təqvimlə əlaqəli ərazidə qayaüstü rəsmlərdə, arxeoloji qazıntılarda hələlik heç nəyə rast gəlinməyib.

Onu da qeyd edək ki, bu təqvimdən son zamanlara qədər Orta Asiya türkləri istifadə etmişdilər. Mustafa Turan Anadoluda hələ də bu təqvimin var olduğu, özəlliklə maldarlıqla məşğul olan bölgələrdə istifadə edildiyini bildirir (8, s. 90). Lakin burada onu da xatırlamalıyıq ki, ilin hər hansı bir heyvanın üstə gəlməsinin heç bir elmi əsası yoxdur.

Son olaraq qeyd etmək istərdik ki, bəhs olunan 12 heyvanlı təqvim bir türk təqvimidir. Bəzi araşdırmacıların fikirlərinə görə bu təqvim çinlilərdən türklərə yox, türklərdən çinlilərə keçmişdir. Qədim dövrlərdən bir türk yurdu olan Naxçıvanda da insanlar bu təqvimdən istifadə etmişlər.

ƏDƏBİYYAT

1. Cevat H. Eski türklerde takvim ve Nevruz bayramı / TDNÜBŞB (18- 20 mart 1999). Ankara: Kültür Bakanlığı Yayınları, 2000, s. 157-159.
2. İbrahim Hakkı E. Marifetname. 2 cilddə, I c., İstanbul: Milli eğitim basımevi, 1997, s. 266-270.
3. Kafesoğlu İ. Türk milli kültürü. Ankara: Ötüken, 2005, 466 s.
4. Kafesoğlu İ. Türk dünyasının el kitabı. 2 cilddə, I c., Ankara: Türk Kültürü Araştırma Enstitüsü, 1992, 545 s.
5. Kalafat Y. Balkanlardan Uluğ Türküstana türk halk inançları (Kaşkay, Karapapah, Şahseven / Elseven, Karakoyunlu, Kiresunlu, Afşar, İsmaili / Hazara, Cafriler, Kengerli, Karamanlı / Çələbi / Nigari, Ayrım, Kekai, Şebek, Mavıllı- Mavilli, Sarılı / Sarıllı). II c., ikinci baskı. Ankara: Berikan yayın, 2007, 425 s.
6. Süleymanov O. Az-Ya. Tərcümə edən Səfərov N. Bakı: Azərnəşr, 1993, 304 s.
7. Qədirzadə T. İslamaqədərki adətlər, inamlar və mərasimlər. Bakı: Nafta-Pres, 2006, 120 s.
8. Turan M. Tarihi kaynaklar ışığında Nevruzun menşei meselesi. Milli folklor, sayı 37, Ankara: Feryal Matbaacılk, 1998, s. 90-105.
9. Yasin Y. Çin arkeolojisine göre hunlarda sanat // Kardeş Kalemler dergisi, sayı 17, Ankara: Avrasiya Yazarlar Birliyi, 2007, s. 75-81.
10. http: // www. tiklak com / kultur-sanat/12-hayvanlı-türk-takvimi. html.

Асеф Оруджев

ТЮРКСКИЙ КАЛЕНДАРЬ, СВЯЗАННЫЙ С «12-ью ЖИВОТНЫМИ»

Особый интерес в изучении календарных обычаев представляет тюркский календарь, связанный с двенадцатью животными. В этом календаре каждый месяц означает одно животное и каждый год содержит в себе 12 месяцев, то есть как современный календарь. Из исследований этнографического материала выяснено, что в Нахчыване с древнейших времен пользовались тюркским календарем, связанным с 12-ью животными.

Asaf Orujov

TURKISH CALENDAR CONNECTED WITH 12 ANIMALS

One of ultimate goals in the learning of the ancient habits is Turkish calendar connected with 12 animals which, Turkish people have used since old times. Each month and year of this calendar have been remembered with name of 12 animals. As in the existing calendar, 12 months have been in the year. It has been defined in the result of materials of ethnographical field that, it has been used Turkish calendar connected with 12 animals from ancient times in Nakhchivan region.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

AZƏRBAYCAN DİLİ

АБУЛЬФАЗ ГУЛИЕВ
Нахчыванское отделение НАНА
E-mail: gebulfez@yahoo.com

МЕСТО И РОЛЬ ВЕНГЕРСКОЙ СРЕДЫ В ФОРМИРОВАНИИ НАУЧНЫХ ВЗГЛЯДОВ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКОВЕДА ПРОФЕССОРА БЕКИРА ЧОБАНЗАДЕ

Выпускник Будапештского университета, выдающийся азербайджанский языковед, профессор Бекир Чобанзаде (1893-1938) после успешного окончания Галатасарайского лицея в Стамбуле, в 1916 году приехал в Венгрию, сдал экзамены и поступил на факультет восточных языков Будапештского университета имени Пазмония Петери Тудомани Егйетема.

Известно, что история современной науки и образования в Венгрии очень древняя. Достаточно отметить один факт, что Будапештский университет существует с 1635 года, а основа Венгерской Академии наук была заложена в 1827 году. История тюркологических исследований в этой стране тоже древняя. Венгерская столица с 1541 по 1686 год находилась под владычеством Оттоманской империи. Этот фактор увеличил необходимость изучения венгеро-турецких языковых связей. Первый профессор турецкого языка Будапештского университета Ян Репицкий (1817-1855) написал первую практическую грамматику турецкого языка. А его ученик, известный востоковед Арминий Вамбери (1832-1913) в 1862 году составил словарь «Абушка», им же была обнаружена рукопись первого учебного пособия на турецком языке, написанного в Венгрии в 1668 году.

Необходимо отметить, что к концу XIX века в Европе самой известной тюркологической школой после немецкой был венгерский тюркологический центр. История венгерской тюркологии связана с именами выдающихся ученых-тюркологов таких, как А. Вамбери (1832-1913), Игнас Кунос (1860-1945), Геза Куун (1835-1905), Золтан Гомбоц (1877-1935), Юлий Немет (1890-1976), Лайос Лигети (1902-1987), Ласло Расоньи Надь (1899-1984), Янос Экманн (1905-1971), Тибор Халаси Кун (1914-1991),

Кароли Чегледи (1914-1996), Денес Синор (1916), Георг Хазаи (1932) и др. Академик Ю.Немет в течение полувека (1915-1964) руководил кафедрой восточных языков в Будапештском университете. Велики его заслуги в развитии венгерской тюркологии. Он проводил исследования в местах проживания тюркоязычного населения, в том числе побывал и в Азербайджане, имел тесные научные связи с азербайджанскими языковедами. Не случайно, что в 1971 году в книге, вышедшей к 60 летию академика М.Ширалиева в Баку напечатана статья Ю. Немета «Названия звезд в тюркских языках и происхождение слова «Улькер».

Бекир Чобанзаде в годы учебы в Будапештском университете был студентом академика Юлия Немета (1890-1976), который сыграл большую роль в становлении Бекира Чобанзаде как известного тюрколога. Надо отметить, что Б. Чобанзаде познакомился с Ю. Неметом еще в 1913 году, во время учебы в Стамбуле. Позднее в годы Первой мировой войны, находясь в плену в Венгрии, он встретился с Ю. Неметом, который, оценив врожденный талант своего ученика, предложил ему после окончания университета остаться работать в Венгрии. Но под влиянием патриотических взглядов Б.Чобанзаде не принял предложение своего учителя. Позже, в 1970 г. Ю.Немет на своем юбилее в Москве с большой гордостью говорил о научном даровании своего ученика, подвергшегося необоснованной репрессии.

В учебные годы Б. Чобанзаде занимался также поэзией, и многие его стихотворения были напечатаны в газете «Хирлоп» и в журнале «Туран», издаваемых в Венгрии. В этих стихотворениях чувствуется влияние национального поэта Венгрии Шандора Петефи (1823-1849). Его деятельность в университете привлекла внимание ректора, ему было оказано большое доверие, он стал преподавать иностранным студентам колледжа барона Эотвос Йозефа, где находился на государственном обеспече-нии. Надо отметить, что первой научной работой Б. Чобанзаде была статья в объеме 14 страниц под названием “Культурные атаки русских татар”, опубликованной в журнале «Туран» в 1918 году, в Будапеште. Как отмечает исследователь творчества Б.Чобанзаде С. Нагаев, молодой кав-казец вместе с другими венграми был освобожден из плена.

Во время учебы в университете из-под пера Б.Чобанзаде вышли статьи под названием «Заметки по венгерской литературе» и «Братья-венгры».

Окончив университет с дипломом отличия, Б.Чобанзаде в 1920 г. защищает диссертацию на тему «Рукописные экземпляры кыпчакского письменного памятника «Кодекс Куманикус» и основные проблемы тюркского произношения» с присвоением ему ученой степени доктора философии.

Б.Чобанзаде имел тесные связи с венгерским языковедом Л. Расоньи (1899-1984), учившимся с ним в одной группе. Они оба привлекли внимание профессора Ю. Немета как перспективные студенты. Известно, что Л.Расоньи являлся одним из выдающихся исследователей тюркской ономастики и долгое время работал в Анкаринском университете Турции. Л.Расоньи отмечал, что в процессе подготовки вместе со своим студентом Имре Башки «Словаря тюркских личных имен» пользовался лекциями Б.Чобанзаде.

Еще в начале прошлого века в Азербайджане началась активная работа по переходу к латинскому алфавиту. Значительную роль в жизни и в формировании взглядов Б.Чобанзаде как видного научного деятеля сыграл начавший функционирование с 1922 года в Баку Центральный Комитет нового тюркского алфавита. С 1924 года он начал свою педагогическую деятельность как декан Азербайджанского государственного университета. Особого внимания требует деятельность Б.Чобанзаде в организации в 1926 году Первого Бакинского Тюркологического конгресса в связи с переходом тюркского мира на латинский алфавит.

В эти годы появились очень ценные труды ученого, обогатившие тюркологию и сделавшие его самым видным тюркологом бывшего Советского Союза. Велики заслуги его и в подготовке видных азербайджанских филологов таких, как Мамед Ариф Дадашзаде, Мамедага Ширалиев, Гамид Араслы, Фейзулла Касымзаде, Мухтар Гусейнзаде, Мамед Джафар Джафаров и др.

В 1938 году Б.Чобанзаде по сфабрикованному доносу в НКВД как националист, пантюркист был арестован, подвергнут необоснованным репрессиям и расстрелян.

Годы учебы в Будапештском университете на уровне европейских стандартов сыграли важную роль в формировании научных взглядов Б.Чобанзаде. Как известно, основная научная деятельность Б. Чобанзаде была связана с Азербайджаном, с Баку. Здесь он создал и напечатал произведения об основных проблемах тюркологии, общетюркском языке, общетюркском алфавите («Введение в турецко-татарское языкознание», «Турецко-татарская диалектология», «Тюркский язык», «Тюркская литература», «Тюркская грамматика», «Основы научной грамматики: стиль преподавания тюркского языка, литературы» и др.). В год приезда в Баку (1924) вышла в свет его очень ценная монография «Введение в турецко-татарское языкознание» (Баку, Азернешр, 212 с.). Кстати здесь мы постараемся аннализировать только эту книгу, исходя из азербайджано-венгерских научных связей.

В этом произведении, написанном на стамбульском диалекте, указаны две основные цели произведения: лаконично проинформировать о применении принципов общего языкознания к тюркским языками и в ре-

шении исторических проблем опираться на исследования, касающиеся тюркских языков.

Основное значение этой книги в том, что автор обосновывает важную потребность исследования нашего языка в рамках общего языкознания. Произведение состоит из нижеследующих основных разделов: звуки, морфология, морфологическая классификация языков, слова, классы слов, генеалогическая классификация языков, происхождение языка, жизнедеятельность языка, семантические изменения, предмет языкознания, задачи и методы исследования, современные проблемы тюркских языков.

В разделе генеалогической классификации языков ученый в общих чертах описывает семьи мировых языков такие, как индоевропейская и урало-алтайская. Последнюю разделяет на пять групп: венгерский язык вводит в угро (по автору огуз)-финскую ветвь. Он показывает, что в Огузской ветве самый развитый язык венгерский и самые древние письменные памятники этого языка, у которого богатая литература, относятся к XI-XII векам. Автор одновременно отмечает, что некоторые ученые угро-финскую ветвь вводили к индоевропейскую семью. Эти разногласия ученый объясняет неполным изучением этих языков и их родственных отношений. Здесь кстати, он говорит о заслугах в области исследования тюркских языков Арминия Вамбери и Бернарда Мункачи, о фонетической классифи-кации этих языков Юлием Неметом, о заслугах Тори Жозефа в области изучения Орхонских памятников древнетюркской письменности. Он отмечает, что А. Вамбери, еще в 1871 году напечатал отрывки из произведения «Кутадгу Билик» («Благодатные знания») (IX век), на сегодняшний день мы имеем четыре рукописных экземеляров и варианты А. Вамбери и В. Томсена так близки друг другу. Он одновременно исследовал произведения «Юсиф и Зулейха», напечатал с комментариями сборник рассказов «Альфардж бад-ашшоде», относящийся к временам султана Мурада II (1421-1451).

Известно, что А. Вамбери, облачившись в дервишскую одежду, путешествовал по Средней Азии и собрал очень ценный материал по теме исследования. Касаясь этой темы, ученый уделил особое место А. Вамбери, его известному произведению «Исследования чагатайского языка».

После произведения Мир Алишера Навои «Мухакиматул-лугатейн» («Сравнение двух языков») (1499) появились словари, среди которых САмый популярный «Словарь Абушка» (1552).

Чобанзаде информирует, что это произведение А. Вамбери в 1862 году напечатал вместе с венгерским переводом. «Абушка» по-чагатайски означает старая женщина. Венгерский ученый Тори Жозеф называл этот словарь первым систематичным и научным словарем чагатайского языка.

Есть версия, что произведение написано в Анатолии (Турция). Автор дает информацию о том, что ученый с целью исследования привез с собой в Будапешт одного узбека по имени мулла Исхак (стр. 146).

А. Вамбери в 1879 году перевел на венгерский язык и напечатал материал о грамматике туркменского языка и произведения великого туркменского поэта XVIII века Махдимгулу. Чобанзаде отмечает, что произведение А. Вамбери «Влияние западной культуры на восточную» одна из ценных исследовательских работ о куманах.

В своей книге автор в разделе о происхождении языка и языковых связей занимался и изучением связей славянского с булгарском, турецким, венгерским и куманским языками. Он показывает, что в результате смешивания славянского языка с булгарским исчез булгарский, одновременно в результате смешивания венгерского языка с куманским исчез куманский язык.

Автор отмечает, что в разные времена из языков разных народов мира тюрки заимствовали многочисленные слова и одновременно и из языков соседних народов перешли в тюркские языки многочисленные слова. Ученый указывает, что среди таких языков на первом месте стоят венгерский, русский, арабский, персидский языки и пишет, что если собрать тюркские слова из этих языков, то вполне возможно составить большой словарь из слов этих языков. Ученый пишет, что как мы знаем, в этой области самым прекрасным достоянием является словарь «Болгаро-тюркские слова на венгерском языке». Автор этого произведения венгерский ученый Золтан Гомбоц представляет на обозрение тюркские слова, имеющиеся в венгерском языке.

Исчезновение народа автор считает первым условием для уничтожения языка и в связи с этим приводит в пример куманский язык.

Куманы в XI-XII веках переселились из Румынии и Галиции в Венгрию и на Балканы, часть из них ассимилировалась среди славян, а некоторая часть-среди венгров. По сведениям европейских ученых, некоторые группы людей, разговаривающие на куманском языке, существовали до конца XVIII века.

Ученый выяснил, что несмотря на это предположение, куны (куманы) и сегодня проживают в массовом виде в центре Венгрии, разговаривают на венгерском языке, католического вероисповедания, со своими национальными традициями. Их число достигает нескольких миллионов.

В изучении кумано-венгерских отношений занимает особое место и куманско-тюркский древний письменный памятник «Кодекс куманикус», Этот памятник куманского языка, относящийся к 1303-году, поэт Петрарка подарил в дворцовую библиотеку Венедик . Это древнее произведение было напечатано Геза Куном в Академии Наук Венгрии в 1880 году. Ученый считает, что это произведение является памятником кыпчакско-тюрк-

ского языка, а кумыкий народ является одной из ветвью кыпчаков. Таким образом, он утверждает, что кумыки тоже имеют связь с этим памятником. Надо отметить, что Б.Чобанзаде тоже являлся одним из исследователей памятника «Кодекс куманикус» и защитил свою докторскую диссертацию именно по этой теме.

Кроме вышеуказанного, Б. Чобанзаде не забыл отметить заслуги в истории тюркологии своего наставника, учителя Юлия Немета: он исследовал и анализировал такие произведения Немета, как «Классификация тюркских языков» и «Словарь кумыкского языка». Чобанзаде подверг анализу также статью Л. Лигети «Происхождение слова «гум» у киргизов».

Б.Чобанзаде анализировал изданное в 1892 году произведение «Рубабнаме» султана Веледа, сына Мовлана Джелаледдина Руми, в венгерском переводе с комментарием венгерского ученого Игнатия Куноса и рассказывает об исследованиях ученым тюркской народной сказки и эпоса «Кероглу».

В итоге еще раз напомним, что эта статья охватывает только одно произведение профессора Бекира Чобанзаде.

Венгерская тема в творчестве Б. Чобанзаде, одним словом, является фактором развития научных связей между Азербайджаном и Венгрией и может стать отдельной темой научно-исследовательской работы в этой области.

ƏDƏBİYYAT

*Məqalə müəllifin 21-26 XI. 2010-cu il tarixlərində Macarıstanın Budapeşt şəhərində keçirilmiş beynəlxalq konfransda oxuduğu məruzə əsasında hazırlanmışdır.

1. Çobanzadə B. Türk-tatat lisaniyyatına mədxəl. Bakı, 1924, 188 s.
2. Quliyev V. Bəkir Çobanzadə Budapeştdə. 525-ci qəzet, 2010, 23 və 30 oktyabr.
3. Acar K. Bekir Sıtkı Çobanzade.Ankara: TDK yayınları, 2003, 608 s.
4. Eren H.Türklük bilimi. Ankara: TDK yayınları, 1998 504 s.

Əbülfəz Quliyev

AZƏRBAYCANLI DİLÇİ PROFESSOR BƏKİR ÇOBANZADƏNİN ELMİ DÜNYAGÖRÜŞÜNÜN FORMALAŞMASINDA MACARISTAN MÜHİTİNİN YERİ VƏ ROLU

Azərbaycanın görkəmli dilçilərindən və ilk professorlarından biri olan Bəkir Çobanzadə (1893-1938) Macarıstanın paytaxtı Budapeştdə ali təhsil almış, eyni zamanda bir elm xadimi kimi yetişmişdir. Onun türkoloji dilçiliyə aid

ilk əsərlərindən olan “Türk-tatar dilllərinə giriş” (1924) bu zəngin təcrübənin əsasında meydana çıxmışdır.

Abulfaz Guliyev

THE PLACE AND ROLE OF HUNGARY ENVIRONMENT IN FORMING OF GREATEST AZERBAIJANIAN LINGUIST BAKIR CHOBANZADA

One of the notable linguist and first professor of Azerbaijan Bakir Chobanzada got his high education in Budapesht the capital of Hungary and the same he has formed as a scientist in this city.

One of his first traces about the turkological linguistics “Introduction into the Turkish-Tatarian languages” has occured on the basis of this rich experience.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

FİRUDİN RZAYEV
AMEA Naxçıvan Bölməsi
E-mail:rzayevfirudin@yahoo.com

QƏDİM NAXÇIVAN ƏHALİSİNİN ETNOGENEZİNDƏ QIPÇAQ TÜRKLƏRİ

(AMEA-nın müxbir üzvü, prof. Ə.A.Quliyev tərəfindən təqdim edilmişdir)

Bu gün toponimik adların, Azərbaycan dilinin ayrı-ayrı sahələri olan etimologiya, linqvistika, eləcə də tarix, coğrafiya və s. elm sahələrinin ortaq süzgəcində müqayisəli təhlilləri, tarixin mürəkkəb və problem məsələlərindən olan etnogenez məsələsinin aydınlaşdırılmasında xüsusi əhəmiyyət daşımaqdadır.

Bu istiqamətdə qədim Naxçıvanın, coğrafiyası, siyasi və etnik tarixinə dair yeni konsepsiyadan araşdırma aparan alimlərimiz, buradakı adların etimologiyasına, tarixi və coğrafiyasına dair xeyli maraqlı elmi nəticələr əldə etmişlər [2, s. 121, 134-136; 35, s. 91-95; 24, s. 8-9; 12, s. 11-20]. İstənilən bir xalqın tarixi mədəniyyətinin üzə çıxmasında etnoqrafiya və arxeologiyanın da rolu danılmazdır. Belə ki, adların mövcud olduğu ərazilərdə bəzən mədəniyyət əşyaları və etnoqrafik materialların tarixi ilə hər hansı bir etnosun tarixi eyniliyi, irəli sürülmüş konsepsiyanın doğruluğunu bir daha təsdiq edir. Bu gün Naxçıvan, ən qədim sivilizasiya mərkəzlərindən biri kimi öz maddi-mədəniyyət nümunələri ilə dünya tarixşünaslığının bəzi yanlış məqamlarına da aydınlıq gətirir. Uzun illər bu istiqamətdə çalışmış xeyli sayda arxeoloqlarımızın əldə etdikləri elmi nəticələr Naxçıvanın ilk insan məskəni, "bəşər nəslinin ilk beşiyi" olması fikrini bir daha faktlar əsasında təsdiq etməkdədir [14, s. 14; 1, s. 10; 8, s. 11].

Təbii ki, əski tirə, tayfa, xalq bu mədəniyyəti yaradana qədər çox uzun bir tarixi prosesin qaynağında təşəkkül tapmış, öz adlarını isə ərazidə mövcud olan məntəqə adlarında tarixləşdirmişdir. Naxçıvan ərazisi etnoslarının mənşəyi və təşəkkülünə dair xeyli maraqlı məlumatlar A.A.Axundov, T.M.Əhmədov, M.Seyidov, T.Hacıyev, A.Qurbanov, Q.Qeybullayeb, A.Bağırov, A.İmanlı və b. tərəfindən geniş araşdırılmış və qiymətli elmi nəticələr əldə olunmuşdur [7, s. 234-240; 4, s. 47; 23, s. 34-39; 13, s. 16-18; 5, s. 9-17].

Azərbaycan xalqının, o cümlədən də Naxçıvan əhalisinin, təşəkkülün-də xüsusi iştirakı olmuş belə qədim türk boylarından biri də **Qıpçaq** türkləri idi. Bu tayfaların taleyi və tarixi proseslərdə iştirakı, e.ə. VIII və eramızın XIX əsr-

lərinə qədər Naxçıvan ərazilərində yerli sakinlər olması məsələsi hələ də sistemli şəkildə tam öyrənilib aydınlaşdırılmamışdır.

Adın etimologiyası haqqında F.Rəşidəddinin ilk məlumatı "Oğuznamə"də ağac içində doğulan uşağa **Qıpçaq** adı verilməsi [11, s. 18] fikri əsas götürülmüş və təbii ki, bu maraqlı yozumlar da bu istiqamətdə söylənilmişdir. S.Q.Klyaştornı öz tədqiqatlarında qıpçaqların eramızın VI-VII əsrlərində həm **Şir** həm də **Qıpçaq** adı ilə tanındığını, [20, s. 92-93], R.Özdək isə onların **kumanlarla** bərabər XI əsdən tarix səhnəsində **kuman-qıpçaq, xəzər-qıpçaq-uz** ittifaqında birləşməsini qeyd edirlər [30, s. 166-167]. Məsələyə yeni aspektdən yanaşan Q.Qeybullayev eramızın V-VII əsrlərində **koman-qıpçaq** birliyindən və Albaniyada **Qomenk** toponiminin olmasından ətraflı məlumat verir [22, s. 117].

Ümumən xalqımızın etnogenezi tarixinə **qıpçaq-peçeneq, peçeneq-bulqar, bulqar-xəzər, xəzər-qıpçaq-üz** ittifaqı şəklində düşən bu problematik məsələ, eləcə də **Kuman, Kolmat Kol, Kul** boylarının qıpçaqların varisləri olması fikirləri tədqiqatlarda geniş yer almışdır [30, s. 166-167; 22, s. 117; 21, s. 126]. Onlar tarixi mənbələrdə eramızın V-VII-XI əsrlərinə aid edilsələr də, F.Kırzıoğlu "Qıpçaqlar" əsərində **qıpçaqların** fəaliyyətlərini e.ə. VIII əsrdən başlayaraq **ilk** və **son** qıpçaq dövrlərinə bölmüşdür. **İlk** dövrü e.ə. VIII və eramızın VI əsrinə aid edən müəllif, "Uyğur", "Uzunkörpü", "Dədə Qorqud" və s. oğuznamə və Kartlis-Gürcü mənbələrindəki qıpçaqların **sak, kuman, beçeneq, barsil, xəzər** türk ittifaqlarında birləşdiyini geniş təhlil etmişdir [18, s. 3-5, 8-12, 13-16, 31-35]. **Son** qıpçaq dövründə VI-XIII əsrlərin siyasi proseslərinə diqqət yetirən F.Kırzıoğlu, XI əsrdə Çoruk boylarında qıpçaqların Qərbə köçlərini ətraflı araşdırmışdır [yenə orada, s. 50-55, 62-75].

Bu araşdırmaların məntiqi nəticəsi, eləcə də qıpçaqların bir çox türk boyları ilə ittifaqları, onların elə **Şir, Sak, Bulqar, Xəzər, Uz, Kuman, Barsil** türkləri olması qənaəti və bir-birindən seçilməməsi dəfələrlə elmi məqalələrdə qeyd etdiyimiz bir məsələni yenidən təsdiq edir. **"Böyük köçlər" hadisəsi Şimaldan Cənuba deyil, əsl həqiqətdə Ön və Kiçik Asiya, qədim türk Mitan dövləti, Mesopotamiyanın mərkəzi torpaqlarından şimala doğru başlamış, bu köçün geri-ilk yurd yerlərinə qayıdışı tarixşünaslığa "Böyük köçlər"-"gəlmə" yanlış fikrini yaratmışdır.**

Bəs əsl həqiqətdə qıpçaqlar hansı tarixi dövrdə, kimlərlə hansı ölkə ərazisində tarix səhnəsinə çıxmışdır?

İstər **Şir, Sak, Bulqar** boylarının, istərsə də **Kass/ Kasər/Xəzər** boylarının tarix səhnəsinə çıxışları və Ön Asiya, Kiçik Asiya, Naxçıvan ərazilərində yaratdıqları maddi-mədəniyyət nümunələrinin tarixi, eyni boyların Şimal bölgələrdəki mədəniyyət nümunələrinin tarixlərindən ən azı 2 min il qabağa gedir. Əgər diqqət etsək tarixi qaynaqlarda **Bulqar, As, Türükkü, Şir, Subar** kimi prototürk boylarının adları ən əvvəl e.ə. IV-III minilliklərdə **Urmiya gölü ətrafı və Mesopotamiyanın** şimalı – Dəclə və Fəratın yuxarı axarlarında göstərilir.

Bu proses Assur, Aratta, Het və s. ölkələrin yazılarında da təkrarlanır. Daha, sonralar isə "Orxon-Yenisey" yazılarında VI-VII əsrlərində bu tayfa adları yenidən təkrarlanır ki, [32, X I, X IV; 35, s. 169-170; 34, s. 286, 314-318, 332, 368; 9, s. 20] bu da həm prototürklərin cənubdan şimala axınının, həm də bu bu türklərin əsl tarixinin ən azı e.ə. IV-III minilliklərdən başlanmasının təkzibolunmaz sübutudur.

Yaşı 6 min illə ölçülən Naxçıvan şəhəri və onun bölgələrində **Qıbçaq** boylarının məskunlaşması tarixi haqqında bir qədər ətraflı danışmaq istərdik.

Tarixdə əski **Subar, Bulqar, Şir, Kasak-Qazax, Kasər-Xəzər, Kuman, Vanand, Barsil, Sığnık, Uz** bir qədər sonralar isə **Çik-Çigil, Kun, Burcaqlı, Başqırt, Akaser, Kəngər, Uran, Tokas, Kemek-Kumıq, Kul, Bulak, Komat,** və s. türk boylarının ümum adına çevrilən **qıpçaqlar** – sıx ittifaqda olan **Kip saklar** idi (-F.R.). **Saka** boylarının **kip, köp, sıx** (kıpsak, kapsak, sıksak) sinonim deyimlərlə adlanması və sözün **qıpçaq/kipsak** şəklinə düşməsi türklərin dil qanunlarından irəli gəlirdi [16, s. 771]. Uzaq tarixdə e.ə. II minilliyin sonları, I minilliyin əvvəllərindən Kür və Araz çaylarının yuxarı axarlarından Xəzərə qədər, bütün Qafqaza, Qara dənizin qərbinə, Volqa, Don, Ural çayı yaxalarına, oradan isə hazırkı Qazax, Qırğız, Başqırd, Sibir ellərinin ərazilərinə yayılan **qıpçaqlar** hərəkətdə olan qarşısıalınmaz bir axın idi və şübhəsiz ki, bu tamamilə sabit bir tayfanın tarixə yürüşü deyildi. Yuxarıda bu birliyə daxil olan tayfalar haqqında verdiyimiz məlumat və tədqiqatlardan nümunələr də bunları söyləməyə əsas verir.

Qıpçaqların Naxçıvan bölgələrinə yayılma və məskunlaşması **e.ə. XIV-XIII** əsrlərdə başlanmışdır. Bu fikri söyləməyə qədim mənbələr və tarixi qaynaqlar da əsas verir. Biz göstərilən dövrdə **As, Subar, Bulqar, Naxər, Barsil/abarsil, Kass,** prototürklərlə bərabər Van gölü ətrafında **Kumen** coğrafi adına, **Kaman** tayfalarına və ərazisinə rast gəlirik [34, s. 515, 517]. Təbii ki, bu adlar **koman** boylarının səs dəyişilməsi ilə yazılışlarıdır. Bu boyların sonralardan **koman-qıpçaq** adlanması, "**Qıpçaq**" adlı ittifaqda birləşmələri e.ə. II minilliyin sonları, I minilliyin əvvəllərinə təsadüf edirdi. Bu isə tarixşünaslığın və tədqiqatların göstərdiyi tarixdən ən azı 1000 il öncədir. Fikrimizcə, ətraflı araşdırılarsa, bu tarix daha da qədimə gedə bilər. Belə ki, **Bulqar, Şu, Subar və Koman boyları** e.ə. III minillikdə Mitan boyları ilə birlikdə idi [ətraflı bax, 34, s. 315, 318, 515 və s.], komanlar isə qıpçakların uluları sayılırdı.

İndi isə bu boyların Naxçıvanda yayım tarıxi və yerinə diqqət edək. Atropatenanın Sakasen əyaləti Naxçıvan ərazisinin tərkibində idi və burada qohum dilli, daha doğrusu eyni dilli (-F.R.) **bulqar, qıpçaq, xəzər** və **peçeneqlər** yaşayırdı [22, s. 14]. V.Bartold, O.Gökyay, H.Araslı, M.Ergin və başqalarının yazılarında **Qıpçaq** və onlarla ittifaqda olan **protobulqar** və **Şir** boyları "Kitabi-Dədə Qorqud" dastanında adı "Şerüküz", "Şürük", "Şirokuvən", "Şərur" kimi çəkilən **Şirokuz**, **Şərur** və **Şirakan** ellərində məskun idilər [17, s. 264]. Bundan sonra ümum **"qıpçaq"** adını daşıyan boylar əski **Gümrü** – kim-

merlərin bölgəsində **Qıpçaq kəndi, Qıpçaq-Vank, Qıpçaq-Yurdu** yurd yerlərində də aborigen sakinləri idilər [18, s. 13-14].

N.A.Baskakov və N.A.Aristovun yazılarında e.ə. III əsrdə qıpçaqların özlərinə **Qaraberk, Tuk, Urus, Kuç** və s. tayfaları birləşdirərək **hunlara** qatıldıqları qeyd olunur [6, s. 138].

Naxçıvanda məskun olan **Çankı, Çala, Sığalı, Çala-Berd, Qarabulak, Çarık, Qaraağac, Ertüş** qıpçaq boyları e.ə. II minilliyin sonlarından XIX əsrə qədər bölgələrimizdə Qala-Berd, Cuğa (Culfa), Qaraağac, Kür Çulu, Qor-Çulu, Cəkni (Şərur), Qaraçuq, Kalaçık, Kasaberdi (Naxçıvan), Lizberd, Çınık, Keçili kəndi yaxınlığında Çırak-Xırak, Əznəberd (Şahbuz), Qarabulak, Çərikni-Çarıklı (Ordubad) Kimi kəndlərdə məskun olmuşlar [15, s. 165-170, 178, 181; 29, s. 25-36; 26, 12 list; 27, 11 list; 28, 48 list].

Qıpçaq türklərinin digər qolları **Küçət, Cuğrak, Qaraberk, Tuk, Urus, Kuç** boyları isə qədim Naxçıvana daxil olan müxtəlif nahiyələrdə Pirus, Tuk, Kanurəs, Kükü, Tuklu, Hors, Xurs, Mahrus, Dəşt-dəşti Qıpçaq, Qaraçuq, Xorsalı kimi (27 kənd) məntəqələrdə məskun idilər [10, s. 76-77; 29, s. 27-36; 15, s. 124, 149, 171, 182; 24, s. 39-40]. Əgər diqqət etsək qipçaqlar demək olar ki, qədim Naxçıvan-Naxər ölkəsinin bütün bölgələrində, hazırkı Şərur, Şahbuz, Sədərək, Babək, Culfa, Ordubad rayonlarının hamısında məskənləşmiş, məntəqə adlarında öz izlərini günümüzə qədər daşımışlar.

Təəssüflə qeyd edək ki, bütöv türk birliyinin xristian (II əsr) və İslam (VII-VIII əsrlər) dinlərinə qatılması tarixi prosesi türklər üçün faciəvi sonluqla nəticələnmişdir. Areal türk torpaqları, o cümlədən qüdrətli Naxçıvan diyarı və Alban türk dövlətində 4 min ilə yaxın əski inanclarımızla bağlı mövcud olan xeyli sayda Tenqri-Tanrı məbədləri "xristianlaşma" tarixi prosesində dağıdılmış, bir qismi isə xristian **"kilsələrinə"** çevrilmişdir [32, XI 4, 7; 3, s. 152-165]. Bu dönəmdə **oğuz-qıpçaq** birliyi də parçalanmış, dini ayrılıqla üz-üzə dayanan türklərin böyük qırğınları baş vermiş, nəticədə qıpçaqların bir qismi Şərqi Avropa, Orta Asiya, Suriya və Misirdə İslam dininə [30, s. 168-169], Albaniya və Naxçıvan ərazilərində isə həm xristian, həm də İslam dininə qatılmaqla dini düşmənlərə çevrilmişlər.

Bu tarixi prosesin ən ağır sonluğu isə böyük güc olan Qıpçaq boylarına Balkanlardan **"friq-briq"** adı ilə gələrək assimilyasiya olunub, **"hayasa", "erməni"** adlanan və zorla **xristianlaşdırılan,** müasir ermənilərin sığınması olmuşdur [19, I 28, 72; III 90; V 49; VII 30, 73; 33, s. 134-137]. XIX əsrdə çar Rusiyasının siyasəti ilə ərazilərimizə 1828-ci ildən köçürülən **friq-ermənilər** əsasən qədim Tenqri məbədlərinin olduğu məntəqələrdə məskunlaşdırılmışlar. Bu qədim məbədlərin maddi-mədəniyyət nümunələri və əlyazmalarını talan etmiş, bir qismini isə "erməni tarixi adı ilə" mənimsəmişlər [25, s. 17-18, 242-243; 31, s. 116-124].

Sovetlər birliyi dönəmində 1920-30-cu və 1953-55-ci illərdəki tarixi proseslərdə istər Naxçıvan, istərsə də İrəvan xanlığı torpaqlarında ermənilər qədim

Tenqri-Tanrı məbədlərinin bir qismini dağıdaraq bu tarixi cinayəti yerli Azərbaycan türklərinin adına yazmışlar. 1986-cı ildə isə erməni mütəxəssisləri süni su anbarı yaratmaq adı altında tarixi e.ə. II minilliyə söykənən Qazançı qa-lasını və buradakı Tenqri məbədini də partlatmaqla əski məbədlərimizə qarşı terror törətmişlər (-F.R.).

Təbii ki, bu siyasi prosesdə ulu tariximizin bir qismi, 4 minillik mədəniyyət abidələrimiz, onun atributları və s. "erməni tarixinə", xidmət etdiyindən bu prosesin nəticəsi olaraq torpaqlarımıza uydurma erməni iddiaları da ayaq açmışdır.

"Dədə Qorqud Kitabı"mızda Naxçıvan ərazisinin qıpçaq xristianlarda olması ərazinin "**gavur məkanı",** Əlincə qalasının **"Gavur qala",** kimi adlanması **"mərə kafir", "Qıpçaq Məliyə qan qusdurmaq" kimi** ifadələr, Şöklü qıpçaq Məlik Qazan xan düşmənçiliyi, oğuz-qıpçaq qanlarının tökülməsi və s. məsələlər bu siyasi tarixi prosesin məntiqi nəticələri idi [17, s. 42-45, 49, 68-79].

Bütün bunlara baxmayaraq ərazimizdəki toponimik adlar sistemi xalqımızın dilinin, tarixinin, mifologiyasının, eləcə də arxeologiya, etnoqrafiya və epiqrafiyasının öyrənilməsi istiqamətində yeni-yeni elmi faktlar verməkdədir. Bu faktorların müqabilində yaşayış məntəqə adlarının bir daha milli konsepsiyadan hərtərəfi, qədim qaynaq məlumatları əsasında ciddi şəkildə araşdırılması bir vətəndaşlıq borcu olaraq qalmaqdadır.

ƏDƏBİYYAT

1. Абибулаев О. А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 314 с.
2. Алиев И.Г. История Мидии. Баку: Элм, 1960, 317 с.
3. Алиев К. Г. Античная Кавказская Албания. Баку: Азернешр, 1992, 238 с.
4. Axundov A.A. Naxçıvan sözünün mənşəyi / "Naxçıvan tarixinin səhifələri". Bakı, 1996, s. 47.
5. Bağırov A. N. Naxçıvan toponimlərinin linqvistik xüsusiyyətləri. Bakı: Elm, 2002, 286 s
6. Баскаков А.Н. Ногайский язык и его диалекты. М.-Л.1940, 431 с.
7. Əhmədov T.M. Azərbaycan toponimikasının əsasları. Bakı: Bakı Universitetinin nəşri, 1991, 312 s.
8. Əliyev V.Q. Naxçıvan Azərbaycanın tarixi diyarıdır. Bakı: Elm, 2002, 230 s.
9. Əski türk yazılı abidələri müntəxabatı. Bakı: Bakı Universitetinin nəşri, 1993, 279 s.
10. Faruq Sumər. Oğuzlar. Bakı:Yazıçı, 1992, 423 s.
11. Fəzlullah Rəşidəddin. Oğuznamə. Bakı: Azərnəşr. 1992, 72 s.
12. Hacıyev İ., Məmmədov Ş. Naxçıvan və naxçıvanlılar. Bakı: Elm, 2001, 280 s.
13. İmanlı A. Şərur və Iğdır bölgələrinin yer adları. Naxçıvan: Qeyrət, 2008, 159 s.
14. Иосиф Флавий. Иудейские древности. СПб., 1900, Т. I, 716 s.

15. İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm, 1996, 184 s.
16. Karşılaştırmalı Türk Lehceleri Sözlüğü. I c., Ankara: Kültür Bakanlığı, 1992, 1183 s.
17. Kitabi -Dədə Qorqud. Bakı:Yazıçı, 1988, 265 s.
18. Kırzıoğlu Fahrettin. Kıpçaklar. Ankara: Türk Tarih Kurumu, 1992, 284 s.
19. Геродот. История. Л.: Наука, 1972, 599 с.
20. Quliyev Ə.A. Orxon-Yenisey abidələrində toponim və etnonimlər. Bakı: Nurlan, 2004, 128 s.
21. Qeybullayev Q.A. Qədim türklər və Ermənistan. Bakı: Azərnəşr, 1992, 138 s.
22. Гейбуллаев Г.А. К этногенезе азербайджанцев. Т. I, Баку: Элм, 1991, 552 с.
23. Məmmədov A.M. Azərbaycan dilinin erkən tarixinə dair materiallar. 1. Şumer-türk leksik paralelləri // Azərbaycan filologiyası məsələləri. Bakı., 1983, s. 19.
24. Məmməd Həsən Vəliyev (Baharlı). Azərbaycan. Bakı: Elm, 1993, 192 s.
25. Moisey Kalankatuklu. Alban tarixi, Mixtar Qoş. Alban salnaməsi. Bakı: Elm, 1993, 270 s.
26. Naxçıvan MR MDA, f. 23, siy. 1, arxiv 43/44, 11 list.
27. Naxçıvan MR MDA, f. 32, siy. 1, arxiv 44/62, iş № 18, 11 list.
28. Naxçıvan MR MDA, f. 40, siy. 1, arxiv 348/38, iş № 16, 48 list
29. Naxçıvan sancağının müfəssəl dəftəri Bakı: Sabah, 1997, 336 s.
30. Rəfiq Özdək. Türkün qızıl kitabı. I c., Bakı: Yazıçı, 1992, 184 s.
31. Rzayev F.H. Xaçı yaradanlar və Xaçmataq türkləri // Kıbatek XIII. Edebiyyat Sempozyumu. Adana-Antakya: Nobel kitabevi. 2007, s. 141-146.
32. Страбон. География в 17 книгах. Перевод, статья и комментарий Г.А.Стратановского. М.: Наука, 1964, 941 с.
33. Свенцицкая И.С. Раннее христианство. М.: Политиздат,1988, 336 с.
34. Всемирная история. Т. I, М.: Госиздат, 1956, 746 с.
35. Yusifov Y. B. Qədim şərq tarixi. Bakı: Bakı Universitetinin nəşri, 1993, 496 s.

Фирудин Рзаев

КЫПЧАКСКИЕ ТЮРКИ В ЭТНОГЕНЕЗЕ НАХЧЫВАНСКОГО НАСЕЛЕНИЯ

Статья посвящена истории кыпчакских тюрков, которые сыграли большую роль в формировании этногенеза Нахчыванского населения. Исследуя исторические процессы I тысячелетия до н.э., автор статьи, сопоставляя исследования русских и европейских ученых, выдвинул новые версии об их выходе на историческую арену.

Сравнивая сведения античных источников, исследуя ареал распространений и культурное наследие кыпчаков, авторо дрстиг многих научных результатов по этой проблеме.

Существование Союза куман-кыпчаков вместе с такими прототюркскими племенами как **асы, нахары, турукки, булгары, субары**, **лулуби кути, киммеры** и др. в бассейне Урмии, в долине Аракса на I тысячелетии до н.э. подтверждено многими историческими фактами.

Firudin Rzayev

GIPCHAG TURKS IN THE ETHNOGENY OF ANCIENT NAKHCHIVAN PEOPLE

The article has been devoted to the history of Gipchag turks who played a great role in ethnogeny of Nakhchivan people. The author has learnt historical sources of I millennium b.c., at the same time Russian, Europa investigators` woks and has offered a new version of the occurring time of this ethnos to history stage.

By the way of comparative investigation of Gipchag turks` tradition with ancient sources the author has got much more information around of this problem.

By historical facts the author proved that Kuman-gipchags have lived with prototurk tribes – As, Nakhar, Turukku, Bulgar, Subar, Lulubi, Kuti, Kimmer around the river Aras and Urmiya lake I millennium b.c.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

ADİL BAĞIROV
AMEA Naxçıvan Bölməsi
E-mail: bagirovadil@yaho.com

ORXON VƏ YENİSEY ABİDƏLƏRİNDƏ İŞLƏNƏN ZOONİMİK ADLARIN MÜASİR TÜRK DİLLƏRİNDƏKİ İZLƏRİ

(AMEA-nın müxbir üzvü, prof. Ə.A.Quliyev tərəfindən təqdim edilmişdir)

Türk dillərinin ən qədim, böyük və əzəmətli abidəsi olan Qrxon-Yenisey abidələri türklərin milli kimliyini, soykökünü, tarixi yaddaşını, yazı mədəniyyətini mühafizə edən, ictimai-siyasi təfəkkürünü, tarixi coğrafiyasını təsdiqləyən möhtəşəm daş kitabələrdir. Bu kitabələrin onomastik fondunda zoonimik adların xüsusi yeri və tutumu vardır. Zoonimik adlar cəmiyyətin yarandığı vaxtdan meydana gəlmiş, xalqın tarixi inkişafı, ictimai-siyasi təfəkkürü, etnoqrafiyası, milli məşğuliyyəti, adət-ənənəsi, təsərrüfat həyatı, ərazinin faunası ilə bağlı yaranmış, müxtəlif mənbə və qaynaqlarda özünü qoruyub saxlamışdır.

Məlumdur ki, qədim dövrlərdən insanlar təbiətə bağlı olmuş, özlərini onun bir hissəsi saymış, təbiətə məhəbbət və sitayişlərini heyvan və quşlara verdikləri adlarda ifadə etmişlər. Bunun da nəticəsində zooloji leksika tarixi inkişaf yolu keçmiş və zənginləşərək zəmanəmizədək gəlib çatmışdır. Bu adların bir qismi olduğu kimi qalmış, bir qismi isə müəyyən fonetik dəyişikliyə uğrayaraq müxtəlif daş kitabə, yazılı mənbə və qaynaqlarda özünü qoruyub saxlamışdır. Araşdırmalar sübut edir ki, Qrxon-Yenisey abidələrinin dilində ev, çöl heyvan adları və quş adları məhsuldar şəkildə işlənmişdir.

Ev heyvanlarının adları. Qrxon-Yenisey abidələrində *at*, *təvə, buğra, buğa, öküz, ingək, buzğay, koyn, çetik* kimi heyvan adları məhsuldar şəkildə işlənmiş və bu adlar müasir türk dillərində özünü mühafizə etmişdir.

a) **At adları.** Qədim türklərin ən çox qiymət verdiyi və ünsiyyət yaratdığı heyvanlardan biri at olmuşdur. Türklər əsrlər boyu atçılığın inkişafına ciddi fikir vermiş, hərb tarixi və təsərrüfat həyatlarında atın şöhrətini uca tutmuş, atlar türk sərkərdələrinin qəhrəmanlıq taleyində mühüm rol oynamışdır. Türklər daha çox "hündür boylu, nazik ayaqları, iri sağrıları, qısa boyunları, iri başları, qırxılmış yalları" olan atlara üstünlük vermişlər (7, s. 83). Türklər mindikləri atları dəfələrlə sınaqdan çıxarmış, rənginə, sinsinə, xarakterinə, qaçışına, duruşuna, yaşına görə onlara xüsusi adlar vermişlər. Türklərdə olan bu adət-ənənənin

nəticəsidir ki, Qrxon-Yenisey abidələrində *Ala at, Ak at, Azman at, Sarığ at, Yağız at, Turuk at, Az at, Tığ at, Səmiz at, Kutluğ adğır, Boz at, Torık at, Öksüz at, Özlük at, Yəgrək at, Alka at, Cülüq at, Adğır at* kimi at adları məhsuldar şəkildə işlənmiş və müasir türk dillərində öz izlərini qoruyub saxlamışdır. Bu adların leksik mənası və məzmununun açıqlanması müasir dövrümüzdə aktual məsələlərdən biridir.

Adğır zoonimi Qrxon-Yenisey abidələrində kifayət qədər təmsil olunmuş və Irk bitik abidəsində *döllük erkək at* adı kimi mənalandırılmışdır: Ögrinə kutluğ adğır mən, yağak ığaç yaylağım, kuşluğ ığac kışlağım. *Tərcüməsi: Nəsil verən xoşbəxt ayğıram, qozağacı yaylağım, quşlu ağac qışlağım* (8, s. 194). Ayğır at adı "Dədə Qorqud kitabı"nda *ayğır* variantında mühafizə olunmuşdur: Bari Bayındır xanın tövləsindən iki şahbaz yüyrək at gətirin. Biri Keçi başlı *Keçər ayğırı,* biri Toğlu başlı *Turu ayğırı* (10, s. 55). Bu ad M. Kaşgarinin «Divanü lüğat-it-türk» əsərində *adhgır, adhgırlan* (11, I c., s. 313; II c., 96, 109), İbni-Mühənnanın lüğətində *ayğır* (damazlıq at) (5, s. 14) və qədim türk dillərinə aid lüğətdə də (*ayğır* - жеребец) eyni anlamda işlənmiş (3, s. 28), Azərbaycan, türk, başqırt, qazax, qırğız, özbək, tatar, türkmən, uyğur dillərində kiçik fonetik variantda (*ayğır*) özünü yaşatmışdır (6, s. 36-37). Hazırda Naxçıvanın dialekt və şivələrində işlənən *Qara ayğır, Qırmızı ayğır, Qonur ayğır* kimi at adları mövcuddur. Bu ada Nehrəm kənd şivəsində (Babək rayonu) həm də *Toxumluq at* deyilir (2, s. 213) ki, bu da atın nəsil artımı ilə bağlı yaranmış və kişilik, ayğırlıq anlamında işlənmişdir.

Sarığ at. Orxon-Yenisey abidələrində *şabalıdı, açıq-qəhvəyi* rəngdə olan atlara Sarığ at deyilmişdir: Sarıq atlığ sabçı yağız atlığ yalabaç edqü söz sab elti gəlir, -tir (*Tərcüməsi: Sarı atlı çapar, qonur atlı elçi yaxşı söz, xəbər gətirərək gəlir,- deyir*) (4, s. 79). Mənşə və məzmunca Sarığ at adına uyğun olan Qonur at adı "Dədə Qorqud kitabı"nda öz ifadəsini tapmışdır: Qazan xan *Qonur atın* çəkdirdi, bütün bindi (10, s. 42). Bən bu gün *Qonur ata* qaqaram üç günlük yolı bir gündə aluram (10, s. 44). Qonur at adı "Divanü lüğat-it-türk"də *Yağız at* "*kızıl ile siyah arasında bir renktir*" və *Çindat at* – "*gül rəngli at, qonur at"* adları kimi təqdim olunur (12, I c., s. 428). Türk dillərinin əksəriyyətində, o cümlədən Naxçıvanın dialekt və şivələrində *Qonur at* adı indi də işlənməkdədir.

Torığ at. Qədim türklər "*açıq-şabalıdı rəng*" – yəni qəhvəyi – "*boz ilə sarının qarışığı"* olan atlara *Yəgrən at, Toruğ at* adlarını vermiş və bu ad Kül tigin abidəsində öz ifadəsini tapmışdır: Üçünc Yəqin-Silik bəgin gedimlik *torık at* binip təkdi, ol at anta ölti *(Tərcüməsi: Üçüncü dəfə Yəgin Silik bəyin geyimli (yəhərli) kəhər atını minib hücum etdi, o at orada öldü)* (8, s. 74). Tərcümədən göründüyü kimi abidənin dilində işlənən *Toruğ at* adı Azərbaycan dilində *Kəhər at* mənasındadır ki, bu at adı türk dilində *doru,* başqırt və tatar dillərində *turı*, qazax dilində *torı,* qırğız dilində *toru*, özbək dilində *toruk,* türkmən dilində *dor,* uyğur dilində *toruğ//toruq* şəkillərində indi də işlənməkdədir (6, s. 186-187). Azərbaycanın əksər zonalarında *açıq-şabalıdı rəngdə* olan atlara *Kəhər at, Tünd*

kəhər, Tünd zoğalı rəngdə olan atlara *Dorat,* Naxçıvanın dialekt və şivələrində isə *Dürat* adı verilmişdir.

Tığ at. Irk Bitik (Falnamə) abidəsində *Tığ at* adına çox rast gəlinir: Tığ at kudruukın tügüp tigrət yazığ Kodı yadrat tookuz kat üçürgüp, topı uluğ anca təpitzün, -tir. *Tərcüməsi: Kürən atın quyryğunu düyüb yel kimi yazı (düzən) boyu çapdır, doqquz qat bağla böyük (başçımız) eləcə tərləsin, -deyir)* (8, s.194). Tığ at adı M. Kaşgarinin "Divanü lüğat-it-türk" əsərində "kırmızı ile doru rengi arasındakı at, konur at" adı ilə təqdim olunur (11, III c., s. 127). Tükü parıltılı "sarı-qırmızı" rəngdə olan Kürən at adı müasir Azərbaycan dilinə aid bədii ədəbiyyat nümunələrində, Naxçıvanın dialekt və şivələrində məhsuldar şəkildə işlənir.

Ağ at. Kül tigin abidələrində bütün bədəni *ağ və ağ rənglə boz rəngin qarışığı olan* atlara *Ağ at* adı verilmişdir: Kül tigin Bayırkun (ın) ak adğırığ binip oplay təkdi (*Tərcüməsi: - Kül tigin Bayıkunun ağ ayğırını minib hücum etdi*) (8, s. 75); Alp Şalçı *ak atın* binip onlayu təkdi, eki ərik udışru sancdı (*Tərcüməsi:- Alp Şalçının ağ atını minib hücum etdi, iki döyüşçüsünü təqib edərək sancdı)* (8, s. 74). Belə at adlarına "Dədə Qorqud kitabı"nda da rast gəlinir: *Ağ bədəvisin* çəkdirdi, Bayındır xanın yağısın basan Şir Şəmşəddin bindi (10, s. 42). M.Kaşğari yazır ki, "digər türklər alacası olan ata "ak at" deyirlər". Müəllif *Ak at* vahidini türkcə "*boz rəngli at*" mənasında açıqlayır (12, I c., s. 147). İbni-Mühənna "donu bütün ak olan at"ı *Akboz* (5, s. 9), F.Rəşidəddin isə "*Süt ağ"* kimi təqdim edir: O, Arıklı İrak kulun atlarına bənzəyir, o birinin adı *Süt ağdır*, O, rənginin ağlığına görə *Süd* kulun atlarına bənzəyir (9, s. 20). Ağ at adı indi də türk dillərinin əksəriyyətində öz mövqeyini saxlayır.

Ala at. Abidələrin dilində *qarışıq rəngli, tükünün bir hissəsi ağ, o biri hissəsi başqa rəngdə olan* at adları məhsusldar şəkildə işlənmişdir: Ala atlı yol tenqri mən - (*Tərcüməsi:Ala atlı yol (bəxt) tanrısıyam*) (4, s. 78). *Ala at* adı M.Kaşğaridə "ala at, qır at" (12, I c., s. 148), İbn-Mühənnanın lüğətində isə "Alaca, benekli at" şəkillərində açıqlanır (5, s. 9). *Ala at* Azərbaycan dilində "*ala-bəzək"*, "*ala- bula"*, türkmən başqırd, qazax, dillərində "*ala"*, özbək dilində "*ala-bula"*, tatar dilində "*ala-kola"* fonetik görüntülərdə işlənərək eyni funksiyalıdır (6, s. 12-13). Ala rəngi türk dilində "*alaca*", "*ala*", Anadolu ağızlarında "*siyahla beyaz karışık renk, siyahlı beyazlı*" (13, s. 644). Azərbaycan dilində qara-ağ, qara-boz, ağ-qara, qırmızı-ağ rənglərinin qarışığı ilə yaranır və Naxçıvan ərazisində bu rəngləri özündə əks etdirən atlara: *Ala at, Alapaça at, Qara-qırmızı at, Ala madyan* adları verilir.

Abidələrin dilində yaşına görə işlənən at adları türk dillərində *qulun, kulun, kolan, tay, tayça* kimi fonetik variantlarında işlənməkdədir. Məsələn, *dayça* adı uyğur dilində *tayçak* variantında, *day* sözü türk, başqırd, qazax, qırğız, özbək, tatar, türkmən, uyğur dillərində mənbədə olduğu kimi *tay* variantında işlənməkdədir (6, s. 858-859).

Dəvə adları. Qədim türklərin təsərrüfat həyatında dəvəçiliyin mühüm yeri olmuşdur. Elə bu səbəbdəndir ki, abidələrin dilində *təbə, titir, buğra* (erkək

dəvə), *ingən* (dişi dəvə) kimi dəvə adları yaşına və cinsinə görə fərqləndirilmişdir.

Təbə. Irk Bitik (Falnamə) abidəsində işlənən təbə sözü qədim türk dillərində dəvə deməkdir: Təbə titiggə tüşmiş başınu yimiş, özün tilkü yimiş,-tir. *Tərcüməsi: Dəvə bataqlığa düşmüş, əvvəlcə (ətrafdakı otu) yemiş, özünü tülkü yemiş,- deyir* (8, s. 193). Təbə termini türk dilində *deve,* başqırd dilində *döya,* qazax dilində *tüye,* qırğız dilində *tö,* özbək dilində *tüya,* tatar dilində *döyä***,** türkmen dilində *düye,* uyğur dilində *töğä* variantlarında özünü yaşadır (6, s. 168-169) və toponim yaradıcılığında məhsuldar şəkildə iştirak edir: *Dəvəli, Dəvəçilər, Dəvəli tayfası, Dəvəboynu dağı, Dəvə yatağı, Dəvə düzü, Dəvə yolu, Dəvə yurd, Dəvəuçan yer* və s.

Buğra. Irk Bitik (Falnamə) abidəsində dəvənin cinsini bildirən buğra zoonimi də işlənməkdədir: Titir buğra mən – *Tərcüməsi: Titir buğrayam* (4, s. 191). Bu termin "Dədə Qorqud kitabı"nda eyni fonetik variantda öz ifadəsini tapmışdır: Məgər xanım, Bayındır xanın bir buğası vardı, bir dəxi *buğrası* vardı (10, s. 36). Genə toy edib, atdan-ayğırdan, dəvədən *buğra,* qoyundan qoç qırdırmışdı (10, s. 34). Buğra sözü Azərbaycanın dialekt və şivələrində *buğur* (Qazax), *bığır* (Salyan) adları ilə döllük dəvə mənasında işlənir.

Buğa. Buğa sözü İkinci Tuva abidəsinin dilində heyvan adı ilə yanaşı, şəxs adı kimi də işlənmişdir: *Buğa -ər atı* (9, s. 315). Zaman keçdikcə şəxs adı kimi sıradan çıxmış, heyvan adı kimi günümüzədək gəlib çatmışdır. Buğa adına "Dədə Qorqud kitabı"nın "Dirsə xan oğlı Buğac xan boyını bəyan edər" boyunda rast gəlirik: Oğlan yumrığilə buğanın alnına qıya tutıb çaldı. Buğa kötünkötün getdi. Buğa oğlanı sürdi, gerü gəldi (10, s. 36). Bu ad müasir türk dillərinin zoonimik ad sistemində *buğa* (Azərbaycan və türkmən), *boğa* (türk), *ügiz* (başqırdd və tatar), *buka* (qazax, qırğız, özbək və uyğur) variantlarında öz ifadəsini tapır (6,s. 76-77). Naxçıvan toponimiyasında *Buğa çeşmə dərəsi* (Babək rayonu) oronimi buğa heyvan adı əsasında yaranmışdır.

Qrxon-Yenisey abidələrinin dilində rast gəlinən *ingək, öküz, bozaği, koyn* kimi ev heyvanlarının adları müəyyən fonetik dəyişikliyə uğrayaraq türk dillərində öz izlərini qoruyub saxlamışdır. Məsələn, abidələrin dilində işlənən *bozağ* heyvan adı türk dilində *buzağı,* başqırd dilində *buzav/harayak,* qazax dilində *bu-zav,* qırğız dilində *muzo*, özbək dilində *buzak,* tatar dilində *bozav,* türkmən di-lində *göle,* uyğur dilində *mozay* variantlarında (6, s. 86-87); *koyn* heyvan adı Azərbaycan, türk və türkmən dillərində *qoyun// koyun,* başqırd dilində *kuyın// harık (baran),* qazax dilində *koy/savlik,* qırğız, özbək və uyğur dillərində *koy,* tatar dilində *sarık (baran, savlık)* (6, s. 504 -505); *öküz* heyvan adı Azərbaycan, türk, türkmən dillərində *öküz,* başqırd dilində *ügiz//konan,* qazax dilində *ögiz,* qırğız dilində *ögüz,* özbək dilində *hökiz,* tatar dilində *ügiz,* uyğur dilində *höküz* variantlarında yaşamaqdadır (6, s. 676-677).

Çöl heyvanlarının adları. Qrxon-Yenisey abidələrinin dilində ifadəsini tapan *Bars keyik, Sığın keyik, bori, tülkü, tonuz, tabışğan, komurcqa, mağ, piçin*

və s. kimi heyvan adları müxtəlif fonetik variantlarda zəmanəmizə qədər gəlib çatmışdır.

Bars. Abidələrin dilində *bar, barus, burs, bas* variantlarında rast gəlinən *bars* sözü həm şəxs adı kimi İkinci Çaxöl abidəsində *Elçi Çor Güc Bars* (8, s. 243) və Talas abidələrində də öz əksini tapır: *Qara bars, Oğul bars* (8, s. 330). Bars sözünün heyvan adı kimi işlənməsi mənbələrdə daha məhsuldar şəkildədir: Bars kiyik ənləyü mənləyü barmış, ortu yirdə mağaka sookuşmuş (*Tərcüməsi: Bars keyik ov ovlamağa getmiş, orta yerdə (yolun ortasında) ilanla qarşılaşmış* (8, s. 194). Bars heyvan adı müasir türk dillərində *bəbir* (Azərb.), *leopar* (türk), *kaplan* (türkmən, başqırd, özbək, tatar, uyğur), *kalılan* (qazax), *kabılan* (qırğız) şəkillərində ifadə olunur (6, s. 538).

Ayı. Abidələrin dilində ayı heyvan adına *adığ* şəklində rast gəlinir: *Adığlı* tonuzlı art üzə cokuşmuş ermiş, *adığın,* karnı yarılmış, tonuzun azığı sınmış, -tir. *(Tərcüməsi: Ayılı donuzlu dağ keçidində qarşılaşıbmış. Ayının qarnı yarılmış, donuzun köpək dişi sınmış deyir* (8, s. 190). "Divanü lüğat-it-türk" əsəri və İbni-Mühənnanın lüğətində *ayığ* şəklində (11, I c., s. 84, 518; 5, s. 14) əksini tapan bu heyvan adı Azərbaycan, türk, türkmən dillərində *ayı,* başqırd dilində *ayıv,* qazax dilində *ayuv,* qırğız dikində *ayü,* özbək dilində *ayık,* tatar dilində *ayu,* uyğur dilində *eyik* şəkillərində yaşamaqdadır (6, s. 36).

Börü (böri). Türk xalqlarının onomastikasına yaxşı məlum olan *Böri* adının tarixi eradan xeyli əvvəllərə aiddir. Qədim türklərin boz qurda (canavara) tapınması, onu totem kimi qəbul etməsi Irk Bitik (Falnamə) abidəsində börı adının geniş şəkildə işlənməsinə səbəb olmuşdur: Bay ər koynı ürküpən barmış, borikə sokuşmış, bori ağzı emsimiş, əsən tükəl bolmış,-tir. *Tərcüməsi: Varlı kişinin qoyunu hürküb getmiş, canavara rast gəlmiş, canavarın ağzı sulanmış, keyfi saz olmuş, -deyir* (4, s. 85). *Bori* adı Kül tigin abidəsində də qurd variantında öz əksini tapmışdır: Tenri küc birtük üçün kanım kağan süsi börü tək ermis, yağısı koy tək ermis. *Tərcüməsi: Tanrı güc verdiyi üçün atam xaqanın qoşununu qurdtək girimiş, yağını qoyuntək imiş* (8, s. 72). Böri adı türk dilində *kurt*, başqırd, tatar dillərində *buri,* türkmən, qazax və özbək dillərində *böri,* qırğız dilində *bötü,* uyğur dilində *böra* kimi fonetik görüntülərdə müşahidə olunur (6, s. 518).

Keyik. Qrxon-Yenisey abidələrində bu ada məhsuldar şəkildə rast gəlinir: Kuş oğlı uca aztı, *kiyik* oğlı yükürü aztı, kişi oğlı yorıyu aztı. *Tərcüməsi: Quş balası uçaraq azdı, keyik balası qaçaraq azdı, insan oğlu yürüş edərək azdı* (8, s. 196). Keyik adı "Dədə Qorqud kitabı"nda özünü qoruyub saxlayır: Dirsə xan görürmisin oğlan? Yazıda-yabanda *keyiki* qoar, sənin ögünə gətürər. Keyikə atarkən oqla səni urar, öldürər (10, s. 37). Keyik sözü "Divanü lüğat-it-türk"də də məhsuldar şəkildə işlənmişdir: "adhgırak-kulakları ak, vücudünün öbür tarafları kara olan geyik. Dişi koyun için koç ne ise bu da geyik için odur, dağ keçisi tekesi" (11, I c., s. 144). Keyik sözü Azərbaycan və türk dillərində *keyik/geyik,* başqırd və tatar dillərində *bolan,* qazax dilində *buğı//bulan,* qırğız di-

lində *buğu// matal,* özbək dilində *buğu,* türkmən dilində *süğun,* uyğur dilində *buğa* şəkillərində öz ifadəsini tapır (6, s. 270-271).

Sıyın (sığın). Abidələrin dilində işlənən *sıyın* heyvan adı "Dədə Qorqud kitabı"nda *sığın* variantında işlənir: Yüriyəlim, a bəglər! Av avlıyalım, quş quşlıyalım, sığın, keyik yıqalum, qayıdalım otağımıza düşəlim, yeyəlim-içəlim, xoş keçəlim (10, s. 42). Bu heyvan adı Azərbaycan dilində *sığır* şəklində işlənir və «belşəkilli buynuzları olan maral fəsiləsindən iri, kövşəyən məməli heyvan» mənasında işlənir (1, s. 102).

Quş adları. Qrxon-Yenisey abidələrində işlənən *Toğan kuş, Tupunaya kuş, Kara kuş, Koğu kuş, Ququ quşu, kuzğun, kara öpgük, uçuk* kimi quş adları müasir türk dillərinə aid müxtəlif mənbə və qaynaqlarda öz əksini tapır.

Toğan kuş. Irk Bitik (Falnamə) abidəsində bu quş adına çox rast gəlinir:: Kök buymul *toğan kuş* mən, körüklük kayaka (konuupan gözləyir) mən, yağakığ toğrak üzə tüşüpən yaylayır mən,- tir. *(Tərcüməsi: Mavi ala şahinəm. Gözəl qayaya qonub gözləyirəm. Yarpaqlı qovaq ağacına qonub yaylayıram, - deyir* (8, s.195). Toğan kuş adı İbni-Mühənnanda *Doğan kuş* (Çaqrı) variantında təqdim olunur (5, s. 23). Bu quş adı Azərbaycan dilində «möhkəm əyridimdikli, uzun, itiqanadlı yırtıcı quş olan şahin» quşunun adıdır (1, s. 183).

Kuzgun. Abidələrin dilində işlənən *kuzğun quş* adı İbni-Mühənnanın lüğətində də əks olunur (5, s. 4). Azərbaycan, türk, qazax, qırğız, özbək, tatar, uyğur dillərində *quzğun//kuzgun//kozğon,* türkmən dilində *qara qarğa* variantlarında işlənir (6, s. 524).

Öpgük. Zoonimə Irk Bitik (Falnamə) abidəsində rast gəlinir: Kara öpgük yıl yarumazkan tidi, ödmən, gormən ürkittin, - tip. *Tərcüməsi: Qara şanapipik il dəyişməz, - dedi (mənə) nəsihət vermə (mənə) baxma, hürkütdün deyir* (8, s. 191). Bu quş adı Azərbaycan dilində şanapipik adı ilə tanınır.

Koğu kuş. Abidələrin dilində işlənən *koğı kuş* adı Azərbaycan dilində *Qu quşu,* türk dilində *kuğu*, başqırd dilində *akkoş,* qazax dilində *kuv/ ak kuv,* qırğız dilində *ak kü,* özbək dilində *akkus,* tatar dilində *akkos,* türkmən dilində *quv,* uyğur dilində *kuv// akkus* variantlarında qalmaqdadır (6, s. 512-513). Koğu quş adı *kəkük* variantında da özünü göstərir və bu quş adı türk dillərində *Ququ quşu* (Azərb.), *ququv kuş* (türk), *kakuk // kuki* (başqırd), *kökek* (qazax), *kükük* (qırğız), *kakkü* (özbək), *kakkük, kuki* (tatar), *kakkuk* (uyğur) şəkillərində işlənir (6, s. 298-299).

Yekun olaraq demək lazımdır ki, istər Orxon-Yenisey, istərsə də digər abidələrin dilində əksini tapan zoonimik adların araşdırılıb üzə çıxarılması vacib məsələlərdən biridir.

ƏDƏBİYYAT

1. Azərbaycan dilinin izahlı lüğəti. IV c., Bakı: Şərq-Qərb, 2006, 712 s.
2. Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri. Bakı: Azərb.SSR EA

nəşri, 1962, 326 s.
3. Древнетюркский словарь. Л.: Наука, 1969, 676 s.
4. Əski türk yazılı abidələri müntəxabatı (Mətnlərin tərtib və tərcümə edəni, Ön söz, oçerk və qeydlərin müəllifi Quliyev Əbülfəz). Bakı: Bakı Unuversiteti, 1992, 280 s.
5. İbni-Mühenna lüğatii. Ankara: Türk Dil Kurumu, 1997, 105 s.
6. Karşılaştırmalı türk lehçeleri sözlüğü (Klavuz Kitap). I c., Ankara: Kultur Bakanlığı, 1991, 1183 s.
7. Qumilyov L. Qədim türklər. Bakı: Gənclik, 1993, 536 s.
8. Rəcəbov Ə., Məmmədov Y. Orxon -Yenisey abidələri, Bakı: Yazıçı, 1993, 400 s.
9. Rəşidəddin F. Oğuznamə. Bakı: Azərnəşr,1992, 72 s.
10. "Kitabi Dədə Qorqud" dastanı. Bakı: Yazıçı, 1988, 265 s.
11. Mahmud Kaşğari. Divanü lüğat-it-türk (Çevireni: Besim Atalay). 5 Baskı, I c., Ankara: Türk Dil Kurumu, 2006. I c., 530 s.; II c., 366 s.; III c., 452 s.; IV c., 885 s.
12. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. 4 cilddə (Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əskər) I c., Bakı: Ozan, 2006, 512 s.
13. Uluslararası Kaşğarlı Mahmud sempoziumu (17-19 Ekim 2008), Bildiri metinleri, Rize: Rize Ünuversitesi yayınları, 2008, 745 s.

Адиль Багиров

СЛЕДЫ ЗООНОМИЧЕСКИХ ИМЕН, УПОТРЕБЛЯЕМЫХ В ОРХОН-ЕНИСЕЙСКИХ ПАМЯТНИКАХ, В СОВРЕМЕННЫХ ТЮРКСКИХ ЯЗЫКАХ

Статья посвящена исследованию зоономических имен, употребляемых в языке Орхон-Енисейских памятников, здесь с группированы имена домашних и диких животных, птиц а также в языке этих памятников, определены варианты этих имен, употребляемых в современных тюркских языках.

Adil Baghirov

THE TRACKS OF ZOONIMIC NAMES USING IN ORKHON-YENISEY MONUMENTS IN MODERN TURKİSH LANGUAGES

The article is devoted to the scientific investigation of zoonimic names used in Orkhon-Yenisey monuments. The names of domestic animals, wild animals, birds are grouped, using these names in modern Turkish languages have been determined by the author in the article.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

RƏŞAD ZÜLFÜQAROV
AMEA Naxçıvan Bölməsi
E-mail:reshadzulfugarov@yahoo.com

ORDUBAD DİALEKTİNDƏ HEYVANDARLIQ TERMİNLƏRİ

(AMEA-nın müxbir üzvü, prof. Ə.A.Quliyev tərəfindən təqdim edilmişdir)

Azərbaycan dialektologiyasının tərkib hissəsi kimi Naxçıvan qrupu dialekt və şivələrinin öyrənilib tədqiqata cəlb olunması günümüzün aktual məsələlərindən olmaqla dilimizin tarixi təkamülümüzdəki rolunu da öyrənmək baxımından xüsusi əhəmiyyətə malikdir. Naxçıvan qrupu dialekt və şivələri içərisində Ordubad dialekti özünəməxsus yer tutur. Doğrudur, bugünədək Ordubad dialekti ilə bağlı bir sıra məqalələr dərc olunmuşdur. Lakin bu hələ də dialektdəki zəngin terminlər sistemindən ətraflı bəhs edən məqalələr toplusuna çevrilməmişdir. Ordubad dialektinin leksikası ilə bağlı R.Ə.Süleymanovun "Ordubad və Culfa rayonlarının leksik xüsusiyyətləri" ("Ədəbiyyat və Dil İnstitutunun əsərləri" 1957) (5, s. 7), S.H.Məmmədovun "Ordubad dialektində sifət düzəldən şəkilçilər", R.Ə.Zülfüqarovun "Naxçıvan dialekt və şivələrinin terminoloji leksikası (Culfa Ordubad materialları əsasında)" (6, s. 169-172) və b. müəlliflərin məqalələri dərc edilmişdir.

Ordubad dialektinin terminoloji leksikası olduqca zəngin və əhatəlidir. Rayonun əkinçilik, maldarlıq, heyvandarlıq, atçılıq, arıçılıq, üzümçülük, bağçılıq və bu kimi digər təsərrüfat sahələrini inkişaf etdirmək baxımından əlverişli mövqedə yerləşməsi də burada terminlər sisteminin zənginliyinə yol açmışdır. Əsasən dağlıq və dağətəyi əraziləri əhatə edən Ordubad rayonu ta qədim zamanlardan burada qoyunçuluq təsərrüfatının inkişafı üçün əlverişli şərait yaratmışdır. Qoyunçuluq bu bölgədə yaşayan əhalinin ən əsas təsərrüfat sahələrindən biridir.

Tədqiqat zamanı Ordubad dialektində bu istiqamətlə bağlı zəngin terminlər sisteminin mövcudluğuna şahid olduq. Məlum olduğu kimi, kiçik bir məqalədə bu və ya digər rayonun terminlər sistemini əks etdirmək mümkün deyil. Bu baxımdan məqaləmizdə Ordubad dialektində qoyunçuluqla bağlı işlədilən – ***əzman/azman***, ***əmlix'***, ***toğlu//toğli*** , ***öyəş // övəc // öəş və şişəx' // şişəx*** terminlərindən bəhs edəcəyik.

Əzman/azman (ək.k.) – 5-6 illik erkək və ya dişi qoyun. Ordubad dialektində beşillik erkək qoyun və ya keçi mənasında işlənən –***əzman // azman*** sözününün etimologiyasını araşdıran tədqiqatçılar bu terminin qədim türk dillərində həm də *iri, böyük, nəhəng* mənalarında işləndiyini qeyd etmişlər. Bu leksemə dilimizin ayrı-ayrı dialekt və şivələrində, bir sıra qədim yazılı abidələrimizdə və digər türk dillərində eyni və ya fərqli fonetik tərkibdə rast gəlinir. Məs.: Azərbaycan dilinin Qərb qrupu dialekt və şivələrində *azman* (17, s. 197) – çox yaşlı dişi keçi; Ağdam, Füzuli, Tovuz şivələrində *azman* (16, s. 48) – beş-altı illik qoyun, qoç; Qarabağ dialektində *əzman // izman* (16, s. 48) – iri, böyük qoç; Gəncəbasar şivələrində *azman* (2, s. 10) – iri, yaşlı qoyun və ya keçi; Cəbrayıl, Zəngilan şivələrində *azman* (7, s. 24) – altı illik qoyun mənalarında işlənir.

Türkiyə türkçəsinin Kayseri şivəsində *azman* (18, s. 223) – dörd yaşlı qoyun; qazax dilində *azban* (19, s. 15) – axtalanmış qoç; türkmən dilində *azman* (20, s. 31), qırğız dilində *osman*, qaqauz dialektində *xazman* (16, s. 49) – buruq qoç; "Divani-lüğət-it-türkdə" *azman* (13, s. 130) – axtalanmış qoç; V. Radlovun lüğətində *azman* (15, s. 582) – 1. Buruq qoç, 2. Beş-altı yaşlı öküz və ya erkək at mənalarında var olmaqdadır.

Əmlix'(ək.k.) – Ordubad dialektində *əmlix' // əmlik* şəklində anasının yanında qalan, süd əmən quzu mənasında işlənən bu termin *əmmək* felindən yaranmışdır. Bu leksem istər Azəbaycan dilinin ayrı-ayrı dialekt və şivələrində, istərsə də müxtəlif türk dillərində eyni və ya bir qədər fərqli fonetik tərkibdə, lakin əsasən eyni mənada işlənməkdədir. Məs.: Azərbaycan dilinin Lerik şivələrində *əmlig* (1, s. 119) anasının yanında olan, əmən quzu; Qərb qrupu dialekt və şivələrində *əmlix'* (16, s. 45), Meğri (Mehri – R.Z.) şivələrində *əmlix'* (8, s. 377) çox süd əmmiş quzu, oğlaq, buzov mənasında; Füzuli şivəsində (7, s. 125), Gəncə və Gəncəbasar dialekt və şivələrində *əmlik* (2, s. 41) yalnız ana südü ilə bəslənən 5-6 aylıq quzu mənalarında işlənir.

Eremenov qeyd edir ki, bu söz türk dilində *emlik* (21, s. 30) şəklində işlənir. Bundan başqa Türkiyə Türkçəsinin Kars və Çoruh ağızlarında *emlig* (18, s. 146) anasın əmmə çağındakı quzu; Urfa ağzında *emlek* (22, s. 108) süd əmən quzu, oğlaq, buzov və s. mənalarında, Niğde ağzında isə eyni fonetik tərkibdə *emlik* (18, s. 219), fəqət fərqli mənada vaxtından sonra balalayan qoyun şəklində mövcuddur.

X.İ.Syunçev *emlik//elmik* sözünü Qaraçay-Balkar dilində (Сюнчев Х.И. Карачаево-Балкарское именное словообразование, Черкесск, 1971) "hələ minilməyən at mənasında" izah etmiş və bu sözün *emniq* formasında, eyni mənada monqol dilində işləndiyini qeyd etmişdir (16, s. 36). Beləliklə, əmlik leksemi türk mənşəli qədim sözlərimizdən biri olub həm Naxçıvan qrupu dialekt və şivələrində, həm də digər türk dillərində varlığını qorumaqdadır.

Toxlu//toğlu//toğli (ək.k.) – Ordubad dialektində işlənən bu termin qədim türkmənşəli leksemlərimizdən biridir. Onun işlənmə arealı istər Azərbaycan dilinin dialekt və şivələrində, istərsə də digər türk dillərində, qədim yazılı

abidələrimizdə olduqca genişdir. Azərbaycan dilinin bu günə qədər araşdırılan dialekt və şivələrində bu leksem çox yaxın fonetik tərkibdə və mənada işlənməkdədir.Məs.: Terminə dilimizin Çənbərək və Karvansaray şivələrində *toğlu* (10, s. 253) bir illik qoyun, Meğri (Mehri – R.Z.) şivələrində *toxlu//to:lu//tuxlu* (8, s. 377) bir yaşın tamamlayan qoyun, Lerik şivələrində *toğli* (1, s. 73) altı aylıq bala, Gəncə şivələrində *to:lu//toğlu* (17, s. 72) altı aydan bir yaşa kimi erkək və ya dişi bala, Şəki dialektində *toflu//toxlu* (9, s. 257) altı aylıq quzu, Bakı dialektində *toğlı,* Qazax dialektində *toğlı*, Quba *toğlı* (11, s. 205), *toxlu//toxlı* Naxçıvan dialekt və şivələrində (5, s. 214), Qərb qrupu dialekt və şivələrində *toxluman//toğluman* (17, s. 45) altı aylıq dişi quzu, Muğan qrupu, Cəbrayıl, Mərəzə, Salyan *toğlı*, Füzuli *toğlu* şəklində, bir yaşlı qoyun mənalarında var olmaqdadır.

Türkiyə Türkçəsinin Kastomonu şivəsində *toklu* (18, s. 259) yaşlı erkək qoyun, Amasiya şivəsində *toxlu* (18, s. 259) bir yaşlı quzu; Urfa ağzında *toklı* (22, s. 138) iki yaşında qoyun, Giresun ağzında *toklu* (18, s. 349), Erzincan və yörəsi ağızlarında *tohlu* bir yaşlı qoyun, Erzurum ili ağızlarında *tohli* (12, s. 312) 6-12 aylıq qoç; bir yaşlı qoyun, Elazığ yörəsi ağızlarında *tohlu* (23, s. 238) qoç mənalarında işlənmişdir.

Bu leksem "Kitabi-Dədə Qorqud" dastanlarında *toğlı//toqlı* (14, s. 158), İbni-Mühənna lüğətində *tohlı//toklı* (s. 73), tuvin dilində *toqtu* (s. 396), türkmən dilində *toklı* (20, s. 638), qırğız dilində *toktu* (s. 8), qaraqalpak dilində *toklu//tokle//tokti* (15, s. 231) variantında və bir illik quzu mənasında işlənmişdir. Qədim türk dilində *tokli* (15, s. 577) və cağatay dillərində *tokli//toklu* sözü "altı aylıq quzu" mənasında işlənib.

Ordubad dialektində üç illik erkək qoyun mənasında işlənən – ***öyəç // öyəş // öməc // öəş (ək.k.)*** sözünün oxşar və ya fərqli fonetik tərkibdə, lakin yaxın mənalarda həm Azərbaycan dilinin digər dialekt və şivələrində, həm Türkiyə Türkçəsinin ayrı-ayrı dialektlərində, həmçinin "Kitabi-Dədə Qorqud" dastanında işləndiyinin şahidi oluruq. Məs.: Azərbaycan dilinin Şəki dialektində *öyəş // öyəc* (9, s. 195) – üçillik erkək, Quba dialektində 1. *ügəc*– ikiillik dişi qoyun; 2. *ügəc qoç* (11, s. 205) – ikiillik erkək, Gəncəbasar dialekt və şivələrində *öyəş* (2, s. 61) – üçillik qoç; Meğri (Mehri – R.Z.) şivələrində *öyəş // ögəş* (8, s. 371) – üç yaşlı axtalanmış erkək, Çənbərək və Karvansaray şivələrində *öəc* (10, s. 253) – üç yaşlı erkək, Cəbrayıl, Ağdam, Qazax dialekt və şivələrində *öəç* (7, s. 433) – üç yaşlı erkək; "Kitabi-Dədə Qorqud" dastanında isə *öyəc* (14, s. 20) – kök qoyun mənalarında mövcuddur.

Ordubad dialektində leksik-semantik mənalarına görə böyüklük, təcrübəlilik, nəhənglik, ululuq ifadə edən qərədiş // qaradiş, əkə, əkəbükə, qərə // qara kimi sözlər heyvan adlarına qoşularaq onlardan birini digərlərindən yaşına və əlamətinə görə fərqləndirir. Bəhs olunan dialektdə əsasən heyvan yaşlarının göstəricisi olan bu terminlər həm qoyun, həm keçi, bəzən isə qaramala aid edilə bilir.

Ordubad dialektində işlənən ***şişəx' // şişəx(ək.k.)*** leksemi həm Azərbaycan dilinin ayrı-ayrı dialekt və şivələrində, həm də türk dillərində, onların qədim yazılı abidələrində ayrı və ya oxşar fonetik tərkibdə, lakin eyni mənada özünü göstərməkdədir. Məs.: Azərbaycan dilinin Qərb qrupu dialekt və şivələrində *işşəx'* (17, s. 217) – 1. ikiyaşar qoyun; 2. üçyaşar erkək camış, Çənbərək və Karvansaray şivələrində *şişəx'* (10, s. 253) – ilk dəfə doğan qoyun, Meğri (Mehri –R.Z.) şivələrində *şişəx'//şişex'* (8, s. 377) – iki ili tamam olmayan qoyun, Cəbrayıl şivəsində (7, s. 46) – ikiillik qoyun, Quba dialektində *şə:g* (11, s. 205) – doğmayan qoyun, Göyçay keçid şivələrində *şişəx'* (7, s. 20) – ilk dəfə doğan qoyun, Mərəzə şivələrində bir illik ana qoyun, Füzuli şivəsində *şişəx'* – iki yaşında dişi, *şişəx' erkəx'* iki yaşında erkək heyvan (7, s. 125) mənalarında var olmaqdadır.

Şişəx' qədim sözlərimizdən biri olub, özbək dilində *şişak* (15, s. 543), qaraçay-balkar (15, s. 83) və türkmən dillərində (20, s. 366) *işek* fonetik variantlarında ikiillik qoyun, qaqauz dilində isə *şişek* şəklində işlənərək (15, s. 231) üçillik qoyun mənalarını ifadə edir.

Bu leksem Türkiyə Türkçəsinin Erzincan və yörəsi ağızlarında *şişek* bir yaşdan yuxarı qoyun, Urfa ağzında *şişek* (22, s. 134) – 6 aylığından iki yaşa qədər qoyun, Erzurum ili ağızlarında *şişeyh* (12, s. 295) – bir yaşından yuxarı qoyun, V.V.Radlovun lüğətində *şişək/şişük* (15, s. 1083) şəklində, eyni mənada işlənməkdədir.

Bir sözlə, bu gün Ordubad dialektində heyvandarlıqla bağlı işlədilən terminlər olduqca çox və əhatəlidir. Məqalədə araşdırılan sözlər isə tədqiq olunan dialektin zəngin terminlər sisteminin bəzi nümunələridir. Onların ətraflı tədqiqi göstərir ki, dialektdə heyvandarlıqla bağlı işlədilən ən qədim türk-Azərbaycan mənşəli sözlər mövcuddur ki, bu da dilimizin miladdan öncə formalaşdığının danılmaz sübutudur.

ƏDƏBİYYAT

1. Binnətova G. Azərbaycan dilinin Lerik rayon şivələri. Bakı: Nurlan, 2007, 176 s.
2. Xasiyev Z. Heyvandarlıq və əkinçilik terminləri lüğəti (Gəncəbasar materialları əsasında). Bakı: Nurlan, 2000, 87 s.
3. İbrahimov B. Naxçıvan şivələri qrupunun bəzi lüğət xüsusiyyətləri. Bakı: APİ nəşriyyatı, 1960, 34 s.
4. Məmədov Ş. Azərbaycan dilinin Yardımlı rayon şivələri. Bakı: Təhsil, 2007, 166 s.
5. Şirəliyev M. Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri. Bakı: Azərb.SSR EA nəşriyyatı, 1962, 327 s.
6. Zülfüqarov R. Naxçıvan dialekt və şivələrinin terminoloji leksikasına aid bəzi qeydlər // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2008, № 1, s. 169-172.

7. Azərbaycan dialektolojo lüğəti, I c., Ankara: Türk Dil Kurumu, 1999, 374 s.
8. Əliyev Ə. Azərbaycan dilinin Meğri şivələri, Bakı: Elm, 2003, 580 s
9. İslamov M. Azərbaycan dilinin Nuxa dialekti, Bakı: MEA-nın nəşri, 1968, 275 s.
10. Kərimov Ş. Azərbaycan dilinin Çənbərək və Karvansaray şivələri. Bakı: Nurlan, 2004, 362 s.
11. Rüstəmov R. Quba dialekti. Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1961, 281 s.
12. Gemalmaz E. Erzurum ili ağızları, III c., Ankara: Türk Dil Kurumu, 1995, 381 s.
13. Kaşğarlı M. "Divani lüğat-it-türk". Ankara: Türk Tarih Kurumu Basımevi, III c. 1986, 452 s.
14. Zeynalov F., Alizade S. "Kitabi-Dede Korkut" destanı. Bakü: Yazıçı, 1988, 265 s.
15. Радлов В.В. Опыт словаря тюркских наречий. Т.I, М.: «Восточная литература», 1963, 968 с.
16. Xasiyev Z. Azərbaycan dili dialektlərinin Qərb qrupunda heyvandarlıq terminləri. Bakı: Nurlan, 2004, 146 s.
17. Şirəliyev M., Rüstəmov R. Azərbaycan dilinin Qərb qrupu dialekt və şivələri. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1967, 279 s.
18. Caferoğlu A. Orta Anadolu ağızlarından derlemeler. Ankara: Türk Dil Kurumu, 1995, 264 s.
19. Kazak tilinin mycindeme sözldiqi: T. I, Alma-ata: 1959, 305 s.
20. Türkmençe-rusça sözlüq. Moskva, 1968, 785 s.
21. Еремеев Д.Е.Юрюки Турецкие кочевники и полукочевники, М.: 1968, 215 s.
22. Özçelik S. Urfa Merkez ağzı. Ankara: Türk Dil Kurumu, 1997, 271 s.
23. Gülensoy T., Buran A. Elazığ yöresi ağızlarından derlemeler. Ankara: Türk Dil Kurumu, 1994, 239 s.

Рашад Зульфугаров

СКОТОВОДЧЕСКИЕ ТЕРМИНЫ В ОРДУБАДСКОМ ДИАЛЕКТЕ

Ордубадские диалекты отличаются своей самобытностью и особым характером. Статья посвящена скотоводческим терминам, использующимся в Ордубадском диалекте. Эти термины автором собраны и систематизированы, исследованы и сопоставлены с древнетюркскими архаизмами. При исследовании выявлены важные научные результаты.

Rashad Zulfugarov

THE STOCK BREEDİNG TERMS İN ORDUBAD DİALECT

Ordubad dialect has its own specifics character. The article dealt with the stock breeding terms in Ordubad dialect. Some part of these terms were explained by the author in the article. Result of analysis it is proved that major of these terms reflects the archaic lexical units of our national language. The author got more new facts result of investigation

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

SƏYYAR MƏMMƏDOV
AMEA Naxçıvan Bölməsi
E-mail: seyyar_m@yahoo.com

CULFA ŞİVƏLƏRİNDƏ FELİN ƏMR ŞƏKLİNİN VƏ KEÇMİŞ ZAMANIN İŞLƏNMƏSİ

(Redaksiya heyətinin üzvü, f.e.d., prof. M.A.Cəfərli tərəfindən təqdim edilmişdir)

Felin özünəməxsus kateqoriyalarından biri olan şəkil kateqoriyası Culfa rayonu şivələrində, bir qayda olaraq, beş sayda özünü göstərir. Müasir ədəbi dilimizdəki əmr, xəbər, arzu, vacib və şərt şəkilləri bu şivələrdə özünəməxsus şəkildə ifadə olunur. Felin lazım şəklinə isə Culfa rayonu kəndlərində təsadüf etmədik. Bu, fikrimizcə, fel şəkillərinin Culfa şivələrində öz tarixi funksiyasını nisbətən yaxşı saxlaması ilə əlaqədardır. Daha dəqiq desək, bu və ya digər fel şəkli başqa şəkil və ya şəkillərin yerində işlənə bilir. Beləliklə, tədqiq olunan şivələrdə vacib şəkli, bir qayda olaraq, lazım şəklinin yerində işlənir.

Bu şivələrdə fel şəkillərinin hər birinin müəyyən ifadə forması vardır.

Əmr şəkli. Əmr şəkli felin kökünə və ya başlanğıc formasına şəxs şəkilçiləri artırmaqla düzəlir. Bu şəxs şəkilçiləri Culfa şivələrində bəzən ədəbi dildən fərqli formada işlənir ki, bu da bu şivələrin səciyyəvi morfoloji xüsusiyyətlərindəndir. Belə ki, Culfa şivələrində əmr şəkli I şəxsin cəminin və II, III şəxslərin təkinin ədəbi dildən fərqli ifadə olunması ilə səciyyələnir.

I şəxsin cəmi. Culfa şivələrində əmr şəklində işlənən fel I şəxsin cəmində ədəbi dildəki **-aq**[2] şəkilçisinin fonetik variantları ***(-ax, -əx // -əx')*** ilə yanaşı, ***-ağın, -əyin // -ğın // -ğin*** şəkilçisi ilə də işlənir; məs.: ***qaçağın, doluyağın, siləyin, cütdüyəyin, qömbələğın, gözdüyəğin*** və s.

-ax[2] ***// -əx'*** şəkilçili sözlərdə I şəxs tək II şəxs təkə müraciət edir. Bu zaman həmin sözlərdən əvvəl, ədətən, **gəl** ədatının fonetik variantı olan ***gə*** sözü işlənir; məs.: ***— Gə qaçax; — Gə gedəx; — Gə içəx' (ək.k.).***

-ağın[2] şəkilçili fellərdə isə I şəxs tək II şəxs cəmə müraciət edir. Bu sözlərdən əvvəl gələn **gəl** ədatı tək halda deyil, II şəxsin cəmində, yəni ***gəlin*** formasında olmalıdır; məs.: ***— Gəlin oturağın; — Gəlin düşəyin; Gəlin gedəğın; — Gəlin yeyəğin (ək.k.).***

Akad. M.Şirəliyevin fikrincə, ***-ağın***[2] şəkilçisi I şəxs cəm şəkilçisi ilə II şəxs cəm şəkilçisinin birləşməsindən əmələ gəlmişdir (8, s. 199).

Misallar: — ***Əvvəlcən, de:rəm, çatı:n doluyağın, sox'ra buruntax verəğın (M.); — Gözdüyəğin da:, bınnan suvayım nə əlacımız var? (Y.); — Gə:n bıra:n yığağın, so:ram qalxağın (L.); — Belə olmuyacax, çömbələğın, bəlkə, geçə biləx' (X.keş.).***

Müqayisə üçün qeyd edək ki, əmr şəklinin I şəxs cəminin bu cür ifadə olunması İraq-Türkman ləhcəsində geniş yayılmışdır (4, s. 180).

Qeyd etdiyimiz kimi, yuxarıdakı şəkilçilərdən başqa, Culfa şivələrində I şəxs cəmin əmr şəkli ədəbi dilimizdəki **-aq**[2] şəkilçisinin fonetik variantları olan ***-ax, -əx // -əx'*** şəkilçisi ilə də ifadə olunur. Lakin maraqlı cəhət budur ki, Culfa şəhər və Yaycı kənd şivələrində bu variantlardan yalnız ***-ax, -əx*** şəkilçisinin işləndiyini müşahidə etdik; məs.: ***baxax, gələx, oturax, biləx*** və s. Digər kənd şivələrində isə bu variantlarla yanaşı, ***-əx'*** variantı da işlənməkdədir.

Əmr şəklinin I şəxsin təkində də ədəbi dildən ahəng qanununun pozulması ilə nəticələnən fərqli xüsusiyyət özünü göstərir; məs.: ***gəlım < gəlim, gedım < gedim, deyım < deyim, əkım < əkim (ək.k.)*** və s.

Nümunələrdən də göründüyü kimi, qalın saitli şəxs şəkilçisinin işlənməsi kök və ya başlanğıc formadakı yalnız **e, ə, i** incə saitlərindən sonra özünü göstərir. Bu hal II və III şəxsin təkində də müşahidə olunmuşdur.

II şəxsin təki. Əmr şəklinin ikinci şəxs təki həm felin kökü və ya başlanğıc forması, həm də vurğu qəbul etməyən ***-gınan, -ginən, -gunan, -günən*** şəkilçisinin əlavəsi ilə düzəlir; məs.: ***baxgınan, bilginən, otugunan, süzgünən (S., B.əhm., N., Ş., Q., Əbr., Ə., Əl., T., M.).***

Misallar: — ***Əlbəhəm baxgınan, qə:t gə (X.gah); — Unu yə:qin bilginən ki, mən həmməşə hər kişdiyə öz payını vermişəm (K.); — Ərə ey, kirmişcə outgunan (Ə.); — Süzgünən, birin də içim, gedım (M.).***

Bu şəkilçinin Meğri şivələrində ***-gınan, -ginən və -ginaᵊn*** (3, s. 267), Şəki dialektində (5, s. 112) və Yardımlı şivələrində ***-ginən*** (6, s. 78), İraq-Türkman ləhcəsində isə ***-gınan, -ginən*** (4, s. 182) variantları daha çox işlənir.

Culfa şivələrində ikinci şəxsin təkini ifadə etmək üçün yuxarıdakı şəkilçidən başqa, ***-nə // -nən*** və ***-a, -ə*** şəklçiləri də işlənir ki, birinci şəkilçi yalnız **de,** ikinci şəkilçi isə yalnız **al** və **gəl** fellərinə əlavə olunur; məs.: ***denə // denən; ala (b.k.), gələ*** (al) ***(Ə., K., B.).***

Əmr şəklinin II şəxs təkini ifadə edən ***gələ*** feli **al(maq)** mənasını ifadə edərək bu felin yerində də işlənə bilir.

Misallar: — ***Dədã: denə, davarı yoxşa qaldımasın (Ər.); — Da: denən, getməmisən ki (Y.); Çaydanı ala, qoygunan isdinsin (Cam.); — Ağacı gələ (al), az danış (X.keş).***

Əmr şəklinin II şəxs təkində **de(mək)** felinin ***-nə*** şəkilçisi ilə işlənməsi Şəki dialektində (5, s. 112), **al(maq)** felinin ***-a*** şəkilçisi ilə ifadə olunması isə İraq-Türkman ləhcəsində də özünü göstərir (4, s. 183).

Bundan başqa, ikinci şəxsin cəmində olan əmr şəkilli fellər şəxs şəkilçisinin kök və ya başlanğıc formadakı incə sait ahənginə tabe olmaması ilə işlənir;

məs.: ***deyın < deyin, sevın < sevin, verın < verin, əzın < əzin, gərın < gərin, gəzın < gəzin, səpın < səpin, kəsın < kəsin, təzın < təzin*** (qaçın) ***(ək.k.)*** və s.

Felin kök və ya əsasındakı **e, ə** və **i** incə saitlərindən sonra qalın saitli (***ı*** saitili) ***-ın // -yın*** şəkilçinin işlənməsi Şəki dialektində də müşahidə olunmuşdur (5, s. 112-113).

III şəxsin təki. Culfa rayonunun əksər kənd şivələrində ədəbi dildən fərqli olaraq, üçüncü şəxsin təkində incə saitli sözlərdən sonra qalın saitli şəkilçi işlənir; məs.: ***bilsın < bilsin, çimsın < çimsin, gəlsın < gəlsin, mınsın < minsin, yesın < yesin (ək.k.)*** və s.

Sonu **l, t** və **z** samitləri ilə bitən fellər III şəxsin təkində işləndikdə həmin fellərin sonundakı **s** və **t** səsləri, bir qayda olaraq, şəxs şəkilçisinin ilk samiti **s** səsinin təsiri ilə geri assimilyasiya nəticəsində ***s*** səsinə çevrilir; məs.: ***assın < atsın, bassın < batsın, gessın < getsin, tussun < tutsun, ossun < olsun (b.k.), gəssin < gəzsin, yassın < yazsın, qassın < qazsın (Əbr., B., S., G.dərə, Ş., T., X.gah, Gül.).***

Əmr şəklinin inkarı ədəbi dilimizdə olduğu kimi, **-ma**[2] şəkilçisinin əlavəsi ilə düzəlir: lakin I şəxsin tək və cəmində isə həmin şəkilçinin fonetik variantları olan ***-mı, -mi, -mu, -mü*** şəkilçisi ilə ifadə olunur; məs.: ***satmıyım, sinsimmiyim, dolmuyum, küsmüyüm; qalmıyağın, itirmiyəğın, soymuyağın, görüşmüyəğin (ək.k.).***

Culfa şivələrində əmr şəkli öz mənası ilə yanaşı, digər məna çalarları da bildirir. Burada əmr şəklinin xəbər, arzu və məsdər formalarını ifadə etməsi müşahidə olunmuşdur.

Xəbər formasını ifadə etməsi həm I şəxsin tək və cəminin, həm də II və III şəxslərin təkinin keçmiş zamanı bildirməsidir; məs.: — ***Bir ay bınnan qabax sifariş verim, sıra: gün sə:n ya:nda alım, sən də denən, xəbərim yoxdu (B.); — Üçcə gün qabax odun yığağın, dünən odunu oğurra (G.dərə); — Dünənnəri, zalımın balası, apar naxırı sal örüşə, piçilməmiş yeri sifirt otdasın, soxra da mə:m bağrım çatdamasın görüm, nə∩tə:r çatdamır (B.əhm.); — Qağam məni dünən günertə ha axdarsın, tapammasın, dəlı ossun (K.).***

Arzu forması I şəxsin tək və cəmində **gərək** ***(gərəx' // gələx'),*** III şəxsin təkində isə bu ədatla yanaşı, **kaş** ədatının işlənməsi ilə ifadə olunur; məs.: — ***Oddux (bazar) günü gərəx' otu götü˘rüm (götürəm) (Ş.); — Gələx' mən sã: işdiyim (işləyəm) ki, sən də mã: avacı durasan (B.); — Axşamцağı gərəx' mütləx cəvızı çırpağın (çırpaq) (Ər.); — Gələx' urã:n qə:rəğın (qayıraq – düzəldək), yoxsa pıцa цıxıp qo:p gedəcəx' (B.əhm.); — Gərəx mən qə:dim ki, o da dala versın (verə bilsin) (Y.); Kaş ə:m bı yay gəlsın, köməy∩eləsın, mən də bir∩əz ira:t olam (X.keş.).***

Əmr şəklinin III şəxs tək və cəmi canlı danışıq dilində məsdər formasını da ifadə edə bilir; məs.: — ***Elə yerimnən təzəcə dikəlmişdım, onda gördüm kü, canavarrar cumdu quzũ:n parçalasın (patçalamağa) (M.); — Başdadı çığırsın (çığırmağa), səsın başına assın (atmağa), kı, gəlın, gədənı ilan vırdı (Ər.).***

Nümunələrdən göründüyü kimi, əmr şəkli yönlük halda işlənən məsdər formasını ifadə edir.

Xəbər şəkli. Culfa şivələrində də xəbər şəkli keçmiş, indiki, gələcək zaman və şəxs şəkilçiləri ilə ifadə olunur.

Keçmiş zaman. Ədəbi dilimizdə olduğu kimi, Culfa şivələrində də keçmiş zaman iki formada ifadə olunur: 1) şühudi keçmiş; 2) nəqli keçmiş.

1) Şühudi keçmiş zaman. Şühudi keçmiz zaman fellərin kök və ya başlanğıc formasına dördvariantlı ***-dı, -di, -du, -dü*** zaman şəkilçisi və müvafiq şəxs şəkilçiləri artırılmaqla ifadə olunur. Tədqiq olunan şivələrdə şühudi keçmiş zaman şəkilçisindən sonra şəxs şəkilçilərinin işlənməsi ədəbi dildən fərqlənir. Bu, I və II şəxslərin cəmində özünü göstərir.

Şühudi keçmiş zaman şəkilçisindən sonra ***-x/-x'*** şəkilçilərinin işlənməsi ilə birinci şəxsin cəmi ifadə edilir; məs.: ***qavzadıx, puşdadıx, qəzillədix', qə:rdix', pusdux, qurdux, süzdüx', ɥöndüx' (M., L., G.dərə, Ər., X.gah, X.keş., Əl., Ə., Cam., Q., D., K., S., T., N., Qız., Gül., Göy.).***

Misallar: — ***Bə:xdən də:rdın, ta geşdi, qavzadıx (G.dərə); — Biz də elə bildix', sə:n qəzillədi:x' (L.); — Sə:r açılana kimin pusdux da:, neyniyəx' (K.); — Ɥöndüx', gördüx', yoxdu (Gül.).***

Culfa rayonunun digər kənd şivələrindən fərqli olaraq, Culfa şəhər və Yaycı kənd şivələrində bir qayda olaraq, Bənəniyar kənd şivəsində isə əksər hallarda I şəxs cəmdə şühudi keçmiş zaman şəkilçisinin ***-di,*** şəxs şəkilçisinin isə ***-x'*** variantları işlənmir. Bu zaman son hecası **e, ə** və **i** saitlərindən ibarət sözlərdə ahəng qanunu pozulur; məs.: ***getdıx, bezdıx, səpdıx, bəzədıx, əyildıx, ɥimişdıx, öpüşdüx, dö:şdüx*** və s.

Misallar: — ***Ta ora ə:x döyməxdən bezdıx, vallah (B.); — Maşı:n bəzədıx, so:rası sizdıxdı (Cul.ş..); — Qəzənfərnən əməlli danışammadıx kı, elə görüşdüx-öpüşdüx, əlbəhəm qoydu getdi (Y.).***

İncə saitli fellərdən sonra Culfa şivələrində işlənən şühudi keçmiş zaman şəkilçisinin ***-dı*** variantından başqa ***-du*** variantının da işlənməsi dilimizin Şəki dialektində daha geniş şəkildə özünü göstərir (5, s. 188).

Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun Dialektologiya şöbəsi əməkdaşlarının müəllifi olduqları "İraq-Türkman ləhcəsi" adlı monoqrafiyada incə saitli **-di, -dü** zaman şəkilçisindən sonra ***-x*** şəxs şəkilçisinin işlənməsinin hələ indiyə kimi dialekt və şivələrimizin heç birində qeydə alınmadığı bildirilir (4, s. 189). Lakin Culfa rayonun yuxarıda adları çəkilən şivələrində **-dü**, Ordubad dialektində isə **-di və -dü** zaman şəkilçisindən sonra ***-x*** şəxs şəkilçisinin işləndiyi müşahidə etmişik; məs.: ***bö:düx, ɥömüşdüx*** (ayaqları üstünə oturmaq), ***(Y., B.), itirdix, sö:şdüx (Ordubad rayanu).***

2) Nəqli keçmiş zaman. Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələrinin tədqiqinə həsr olunmuş eyni adlı əsərdə nəqli keçmiş zaman bölgüsüz verilmiş, zaman və şəxs şəkilçilərində müşahidə edilən fonetik dəyişikliklər haqqında ətrtaflı danışılmamışdır (1, s. 120-121).

Culfa şivələrində nəqli keçmiş zaman şəkilçiləri ədəbi dilimizdəki şəkilçilərdən fonetik cəhətdən fərqləndiyi kimi, şəxslər üzrə də müxtəlifliyə malikdir. Belə ki, ədəbi dilimizdəki nəqli keçmiş zaman şəkilçilərindən **(-ıb[4], -mış[4])** bu şivələrdə daha çox birinci şəxsin təkində və cəmində ***-mış[4]***, ikinci şəxsin təkində və cəmində isə, bir qayda olaraq, ***-mı[4]*** variantı işlənməkdədir. Bu, R.Rüstəmovun da qeyd etdiyi kimi, "Azərbaycan dilində iki kar səssizin (samitin – S.M) yanaşı işlənməməsi qanunu ilə əlaqədardır" (7, s. 204).

Culfa rayonu şivələrində II şəxsdə **-ıb[4]** şəkilçisi işlək deyildir. Eyni zamanda bu şivələrdə nəqli keçmiş zamanın üçüncü şəxsində **-mış[4]** şəkilçisi deyil, yalnız ədəbi dilimizdəki **-ıb[4]** şəkilçisinin ***-ıp[4]*** variantı və çox zaman da III şəxsi bildirən **-dır[4]** şəxs şəkilçisi olmadan işlənir. Nəqli keçmiş zamanın III şəxsdə bu cür işlənməsi Lerik rayonu şivələrində də özünü göstərir (2, s. 76)

Nəqli keçmiş zamandan sonra işlənən şəxs şəkilçilərində aşağıdakı şəxslərdə fərqli xüsusiyyətlər müşahidə edilmişdir.

I şəxsin cəmi. Tədqiq olunan şivələrdə nəqli keçmiş zaman şəkilçisindən sonra I şəxsin cəmini bildirmək üçün ədəbi dilimizdəki **-ıq[4]** şəkilçisinin fonetik variantı olan ***-ıx, -ix', -ux, -üx'*** şəkilçiləri işlənir; məs.: ***zelaflaşmışıx, xorumlamışıx, silmişix', yorulmuşux, üzülmüşüx'*** və s.

Misallar: — ***Bizimki bizdən geçib e:, ta zelaflaşmışıx (B.); — Hə: əşi, çoxdan xorumalamışıx, sə:rə-birsöynə daşınacax (Ər.); — Qağa, tək ikimiz, ta üzülmüşüx' (Q.).***

Culfa rayonunun Bənəniyar və Yaycı kənd şivələrində həmişə, Ləkətağ və Milax kənd şivələrində isə əksər hallarda nəqli keçmiş zamanın birinci şəxsinin cəmi ***-ıx, -ux*** şəkilçiləri ilə ifadə olunur. Bu zaman kökü və ya başlanğıc forması incə saitlə bitən sözlərdə ahəng qanunu pozulmuş olur; məs.: ***demişıx, sifdəmişıx, şiləmişıx, çəpərrəmişıx, çömmüşux, döymüşux, düzmüşux, görmüşux*** və s.

Misallar: — ***Hə:, axşamnan sifdəmişıx da: əti (Y.); — Biz bırã:n şiləmişıx, siz də aşa:da vırın (L.); — Ge:b çatmışıx Yaz yurda, çömmüşux ki, Bahadır nə qə:rir (B.).***

II şəxsin cəmi. Nəqli keçmiş zaman şəkilçisinin ***-mı[4]*** variantından sonra ikinci şəxsin cəmini bildirən şəxs şəkilçiləri Culfa şivələrində, bir qayda olaraq, səs düşümü və bunun nəticəsində sait uzanması ilə ifadə olunur. Bu xüsusiyyət daha çox Boyəhməd, Ərəfsə, Ləkətağ, Milax, Qazançı, Teyvaz kənd şivələrində özünü göstərir. Bundan başqa, Boyəhməd, Ərəfsə, Ləkətağ və Teyvaz kənd şivələri II şəxsin cəmini bildirən şəxs şəkilçisinin uzun tələffüz olunması ilə bərabər həm də şəkilçidəki həmin uzun saitin burunda tələffüz olunması ilə səciyyələnir; məs.: ***qavzamısĩ:z, demisĩ:z, bilmisĩ:z, oxumusũ:z, görmüsũ:z*** və s. Göründüyü kimi, şəxs şəkilçiləri fel kökünün və ya başlanğıc formasının incə saitlə **(i, ü)** bitməsindən asılı olmayaraq, iki variantda, ***-sĩ:z, -sũ:z*** variantlarında işlənməkdədir. Bu zaman ahəng qanunu yenə pozulmuş olur. Qeyd edək ki, şəxs

şəkilçisindəki saitin burunda tələffüz olunması Azərbaycan dilinin əksər dialekt və şivələrində də müşahidə olunmuşdur (7, s. 204).

Misallar: — ***No:lsun e:, neyni:b ki, unu da qavzamısĩ:z başĩ:za (Ər.); — Toydan so:ra demisĩ:z, sağ olun, ta bırda nə var ki (B.əhm.); — Mən heş nə də:mmərəm, hamĩ:z ordaydĩ:z, görmüsũ:z (L.).***

Məqalədə adları keçən kənd adlarının ixtisarı: ***B.*** – Bənəniyar, ***B.əhm.*** – Boyəhməd, ***Cam.*** – Camaldın, ***Cul.ş.*** – Culfa şəhəri, ***D.*** – Dizə, ***Əbr.*** – Əbrəqunus, ***Əl.*** – Əlincə, ***Ər.*** – Ərəfsə, ***Ə.*** – Ərəzin, ***G.dərə*** - Göydərə, ***Göy.*** – Göynük, ***Gül.*** – Gülüstan, ***X.gah*** – Xanəgah, ***X.keş.*** – Xoşkeşin, ***Q.*** – Qazançı, ***Qız.*** – Qızılca, ***K.*** – Kırna, ***L.*** – Ləkətağ, ***M.*** – Milax, ***N.*** – Nəhəcir, ***S.*** – Saltaq, ***Ş.*** – Şurud, ***T.*** – Teyvaz, ***Y.*** – Yaycı.

ƏDƏBİYYAT

1. Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1962, s. 326 s.
2. Binnətova G. Azərbaycan dilinin Lerik rayonu şivələri. Bakı: Nurlan, 2007, 176 s.
3. Əliyev Ə. Azərbaycan dilinin Meğri şivələri. Bakı: Elm, 2003, 580 s.
4. İraq-Türkman ləhcəsi. Bakı: Elm, 2004, 422 s.
5. İslamov M. Azərbaycan dilinin Nuxa dialekti. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1968, 275 s.
6. Məmmədov Ş. Azərbaycan dilinin Yardımlı rayon şivələri. Bakı: Təhsil, 2007, 166 s.
7. Rüstəmov R. Azərbaycan dili dialekt və şivələrində fel. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1965, 320 s.
8. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Bakı: Azərb. DTPƏ nəşriyyatı, 1962, 424 s.

Сайяр Мамедов

ИСПОЛЬЗОВАНИЕ ПОВЕЛИТЕЛЬНОГО НАКЛОНЕНИЯ И ПРОШЕДШЕГО ВРЕМЕНИ ГЛАГОЛА В ДЖУЛЬФИНСКИХ ГОВОРАХ

В статье исследованы особенности использования повелительного и изъявительного наклонений глагола в прошедшем времени в Джульфинских говорах. Было выявлено, что использование личных аффиксов после временных сопровождается специфическими особенностями.

Эти характерные особенности различают сельские говоры Джульфинского района друг от друга.

Sayyar Mammadov

USİNG OF ORDER FORM OF VERB AND PAST TENSE IN JULFA ACCENTS

Character of order form of verb and past tenses used in Julfa accents has been investigated in the article. Results which have got by author are comparative investigated with our other dialects and accents. The author has proved that using person suffixes after tense forms` suffixes is one of the special character of these accents.

These special characters are different in village accents of Julfa region.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

ZÜLFİYYƏ İSMAYIL
AMEA Naxçıvan Bölməsi
E-mail: ismayilzulfiyye@yahoo.com

XIX ƏSR AZƏRBAYCAN ƏDƏBİ DİLİNDƏ QEYRİ-TƏYİNİ İSMİ BİRLƏŞMƏLƏR
(Qasım bəy Zakir və Seyid Əzim Şirvaninin dil faktları əsasında)

(AMEA-nın müxbir üzvü, prof. Ə.A.Quliyev tərəfindən təqdim edilmişdir)

XIX əsr Azərbaycan ədəbi dili tarixində xüsusi yer tutur. Bu dövrdə ədəbi dilimizin üslubları cilalanır, müxtəlif növlü ədəbi əsərlərin, elmi, publisist yazıların yaranması dilin lüğətinin zənginləşməsinə təsir göstərir. Azərbaycan dili qrammatik quruluşunun tərkib hissəsi olan ismi birləşmələr, eləcə də qeyri-təyini ismi birləşmələr baxımından bu dövrün ədəbi dili zəngin faktlar verir.

Azərbaycan ədəbi dili tarixində qeyri-təyini ismi birləşmələrin işlənməsi qanunauyğun şəkildə davam edir. XIX əsrin birinci yarısında Azərbaycan ədəbi dilinin qrammatik və üslubi xüsusiyyətlərinin öyrənilməsi üçün o dövrün görkəmli şairi Qasım bəy Zakirin əsərləri materiallarla zəngindir. Qasım bəy Zakirin müxtəlif mövzularda yazdığı şeirlərində ümumən ismi birləşmələrdən, eləcə də qeyri-təyini ismi birləşmələrdən kifayət qədər istifadə olunmuşdur. Hesablamamıza görə şairin əsərlərinin dilində əlliyə qədər qeyri-təyini ismi birləşmə işlənmişdir. İsmi birləşmələrin birinci formasının hər iki modelindən bir neçə dəfə istifadə olunub. Birinci tərəfi mənsubiyyət şəkilçili sözlərlə ifadə olunan birləşməyə bəzən bir bənddə və bir misrada dəfələrlə rastlayırıq. Bu fakt digər şairlərin dili üçün də keçərlidir. Çünki bu tip birləşmələrdən istifadədə intonasiya həlledici əhəmiyyətə malikdir. Nümunələrə nəzər salaq: *Gözlərindi nərgis, qaşlarındı yay*, Heç növcavan ola bilməz sənə tay (1, s. 6); O *gözləri nərgiz, zülfləri sünbül Xətti tər bənövşə, yanaqları gül* – bu iki misranın bütövlüklə bəhs etdiyimiz birləşməyə aid olması, yəni dörd dəfə işlənməsi həm intonasiya ilə bağlı amilin, həm də onun dilində işlənmə fəallığının sübutudur. Şairin dilində -lı[4] şəkilçisi ilə düzələn birləşmə sadəcə bu misradadır: Onda *könül adlı* əmanətim var (1, s. 36).

Qasım bəy Zakir şeirlərinin dilində qeyri-təyini ismi birləşmələrin ikinci formasının müəyyən şəkli əlamətlərə görə dörd yerə ayrılan qrupundan olan nümunələrə dəfələrlə rast gəlirik. Birinci tərəfi yönlük haldakı sözlə ifadə olunan-

ların sayı otuzdan çoxdur. Nümunələrin bir qisminə nəzər salaq: Kimsədən olmadı *dərdimə çara* (1, s. 10); Elə mən deyiləm *hüsnünə mail,* Dönə-dönə yandım alovlara mən (1, s. 27); Bilmərəm ki, *mənə fürsət* tapılmaz Dərində aşiqinalan əlindən (1, s. 11); *Oynamağa həvəs* eyləsə, barı, Oynasın gecə saf olandan yarı (1, s. 48) – son iki nümunədəki birinci tərəfi əvəzliklə ifadə olunan *mənə fürsət*, ikinci numunədəki birinci tərəfin məsdərlə ifadəsi *oynamağa həvəs* kimi birləşmə modelləri bizə məlum olsa da, şairlərin dilində çox az təsadüf edirik ki, bunlardanda biri bu məqamda tədqiq etdiyimiz Qasım bəy Zakirin dilidir. Birinci tərəfi ismin yerlik və çıxışlıq halındakı sözlə ifadə olunlara misal göstərək: *Barmağında xatəm, belində kəmər, Telində guşvarə*, *düymə* tamam zər (1, s. 33); Eyləməyin *məndən haşa*, durnalar (1, s. 5) Bu *gündən sabaha* yoxdur etibar (1, s. 18). Şairin dilində *kimi* qoşması ilə düzələn birləşmələrə dəfələrlə rast gəlməyimizə rəğmən digər qoşmalardan ibarət birləşməyə rastlamırıq. Sadəcə *tək* qoşması ilə düzələn birləşmə iki dəfə istifadə olunub: Aləmdə *Zakir tək avara* kimdir (1, s. 32). Sona *cıqqası tək ucları qiyqac* (1, s. 32); Mən də *sizin kimi qəribü zaram* (1, s. 5); Bəyaz cəbinindən *gül kimi şəbnəm,* Dumurcuq-dumurcuq axa üzünə (1, s. 6). Yeri gəlmişkən qeyd edək ki, ümumiyyətlə, tədqiqatımız sürəsincə daha çox rast gəldiyimiz *kimi* qoşması ilə düzələn birləşmələrin istər tarixən, istərsə də müasir ədəbi dilimizdə fəallıq səviyyəsi onun həyatiliyini daha aydın sübut edir. Qasım bəy Zakirin yuxarıda bəhs etdiyimiz və nümunələr gətirdiyimiz ədəbi dilində əlavəli və say birləşmələrinə rast gəlmirik.

XIX əsrin Qasım bəy Zakirdən sonra ən görkəmli nümayəndəsi Seyid Əzim Şirvanidir. S.Ə.Şirvani həm də bu dövr şairləri arasında daha çox əsəri olan şairdir. Bu çoxluğa nisbətdə onun şeirlərinin dilində qeyri-təyini ismi birləşmələrin çox olduğunu vurğulamaq məntiqi cəhətdən doğru nəticə olmazdı. Çünki həcm etibarı ilə əsərləri Seyid Əzim Şirvanidən qat-qat üstünlük təşkil edən elə şairlər var ki, qeyri-təyini ismi birləşmələrin işlənmə tezliyi bu qədər aktiv deyil. Fikrimizcə, bu, şairin dil-üslub və mövzu müxtəlifliyi ilə bağlıdır. Əgər statistik baxımdan bu birləşmələrin işlənmə tezliyi ilə əlaqədar hər iki şairin dilindən alınmış nümunələr arasında kəmiyyət müqayisəsi aparsaq, Qasım bəy Zakirə nisbətdə Seyid Əzim Şirvani yaradıcılığı bizə xeyli zəngin material verir. Bu əsnada, onu da qeyd etmək lazımdır ki, şairin yaradıcılığında qeyri-təyini ismi birləşmələrin bütün formalarından istifadə eyni ölçüdə deyil. Şairin dilindən seçilən dil faktlarını formalar üzrə sistemləşdirdiyimiz zaman maraqlı mənzərənin şahidi oluruq; miqdar göstəricisi baxımından bir formadan həddən az, digər bir formadan dəfələrlə çox istifadə olunub. Buna misal olaraq bir nümunəyə baxaq: *Gözü göy, burnu yekə, boynu uzun, saqqalı ağ,* Deyəsən tanrı dirildib genə Ağ Qurbani (3, s. 27) – bu iki misrada eyni modelin dörd dəfə işlənməsi ilk baxışda şairin dilində birinci formanın fəallığının sübutu kimi görsənir, amma digər müasirlərinin dilində dəfələrlə rast gəldiyimiz bu modeldən Şirvani bircə dəfə istifadə etmişdir. Bəzən yaradıcılıqları tərəfimizdən ələk-vələk olunduğu halda bir neçə sayda rast gəldiyimiz birləşmə modellərinin Seyid

Əzim Şirvani yaradıcılığında sayı-hesabı yoxdur. Fəallıq səviyyəsi ilə seçilən və kəmiyyət hesabı ilə əllini keçən nümunə ikinci formanın birinci qisminə, yəni birinci tərəfi yönlük hal şəkilçisi ilə düzələn modelinə aiddir. Birinci tərəfi isimlə ifadə olunan birləşmə: Bəsdir etdin bu dəkli *şeirə həvəs* Şeiri olmaz şəirə əsla kəs (3, s. 101); Ola türki dilində *xəlqə bəyan* (3, s. 101); Şəhri-Şirvan idi Qafqazdə hər *ölkəyə baş* (3, s. 105); Bu günə məclisi verməz həqiqət *cənnətə adəm* (3, s. 10); *Rizasinə riza* ol ustadın (3, s. 231); Yetər axır yenə *didarə didar* (3, s. 232) – sondan verdiyimiz iki nümunədəki *rizasinə riza*, *didarə didar* kimi birləşmələrin eyni sözün təkrarı ilə əmələ gəldiyini ona görə qeyd edirik ki, indiyə qədər bu qisim birləşmələrin bu cür tərkibinə təsadüf etməmişdik. Bu silsilədən olan birləşmələrin xüsusi isimlərlə düzələn modeli də bu cərgəni zənginləşdirməyə xidmət edir: Etmədi *Adəmə səcdə* görübən zülmani (3, s. 25); Etmiş o şəh qəzali- *Xütən seyidinə həvəs* (3, s. 69); Ey verən *Həzrəti-Həvvayə xəcalət,* buğda (3, s. 195); *Seyyidə həcv* dedin Yaxşı deyildir bu sayaq (3, s. 164); Ey verən şəri-*Müstəfayə rəvac,* Əhli-islam *lütfivə möhtac* (3, s. 350); Eyləsin tanrı *Hacıya rəhmət* (3, s. 264); Birinci tərəfi cəmlənən ümumi isimdən düzələn "*Alimlərə hörmət* haqqında moizə" (3, s. 392) -bu tərkibdəki nümunə formasına yalnız bir dəfə şairin dilində müşahidə edirik. ***Əhdə vəfa, dərdə dərman, dərdə dava, qüssəyə düçar*** və s. leksik tərkibdəki birləşmələrə Şirvaninin bir çox şeirlərinin dilində dəfələrlə rast gəlirik. Birinci tərəfi şəxs əvəzliyi ilə ifadə olunan birləşmə: Sizdə var hamıdan artıq *ona rəğbət*, hadi (3, s. 41); Məşhədi Əbdüləlidən *sənə ehsan* olacaq (3, s. 254); Bir zaman sahəti- Şirvan idi hər *ölkəyə baş, Bizə möhtac* idi məcnun-bəyi xan, Cürmi (3, s. 144). Şairin dilində ikinci formanın ismin yerlik hal şəkilçisi ilə düzələn modelinə rast gəlməməyimizə rəğmən, birinci tərəfi ismin çıxışlıq hal şəkilçisi ilə yaranan modelinin sayı-hesabı yoxdur. Bu üzdən də ikinci formanın birinci qismindən olan nümunələri araşdırdığımız zaman tətbiq etdiyimiz üsulu bu modelə də şamil edərək tədqiqatımıza davam edirik; birinci tərəfi çıxışlıq hal şəkilçili isimlə ifadə olunan birləşmələr: Ola seyid *cənabından sərəfraz,* Qıla daim dua bu xanimanə (3, s. 198); O kəs şeytandı kim, bir böylə *məclisdən kənar* olsun (3, s. 10); Ramazanda nə yedi *xuni-ciyərdən qeyri* (3, s. 322); Etməsin lütfünü həq *səndən kəm* (3, s. 358); Ola bu *qüssədən azad* könül (3, s. 358); Başinə qönçə qoyub *bərgi-zümürrüddən tac* (3, s. 310); Düşmüş idim *vətəndən avarə,* Görməz idim cəmalicanani (3, s. 17); Tülkü tək evləri gəzəm xəlvət, Ta alam mən də *xəlqdən rüşvət* (3, s. 290). Birinci tərəfin ümumi isimlərlə ifadəsi ilə yanaşı xüsusi isimlərlə ifadəsi də birinci variantdakı qədər aktiv olmasa da, say etibarı ilə az deyil: Göndərib şerüvi qıl *Hacı Rizadən xahiş* (3, s. 81); İstəmə *Mahmud ağadan xələt* (3, s. 14); Sənə şagird Əhmədi-Nəpvəl, *Xadimin Şeyxi-Tusdən əfzəl* (3, s. 350). Birinci tərəfin əvəzliklə ifadəsi ikinci formanın birinci qismində olduğu kimi, bu tipdə də bir xeyli saydadır: Hansı kəsdir ki, ola dəhrdə *səndən dilşad,* Hansı quldur ki, ola dövrdə *səndən xürrəm* (3, s. 76); Yazıb bu şeri göndərdim ki, *məndən yadigar* olsun (3, s. 11); *Səndən qeyri* bir kəsə gümanım yoxdur (3, s. 317);

Yoxdu bir şəxs məni-xəstəyə *səndən məhrəm* (3, s. 322). Dördüncü qisim hər iki tərəfi şəkli əlamətə malik birləşmə digər birləşmələrin fonunda passiv-dir. Bu birləşmələrə üç dəfə rastlayırıq: Gah olur əsbi-telqrafə səvər, *Şərqdən Qərbə* söyləyir əxbar (3, s. 56); Nəinki mən kimi *ildən-ilə* ümüdvar olsun (3, s. 307); Leyk *başdan ayağa* şikvə idi, sözü yüdat (3, s. 44).

Şirvaninin dilində indiyə qədər əlavəli birləşmələrin hər iki tərəfi əvəzliklə ifadə olunan qismi ilə yanaşı professor Yusif Seyidovun müasir ədəbi dilimizdə rast gəldiyimiz birləşmə türlərindən verdiyi nümunələrlə (2, s. 211) quruluş etibarı ilə həmahəngdir: Ey Həsən bəy, *müəllimi-dana!* Ey edən əhli-aləmi ehya (3, s. 27); Və lakin bir gileydir eylərəm, ey bəy, *sana səndən* (3, s. 270); Mən ölüm, *sən özün* eylə mürvət, hadi (3, s. 39). Şairin yaradıcılığındakı tədqiqatımız üçün əhəmiyyətli olan birləşmə tiplərindən biri də qoşmaların köməyi ilə yarananlardır. Bənzətmə bildirən *kimi, tək, təki* qoşmaları ilə yanaşı səbəb bildirən *üçün, ötəri* qoşmaları da şairin dilində birləşmə əmələ gətirməkdə xeyli fəaldır. Ümumiyyətlə, bu birləşmələrdən şair yaradıcılığında iyirmi dəfədən çox istifadə edir. Bəzi nümunələri göstərək: Təbi-xümdə *Fəlatun kimi badə,* Qalıb zillətdə, yoxdur ehtiramı (3, s. 154); Sultanı-Neynəvayə edib *ney kimi nəva* (3, s. 170); Eləyəydim *səni un kimi xəsarət, buğda* (3, s. 195); Bu xasiyyət gərəkdir onda *gün tək aşikar* olsun (3, s. 11); *Əqlü idrak kimi zail* olub (3, s. 14); Nə müsəlmandı nal çəkər ki, gəlib İncimə *mən kimi müsəlman* (3, s. 269); İndi –*Pərvin kimi şəbnəm* vərəqi-güldə əyan (3, s. 287); Eylədin *mən kimi bir murə* Kərəm (3, s. 358); Bir parə *çörəkdən ötəri fikir* elə axər (3, s. 46); *Sən təki* bir beş nəfər *qeyrətkeş* olsaydı əgər (3, s. 67); Səhab dideyi-*Rüstəm tək əşkbar* gəlir (3, s. 293); Olma *sufistan tək münkir* vücudin həqqinə (3, s. 327); Əbri-azap salıb dövrə *hüma tək sayə* (3, s. 18); *Sən təki bəy* ona bəd gündə əlac eyləməyə (3, s. 226); Dediyi-nadürüstdə hanı nur, Tanıya ta *sənin tək ağani* (3, s. 268); Bu xasiyyət gərəkdir onda *gün tək aşikar* olsun (3, s. 11); *Qətl üçün əzm* qalıb çəkməz əlin yəğmadən (3, s. 352); Müvaliflər müxaliflərlə gəlmiş *cəng üçün saqi* (3, s. 241). Dilimizdə icra olunan işin və ya hərəkətin icrasının səbəb məzmununu bildirən *üçün* qoşması öz sinonimləri içərisində ən aktiv səviyyəsini Həsənoğlu əsrindən günümüzədək qoruyur. XIX əsrin ikinci yarısından sonra ədəbi dildə işlənmə tezliyi ilə fərqlənən *görə* qoşmasına göstərilən tarixədək, ümumiyyətlə, rast gəlmirik. Tarixi materialların dilindən belə məlum olur ki, hər zaman dildə aktiv olan *təki, təkin* qoşmaları bu gün belə canlı danışıq dilində geniş şəkildə yayılmışdır. Xalq dilinin xüsusiyyətlərinə üstünlük verən şair və nasirlərimiz bu qoşmalara dillərində xüsusi yer vermişlər.

Bəzən digər sənətkarların yaradıcılığında təsadüf etmədiyimz say birləşmələrinə S.Ə.Şirvaninin yaradıcılığında qoşmalı birləşmələrin işlənmə tezliyinə bərabər aktivliklə qarşılaşırıq. Bir də onu qeyd etmək lazımdır ki, şairin şeir dilində saylardan istifadə təsadüfi deyil, onun yaradıcılıq spesifikası ilə əlaqədardır. Çünki nəzərə alsaq ki, əsərlərində hicri-şəmsi tarixi ilə yazdığı min iki yüz səksən iki və bəzi məqamlarda (qafiyə pozulmasın deyə-Z.İ.) min rəqəmi

yazılmadan iki yüz qırx dörd, iki yüz əlli bir, iki yüz yetmiş üç və s. say birləşmələrini miladi tarixi ilə hesablasaq, 1855-1888-ci illərə təsadüf edir. Bu zaman kəsiyi də elə şairin yaşadığı dövrü əhatə etdiyindən, həmçinin nümunələri mətndən çıxarmadan məzmuna görə təhlil versək, onun əsərləri tarixi hadisələri işıqlandırmaq və ya münasibət göstərmək baxımından yazıldığı kimi, dil faktları da tarixi koloriti ifadə edir. Cümlədə zaman zərfliyi yerində işlənən bu nümunələr ümumxalq dilini əsərində bədiiləşdirən şairin üslubunun da bəhrəsi kimi dəyərləndirmək lazımdır. İndi bizim tədqiqatımız üçün maraqlı, amma şairin dili istisna olmaqla az məqamlarda təsadüf etdiyimiz nümunələrə nəzər salaq: *İki yüz yetmiş üçdə,* bəd həzar Mötədil fəsldi zamani-bahar (3, s. 128)*; İki yüz yetmiş üçdə,* bəd həzar (3, s. 375); *İki yüz əlli birdə* bədi-həzar, Əsri-Sultan Məhəmməd-Qacar (3, s. 370); Hicrətin *min iki yüz səksən ikiydi* sani (3, s. 25); İndi *qırx dörd* olub dəxi salım, Eyləməz bir tərəqqi iqbalın (3, s. 289). Nadir hallarda təsadüf etdiyimiz bu birləşmələrlə yanaşı şairin dilində nadirən qarşılaşdığımız üç və dörd pilləli birləşmələr də işlənmə tezliyinə malikdir: O gərəkdir verə bu əmrdə *üç yüz min otuz*, Yoxsa bu uşkola əmri başa getməz bir sal (3, s. 321); Var peyğəmbərimiz *yüz iyirmi dörd min,* Hər birinin neçə yüz illər olub dövranı (3, s. 26); *İki min üç yüz* nüfusun rizqinə zamin olub (3, s. 95).

Biz indiyə qədər və indi də istisnasız qeyd edirik ki, qeyri-təyini ismi birləşmələr nə qədər dilimizdə varlığını sürdürsə də, təyini söz birləşmələri qədər kütləviləşməmişdir. Qeyd-şərtsiz və mübaliğəsiz vurğulamaq lazımdır ki, Seyid Əzim Şirvaninin yaradıcılığında olan qeyri-təyini ismi birləşmələrin fəallıq səviyyəsi bəzi şairlərin dilindəki təyini söz birləşmələrinə az qala bərabərdir.

Araşdırmalarımızın sonunda belə qənaətə gəlirik ki, həqiqətən də, bu birləşmələrdən istifadə şair və yazıçının bədii duyum, poetik düşüncə, mövzu arealı, ideyası və s. ilə sıx bağlıdır. Biz buna görə də şairlərin yaradıcılığında qeyri-təyini ismi birləşmələrin işlənmə tezliyinin statistikasını verərkən sənətkar dilinin səciyyəviliyi kimi dəyərləndiririk.

ƏDƏBİYYAT

1. Qasım bəy Zakir. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1957, 474 s.
2. Seyidov Y.M. Əsərləri. 15 cilddə, I c., Bakı: Bakı Universiteti nəşriyyatı, 2006, 628 s.
3. Şirvani S.Ə. Əsərləri. 3 cilddə., II c., Bakı: Elmlər Akademiyasının nəşriyyatı, 1969, 649 s.
4. http: //www.dil-tarix-poeziya.gen.az
5. http: //www.uzaysel.com
6. http://az.wikipedia.org/wiki/Yusif_Seyidov

Зульфия Исмаил

НЕОПРЕДЕЛЕННЫЕ СУЩЕСТВИТЕЛЬНЫЕ СОЕДИНЕНИЯ НА АЗЕРБАЙДЖАНСКОМ ЛИТЕРАТУРНОМ ЯЗЫКЕ XIX ВЕКА

В статье рассказывается об уровне употребления неопределенных существительных соединений на Азербайджанском литературном языке XIX века. В то же время здесь изыскается язычные факты, подходщие с языками, искусных мастеров, которые жили и творили в XIX веке, исследуемые нами, а также представляются образцы соответствующие системе классикафикации общеязыковедения, Которая ведется в пяти формах.

Zulfiya İsmayil

INDEFINING NOMINAL WORD-COMBINATIONS IN THE XIX CENTURY`S AZERBAIJAN LITERARY LANGUAGE

The article dealt with using character of indefining nominal word-combinations in the XIX century`s Azerbaijan literary language. The language facts appropriate to our investigation used in writer`s and poets` tongue who has lived and creator in the XIX century have been investigated and the appropriate examples to classified system in five forms in the general linguistics are given.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

ŞİRMƏMMƏD QULUBƏYLİ
Naxçıvan Dövlət Universiteti
E-mail: s.qudretoglu@mail.ru

MÜASİR AZƏRBAYCAN DİLİNDƏ İSMİN ÇIXIŞLIQ HALINA DAİR

(AMEA-nın müxbir üzvü, prof. Ə.A.Quliyev tərəfindən təqdim edilmişdir)

Türk dillərində, o cümlədən, Azərbaycan dilində cıxışlıq halın yaranma tarixi tam şəkildə aydınlaşdırılmayıb (10, s. 138). Bu halın yaranmasına dair fərziyyələrdən biri belədir: - da şəkilçisi vasitəsilə yaranan ablativ həm yerlik, həm də çıxışlıq halların ifadəsinə xidmət edirdi. Tarixi inkişafın nəticəsi olaraq yeni çıxışlıq halın yaranmasına zərurət yarandı və bu zərurət -da şəkilçisinin üzərinə "n" elementinin artırılması ilə reallaşdı. N.Z.Hacıyeva belə fərz edir ki, artıq ümumtürk dövrünün axırıncı mərhələsində -dan şəkilçili isimlərdən ibarət sözlərin fellər vasitəsilə idarə olunmasından yaranan birləşmələr mövcud idi. Başqa sözlə, -da vasitəsilə düzələn çıxışlıq hal artıq ilkin ümumtürk dövründə mənasını dəyişmiş, həmin şəkilçi ikili xarakterini dəyişərək ancaq yerlik halın ifadəsinə xidmət etmişdir (10, s. 139).

Ümumiyyətlə, türk dilləri tarixçilərinin fikrincə, cıxışlıq hal digər hallara nisbətən daha cavandır (4, s. 127). Qədim türk abidələrinin tədqiqatçılarına görə, digər hallarla müqayisədə bu hal qədim abidələrin dilində daha az işlənmiş, çıxışlıq hal mənası yerlik halın morfoloji əlaməti ilə ifadə olunmuşdur (14, s. 24).

F.Cəlilov mövcud fikirləri ümumiləşdirərək belə nəticəyə gəlmişdir ki, Azərbaycan dilində çıxışlıq halın -dan, -dın arxetiplərini qəbul etmək olar (5, s. 214).

Qeyd etmək lazımdır ki, çıxışlıq hal şəkilçiləri leksik -dan, -dən şəkilçiləri ilə omonimdir. -dan, -dən şəkilçisinin zaman bildirən sözlərə, həmçinin "çox" sözünə əlavə edilərək zaman zərfləri (dünəndən, sonradan, əvvəldən, səhərdən, çoxdan və s.), eləcə də bəzi məsafə, xüsusiyyət və kəmiyyət bildirən sözlərə artırılaraq tərzi-hərəkət zərfləri (ucadan, hündürdən, alçaqdan, bərkdən, birdən və s.) əmələ gətirməsi S.Cəfərov tərəfindən təsdiqlənmişdir (6, s. 190). M.N.Qiyasbəyli bu şəkilçini keçid səviyyəli şəkilçi səciyyələndirmişdir (11, s. 6). H.Ə.Həsənov da bu şəkilçini zərf düzəldən şəkilçilər siyahısına daxil etmişdir (8, s. 302). Məsələn: Birdən Nemətin gözü Təhminənin paltarına sataşdı (2, s. 40). Yenidən yuxu onu çəkib aparır (2, s. 87).

Çıxışlıq halında olan sözlər kimdən? nədən? haradan? nə vaxtdan? (nə zamandan? haçandan?) suallarından birinə cavab olur.

Bu halı səciyyələndirən cəhətlərdən biri onun bəzi qoşmalarla idarə olunmasıdır. Məsələn: Və o gündən bəri birinci dəfə görəcək Təhminəni (2, s. 146). Toyumuz bir həftədən sonra olacaqdı (2, s. 86). Deyir arpa da, buğda da vaxtından əvvəl vağamlayıb sütül-sütül tökülür torpağa (9, s. 176). Abı çox şey dedi, amma başını dumanlandırmaqdan başqa bir xeyri olmadı (13, s. 346).

Bu hal cümlədə bir sıra cümlə üzvləri ola bilir. Çıxışlıq haldakı sözün hansı cümlə üzvü olmasında həmin sözün leksik mənası, eləcə də onu idarə edən felin leksik-qrammatik xüsusiyyətləri mühüm rol oynayır. Ümumiyyətlə, bu hal aşağıdakı sintaktik funksiyalarda çıxış edir:

1. Vasitəli tamamlıq. Çıxışlıq halındakı söz əşyavi xarakter daşıyaraq obyektdən "uzaqlaşmanı, aralanmanı, ondan baş alıb getməni və ya nəyinsə ondan götürülməsini" (İ.X.Cabbarzadə, 139) bildirdikdə vasitəli tamamlıq vəzifəsində çıxış edir. Məsələn: Keçəlin tükdən açığı gələr (13, s. 136). Adam hər düşməndən bir ağıl öyrənər (13, s. 21). Məktub yazmıramsa, bu o demək deyil ki, Sizdən xəbərsizəm (2, s. 60). Ölümdən də qorxmuram (2, s. 96). Nə etmək olar, görünür bu dünyada torpaq qızıldan vəfalıdır (2, s. 313).

2. Yer zərfliyi. Məkani-qrammatik hallardan sonuncusu olan cıxışlıq halın bu funksiyada çıxış etməsi tamamilə təbiidir. Yer zərfliyi funksiyasında çıxış edən sözlər haradan? sualına cavab verməklə məkan, yer məzmunu ifadə edir və iş-hərəkətin başlanğıc məkanını, çıxış nöqtəsini bildirir. Məsələn: Doğrudandamı bu evdən də çağa səsi gələcək? (13, s. 42). Min o maşına, təcili get buradan (13, s. 237). Onu baş şeyx özü ilə Həmədandan gətirmişdi (9, s. 116). Hökmdarın dinmədiyini görən vəzir otaqan çıxdı (9, s. 87).

Bəzən çıxışlıq hal onunla ən çox oppozisiya təşkil edən yönlük halla birlikdə yer zərfliyi funksiyasını yerinə yetirir və bu məqamda iş-hərəkətin başlanğıc nöqtəsi ilə bərabər, son nöqtəsi də öz ifadəsini tapır. Məsələn: Əcəmi istəsə, onu dağlardan kəndə yendirə bilər (9, s. 225). Ötək ordan Şuşaya, Kəlbəcərə, Laçına tərəf (2, s. 61).

3. Zaman zərfliyi. Çıxışlıq halında olan zaman zərfləri, isimlər və saylar cümlədə hərəkətin və ya əlamətin icra zamanını, əsasən, başlanğıc vaxtını bildirən zaman zərfləri funksiyasında çıxış edir. Bəzi dilçilər çıxışlıq halındakı sözlərin qoşmalarla idarə olunduqda zaman zərfləri ola bildiklərini qeyd etsələr də (5, s. 55; 4, s. 142), bu funksiya qoşmalarsız da ifadə oluna bilir və bu xüsusiyyət sintaksisə dair dərsliklərdə öz əksini tapıb (15, s. 209; 1, s. 201). Başqa sözlə, bu funksiya həm qoşmalarsız (a), həm də qoşmalarla (b) idarə olunan çıxışlıq halındakı sözlərlə ifadə oluna bilir.

a) Səməd hələ körpəlikdən belə görmüşdü, qayda-qanunu belə bilirdi və belə də olmalı idi (13, s. 305). Sənə ilk gündən apaşkar bəyandı ki, mən oxunu atıb kamanını gizləyən ovçulardan deyiləm (9, s. 17). Hərəsi bir şeyin vurğunuydu əzəl gündən (9, s. 23). Bir azdan yallı başlandı (9, s. 239). Buranın adamlarından mənim cavan çağlarımdan xoşum gəlir (9, s. 140).

Yuxarıdakı misallardan göründüyü kimi, cümlə daxilində zaman seman-

tikası leksik və qrammatik səviyyələrin qarşılıqlı əlaqəsi – müvafiq sözlərin leksik mənası və çıxışlıq halın qrammatik mənası vasitəsilə ifadə olunur. Bu cümlələrdəki zaman zərfliklərі nə vaxtdan? nə zamandan? haçandan? suallarına cavab olur.

b) Üç gündən sonra gəlib dedi ki, bəs ölüb qurtarmışam (2, s. 86). Toyumuz bir həftədən sonra olacaqdı (2, s. 86). Nahardan qabaq içmək faydalıdır (9, s. 20). Nəsimidən əvvəl Nəimiynən bağlı olub (9, s. 20). Novruz bayramından qabaq gələndə yığışdırmısan, bəsdi da (9, s. 144).

Bəzən qoşmalarla işlənən çıxışlıq və yerlik hallar oppozisiya təşkil edir və hərəkətin icrasının həm başlanğıc, həm də son vaxtını ifadə edir. Məsələn: Bu gün mən anladım ki, ... daha bundan sonra indiyədək yaşadığım kimi yaşaya bilmərəm (2, s. 134).

4. Səbəb zərfliyi. Çıxışlıq halında olan mücərrəd isimlərin, məsdər və məsdər tərkiblərinin, ikinci tərəfi "uc, ucbat, üz" sözlərindən ibarət olan ikinci və üçüncü növ təyini söz birləşmələrinin səbəb zərfliyi funksiyasında çıxış edə bilməsi məsələsi dilçilik ədəbiyyatında öz əksini tapıb (1, s. 205). Məsələn: Onun dərdindən olmuşam Məcnun (9, s. 66). Bir azdan sonra atam sətəlcəmdən öldü (9, s. 70). Dədəm öldü, ya vəlvələdən, ya zəlzələdən (A.S, 83). Aclıqdan kimsə ölməz, ölən toxluqdan ölər (3, s. 19). Onun ucbatından da Adəm kimi ... peyğəmbəri cənnətdən qovmadılar? (9, s. 302). Gözləməkdən səbri tükənmişdi.

5. Tərzi-hərəkət zərfliyi. Yuxarıda qeyd olunduğu kimi, "birdən, qəfildən" tipli sözlərdə -dan, -dən şəkilçisi leksik şəkilçidir. Bəzən bu tipli sözlərin çıxışlıq halında olan sözlər hesab olunmasına baxmayaraq (15, s. 207), fikrimizcə, bu tipli sözlərdə -dan, -dən şəkilçisi keçid mərhələsini əsasən başa vuraraq leksik şəkilçi kimi formalaşmışdır. Lakin cıxışlıq və yönlük halların oppozisiya təşkil edərək qoşa işləndiyi məqamlarda bu şəkilçinin qrammatik mahiyyəti saxlanmışdır. Məsələn: Əcəmi baş şeyxi ilk dəfə görürmüş kimi onu başdan-ayağa bir də süzdü (9, s. 202). Niyə birdən-birə bu qərara gəldin ki? (2, s.152). Demək bir şeydir, duymaq, dediklərini doğrudan-doğruya hiss etmək – başqa şey (2, s. 157).

6. İsmi xəbərin ad hissəsi – predikativ. Məsələn: Adamın başına nə gəlsə, dilindəndir (3, s. 21). Sultan da belələrindəndir (13, s. 89). Mən silahsız kişinin üstünə əl qaldıran namərdlərdən deyiləm (9, s. 152). Bunların hamısı mənim bisavadlığımdandır (7, s. 7). Həya imandandır (3, s. 129).

Çıxışlıq halında olan sözlər müxtəlif mənaların ifadəsinə xidmət edir. Həmin mənaların ifadə olunmasında aparıcı rolu -dan, -dən şəkilçisi artırılan sözlərin leksik mənaları və onları idarə edən fel və qoşmaların semantik xüsusiyyətləri oynayır. Müxtəlif mənbələrdə müxtəlif sayda məna növləri göstərilmişdir. Ana dilimizin faktik dil materialına əsaslanaraq aşağıdakı semantik variantları ümumiləşdirmək olar:

1) İş, hal-hərəkətin başlanğıc məkanı, başlanğıc obyekti, çıxış nöqtəsi. Bu mənanın reallaşması üçün əsasən yer bildirən isimlər hərəkət mənalı fellərlə idarə olunur. Məsələn: Nemət ağır-ağır pəncərədən aralandı (2, s. 52). Qatardan

Səməd belə təlatümlü düşdü (9, s. 52). Elçi etiraz etmədi, ayağa qalxıb təzim etdi və otaqdan çıxdı (H.İ. s. 80). Əcəmi daha dayana bilməyib məsçiddən çıxdı (9, s. 20). Bir çox məqamlarda çıxışlıq hal oppozisiya təşkil etdiyi yönlük halla yanaşı işlənir və hərəkətin başlanğıc nöqtəsi ilə bərabər çatacağı son nöqtə də öz ifadəsini tapır: Qapı açılanda mətbəxdən otağa iy gəldi (2, s. 20). Atam kiçik bacım Cahannurla məni Təbrizdən götürüb Xorasana gəldi (9, s. 70). Sizi Urmiyadan yola salacağam Həmədana (H.İ. s. 165).

2) Hərəkətin icra yeri: Başımın üstündən bir dəstə sərçə uçub getdi (9, s. 20). Sənə aeroportdan zəng vururam (2, s. 177). Moskvadan sabah bizim verilişimiz var (2, s. 179).

Bu işlənmə məqamında əksər hallarda çıxışlıq hal yerlik hala sinonim kimi işlənir. Eyni zamanda, bəzən bu məna müxtəlif əlavə çalarlara malik olur. Məsələn: Hərəkətin icra yeri-vasitəsi: Mətbəxdən anasıyla Sitarə Zaurun söhbətini dinləyən kimi (2, s. 179).

3) Hərəkətin başlanğıc vaxtı: Kişi xeylağı olmayanda qızların bir-birinə qoşulub sərbəst zarafat etmələri, ürəkdən gülmələri cavan yaşlarından Əcəminin xoşuna gəlirdi (9, s. 70). Mən elə birinci görüşümüzdən dəli-divanəyəm (2, s. 157). Şam yeməyindən sonra atası öz otağına çəkildi (2, s. 165). Bu gündən Xəlil həm ev, həm də alış-veriş sahibi olub...başladı İranla ticarəti (7, s. 11).

Bu məna növündə hərəkətin icra vaxtı çaları da olur.

4) Müqayisə məzmunu: Fantastikadan da fantastik murdarçılıqlar eşidəcəksən indi (13, s. 429). Ucadan da uca idi, gözəldən də gözəl idi (13, s. 302). Ağıllı düşmən nadan dostdan yaxşıdır (3, s. 25). Anadan əziz yenə də anadır (3, s. 34). Mənim vəsiyyətim qoca, dünya görmüş və səni iki gözündən artıq istəyən ata vəsiyyətidir (7, s. 11). Demək olar ki, pisdən də pis (9, s. 175).

5) Hərəkətin icra səbəbi: Sevincdən, riqqətdən Səmədin hətta gözləri doldu (13, s. 42). Darğalar qorxularından həmin kəndlərin yan-yörəsindən keçə bilmirlər (9, s. 176). Əkbər hirsdən və xiffətdən naxoş oldu (7, s. 20). Ey dağlar, daşlar... siz də şahid olun ki, bu yerdə dünya malından ötrü bir şəxsi öldürüb onun yeddi balasını yetim qoydular (7, s. 24).

6) Hərəkətin icra obyekti: Nə qədər ərköyün olsa da, məncə, kadrım inciməz belə şeylərdən (13, s. 91). Səmədin alnından, əllərindən öpürdü, ağlayırdı (13, s. 241). Amma alimlər mühitində olub o kişi, nadir alimlərdən dərs alıb (13, s. 287).

7) Tamın hissəsi: Yüzdən birini deyirəm sənə (İ.M., s. 229). Qullardan biri çatmır (9, s. 12). Camaat, bizim bu gecəmiz çox əziz gecələrdən oldu (7, s. 18). Lap ağır oturub batman gələnlərdən idi (2, s.118). 24 yaşlı Spartak əhli-kef oğlanlardan idi (2, s. 122).

8) Mənbə: Şamdan işıq alan pərvanənəm mən sənin, ay Səməd (13, s. 263). Yenə qan axır başından (13, s. 337). ...Cəmil də bu qayda ilə bulaqdan su içdi (9, s. 35). Qarğa yumurtasından heç vaxt bülbül olmaz (9, s. 164).

9) Mövzu, informasiya, məlumat: Nizamidən danışanda Yanıq Kərəmi xatırlayıram (13, s. 419). Əi, sən mənimlə futboldan mərc çəkirsən? (2, s. 37). – Kitab yazırsan? – Bəli. – Nədəndir? – Bizim müasir cəmiyyətin həyatından (2, s. 47). Qəribə bir həvəslə Nərgizdən danışmağa başladı (2, s. 137).

10) Material: Sonra Azərbaycanın qırmızı Təbriz ipəyindən hazırlanan qılınc nişanlı dövlət bayrağı çıxarıldı (9, s. 8). Otağın qapılarına bir neçə rənglə boyanmış, nazik qamışlardan toxunan pərdə asılmışdı (9, s. 75). Kərpicdən tikilən qırmızı kirəmitli evlər ... xoşuna gəldi (9, s. 108).

11) Mənsubiyyət, aidlik: Eldəgəzlər tayfasından olan, qəhvə ağacına bənzəyən o... (9, s. 12). Yurdçudan bir kəndlidir (9, s. 276).

12) İstisna: Fikir verirəm, görürəm ki, saraya, sultanlara xidmət etməkdən başqa səni ayrı qayğı düşündürmür (9, s. 15). Ölümdən başqa hər şeyə çarə var (3, s. 196). Səndən başqa heç kəs lazım deyil mənə (2, s. 190).

13) İcra vasitəsi: Balaca pəncərədən boylandım (9, s. 25). Faytonçunu yola salıb, Əkbərlə qol-qola verib pilləkəndən yuxarı çıxdı (7, s. 16). Ağac kökündən su içər (3 , s. 24). Vağzalın təzə keçidindən perrona çıxdı (2, s. 100).

14) Qiymət məzmunu: Dadaş müəllim neçədən bağlayırsınız? (2, s. 42). Çitin arşını bir şahıdan, ay-ulduzlu iki abbasıdan, məxməri on şahıdan və qalan malı da bu ayaqdan qiymət edirlər (7, s. 76).

Çıxışlq halın üslubi imkanları arasında onun yerlik halla sinonimliyi xüsusi yer tutur: Uzaqdan qatar göründü (2, s. 76). Səs- küy içindən Təhminənin sözləri qırıq-qırıq eşidildi (2, s. 76). Buyur, Mirzə Nəsib, iranlı qoca kişi yuxarı başdan əyləşib (7, s. 7).

Bu hal tamın hissəsini bildirdikdə yiyəlik hala sinonim kimi işlənir: Qullardan biri çatmır (9, s. 12). Stollardan birinin açıq tərəfi qəzetlərlə örtülmüşdü (2, s. 37). Daha bilmir ki, zalımlardan biri də özüdür (2, s. 69).

"Sonra" qoşması ilə işlənən çıxışlq halında olan söz həmin qoşma ilə işlənən adlıq hala sinonim olur: Bir neçə ildən sonra Xəlilin alış-verişi böyüdü... (7, s. 11).

ƏDƏBİYYAT

1. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. IV hissə, Sintaksis, Bakı: Maarif, 1972, 476 s.
2. Anar. Seçilmiş əsərləri. Bakı: Lider, 2004, 416 s.
3. Atalar sözü. Bakı: Öndər, 2004, 264 s.
4. Cabbarzadə İ. X. Müasir Azərbaycan dilində ismin iki halı haqqında // Filoloji fakültəsinin əsərləri. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1958, 236 s., s. 111-145.
5. Cəlilov F. Azərbaycan dilinin morfologiyası. Bakı: Maarif, 1988, 288 s.
6. Cəfərov S.Ə. İsimlərdə hal kateqoriyası haqqında bəzi qeydlər. Səh. 39-56 // Filoloji fakültəsinin əsərləri. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1958, 236 s.

7. Cəfərov S. Müasir Azərbaycan dili. Leksika, II hissə, Bakı: Maarif: 1982, 216 s.
8. Əbdürrəhim bəy Haqverdiyev. Seçilmlş əsrləri. 2 cilddə, II c., Bakı: Lider, 2005, 408 s.
9. Həsənov H.Ə. Müasir Azərbaycan dilinin leksikası. Bakı: Maarif, 1987, 308 s.
10. İbrahimov H. Seçilmiş əsərləri. Bakı: Gənclik, 1998, 422 s.
11. Гаджиева Н. З. Основные пути развития синтаксической структуры тюркских языков. М.: Наука, 1973, 408 с.
12. Qiyasbəyli M. N. Azərbaycan dilində morfoloji söz yaradıcılığı. Bakı: Maarif, 1987, 180 s.
13. Muğanna İ.İdeal. Bakı: Lider, 2005, 536 s.
14. Мамедов Ю.К. Имя существительное в орхоно-енисейских памятниках (в сравнении с азербайджанским языком). АКД, Баку: 1967, 32 с.
15. Müasir Azərbaycan dili. III c., Sintaksis, Bakı: Elm, 1981, 444 s.

Ширмамед Гулубейли

ОБ ИСХОДНОМ ПАДЕЖЕ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

Статья посвящена исходному падежу современного азербайджанского языка. Анализ лингвистического материала убедительно показывает, что морфологический маркер этого падежа уже существовал в первой общетюркской стадии и, следовательно, с того времени местный падеж не служил выражению семантики исходного падежа. В статье также обобщены основные синтаксические функции и инвариантные значения исходного падежа на основе фактического лингвистического материала.

Управление разными послелогами также акцентируется как одна из важных особенностей этого падежа. Внимание уделяется также стилистическим возможностям его употребления.

Shirmammad Qulubayli

ABOUT THE ABLATIVE CASE IN MODERN AZERBAIJANI

The article deals with the ablative case in modern Azerbaijani. Analysis of the linguistic material obviously shows that the morphological marker of this case existed in the first stage of common Turkish already and the locative case ceased to serve the expression of the semantics of the ablative case from that time on. In his article the main syntactic functions and invariant meanings of the Azerbaijani ablative case have been generalized on the basis of illustrative material.

Being governed by some postpositions is also accented as one of the main features of this case. Attention is also paid to the stylistic opportunities of the use of the ablative case.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

ÇİNARƏ RZAYEVA
Naxçıvan Özəl Universiteti
E-mail: cinarerzayeva@yahoo.com.tr

HÜSEYN CAVİDİN DİLİNDƏ ALINMA SÖZLƏR
(“İblis” əsəri əsasında)

(Redaksiya heyətinin üzvü, f.e.n. F.H.Rzayev tərəfindən təqdim olunmuşdur)

Azərbaycan dili türk sistemli dillər ailəsinə mənsub olsa da, qədim zamanlardan bəri bir sıra Qafqaz xalqları ilə təmasda fars, ərəb, rus dillərindən müəyyən sözlər dilimizə adlamış və eyni dil prosesi göstərilən dillərə də təsir etmişdir. Bunun nəticəsində Azərbaycan dilinin lüğət tərkibində də müəyyən dəyişikliklər əmələ gəlmiş, burada əsas yeri türk dilinə aid sözlər tutsa da, təbii ki, dilimizə başqa dillərin də təsiri olmuşdur.

Zəngin keçmişi olan Azərbaycan xalqının elə yazılı ədəbiyyat inciləri vardır ki, onlar dilimizi, ədəbiyyatımızı, ən əsası dilimizin keçdiyi tarixi təkamül yolunu izləməyə bizə imkan verir. Bu yöndən böyük mütəfəkkir şair və dramaturq H.Cavidin ədəbi dili dilçilik baxımından xüsusi əhəmiyyətə malikdir.

H.Cavid yaradıcılıq dilinin lüğət tərkibi on mindən artıq sözü təşkil edir ki, onların da bir qismi alınma (ərəb, fars və Avropa mənşəli) sözlərdən ibarətdir. Bildiyimiz kimi Hüseyn Cavidin yaradıcılıq dilində milli, türk, ərəb, fars mənşəli sözlərə tez-tez, Avropa mənşəli sözlərə isə ara bir rast gəlmək mümkündür.

Hüseyn Cavid dilinin lüğət tərkibi demək olar ki, Azərbaycan dilinin əsas lüğət fondu adlanan türk sözlərdən ibarətdir. Sözlərin böyük bir qismi tarixi inkişaf boyu sabitliyini qoruyan ümumişlək sözlər, az qismi isə ədəbi dildə mövqeyini müxtəlif səbəblərdən itirmiş olan arxaizmlərdir.

H.Cavidin yaradıcılığının lüğət tərkibində işlənən alınma sözlərin əsas hissəsi ərəb mənşəlidir. Ərəb sözlərinin böyük bir qismi dini məzmunludur və bu səbəbdən onlarda arxaikləşmə çox zəifdir.

Ümumiyyətlə, ərəb-fars sözləri adı ilə işlənən fars və ərəb sözlərinin əksər bir qismi, düşdüyü yeni mühitdə, Azərbaycan dilinin qrammatikası və fonetik qaydalarının təsiri altında öz xüsusiyyətlərini itirərək, Azərbaycan dilinin qanunlarına tabe olmuşdur. Bununla belə, hər iki dildən gələn sözlər gəldiyi dillərə məxsus olan fonetik xüsusiyyətləri də müəyyən dərəcədə saxlamışdır. Hə-

min bu fonetik xüsusiyyətlərə görə belə sözlərin fars və ya ərəb mənşəli ol-duğunu müəyyənləşdirmək bir qədər asandır. Fars və ərəb dilindən alınma sözlərin fərqləndirilməsində saitlər əsas rol oynayır; bir qayda olaraq bu sözlər ahəng qanununa tabe olmur.

Bunu nəzərə alaraq "İblis" əsərindəki ərəb sözlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

a) Əsərdə dini məzmunlu ərəb sözlərinin işlənmə tezliyi də yüksəkdir. H.Caviddə fəal olan bu sözlər müasir dildə də işləkdir. Bunu izləmək üçün "İblis" əsərinə müraciət edək.

"Dünyaları yoqdan yaratan, ey ulu ***Tanrı***!, Ey xaliqi-hikmət!" (3, s. 9); "Düşmanım varsa ***Tanrı*** düşmanıdır, Şu aqan qan da, iştə haq qanıdır", (3, s. 251); "Yoq kimsədə insafü mürüvvət, ***İblisəmi*** uymuş bəşəriyyət?" (3, s. 8); "Şu dəni məsləki bir söylə, xocam, Hanki ***Qur'an*** sana etmiş ilham?" (3, s. 102); "***Allah*** için, Yetişir, fəzlə zəhmət etməyiniz". (3, s. 26); "Daha səbrim tükəndi, söylə, aman, Hərb için hökm yoqmu ***Allahdan?"*** (3, s. 251); "Bilməm şu cinayət, çu xəyanət, çu fəlakət, Bitməzmi, ***İlahi!*** Bu qədər səbrə nə hacət?" (3, s. 12); "Uydum da ***peyğəmbərlərə***, qanunə, kitabə", (3, s. 10); "Qaldır bəni, bir seyr edəyim xoşmu, gözəlmi, ***Cənnətdə*** mələklər?" (3, s. 10).
Gətirilmiş nümunələrdən göründüyü kimi, dini məzmunlu bu ərəb söz-lərinin, demək olar, hamısı müasir yazılı və şifahi ədəbi dilimizdə işlənməkdədir.

b) Əsərdə elm və sənətlə bağlı olan sözlərin əksəriyyəti ərəb mənşəlidir və bu sözlər ədəbi dilin bir çox üslublarının inkişafında fəal mövqe tutmuş, vətəndaşlıq hüququ qazanmışdır. Məsələn: **"**Həkim – Həp ***həkim*** olmalı, yaxud nadan, həp mələk olmalı, yaxud şeytan" (3, s. 96); "Kitab –Karyola üzərində gözünə ilişən iki ***kitabı*** göstərir" (3, s. 20);

c) Əsərdə məişət məzmunlu sözlər ərəb mənşəli deyimlərin ən zəngin hissəsidir. Əşya, hal-vəziyyət, əlamət məzmunlu belə sözlərin H.Cavidin dilində sayı və işlənmə tezliyi yüksəkdir. Məsələn: saat – "***saatına*** baqar, Rənayə" (3, s. 20), səadət-"Nə ***səadət***, nə xoş təsadüf, inan" (3, s. 22), sahibi - "Əcəba!? ***Sahibi*** kimdir otelin?", ailə – "Yada gəldikcə ***ailəm***, yurdum" (3, s. 57), afət – "Ah, o, Rəna, o nazənin ***afət***!***"*** (3, s. 17), "Siz hərb və dəhşət qalibi, biz ***eşq*** və məhəbbət məğlubu" (3, s. 310). "Lüzumundan fəzlə ***məhəbbət*** nifrət doğurduğu kibi, həddən aşırı qan tökülməkdə də bir fəzilət yoq" (3, s. 312).

Şairin dilində işlənən bəzi ərəb mənşəli sözlər isə zamanla işləkliyini itirmiş və ədəbi dili tərk etmişdir. Məsələn: İğva – "Rəna, hələ Rəna!.. Onu ***iğva*** nə deməkdir?" (3, s. 29), İstiğna – "Bir qadar göstərəcək ***istiğna"*** (3, s. 34), İnayət – "Ya Rəb, azacıq lütfü ***inayət!"*** (3, s. 9), İllət – "Duyduqca, düşündükcə olur qəlbimə tarı Bin şübhəli ***illət"*** (3, s. 9). İzan – "Bir gün gəlir, əlbəttə, şu ***izan*** ilə sən də" (3, s. 11); "Xayır, ən kəskin ***ilac*** iştə budur,Yaşamaqdan daha xoşdur ölüm..." (3, s. 106);

Bütün bunlarla yanaşı dilimizin lüğət tərkibindən çıxmış bir sıra sözlərə diqqət edək:

İğva *ə.* yoldan çıxarma, başdan çıxarma, azdırma

İstiğna ə. 1) əlində olan şeylə kifayətlənmə; 2) etinasız olma, etina etməmə; 3) maddi cəhətdən təmin olunma, heç bir şeyə ehtiyacı olmama; 4) nazqəmzə; 5) çevrilib baxmama, fikir verməmək.

İnayət *ə.* 1) qayğı, kömək; 2) diqqət, hümmət; 3) hüsnrəğbət, yaxşılıq.

İllət *ə*. 1) xəstəlik, naxoşluq; 2) qüsur, əskiklik, nöqsan, əyər-əskik; 3) dəlil, əsas sübut; 4) səbəb; 5) məqsəd, qayə.

İzan ə. 1) itaət; 2) tanıma, bilmə.

Qeyd edək ki, bu cür arxaizmlərin bir qismi mənbədə Azərbaycan-türk mənşəli sözlərlə paralel işlənmiş və sevindirici haldır ki, bu sözlər dil imkanlarımız hesabına öz sözlərimizlə əvəzləndirilmişdir.

Göründüyü kimi, şairin dilində işlənmiş ərəb sözlərinin əksəriyyəti ədə-bi dildə vətəndaşlıq hüququ qazanmışdır.

ç) Əsərdəki xüsusi şəxs adları bildirən sözlər: Rəna, İbn Yəmin,Vasif, Arif və b.

"Bana baq, izləməsəydin də dəmin,

Ələ keçməzdi, inan, ***İbn Yəmin"*** (3, s. 106); "Baqalım sevgili ***Rəna*** nə diyor" (3, s. 109). "Ah, bir ***Vasifi*** görsəm... əfsus!.." (3, s. 110); "***Vasif***! Düşünür, həp düşünürsün, bu nə halət? Məcnun olacaqsın bu təbiətlə nihayət" (3, s. 29); "Sən də ***Arif*** qadar düşünsəydin Ki, nələr yapmaq istər İbn Yəmin" (3, s. 27).

Əsərdəki fars mənşəli sözlər:

Mütəfəkkir şairin yaradıcılığının lüğət tərkibində işlənmiş alınma sözlərin az bir hissəsi fars mənşəli sözlərdən ibarətdir. Onlar bədii üslubda işlənən emosional-ekspressiv mənalı və məişət məzmunlu sözləri əhatə edir.

Fars dilindən lüğətimizə daxil olmuş bu alınmalar müasir Azərbaycan ədəbi dilin aktiv vahidləridir.

Mütəfəkkir şairin yaradıcılığının lüğət tərkibində işlənmiş alınma sözlərin az bir hissəsi fars mənşəli sözlərdən ibarətdir. Onlar bədii üslubda işlənən emosional-ekspressiv mənalı və məişət məzmunlu sözləri əhatə edir. Bu xüsusda fars mənşəli sözləri belə qruplaşdırmaq olar:

a) İşləkliyini qoruyan fars sözləri. Nümunələrdə bu cür sözlər kəmiyyətcə daha çoxdur. Məsələn: günah, gülqönçə, guşə, gənclik, atəş, ağuş, ahənglə, sadə, sərsəm, bülbül, biçarə, xəstə, dərd, dəva və s.

"Çünki var başqa ***günahın*** da sənin" (3, s. 35). "Gəliyor iştə o ***gülqönçə*** dəhən" (3, s. 43). "Bir ***guşədə*** ağsaqal abid qiyafətində görünür" (3, s. 66). "***Gənclik***, gözəllik, eşqü ülfət, hər səadət" (3, s. 51). "Yağmur kibi göydən yağar ***atəş***!.." (3, s. 9). "Bir tərəfdə dışarısı yeşilliklərlə mühat bir çardaq, içərisi həsirlə döşənmiş ***sadə*** bir qülbəcik..." (3, s. 8). "***Bülbüllərin*** əlhanı, çiçəklərdəki əlvan Ya şöleyi-əcram" (3, s. 9). "Şu qadın ***xəstə***, səqət oğlu da var" (3, s. 104). "Bulunur ***dərdinizə*** şimdi dəva" (3, s. 105). "Nədir bu ***rəftar?"*** (3, s. 52). "Bu sırada İxtiyar ilə ***bərabər*** İbn Yəmin, Rəna zənci çavuş və bir əskər, əlində ufaq bir çanta daxil olurlar" (3, s. 16); "Çarpışmaq için lazım ikən ***mərdə*** cə-

sarət, Bilməm, niçin olmuş sana qalib əsəbiyyət?" (3, s. 31); "Şu hərif çünki yaqın ***dostumdur,*** Bəlkə bir rənglə iş həll olunur" (3, s. 37);

Bu qəbildən olan sözlərə, demək olar ki, ərəb işğalından sonra bütün dövrlərin yazılı və şifahi dilində məhsuldar olaraq təsadüf edirik.

Məndə sığar iki cahan, mən bu ***cahana*** sığmazam (Nəsimi) (6, s. 131).

Can vermə qəmi-*eşqə* ki, eşq ***afəti***-candır (Füzuli).

O sevda düşkünü, illər ***xəstəsi***, qapına dərmanə gəlsin-gəlməsin (Nəbati) (13, s. 147).

Vətən mənə "oğul" desə, nə ***dərdim,***

Mamır olub qayasında bitərdim (M.Araz) (12, s. 133).

Fars dilindən lüğətimizə daxil olmuş bu alınmalar müasir Azərbaycan ədəbi dilin aktiv vahidləridir.

Rus dilindən və rus dili vasitəsilə başqa dillərdən keçmiş sözlərin fonetik tərkibi Azərbaycan sözlərindən fərqləndiyi kimi, ərəb və fars sözlərindən də fərqlənir. Əgər ərəb və fars sözlərini fərqləndirən fonetik xüsusiyyətlər saitlərdə özünü göstərirdisə də, burada həmin xüsusiyyətlər, əsasən, samitlərdə öz əksini tapır.

Qeyd edək ki, mütəfəkkir şairin yaradıcılığındakı alınma sözlərdə maraqlı faktlardan biri də rus və Avropa mənşəli sözlərin işlənməsidir. Məsələn: Ağustos (Latın), iskəmləyə (Yunan), salon (Fransız), masa (Avropa), feyləsofmu (Avropa), cığara (Avropa), bomba (Avropa) və s.

Bu istiqamətdə əsərdəki bəzi sözlərə də diqqət edək:

"Masa üzərindəki şərab qədəhini yaqalar" (3, s. 41); "Məhzun və sarsılmış bir halda ***iskəmləyə*** oturur" (3, s. 26); "Ərəb zevqinə uyğun süslü bir ***salon***... Qarşıda, sağda və solda birər qapı və bir qaç pəncərə..." (3, s. 34); "Şu hərif ***feyləsofmu***, ya dəlimi? Sanki həp cəhldir bunun elmi" (3, s. 19); "Cibindən bir ***cığara*** çıqarır" (3, s. 42); "Pərdə açıldıqda Arif bir tərəfdə, taxta bir karyola üzərində əlinə təkyə edərək, uzanıb düşüncəyə dalmış, səhnə qaranlıq, ətrafda göy gurultusu, şimşək çaqısı, trampet sədaları, top, tüfək, ***bomba*** patlayışları..." (3, s. 8).

Məqalədə əsas etibarilə H.Cavidin dilində işlənən sözlərin mənşəyi, işlənmə tezliyi, arxaikləşmə dərəcəsi nəzərə alınmışdır. Təhlillər göstərir ki, lüğət tərkibini izafət birləşmələri, söz önlükləri, saitlərin işlənmə yeri və s. hallara baxmayaraq Azərbaycan türk dilinin qrammatik qanunları üstünlük təşkil edir.

Nəticə etibarı ilə demək olar ki, H.Caviddəki ərəb-fars sözlərinin mövzu dairəsi, işlənmə imkanları və türk mənşəli sözlərlə kəmiyyət nisbəti və təması müasir dilimizdə hələ də öz yerini qorumaqdadır. Fikrimizcə bu sözlərin dilimizin imkanları hesabına Azərbaycan türk sözləri ilə əvəzlənməsinin zamanı çatmışdır.

ƏDƏBİYYAT

1. AMEA. Azərbaycan ədəbi dil tarixi. IV c., Bakı: Şərq-Qərb, 2007, 424 s.
2. Cəfərov S. Müasir Azərbaycan dili. II hissə, Bakı: Şərq-Qərb, 2007,192 s.
3. Cavid H. əsərləri. Dram əsərləri. III c., Bakı: Elm, 2007, 368 s.
4. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti.2 cilddə, I c., Bakı: Şərq-Qərb, 2005, 416 s.
5. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti. 2 cilddə, II c., Bakı: Şərq-Qərb, 2005, 472 s.
6. Cəfərli Ə. İmadəddin Nəsimi. Seçilmiş əsərləri. Bakı: Maarif, 1985, 440 s
7. D.Mehmet Doğan. Büyük türkçe sözlük. Ankara:Yeni şafak, 1996, 1170 s.
8. Azərbaycan dilinin izahlı lüğəti, 3 cilddə, I c., Bakı: Çıraq, 1997, 452 s.
9. Azərbaycan dilinin izahlı lüğəti, 3 cilddə, II c., Bakı: Çıraq, 1999, 412 s.
10. Azərbaycan dilinin izahlı lüğəti, 3 cilddə, III c., Bakı: Çıraq, 2000, 416 s.
11. Xudiyev N. Azərbaycan ədəbi dil tarixi. Bakı: Maarif, 1995, 496 s.
12. Araz M. Seçilmiş əsərlər, 2 cilddə, I c., Bakı: Lider nəşriyyat, 2004, 224 s.
13. Nəbati Seyid Əbdülqasim. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004, 216 s.

Чинара Рзаева

ЗАИМСТВОВАННЫЕ СЛОВА В ЯЗЫКЕ ПРОИЗВЕДЕНИЙ ГУСЕЙНА ДЖАВИДА
(На основе произведения «Демон»)

В статье исследованы заимствованные арабские, фарсидские слова из европейских языков в творчестве Джавида и определены места их употребления в его произведении.

Chinara Rzayeva

RESULTED WORDS IN HUSSEIN JAVID LANGUAGE
(Performance “Demon”)

The borrowings from arabian, persian, European origin in Husein Javid's works were investigated and their useing are determined in this article.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

ELMAR HÜSEYNOV
AMEA Naxçıvan Bölməsi
E-mail: elmar.huseynov@yahoo.com

BABƏK RAYON ORONİMLƏRİNİN MƏNA ÇALARLARINA GÖRƏ QRUPLAŞDIRILMASI

(AMEA-nın müxbir üzvü, prof. Ə.A.Quliyev tərəfindən təqdim edilmişdir)

Azərbaycan onomastikası XIX əsrin ortalarından öyrənilməyə başlanmış, XX əsrin ortalarından yüksək inkişaf mərhələsinə qədəm qoymuşdur. Ölkəmiz müstəqillik qazandıqdan sonra da bu sahədə sistemli tədqiqatlar aparılmış, toponimlərə dair kitab, monoqrafiya, jurnal və elmi məqalələr nəşr olunmuşdur. Çünki toponimika sahəsində aparılan araşdırmalar xalqımızın keçmiş tarixini, dil xüsusiyyətlərini, yayıldığı ərazilərin coğrafiyasını əks etdirməklə onun milli kimliyinin aydınlaşdırılmasına xidmət göstərir. Milli maraqların qorunmasında, tarixi-coğrafiyanın öyrənilməsində ölkəmizdəki hər bir toponim mühüm rola malikdir.

Azərbaycan toponimlər sisteminin bir qolunu da Naxçıvan Muxtar Respublikasındakı toponimlər təşkil edir.

T.Əhmədov, Q.Qeybullayev, B.Budaqov, Q.Məşədiyev, M.Vəliyev (Baharlı), N.Məmmədov kimi azərbaycanlı tədqiqatçılar Naxçıvan ərazisindəki toponimlərin bəzilərini araşdırsalar da, ərazidəki toponimlərin sistemli tədqiqata cəlb olunması naxçıvanlı alimlərin adı ilə bağlıdır. S.Babayev, A.Bağırov, F.Rzayev və A.İmanlı kimi tədqiqatçılar son illər Naxçıvan toponimlərini sistemli şəkildə araşdırmış, müxtəlif illərdə toponimlərdən bəhs olunan kitab, monoqrafiya və elmi məqalələr çap etdirmişlər.

Toponimlərin ən böyük sahələrindən birini oronimlər ("Yunanca oros – "dağ", onim – "ad" sözlərinin birləşməsindən əmələ gəlib) təşkil edir. Oronimlər yer səthi relyefindəki hər cür oroqrafik obyekt adını bildirir. "Dağ", "daş", "təpə", "qaya", "zirvə", "dik", "dərə", "düz" və s. adları toponimikanın oronimlər bölməsində öyrənilir.

Naxçıvan Muxtar Respublikası oronimlər sisteminin zənginliyi ilə seçilir. Ərazinin bir hissəsinin Kiçik Qafqaz dağları, digər hissəsinin isə böyük düzənliklərlə əhatə olunması buradakı oronimlər sisteminin bir-birindən fərqli, çoxşaxəli və zəngin olmasından xəbər verir. Naxçıvan ərazisindəki yer adları

tarixən maraq dairəsində olmuş, tarixi mənbələrdə, səyahətnamə və arxiv materiallarında bəzi toponimlər haqqında məlumat verilmişdir. Babək rayonu ərazisindəki toponimlərə ən çox 1590 və 1728-ci illərə aid "İrəvan əyalətinin icmal dəftəri"ndə (5, s. 140-145, 164-166) və 1727-ci ilə aid "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə (8, s. 25-30) rast gəlinir.

Ərazidəki oronimlərin araşdırılmasında tədqiqatçı A.Bağırovun əməyini qeyd etmək yerinə düşər. "Naxçıvan Muxtar Respublikasının onomastik vahidlər sözlüyü" (1), "Naxçıvan toponimlərinin linqvistik xüsusiyyətləri" (2) və "Onomalogiya problemləri" (3) monoqrafiyalarında müəllif Naxçıvan MR oronimlərindən ətraflı bəhs etməklə, Babək rayonundakı xeyli sayda oronimi də tədqiqata cəlb etmişdir. Onu da deyək ki, Babək rayonundakı oronimlərinin sistemli şəkildə tədqiqinə hələ də ehtiyac duyulur.

Babək rayonu ərazisindəki oronimlərinin əmələgəlmə, yaranma və formalaşma yollarının öyrənilməsi toponimikanın aktual problemlərindəndir. Rayonun ərazisindəki oronimlər qədimliyinə, coğrafi mövqeyinə, rəng çalarına və relyef quruluşuna, həmçinin zəngin dil xüsusiyyətlərinə görə fərqlənir. Məqalədə Babək rayonu ərazisində oronimləri məna çalarlarına görə qruplaşdırmağa çalışacağıq.

Elmi ədəbiyyatda oronimlərin yaranma və formalaşma yolları haqqında müxtəlif fikirlər mövcuddur. Məsələn, T.Əhmədov oronimlər sistemini müsbət və mənfi relyef quruluşuna görə iki qrupa (4, s. 202-212), Q.Məşədiyev yaranma yollarına görə oronimləri üç qrupa bölmüşdür. 1) Rəvayətlə bağlı yaranan oronimlər, 2) Şəxs adı ilə bağlı yaranan oronimlər, 3) Tayfa adı ilə bağlı yaranan oronimlər (7, s. 106-109). N.Məmmədov isə Azərbaycan oronimiyasına coğrafi mövqedən yanaşmış və oronimləri spesifik, metaforik, oronimik, oykonimik, hidronimik, fitonimik, zoonimik, etnonimik, potronimik və antroponimik oronimlər kimi təsnif etmişdir (6, s. 73) A.Bağırov isə Naxçıvan oronimlərini leksik-semantik cəhətdən belə qruplaşdırmışdır: 1) Süxurların rənginə və tərkibinə görə; 2) Görünüşü, oxşarlığı və formasına görə; 3) Antroponimlər əsasında yarananlar; 4) Etnonimlər əsasında yarananlar; 5) Oykonimlər əsasında yarananlar; 6) Fitonimlər əsasında yarananlar; 7) Zoonimlər əsasında yarananlar; 8) Say komponentli oronimlər; 9) Müəyyən hadisə ilə bağlı yaranan oronimlər (2, s. 162-174).

Oronimlərin bu cür qruplaşdırılması məqsədəuyğundur və biz də A.Bağırovun bu fikrinə şərik olaraq, Babək rayonu ərazisindəki oronimləri əmələgəlmə, yaranma və formalaşma yollarına görə aşağıdakı şəkildə qruplaşdırılmasını məqsədəmüvafiq hesab edirik.

1. Etnonimlər əsasında yaranan oronimlər. Tarixən qədim türk etnoslarının məskən saldıqları Babək rayonu həmin etnosların adlarını ərazidəki toponimlər layında saxlamışdır. Buna görə də bu gün rayon ərazisində etnos adından törəmiş xeyli sayda etnooronimə rast gəlinir.

Çalxandağ (Cəhri), *Keçili dağı, Keçili kahası* (Yuxarı Buzqov), *Keş qaya, Qazanlı (sahə)* (Aşağı Buzqov) və s. oronimləri etnooronimlər kimi səciyyələndirmək olar.

2. Antroponimlər əsasında yaranan oronimlər. Oronimilər sistemində antroponimlərlə – insan adları ilə bağlı yaranan oronimlər üstünlük təşkil edir. Aşağıdakıları buna əsas səbəb kimi göstərmək olar. 1) Tarixən hər hansı bir şəxsin müəyyən ərazinin sahibi olması, tayfa başçılarının, böyük feodal və mülkədarların adları ilə bağlı olması, 2) Ərazinin hansısa şəxsə aidliyini bildirməsi və ailə üzvləri arasında bölüşdürülməsi zamanı onun adı ilə adlandırlması, 3) Müəyyən şəxlə bağlı ərazidə baş verən hadisə ilə həmin yerə ad verilməsi.

Babək rayonu ərazisində xeyli sayda antropooronim mövcuddur ki, onların mənşəyini araşdırdıqca bir daha bunun şahidi oluruq.

Heydərin dərəsi, Heydərxan bəndi, İmamqulu ağılı, Novruz ağılı, Novruzəli dərəsi, Süleyman ağılı (Nehrəm), *İsmayıl daşı, Amanı ölən dərə, Nəbi qalası* (Vayxır), *Leyli yurdu, Qiyasın diki, Əlmərdan qayası* (Kərməçataq), *Nuru dərəsi, Həsən dərəsi* (Payız), *Bayramın tikələri, Bəhlulun dərəsi, Bəylərin dərə yeri, Cəfərin dərə yeri, Gəncixan dərəsi, Güllünün dərəsi, Hacı Allahqulunun çuxuru, Savalanın yeri* (Yuxarı Buzqov), *Hacı Hüseyn yurdu* (Məzrə), *Camal qalası, Qasım yatağı mağarası, Məşə Müseyib ağılı, Hacılar ağılı* (Sirab), *Əzimin təpəsi, Kür Əzizin təpəsi, Ərcümən (Arzuman yeri)* (Xalxal), *Koroğlunun zağası, Xankişi ağılı* (Güznüt və Çeşməbasar), *İsfəndiyar piri, Mürsəltəpə, Çıraqəlinin ağ yeri, Kərbəlayi Məhərrəmin kahaları, Sultanbəy* (Babək rayonu) və s.

3. Zoonimlər əsasında yaranan oronimlər. Tarixən Babək rayonu ərazisində heyvandarlıq, maldarlıq və kənd təsərrüfatı insanların məişətində aparıcı yer tutmuş, dolanışıq mənbəyi olmaqla yanaşı, əhalinin əsas məşğuliyyətinə çevrilmişdir. Buna görə də heyvandarlıq və əkinçiliklə bağlı leksika şifahi ədəbiyyatla yanaşı, onomastik sistemdə də özünü göstərmişdir. Babək rayon oronimlərində heyvan adı ilə bağlı oronimlər, yəni zoooronimlər səciyyəvi xarakter daşımışdır.

Dəvəboynu sahəsi, At ağıl, Dana mağarası, Keçi qalası (Nehrəm), *Qaraquş dağı* (Cəhri), *Qarğabazar* (Çeşməbasar), *Kaftar kahası* (Kalba Oruc Dizə), *Dəvəyatağı* (Sirab), *Quzğunlu dağ, Quzğunlu dərəsi* (Vayxır), *Qurd təpəsi, Quzuqulaqlı qaya, Bülbüllü qaya* (Kərməçataq), *Pələyhli dağı, Qatıruçan, Marallı dərə, Pələyhli dərə,* (Yuxarı Buzqov), *Tazıuçan dağı, Bitdi dərə, At ağılı, Donuz qalası, Qutan dağ, Qancıx ölən, İlannı kövfşəni* (Sirab), *At ölən, İt ölən, Kaftarlı, İlangörünməz* (Güznüt və Çeşməbasar) və s.

4. Fitonimlər əsasında yaranan oronimlər. Naxçıvan Muxtar Respublikası zəngin bitki örtüyünə malikdir. Buna görə də Babək rayonu ərazisində xeyli sayda fitooronimə rast gəlmək mümkündür.

İydəlik, Laləlik, Mərcanlı yeri, Tutluq (Nehrəm), *Meşə dərəsi, İydəli Dərbənd* (Vayxır), *Qamışlı dərə, Quzuqulaqlı qaya* (Kərməçataq), *Kələmpir*

kövşəni, Kələmpir, Söyüd bərə (Nəzərəbad), *Almalı çuxur dağı, Qəmişdi dağı, Alçalı dərəsi, Sumaxlı təpəsi* (Yuxarı Buzqov), *Armudlu sahə, Güllüyün düzü, Zirişli dərə* (Aşağı Buzqov), *Alçalı dərə, Qara cacıqlıq* (Kərimbəyli), *İydəli dərə* (Xalxal), *Yovşanlı düz, Almalı, Mövlü dərə (Lizbirt)* və s.

5. Oykonimlər əsasında yaranan oronimlər. Babək rayonu ərazisində xeyli sayda qədim tarixə malik yaşayış məntəqələri mövcud olmuşdur ki, zaman keçdikcə müxtəlif müharibə və təbiət hadisələri nəticəsində bu yaşayış məntəqələri dağılaraq xarabalığa çevrilmişdir. Ərazidə məskunlaşmış əhali təbii şəraitlə bağlı başqa yerlərə köçmək məcburiyyətində qalmış, bəzənsə müəyyən siyasi proseslər nəticəsində köçürülmüşlər. Beləliklə, bu məntəqələr zaman keçdikcə tarixin yaddaşına həkk olunmuşdur. Haqqında danışdığımız məntəqələr ya arxeoloji qazıntılar nəticəsində aşkarlanır, ya da onlar haqqında bəzi folklor nümunələrində, tarixi mənbələrdə, səyahətnamələrdə və yaxud arxiv materiallarındakı məlumatlarda rast gəlinir. Bu yaşayış məntəqələrinin adları toponimikanın əsas tədqiqat obyektlərindən birinə çevrilmişdir. İndi həmin yaşayış məntəqələri oykooronimlər adlanır. Babək rayonunda da xeyli sayda oykooronimə rast gəlinir.

Naxış Nərgiz sahəsi (Babək rayonu), *Almalı çuxur dağı* (Yuxarı Buzqov), *Altuntaxt, Qaraquş dağı, İşıqlar, Kəndtəpə, Meydantəpə, Çalxan dağı, Muncuqtəpə* (Cəhri), *Köhnə Vayxır, Vayxır qalası, İydəli Dərbənd* (Vayxır), *Ocaqtəpə* (Məzrə) və s.

6. Süxurların rənginə və tərkibinə görə yaranan oronimlər. Babək rayonu ərazisindəki dağlar öz zəngin təbii ehtiyatları ilə diqqəti çəkir. Buna görə də bu kiçik ərazidəki dağlar öz rənginə görə bir-birindən seçilir. Babək rayonundakı oronimlərin müxtəlif rəng çalarları onların adında əks olunmaqdadır. Demək olar ki, bu oronimlərdə ağ və sarı rənglər üstünlük təşkil edir.

Sarı dağ, Qara təpə (Sirab), *Qara daş, Ağ daş* (Vayxır), *Mis dağ, Sarıdağ, Qara dağ* (Xalxal), *Qaraquzey təpə, Qaradaş təpə, Sarı Arxac, İlangörünməz, Qaranlıq dərə (Güznüt və Çeşməbasar)* və s.

7. Görünüşü, oxşarlığı və formasına görə yaranan oronimlər. Fərqli quruluşa və fərqli görünüşə malik Naxçıvan oronimləri müxtəlif cizgilərə malikdir. Bu kiçik ərazidə on bir iqlim qurşağından yeddisinin mövcud olması dağlardakı, qayalardakı fərqli görüntünü yaratmaqda müstəsna xidmətə malikdir. Bu cür fərqli iqlim Babək rayonundakı dağların görünüşündə də əks olunmuşdur.

Çapıq dağ, Çardaqlı, Dəlik daş, Sal ağıl (Nehrəm), *Plov təpəsi, Qoşa təpə, Keçəl təpə* (Cəhri), *Sel basar* (Çeşməbasar), *Çuxur yer* (Kalba Oruc Dizə), *Plov təpə, Quyulu dağ* (Sirab), *Şiş dağı, Əyribucaq dağı, Cərgə daş* (Vayxır), *Kəkilli təpə, Bağırsaq dərə, Kərə təpə* (Kərməçataq), *Keçəl təpə, Küllü təpə* (Nəzərəbad), *Daşlı zəmi* (Qoşadizə), *Qəmişdi dağı, Şiş dağı, Təndirli dağı, Daş kaha dərəsi, Quyuluq təpəsi, Təndirli yeri* (Yuxarı Buzqov), *Plov təpə* (Qahab), *Dərə-təpə, Kəhriz basar, Təpə dibi* (Yarımca) və s.

8. Say komponentli oronimlər. Naxçıvan MR oronimlərinin bir qismi saylarla bağlıdır. Bu cür oronimlərə Babək rayonunda da rast gəlmək mümkündür. Lakin Babək rayonundakı saylarla bağlı oronimlər başqa oronimlərlə müqayisədə azlıq təşkil edir. Belə ki, rayon ərazisində saylarla bağlı aşağıdakı oronimlərə rast gəlinir.

Qoşa arxac (Nehrəm)*, Yeddiqardaş sahə* (Vayxır), *Yüz dörd dərə* (Məzrə), *Qoşa qardaş* (Qahab), *İyirmi altı hektar, On dörd hektar sahə, On səkkiz hektar sahə, Otuz hektar (sahə)* (Kərimbəyli), *Qoşa arxac* (Vayxır), *Əlli yeddi hektar (sahə) (Güznüt, Çeşməbasar), Üçbulaq* (Babək rayonu) və s.

9. Müəyyən hadisə ilə bağlı yaranan oronimlər. Tarixən baş vermiş müəyyən hadisələrlə bağlı toponimlər meydana gəlmişdir ki, bu toponimlər həmin hadisəni sanki tarixi fakt kimi öz adında yaşatmaqdadır. Babək rayon ərazisində müəyyən hadisələrlə, əhvəlatlatlarla bağlı oronimlər də mövcuddur.

Ləzgi ölən sahə, Qanlı dərə (Cəhri), *Sel basar* (Çeşməbasar), *Palantökən yoxuşu, Oğru dərə* (Kərməçataq), *Qatıruçan* (Yuxarı Buzqov kəndi), *Zöhrə sürüyən* (Aşağı Buzqov), *Gəlin yatağı* (Sirab), *Amanı ölən dərə* (Vayxır), *At ölən, İt ölən, Qançanağı qayası, İbadölən* (Güznüt, Çeşməbasar) və s.

Qeyd edək ki, məqalənin həcmini nəzərə alaraq hər bir oronimin ayrılıqda mənşəyi və dil xüsusuiyyəti, həmçinin müqayisəli tədqiqi haqqında aparılan araşdırmaları verə bilmədik. Lakin onu da deyək ki, bu oronimlərin hərtərəfli araşdırılması ərazinin avtaxton sakinlərinin – türklərin advermə ənənəsinin, mədəniyyətinin və dil üslub xüsusiyyətlərinin bir daha ortaya qoyulmasına zəmin yaradar.

ƏDƏBİYYAT

1. Bağırov A. Naxçıvan Muxtar Respublikasının onomastik vahidlər sözlüyü. Bakı: Nurlan, 2003, 232 s.
2. Bağırov A. Naxçıvan toponimlərinin linqvistik xüsusiyyətləri. Bakı: Elm, 2002, 288 s.
3. Bağırov A. Onomalogiya problemleri. I c., Bakı: Elm və Təhsil, 2010, 436 s.
4. Əhmədov T. Azərbaycan toponimikasının əsasları, Bakı: BDU-nun nəşri, 1991, 312 s.
5. İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm, 1996, 184 s.
6. Məmmədov N. Azərbaycanın yer adları. Bakı: Azərnəşr, 1993,184 s.
7. Məşədiyev Q. Zaqafqaziyanın Azərbaycan toponimləri. Bakı: Elm, 1990, 148 s.
8. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı: Sabah, 1997, 336 s.
9. Quliyev Ə.A. Orxon Yenisey abidələrində toponim və etnonimlər. Bakı: Nurlan, 2004, 128 s.
10. Quliyev Ə.A. Qədim türk onomastikası. Bakı: ADPU-nun nəşri, 2007, 184 s.

Эльмар Гусейнов

ГРУППИРОВКИ ОРОНИМОВ БАБЕКСКОГО РАЙОНА ПО СМЫСЛОВЫМ ОТТЕНКАМ

В статье были исследованы оронимы Бабекского района. Автором статьи эти оронимы были сгруппированы по их происхождению и смысловым оттенкам. Здесь одновременно было исследовано и их формирование.

При исследовании проблемы были выявлены многие научные результаты.

Elmar Huseynov

THE GROUPING OF ORONIMS BABAK REGION OF ACCORDING TO THEIR MEANİNG SHADE

The oronims of Babak region have been investigated in the article. These oronims have grouped according to their forming way and meaning shade.

During the investigation of the problems it has defined many scientific results.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

YUSUF GEDİKLİ
(Türkiyə**)**
E-mail: dryusufgedikli@hotmail.com

TÜRKÇEDE "TANRI, ALLAH" ADLARININ TÜREDİĞİ *de+ ~ *di+ YUVASI

(AMEA-nın müxbir üzvü, prof. Ə.A.Quliyev tərəfindən təqdim edilmişdir)

Dikkatli araştırdığımız ve düşündüğümüz takdirde Türkçede Tanrı ve Allah adlarını ifade eden bir neçe kelimenin aynı yuvadan çıktığı görülmekte, bu kelimelerin bazılarının mecaz anlam kazanıp "efendi, sahip, malik" anlamına geldiği anlaşılmaktadır. Türkçede Tanrı, Allah kavramını ifade eden kelimeler *de+ yahut *di+ yuvasından neşet etmektedir. Yuvanın ünlüsünün e mi, i mi olduğunu tayin etmek şimdilik zordur.

Bu makalede Tanrı isimlerinin çıktığı kökler tasarlanacak, *de+ yahut *di+ yuvasından türeyen kelimelerin nasıl ve hangi değişimlere uğradıkları maddeler halinde gösterilecektir.

I. İdi sözü

Türkçede "Tanrı, Allah; sahip, malik, efendi" anlamlarına gelen sözlerden biridir. Şöyle oluşmuş ve değişmiştir:

1. *de+ yahut ***di+** yuvasından **-d** ekiyle *ded yahut *did şeklinde gelen, başta d > y > sıfır değişimi gösteren **Orhun** kitabelerindeki **idi** "sahip", **idisiz** "sahipsiz"dir(1, s. 103). Eski Uygurcada **idi** "sahip", **İdi Kurt** "antroponim", **idikut** "**1.** Basmıl Türk halkından alınmış hükümdar unvanıdır; Çincesi **I-du-hu > Idıhut** olup aynı zamanda "toponim"dir(2, s. 59). Eski Uygurcada **ıdımak** "zenginlenmek, varlıklanmak" **ıdukkut** "**1.** rütbe **2.** şehzade antroponimi, adı" keli-meleri de vardır (2, s. 57).

2. Uygur hükümdarlarının unvanı olan **İdi-kutun** veya **Iduk-kutun** manası "Tanrısal kut, İlahi kut, İlahi ruh"tur. Unvan **İdi** "Tanrı, Tanrısal"dan gelebileceği gibi, **ıduk** "aziz, mübarek, mukaddes, kutlu"dan da gelebilir. Unvan Turfanda bulunan 9-10'uncu asır Maniheist Uygur kaynaklarında ıduk kut şeklinde yazılmıştır. 14'üncü yüzyılın başında Çağatay devletine ait hukuk vesikalarında ıduk kut şeklinde geçer (3, s. 494).

3. *Kutadgu Bilig* ve *Divanda* **idi** "sahip, efendi; Tanrı"dır (4, s. 187).

4. Ahmed Yesevî'nin hikmetlerinde **İdi, İzi** (zel harfiyle) şeklinde iki varyantta olup; **İdi, İzi** "sahip, Rab" anlamlarında pek çok defa geçer (5, s. 352).

5. Şeyh Süleymanda **İdi,** "sâhib, mâlik, ige"dir (6, s. 48).

6. G.Clauson sözcüğü **İδi,** G.Doerfer **Edi** okur. S. Tezcan ise Halaçça **Eydi** biçimini, kelimenin **e** ile okunması gerektiğine kesin kanıt sayar (7, s. 282).

7. Clauson, sözlüğünde **idi-siz'in** Kırgızcada **es-iz,** Orta Türkçede **idi-siz,** Kazakçada **iye-siz,** Osmanlıcada **ıs-sız** (veya **is-iz, ıs-ız** ve **is-izlik, ıs-ızlık**) şeklinde kullanıldığını kaydeder (8, s. 72).

1. İdinin d > z safhası

1. İdi, **d > δ > z** değişimiyle **İzi** (zel harfiyle) olmuştur; Ahmet Yesevî'nin hikmetlerinde **İdi, İgenin** yanı sıra böyle de geçer (5, s. 352).

2. Şeyh Süleymanda **İzi** "Allah, Hudâ, Hâlık"tır (6, s. 51). Bu, **d > z** safhasından kalma bir şekildir. Günümüz Özbekçesindeki **ezgü** "hayırlı, güzel, iyi" sözü de **edgüden** böyle gelişmiştir.

2. İdinin d >> y safhası

1. İdi, d > δ > y değişmesiyle **iye** olmuştur**.** Bu şekli Eski Uygurcada **iä, iyä** "bey, sahip" şeklinde görürüz (2, s. 58-60). Sözlüğü telif eden Ahmet Caferoğlu **ididen** geldiğini düşünerek **ie** sözünü doğru olarak **idiye** göndermiştir. **İge** ile **iyeyi** ise birbirine göndermiştir. Caferoğlunun **g > y** değişimini düşünmesi doğru değildir.

2. İye, eye "sahip, malik, efendi" anlamında Yunus Emrede geçer (9, s. 209).

3. İye Azerbaycan Türkçesinde yiye şeklindedir. Yiye şeklinde ya baştaki asli y korunmuştur yahut y düştükten sonra tekrar bir y takısı meydana gelmiştir. Azerbaycan Türkçesinde başta y takısına esir > yesir örneğini verebiliriz.

4. İye, Türkiye Türkçesinde cumhuriyetten sonra türetilen **iyelik ekleri** (sahiplik ekleri) teriminde görülür.

3. İdinin d > δ > s safhası

1. İdi, d > δ > s inkılabıyla günümüze **ıssız** olarak ulaşmıştır. Yunus Emrede **ısı, isi** "sahip"tir (9, s. 207). Yunusta "Bostan **ıssı** kakıdı // Der ne yersin kozumu" biçiminde geçer (9, s. 210).

2. *Yeni Tarama Sözlüğünde* **isüz, ısız, ısuz, isiz, issüz** "boş, tenha, sahipsiz, ıssız"dır(10, s. 118). **Is** veya **is; ısı, isi** sözlerindeki son ünlünün düşmesinden oluşmuştur. Is veya is üçüncü şahıs iyelik eki alınca **ıssı** olur.

4. İdinin değişimleri hakkında görüşler

1. Reşit Rahmeti Arat **ige, eger, kigiz** kelimelerindeki g'leri "şark Türkçesine ait iki sedalı arasında bağlantı sesi" olarak görür(3, s. 401).

2. Kemal Eraslan özetle "idi z > y değişimiyle **iyi** olmalı iken y, g, nöbetleşmesiyle **ige** oldu, halen çeşitli Türk lehçelerinde iye, ige şekilleri mevcuttur" der (5, s. 352).

3. Talat Tekin d > s inkılabını **idisiz >> *iyisiz > *isiz > isüz-îsüz >> ıssuz > ıssız** şeklinde düşünür (11, s. 323).

4. İge üzerine son yazılan bir yazıda ige > iye değişimi var sayılmıştır (12, s. 47).

5. Yeri gelmişken daha önce yazdığımız "Hatta idi kelimesindeki d, g'ye bile geçebilmektedir" düşüncemizin doğru olmadığını belirtmek isteriz (13, s. 72). Hakikatte ige apayrı, bağımsız bir kelimedir. Aşağıda üzerinde durulacaktır.

6. Bizce aslı *dedig ~ *didig veya *deding ~ *diding olan **İdi** kelimesi **idisiz > iδi-siz > isi-siz > is-süz > ıs-suz > ıs-sız** inkılabını izlemiştir. d > s değişimi *Atebetül Hakayık* için seciyevidir. Günümüz Türkmencesindeki **ıs** "koku", **ısgaş-** "kokuşmak" sözleri böyle gelişmiştir (14, s. 111-112). Türkmencede ıys şekli de vardır ve ıys'taki y türemedir.

İkizleşmenin esas sebebi kelimenin aslının muhafaza edilmek istenmesidir. Zira ı-sı dense kelimenin kökü ı'ya indirgenmiş olacaktır. Bu takdirde maksadı anlatmak güçleşecektir. İkizleşme maksadı daha iyi ifade etmeye yardımcı olmuştur. Çünkü ı sözü insanların kafasında ı "sahip" olarak yer etmemiştir. Do-layısıyla ıs-sı, is-si denmek zorunda kalınmıştır. Issız, issiz biçimleri zaten olumsuzluk şekilleridir.

7. Böylece **idi** kelimesinin **d > δ > y** evrimiyle **iye**, **d > δ > s** evrimiyle **is ~ ıs**, **d > δ > z** evrimiyle **izi** şeklinde 3 çeşitlemesini tesbit etmiş oluyoruz. **İdiyle** beraber yazılı kaynaklarda 4 çeşitlemesi olduğu sabit olur.

5. Moğulcadaki icen

1. Göktürklerde, Bilge Kağanın 734'te ölümünden sonra tahta çıkan oğlunun unvanı Çince **İ-jan** biçiminde tıranskıripe edilmiştir (15, s. 55). Bizce bu **icen** olabilir ve ididen gelebilir. Kelimeyi çağdaş Moğulcada **icen** "sahip, iye" anlamında buluyoruz. İcen sözünde **d > c** değişimi vardır. Aslı Türkçe "sahip, iye"dir, fakat Moğulcalaşmıştır. Sondaki n sesi Moğulcada saklanır.

2. Moğulcada **d > c** değişimini **acira-** fiilinde de görürüz. Moğulcada **d** sesi**, ı** ya da **i** ünlüsü önünde **c'ye** dönüşür. Türkçede böyle bir hadise yoktur. Talat Tekin, Türkçe **adır-** "ayırmak" ile Moğulca **acira-** fiilinin denkteş olduğunu yazar (16, s. 283).

3. Hükümdar unvanı olan Türkçe **kadır** Moğulcada **kacir** olmuştur (17, s. 270). Od-tigin > ot-çigin sözünde de aynı durumu görürüz. Aynı şekilde katır hayvan adı da Moğulcada ve muhtemelen Moğulcadan alınarak bazı Türk lehçelerinde kaçir, haçir olmuştur (3, s. 605). ı ve i önündeki d'ler ve hatta t'ler c olmuştur. i > e değişimi vaka-yi adiyedendir.

4. Moğulcada **t > ç** gelişimi de vardır. **Biti > piçi** gibi. Bu gelişme **t** sesi **i** önünde iken vuku bulmaktadır.

II. İge sözü

Türkçede "Tanrı Allah; sahip, malik, efendi" manasına gelen kelimelerden biridir.

1. *de+ yahut ***di+** yuvasından -g ekiyle türeyen ***deg-eg** veya ***dig-eg, *deg-eng** veya ***dig-eng, d > y > sıfır** değişimiyle Eski Uygurcada **igä** "sahip, bey; peri ruh, (mecaz)," **yir sub igäsi** "yer ve su perisi" tesbit edilmiştir (2, s.

60). *Divanda* **igenmek** "benimsemek [sahiplenmek]; (kısrak) gebe kalmak; çamışlaşmak, harınlaşmak; çekinmek"tir(18, s. 49).

2. Ahmet Yesevide İdi, İzi ile birlikte **İge** de geçer (5, s. 352, 447).

3. İbni Mühennada **İgdegen** "Tanrı adlarından olmak üzere efendi, sahip manasında"dır (19, s. 33).

4. Birinci maddede gördüğümüz **İdi, İzi** ve şu anda üzerinde durduğumuz **İge** ve varyantları "Tanrı, Allah" anlamındadır. Şeyh Süleyman şu altı varyantı verir:

"İd, İdi : Sâhib, mâlik, ige.

İzi : Allah, Hudâ, Hâlık.

İge ~ İgem: Sâhib, mâlik, bânî, mürebbî.

İge : Büyük, cesîm, büzürg, azîm, sâhib." (6, s. 48, 51, 54). (Yazılış farkı vardır. **İge ~ İgem**'in son sesi elif ile son kelime olan İge'nin son sesi güzel he ile yazılmıştır).

5. İge, bugünkü Özbekçede "Tanrı"dır. **İge-berdi, İgem-berdi** şeklinde şahıs isimlerinde görülür. **Molla Egemberdi** 1920'li yıllarda Sovyetlere karşı savaşan bir korbaşıydı.

Égem, Yeni Uygur Türkçesinde "**1.** iye, sahip **2.** Allah"tır (20, s. 121).

6. Muasır Afgan Özbeklerinde **Yegem** şeklinde ve "Allahım" anlamındadır. Başa **y** takısı almıştır. **İgem, Égem, Egem, Yegem** varyantlarının sonundaki **m,** birinci şahıs iyelik ekidir.

7. Januzakov - Esbayeva, **iye** sözünün Kazakistanın Çimkent (Kazakçası Şımkent) havalisinde **ege** şeklinde telaffuz edildiğini söylüyorlarsa da (21, s. 87), Çimkentteki **ege, idi > iye** gelişimiyle oluşmamıştır. Çimkentteki **ege** bizatihi **ige ~ ege** sözünün kendisidir.

8. Türkiyede cumhuriyetten sonra Arapça **hakimiyet** yerine ikame edilen **egemen** sözü, Kazak Türkçesinde mevcuttur ve **ege** "sahip sözü ile **-men** ekinden yapılmıştır (22, s. 135), Denildiği gibi Yunanca veya Fransızca **hegemondan** gelmez, aralarında sadece sessel bir benzeşme vardır. Ancak esinlenme olduğu doğrudur (23, s. 153), **-men** eki Türkiye Türkçesinde hayli işlektir. Türkiye ve Azerbaycan Türkçelerinde **azman, ketmen, kocaman, kösemen, orman, Türkmen** sözleri vardır.

9. Faruk Kadri Timurtaş "Türkçede yapan, eden manası ifade eden **-man, -men** ekinin mevcut olmadığını; Almanca, İngilizcede görüldüğünü, Farsça **mend** ekinin bu manada olduğunu, Farsça **danişmendin** Yunus'ta **danışman** olduğunu, şişman, kocaman gibi pek az sayıdaki kelimelerde görülen **-man** ekinin etimolojik izahının yapılamadığını, **egemen** kelimesindeki ekin yanlış olduğunu, kökü olan **egenin** ne olduğunun belli olmadığını, Eski Anadolu Türkçesinde **eye** sözünün olduğunu, Doğu Türkçesinde **y-g** değişikliği olabileceğini, netice olarak **egemenin** Fransızca **hegemondan** bozma olduğunu" yazar (24, s. 32).

Fakat bu görüşler doğru değildir.

10. Bu kısımları yazdıktan sonra Kazakçada **teuelik jalğauı** "iyelik eki" terimini görünce daha önce düşündüğümüz "yuvanın aslı ***de+** veya ***di+'dir"** yargımızın doğru olduğunu gördük. Kazakçada **teuelsizdik ~ teğelsizdik** "sahipsiz, bağımsız" demektir. Krş. Orhun kitabelerindeki **idisiz** "sahipsiz" ile.

11. Görüldüğü gibi Kazakçadaki ilk ünlü **e'dir**. Belki aslında da böyle idi. Neticede İgenin baş sesi d'dir. Ünlü e veya i'dir. Özbekçe Yege, Kazakça **teuelsizdik ~ teğelsizdik** sözleri e ünlüsüyledir. Başa kayıp d sesini koyarsak ve i ünlüsünün kapalı e olduğunu düşünürsek, *de-g kökünü elde ederiz.

III. Çelebi sözü

1. *de-l veya ***di-l** kökünden, başta **d > t > ç** evrimini takip eden **çelebi** "sahip, malik, efendi"dir. Bu kelimeye 1141'de, yani Malazgirt zaferinden sadece 70 yıl sonra Anadoluda raslıyoruz. Bu tarihte Selçuklu sultanı Mesuda sığınan, Müslüman olan ve sultan Mesudun kızıyla evlenen Doğu Romalı pirens İsaakios Komnenos'a Türkler tarafından **çelebi** unvanı verilmişti (25, s. 106).

2. Çelebinin kalın varyantı **Çalap** 1141'den takriben 150 sene sonra "Tanrı, Allah" anlamında Yunus Emrede (1240 -1326) geçer.

3. Wilhelm Barthold, Türkistanda Temür devrine ait bir Kur'an tefsirinde **çelebi** "efendi, sahip" kelimesinin mevcut olduğunu önemle vurgular (26, s. 71).

4. Evliya Çelebi Kırım Türkçesinde **Çalabın** "Tanrı" anlamında olduğunu kayda almıştır (27, s. 18).

IV. Tengri > Tanrı sözü

1. *de-ng veya ***di-ng** kökünden gelen **Tengri** "Tanrı" anlamında MÖ 209'da Çinlilerce kayda geçirilmiştir. GökTürkçede **Tengri** "Tanrı, gök"tür. Kelimenin bir anlamı da "sahip, malik, effendi"dir.

2. Tengrinin "sahip, efendi, malik" manasını, Kaşgarinin "Bunlar [Müslüman Türkler kastedilmektedir] bilge bir adama da **tengrikēn** derler" ve "**tengrikēn** : Âlim, dindar bir adam (Müslüman olmayan Türklerin [kâfirlerin] lehçelerinde) izahlarında görüyoruz (28, s. 551).

3. Bilahare Tanrı gökte düşünüldüğü için (günümüzde de öyledir) **Tengri** aynı zamanda gök anlamına da gelmiştir. Kök Tengri ise "gökteki Tanrı" demektir. Kök sıfatı göğün renginden dolayı "mavi" anlamına da gelmiştir.

4. Talat Tekin'in, **Tanrı** kelimesinin "**tägir-** "döndürmek, kuşatmak, çevirmek" fiilinin daha eski muhtemel bir şekli olan ***täñir-** fiilinden **-i** ekiyle türemiş olabileceği fikri (29, s. 10), doğru değildir. Tekin, **tägrä** "çepeçevre", **tägirmen "**değirmen" sözlerinin de bu fiilden türediği kanaatindedir.

5. Tengri İran Azerbaycanı Türkçesinde **Tarı** şekline inkılap etmiştir. Şehriyarın *Ezize* ve *Behcetabad Hatireleri* şiirlerinde böyle geçer. Tanrı, Tebrize yakın Nahçıvanda birleşik özel isimlerde daha da kısalarak **Tarverdi, Tarkulu** şekillerine girmiştir (30, s. 24). Tengri >> Tanrı çağdaş Çuvaş Türkçesinde **Turı** şeklindedir. Çuvaşçada ilk hece a'ları kurallı olarak u olmuştur.

Böylece Türkçede "Tanrı, Allah, sahip, efendi malik" anlamlarına gelen 4 sözün tarihî gelişimlerini göstermiş olduk.

ƏDƏBİYYAT

1. Talat Tekin. Orhon Yazıtları. İstanbul: Yıldız y., 2003, 340 s.
2. Ahmet Caferoğlu. Eski Uygur Türkçesi Sözlüğü. 3. B., İstanbul: Enderun k., 1993, 278 s.
3. Reşit Rahmeti Arat. Makaleler 1 ("Iduk kut unvanı hakkında"). Haz. O.F. Sertkaya, Ankara: TKAE y., 1987, 760 s.
4. Reşit Rahmeti Arat. Kutadgu Bilig III – İndeks. Haz. Kemal Eraslan, Osman F.Sertkaya, Nuri Yüce, İstanbul :TKAE y.,1979, 406 s.
5. Ahmed-i Yesevi. Divan-i Hikmet'ten Seçmeler. Haz. Kemal Eraslan, Ankara: KTB y., 1983,448 s.
6. Şeyh Süleyman Efendi. Lügat-i Çağatayi ve Türki-yi Osmani. İstanbul, 1298 [1880-81], 520 s.
7. Semih Tezcan. Tanıtmalar. TDAYB 1978-1979, s. 120-122
8. Sir Gerard Clauson. An Etymological Dictionary of Pre-Thirteenth-Century Turkish. Oxford, 1972, 996 s.
9. Yunus Emre Divanı. Haz. F.K.Timurtaş, 1001 Temel Eser, İstanbul: Tercüman 1972, 560 s.
10. Cem Dilçin. Yeni Tarama Sözlüğü. Ankara: TDK, 1983, 1060 s.
11. Talat Tekin. Türkoloji Eleştirileri. İstanbul:Simurg y., 1997, 323 s.
12. Enis Turan. Ege, egemen, egemenlik ile Yunanca 'hegomenya' üzerine. Yom, Bahar 2009, 14, sayı, s. 47-49 s.
13. Yusuf Gedikli. Bulgar Türkçesinden Anadolu'ya kazınan üç kelime: Cağ, kugar, harani. Türk Dünyası Araştırmaları, Mart-Nisan 2004, 149, sayı, s. 72-76.
14. Sapar Kürenov. Kafkasya Oğuzları veya Türkmenleri. İstanbul: Ötüken y., 1995, 370 s. .
15. Ahmet Taşağıl. GökTürkler III, Ankara:TTK, 2004, 55 s. vd.
16. M. Talat Tekin. Tanıtmalar - E.V.Sevortyan, Etimologiçeskiy slovar tyurkskih yazıkov. Moskva, 1974, TDAYB 1975-1976, 283 s.
17. Osman Turan. Çingiz adı hakkında. Belleten, Temmuz 1941, V. c., 19 sayı, s. 267-270.
18. Divanü Lügatit Türk Dizini. TDK,Ankara:1972,994 s.
19. Abdullah Battal Taymas. İbni Mühenna Lügati. 2. b., TDK, Ankara: 1988, 264 s.
20. Emir Necipoviç Necip. Yeni Uygur Türkçesi sözlüğü. çev. İklil Kurban, TDK y., Ankara: 1995, 602 s.
21. T.J.Januzakov, K.S.Esbayeva. Kazak Türklerinde Kişi Adları. akt. Nurettin Aksu, TDK y., Ankara: 2003, 204 s.
22. Kenan Koç, Ayabek Bayniyazov, Vehbi Başkapan, Kazakşa Türikşe Sözdik (Kazak Türkçesi - Türkiye Türkçesi Sözlüğü). Ankara: Akçağ y., 2003, 590 s.

23. Sevan Nişanyan. Sözlerin Soyağacı. 4 b., İstanbul: Everest y., 2009, 406 s.
24. Faruk Kadri Timurtaş. Uydurma Olan ve Olmayan Yeni Kelimeler Sözlüğü. İstanbul: Umur k., 1979, 306 s.
25. Bilge Umar. Türkiye Halkının Ortaçağ Tarihi. İstanbul,1998, 490 s.
26. V.V.Barthold. Orta Asya'da İslamiyetin intişar ettiği zamana ait bir abide. Türkiyat Mecmuası, 1928, 2 cilt, s. 71 (Almancadan çeviren Köprülüzade Ahmed Cemal).
27. Erdoğan Aslıyüce. Ukrayna toprağında kadim Türk yurdu Kırım. Yesevi, Mayıs 2001, 89. sayı, s. 18-19.
28. Mahmûd el-Kâşgarî. Dîvânü Lügâti't Türk. Robert Dankoff, James Kelly yayınından çevirenler Seçkin Erdi ,Serap Tuğba Yurteser, 2 b., İstanbul: Kabalcı y., 2007, 706 s.
29. Talat Tekin. Hunların Dili. Ankara: Doruk y., 1993, 280 s.
30. Memmed Cefer Ceferov. Hatireler. Haz. İsa Hebibbeyli, Bakü, 2010, 260 s.

Yusuf Gədikli

TÜRKCƏDƏ "TANRI, ALLAH" ADLARININ TÖRƏDİYİ *de+ ~ *di+ YUVASI

Məqalədə Türkcədə *de+ ve ya *di+ yuvasından törəyən "Tanrı, Allah; sahib, malik, əfəndi" anlamındakı kəlmələr bir araya getirilmiş və bunların tarixi-fonetik dəyişmələri incələnmişdir. Bu kəlmələrin bir araya gətirilməsi, özəlliklə İdi ilə İge sözlərinin fərqli kəlmələr olduğunun ortaya qoyulması və Çələbi sözü haqqında açıqlanan fikirlər, məqalənin yeniliklerini təşkil etməkdədir.

Yusuf Gedikli

THE *de+ ~ *di+ SLOT THAT TURKISH WORDS WHICH GIVES "GOD, ALLAH" MEANINGS DERIVED FROM

In this article, I put together some Turkish words derived from ***-de** or ***di** word-mine that gives the meanings of God, Owner, Master, Effendi and Sahib" and inquired their historical-phonetic variations. Apart from bringing together of these words, the conclusion that the words of **idi** and **ige** had different roots from each other and the opinions on the word of Çelebi are new remarks in this paper.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

FOLKLOR VƏ ƏDƏBİYYAT

İSA HƏBİBBƏYLİ
Naxçıvan Dövlət Universiteti
E-mail: rektor-ndu@edu.az

AKADEMİK MƏMMƏD CƏFƏR CƏFƏROVUN HƏYATI VƏ ELMİ-ƏDƏBİ FƏALİYYƏTİ

Azərbaycan elminin inkişafında böyük xidmətləri olan Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, akademik Məmməd Cəfər Cəfərov geniş və çoxcəhətli elmi fəaliyyətə malik görkəmli elm xadimidir. Akademik Məmməd Cəfər Cəfərov Azərbaycan ədəbiyyatşünaslıq elminin formalaşması və inkişafı sahəsində mühüm xidmətlər göstərmiş, ədəbiyyat nəzəriyyəsi elmi məktəbini yaratmışdır.

Məmməd Cəfər Zeynalabdın oğlu Cəfərov 9 may 1909-cu ildə Naxçıvan şəhərində zəhmətkeş bir ailədə anadan olmuşdur. Atası Zeynalabdın kişi şəhərdə yaxşı dərzi kimi tanınmış, övladlarını halal zəhmətlə böyütmüşdür. Məmməd Cəfər Cəfərov kiçik yaşlarında ikən, 1919-cu ildə bir ayın içində hər iki valideynini itirmiş, dərzi şagirdi, çörəkçi yanında kündəgir kimi ağır zəhmət tələb edən sahələrdə çalışmalı olmuşdur. Sonralar qələmə aldığı xatirələrində kündəgirliklə əlaqədar yazdığı aşağıdakı qeydlər 12 yaşlı uşağın o zamankı çətin həyat tərzini təsəvvür etməyə imkan verir: "Dükanın əmələləri dörd nəfərdən ibarət idi: xəmirgir, kündəgir, lavaş açan və şatır (yapan)... Kündəgirin vəzifəsi hava təzəcə işıqlananda gəlib hazır xəmirin kündələrini salmaq, sonra da bu işi axşama qədər davam etdirmək idi. ...Paltarlı və ayaqqabılı işləmək mümkün deyildi. Çünki bütün günü aramsız tərləyirdik. Elə bil bizi suya salıb çıxarırdılar... Kündəgir iki ovcunda xəmiri elə ustalıqla götürməli idi ki, kündələrin hamısı bir boyda, bir çəkidə olsun, bir qram o yan-bu yan olmasın. Əgər kündə iki yüz qramdan artıq olsa idi sahibkara zərər idi, əskik olsaydı alıcıya xəyanət idi. Kündəgirin kündə salmaqdan başqa vəzəfələri də vardı. Bunlardan biri təndirin yanında saman qurtardıqca təlislə saman gətirmək idi... İkinci vəzifə sahibkarın, dəxildarın, şatırın, lavaş açan və xəmirgirin evinə ət-çörək aparmaq idi. Üçüncü vəzifə ət, noxud alıb nahara piti bişirmək idi... Diqqət etmək lazım idi ki, piti

yanmasın və əmələlər (işçilər – İ.H.) naharsız qalmasınlar. Dördüncü vəzifə iş başlamazdan və işdən sonra dükanı silib-süpürmək idi. Bu vəzifələri də yerinə yetirmək üçün gündəgir iş sürətini artırıb o qədər kündə salıb hazır qoymalı idi ki, bu əlavə işləri görəndə lavaş açan məəttəl qalmasın.

...Biz əmələlər günəmuzd işləyirdik. Hamıdan az muzd alan mən idim. Bununla belə, mənim gündəlik muzdum ailəmiz üçün ət-çörəyə və qənd-çaya çatırdı" (1, s. 136-139).

Naxçıvan dövrünün çətin və keşməkeşli hadisələri Məmməd Cəfər Cəfərovun birinci həyat məktəbi olmuşdur. Bu mühitdə müşahidə etdiyi süd anası "hafizəsi tükənməz xəzinə olan", nağılları bir neçə gün davam edən "ilk bədii söz müəllimi" adlandırdığı qonşuları Zəhra xala, Məhəmməd Tağı Sidqinin qəzəllərini muğamat üstündə oxuyan, sonra xanəndəlikdən əzançılığa keçən Kərbalayı Baxşəli, "gündəlik qazancının yarısını qəzet-jurnala verən, elanlara qədər oxuyan" dəxildar – çörəksatan Bağır əmi Bektaşi onun yaddaşında dərin izlər buraxmışdır. Hətta gələcək böyük ədəbiyyatçı sonralar bu mühitdən tanıdığı "hər səhər bir əlində dəmir çəlik, birində xırda çölmək evdən çıxıb bazara gələn" və pitisi bişənə qədər ətrafındakılara Şərq ədəbiyyatından "farsca qəzəllər oxuyub tərcümə və təfsir edən" kor Adıgözəlin, XX əsrin əvvəlləri Azərbaycan və türk şairlərinin şeirlərini "coşqun bir ilhamla oxuyub şərh etməkdən, mənalandırmaqdan özü də xüsusi zövq alan" söhbətcil müştəri, börkçü Qulamhüseynin xidmətlərini "ədəbiyyat müəllimi" səviyyəsində dəyərləndirmişdir. Bütün bunların nəticəsində Məmməd Cəfər Cəfərov hələ texnikum tələbəsi olmamış "Hicran" adlı beş pərdəli dram, bir neçə şeir də yazmış, boş vaxtlarında cızmaqara ilə məşğul olmuş, "Kündəgir" imzası ilə ilk mətbu yazısı olan şeirini "İşçi-kəndli müxbiri" məcmuəsində çap etdirmişdir.

Əlyazmalarından öyrənirik ki, "Hicran" adlandırılan beş pərdəli bu əsərdə "iki məsumənin qəmli taleyi" öz əksini tapmışdır. Daha konkret desək, cavan qələm sahibi real həyatda görüb tanıdığı Səltənətin timsalında azyaşlı, "göyərçin kimi məsum və müdafiəsiz bir qızı özünə arvad edib, sonra da özü kimi dilsiz bir körpəsilə qanadlarını yolub küçəyə atmaq, onu el arasında xar etmək" əhvalatlarının doğurduğu faciəli hallara etiraz əlaməti olaraq "Hicran" pyesini yazmağı özünə borc bilmişdi. Bundan başqa, onun "erməni-müsəlman qırğını əleyhinə çıxan xəyali qəhrəman Qüdrətin həyatından" bəhs edən iki pərdəli yarımçıq qalmış bir pyes yazması barədə də qeydləri vardır. Heç şübhəsiz, bütün bunlar Məmməd Cəfər Cəfərovun gənclik illərindəki özünü axtarış dövrünün əks-sədaları idi.

Gənc Məmməd Cəfər Cəfərov bu qədər ağır zəhmətin, böyük qayğıların girdabında olmasına baxmayaraq əvvəlcə Naxçıvan xeyriyyə məktəbində, şəhərdəki rus-tatar məktəbində, sonra savad kurslarında, daha sonra isə 1928-1931-ci illərdə Naxçıvan Pedaqoji Texnikumunda təhsil almışdır. Yeməyə və paltara ehtiyacı olanlardan ibarət Leyli qrupunda təmsil olunan tələbə yoldaşları ilə birlikdə texnikum müdiriyyəti tərəfindən verilmiş "brezent parçadan tikilmiş

bir sırıxlı soldat yarımpaltosu, bir köynək, qalifeyi şalvar, kepka, eyni parçadan dolaq və botinka" geyinən, tələbəlikdən çox "fəhlə batalyonunu" xatırladan tələbə mühitindəki səyləri, ilə o, biliklərə dərindən yiyələnməsi ilə fərqlənmişdir. Bundan başqa, tələbə Məmməd Cəfər məktəbdənkənar çalışmaları ilə qısa müddətdə çətin ailə vəziyyəti ilə əlaqədar əvvəllər yaranmış boşluğu aradan qaldırmışdır. Pedaqoji texnikumun yaddaqalan maarifçi mühiti, yüksək ziyalılıq nümunəsi göstərən müəllimləri və savad almaq yanğısı ilə səylə çalışan tələbə gəncliyi onun ideya-mənəvi təkamülündə ciddi rol oynamışdır. İstedadlı tələbə kimi Məmməd Cəfər Cəfərov təhsildə fərqləndiyi üçün texnikumu bitirməmiş pedaqoji şuranın qərarı ilə Azərbaycan Dövlət Ali Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsində oxumaq üçün göndəriş almaq hüququ qazanmışdı. İndiki Azərbaycan Dövlət Pedaqoji İnstitutunda keçən təhsil illəri (1931-1935), burada Bəkir Çobanzadə, Feyzulla Qasımzadə, Zeynal Tağızadə, Mikayıl Rəfili, Məmməd Arif Dadaşzadə, Əli Sultanlı, Hacıbaba Nəzərli, Hənəfi Zeynallı, Əli Nazim, Seyfulla Şamilov, Qubaydullin kimi bir çoxu az qala öz həmyaşıdları olan istedadlı müəllimlərdən aldığı dərslər onun ideya-mənəvi təkamülündə mühüm əhəmiyyət kəsb etmişdir. Pedaqoji İnstitutda Hacıbaba Nəzərlinin elmi rəhbərliyi ilə "Volterin yaradıcılığı" mövzusunda yazdığı elmi-tədqiqat işi cavan ədəbiyyatşünas Əli Nəzminin rəyi əsasında "əla" qiymətə layiq görülmüşdü. Məmməd Cəfər Cəfərov Azərbaycan Dövlət Pedaqoji İnstitutunun o illərdəki fəaliyyətini aşağıdakı kimi dəyərləndirmişdir: "APİ Azərbaycan maarifi, mədəniyyəti üçün ... mənim bəhs etdiyim illərdə müəyyən iş gördü. Nəinki müəllimlər hazırladı, ...elmi işçilər də yetişdirdi. Azərbaycan maarif və mədəniyyət işçilərinin, Azərbaycan yazıçılarının yeni nəsli burada tərbiyə olundu" (1, s. 208).

XX əsrin qırxıncı illərində "Ədəbiyyat qəzeti"nin baş redaktoru kimi məsul vəzifədə çalışması Məmməd Cəfər Cəfərovun həyatında və dünyagörüşünün inkişafında mühüm əhəmiyyətə malik olmuşdur. "Ədəbiyyat qəzeti"ndəki fəaliyyəti onun böyük elmə hazırlanmasında mühüm rol oynamışdır. O, özü də bu qəzetin tərcümeyi-halındakı rolunu yüksək qiymətləndirərək oxuduğu ali məktəbdən başqa, bir də "Ədəbiyyat qəzeti" məktəbini" bitirdiyini etiraf etmişdir.

Akademik Məmməd Cəfər Cəfərovun həyatının sonrakı böyük bir mərhələsi müəllimlik işinə həsr edilmişdir. O, ali məktəbi bitirdiyi 1935-ci ildən sonra 30 ildən artıq müxtəlif ali məktəblərdə pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Azərbaycan Dövlət Universitetində və Azərbaycan Dövlət Pedaqoji İnstitutunda filologiya fakültəsinin dekanı, Rus ədəbiyyatı kafedrasının müdiri, Quba Müəllimlər İnstitutunun elmi işlər üzrə direktor müavini vəzifələrində çalışdığı illərdə o, böyük ürəklə həyatını müəllim kadrlarının və yeni nəsl elmi qüvvələrin formalaşmasına və inkişafına həsr etmişdir. Məmməd Cəfər Cəfərovun Azərbaycan ali məktəblərində uzun illər ərzində Qərb ədəbiyyatından və rus ədəbiyyatından oxuduğu dərin məzmunlu mühazirələrin əks-sədası yeni dissertasiyaların, monoqrafiyaların və dərsliklərin meydana çıxmasına zəmin hazırlamışdır. Akademik Məmməd Cəfər Cəfərovun yazıb nəşr etdirdiyi üç cildlik "XIX əsr

rus ədəbiyyatı tarixi" dərin və sistemli araşdırmaların nəticəsində yaranmış ali məktəblər üçün nadir dərslikdir. Bu, rus ədəbiyyatının XIX əsr tarixinin dəyərli və sanballı bir salnaməsi olmaqdan çox həmin tarixi epoxanın monoqrafik tədqiqi və şərhindən yoğrulmuş əhəmiyyətli elmi əsərdir. Görkəmli alimin akademik Feyzulla Qasımzadə ilə birlikdə əsas müəllifi olduğu IX-X siniflər üçün "Ədəbiyyat" dərslikləri keçən əsrin 50-70-ci illərində orta məktəblərin müəllimləri və şagirdlərinin əsas ədəbiyyat kitabına çevrilmişdir. Onun 1967-ci ildə çapdan çıxmış "Estetik tərbiyə, ailə və məktəb" kitabı bu formatda təhsilin və yeni nəslin tərbiyəsi məsələlərinə həsr olunmuş yeganə əsərdir. Millilik, elmilik və müasirlik Məmməd Cəfər Cəfərovun təkcə elmi və bədii əsərlərinin deyil, müəllimlik fəaliyyətinin və maarifçi estetikadan söz açan əsərlərinin də ana xəttini təşkil edir.

Çoxcəhətli fəaliyyət sahələri ilə məşğul olmasına baxmayaraq Məmməd Cəfər Cəfərovun həyatında, taleyində, məşğuliyyətində elm həmişə ön mövqedə dayanmış, üstünlük qazanmışdır. Görkəmli elm xadimi hələ Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tələbəsi və aspirantı ikən elmə ciddi münasibəti ilə seçilmiş, elmi mühitə yeni nəfəs gətirən gənc mütəxəssis kimi diqqəti cəlb etmişdi. Məmməd Cəfər Cəfərovun 1944-cü ildə "Mirzə Fətəli Axundovun ədəbi-tənqidi görüşləri" mövzusunda böyük uğurla müdafiə etdiyi namizədlik dissertasiyası Azərbaycan ədəbiyyatşünaslıq elminin tarixində tənqid tarixinə həsr olunmuş ilk sanballı elmi əsər kimi mühüm əhəmiyyət kəsb edir. Bu qiymətli elmi əsərdə Mirzə Fətəli Axundovun sənətdə bədiilik və müasirlik, tipiklik və xəlqilik, məzmun və formanın vəhdəti, dil və üslub məsələləri haqqındakı təlimi elmi sistem şəklində müəyyən edilmiş, əsaslı surətdə şərh olunmuşdur. Ədəbi-ictimai mühitdə əsasən "Azərbaycan dramaturgiyasının atası" kimi daha çox tanınıb şöhrət qazanmış Mirzə Fətəli Axundov məhz Məmməd Cəfər Cəfərovun ciddi elmi araşdırmalarından sonra həm də nəinki Azərbaycanın, geniş miqyasda "Şərqin ilk ədəbiyyat tənqidçisi" səviyyəsində təqdim edilmişdir: "Mirzə Fətəli Axundovun zəngin siyasi-fəlsəfi və ədəbi irsinin əhəmiyyətli bir hissəsini də onun ədəbi-tənqidi məqalələri təşkil edir. O, nəinki Yaxın Şərqin ilk böyük dramaturqu, ilk şərqşünası, eyni zamanda, Şərqin ilk ədəbiyyat tənqidçisi olmuşdur. Yaxın Şərqdə elmi-ədəbi tənqidin də müasir mənada əsasını qoyan Mirzə Fətəli Axundovdur" (2, s. 143).

Bundan başqa, Məmməd Cəfər Cəfərov tənqid tarixi istiqamətində yazılmış əksər elmi əsərlərdən fərqli olaraq, məsələyə daha çox ədəbiyyat nəzəriyyəsi istiqamətində yanaşmaqla bu tipli tədqiqatların orijinal modelini yaratmışdır. Ona görə də "M.F.Axundovun ədəbi-tənqidi göstərişləri" əsəri Məmməd Cəfər Cəfərovu ciddi bir ədəbiyyat tənqidçisi olmaqla yanaşı, həm də professional ədəbiyyat nəzəriyyəçisi olduğunu isbatlamışdır. Həmçinin bu əsərdə sənətkar Axundovla filosof-tənqidçi Axundovun möhkəm vəhdət təşkil etməsi məsələsi də elmi şəkildə əsaslandırılmışdır. Bunun ardınca, 1962-ci ildə tamamlanmış Mirzə Fətəli Axundzadəyə həsr edilmiş "Mütəfəkkirin şəxsiyyəti" əsəri

Azərbaycanda ədəbi şəxsiyyətin elmi-fəlsəfi dərkinə həsr olunmuş birinci tədqiqatdır. Mirzə Fətəlinin sənətinə və şəxsiyyətinə həsr olunan və hər ikisi də orijinal olan bu əsərlərlə cavan müəllif görkəmli Axundovşünas alim olduğunu da təsdiqləmişdir. "Mütəfəkkirin şəxsiyyəti" əsəri ilə ədəbiyyatşünaslıqda ilk dəfə olaraq şəxsiyyətin də elmin predmeti olması ənənəsinin əsası qoyulmuşdur. Bütün bunların nəticəsində Məmməd Cəfər Cəfərov elmi-ədəbi mühitdə cavan yaşlarından etibarən "filosof-tənqidçi", "Azərbaycan ədəbiyyatşünaslığının Belinskisi" kimi hamı tərəfindən etiraf olunan fərqli və uca rütbələr qazanmışdır. Əslində "Mirzə Fətəli yaradıcılığı bizim ondan sonrakı ədəbiyyatımızın manifestidir" deyən Məmməd Cəfər Cəfərov özü də Azərbaycan ədəbiyyatşünaslıq elminin manifestini yaratmışdır.

Akademik Məmməd Cəfər Cəfərovun "Hüseyn Cavid və Azərbaycan ədəbiyyatında romantizm" mövzusunda müdafiə etdiyi doktorluq dissertasiyası (1962) da monumental tədqiqat əsəridir. Ümumiyyətlə, "Azərbaycan ədəbiyyatında romantizm" monoqrafiyası ölkəmizdə romantizm estetikasının elmi-nəzəri prinsiplərinə həsr olunmuş ən sanballı elmi əsərdir. Bu möhtəşəm elmi əsərdə milli romantizmin estetikası ilə poetikası vəhdətdə öyrənilib ümumiləşdirilmişdir. Azərbaycan romantizminin tipologiyası və tarixi müqəddəratı məsələsi həmin əsərdə özünün dərin nəzəri həllini tapmışdır. "Azərbaycan ədəbiyyatında romantizm" monoqrafiyası ilə Məmməd Cəfər Cəfərov görkəmli bir ədəbiyyat nəzəriyyəçisi olduğunu qabarıq şəkildə nəzərə çarpdırmışdır. İndinin özündə "Azərbaycan ədəbiyyatında romantizm" monoqrafiyası Avropa dillərinə tərcümə edilib nəşr olunsa, Qərbdə Azərbaycan ədəbiyyatşünaslıq elminə böyük şöhrət qazandıra bilər.

Görkəmli alimin "Klassik romantizm ənənələrinə münasibətimiz", "Həyatda və ədəbiyyatda romantika", "Cavid yaradıcılığının sənətkarlıq xüsusiyyətləri", Məhəmməd Hadidən bəhs edən "Səni kim unudar" və sair əsərlərində Azərbaycan romantizminin yüksək bədii-estetik prinsipləri tədqiq edilib ümumiləşdirilmişdir. Bütün bunlara görə haqlı olaraq deyildiyi kimi, akademik Məmməd Cəfər Cəfərov "Azərbaycan romantizmşünaslığının banisidir. Azərbaycan romantizmşünaslıq elmi məktəbi akademik Məmməd Cəfər Cəfərov tərəfindən yaradılmışdır" (3, s. 13).

Fikrimizcə, Məmməd Cəfər Cəfərovun "Hüseyn Cavid" monoqrafiyası (1960) Azərbaycan romantizm ədəbiyyatının tarixi aspektdə təsdiqindən ibarətdir.

Həyatının müxtəlif dövrlərində meydana çıxmış "Yeni həyat, yeni insan, yeni sənət", "İki qurultay arasında Azərbaycan uşaq ədəbiyyatı", "Azərbaycan ədəbi-bədii dilinin bəzi məsələləri haqqında", "Dil və müasirlik", "Məmməd Arif və onun sovet ədəbiyyatı haqqında nəzəri fikirləri", "Dastanşünaslıq" və şair kimi proqram xarakterli əsərləri Azərbaycanda ədəbiyyat nəzəriyyəçiliyini dərslik mərhələsindən elmi-nəzəri fikir səviyyəsinə qaldırmışdır. Məmməd Cəfər Cəfərov Azərbaycan ədəbiyyat nəzəriyyəsi elmi məktəbinin yaradıcısıdır. Böyük elm xadimi Azərbaycan ədəbiyyatının klassiklərindən və müasirləri olan

sənətkarların yaradıcılığından bəhs edərkən tərcümeyi-haldan, keçilmiş yoldan deyil, yazıçı və şairlərin sənətinin özünəməxsusluqlarından, poetikasından söz açmağa üstünlük vermişdir. Nizami humanizminin sənətdə bədii ifadəsi, Füzuli şeirinin poetikası, Mirzə Cəlilin realizmi, Cavidin fəlsəfəsi, Səməd Vurğun sənətinin xəlqiliyi haqqında sanballı elmi-nəzəri fikirlərin müəllifi olan Məmməd Cəfər Cəfərov hansı dövrdə yaşamasından və hansı ədəbi cərəyanı təmsil etməsindən asılı olmayaraq sənətkarı epoxası, mühiti, dünyagörüşü, sənətinin mahiyyəti ilə birlikdə təqdim etməyi bacarmışdır. Mirzə Fətəli Axundov, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Nəriman Nərimanov, Mirzə İbrahimov, Mir Cəlal, İlyas Əfəndiyev və başqaları kimi realist sənətkarlara həsr olunmuş əsərləri ilə o, Azərbaycan realizminin də sanballı tədqiqatçısı, nəzəriyyəçisi olduğunu nümayiş etdirmişdir. Bu əsərlərdə sanki milli realist ədəbiyyatın nəbzinin döyündüyü mühitdə olunur. Beləliklə, vaxtilə ədəbiyyatşünaslıq elmində dəqiq müşahidə olunduğu kimi, Məmməd Cəfər Cəfərov həm realist, həm də romantik yazıçılar haqqında həm realist, həm də romantik ruhda əsərlər yazmışdır. ...Maraqlıdır ki, müəllifin qələmində söhbət romantik sənətkardan və əsərdən gedəndə romantik üslub, yaxud, əksinə, realist yazıçıdan və əsərdən gedəndə isə realist üslub daha qabarıq görünür" (4, s. 229-230).

Böyük elm xadimi AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda 1962-1980-ci illərdə uzun müddət ərzində Ədəbiyyat nəzəriyyəsi şöbəsinə rəhbərlik etdiyi dövrlərdə ədəbiyyat nəzəriyyəçilərinin böyük bir nəslinin yetişib formalaşmasında həlledici addımlar atmışdır. Son yarım əsrin ədəbiyyat nəzəriyyəçilərinin formalaşması və inkişafı daha çox akademik Məmməd Cəfər Cəfərov məktəbi zəminində baş vermişdir.

Müşahidələr göstərir ki, Məmməd Cəfər Cəfərov ədəbiyyat tarixindən, ədəbi tənqiddən, hətta folklordan, ədəbi əlaqələrdən bəhs edəndə də məsələyə ədəbiyyat nəzəriyyəçisi kimi yanaşmışdır. Ədəbi şəxsiyyətin, bədii yaradıcılığın, problemin nəzəri şəkildə dərki və həlli Məmməd Cəfər Cəfərovun elmi fəaliyyətinin özünəməxsus modelini müəyyən edir. Azərbaycan ədəbiyyatşünaslığında Məmməd Cəfər Cəfərov konsepsiyasının mahiyyəti elmi yanaşmada ədəbiyyat nəzəriyyəçiliyinin ağırlığında məna tapır. Bu mənada "Nizami yaradıcılığında humanizm" monoqrafiyası, məşhur "Füzuli sevir" silsiləsi, "Cabbarlının romantikası", xalq şairi Səməd Vurğuna həsr olunmuş məqalələr ədəbiyyat tarixçiliyi ilə nəzəriyyəçiliyin üzvi vəhdətindən yoğrulmuşdur. Buna görədir ki, "Nizami yaradıcılığında humanizm" əsəri Nizamişünaslıqda, Füzuli silsilə məqalələri Füzulişünaslıqda, "Ünvansız məktub" Vurğunşünaslıqda mühüm elmi hadisədir. Əlyazmalarından görünür ki, Məmməd Cəfər Cəfərov müasiri olan sənətkarlar arasında xalq şairi Səməd Vurğunun yaradıcılığına xüsusi münasibət bəsləmişdir. Görkəmli alim etiraf edirdi ki, "O illərdə şairlərdən ən populyarı olan Səməd Vurğunun əsərləri məni çox cəlb edirdi. Onun çap olunmamış ilk şeirlərini yaşlı müəllimlərdən öyrənib yazmışdım... Səhv etmirəmsə, 1938-ci ilin əvvəllərində gözlənilmədən Səməd Vurğun haqqında həqiqətə uyğun ol-

mayan və guya Səmədin varlığa idrak üslubunda səhvlərin olduğu haqqında bir məqalə nəşr edildi. Bu məqalə məni əməlli-başlı qəzəbləndirdi. Məqaləyə cavab kimi "Səməd Vurğun yaradıcılığında xəlqilik" sərlövhəli bir məqalə yazıb "Ədəbiyyat qəzeti redaksiyasına yolladım... Qarşıdakı illərdə də Səmədə yersiz hücumlar edildiyini, onun çoban-çoluq şairi adlandırıldığını mən bilirdim... Məqaləm çap olundu. Oxucu və yazıçılardan eşitdiyim söz bu oldu ki, Səməd Vurğun yaradıcılığında xəlqilik düzgün izah edilmişdir" (2, s. 284).

Məmməd Cəfər Cəfərovun "Hüseyn Cavid" monoqrafiyası ədəbiyyat tarixçiliyi baxımından əhəmiyyətli əsərlərdəndir. Və XX əsrin əllinci illərinin axırlarında yazılmasına baxmayaraq indi də bu əsər görkəmli romantik sənətkar haqqında əsas elmi istinad mənbəsi hesab edilir. Monoqrafiyada Hüseyn Cavidin ömür yolu, əsərlərinin yazılması, nəşri və tamaşaya qoyulması kimi məsələlər ədəbiyyat tarixçiliyi, bədii irsinin mahiyyəti isə ədəbiyyat nəzəriyyəçiliyi baxımından şərh olunmuşdur. Eyni zamanda, Cəlil Məmmədquluzadə barəsində bir neçə dildə çap edilmiş elmi əsəri hazırda da mirzəcəlilşünaslığın şah əsərlərindən biri kimi qəbul olunur. Böyük Mirzə Cəlildən bəhs edən bu sanballı əsər, həm də Azərbaycan tənqidi realizminə həsr olunmuş qiymətli mənbədir. Bu qəbildən olan əsərləri Məmməd Cəfər Cəfərovun bir daha romantizmlə enyi səviyyədə Azərbaycan realizminin də görkəmli tədqiqatçısı olduğunu nümayiş etdirir.

Ədəbiyyatın tədqiqi və təhlili baxımından Məmməd Cəfər Cəfərov üçün dövr, seçilmiş mərhələ, zaman, sənətkar məhdudiyyəti yoxdur. Hansı tarixi dövrün yazıçılarından və ədəbiyyatından bəhs etməsindən, hansı ədəbi-nəzəri problemdən söz açmasından asılı olmayaraq bütün məqamlarda o, təhlillərində və dəyərləndirilməsində tam professionaldır. Görkəmli alimin əsərləri elmdə yüksək professionallığa örnəkdir. Məmməd Cəfər Cəfərovun çoxillik və çoxcəhətli elmi fəaliyyəti akademik elmin ciddiliyinə və ucalığına klassik nümunədir. Akademik elmi rütbəsinin əsl ucalığı da Məmməd Cəfər Cəfərovun bütöv şəxsiyyətinin, qiymətli əsərlərinin, elmdəki xidmətlərinin işığında aydın və cəlbedici görünür.

Bədii yaradıcılığı etibarilə də Məmməd Cəfər müəllim fərqli və bənzərsizdir. "Əntiqə adamlar" kitabında toplanan nümunələr göstərir ki, əgər o, bədii yaradıcılıqla ardıcıl məşğul olsaydı, ölkəmizin sayılıb-seçilən yazıçılarından biri ola bilərdi. Alimin arxivindən əldə edib nəşr etdirdiyimiz "Xatirələr" memuarında bədiiliyin qabarıq şəkildə diqqəti cəlb etməsi müəlifin bu sahədəki böyük potensialını nümayiş etdirir. Məmməd Cəfər Cəfərovun ömrünün sonlarında görkəmli Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin dövrü, mühiti və müasirləri haqqında "İnsanlar və talelər" adlı iri həcmli kinopyes yazıb tamamlaması onun bədii istedadının əhəmiyyətli dərəcədə yüksək göstəricisidir (5). Nəhayət, həyatının böyük bir mərhələsini həsr etdiyi akademiya həyatından bəhs edən xüsusi bir dram əsəri yazması Məmməd Cəfər müəllimin bədii yaradıcılığa sədaqətini, ardıcıl münasibətini təsəvvür etməyə imkan verir.

Akademik Məmməd Cəfər Cəfərovun şəxsiyyəti ilə elmi fəaliyyəti biri digərini üzvi surətdə tamamlayır. Məmməd Cəfər Cəfərovun şəxsiyyəti də üslubu kimi sadə və dərindir. Müdriklik, kamillik, sadəlik, bütövlük onun əsərlərində olduğu qədər də, hətta bir az da artıq şəxsiyyətində ifadə olunurdu. Ayrı-ayrı vaxtlarda "Ədəbiyyat qəzeti"nin Baş redaktoru, fakültə dekanı, kafedra müdiri, Ədəbiyyat İnstitutunun direktoru, Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat, Dil və İncəsənət bölməsinin akademik katibi kimi məsul və mötəbər vəzifələrində çalışanda da o, daim müdriklik və sadəliyini, şəxsiyyətin aliliyini və bütövlüyünü qoruyub saxlamışdır. Fikrimizcə, Əməkdar elm xadimi fəxri adı, Dövlət mükafatı laureatılığı da görkəmli alimin yüksək elmi xidmətləri ilə yanaşı, həm də təmiz adına və uca şəxsiyyətinə verilmiş qiymətlərin ifadəsidir.

Görkəmli elm xadimi Məmməd Cəfər Cəfərov 9 may 1992-ci ildə Bakıda vəfat etmiş, Fəxri xiyabanda torpağa tapşırılmışdır. Seçilmiş əsərləri latın qrafikası ilə nəşr edilmiş, vaxtilə yaşadığı binaya xatirə lövhəsi vurulmuşdur. Anadan olmasının 100 illiyi respublika elmi ictimaiyyətinin geniş iştirakı ilə Azərbaycan Milli Elmlər Akademiyasında və Naxçıvan Dövlət Universitetində qeyd olunmuşdur.

Akademik Məmməd Cəfər Cəfərov zəngin mənəviyyata malik mütəfəkkir şəxsiyyət idi. Onun parlaq və bütöv şəxsiyyəti əsl böyük alimin ucalığının timsalı idi. Bütövlükdə Məmməd Cəfər Cəfərovun elmi də, şəxsiyyəti də həyatda və elmdə ucalığın fəlsəfəsini tam mənası ilə ifadə edir. Alimin mənalı ömür yolu və zəngin elmi irsi yeni nəsillər üçün ibrətamiz məktəbdir.

ƏDƏBİYYAT

1. Cəfərov M.C. Xatirələr (tərtib edəni və ön sözün müəllifi İ.Həbibbəyli). Bakı: Çaşıoğlu, 2010, 316 s.
2. Cəfərov M.C. Seçilmiş əsərləri. I c., Bakı: Azərnəşr, 1973.
3. Akademik Məmməd Cəfər Cəfərov: taleyi və sənəti (tərtib edəni İ.Həbibbəyli). Bakı: Elm və təhsil, 2009.
4. Qarayev Y. Ədəbi üfüqlər. Bakı: Gənclik, 1985.
5. Cəfərov M.C. İnsanlar və talelər (çapa hazırlayan İ.Həbibbəyli) Naxçıvan: Əcəmi, 2009.

Иса Габиббейли

ЖИЗНЬ И НАУЧНО-ЛИТЕРАТУРНОЕ ТВОРЧЕСТВО АКАДЕМИКА МАМЕД ДЖАФАРА ДЖАФАРОВА

В статье рассматривается жизнь и научно-литературное творчество выдающегося научного деятеля академика Мамеда Джафара Джафарова (1909-1992).

Isa Habibbayli

LIFE AND SCIENTIFIC-LITERARY ACTIVITY OF MAMMAD JAFAR JAFAROV, ACADEMICIAN

The article deals with the life and scientific-literary activity of the remarkable scientist, academician Mammad Jafar Jafarov (1909-1992).

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

FƏRQANƏ KAZIMOVA
AMEA Naxçıvan Bölməsi
E-mail: fergana_k@yahoo.com

TÜRKİYƏ-AZƏRBAYCAN ƏDƏBİ-MƏDƏNİ ƏLAQƏLƏRİNİN İNKİŞAFINDA PROFESSOR ABBAS ZAMANOVUN ROLU

(Professor Abbas Zamanovun anadan olmasının 100 illiyi münasibətilə)

(Akademik İ.Ə.Həbibbəyli tərəfindən təqdim edilmişdir)

Eyni soykökə malik olan, bir millət, iki dövlət olan Azərbaycan və Türkiyə dövlətləri ortaq tarixə, mədəniyyətə malikdir. Türkün milli əxlaqi-qəhrəmanlıq dastanları, Orxon-Yenisey abidələri, Dədə Qorqudu, Koroğlusu, görkəmli söz xiridarları coğrafi sərhəd tanımır. "Türk milləti dediyimiz nəhayətsiz varlığın vətən ərazisindəki hər daşın, hər abidənin, hər pirin, hər ağacın, hər sənət əsərinin, hər şəhidliyin bağlılığı vardır" (1, s. 135).

Eyni uzun ortaq keçmişə sahib olan bu dövlətlərin, təbii ki, ortaq da ədəbiyyatları, adət və ənənələri milli şüur və millətçilik əsasında zaman-zaman təkmilləşərək inkişaf etmişdir. Sərhədləşdirilməsinə baxmayaraq iki dövlət ədəbi-mədəni əlaqələrini sıx sürətdə, davamlı etdirmişlər.

Azərbaycan tədqiqatçılarının türk ədəbiyyatı, türklərin isə Azərbaycan ədəbiyyatı üzərində apardığı araşdırmalar və incələmələr qarşılıqlı şəkildə bu ölkələrdə dərc olunmuş və ədəbi əlaqələrin genişlənməsində əhəmiyyətli rol oynamışdır. Ədəbiyyatşünas alimlərimizin bu gün böyük bir miqyas almış ədəbi ilişkiləri Sovet sisteminin ən kəskin rejimi dövründə səngiməmiş, hətta daha da möhkəmlənmiş və bu günkü inkişaf üçün baza rolunu oynamışdır. Bu işdə görkəmli filoloq, Azərbaycan EA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor, əməkdar elm xandimi Abbas Zamanovun danılmaz xidmətləri olmuşdur. Azərbaycan ədəbiyyatına dair tədqiqatlar aparmaqla kifayətlənməyən alim bu ədəbiyyatı ölkənin sərhədlərindən kənarda təbliğ etmək və yaymaq əzmi ilə yorulmadan çalışmışdır. Geniş xarici əlaqələrə malik olan Abbas Zamanov ayrı-ayrı alimlərlə, mətbuat oraqanları, elm və mədəniyyət mərkəzləri ilə müntəzəm əlaqə saxlayaraq Azərbaycan elmi və ədəbi fikrini təbliğ edirdi. Abbas Zamanovun tələbəsi professor Kamran Əliyev yazır: "Abbas Zamanov bizim üçün bir vətən cəmiyyəti idi. Bu cəmiyyətin fəaliyyət məzmununu və məqsədini dünya

Azərbaycanlılarını bir araya gətirmək arzusundan doğan fədakarlıq təşkil edirdi" (2).

Bu "cəmiyyət"dən dünyanın dörd bir tərəfinə məktublar ünvanlanırdı. Dünyanın ucsuz-bucaqsız ölkələrində "Azərbaycan" adlı bir məbədi tanıtmaq sevindirmək amalı ilə yaşayırdı bu insan!

Kommunist rejiminin ən kəskin anlarında belə milli qeyrət duyğusu ilə yaşayan bu cəsarətli insan qorxmadan, çəkinmədən Türkiyənin ən mötəbər elm ocaqları, elm, ədəbiyyat və mədəniyyət xadimləri ilə əlaqə yaradaraq, Azərbaycan ədəbiyyatının, mədəniyyətinin Türkiyə vasitəsilə dünyaya çatdırılmasında əvəzsiz hünər göstərmişdi.

Abbas Zamanov dünya azərbaycanlılarının bir növ əlaqələndirici mərkəzi, informasiya orqanı idi. Azərbaycanın mühacir ziyalılarının görkəmli nümayəndəsi Əhməd Cəfəroğlu ona ünvanlanmış 30 iyun 1970-ci il tarixli məktubunda yazırdı: "sayənizdə Vətən kültür hərəkatını bizzat təqib etmə imkanına kavuşmuş bulunuyorum..." (3, s. 3).

60-cı illərin sonlarından Türkiyə elmi və ədəbi-mədəni mühiti ilə əlaqəyə girən Abbas Zamanov ölkələrimiz arasındakı ədəbi əlaqələrin həm Azərbaycan, həm də Türkiyə üçün "su, çörək və hava kimi" lazımlı olduğunu göstərərək yazırdı: "Bizim qarşılıqlı əlaqələrimiz, xüsusən, kitab mübadilələrimiz şəxsi xarakter daşımır. Bunların ölkələrimiz arasındakı dostluğun möhkəmlənməsində müəyyən əhəmiyyəti vardır" (4, s. 22).

Abbas Zamanov Azərbaycan ədəbiyyatının Türkiyədə obyektiv elmi üsullarla incələnməsi üçün Ərzurumdakı Atatürk Universiteti, fənn-ədəbiyyat fakültəsi "Araşdırma kitabxana"sına beş minədək kitab bağışlamışdır. Bu kitablar "Abbas Zamanovun Bağış Kitablığı" adı altında müstəqil bir bölmə olaraq istifadəyə verilmişdir. Başlıcası isə bütün bu kitabları o, öz şəxsi vəsaiti hesabına göndərirdi. 1994-cü ildə prof.doktor Həbib İdrisi və dos.doktor Turqut Qarabəy tərəfindən "Kitablığ"ın kataloqu hazırlanıb çap olunmuşdur. Kataloqu vərəqlərkən bu görkəmli alimin Azərbaycan ədəbiyyatını türk dünyasına çıxart maq və tanıtmaq yolunda nə qədər maddi və mənəvi fədakarlıq etdiyinin bir daha şahidi olursan.

Abbas Zamanov bu nəcib və xeyirxah işi ilə görkəmli türk alimi prof. doktor Ə.Y.Akpınarın yazdığı kimi "...Türkiyə ilə Azərbaycan arasında dəyəri heç bir şeylə ölçülməyəcək bir dostluq və elm körpüsü qurmuşdur. Bu körpünün bərəkətli və faydalı xidmətləri öz bəhrəsini verməkdədir. Çünki, türk ədəbiyyatları sahəsində müqayisəli tədqiqatlar aparanlar, Azərbaycan ədəbiyyatı ilə maraqlananlar məhz bu kitabxanaya müraciət edirlər" (5, s. 10).

Ə.Y.Akpınarın A.Zamanova ünvanlanmış 9.12.81-ci il tarixli məktubunda isə deyilir: "Siz bizim üçün və Azərbaycan üçün bir kitabxana qurdunuz. Bizim Azərbaycanı tanımamıza böyük ölçüdə yardımçı oldunuz, yol göstərdiniz. Yardımçı olmaqda, işıq tutmaqda da davam edəcəksiniz. Sizin adınıza təsis edi-

lən kitabxana böyük bir xatirə olaraq bizdən sonrakı nəsillərə yadigar qalacaqdır” (6, s. 14).

Ə.Y.Akpınar “Bağış kitablığ”ının uğurları barədə də Abbas müəllimə tez-tez məlumat verirdi. O, 20.01.82-ci il tarixli məktubunda yazırdı: “Tələbələrimiz sizin bağış kitablarınızdan Azərbaycanı və onun ədəbiyyatını öyrənirlər. Görəcəksiniz irəlidə bunların arasından bir çox Azəri ədəbiyyatı mütəxəsisləri yetişəcəkdir”.

Ərzurum Atatürk Universiteti Abbas Zamanovun göndərdiyi kitablarla kifayətlənmir, tez-tez məktubla, xüsusi dəvətlə müraciət edərək görkəmli alimin ədəbiyyat fakültəsində Azəri ədəbiyyatına dair məruzə ilə çıxış etməsini xahiş edirdilər. Məktublarının birində Ə.Y.Akpınar yazırdı: “Mən sizi Türkiyədə Azəri ədəbiyyatının tanınması və sevilməsi üçün göstərmiş olduğunuz böyük qeyrət və fədakarlığın kiçik bir qarşılığı olaraq Türkiyəyə bir aylıq bir sürə üçün dəvət edirəm. Ayrıca fakültəmizin dekanı hörmətli professor doktor Kaya Bilgegil, fakültə kitabxanasının böyük bir yardımçısı və dəyəri heç bir şeylə ölçülməyən kitabları bağışlayan bir şəxs kimi Sizi Ərzurumda görməyi böyük bir şərəf hesab edir” (7, s. 2).

Ədəbiyyat fakültəsinin dekanı, professor doktor Kaya Bilgegilin bu barədə bir neçə məktubu da bu gün Abbas Zamanovun şəxsi arxivində saxlanılır.

Ərzurum Atatürk Universitetindən başqa A.Zamanov Türkiyənin görkəmli elm və mədəniyyət xadimlərindən Aydın Türkbal, Məcid Doğru, Mustafa İsen, İbrahim Bozyel, İsmət Alparslan, Əhməd Əli Arslan, Orxan Şaiq Kökyay, Ömər Asim Aksoy, Sadəddin Topuzoğlu və digərləri ilə daima elmi yaradıcılıq və dostluq əlaqələri saxlayaraq, Azərbaycan ədəbiyyatının tanınması, mütaliəsi yolunda əvəzsiz xidmətlər göstərmişdir.

A.Zamanovun türk dili üzərindəki əvəzsiz xidmətlərini nəzərə alan Türkiyə Atatürk Kültur, Dil və Tarix Yüksək Qurumu onu Dil Kurumuna fəxri üzv seçməklə, bütünlükdə Azərbaycan ədəbiyyatı və mədəniyyətinə verdikləri yüksək dəyəri ifadə etmişlər.

Nəhayət, 1989-cu ildə Koniya Səlçuk Universiteti tərəfindən A.Zamanova verilən universitetin fəxri doktoru adı Azərbaycan elminə verilən yüksək qiyməti bir daha təsdiqlədi.

Ömrünün yetmiş səkkizinci baharında qardaş ölkəyə getmək arzusuna qovuşan bu qocaman alim yüz minlərlə qan qardaşı ilə görüşüb, onların sorğularına cavab verdi. Abbas müəllimin Türkiyə səfərini həm Azərbaycan, həm də türk mətbuatı öz səhifələrində lazımınca işıqlandırdı. Türkiyədə çap olunan “Qardaş ədəbiyyatlar”, “Türk kültüru”, “Türk yurdu” dərgiləri ,“Türkiyə” qəzeti təntənəli mərasimi bütünlüklə öz səhifələrində işıqlandırmaqla bərabər, A.Zamanov şəxsiyyəti barədə oxuculara ətraflı məlumatlar verir, onunla müsahibələr dərc edirdi. Xüsusən “Türk külturu” dərgisi özünün 321-ci sayında bu təntənəli məclisdə Abbas müəllimin yadda qalan çıxışını tamamilə çap etmişdir.

Ona verilən bu yüksək mükafata görə türk qardaşlarına öz səmimi təşəkkürlərini bildirən A.Zamanov bunu ona deyil, "Azəri türklərinin işlərinə, onların elmi, mədəni inkişafına verilən qiymətin timsalı" hesab edirdi.

Abbas müəllim "Türk külturu" dərgisinin 326-cı sayında verdiyi müsahibəsində "göndərdiyim o kitablar, məktublar neçə-neçə həsrət çəkən ürəkdə ümid qığılcımlarına çevrilmişdir. Ona görə də əlaqələrimizi davam etdirməli, bu vacib işin daha səmərli yollarını tapmalıyıq ki, baxışları daima uzaqlara dikilmiş qəriblər vətənsizlik yükünün altında əzilməsinlər..." deyirdi (9, s. 362).

Abbas Zamanovun türk elmi-ədəbi mühiti ilə əlaqələri təkcə kitab mübadiləsi ilə bitmir. Onun türk mətbuatında iyirmiyədək elmi məqaləsi dərc olunmuş, ədəbiyyatşünas alimin keçdiyi şərəfli və maraqlı həyat yolu haqqında dərin məzmunlu yazılar öz əksini tapmışdır.

Türk oxucuları A.Zamanovun qələminə məxsus olub, Molla Pənah Vaqif, Mirzə Ələkbər Sabir, Üzeyir Hacıbəyov, Ömər Faiq Nemanzadə digər ədiblərimizin həyat və yaradıcılıqlarından bəhs edən maraqlı və dərin elmi məzmunlu məqalələrlə tanış olmaqla yanaşı, müasir Azərbaycan ədəbiyyatında özünəməxsus rolu olan yazıçı və şairlərimiz, ədiblərimiz haqqında da müəyyən təsəvvür əldə etmişlər.

Türk ədəbiyyatşünasları bu və ya digər məsələ ilə əlaqədar "Qardaş ədəbiyyatlar" dərgisinin 5-ci nömrəsində İbrahim Bozyelin şair-dramaturq Hüseyn Cavidin anadan olmasının 100 illik yubileyi ilə əlaqədar yazdığı məqaləsində Cavidin sənət dünyasından bəhs edən müəllif şairin sənətkalıq qüdrətini oxucular a daha qabarıq şəkildə çatdırmaq məqsədilə alimimizin fikirlərinə əsaslanmışdır: "H.Cavid nə sələflərinə, nə də xəlfələrinə bənzəyir. Onun sənətdə öz səsi, öz nəfəsi, öz dəsti-xətti var. Poeziyada da dramaturgiyada da o orijinaldır. Heç kəsi təkarar etməmiş, heç kəsin təsirinə qapanmamışdır. Yazıb-yaratdıqlarını hamısı öz istedadının məhsuludur. Nə yazmışdırsa öz vicdanın pıçıltısı ilə yazmışdır".

Türk mətbuatında A.Zamanov haqqında dərc olunmuş yazılarda başlıca məqsəd alimimizin əsərlərinin elmi-nəzəri və bəşəri keyfiyyətlərini türk oxucularına çatdırmaq idi.

A.Zamanovun ədəbi-mədəni əlaqələrinin, Azərbaycan ədəbiyyatını xaricdə təbliğ etmək yolunda göstərdiyi xidmətləri obyektiv qiymətləndirən doktor Ə.Y.Akpınarın alim haqqında üç maraqlı yazısı "Qardaş ədəbiyyatlar" dərgisinin səhifələrində çap olunmuşdur. Cənublu şair Firudin Hasarlı alimin ölümündən hədsiz kədərlənərək "Abbas müəllimin vəfatı münasibətilə" adlı şeir yazaraq dərgidə çap etdirmişdir. O, A.Zamanovun ölümünü bütünlükdə dünya türkləri üçün bir faciə hesab edərək yazır:

Adam var ölməyi bir faciədir
Ölkədə iz qoyan bir vaqiyədir.
Sənin də köçməyin bir zaiyədir,
Ulduzun sıradan pozuldu getdi (8, s. 50).

Lakin A.Zamanov cismən öz dünyasını dəyişsə də, bu gün mənən yaşayır və yaşadılır. Bu gün alimin davamçıları, tələbələri onun ruhu qarşısında öz mənəvi borclarını ödəyərək, qoyduğu ənənəni davam etdirərək, Azərbaycan mədəniyyətini xarici ölkələrdə layiqincə təmsil edirlər.

ƏDƏBİYYAT

1. Abbasov A. Milli dövlətçilik məfkurəsi və layiqlik (genezis və təkamül). Bakı: 2002, 251 s.
2. Əliyev K. Sabir gülür // Ədəbiyyat və incəsənət, 1982, 5 mart.
3. Fond 526, s. 1, iş 195, s. 3.
4. Fond 526, s. 2, iş 120, s. 22.
5. Fond 526, s. 3, iş 121, s. 10.
6. Fond 526, s. 3, iş 118, s. 14.
7. Fond 526, s. 3, iş 112, s. 2.
8. Hasarlı F. Abbas müəllimin vəfatı münasibətilə // Qardaş ədəbiyyatlar, 1993, № 25, s. 50.
9. "Türk külturu" dərgisi. İstanbul, 1990, s. 357-369.

Фаргана Казымова

РОЛЬ ПРОФЕССОРА АББАС ЗАМАНОВА В РАЗВИТИИ ТУРЕЦКО-АЗЕРБАИДЖАНСКИХ ЛИТЕРАТУРНО-КУЛЬТУРНЫХ СВЯЗЕЙ

В статье рассматривается деятельность профессора Аббаса Заманова, занимающего особое место в развитии литературно-культурных связей между двумя тюркскими государствами, имеющими общую историю и культуру. На основе богатых архивных материалов исследуются основные направления деятельности ученого в этой области.

Fargana Kazimova

THE ROLE OF PROFESSOR ABBAS ZAMANOV IN THE DEVELOPMENT OF TURKEY-AZERBAIJAN LITERARY-CULTURAL TIES

In the article has been thoroughly with the activity of professor Abbas Zamanov who had special services in the development of literary-cultural ties between the two Turkic states who have common history and culture. The main directions of the scientist's activity in this field have been clarifiled. The article has been worked out on the basis of rich archive materials.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

FƏRMAN XƏLİLOV
AMEA Naxçıvan Bölməsi
E-mail: fermanhalilov@yahoo.com

MİRZƏ ƏLİ MÖCÜZÜN HƏYATININ ŞƏBÜSTƏR MƏRHƏLƏSİ (1906-1920)

(Akademik İ.Ə.Həbibbəyli tərəfindən təqdim edilmişdir)

M.Ə.Möcüzün (1874-1934) həyatının yeni Şəbüstər mərhələsi 1906-cı ildən başlayır. 1933-cü ilədək davam edən bu dövrü 1906-1920 və 1921-1933-cü illəri əhatə edən iki mərhələyə ayırmaq olar. Biz bu məqaləmizdə onun həyatının yeni Şəbüstər dövrünün birinci mərhələsinin şərhi üzərində dayanacağıq. Şairin həyatının bu mərhələsindəki fəaliyyətinin təsvirinə və təhlilinə keçməzdən əvvəl iki məsələyə aydınlıq gətirməyi zəruri hesab edirik.

BİRİNCİSİ: Ədəbiyyatşünasların Möcüzün "tərcümeyi-hal"ında yazdığı "Şəbüstərə gəldim. Vətənin ağlar halını görüb növhəxanlığa başladım" (12, vərəq 1) sözlərindən yan keçərək həmin məsələyə heç bir münasibət bildirməmələri. Bizcə, bu "yankeçmənin" səbəbi tədqiqatçıların Möcüzün Sovet ideologiyası üçün qeyri-məqbul sayılan dini şeirlər yazmasını etiraf etməkdən çəkinmələridir. Halbuki Möcüz "növhəxanlığa başladım" deyərkən heç də dini mərsiyələr yazmasına işarə etməmişdir. Maraqlıdır ki, "vətənin ağlar halına" diqqəti yönəldərək "nazik ciyərləri qan edən" bu dərdli və kədərli şeirlərin ənənəvi dini növhələr olmadığını ilk dəfə şairin axund və vaiz müasirləri başa düşmüş və belə "növhələr" yazdığı üçün ona hücuma keçmişlər. "Mənim növhəxanlığım axundların xoşuna gəlmədi, mənə müharibə elan etdilər" (12, vərəq 1). Beləliklə, aydın olur ki, Möcüz "növhəxanlığa başladığını" deməklə dini məzmunlu mərsiyələr yazmasına yox, "vətənin ağlar halını" əks etdirən şeirlərinə işarə etmişdir.

Möcüzlə bağlı bir həqiqəti də etiraf etmək bu gün Sovet dövründə olduğu kimi tədqiqatçı üçün qınaq gətirən bir hal deyil. Bəli, vaxtilə "məhərrəm və səfər aylarında növhə deyib oxumaqla atasının və sair camaatın əzizi olan" (19, s. 25) M.Ə.Sabir kimi Möcüz də dini məzmunlu növhələr yazmışdır. Bu növhələrdən dördü şairin İranda çap olunan kitablarına daxil edilmişdir (13, s. 374, 376, 378;15, s. 101). M.Füzulidən Ə.Vahidədək bir çox məşhur Azərbaycan şairləri kimi Möcüz də göz yaşı axıtdığı bu yanıqlı mərsiyələrdə Kərbəla

müsibətlərini şərh etməklə bərabər, həm də zülmü, zalımlığı lənətləmiş, məzlumları müdafiə etmiş, insanların, xüsusilə avam kütlələrin bütün pisliklərə qarşı etiraz duyğularını oyatmağa səy göstərmişdir.

İKİNCİSİ: Möcüzün Şəbüstərdə Şeyx Mahmudun türbəsində mücavirlik etməsi. Bu fikir ilk dəfə 1945-ci ildə Q.Məmmədli tərəfindən ortaya atılmışdır. "Möcüz ... qürbəti tərk edərək vətəninə qayıtmış ... vaxtının çoxunu Şeyx Mahmud Şəbüstərinin türbəsində keçirər və bu böyük alimin məqbərəsinə mücavirlik etmək və şeir yazmaqla məşğul olmuşdur" (9, s. 4). Q.Məmmədlidən sonra Möcüzdən yazan X.Hatəmi (1, s. 54), C.Heyət (2, s. 250), F.Hüseynov (4, s. 159), G.Mehmet (8, s. 3), C.Müciri (16, s. 46), F.Sadıqzadə (18, s. 102) və başqalarının məqalə və oçerklərində bu məlumat dəfələrlə təkrarlanmışdır. Lakin Möcüzün həmyerlisi və şairi sağlığında dəfələrlə görən və yaxşı tanıyan Q.Məmmədzadənin ilk dəfə tədqiqata cəlb etdiyimiz "Azərbaycan şairi Mirzə Əli Möcüz Şəbüstəri və mənim xatirlərimdən" adlı memuarında yazılanlar bu iddianın yanlışlığını və həqiqəti əks etdirmədiyini sübut edir. Q.Məmmədzadə yazır ki, Şeyx Mahmudun məzarının mücaviri "Rzaqulu adlı bir şəxs" olmuşdur. "Bu adam ... əvvəllər Zəfərüddövlə qoşun başçısı və sonralar Sərləşkər Müqəddəm adı ilə adlanan bir maarifpərvər tərəfindən göndərilmiş və aybaay maaş da göndərilirdi" (10, s. 51). Müəllif fikrini belə davam etdirir: "Atamın evi Şeyx Mahmudun məzarı ilə səkkiz metr fasilə ilə onun qarşısındadır. Mən uşaqlıq çağlarımdan Şeyx Mahmudun məzarının tarixçəsi ilə yaxından tanış olmuşam. Möcüz heç də onun mücaviri olmamış və onun mücavirətində də həyat keçirməmişdir" (17, s. 51). Evləri "Şeyx Mahmudun məzarı ilə səkkiz metr fasilədə" yerləşən və "uşaqlıqdan Şeyx Mahmudun məzarının tarixçəsi ilə yaxından tanış olan" Q.Məmmədzadənin yazdıqlarına inanmaqla yanaşı, o fikri ilə də razılaşmaq lazımdır ki, "Möcüz kimi mədəni bir şəxsiyyəti Şeyx Mahmudun məzarının mücaviri kimi göstərmək ... heç də Şeyx Mahmudun və ya Möcüzün cəlalını artırmır" (10, s. 51-52).

Tədqiqat göstərir ki, həyatının yeni Şəbüstər dövrünün ilk mərhələsində (1906-1920) Möcüzün əsas fəaliyyəti vətənində gördüyü rəzalətlər haqqında əhali arasında açıq maarifləndirici söhbətlər aparmaqdan və fikirlərini "kişi və arvadların başa düşəcəyi" tərzdə ifadə edən şeirlər yazmaqdan ibarət olmuşdur.

Elmi ədəbiyyatdan məlumdur ki, Q.Şərifzadə M.T.Sidqi və başqa ziyalılar xalqı maarifləndirmək üçün istifadə etdikləri vasitələrdən biri müxtəlif "mətbuat orqanlarını ... əldə edib ... buradakı ideya və məlumatları həmvətənlərinə çatdır"maqdan ibarət olmuşdur (3, s. 34). Araşdırmalar göstərir ki, Möcüz də bu vasitədən istifadə etmişdir. Biz hələlik onu müəyyənləşdirə bilmişik ki, Möcüz iranlı mühacirlərin nəşr etdirdikləri məşhur "Həblülmətin" qəzetində dərc olunmuş "milləti oyadan" yazıları həmyerlilərinə oxumuşdur.

Dedi: "Burax qəzeti, al bu virdi əzbərlə",
Dedim: "Axund, mənə "Həblülmətin" lazımdır" (14, s. 209).

- yazan Möcüzün şeirlərinin bir çoxunda "Həblülmətin" qəzetində ifadə olunan ideyaların təbliğ olunması da (7, II c., s. 9) fikrimizi təsdiq edir.

Möcüzün gərgin fəaliyyəti ona dostlar qazandırdığı kimi düşmənlərinin də sayını artırırdı. Bəla burası idi ki, "böyük ictimai məsələlərlə məşğul olmaq istəyən şairi dar düşüncəli əyalı da başa düşə bilmir"di (6, s. 375).

Yeri gəlmişkən bir neçə kəlmə də ədəbiyyatşünaslarımızın indiyədək toxunmadığı şairin ailə həyatı haqqında.

Möcüzün konkret olaraq hansı ildə ailə qurması haqqında əlimizdə heç bir məlumat yoxdur. Lakin keçən əsrin 90-cı illərində Şəbüstərin yaşlı sakinlərindən eşitdiyimizə görə şair İstanbuldan vətənə qayıtdıqdan az sonra ailə qurmuşdur. Möcüzü yaxşı tanıyan və şairin ailəsi haqqında yeganə məqalənin müəllifi olan mamağanlı M.Səməndərin də ilk dəfə tədqiqata cəlb etdiyimiz "Şəbüstərli Möcüzün əyalı barəsində" adlı məqaləsində bu məlumat təsdiq olunur: "Səriyyə xanım 1892-ci ildə Təbriz şəhərinin Nobər məhəlləsində Məhəmmədəli adlı bir kişinin ailəsindən olub. Möcüz İstanbuldan qayıtdıqdan sonra bu qadınla evlənib və Şəbüstərdə bir dükan açır" (20, s. 4). 29 iyul 1928-ci ildə Şəbüstərin "Sicilli-əhval idarəsi" (Vətəndaşların Vəziyyətinin Qeydiyyatı İdarəsi – F.X.) tərəfindən Səriyyə xanıma verilmiş şəxsiyyəti təsdiq edən farsca sənəddə yazılanlar M.Səməndərin verdiyi məlumatların doğruluğuna şübhə yeri qoymur: "Adı – Səriyyə, şöhrəti (Soyadı – F.X.) Möcüz, doğum – Təbriz, Nobər qapısı, doğum ili – 10 əsəd 1371 ş (19 iyul 1892), atasının adı – Məhəmmədəli mərhum, atasının iş yeri, anasının adı – Nərgiz mərhumə" (5, s. 17).

Möcüzün bacısının nəvəsi Yaqub ağanın Şəbüstərdə bizə verdiyi məlumata görə Səriyyə xanım savadsız və "tündxasiyyətli olduğuna görə" (17, s. 5) yoxsul və məşəqqətli həyat keçirən, lakin daima xalqın taleyini düşünən incəqəlbli şairi layiqincə duymasa da (Möcüzün "Zibəs ki incidib övrət məni həyatımda" etirafı var (14, s. 320)), ərinin ölümünədək onunla əzab-əziyyətli və yoxsul birgəyaşayışa dözmüşdür. Onların övladı olmamış (20, s. 4) və bu da ailəyə əlavə bir dərd – sonsuzluq dərdi gətirmişdir.

Səriyyə xanımın Möcüzün vəfatından sonrakı həyatı da fərəhsiz keçmişdir. Belə ki, şair Şahrudda vəfat etdikdən sonra o, Şəbüstərə qayıdaraq Möcüzün "Sisbəy məhəlləsindəki evində 6 il tək-tənha yaşamış, bütün aləmdən küsmüş, aləm də ondan ... 1940-cı ildə ... bu zavallı və qərib qadın aclıq və fəlakətlə əlbəyaxa qaldığı" üçün "Ağakəhriz kəndində Hüseyn adlı bir nanəcib və alçaq adamla evlənir. Lakin neçə ay keçmədən ondan tələğ alır, yenə Sisbəyə gəlir", bir müddətdən sonra "dünyadan göz yumur" (20, s. 4).

M.Səməndərin Möcüzün Şəbüstərdə "bir dükan açır" fikrinə gəldikdə isə, qeyd etməliyik ki, bu barədə ilk məlumata hələ şairin 1979-cu ildə Təbrizdə çap olunan kitablarına və 1982-ci il Bakı nəşrinə daxil edilən «Şairin dükanı» adlandırılmış şeirində rast gəlmişik (14, s. 306). Şeirdən aydın olur ki, Möcüz İstanbuldan qayıtdıqdan sonra güzəranını təmin etmək üçün əlində olan sərmayədən istifadə edərək Şəbüstərdə kiçik bir baqqal dükanı açmış, lakin yoxsul

xalqın vəziyyətini nəzərə alan şairin nisyə alver etməsi və bədxahların onunla alış-verişə qadağa qoyması qısa müddətdən sonra dükanın bağlanmasına səbəb olmuşdur (14, s. 306). Bizcə, Möcüz öz dükanından təkcə alış-veriş etmək yox, həm də müştərilərə maarifçi fikirlərini təbliğ etmək üçün əlverişli bir məkan kimi istifadə etmişdir.

Möcüzün İstanbuldan Şəbüstərə qayıtdığı qısa müddət ərzində həmyerliləri arasında bənzərsiz hərəkətləri və fikirləri, cəsarəti və mübarizliyi, məğrurluğu və dönməzliyi, fədakarlığı və inadkarlığı, nəhayət, "sadə, səmimi, el dilində, xalq şivəsində, son dərəcə anlaşıqlı, aydın, axıcı, yaddaqalan, duzlu-məzəli şeirləri" və söhbətləri həqiqətən "bir möcüzə" idi (5, s. 183). Bizcə, yuxarıda sadaladığımız xüsusiyyətlərinə görə həmyerliləri onu biri-digərinə nişan verərkən "Möcüz" adlandırmış, xoşuna gəldiyi üçün isə şair həmin sözü özünə təxəllüs götürmüşdür.

Beləliklə, həyatı, yaradıcılığı və fəaliyyətinin 1906-1920-ci illərdəki yeni Şəbüstər mərhələsi "burnun silməyə macal tapmayan rəncbərləri" (14, s. 62), "pis hala düşən" "bəxtiqara iranlı"ları (14, s. 206), "mərdi-bixeyir"ləri (14, s. 213), "rəngi-həna əlində, həmdü səna dilində olan" (14, s. 201) və "huri" həsrəti ilə qovrulan "mömin qərdəşlər"i (14, s. 296), "başı dəyirmanda əzilən füqəranı" (14, s. 107), "əlif görəndə dirək zənn edən" "bacıları" (14, s. 146), "külfətə bir löqmə təam gətirmək üçün" (14, s. 71) "əcnəbi mülkünə dolan" (14, s. 61) "əzizani-vətən"ləri (14, s. 61), "əfsanələri ilə" "nisfanı supa, tifli qoduq, mərdi xər" (14, s. 191) edən mürtəce və riyakar vaizləri, "xalqı min cərahətlə qoyub qaçan" (14, s. 25) "altundiş əğniya"ları (14, s. 196), "diyari-biqanun"da (14, s. 139) hökmranlıq edən "nümuneyi-Şəddad"ları (14, s. 39), bir sözlə cəmiyyətin bütün təbəqələrini "fikr etmək" üçün ("Bir az fikr eyləsə insan, hər iş asan olar, olmaz?" misrası yada düşür (14, s. 136)) "bülənd səslə" (14, s. 206) "bidar eyləməyə" (14, s. 86) çalışaraq "həmvətənlərinə ... yaşamağın və mübarizə aparmağın bir çox əməli yollarını öyrədən" (11, s. 755) Möcüzün özünü əsl xalq şairi kimi tanıtması və təsdiq etməsi ilə səciyyələnir.

ƏDƏBİYYAT

1. Hatemi H. Mirza Ali Mocuz // "Türk kültürü". Ankara, mayıs 1964, № 14, s. 54-58.
2. Heyət C. Mirzə Əli Möcüz Şəbüstəri / Azərbaycan ədəbiyyatı tarixinə bir baxış. Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1998, s. 290-292.
3. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti, müasirləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1997, 684 s.
4. Hüseynov F. Möcüz gülüşü (Təbriz nəşrləri üzrə) / Satrik gülüşün qüdrəti. Bakı, Yazıçı, 1982, s. 157-204.
5. Xəlilov F. Cənubi Azərbaycan şairi Mirzə Əli Möcüz. Bakı: Elm və Təhsil, 2010, 420 s.

6. Xəndan C. Cənubi Azərbaycan ədəbiyyatında milli azadlıq ideyaları. Doktorluq dissertasiyası. I c., Bakı: BDU-nun kitabxanası,1949, s. 367-439.
7. Külliyate-Mirzə Əli Möcüz Şəbüstəri. I və II cildlər birlikdə, I c., 202 s., II c., 104 s. Tərtibçisi, nəşr ili və yeri göstərilməyib.
8. Mehmet G. Mirza Ali Möcüzün hayatı, edebi kişiliyi ve külliyatı. Diplom işi. Erzurum, 1979, 246 s. Erzurum Atatürk Universitesi kütübhanası.
9. Məmmədli Q. Şəbüstərli Mirzə Əli Möcüzün tərcümeyi-halı (müqəddimə) / M.Ə.Möcüz. Seçilmiş əsərləri. Təbriz: Sovet Ittifaqı ilə Mədəni Rabitə Saxlayan İran Cəmiyyəti Təbriz şöbəsinin nəşriyyatı, çapxaneye-Rzaiyyə, 1945, s. 3-9.
10. Məmmədzadə Q. Azərbaycan şairi Mirzə Əli Möcüz Şəbüstəri və mənim xatirələrimdən (əlyazma). Bakı, 1982, AMEA Füzuli adına Əlyazmalar İnstitutu, şifr S-1074.
11. Mirəhmədov Ə. Mirzə Əli Möcüz / Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, II c., Bakı: Azərbaycan EA nəşriyyatı, 1960, s. 738-762.
12. Mirzə Əli Möcüzün tərcümeyi-halı və müxtəlif şeirləri yazılan dəftər (Q.Məmmədlinin xətti ilə). S.Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi. M.Ə.Möcüzün fondu, № 454, siy. 1, iş № 119, 65 vərəq.
13. Möcüz M.Ə. Divanı. 2 cilddə, II c., Redaktor Hüseyn Əlizadə. Bakı: Günəş, 2006,400 s.
14. Möcüz M.Ə. Əsərləri. Toplayanı, tərtib edəni, izahların müəllifi Q.Məmmədli. Bakı: Yazıçı, 1982, 350 s.
15. Möcüz M.Ə. Tazə və çap olmayan əsərləri. III c., Toplayan Yəhya Şeyda. Təbriz: Azərbaydaqan, 228 s. (nəşr ili göstərilməyib).
16. Müciri C. Məşrutə dövrü ədəbiyyatı (1901-1917) / XX əsr Cənubi Azərbaycan ədəbiyyatında demokratik ideyalar (1900-1985-ci illər). Məqalələr məcmuəsi. Bakı: Elm, 1990, s. 46-48.
17. Niqabi M. Sərqozaşte-dəstneveşthaye-Möcüze-paksereşt // Ruznameye-"Əsre-azadi", Təbriz, 25 ordubehişt 1384 ş. (15 may 2005).
18. Sadıqzadə F. Sabir ədəbi məktəbinin görkəmli davamçısı // "Azərbaycan" jur., Bakı, 1962, № 5, s. 102-108.
19. Səhhət A. Sabirin tərcümeyi-halı / A.Səhhət. Əsərləri. 2 cilddə., II c., Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1976, s. 24-32.
20. Səməndər M. Şəbüstərli Möcüzün əyalı barəsində // "Füruği-azadi" qəzeti, Təbriz 10 dimah 1365 ş. (31 dekabr 1986).

Фарман Халилов

ШЕБУСТАРСКИЙ ПЕРИОД ЖИЗНИ МИРЗА АЛИ МОДЖУЗА (1906-1920)

В статье повествуется о Шебустарском периоде жизни, творчестве и деятельности известного азербайджанского поэта-сатирика М.А.Моджуза, охватывающий 1906-1920 гг.

Автор, основываясь на привлеченные к исследованию новые факты и сведения, приходит к выводу, что на этом этапе жизни основная деятельность Моджуза состояла из ведения просветительских бесед среди населения и написания стихов.

Farman Khalilov

THE SHABUSTAR STAGE OF MIRZA ALI MOJUZ`S LIFE (1906-1920)

The life, work activity of the wellknown satiric poet of Azerbaijan M.A.Mojuz and his activity surrounding 1906-1920 Shabustar stage is talked in the article.

The author comes such a conclusion based on new facts and information involved to the investigation that, in this stage of his life the main activity of Mojuz consisted of carrying out enlighten talks among the masses writing the poems in the style of understanding illiterate population.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

LÜTVİYYƏ ƏSGƏRZADƏ
AMEA Naxçıvan Bölməsi
E-mail: asgerzadelutviyye@yahoo.com

CAVİD YARADICILIĞINDA HUMANİZM VƏ SÜLH

(AMEA-nın müxbir üzvü, prof. Ə.A.Quliyev tərəfindən təqdim edilmişdir)

Öz yaradıcılıq kredosunu "Mənim tanrım gözəllikdir, sevgidir" deyə ortaya qoyan Cavid, humanizm, sülh və barış aşiqi idi. Dünyanın bugünkü inkişafı fonunda Hüseyn Cavid sənəti öz aktuallığı ilə daha çox seçilir. Dünya dövlətlərinin bir-biri ilə "müharibə vəziyyətində" olduğu, didişdiyi bir vaxtda sülh və barış problemi nə qədər çox əhəmiyyət kəsb edirsə, Cavid yaradıcılığının bütövlükdə ehtiva etdiyi "gözəllik və sevgi", "insanlara sülh və barış" çağırışı bir o qədər əhəmiyyət kəsb edir. Müharibələrə, hər cür fəlakət və bədbəxtlik gətirən missiyalara nifrət bəsləyən Cavid bəşəriyyətə xoşbəxtlik və sülh, sevgi və məhəbbət arzulayırdı. Ümumiyyətlə, Hüseyn Cavidin elə bir əsəri yoxdur ki, orda bu və bu kimi məsələlər ya birbaşa, ya da dolayısı ilə öz bədii əksini tapmasın. Məsələn, Cavid "Seyx Sənan"da sanki bugünkü dünyanı təsvir edircəsinə yazır;

Nəyi görmək dilərsiniz bilməm,
Yanıyor zülm içində həp aləm (3, s. 42).

"Həqiqət istərim, yalnız həqiqət" deyə bütün dünyaya hayqıran Cavid humanist sənətkardır. O, humanizmində bütün dünya üçün, insanlar üçün haqq və həqiqəti bir hesab edir. Bunun üçündür ki, Cavid bütün bəşəriyyət üçün, "cinsi-bəşərin məsud olması" üçün ədalət və səadət bəxş edən məhəbbət dini arzulayır.

Cavid müharibələrin əleyhinə idi, nəinki əleyhinə idi, o hətta müharibələrə nifrət edirdi.Cavidin müharibə əleyhinə yazılmış ən gözəl əsərlərdən biri "İblis" əsəridir. Bu əsərdə Cavid sanki yaşadığımız müasir dünyamızın halını təsvir edir:

… Sellər kimi axmaqda qızıl qan,
Canlar yaxar, evlər yıxar insan!.. (3, s. 254)

Haqlı olaraq əsərə bu aspektdən yanaşan bütün müəlliflər qeyd edir ki, bəşəriyyəti "qəhr etmədə" olan müharibələrə qarşı nifrət bu əsərin leytmotividir.

İnsan canlıların ən yırtıcısıdır. İnsanı nifrət, intiqam hissi, şəhvət, vardövlət hərisliyi o qədər aludə edib ki, qardaş qardaşın qatili, qardaş qardaşın düşməni olur. Könlü nifrətlə dolu "İntiqam" deyə bağıran keçmiş insan gələcə-

yini qaranlığa döndərir. İnsan öz-özünün qəniminə, "canavarına" çevrilir, amma "canavar belə bizdən əşrəfli olsa gərək". Dünyadakı bu dəhşətlərin, vəhşətlərin səbəbini göstərmək baxımından İblisin məşhur monoloqu necə də yerinə düşür:

… Mənsiz də əmin ol sizə rəhbərlik edən var.
Qan püskürən, atəş sovuran kinli krallar,
Şahlar, ulu xaqanlar, o çılğın dərəbəklər.
Altun və qadın düşkünü divanə bəbəklər.
Min hiylə quran, tülkü siyasilər, o hər an
Məzhəb çıxaran, yol ayıran xadimi-ədyan;
Onlarda bütün fitnəvü – şər, zülmü-xəyanət,
…Onlar duruyorkən məni təhqirə nə hacət.
Onlar, əvət onlar sizi çeynətməyə kafi,
Kafi, sizi qəhr etməyə, məhv etməyə kafi (3, s. 341).

Burada hər şey o qədər aydınlığı ilə ifadəsini tapıb ki, fikrimcə, əlavə ediləsi nəsə bir sözə ehtiyac belə yoxdur. Lakin dünyamızın taleyinin bugünkü çağlarını göstərmək, başına gələnləri aydınlatmaq, bəşəriyyətə düşmən kəsilənlərin kimliyin təsbit etmək baxımından çox da maraqlı hissədir.

Cavid təkcə bir şair, sənətkar deyil, göründüyü kimi, o hər şeydən əvvəl bir insan, dünyada bir vətəndaş olaraq özünü tapır və bir vətəndaş olaraq da insanlara olan sevgisini elan edir. Ümumiyyətlə, Cavidin əsərləri insan talelərinin, ümumilikdə bəşəri həyatın tarixi salnaməsidir.

Cavid böyükdür. Onun yaratdığı bütün əsərlər həyata, dünyaya baxışlarının ümumi konsepsiyası idi. O, təkcə göstərmək yox, həm də nicatın yolunu da müəyyənləşdirmək istəyirdi. Sənətkar bütövlüyü, ustalığı da burdadır. Sənətkar bütövlüyü elə burdadır ki, təkcə bəşəriyyətin başına açılanları göstərməklə qalmayasan, həm də onun nicat yolunu ortaya çıxarasan. Bu da sözsüz ki, Cavidin ömrü boyu yaşantılarının, həyat təcrübəsinin, müşahidə və düşüncəsinin, mütaliələrinin nəticəsi idi. Bütövlükdə Cavidin şəxsiyyəti idi. Cavid bir sənətkar olaraq xalqının övladi idi. Onu mənsub olduğu xalq yetirmişdi. Mənsub olduğu xalqın əxlaqi-mənəvi sərvətləri, mədəniyyəti, həyata, dünyaya baxışları və qədim, zəngin bir xalq nəyə mənsub olursa bütün bunlar onu bir şəxsiyyət olaraq yetişdirmiş, formalaşdırmışdı. Sənətkar bir növ öz xalqının "səsi", dünyaya, bütün bəşəriyyətə töhfəsidir, belə desək, dünyadakı "yeni" izidir. Demək, Cavidi dilə gətirən, onu sənətdə mövqeləşdirən elə onun xalqının da arzusu, istəyi, idealları idi. Cavid öz sözlərilə xalqının arzularını ifadə edir və yetkin bir vətəndaş olaraq xalqı ilə birləşir. Xalqının mənsub olduğu humanist və bəşəri dəyərləri təcəssüm etdirir. Cavidin lirik qəhrəmanlarının əksəriyyəti həyatın və mühitin zərbələri altında əzilmiş kədərli, ələmli insanlardır. Lakin bu insanları həyat və mühit əydikcə, onlar mənən daha çox güclənir, qüvvətlənir. Hüseyn Cavid özünün lirik qəhrəmanları ilə birgə, insanın ruhi bədbinliyi və mənəvi sarsıntı əleyhinə ardıcıl mübarizədədir. Cavidin lirik qəhrəmanları əsasən kasıb, yoxsul, qayğıya və nəvazişə möhtaclar, fəlakətə məhkum olmuş yetim-səfil

uşaqlar, xəstə, kimsəsiz, vərəmli qızlar və onların ağır və kədərli həyatı. Məsələn, "Vərəmli qız", "Öksüz Ənvər", "Kiçik sərsəri" şeirləri. Bu şeirlərin mərkəzində həyatın ağır silləsini yemiş, müsibət və səfalətə düçar olmuş, uğursuz talelərini yaşamağa məhkum, heç bir mənəvi dayaqları olmayan zavallı insanlar və onların ələmləri, dərdləri, sınıq könülləri durur. Bu cür həyatın ağır girdabında çabalayan və heç bir mənəvi dayağı olmayan insanlar Cavidin poetik müşahidə hədəfi idi. "Kiçik sərsəri" şeirində olduğu kimi

O bir öksüz, o bir soluq yarpaq
Nə də məhrum köküs keçirməsi var?! (3, s. 41)

Bir solğun yarpaqtək torpaq üzərində, kimsəsiz və baxımsız, həyatın sərt və dərin girdabına atılmış bir yetimin halını göstərən bu lövhədən çox incə və dərin mətləblər, ictimai mətləblər aşkar olur.

Şimdi məsum ikən, səfalət onu,
Mücrim elan edər, yarın asılır (3, s. 41).

Cinayətkarlığın qarşısını almaq üçün həbsxanalar ucaldılır, lakin cinayətkarların yaranmaması üçün, kiminsə cinayətkar olmaması üçün heç bir şey, heç bir cəhd olunmur. Bu gün bu torpaq üzərində yatan cocuq pak və məsumdur. Fəqət yarın səfalət içərisindəki cocuğun taleyi necə ola bilər? Bir tikə çörək üçün bu safalət, aclıq və yoxsulluq onu cinayətkar etməzmi? Cinayətkar kimi asılmazmı?

Burada ictimai bəlaları üzə çıxaran Cavid tək bir yetimin yox, cəmiyyətdə bu cur acı talelərini yaşamağa məhkum olunmuş minlərlə səfilin, acın, yoxsulun halına ürəkdən acıyır, bu cür bəlaların ictimai kökünü göstərməklə, onların faciəsini poetik dillə söyləyir, insanın insana əl tutmaq üçün deyil, sanki birbirinə düşmənçilik etmək üçün yaradıldığı qənaətinə gəlir. Və ya, onun "Öksüz Ənvər" şerindəki yetim Ənvər. Tək ümidi olan annəsini itirmiş, təlaş və iztiablar içində çırpınan və qəhr olan Ənvər. Fəqət onun bu halı cəmiyyətdə heç kim tərəfindən duyulmur, hətta ona dərs verən müəllimi belə onun daxili iztiablarını, ağrı və acılarını duymur. Hüseyn Cavid yetimlik, yoxsulluq və ruhi məşəqqətin baş alıb getdiyi bir məmləkətdə, heç kimin səadətə, xoşbəxtliyə qovuşmayacağı qənaətindədir. Hər bir fərdin xoşbəxtliyi, səadətə qovuşması üçün xoşbəxt, normal cəmiyyət lazımdır. Hər bir fərdin cəmiyyət qarşısında borcu olduğu kimi, cəmiyyətin də hər bir fərd qarşısında məsuliyyəti və borcu var.

Bu cocuq təkcə annəsi öldüyü üçün yetim və kimsəsiz deyil, ümumiyyətlə, onu anlamayan və duymayan insanların arasında, yaşadığı bü mühitin içərisində də təkdir, kimsəsizdir, yetimdir. Bu əsəri oxuyanda humanist Cavidin fəryadı ilə yanaşı, insan faciələri önündəki iniltiləri belə duyulur.

Hüseün Cavid bütün zamanların sənətkarıdır. Cavid insanın dünənini, bu gününü, sabahını düşünən və düşündürən sənətkardır. Bunun üçün də o, konkret hansısa zamanın deyil, bütün zamanların sənətkarıdır.

Cavidin bütün idealı, həyatı, amalı, qayəsi məhəbbətdən yoğrulmuşdu. Elə buna görə də dünyanın hansı bir nöqtəsində insan tələfatı, insan fəlakəti

olurdusa, onu yerdən yerə vururdu, insana sevgisi bütün qüdrətilə insan "ovlayanlara" nifrət edirdi. Müxtəlif zamanlarda yazılmış olsalar da bu gün də "Hərb və fəlakət", "Məzlumlar için", "Hərb ilahisi qarşısında" kimi şeirləri zamanın nəbzini tutur. Hərb meydanına çevrilən dünyada "qalstuklu iblislərin" verdikləri qərarlar insanları məhv edə-edə bəşəriyyətin axırına çıxır. Ölkələrin xalqların, hərəsinə bir cür ad qoyub qan tökənlərə, nədən "sülh" bağıran böyük xalqlar "dur!"demirlər?! Bəs onların dünyaya "dərs verən", bütün bəşəriyyəti tərbiyələndirməyə yetən "yüksək" əxlaqi-mənəvi sərvətləri, humanist və bəşəri dəyərləri harda qaldı?..

Önümdə dalğalanır teyflər, qızıl qanlar,
Başımda patlayır atəşli, sisli vulkanlar.
Təcəssüm etmədə qarşımda bir cihani-ələm,
Dönüb də tərsinə guya yanar bütün aləm.
Qucaq-qucaq edilən tatlı vədlər pək çoq.
Saqın inanma! Yalan! Yoq zəif için haq yoq!
...Cihanda haq da, həqiqət də həpsi qüvvətdir (3, s. 77).

Budur bizim dünyamızın müasir real mənzərəsi. Budur Azərbaycan xalqınının böyük ürəkli sənətkar oğlu Cavidin zülmə, qan-qadaya nifrəti, sözü: "Tühaf şey! ...Haraya getsən, haraya baxsan, bir sarsıntı, bir pərişanlıq hökmfərma... Bütün könüllər iztırabda, bütün ruhlar həyacanda, bütün gözlər intizarda... Zatən bu müharibə, bir müharibə deyil də, misri bir bəladır, bir taundur, aləm-şümul bir fəlakətdir..." (4, s. 232).

"Məzlumlar üçün" adlı şeirində Cavid sanki zamanın, insanlığın elə bir zirvəsində durub ki, ürəyindən qara qanlar axa-axa müxtəlif zamanlarda baş verən Xocalı kimi dünyanın görünməmiş dəhşətli faciə səhnəsinə, digəri Qars və Oltu ətrafında baş verən, zülmün özünü də dəhşətə gətirəcək hadisələrə baxır ("Qars və Oltu ətrafında səbəbsiz olaraq alçaqcasına qətl və yağma edilmiş məzlumlar üçün"). Bədii sözün qüdrətilə bu dəhşətli səhnələri "rəsm edib" dünyanın hər yerdə tikdirdiyi "humanizm" müzeylərinə yadigar qoyur:

...O titrəşib mələşən yavrular niçin çabalar?
Niçin yanar əli qoynunda müztərib analar?
...Deyil cənazə... birər xəndədir, həyatə gülər.
Gülər ədalətə, insafə, haqqa, vicdanə,
Gülər həqayiqi-İncilə, hökmi-Quranə... (3, s. 92).

Belə olduğu təqdirdə böyük sənətkar öz humanist ideallarını, bütün yaradıcılıq qayəsini ondan başqa insanlara xoşbəxtlik gətirəcək Məhəbbətə ünvanlayır. İnsan oğlunun yer üzündə son nicat yolunu, yeganə çıxış yolunu, dünyanın xilasını Məhəbbətdə görür. Məhəbbət sözü Cavid sənətində özünün bütün geniş anlamında, bütün semantik gücü, estetik təsiri ilə əks olunur. O, yalnız məhəbbətin dünyaya sülh gətirəcəyinə, insanlara barış qismət edəcəyinə inanır, bu yöndə məhəbbəti böyük qüvvə hesab edir. Yalnız məhəbbət qan-qada, ayrıseçkilik, dini, irqi fərq, millətçilik tanımır. Yalnız o, bütün nemətlərdən, bütün

qiymətli varlıqlardan, gücdən, qüvvətdən ucada durur. Yanlız o, insanları alçaltmır, ləyaqətini tapdamır. Höte "Sevgi müntəxabatını bütün kitabların müntəxabatı" adlandırırdısa, M.Girişveld sevginin qüdrətinə inam və qiymət vermək baxımından bir az da irəli gedərək yazırdı: "Məhəbbətin nəfəsi dünya xaosunu nizama salır, disharmoniyanı harmoniyaya çevirir". Cavidin bütün yaratdıqları sevgi müntəxəbatı idi və o, məhəbbətin nəfəsi və gözəlliyin gücü ilə dünya xaosunun nizama salınacağına inanırdı. O, insanın kamilləşməsi üçün eşq və gözəllik yolundan saflaşaraq kamilliyə doğru yol aldığına inanırdı. O, gözəllik deyəndə uca eşqi, eşq, sevgi deyəndə isə gözəlliyi düşünürdü. Ümumiyyətlə, ruhu gözəl olanları gözəl sayan, "batinilə zahiri gözəl olan gözəllik və məhəbbət H.Cavid yaradıcılığında iri, böyük hərflərlə yazılmış sənət kredosu idi. Gözəllik, sevgi, eşq və inam. Dünyanı qurtaracaq, nizama sala biləcək güc. İnsanı insan edən, kamilləşdirən qüvvə. Sevmək yüksəlməkdir, sevən insan dahidir (Losev). Həm də dünyanın pozulmuş qaydalarını səhmana sala biləcək qüvvənin "Gözəllik və Sevgi" olduğuna inanan Cavid, yüksək ideyalarla yaşayan və yaradan sənətkar idi və o, məhəbbətin xilasedici qüvvə olduğuna inanırdı. Yetər ki, insanlar "dünyadakı, kainatdakı, təbiətdəki və insandakı gözəlliyi duysunlar, gözəlliklərdən zövq alaraq böyük eşqlə sevməyi bacarsınlar, yəni kamilləşsinlər, bu sevgidən kənar qalmasınlar, gözəllik və sevgini uca tutsunlar. Bu ucalığa çatmaq üçün saflaşa-saflaşa, odlar, alovlar ayaqlaya-ayaqlaya, mənəvi cəhətdən durula-durula sevərək kamilləşsinlər. Gözəllik və sevgini həqiqət kimi dərk etsinlər. Dünyada ən saf şey sudursa, o da torpağın altından, daşların dibindən saflaşa-saflaşa, durula-durula üzə çıxır.

Cavid insanları sevgi və gözəllik işığında saflaşmağa, kamilləşməyə, həqiqətə çağırırdı. Başdan-başa eybəcərliklərlə dolu olan dünyada saflaşmaq, kamilləşmək üçün bir tutanağı, tapınacağı bir şey varsa, o da Gözəllik və gözəlliklərdən doğan eşq və məhəbbətdir. Cavidin arzusu da bu deyilmi? -"Bütün kainatı eşq olan bir cahan" arzusunda idi Cavid.

Məhəbbət H.Cavid yaradıcılığı üçün "səciyyəvi olan və konsepsiya təşkil edən bir ideyadır" (6, s. 223) və bu ideya onun bir çox əsərlərində olduğu kimi, "Topal Teymur" əsərində şairin dili ilə söylənilir: "Şair səmimi və coşğun bir ahənglə": Məhəbbət! Məhəbbət!... əvət bütün bəşəriyyəti xilas edəcək məhəbbətdir" (1, s. 65). Bu sözlərin bir şairin dilindən, söylənməsi də təsadüfi deyil. Şairin dilindən söylənənlər H.Cavidin fəlsəfi görüşləridir. Şairə görə gözəlliksiz və sevgisiz həyat yoxdur. "Sevgi üfüq kimidir, hər an səni əl eyləyib çağırır, sən yaxınlaşdıqca o uzaqlaşır". Və beləliklə, "Sevgi və gözəllik Caviddə ona görə Tanrı səviyyəsindədir" qənaətinə gəlirsən ki, sevgiyə, eşqə, həqiqətə çatmaq üçün ucalmalı, yüksəlməlisən. Yüksəldikcə kamilləşirsən, kamilləşdikcə sevgini dərk edirsən, yəni özünü dərk edirsən. Sevgi insanın özünü dərk etməsinə kömək edirsə, gözəllik oxu üfüqdən əl edən sevgiyə sən catdın dedikcə uzaqlaşan üfüqə"-sevgiyə ucalığa, ülviyyətə-həqiqətə çatmaq üçün göstərilən cilvədir.

Cavid bunun üçün insanları sevgiyə və məhəbbətə səsləyirdi; “Məni hər kim sevirsə, yüksəlsin!” Varlığın mahiyyətini gözəllik və eşqdən keçən məhəbbətdə görən, “bən məhəbbət əsiriyim, hər an” deyən Cavid “məhəbbət dünyanı xilas edəcək” ideyasını təbliğ edirdi və inanırdı ki, bütün bəşəriyyəti yalnız o xilas edə bilər: Hər zaman özlərim bir öylə cahan

Ki, bütün kainatı eşq olsun (4, s. 192).

Bəli, budur ən böyük həqiqət. Dünyada böyük şəxsiyyət olmaq üçün böyük xalqın oğlu olmaq həqiqəti ... Cavid əfəndi... Bütün yaradıcılıq qayəsi Sevgi və Məhəbbətdən, Sülh və Barışdan yoğrulan böyük sənətkar. Kaş ki, bütün dünya və dünyanı idarə edənlər, kaş ki, möhtəbər beynəlxalq təşkilatlar Cavid əfəndinin bu sözlərini daim başlarının üstündə şüara çevirsinlər: “Məhəbbət! Məhəbbət! Əvət, bütün bəşəriyyəti xilas edəcək yalnız məhəbbətdir”.

ƏDƏBİYYAT

1. Cavid H. Bahar şəbnəmləri. Bakı: Turan, 2002, 297 s.
2. Cavid H. Əsərləri. 4 cilddə, I c. Bakı: Yazıçı, 1982, 321 s.
3. Cavid H. Əsərləri. 4 cilddə, II c. Bakı: Yazıçı,1982, 392 s.
4. Cavid H. 4 cilddə, IV c. Bakı: Yazıçı, 1985, 631 s.

Лутвия Аскерзаде

МИР И ГУМАНИЗМ В ТВОРЧЕСТВЕ ДЖАВИДА

В статье исследуется гуманизм в творчестве великого драматурга Г.Джавида. Автор статьи исследуя произведения Г.Джавида, выявил, что большинство произведений поэта посвящены красоте, любви и миру на земле.

При исследовании автором выявлены многие научные и интересные результаты, связанные с произведениями Г.Джавида.

Lutviya Askerzadeh

THE WORLD AND HUMANISM IN JAVID’S CREATIVITY

In this article it is shown, that during the time of the martial law between the countries Javid’s creativity calls people for the peace, humanism and the agreement. As a result the author comes to conclusion, that Javid’s createvity as a whole gives people beauty and love, the peace and the agreement.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

SƏBUHİ İBRAHİMOV
AMEA Naxçıvan Bölməsi
E-mail: S.ibrahimov@yahoo.com

NAXÇIVAN MƏDƏNİYYƏTİNƏ DAİR ORTA ƏSR ƏLYAZMA MƏTNLƏRİNİN TARİXİ KÖKLƏRİ

(AMEA-nın müxbir üzvü, prof. Ə.A.Quliyev tərəfindən təqdim edilmişdir)

Mətnşünaslıq yalnız ədəbiyyat tarixi üçün deyil, eyni zamanda mədəniyyət tarixi üçün də böyük əhəmiyyət kəsb edən geniş bir elmi sahəni əhatə edir. Ədəbiyyat və mədəniyyət tarixinin doğru və düzgün, obyektiv şəkildə öyrənilməsi, klassik mətnlər üzərində aparılan tekstoloji tədqiqatların düzgün müəyyənliyindən də az asılı deyildir. Orta əsr yüzilliklərində qədim Naxçıvan diyarında yaradılmış abidə əsərləri ayrı-ayrı müəlliflərin, mütəfəkkirlərin, filosofların, şair və yazıçıların dünyagörüşlərini, istedadlarını, bədii sənətkarlıqlarını, elmə verdikləri yenilikləri, tibbi biliklərin mənimsənilməsini və s. əks etdirən yazılı abidələr olmaqla bərabər, həm də Naxçıvan mədəniyyət tarixini işıqlandıran əsaslı və başlıca məxəzlərdəndir. Buna görə də, klassiklərin ayrı-ayrı yüzilliklərdə yaratmış olduqları əsərlərin düzgün elmi mətnlərini araşdırıb tərtib etmək və onları öz müəlliflərinə mənsub etmək, hər şeydən əvvəl ədəbiyyat və mədəniyyət tarixinin doğru və düzgün mənimsənilməsi deməkdir. Bu da mətnşünaslıq elminin böyük əhəmiyyətini səciyyələndirən əsas başlıca məziyyətlərdir.

Mətnşünaslıq Azərbaycanda XIX əsrin II yarısından etibarən ayrıca bir elmi sahəsi kimi formalaşmağa başlasa da, onun qaynaqları keçmiş yüzilliklərin dərin qalın qatları ilə birbaşa bağlıdır.

Onu da qeyd etmək lazımdır ki, mətnşünaslıq əvvəlcə elmi-praktiki fəaliyyət sahəsi kimi mövcud olmuş və o da başqa elmlər kimi uzun əsrlər boyu müxtəlif inkişaf mərhələləri keçirərək, zəngin baza yaratdıqdan sonra, bir elmi sahəsi kimi formalaşmağa başlamış, onun nəzəri əsasları və metodologiyası yaradılmışdır. Azərbaycanın böyük mətnşünas alimi Mirəhmədov Ə. bu haqda belə deyirdi: "Belə bir tarixi təkamül yolu Azərbaycan mətnşünaslığı üçün də səciyyəvidir" (1, s. 4).

Orta əsr yüzilliklərində mətbəə üsulu ilə kitab çapı olmadığına görə, şair və yazıçılarımız, alim və mütəfəkkirlərimizin yaratdıqları elm və ədəbi abidələri katib nüsxələrində yayılıb, inkişaf tapmağa başlayırdı. Öz zənginliyi ilə bədii və

elmi irsə yiyələnən Naxçıvan mədəniyyəti uzun yüzilliklər ərzində yaradılmış abidələrin mətnşünaslıq baxımından araşdırılması və onların elmi-tənqidi mətnlərinin tərtibi sahəsində Azərbaycan alimlərimizin xidmətləri olduqca böyükdür. Məhz onların gərgin və şərəfli əməyi sayəsində Hinduşah Naxçıvani, Məhəmməd ibn Hinduşah Naxçıvani, Nəcməddin Əhməd ibn Əbubəkr Naxçıvani, Əkmələddin Naxçıvani, Məsud Əmirəddin Naxçıvani, Əcəmi Əbubəkr Naxçıvani, Osman ibn Səlman Naxçıvani, Həsən ibn Ömər Naxçıvani və neçə-neçə başqa Naxçıvan və Azərbaycan klassikləri əsərlərinin dəyərli elmi-tənqidi mətnləri tərtib edilmiş, onların əsasında mükəmməl kütləvi nəşrlər həyata keçirilmişdir. Lakin uzun əsrlərdən bəri zəngin elmi ənənələr yaratmış orta əsr Naxçıvan əlyazma mətnləri haqqında yalnız Azərbaycanda deyil, eyni zamanda dünya şərqşünaslığında da indiyədək heç bir monoqrafik tədqiqat aparılmamış və bu elm sahəsi sistemli şəkildə işıqlandırılmamışdı.

Azərbaycan mətnşünaslığına böyük töhfələr vermiş Naxçıvanın məşhur alim və mütəfəkkir yetirmələri öz yaradıcılıqlarında elmi ədəbi mühitə və zəngin tarixi keçmişə malik olan doğma Naxçıvana aid elmi əsərlər ərməğan etmişlər.

Orta əsr Naxçıvan tibb elminin inkişafında əvəzsiz xidmətləri olan böyük şəxsiyyət Nəcməddin Əhməd ibn Əbubəkr Naxçıvani olmuşdur. Yaxın Şərq ölkələrində geniş tanınmış məşhur alim öz dövrünün böyük filosof və mütəfəkkiri olmaqla, həm də tibb sahəsində zəngin biliyə malik olmuşdur. Nəsrəddin Tusinin tələbəsi məşhur alim İbn əl-İbri (1226-1286) Nəcməddin Naxçıvani barədə belə yazır: "O, böyük fəzilət sahibi, dəqiq elmlərin dərindən bilicisi idi. Öz vətənində fəlsəfə ilə məşğul olurdu. Ölkələri səyahətə çıxdı, xeyli gəzib dolaşdı, axırda kiçik Asiyaya daxil oldu, böyük mənsəblər tutdu, sonra idarəçilik narahatçılığı ilə, əzab-əziyyətləri onu bezdirdi. Oradan Suriyaya yola düşdü" (2, s. 36).

Mənbələrin verdiyi məlumata görə böyük filosof-təbib ömrünün axırında guşəneşin olmuş, heç yerə çıxmamışdır. Yalnız dostları ona baş çəkmişdir.

Naxçıvanın filosof-təbibi, həmçinin böyük mütəfəkkir aliminin qədim Naxçıvanda dünyaya gəlməsi haqqında Məhəmməd Bağır Xansari (1811-1895) yazır: "O, böyük şəxsiyyət Naxçıvan şəhərindən idi və İbn Sinanın əsərlərinə şərhlər yazırdı" (2, s. 36).

Azərbaycan mədəniyyəti tarixində tənqidi fikrin inkişaf etdirilməsində görkəmli şərqşünas alim və filosof Zakir Məmmədovun xidmətləri olduqca böyükdür. O, elmin müxtəlif sahələrinə həsr edilmiş abidələr və mövzular üzərində apardığı rəngarəng araşdırmalar sayəsində zəngin və çox şaxəli elmi irs yaratmışdır. Zakir Məmmədov ədəbiyyat, tarix, fəlsəfi müdriklik abidələri mətnlərinin araşdırılmasında həmişə elmi-tənqidi metoda əsaslanmış və onların mümkün qədər həqiqətə uyğun şəkildə elmi mətnlərini tərtib etməyə çalışmış, bu metoda riayət etməyərək, mənbələrin öyrənilməsində müəyyən əyintilərə yol verən alimləri tənqid etmişdir. İstedadlı alim Zakir Məmmədov öz axtarışlarında Naxçıvana aid orta əsr ədəbi və mədəni irsinin nümayəndəsi olan filosof və

həkim Nəcməddin Naxçıvani haqqında belə yazır: "Naxçıvani bir filosof kimi Şərq peripatetizminin mükəmməl bilicisi olmuş, ancaq ardıcıl aristotelçi olmamışdır. O İbn Sinanın kitablarını tənqidi planda araşdırmış, onun bəzi doktrinalarına qarşı öz etirazını bildirmişdir. Mübahisə doğuran fəlsəfi məsələlərdən biri nəfsə dair idi. İnsan cisminin məhvindən sonra nəfsin yaşamasına inanan Naxçıvani Şərq peripatetiklərinin əleyhinə olaraq, İbn əl-İbraninin qeyd etdiyi kimi, "tənəsux təliminə" güclü meyl etmişdir" (2, s. 37).

XIII əsrdə yəhudi filosofu İbn Kəmmunə İsraili də başqaları kimi Naxçıvaninin əsərlərinə şərh yazaraq peripatetik fəlsəfə ilə ona qarşı yönəldilmiş tənqidi fikirləri barışdırmağa səy göstərmişdir. Xucəndi isə Naxçıvaninin İbn Sina təliminə dair dediyi tənqidi fikirləri qəbul etməmişdir.

Filosofun bir neçə tanınmış məşhur əsərləri olmuşdur ki, dünyanın diqqətini özünə cəlb etdirmişdir. "Məntiqin məğzi və fəlsəfənin xülasəsi (Lübab əl-məntiq və xülasət əl-hikmət), traktatının bir əlyazması Nəcəf şəhərində mühafizə edilir. Onun İbn Sinanın "Tibb qanunu" (əl-Qanun fi-tibb) kitabına yazdığı şərh Parisdə, "İşarələr və qeydlər" (əl-İşarət vət-təlbihat) kitabına yazdığı şərh İstanbulda saxlanılır" (3, s. 303).

Naxçıvan mədəniyyətinə dair tarixi mənbələr onu deməyə imkan verir ki, həqiqətən qədim Nuh diyarımız canlı mətn abidələri ilə bəzədilmişdir. Orta əsr mənbələrinə aid yazılı abidə olan bir çox əlyazma mətnləri bu gün Naxçıvan mədəniyyəti tarixinin əsasından xəbər verir.

Naxçıvan mədəniyyətinə dair orta əsr əlyazma mətnlərinin tarixi köklərini nəzərdən keçirən böyük tədqiqatçı alim Məmmədov Z. öz tədqiqat əsərində belə yazır: "XI-XII əsrlərdə Azərbaycanda incəsənət xeyli inkişaf etmişdi. Musiqişünaslıq bir fənn kimi riyaziyyat üstündə gedirdi. XI əsrdə başqa müasirləri ilə yanaşı Əbülhəsən Bəhmənyar da musiqişünaslığa xüsusi maraq göstərmiş, bu barədə ayrıca traktat yazmışdır. O dövrdə memarlıq və xəttatlıq sahəsində isdedadlı sənətkarlar yetişmişdir. Naxçıvanda 1162-ci ildə Yusif ibn Quseyrin, 1186-cı ildə Atabəy Məhəmməd Cahan Pəhləvanın arvadı Möminə xatının sərdabələrini tikmiş Əcəmi Əbubəkr oğlu Naxçıvani XII əsrin böyük sənətkarlarındandır. Başdan-başa həndəsi nəqşlər və kitabələrlə bəzədilmiş bu abidələr təsviri sənətin müxtəlif növlərini özündə təcəssüm etdirir" (4, s. 57).

Naxçıvan mədəniyyətinə dair əlyazma mətnlərinə xüsusi bir şirinlik gətirən orta əsr nümayəndələri dövrünün tanınmış elm adamları ilə yanaşı, xilafət başçılarının da böyük rəğbətini qazanmışlar. Xəlifə Nasir li-Dinillah (1180-1225) tərəfindən yüksək qiymətləndirilən elm adamlarından biri də Hinduşah Naxçıvani olmuşdur. Naxçıvani də öz növbəsində ona qarşı elmi əsərlər yazmaqla münasibətini bildirir. Tədqiqatçı alim bu haqda yazır: "Tarixi mənbələrdən Nasir li-Dinillahın 45 illik hakimiyyəti zamanı xilafətin möhkəmləndiyi göstərilir. Hinduşah Naxçıvani (XIII əsr) Nasir xəlifənin geniş məlumata malik olduğunu, fiqhi dərindən bildiyini, habelə hədislərə dair "Ariflərin ruhu" ("Ruh əl-Arifin") adlı kitab tərtib etdiyini yazır. Həmin dövrdə xilafətin ictimai-siyasi həyatında

türklərin (azərbaycanlıların) geniş fəaliyyət göstərmələri faktı diqqəti cəlb edir: Əbunnəcib Sührəvərdi, Məhəmməd Hibbətullah oğlu Səlmasi və başqalarının Nizamiyyə mədrəsəsində dərs demələri, Xilafət divanına nəzarət etmək vəzifəsinin Yunis Müzəffər oğlu Urməviyə tapşırılması və i.a. Görünür, bu, xəlifənin özünün yarımtürk olması ilə bağlıdır; onun anası Zümrüd xanım türk qızı idi" (4, s. 63).

Orta əsr Naxçıvan əlyazma mətnlərinin tarixi kökləri istər elmi mətnin, istərsə də onunla bağlı verilən bilgilərin hansı məxəzlərə söykəndiyini göstərmək zəruri bir məsələ hesab etmək olar. Böyük şəxsiyyətlərin qələmə aldıqları əsərlər sırasında duran əlyazma mətnləri nəinki Naxçıvan ərazisində yaşamaqla yüksəlmiş, həmçinin Azərbaycanın digər bölgələrində də zəngin biliyə malik olan insanların əməyi yüksək qiymətləndirilmişdir. Yüksək fitri istedada, hərtərəfli elmi biliyə malik olan XI-XII əsr nümayəndələrindən biri Həddad ibn Bəkran Əbul-Fəzl ən-Naxçıvani olmuşdur ki, onun haqqında tanınmış tarixçi alim Yaqut əl-Həmavi xəbər vermişdir. "Yaqut əl-Həmavinin verdiyi məlumata görə həmin dövrlərdə Gəncədə "Dər əl-kutub" ("Kitablar evi") adlı böyük kitabxana olmuşdur. Bu kitabxananın xəzinədarı isə Həddad ibn Bəkran Əbul-Fəzl ən-Naxçıvani imiş" (5, s. 121).

Böyük dühalar yetişdirmiş Naxçıvan üçün bu heç də yeganə kitabxana xəzinədarı olmamışdır. Bu dövrdə Marağada yaradılan ən böyük elm və mədəniyyət mərkəzlərindən biri də Marağa rəsədxanası olmuşdur. Nəsrəddin Tusinin rəhbərliyi altında Marağa şəhərinin qərb tərəfindəki bir təpənin üzərində, 1259-cu ildə rəsədxananın tikintisinə başlanmış və başa çatdırıldıqdan sonra, onun nəzdində zəngin bir kitabxana yaradılmışdır. Həmin kitabxana məhsi Nəsrəddin Tusi tərəfindən yaradılmışdır. Bu kitabxananın zənginləşdirilməsi üçün Bağdad, Hələb, Dəməşq, Misir və başqa şəhərlərə, eləcə də Naxçıvana rəsədxana üçün kitab alıb gətirmək məqsədilə adamlar göndərilmişdir.

Sənətə və sənətkarlığa dərin hörmət bəsləyən və himayədarlıq göstərən orta əsr intibahının qurucusu Naxçıvan Atabəylər Dövlətinin nümayəndələri öz saraylarında kitab incəsənəti ustalarını, xəttatları, rəssamları, müzəhhibləri, cildçiləri və başqa sənəd adamlarını, toplayaraq, böyük bir miniatur və elmi-bilik məktəbi yaratmışdı. Orta əsr Naxçıvan mədəniyyətinə dair əlyazma mətnləri zaman keçdikcə öz zəngin varlığına sahib olacaq və Naxçıvan həqiqətlərini bir daha aşkara çıxaracaqdır.

ƏDƏBİYYAT

1. Mirəhmədov Ə. Azərbaycan mətnşünaslığının vəziyyəti və inkişaf perspektivləri. Azərbaycan mətnşünaslığı məsələləri. Bakı: Elm, 1979, 215 s.
2. Məmmədov Z. Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri. Bakı, 1986, 176 s.
3. Fəlsəfə ensiklopedik lüğəti. Bakı, 1997, 520 s.

4. Məmmədov Z. Azərbaycan fəlsəfəsi tarixi. Bakı, 1994, 340 s.
5. Şərifli K. Azərbaycan əlyazma kitabı və kitabxanaları. Bakı, 2009, 190 s.

Сабухи Ибрагимов

ИСТОРИЧЕСКИЕ КОРНИ РУКОПИСНЫХ ТЕКСТОВ СРЕДНЕГО ВЕКА, ОТНОСЯЩИЕСЯ К НАХЧЫВАНСКОЙ КУЛЬТУРЕ

Ученые, просветители Нахчывана, которые славились своим культурным прошлым, литературными средами, своими рукописями и творчеством, дарили Азербайджанской науке и Нахчыванской текстологии ценные произведения. В развитии медицины в средневековом Нахчыване большая заслуга принадлежит Неджмеддину Нахчывани, которой был одним из выдающихся личностей того времени. Он на Ближнем Востоке славился как великий философ и ученый своего времени, одновременно обладал большим и знаниями по медицине. Многие рукописные памятники и тексты, относящиеся к средневековым источникам, говорят о корнях исторической культуры древнего Нахчывана.

Sabuhi Ibrahimov

THE HISTORICAL ROOTS OF THE MIDDLE AGE MANUSCRIPT TEXTS ABOUT THE NAKHCHIVAN CULTURE

In the article it is dealt with the creative work of the famous scientists and thinkers of Nakhchivan, who have given the big gifts to Azerbaijan textual criticism. It is shown that they have made irreplaceable presents to the native Nakhchivan, which had the science literary environment and rich cultural past. One of such big personalities has been Najmaddin Nakhchivani. He had non-substitutive services in the development of the Medicine in the Middle Ages.

It is noted that some manuscript texts about source of the Middle Age inform the basis of historical culture of Nakhchivan today.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

HÜSEYN HƏŞİMLİ
Naxçıvan Dövlət Universiteti
E-mail: hashimli-h@rambler.ru

"YENİ FÜYUZAT" JURNALI VƏ POEZİYANIN YARADICILIQ AXTARIŞLARI

(Akademik İ.Ə.Həbibbəyli tərəfindən təqdim edilmişdir)

XIX əsrin ortalarından etibarən Azərbaycan ədəbiyyatı janr-üslub təkamülünün yeni mərhələsinə qədəm qoyur. Bir tərəfdən, folklordan və klassik ədəbiyyatdan gələn janrlar yeni dövrün tələblərinə uyğun olaraq ideya-məzmun, mövzu-problematika baxımından diqqətəlayiq təkamül keçirir, bir sıra təzə məziyyətlərə yiyələnir. Digər tərəfdən isə cəmiyyətin, dövrün sosial-iqtisadi və mədəni inkişaf mənzərəsinin, yeniləşmə meyllərinin, Avropa ilə artan əlaqələrin spesifikası fonunda Qərb mənşəli bir sıra janrların söz sənətimizə daxil olması prosesi gedir. İyirminci əsrin əvvəllərində janr təkamülü və novatorluğu istiqamətindəki axtarışlar yeni bir vüsət alır. Bu proses lirik janrların timsalında da aşkar müşahidə edilir. Belə ki, bəhs olunan dövrdə həm ənənəvi lirik janrlar müvafiq təkamülə uğrayır, həm də bir sıra yeni janrlar ədəbi mühitdə vətəndaşlıq hüquqi qazanmağa başlayır. Bu da təsadüfi deyildi. Çünki ustad ədəbiyyatşünas, akademik İsa Həbibbəylinin qeyd etdiyi kimi, yeni zaman "ənənəvi poetik formaların üzərində müəyyən yaradıcılıq əməliyyatı aparmağı və ya yeni janrlara müraciət etməyi bir vəzifə kimi qarşıya qoyurdu" (1, s. 61).

Lirikanın təkamül və novatorluğu iyirminci əsrin ilk iki onilliyində "Füyuzat" ədəbi məktəbi nümayəndələrinin yaradıcılığında da qabarıq nəzərə çarpır. 1906-1907-ci illərdə Bakıda çıxan, cəmi 32 saydan sonra bağlanan "Füyuzat" bu baxımdan əhəmiyyətli işlər görmüşdür. 1910-11-ci illərdə Bakıda nəşr olunan "Yeni füyuzat" jurnalı digər sahələrlə yanaşı, poeziyanın yaradıcılıq axtarışlarına rəvac vermək baxımından da öz sələfinə ədəbi sədaqətini nümayiş etdirmişdir.

İlk sayı 18 oktyabr 1910-cu il tarixdə çıxan "Yeni Füyuzat" həmin il oxucularla on bir dəfə görüşmüş, 1911-ci ildə isə on sayın nəşri gerçəkləşmişdir. 15 mart 1911-ci ildə çıxan 10-cu, ümumən isə 21-ci sayından sonra çar hakim dairələri türkçülük, islamçılıq, müasirlik qayəsi daşıyan bu jurnalın fəaliyyətini dayandırmış, onun nəşrinə rəhbərlk edən Əhməd Kamalı və Əlipaşa Sə-

bur Hüseynzadəni Bakıdan sürgün etmişdir.

"Yeni füyuzat"ın "sər mühərrir"i, "Füyuzat"dan tanıdığımız Osmanlı ziyalısı Əhməd Kamal, "sahibi-imtiyazı və müdiri-məsulu" isə Əlipaşa Hüseynzadə idi. "Hər şeydən bəhs edər həftəlik məcmuəyi-müsəvvərə" (şəkilli məcmuə) kimi fəaliyyətə başlayan jurnalda Osmanlı ədəbiyyatından Namiq Kamal, Əhməd Kamal, Cəlal Sahir, Məhəmməd Cəlal, Əşrəf və digərlərinin, M.Ə.Sabir, Ə.Qəmküsar, A.Şaiq, N.Bəsir, Ə.Səbur, B.Seyidzadə kimi Azərbaycan şairlərinin əsərləri ilə yanaşı, dünya klassikasına da müəyyən yer ayrılırdı. L.N.Tolstoy, A.S.Puşkin haqqında məqalələrin, N.A.Nekrasovdan tərcümənin verilməsi və s. bu baxımdan əlamətdardır.

"Yeni füyuzat"dakı şeir nümunələri ilə tanış olduqda onların bir çoxunda təkamül və novatorluğun diqqətəlayiq təzahürü ilə qarşılaşırıq. Hər şeydən öncə, onu deyək ki, jurnalda dərc olunmuş bir sıra şeirlər ənənəvi janrlarda yazılsalar da tematika və problematika baxımından müəyyən yenilik keyfiyyətlərinə malikdir. Belə nümunələrdə ənənəvi mövzuların imkanları daxilində yeni ictimai mündəricənin boy verməsi maraq doğurur. Məsələn, jurnalın 1910-cu ildəki 2-ci sayında dərc olunmuş "Ah, Vətən" şeiri (müəllifi Ə.P., yəni Əlipaşa Səbur – H.H.) ənənəvi poetik formada vətəndaşlıq duyğularının qabarıq ifadəsi ilə səciyyələnir. Şair istibdad məngənəsində əzilən Vətənin yanıqlı halını dilə gətirir:

Olmadıq asudə möhnətdən cahanda bir zaman,
Sıxdı zənciri-əsarət istədikcə bir aman.
Əlaman, zülmündən, ey Zöhhaki-sani, əlaman.
Xanimanlar eylədin viran cahan mülkində sən.
Ah, istibdad ilə məhv oldu əbnayi-Vətən! (2, s. 7).

"Yeni füyuzat"çıların qəzəl, növhə, mərsiyə və s. kimi klassik lirika janrlarına müraciətində tematik təkamül, məzmun yeniliyi daha aşkar görünür. 1910-cu ildə çıxmış 8-ci sayda Əli Ricai Daizadənin "Qəzəl"i özündə cəmiyyət və zamanın ictimai bəlalarını, insan təbiətindəki naqislikləri, cəhaləti klassik üslubun imkanları daxilində əks etdirməsi ilə səciyyələnir:

Cahan çeşmim önündə vadiyi-dəhşətnəmun olmuş,
O vadidə bu insanlar giriftari-cünun olmuş.

Edər əfradi-aləm dürlü-dürlü zülmlər icra,
Sərapa gör bu aləm kim, nasıl dəryayi-xun olmuş...

Həmiyyət görməz oldum firqəyi-islamda, heyfa,
Onun üçün rayəti-iqbalü nüsrət sərnigün olmuş... (3, s. 6).

Yeri gəlmişkən deyək ki, "Yeni füyuzat"ın redaktoru Əlipaşa Hüseynzadənin bir neçə il sonra yazıb "Düşüncə yarpağı" (Bakı, 1915) kitabına daxil etdiyi eyni rədifli qəzəl Ə.Ricainin bu şeirinə nəzirə təsiri bağışlamaqla ənənəvi janrın yeni məzmun axtarışlarına nümunədir:

Çıxıbdır zülm ərşə, gərdişi-dovran dun olmuş,

Sərasər səfheyi-dünya dönüb bir bəhri-xun olmuş.
Bütün yerlər təzəlzüldə, səmadan yağmada atəş,
Məgər xəlq etdiyin insan, xudavənda, cünun olmuş? (4, s. 65).

Lirikanın təkamülünü izləmək baxımından Əlipaşa Səburun "Suziş" şeiri də maraqlı material verir. Müəllif Kərbəla faciələrini, İmam Hüseyn müsibətlərini yanıqlı dillə əks etdirir, "Ən şanlı, şərəfli bir mücahid, övladi – nəbi, Hüseyni-cahid" – deyir. Bununla yanaşı, müsəlman aləminin iyirminci əsrin əvvəllərindəki ağır vəziyyətinə də diqqəti yönəldir: Batsın, batsın bu çərxi-dövran, islam ağlar, yanar müsəlman". Şeirin sonu isə dini məzmunlu qəmgin ovqatın öz yerini Vətənin ağır halından doğan ictimai kədərə, "Əğyar oxuna amac olan Vətənin" xilasına çağırış qayəsinə verir:

Bir səs gəlir, baxın səmadən,
Məvayi-şəhidi – Kərbələdən.
Qurtar Vətəni, deyir, bəladən.
Bir səs gəlir bana dəmadəm.
Tutmaqda cahan Hüseynə matəm (5, s. 7).

Əliqulu Qəmküsarın "Şəhidi-hürriyyət Səid Səlmasinin ruhuna ithaf" şeiri məzmunca mərsiyə xarakterlidir, lakin müəllifin tematik təkamül yönlü poetik kredosu da diqqətdən yayınmır. Klassik lirikadakı dini məzmun daşıyan, yaxud ayrı-ayrı hökmdarların, əyanların ölümünə həsr edilən mərsiyələrdən fərqli olaraq burada Vətən və istiqlal naminə canından keçən gənc şairin amal və əməllərinə bədii ehtiram əsas leytmotivdir. Yəni mərsiyənin özü dərin ictimai mündəricəyə malikdir:

Ah, ey növcavan ki, qəlbində
Daima bəslədin həvayi-Vətən.
Vətən uğrunda, millət eşqində
Laləgun oldu qanlarınla kəfən.

Maraqlıdır ki, Ə.Qəmküsar nakam dostunun unudulmaz xatirəsini, amal uğrunda həlak olduğunu onun öz misralarından istifadə yolu ilə poetikləşdirmişdir. Belə ki, S.Səlmasi "Füyuzat"ın 1907-ci ildəki 25-ci sayında dərc etdirdiyi "Ləyaliyi-iztirar" sonetinin sonunda yazırdı:

Fədayi-məsləkim olmuş həyati-istiqbal,
Nisari-can edən olmazsa, etməz istikmal,
Fəzayi-ərşi-ilahə üruc edən fəryad (6, s. 414).

Ə.Qəmküsar "gələcək həyatını məslək yolunda fəda edən" S.Səlmasinin bu misralarını aşağıdakı kimi işlətmişdir:

Dediyin tək həyati-istiqbal
Oldu axır fədası məsləkinin.
Can nisar etdin, etdin istikmal
Qaim oldu əsası məsləkinin (7, s. 8).

"Yeni füyuzat"dakı bir sıra şeirlərdə poetik strukturun təkamülü də qeydə alınır. Xüsusən Azərbaycan şeirində iyirminci əsrin əvvəllərindən işlənməyə

başlayan yeni qafiyə modeli – dördmisralı bəndlərin qapalı qafiyələnməsi (yəni abba) "Yeni füyuzat"da da nəzərə çarpır. Abdulla Şaiqin "Cəhalətlə mücadilə" (1910, № 7, s. 3), Mirzə Ələkbər Sabirin "Ruhum" şeirləri analoji xarakterdədir:

Boşla bu cismi, cism mən deyiləm,
Sənə müşkül olursa hicranım.
Mən sənin, sən mənim dilü canım,
Mən sənin kəndinəm, bədən deyiləm (8, s. 4).

Bütün bunlar poetexnik novatorluğun təzahürü idi.

"Yeni füyuzat"dakı bir sıra şeirlər xüsusi ahəngdarlığı, müsiqiyə yatımlılığı ilə diqqəti çəkir. Əhməd Kamalın "Tarzən cənab Zeynala" qeydi ilə çap etdirdiyi "Şərqi" məhəbbət duyğularının lirik-emosional təqdiminə səciyyəvi nümunədir, eyni zamanda, o illərin poeziyasında yenicə möhkəmlənən şərqilərin poetik imkanlarının uğurlu təzahürüdür:

Bir zamanlar mən idim taci-sərin,
Şimdi kimdir, gözəlim, dəmgüzərin?
Nerəyə getdi əcəb vədələrin?
Mənə, ey vah ki, əğyar oldun!
Gözəlim, şimdi kimə yar oldun? (9, s. 4)

Azərbaycan ədəbiyyatında ilk nümunələri iyirminci əsrin əvvəllərində yaradılan marş, sonet kimi janrlara da "Yeni füyuzat" biganə qalmamışdır. Əhməd Kamalın "Təraneyi-Vətən" şeiri axıcılığı, çağırış ruhu, səfərbərlik ovqatı, coşqunluğu, emosionallığı ilə əsl marş olmaqla ideya-bədii mükəmməlliyə malikdir. Oxucuları acınacaqlı hala düşmüş Vətənin köməyinə yetişməyə səsləyən şairin çağırışları poetik manifest təsiri bağışlayır:

Vətən əldən gediyor,
Bizə fəryad ediyor,
Yetiş imdadə, diyor.
Yürü, fəryadına gəl!
Vətən imdadına gəl!...
Anamızdır, anamız!
Bunu bizlər qanarız!
Bu uğurda yanarız!
Yürü, fəryadına gəl!
Vətən imdadına gəl!... (10, s.4).

Bu şeir Bakıda 1919-cu ildə çıxmış "Ordu marşları" kitabına da daxil edilmişdir.

"Yeni füyuzat" jurnalında bir sıra sonetlərlə də rastlaşırıq. Diqqətəlayiq nümunələrdən biri Əhməd Kamalın "Gözəlim, açma maziyi" sonetidir (11, s.8). Maraqlıdır ki, bu şeiri Ə.Kamal "Füyuzat"ın 1907-ci ildəki 18-ci sayında dərc etdirmiş, adından sonra da belə bir qeyd vermişdir: "Şekspirin sone təbir olunan nəğmələrinə nəzirədir". Bu isə Ə.Kamalın sonetinin yazılmasında böyük sonet ustadı Vilyam Şekspirin təsirindən danışmağa əsas verir. Lakin bu təsir daha

çox ruh, qayə mövzu və ideya səviyyəsindədir, "İngilis soneti"nin forma əlamətlərinə burada əməl olunmamışdır. Daha doğrusu, Ə.Kamalın soneti "İngilis soneti" yox, italyan soneti formasındadır, yəni iki katren (dördlük) və iki tersetdən (üçlük) ibarətdir. Qafiyələnmə belədir: abab qdqd ppm mmp. O da diqqətdən yayınmır ki, bu soneti Ə.Kamal "Yeni füyuzat"da təkrar dərc etdirərkən əvvəldəki qeydi çıxmış, əvəzində axırda şeirin Misirdə yazıldığını bildirmişdir. Bu isə o deməkdir ki, şair həmin əsəri Bakıya, "Füyuzat"da işləməyə gəlməzdən əvvəl, Misirdə çalışdığı zaman yazmışdır. Həmin sonetdə lirik qəhrəmanın təbəddülatlı ovqatı özünün poetik ifadəsini tapmışdır. Niskilli keçmişdən əsən zəhərli havanın qəlb hərarətini söndürəcəyindən ehtiyatlanan lirik qəhrəman keçmişin qəmli səhnələri ilə aranı qapayan qara pərdənin açılmamasını, ötənlərin məchul qalmasını arzulayır. Xatırladaq ki, V.Şekspirin bir neçə sonetində qara rəngin, qara pərdə məfhumunun müxtəlif semantik çalarları vardır. Çox güman ki, Ə.Kamal "Gözəlim, açma maziyi" sonetini yazarkən belə poetik nümunələrdən faydalanmışdır. Onu da xatırladaq ki, bu sonet hələ "Füyuzat"da çıxandan az sonra Səid Səlmasi "Etmə israr" şeirini yazmış, Ə.Kamalın sonetindən bəzi misraları da əsərinə daxil etmişdi.

"Yeni füyuzat" da başqa bir Osmanlı müəllifi Cəlal Sahirin "Son cavab" soneti "Bədaye-əşar" rubrikasında çap olunmuşdur (12, s. 5). İtalyan soneti formasında yazılan, abab qdqd ppm eem kimi qafiyələnən bu sonet də məhəbbət mövzusundadır:

Sizi heç şimdi sevmiyor ruhum,
Ürəyim qarşınızda bixəlcan.
Kim demiş, eşqimizlə məcruhəm?
Baxınız, gözlərim nasıl xəndan!

Söndü artıq təhəssüri-mazi,
Həp xəyal oldu, şimdi, ox, sizi
İnanın, sevgilim ki, sevmiyoram!

Bir zamanlar odlu məhəbbətlə sevən, lakin həsrətində olduğu eşqi nazənin gözəldən görməyən lirik qəhrəmanın duyğularındakı dəyişiklik, əvvəlki məftunluqdan uzaqlaşması C.Sahirin sonetində əsas yeri tutur.

"Yeni füyuzat" da Azərbaycan şairlərindən Əlipaşa Səburun, Bədrəddin Seyidzadənin də sonetləri dərc olunmuşdur. Jurnalın 1911-ci ildəki 4-cü sayında Əlipaşa Səburun "Hicran" soneti verilmişdir (13, s. 5). Şeirin əvvəlində "Səid bəyə" qeydi vardır. Çox güman ki, bu, Azərbaycan sonetinin ilk yaradıcılarından biri, "Füyuzat"da sonetlər dərc etdirmiş nakam taleli şair Səid Səlmasiyə işarədir. İtalyan soneti formasında, yəni iki vatren və iki tersetdən ibarət olan bu sonetdə lirik qəhrəmanın məhəbbət duyğuları, sarsıntılı ovqatı təsirli bir dillə qələmə alınmışdır:

Ah, Ey sevdiyim, nasıl yaşasın,
Söylə, sənsiz, səni sevən uşşaq?

Ruhumu sənsən eyləyən təskin,
Məni öldür də, məndən olma uzaq!

At üzündən niqabı, ey canan!
Nuri-çeşmindədir bütün əməlim.
Yetişir çəkdiyim qəmi-hicran,
Məni et naili-vəfa, gözəlim!

Sevmişəm, mən səni yenə sevərim,
Sönməsin həsrətinlə nəşələrim!
Məni sən də sevirmisən? Heyhat!

Şad ikən mən neyçin, nədən məhzun
Oldum, olmaqda möhnətim əfzun,
Böylə keçməkdə macərayi-həyat!

Əlipaşa Səburun bu soneti ədəbi mühitdə maraqla qarşılanmış, şair Mir Bədrəddin Seyidzadə eyni adlı sonet-nəzirə yazaraq "Yeni füyuzat"ın son sayında dərc etdirmişdir (14, s. 10). Əsərin adından sonra müəllif özü də "Əli Paşaya nəzirə" qeydini vermişdir. Şeirdə məhəbbətin təbəddülatlı duyğuları, hicranın qəlbdə oyatdığı sarsıntılar özünün poetik təcəssümünü tapmışdır:

Ah! Ey sevgilim, nasıl edəyim?
Bunca əsrari-eşqi dildə nihan?
Gəlir cuşa xuni-dil daim,
Qopur dildə sanki min tufan.

O da maraq doğurur ki, M.B.Seyidzadə Əlipaşa Səburun bəzi misralarını eynilə işlətmişdir. Belə ki, Ə.Səburun sonetindəki ikinci katrenin üçüncü və dördüncü misraları M.B.Seyidzadənin sonetində birinci və ikinci tersetin ilk misraları ilə eynidir. Xatırladaq ki, Ə.Səburun bir sıra digər sonetləri də vardır və həmin əsərlər poeziyamızda bu janrın təşəkkülü mərhələsində mühüm rol oynamışdır.

Deyilənlər göstərir ki, ötən əsrin əvvəllərində Azərbaycan poeziyasının ideya-bədii təkamülündə, novatorluq axtarışlarında "Yeni füyuzat" jurnalının ciddi xidmətləri olmuşdur. Jurnalda həm Osmanlı ədəbiyyatından, həm də Azərbaycan şairlərinin yaradıcılığından dərc olunan müxtəlif janrlı şeirlər (şərqi, marş, sonet və s.) bu baxımdan səciyyəvidir.

ƏDƏBİYYAT

1. Həbibov İ.Ə. Romantik lirikanın imkanları. Bakı: Yazıçı, 1984, 167 s.
2. Əli Paşa. Ah, Vətən // "Yeni füyuzat" jur., Bakı, 1910, №2, s. 7.
3. Daizadə Əli Ricai. Qəzəl // "Yeni füyuzat" jur., 1910, № 8, s. 6
4. Hüseynzadə Əlipaşa Səbur. Zümzümə, düşüncə yarpağı (çapa hazırlayan və

ön sözün müəllifi Hüseyn Həşimli). Bakı: Nurlan, 2004, 72 s.
5. Əli Paşa. Suziş // “Yeni füyuzat”, 1910, № 11, s. 7.
6. Səlmasi Səid. Ləyaliyi-iztirar // “Yeni füyuzat” jur., Bakı, 1907, № 25, s. 414.
7. Nəcəfzadə Əliqulu. Şəhidi-hürriyyət Səid Səlmasinin ruhuna ithaf // “Yeni Füyuzat” jur., 1911, № 2, s. 8.
8. Sabir Ə. Ruhum // “Yeni füyuzat” jur., 1910, № 11, s. 4-5.
9. Ə.K. Şərqi // “Yeni füyuzat” jur., 1911, № 2, s. 4.
10. Kamal Əhməd. Təraneyi-Vətən // “Yeni füyuzat” jur., 1910, № 3, s. 4.
11. Kamal Əhməd. Gözəlim, açma maziyi // “Yeni füyuzat” jur., 1911, № 5, s. 8.
12. Sahir Calal. Son cavab // “Yeni füyuzat” jur., 1911, № 3, s. 5.
13. Əlipaşa. Hicran // “Yeni füyuzat” jur., 1911, № 4, s. 5.
14. Seyidzadə Mir Bədrəddin. Hicran // “Yeni füyuzat” jur., 1911, № 10, s. 10.

Гусейн Гашимли

ЖУРНАЛ «ЕНИ ФИЮЗАТ» («НОВЫЕ ДОСТИЖЕНИЯ») И ТВОРЧЕСКИЕ ПОИСКИ В ПОЭЗИИ

В статье рассматриваются вопросы поэзии в журнале «Ени фиюзат» («Новые достижения»), выходящим в 1910-1911 годах в Баку. На материале журнала исследуются эволюция традиционных лирических жанров, и также произведения, написанные в жанре шарги (стихотворение для пения), марши, сонеты и др.

Huseyn Hashimli

THE JOURNAL “YENI FUYUZAT” AND CREATIVE RESEARCHES IN POETRY

The article have been investigateof the poetry problems in the journal “Yeni Fuyuzat” issued in Baki in 1910-1911. Based on the materials of the journal is investigated the development of traditional lyrical genres, and also the works written in the genres of shargy, march, sonnet.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

İMAN CƏFƏROV
Naxçıvan Dövlət Universiteti
E-mail: altay-1999@yahoo.com

MƏHKUM ŞƏRQƏ MÜNASİBƏTDƏ HAFİZ ŞİRAZİ ŞEİRİ "MOLLA NƏSRƏDDİN" TƏNQİDİ REALİZMİ MÜSTƏVİSİNDƏ

(Akademik İ.Ə.Həbibbəyli tərəfindən təqdim edilmişdir)

İnsanlığa bəlli bütün iqtisadi-siyasi, sosial-mədəni dönəmlərdə bəşəriyyətinin tarixi taleyinin istiqamətləndirilməsi daim Şərqin həlledici təsiri ilə gerçəkləşmiş, eyni səbəbdən hansı epoxanı əhatə etməsinə baxmayaraq dünyanın bu qütbündə baş verən hadisələr fikir adamlarının, müxtəlif birlik və qurumların prioritet mövzusuna çevrilmişdir. Bu sırada Azərbaycan ədəbiyyatı və jurnalistikasının görkəmli nümayəndəsi Cəlil Məmmədquluzadənin redaktorluğu ilə 1906-1931-cı illərdə nəşr olunan, həmçinin ədəbi məktəb və cəbhə yaratmış "Molla Nəsrəddin" jurnalı tərəfindən Şərq məsələsi daha ardıcıl və daha ciddi şəkildə nəzər nöqtəsinə çəkilmişdir. Yeni Şərq tarixi və "Molla Nəsrəddin" probleminin həllində başlıca meyarları müəyyənləşdirən akademik İsa Həbibbəyli yazır: "Şərq aləminə satira günəşi ilk dəfə "Molla Nəsrəddin"dən doğmuşdur. Məhkum Şərqin oyanışı, dirçəlişi və istiqlalı uğrunda geniş, sistemli və ardıcıl mübarizə "Molla Nəsrəddin" dərgisi ilə başlamışdır" (1, s. 634).

Əlbəttə, "Molla Nəsrəddin" ədəbi cəbhəsinin nümayəndələri Şərq probleminin təqdimi və həllində yeri gəldikcə orta əsrlər Yaxın Şərq mütəfəkkir yazarlarının əsərlərinə istinad etmiş, yeni nəsillərə xidmət naminə bütün tarixi mərhələlərdə ədalət və həqiqət axtarıcılığı adlı vahid xeyirxahlıq missiyasını həyata keçirən ölməz sözün vəhdəti və təntənəsinə nail olmuşlar. Qeyd olunan ədəbi prosesin nəticəsidir ki, məcmuənin səhifələrində mütəmadi surətdə Firdovsi (934-1024), Xəyyam (1040-1123), Sədi (1184-1291), Hafiz (1300-1389), Füzuli (1494-1556) kəlamının yeni forma və məzmunda görünməsi, realizm mövqeyindən çıxış etməsi izlənilməkdədir.

Məhkum Şərq məsələsində Hafiz Şirazi şeiri ilə "Molla Nəsrəddin" sənətinin vəhdətini təsdiqləyəcək ilk nümunə məcmuənin 12 may 1906-cı il tarixli 6-cı sayında "Molla Nəsrəddin" imzası çap olunmuş Cəlil Məmmədquluzadənin "Məktub" felyetonudur. Guya Həştərxan müftisi onun rüşvət alaraq kəbinli qadınların kəbinini başqasına kəsməsi haqqında materiallar çap edən müsəlman

qəzetlərindən şikayətlənir, bu cür əməlləri törətməsinin səbəbi olaraq Rusiya dövləti tərəfindən müəyyənləşdirilmiş məvacibinin azlığını bildirir, həmçinin artıq bütün islam düynasında dini rəhbərlər tərəfindən verilən eyni xarakterli hökmlərin adi hala çevrilməsini yazır. Maraqlıdır ki, məktub beş misradan ibarət şeirlə tamamlanır:

Çera dərdi-vətən xordən, nə xordən nano həlvarə,
Çera dər qeydi-millət mordəno həstən müsəmmara.
Həpəndəm gər dəhəm əz dəsti-xod səbzə qovurmara,
"Əgər on torki-Şirazi bedəst arəd dela-mara,
Be xali hinduvəş bəxşəm Səmərqəndo Buxarara" (2, s. 58)

Tərcüməsi: "Nə üçün halva-çörək yeməkdənsə Vətən dərdi çəkirsən (əslində: yeyirsən)? Nə üçün müsəmmanı əldən çıxarıb, millətin dərdinə qalırsan? Səbzi-qovurmanı əldən çıxarsam, axmaq olaram. Əgər o Şiraz gözəli mənim qəlbimi ələ alsa, Səmərqənd və Buxaranı onun qara xalına bağışlaram" (3, s. 708).

Cəlil Məmmədquluzadə tərəfindən yazılan və bir bənddən ibarət bu satirik şeir təxmis formasındadır. Daha doğrusu, bəndin son iki misrası Hafiz Şiraziyə, əvvəlki üç misrası isə "Molla Nəsrəddin"in redaktoruna məxsusdur. Ümumiyyətlə, 1300-1389-cu illərdə yaşadığı təxmin edilən fars şairi Şəmsəddin Məhəmməd Hafiz Şirazi haqqında onun əsərlərinə istinadən bir çox rəvayətlər yaradılmışdır. Elmi ədəbiyyatlarda belə rəvayətlərdən biri aşağıdakı kimi yazıya alınmışdır: "Guya Hafizin:

Əgər on tork-e şirazi bedəst arəd del-e mara
Bexal-e hinduyəş bəxşəm Səmərqəndu Buxarara.

...beyti olan şeirini Teymur oxumuş, bərk qəzəblənmiş, Hafizi çağırıb demişdir: "Mən dünyanı fəth etdim ki, Səmərqənd ilə Buxaranın şöhrətini bütün aləmə yayım, sən nə cürət edirsən, mənim ən gözəl şəhərlərimi bir qara xala verirsən?" Hafiz cavab verir: "Ey dünyanın fatehi, mən elə deməmişəm, demişəm ki, əgər o gözəl qəlbimi ələ gətirsə, onun qara xalına se mən qəndu (üç batman qənd) və do xurmara (iki xurma) bağışlaram"" (4, s. 5).

Şərq, o cümlədən Azərbaycan şerində lirik janrın nisbətən azyayılan formalarından biri təxmisdir. Bu janrın az işlənilməsinə səbəb bədii formanın çətinliyidir. Təxmis beşləmə deməkdir. Yəni bu şerdə hər bənd beş misradır. Lakin həmin beş misranın üçü müəllifə, son ikisi isə başqa şairə aid olur. Şübhəsiz ki, məhz söz sənətinin ustad nümayəndələri sənətkarlıq qüdrətinə, bacarığına güvənərək ayrı-ayrı təxmislər qələmə almışlar. Məsələn, Füzuli Həbibinin bir qəzəlini təxmis etmişdir. Bu zaman təxmis edilən qəzəlin nə dərəcədə məşhurluğu da nəzərdə saxlanılmalıdır. Bütün bu prinsiplərə ciddi şəkildə əməl edən Cəlil Məmmədquluzadə böyük bir müvəffəqiyyətlə Hafiz Şirazi şeirini yenidən dövriyyəyə gətirmiş, XIV əsr romantikasından XX əsr tənqidi realizmi xeyrinə dahiyanə şəkildə faydalanmışdır.

Qeyd edək ki, Hafiz Şirazinin "Əgər ol türki-şirazi bizə lütf etsə pünhani" misrası ilə başlayan qəzəlində əsrarəngiz bir romantikanın tilsiminə düşmüş

lirik qəhrəman həyatın mənasını yalnız gözəlliyə sitayişdə, mey və məhəbbət ovsunu ilə yaşamaqda görür, məhəbbətin xəyali şirinliyi müqabilində dünyanın bütün acı tərəflərini bir heç sanır:

Əgər ol türki-şirazi bizə lütf etsə pünhanı,
O hindu xalinə verrəm Səmərqəndi, Buxaranı.
...Acı sözlər şirin ləbdən mənimçün nuş olur cana,
Onun tək şəhdü şəkər yox, dolansın külli dünyanı.
...Danış sən meylə mütrübdən, burax əsrarı dünyadə
Ki, xilqətdə açan yoxdur əzəldən bu müəmmanı (4, s. 13).

"Molla Nəsrəddin"in müdiri və baş mühərriri, həmçinin eyni adlı ədəbi sənət mübarizəsinə başçılıq edən Mirzə Cəlil XIV əsr şairi Hafiz Şirazinin haqqında söz açılan qəzəlinin ilk beytindəki misraları ayrı-ayrı məqamlarda bir neçə dəfə diqqətə çəkmişdir ki, bu isə artıq məsələnin mahiyyətinin daha dərindən aydınlaşdırılması zərurətini meydana çıxarır. Qeyd edək ki, yalnız qəhrəmanlıq və məhəbbətdən bəhs edən Şərq klassik romantik ədəbiyyatına, o cümlədən Hafiz Şirazi yaradıcılığına münasibətdə jurnalın redaktoru digər mollanəsrəddinçilərlə müqayisədə daha radikal mövqe tutmuşdur. Fikrimizcə, qüdrətli yazıçı Cəlil Məmmədquluzadə böyük sənətə xas ola biləcək romantikanın bütövlüklə Şərq cəmiyyətinə, o cümlədən saraylara, hökmdarlara hakim kəsilməsində sonradan qarşısı alına bilməyən bir faciə görmüş, özləri ilə həyat arasında dərin bir uçurum yaradan imtiyaz sahiblərini ruhi oyanışa, romantikadan ayrılmağa çağırmışdır. Bu baxımdan dərginin 8 dekabr 1906-cı il tarixli 36-cı sayında "Molla Nəsrəddin" imzası ilə çap olunmuş "Qarnıyoğunlar" başlıqlı felyetonun xüsusi təhlilinə ehtiyac vardır. Felyetonda əsas tənqid hədəfi hakim təbəqə nümayəndələrinin xalq və millət taleyinə biganəliyidir. Daha acınacaqlı hal isə həmin biganəliyin mənəvi deqradasiya ilə nəticələnməsi – İran kənd və şəhərlərinin hökumət əsgərləri tərəfindən talan edilməsi, "mədrəseyi-ruhaniyyə" pullarının elə ruhani rəislərin əli ilə mənimsənilməsi, İrəvan və Qarabağda azərbaycanlılar aclıqdan öldüyü halda mülkədarların öz şəxsi mənfəətlərini düşünməsidir. Müəllifin fikrincə, eyni məzmunlu laqeydlik böyük türk dünyasını məhvə sürükləməkdə, faciənin dərinliyindən bəhs edən "Molla Nəsrəddin" jurnalı isə mühafizəkar güclərin ən müxtəlif formalarda təqib və təhdidlərinə məruz qalmaqdadır: "Osmanlı konsulu idarəmizə sifariş göndərir ki, bir də Sultan Həmidin pisliyini yazsaz, yəni bir də yazasınız ki, Osmanlının xariciyyə vəziri gəlib soltana ərz edəndə ki, soltan sağ olsun, Yevropa hökumətləri Kriti hazırlaşırlar versinlər yunan padşahına, Soltan Əbdülhəmid yunanlı hərəmini yanına çağırıb deyir: bəxali-hinduyət bəxşəm Krit və Şam və Bosnara, İstanbula yazaram "Mol-la Nəsrəddin"i Osmanlı torpağına qoymasınlar" (2, s. 299).

Göründüyü kimi, Cəlil Məmmədquluzadəni narahat edən yalnız cəmiyyətə hakim kəsilmiş cəhalət, nadanlıq, elmsizlik, xurafat deyil, bütövlüklə Şərq despotizminin çürüklüyü, bu səbəbdən Şərq xalqlarının taleyinin Avropa dövlətləri tərəfindən müəyyənləşdirilməsidir. Əlbəttə, "Qarnıyoğunlar" felyetonun-

da Sultan Əbdülhəmidin bütün olaylara rəğmən problemlərə Hafiz sözü ilə aydınlıq gətirməsi simvolikdir. Başqa sözlə, başı hərəmxanasında romantik əyləncələrinə qarışan hökmdarın məmləkətinin hissə-hissə əlindən alınması labüddür. Hər halda Sultan Əbdülhəmidin hakimiyyətdə olduğu 1876-1909-cu illərdə Krit məsələsi bütün türk dünyası üçün mənfi nəticələnmişdir: "1877-1878-ci illər müharibəsində məğlub olan Osmanlı 1878-ci il, oktyabr ayının 23-də Halera anlaşmasını imzaladı. Bu anlaşmaya əsasən, yenidən qiyam qaldıran Krit yunanlarına muxtariyyət verildi. Adanın valisi müsəlman, yardımçısı xristian oldu. Krit baş məclisi 49 xristian və 31 müsəlmandan təşkil edildi. Yunan və türk dili də rəsmi dil oldu... 1896-cı ildə adada qiyamlar yenidən baş qaldırdı. Yunan prinsi Georgi həmin il adaya qoşun çıxardı. Osmanlıya isə Georgiyə qarşı çıxmağa nəinki imkan verilmədi, əksinə, onu adadakı əsgərlərinin sayını azaltmağa məcbur etdilər. 1900-cü ildə prins Georgi türklərin Kritdəki son qalası olan Hanyanı da ələ keçirdi. 1908-ci ildə adanın ali məclisi Kritin Yunanıstana ilhaqını elan etdi" (5).

"Molla Nəsrəddin"in oxucusu Hafiz Şiraziyə məxsus eyni misraların müəyyən dəyişikliklərə uğramış formasına jurnalın 29 noyabr 1909-cu il tarixli 48-ci sayındakı "Teleqraf. Xüsusi müxbirimizdən" başlıqlı materiallarda da rast gəlir. Əlbəttə, bu teleqraf xəbərlərinin məzmunu tamamilə satiradan ibarətdir və guya Buxarada "alişani-əmrədnişan Xaldar beççənin" 25 yaşının tamam olması münasibətilə Səlanikdən eks sultan Əbdülhəmid, öz ünvanını daim "şövkətməab" (ali məqam – İ.C.) bilən "eks qibleyi-aləm Məmdəli", Ərdəbildən Rəhim xan, Qubadan Molla Hacıbala, Qaradağdan Molla Qurbanəli, Şamaxıdan Kosa Hacı Həmid, Şəkidən Ciqayev, Axalsixdən İskəndər bəy təbrik teleqramları göndərmişlər. Satirik teleqramlar içərisində həcmcə ən böyüyü Rəhim xana məxsusdur: "Ərdəbil. Bəhüzuri-Əlahəzrət. Yövmi-mübarəkinizi cümlə Şahsevən əyalətinə, xüsusən axırıncı Ərdəbil müzəffəriyyətində ümummüsəlman aləminin rəğbətini qazanan poladlı və xocabəylilər ilə təbrik edib bəççeyi-yektanın ömürlərinə duagu və sənaxan varıq.

Əgər an bəççeye bisto pənc bədəst arəd deli-mara;

Bexali-Bəlxvəş bəxşəm Sərab, Ərdəbilra ra.

İmza: Qaimməqami-qibleyi-aləm Rəhim" (6, s. 294).

Ümumiyyətlə, "Molla Nəsrəddin"dəki məşrutə hərəkatı ilə bağlı materiallarda azadlıq düşməni olması səbəbindən daim nifrətlə lənətlənən mütləqiyyət nümayəndələrindən biri Rəhim xandır: "1908-ci ilin yayında Qaradağlı Rəhimxan 500 aslısı ilə Səbriz məşrusəçiləri üzərinə hücum çəkdi. Mərəndli Sücanizam da Səbrizin şimalında Rəhimxana qoşuldu. Onlar mərkəzi hökuməsin Mir Haşımın başçılığı alsında Səbriz üzərinə yeridilmiş qoşunla birləşib şəhəri hər sərəfdən üzük qaşı kimi mühasirəyə aldılar" (7).

"Molla Nəsrəddin"in guya Rəhim xan tərəfindən "alişani-əmrədnişan Xaldar beççə"yə göndərilmiş teleqram xəbərində müəyyən qədər zahiri fon yaradan iki misra daha ciddi mətləblərdən xəbər verməkdədir. Teleqramın Rəhim

xanın adına çıxılan mətnində "Molla Nəsrəddin" satirasının birbaşa özlərini ölkə başçısı sayaraq Vətən adlı müqəddəs diyarı hərraca qoyanlara ünvanlanması açıq-aşkardır. Rəhim xana məxsus təbrikin Hafiz şeirinə oxşar misralarla tamamlanması isə Şərq mütləqiyyət nümayəndələrinin istinad etdiyi ədəbi estetikaya işarədir. Başqa sözlə, böyük Mirzə Cəlilin qənaətincə, əsrlər boyu ədəbi simaların yaratdıqları qeyri-adi romantikanın təsiri altında yaşayan Şərq hökmdarlarının öz məmləkətlərinin taleyinə biganəlikləri tamamilə təbiidir. "Molla Nəsrəddin" adlı ədəbi məktəbin öndəri bu mövqeyini məcmuənin 7 mart 1910-cu il tarixli 10-cu sayında çap olunmuş "İrs" sərlövhəli felyetonda daha aydın şəkildə ifadə etmişdir. Daha doğrusu, felyetonda müəllifin əsas tənqid hədəfi taxt-tacda qalmaq naminə Vətəni xaricilərə satan ölkə başçılarıdır: "Bu məsələ, necə ki, lazımdır diqqət eləmirik. İranlılar yapışıblar Molla Nəsrəddinin yaxasından və elə bilirlər ki, "Molla Nəsrəddin" olmasaydı ingilis hökuməti İrana bac verəcək idi. Ta demirlər ki, xeyr, baba, vallah, tallah belə deyil. İran çoxdan satılıb. Əgər hirsiniz cuşa gəlib, axtarın mərhumların qəbrlərini tapın və bir balaca daş yerdən götürüb durun qəbrin baş daşının üstündə və səkkiz dəfə dıqqıldadıb Hafizin bu şeirini Bayatı-Şiraz havası ilə oxuyun:

Dərdü qəm on kəsi ki, mərdi-üqul,
Nə berahü, nə şiveyi, nə üdul.
Bamədadan ki, mah həfti-həsar
Nə zəli, tısbağa, çalar səni mar" (6, s. 423).

Əlbəttə, bu misraların müəllifi kimi Hafiz Şirazidən bəhs etmək qeyri-obyektivlik olar. Qəti şəkildə demək mümkündür ki, "İrs" felyetonunun ayrı-ayrı hissələrində yer tutan iki dörd misralıq nəzm parçası Cəlil Məmmədquluzadəyə məxsusdur və müəllif sadəcə sözləri bir-birinə calayaraq sanki şer yaratmışdır. Lakin həmin misraların təsadüfən mətnə əlavə edilməsini düşünmək də doğru deyil. Bəli, "Molla Nəsrəddin"in prinsiplərinə görə, bir məmləkətin şairi gözəlin yanağındakı xala şəhərlər bəxş etmək fəlsəfəsi ilə yaşayırsa, o məmləkətin imtiyazlı təbəqə nümayəndələri tərəfindən hissə-hissə xaricilərə satması labüddür. Eyni zamanda Cəlil Məmmədquluzadə Vətənin hərrac bazarına çəkilməsində elm, fikir sahiblərini də günahlandırmış, bir ideya adamı olaraq onların bu işdə böyük məsuliyyət daşıdıqlarını vurğulamışdır: "Sual: Nəsrəddinlər, müzəffərəddinlər Vətəni yavaş-yavaş torqa qoyanda nə vaxt üləmamız tərəfindən avam camaata işarə olundu ki, "ey yazıqlar, huşyar olun! Vətən əldən gedir!" (6, s. 423).

Qətiyyətlə demək olar ki, "Molla Nəsrəddin" ədəbi məktəbinin hər bir nümayəndəsi ölkələrin və xalqların tarixi taleyində söz sahiblərinin təsirini məxsusi dəyərləndirmiş, klassik ədəbiyyatın yaratdığı illuziyanın cəhalət və xurafat qədər təhlükəli olması mövqeyində dayanmış, bu səbəbdən bütöv bir Şərq ədəbiyyatını təmsil edən müəllif kimi Hafiz Şirazini yada salmışlar. Məsələn, məcmuənin 01 sentyabr 1910-cu il tarixli 33-cü sayındakı "Tehran xəbərləri" başlıqlı yazıda şaban ayının yeddinci günü milli məclisdə Şeyx Fəzlullahın təqdim

etdiyi "qanuni-əsasiyə" uyğun şəkildə Hacı Mirzə Zeynalabdin Qumi, Seyid Əbülhəsən İsfahani, Hacı Mirzə Seyid Əli Hairi, Ağa Seyid Həsən Müdərrisi-Qəmşeyi, İmami-Cümə Xoyinin ibarə heyətinə seçildiyi bildirilir. Doğrudur, ilkin yaranan təəssürata görə, sanki "müxbir" İran milli məclisinin idarə olunması üçün belə bir heyətin seçilməsini alqışlayır. Daha düşündürücü cəhətsə yenə də xəbərin Hafiz Şirazi sözü ilə bitməsidir: "Allah mübarək eləsin! İndi soruşsanız ki, bəs niyə beş nəfər təyin olundu, artıq-əskik olmadı? – Əlbəttə, bunun cavabı məlumdur: çünki əllərin və ayaqların barmaqları beşdir. Genə desəniz ki, barmaqlar nə üçün beş dənə xəlq olunub? Cavab odur ki, məclisi mərhum "Müsavirül-ənvar kitabında yazdı ki, "pənctəni-ali əba" beş nəfərdirlər. Xülasə, nə yaxşı deyib Xacə Hafiz:

Səngini bədəni-xodra bər payi-çər əndazəd"" (6, s. 611).

İran milli məclisinin idarə heyətinə beş nəfər seyidin seçilməsi hadisəsinin "Ağır adamın öz ağırlığını sol ayağının üstünə salması" aforizmi ilə dəyərləndirilməsi məsələnin mahiyyətinə daha dərindən nüfuz edilməsi zərurətini meydana çıxarır və istər-istəməz oxucu bu heyətin ölkəni hara aparacağını düşünür. Ümumiyyətlə, Şərq üçün xüsusi önəm daşıyan bu problem mollanəsrəddinçilərin yaradıcılığında geniş yer tutmuşdur. Eyni səbəbdən dərginin 1910-cu ilə aid 33-cü sayındakı "Tehran xəbərləri"ni yeni tipli realist şeirin böyük ustadı Mirzə Ələkbər Sabir tərəfindən hələ 1908-ci ildə qələmə alınan "Osmanlılar, aldanmayın allahı sevərsiz!" satirasının nəsrlə yazılmış davamı da adlandırmaq mümkündür. Başqa sözlə, Mirzə Ələkbər Sabirin tənqid güzgüsündə qaragüruhçu müctəhidlərin idarə etdiyi milli məclis artıq bir ibrət dərsidir:

Şad olmayın, ey sevgili millət vükəlasi,
Osmanlıda cari ola qanuni-əsasi!
Qanuni-əsasi demə, iranlı əzasi,
İranlıların başlarının qanlı bəlasi,
Oğlanları ölmüş analar matəmi, yasi,
Derlərsə sizə var bu işin sonra səfasi,
Aldanmayın, aldanmayın, Allahı sevərsiz!
İranlı kimi yanmayın, Allahı sevərsiz!

Ya liləcəb, osmanlılar, aya, nə qanırsız?
Qanuni-əsasi verilib ya inanırsız?
Mir Haşimü Fəzlullahınız yoxmu sanırsız?
Əskik deyil onlar, vəli, sizlər nə tanırsız!
Bir gün tanıyıb onları labüd usanırsız,
Ancaq usanırsız da, qanə boyanırsız!
Qansızları gic qanmayın, Allahı sevərsiz
İranlı kimi yanmayın, Allahı sevərsiz! (8, s. 138)

Maraqlıdır ki, Hafiz Şirazi sənətinin timsalında orta əsrlər Şərq ədəbiyyatına münasibət məsələsində Mirzə Ələkbər Sabir mövqeyi müəyyən mənada

"Molla Nəsrəddin" jurnalının redaktoru Cəlil Məmmədquluzadənin mövqeyindən fərqlidir. Daha doğrusu, XX əsr Azərbaycan ədəbiyyatında yeni tənqidi realist şeirin böyük ustadı Mirzə Ələkbər Sabirin möhtəşəm sənət dünyasında Hafiz Şirazinin özünəməxsus yeri və məqamı vardır. Başqa sözlə, mollanəsrəddinçi şairin bir sıra əsərlərində forma və məzmun etibarilə Hafiz Şirazi sənətindən novatorcasına faydalanmanı müşahidə edirik. Fikrimizcə, Sabir realizmində Hafiz Şirazi ədəbi irsi nəzərə alınmaqla ənənə və novatorluğu təsdiqləyəcək ən mükəmməl nümunə "Molla Nəsrəddin" jurnalının 25 aprel 1910-cu il tarixli 16-cı sayında nəşr olunmuş "Ədəbiyyat" başlıqlı satirik şeirdir.

Mirzə Ələkbər Sabir forma etibarilə çox mürəkkəb quruluşda yazılmış öz əsərinə Hafizin bir qəzəlindən seçdiyi bir mətlə beytlə başlasa da, XIV əsrdə yaşamış həmkarından yalnız "Dərda ki, razi-pünhan xahəd şod aşikara" misrasını əxz etmiş, İran üçün xarakterik ictimai hadisələrin mahiyyətinə aydınlıq gətirəcək yeni formalı bir satirik əsər yazmışdır. Maraqlıdır ki, Sabirin təzmin əsasında qələmə alınan həmin satirasının klassik Şərq şeirinin hansı şəklinə uyğun yazıldığını söyləmək çətindir. Çünki, əsərin əvvəlində Hafiz Şiraziyə məxsus beyt müəyyən qədər epiqraf təsiri bağışlayır. Sabir öz satirasını yeni qafiyə sistemi ilə başlayır və bəndləri Hafizin misrası ilə bitirir:

"Dil mirəvəd zidəstəm, sahib dilan xudara,
Dərda ki, razi-pünhan xahəd şod aşikara!"

Asudəlik bu saət yerdən göyə cahanda
Var isə vardır ancaq İranda hər məkanda:
Təbrizdə, Sərabda, Xalxalda, Xançobanda,
Qeyrətli Şahsevəndə, hər anda, hər zamanda,
Lorlarda, Şıx-gözəldə, Keşkanda, İsfəhanda,
Tehranda, əncümində, kabnetdə, parlamanda,
İşlər bütün həqiqət, sözlər bütün güvara,
"Dərda ki, razi-pünhan xahəd şod aşikara!" (6, s. 471)

Mirzə Ələkbər Sabirin fars şairi Hafiz sənətinə hörmət və ehtiramı satira ustasının müasirləri tərəfindən də təsdiqlənməkdədir. Daha doğrusu, "Molla Nəsrəddin" ədəbi məktəbinin böyük nümayəndəsi haqqındakı xatirələrdən aydın olur ki, Sabir hələ gənc yaşlarından Şərq klassik ədəbiyyatını dərindən mənimsəmiş, Sədi Şirazi, yaxud Hafiz Şirazi şeiriyyətinin üfüqlərinə dair dolğun təsəvvürə malik olmuşdur. Məsələn, Sultan Məcid Qənizadənin "Sabir haqqında kiçik bir xatirə" başlıqlı yazısında Sabirin böyük klassiklərə münasibəti ilə bağlı aşağıdakı sətirlər xüsusilə maraq doğurur: "Bir axşam Mahmud əminin evində qonaq idik. Sabir də dəvət olunmuşdu. Müəllim yoldaşlar onun rübailərindən oxuyub müzakirə edirdilər... Bizim bu söhbətimizdə Sabir əsla iştirak etmədiyi halda ancaq məsələnin axırında öz-özü ilə danışırmış kimi, dodağının altında yavaşdan oxudu:

Kərimlərdə kərəm vardır, dirəm yox.

Ləimlərdə dirəm vardır, kərəm yox!..

Sədidən tərcümə olunan bu bir beyt hamının xoşuna gəldi. Hətta yoldaşlardan birisi mübaliğə edərək, fəsahətdə Sabiri Sədidən yüksək qoymaq istədi. Amma Sabir özü xəcalətdən başını aşağı salaraq bərkdən dedi:

- Həzərat! Xacə Hafizin dili ilə deyirəm: "Ustadi-süxən Sədist". Doğrudan da, Sədi ustaddır. Onun müqabilində bizim kimilər şeir pinəçisidirlər" (9, s. 31).

Digər mollanəsrəddinçi şair və publisistlərin Hafiz sənətinə xitabında isə bir epizodiklik mövcuddur. Fikrimizcə, Ə.Qəmküsarın "Qarğalar" felytonunda sadəcə Hafiz Şirazinin yada salınması "Molla Nəsrəddin" ədəbi məktəbi nümayəndələrinin klassik irsə yüksək ehtiramını ifadə etməkdədir.

ƏDƏBİYYAT

1. Həbibbəyli İ. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007.
2. Molla Nəsrəddin. 12 cilddə, I c., Bakı: Elm, 1988.
3. Məmmədquluzadə C. Əsərləri. 3 cilddə, II c., Bakı: Azərbaycan EA nəşriyyatı, 1967.
4. Əkrəm Cəfər. Hafiz Şirazi və əsərləri. Hafiz Şirazi. Seçilmiş əsərləri. Bakı: Öndər, 2004, s. 5.
5. "Zaman" qəz., 4-5 noyabr 2010.
6. Molla Nəsrəddin. 10 cilddə, III c., Bakı: Çinar-Çap, 2005.
7. hssp:// ramin77. azersays.com.
8. Mirzə Ələkbər Sabir. Hophonamə. Bakı: Yazıçı, 1992.
9. Sabir xatirələrdə. Bakı: Gənclik, 1982.

Иман Джафаров

СТИХОТВОРЕНИЯ ХАФИЗА ШИРАЗИ ИЗОБЛИЧАЮЩИЕ ОБРЕЧЕННЫЙ ВОСТОК, В ПРИЗМЕ КРИТИЧЕСКОГО РЕАЛИЗМА «МОЛЛЫ НАСРЕДДИНА»

В статье проясняются причины и цели обращения к литературному наследию Хафиза Ширази представителей литературной школы «Молла-Насреддина». Было установлено, что позиции Джалила Мамедгулузаде и Мирзы-Алекпер Сабира по отношению к поэзии Хафиза Ширази серьезно отличаются друг от друга. Подходя с радикальной точки зрения к стихотворениям Хафиза Ширази, Д.Мамедгулузаде учитывал литературную эстетику, на которую опирались представители восточной поэзии, но Сабир, вдохновляясь стихами того же поэта, ссылался к принципам традиции и новаторства.

Iman Jafarov

HAFIZ SHIRAZI'S POEM IN RELATION TO SENTENCED EAST. "MOLLA NASRADDIN" IN THE PLANE OF CRITICAL REALIZM

The reasons with which purpose and aim the representatives of literary school of "Molla Nasreddin" have resorted to Hafiz Shirazi's literary heritage was elucidate in the article. It is defined that in the instance of Hafiz Shirazi's trade the relation facts to middle ages East literature Jalil Mammadguluzadeh's and Mirza Alakbar Sabir's position seriously differ from each other. Approached with the radical position to Hafiz Shirazi's trade J.Mammadguluzadeh intend to literary aesthetics which the representatives of East absolutism based on, but Sabir benefiting by the poems of the same poet was based on traditions and innovation principles.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

RAMİZ QASIMOV
AMEA Naxçıvan Bölməsi
E-mail: ramizasef@yahoo.com.tr

XI-XIII ƏSRLƏRDƏ NAXÇIVANDA ƏDƏBİYYAT
(*Akademik İ.Ə.Həbibbəyli tərəfindən təqdim edilmişdir*)

Naxçıvan diyarı zəngin ədəbi ənənələrə malikdir. Azərbaycan xalq ədəbiyyatında Naxçıvan motivləri mühüm yer tutur. "Kitabi-Dədə Qorqud" dastanının boylarında Naxçıvan bölgəsi ilə səsləşən süjetlərə, yer və yurd adlarına rast gəlinir. Qorqudşünaslar dastandakı "Basatın Təpəgözü öldürdüyü boy" və "Bəkil oğlu İmran" boylarında cərəyan edən hadisələrin, əsasən, Naxçıvanla bağlı olduğunu göstərmişlər. Naxçıvan süjetləri, toponimləri və qəhrəmanları "Koroğlu", "Əsli-Kərəm", "Qaçaq Nəbi" dastanlarında da mövcuddur. Naxçıvan folklorunda Azərbaycan şifahi xalq ədəbiyyatının bütün janrları təmsil olunmuşdur. Əsasən, bu diyara xas olan janrlar (haxışta, gülümey, yallıbaşı mahnılar) və nümunələr də vardır. Diyarda xalq ədəbiyyatının mühüm qollarından olan aşıq sənəti də (əsasən, Şərur və Şahbuz rayonlarında) inkişaf etmişdir (10). Doğrudur, mənbələr Azərbaycan ədəbiyyatının qədim və orta əsrlər dövrü ilə bağlı sənədlərin olmaması üzündən çox xəsisliklə danışır. Ərəblərin və digər istilaçı yürüşlərin dağıdıcı təsirindən Azərbaycan, o cümlədən Naxçıvan ədəbiyyatının qədim dövrlərindən danışmaq heç də asan deyil. Faktların yoxa çıxması bu dövrün ədəbiyyatından danışmağı rəsmən heçə çıxarır. Ancaq hörmətli akademik İsa Həbibbəyli də özünün "Naxçıvanda ədəbiyyat, ədəbiyyatda Naxçıvan adlı" məqaləsində ciddi arqumentlər göstərməklə qədim və orta əsrlərdə Naxçıvanda ictimai fikir, elm, mədəniyyət, ədəbiyyat, maarifçiliyin geniş şəkildə inkişaf tapdığını qeyd edir (4, s. 4). Bunu əsaslandırmaq üçün beş ciddi arqument, əsas gətirən alim bütün bunların səbəbini, birinci, Naxçıvanın "insanlığın ən uzaq tarixi dövrləri və böyük dünyəvi hadisələrilə" əlaqəli görməkdə, xalq yaradıcılığının zəngin beşiyi olmaqda, ikincisi, "Kitabi-Dədə Qorqud" boyları və digər folklor materiallarının – dastanların, nağılların, əfsanələrin Naxçıvanla birbaşa bağlılığında, üçüncüsü, Naxçıvanın ta qədimdən əhəmiyyətli strateji iqtisadi marşrutlar, o cümlədən qədim Karvan yolu, İpək yolu və s. üzərində yerləşməsi, şəhərsalma mədəniyyətinə sahib olması, intibaha beşiklik etməsi kimi faktlarla bağlamış, dördüncüsü, ta qədim zamanlardan Naxçıvanda bir neçə iri

yaşayış məskəninin – Naxçıvan, Ordubad və Culfa kimi şəhərlərin olması ilə, beşincisi, tarixin müxtəlif dövrlərindən Naxçıvanın paytaxt şəhər olması, burada müxtəlif tipli iri dövlət qurumlarının yaranması və inkişafında görmüş, burada elmi-maarifçi və ədəbi-mədəni mühiti şərtləndirən amillər kimi göstərilmişdir (4, s. 3-4). Alim yazır: "Ən müxtəlif tarixi dövrlərdə Naxçıvanda yaşayıb-yaratmış Əcəmi Əbubəkr oğlu Naxçıvani, Qətran Təbrizi, Əsədi Tusi, Kəmaləddin Naxçıvani, Əbubəkr ibn Xosrov, Əmirəddin Məsud, Cəmaləddin Naxçıvani, Aşıq Alı, Ağ Aşıq, Heyran xanım, Qönçəbəyim və Naxçıvandan çıxmış Həddad ən-Nəşəvi, Əhməd ibn Hacat Əbubəkr ən Nəşəvi, Əbu Abdullah Nəşəvi, Həsən ibn Ömər Naxçıvani, Nəsirəddin Tusi, Nəcməddin Naxçıvani, Məhəmməd Hinduşah Naxçıvani, Baba Nemətullah Naxçıvani kimi şairlər, alimlər, mütəfəkkirlər, siyasətşünaslar, memarlar, el sənətkarları Naxçıvanda mövcud olmuş dövlət tipli qurumların formalaşdırdığı ictimai, ədəbi-mədəni mühitdə yetişib formalaşmışlar. Bütün bunların sayəsində qədim və orta əsrlərdə Naxçıvanda ictimai fikir, elm, mədəniyyət, ədəbiyyat, maarifçilik geniş şəkildə intişar tapmışdır. Orta əsrlər Azərbaycanına və uzun bir tarixi mərhələdə Yaxın Şərqə Naxçıvan böyük elmi-ədəbi simalar, görkəmli ictimai xadimlər bəxş etmişdir" (4, s. 4).

1136-cı ildə Atabəy Şəmsəddin Eldənizin ciddi hərbi-siyasi fəaliyyətilə yaranan Azərbaycan Atabəylər dövlətinin paytaxtı 1146-cı ildə Naxçıvan vilayətini öz mülklərinə birləşdirməsilə Naxçıvana köçürülür. 1146-cı ildən 1161-ci ildə Həmədanın tutulması və paytaxt olmasına qədər Naxçıvan Atabəylər dövlətinin paytaxtı oldu (3, s. 191). Bundan sonra Naxçıvan paytaxt olmasa da, sonrakı dövrlər Azərbaycan Atabəylər dövlətinin ən iri vilayətlərindən biri idi. Təsadüfi deyildi ki, Atabəylərin əsas xəzinəsi də Naxçıvanda Əlincə qalasında saxlanılırdı (3, s. 200). Azərbaycan Atabəyləri dövlətinin paytaxtını Naxçıvan şəhərini seçməsilə Naxçıvanda digər sahələr kimi ədəbi-mədəni sahədə də çox ciddi çiçəklənmə, intibah baş vermişdir. Bu dövrdə paytaxtı – mərkəzi Naxçıvan olmaqla yeni saray ədəbiyyatı yaranır və dövrün ədəbi prosesinə yön verir. Əlbəttə ki, sarayda yaranan ədəbiyyat o dərəcədə ciddi ədəbiyyat hadisəsidir ki, ondan kənardakı ədəbi yaradıcılığa da təsirsiz qalmır. Özünəməxsus ədəbi ənənələr – mövzu, forma, janr xüsusiyyətləri ilə formalaşan və meydana çıxan saray ədəbiyyatı saraydan kənarda meydana çıxan demokratik ədəbiyyatdan – istər yazılı, istərsə də xalq ədəbiyyatından məzmunca fərqlənsə də, dövrün aparıcı məsələlərini əks etdirmək, saray üçün əhəmiyyətli hesab olunan hadisələri işıqlandırmaq baxımından çox vacib və əhəmiyyətlidir. Beləliklə, sarayda mərkəzləşən və saray maraqları üzərində meydana gələn ədəbiyyat olmaqla, Azərbaycan Atabəyləri paytaxtı olmaqla geniş bir zaman çərçivəsində müəyyənləşən Naxçıvan ədəbi mühiti özünün əvəzsiz şəxsiyyətləri və qiymətli ədəbi əsərləri ilə Azərbaycan intibahını və bu intibaha xidmət edən zəngin ədəbi xəzinəni yaradır. Bu dövrlər ərzində paytaxtı Naxçıvan olan Azərbaycan Atabəyləri dövləti ərazisində formalaşan ədəbiyyat da, digər mədəniyyət sahələri də məhz bu

mərkəz ətrafında müəyyənləşir, Naxçıvan mədəniyyət hadisəsini özündə əks etdirir, onun təsirləri və istiqamətləndirməsi şəraitində meydana çıxır. Mənbələrdə də göstərildiyi kimi, Azərbaycan atabəyləri "Yaxın və Orta Şərqin görkəmli şair və ədiblərini, alim və mütəfəkkirlərini Gəncə, Naxçıvan və Təbrizdəki saraylarına yığaraq Azərbaycanda ədəbiyyat və incəsənətin inkişafı üçün geniş şərait yaratmışdı"lar (1, s. 405).

Azərbaycan atabəyləri elmin, sənətin, mədəniyyətin inkişafına çox maraq göstərirdilər. Atabəy hökmdarları şairlərə, memarlara, mühəndis və inşaatçılara, həkimlərə, elm adamlarına və b. hamilik edir, elm və sənətin inkişafına maraq və qayğı göstərirdilər. Hətta bu qayğı elə yüksək səviyyədə idi ki, bir çox elm, sənət adamları öz vətənlərini tərk edərək Atabəylər sarayına gəlir, burda yaşayıb fəaliyyət göstərməyi tərcih edirdilər. Atabəylər hökmdarları da qaçqın şair və elm adamlarını himayələrinə götürür, onlara sığınacaq verir, yaşayıb-yaratmaları üçün lazım olan şəraiti yaradır, bütün imkanları tanıyırdılar. Beləliklə, Atabəylər hakimiyyətinin elm və sənətə göstərdiyi himayə sayəsində bu müddət ərzində dövlətin paytaxtı olan Naxçıvan da qurulub inkişaf etmiş, elm və sənətin beşiyinə çevrilmiş, yeni bir intibah yaşanmışdır. Təsadüfi deyil ki, Azərbaycan Atabəylərinin hakimiyyət sürdüyü bu dövr Azərbaycanda renessans – intibah dövrü kimi tanınır.

Atabəy Məhəmməd Cahan Pəhləvanın sarayına yaxın olan, "təbiblər sultanı" kimi şöhrət qazanmış Kəmaləddin Naxçıvani şair kimi də məşhur idi. Əbubəkr ibn Xosrovun Atabəylər sarayında xidməti dövründə yazdığı məşhur "Munisnamə" əsəri mühüm sosial-əxlaqi motivləri və humanizmi ilə seçilir. Orta əsrlərdə Əhməd ən-Nəşəvi, Nəcməddin Naxçıvani, Nəsirəddin Tusi, Hinduşah Naxçıvani, Məhəmməd Naxçıvani, Sadiq bəy Ordubadi, Baba Nemətullah Naxçıvani, Fəzlullah Nəimi və b. alim və mütəfəkkirlər həm də bədii əsərləri ilə Azərbaycan ədəbiyyatını zənginləşdirmişlər. Hələ qədim zamanlarda bir çox görkəmli şair və yazıçılar, o cümlədən Qətran Təbrizi də bir müddət Naxçıvanda yaşayıb yaratmışdır.

Bu dövrün görkəmli şairlərindən biri Əbül Məkarim Mücirəddin əl-Beyləqanidir (oldüyü tarix təxminən 1197-1198-ci il). Xaqaninin ən istedadlı şagirdlərindən biri olan Mücirəddin Beyləqani bir müddət Şirvanda yaşamasına baxmayaraq, sonralar oranı tərk edərək Atabəylər sarayına gəlmiş, bütün ömrü boyu Atabəylər sarayının şairi olmuşdur. Özünün şairlik istedadı və təbinə görə qiymətləndirilən şair məlik əş-şüəra – şairlərin başçısı rütbəsinə layiq görülmüşdür. Şairlər başçısı Mücirəddin Beyləqani yazdığı qəsidələrinin çoxunda Atabəylər sülaləsinin nümayəndələrini mədh etmişdir.

Azərbaycan Atabəylər sarayının digər şairlərindən biri əslən Orta Asiyalı olan sultan əl-füzəla (nəciblərin sultanı) Əsirəddin Əbül-Fəzl Məhəmməd ibn-Tahir əl-Əxsikətidir (ölümü 1184?). Xaqani üslubunda yazan, onun poetik formasını davam etdirən Əsirəddin əl-Əxsikətini Xaqani özü "poeziya karvanının qarətçisi" (3) adlandırmışdır. Əsirəddin Əxsikəti təhsilini Bəlx və Herat şəhər-

lərində almış, sonralar İraqi-Əcəmə, burdan da Azərbaycana gəlmişdir. Qaynaqların verdiyi məlumata görə, Əsirəddin Əxsikəti şair olmaqdan başqa riyaziyyat, tibb, kimya, nücum, heyət, ərəb ədəbiyyatı, hikmət, fəlsəfə, kəlam elmlərinin kamil bilicisi olmuşdur (2, s. 2). Şair Əxsikətinin yaradıcılığının əsas, başlıca illəri Azərbaycanla – Atabəylər hökmranlığının paytaxtı olan Naxçıvanla bağlıdır. O, burda olduğu müddətcə Naxçıvan ədəbi mühitinin simasında Azərbaycan ədəbiyyatı ilə qaynayıb-qarışmış, Azərbaycan Atabəyləri sarayında şairlik etmişdir.

Atabəylər sarayında Seyyid Zülfüqar Şirvani, Qivami Mütərrizi, Fərrux Şirvani, Cövhəri, Yusif Füzuli, Kəmaləddin Naxçıvani, Seyyid İzzəddin əl-Ələvi və başqa bu kimi şairlərin yaşayıb fəaliyyət göstərmələri haqqında məlumat vardır. Bu şairlərdən bəziləri haqqında qismən də olsa məlumat olduğu halda, bəziləri haqqında məlumat yoxdur.

Azərbaycan Atabəylərinin diqqəti və qayğısına laqeyd qalmayan müasirləri olan şeir-sənət adamları öz əsərlərini onlara ithaf edir, onları mədh edirdilər. Əbu Bəkr ibn Xosrov əl-Ustadın qələmə aldığı "Munisnamə" adlı əsər də Azərbaycan Atabəylərinə həsr olunmuş ən qiymətli əsərlərdəndir. Rəvayət, aforizm, hekayə və lətifələr toplusu olan "Munisnamə" əsərinin müqəddiməsi hakimiyyətdə olan atabəy Nüsrətəddin əbu Bəkr ibn Məhəmməd ibn Eldənizə mədh ilə başlayır. Əbu Bəkr ibn Xosrov əl-Ustad "Munisnamə"də həm də Eldənizlərin adı ilə bağlı yazdığı, Atabəylərə həsr etdiyi digər əsərlərinin də adlarını göstərir. Əbu Bəkr ibn Xosrov əl-Ustad yazır ki, o, "Munisnamə" əsərini əbədi yadigar olaraq atabəy Əbu Bəkrə həsr etmək fikrindədir. Həmin əsərin fəsillərindən birinə "Böyük adamların kəlamları və nəsihətamiz həqiqətlər barəsində hekayələr" bəhsinə bir növ yerli xüsusiyyət baxımından maraq doğuran "Əbül-Üla Kirmani və onun oğlu və onların Naxçıvana səfəri haqqında hekayə" daxil edilmişdir.

Bu dövrdə yetişən, yaşayıb fəaliyyət göstərən Əbu Həfs Ömər ibn Osman ibn Şüəyb əl-Cənzi (1160-cı ildə vəfat edib) məşhur ədəbiyyatçı alim idi. Bağdadda Nizamiyyə mədrəsəsində mühazirələr oxumuşdur. Həmədanda və dövlətin başlıca şəhərlərində müəllimlik etmişdir. Habelə həm müsəlman qanunlarının bilicisi, həm də ədib kimi şöhrətlənən Şeyx Əbu Həmid Tacəddin əl-Urməvi, həmçinin görkəmli ədib, nadir, alicənab alim, ərəb və fars şeirinin, nəsrinin nadir bilicilərindən olan Müəyyinəddin Əbu Məhəmməd İsmayıl ibn Məhəmməd ibn İsmayıl ət-Təntərani əl-Maraqi Atabəylər dövrünün məşhur elm və ədəbiyyat ünvanlarındandırlar.

Göründüyü kimi, mənbələr nə qədər xəsisliklə danışsa da, Naxçıvanda orta əsrlər dövründə mükəmməl ədəbiyyat olmuş, çox görkəmli sənətkarlar yaşayıb fəaliyyət göstərmiş, neçə-neçə ədəbiyyat, sənət adamları yetişmişdir. Qeyd edildiyi kimi, Naxçıvanda dövlət tipli xüsusi qurumların da olması, fəaliyyət göstərməsi ədəbiyyat və sənətin inkişafına ciddi təkan vermişdir.

ƏDƏBİYYAT

1. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, II c., Bakı: Elm, 2007, 632 s.
2. Azərbaycan tarixi. 7 cilddə, II c., (III-XIII əsrin I rübü), Bakı: Elm, 2007, 608 s. + 24 s. illüstrasiya.
3. Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti 1136-1225-ci illər (Rus dilindən tərcümə edəni C.Qəhrəmanov). Bakı: Şərq-Qərb, 2007, 312 s.
4. Həbibbəyli İ. Naxçıvanda ədəbiyyat, ədəbiyyatda Naxçıvan // NDU-nun Xəbərləri, 2005, №16, s. 3-10.
5. Latifi tezkiresi (Hazırlayan doç. dr. Mustafa İsen). Ankara: Kültür Bakanlığı yayınları, 1990, 531 s.
6. Mahmudov M. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər (VII-XII əsrlər). Bakı: Şərq-Qərb, 2006, 192 s.
7. Mümtaz S. Azərbaycan ədəbiyyatının qaynaqları (Tərtib edən və ön sözün müəllifi R.Tağıyev). Bakı: Avrasiya press, 2006, 440 s.
8. Səfərli Ə., Yusifli X. Azərbaycan ədəbiyyatı tarixi (qədim və orta əsrlər). Bakı: Ozan, 2008, 696 s.
9. Tərbiyət Məhəmmədəli. Danişməndani-Azərbaycan (Azərbaycanın görkəmli elm və sənət adamları). Bakı: Azərnəşr, 1987, 464 s.
10. www.elibrary.az/docs/nax/med/edeb.

Рамиз Гасымов

ЛИТЕРАТУРНАЯ СРЕДА НАХЧЫВАНА В XI-XIII ВЕКАХ

Статья посвящена литературной среде Нахчывана в XI-XIII веках. В статье анализируется творчество Камаладдина Нахчывани, Гатрана Табризи, Асираддина Ахсикати, Хосров аль-Устада и др.

Ramiz Gasimov

THE LITERARY IN NAKHCHIVAN IN XI-XIII CENTURIES

The article is about the Nakhichevan literary in the XI-XIII centuries. In the article have been discussed Muciraddin Beylaqany, Kamaladdin Nakhchivani, Qatran Tabrizi, Asiraddin Akhsikati, Khosrov al-Ustad and etc.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

AYGÜN ORUCOVA
AMEA-nın Naxçıvan Bölməsi
E-mail: orucovaaygun@yahoo.com.tr

"ƏDƏBİ DÖVRÜN BAŞÇISI"NIN ƏDƏBİYYAT VƏ SƏNƏTƏ BAXIŞI

(Akademik İ.Ə.Həbibbəyli tərəfindən təqdim edilmişdir)

"Biz müsəlmanların içində qədim vaxtlardan indiyə kimi yazıçılıq bihudə bir peşə hesab olunubdur və onun üçün də yazıçıların heç bir yanda qədir-qiyməti olmayıbdır, savayı münəccim Hacı Nəcmüddövlənin təqvimbazlığından və dindar şairlərimizin növhə və qəsidələrindən" (4, s. 422). Bu sətirlərdən aydın olur ki, Azərbaycanın böyük tənqidi realist ədibi Cəlil Məmmədquluzadə (1869-1932) də böyük şairimiz Məhəmməd Füzuli (1494-1556) kimi Şərq-müsəlman xalqları içərisində yazıçılığın lüzumsuz, artıq, yersiz bir sənət kimi qəbul edilməyindən və dəyərləndirilmədiyindən şikayətçidir. Şərqdə VII əsrdə və sonrakı iki əsrdə islamaqədərki "cahiliyyə poeziyası" ali ədəbiyyat nümunəsi kimi təqdis edilir, qədim şeir yeni şeirə qarşı qoyulurdu. Lakin artıq bütpərəst şairlərdən fərqli olaraq, yeni müsəlman ideologiyası cəbhəsindən çıxış edən şairlər dəstəsi də yaranmaqda idi. Bu səbəbdəndir ki, tanrı kitabı olan "Quran-Kərim"də də bədii söz sənətinə ikili münasibət ifadə olunmuşdur: "Şairlərə ancaq azğınlar uyarlar. Onların hər vadidə şaşqın-şaşqın dolaşdıqlarını və yapmadıqlarını yapdıq dediklərini görməzmisən? Ancaq inanıb yararlı iş işləyənlər, Allahı çox-çox ananlar bunun dışındadır" (1, s. 437). Böyük intibah şairi Nizami Gəncəvi (1141-1209) qələmin məhz Allahın əmri və iradəsilə ilk hərfi cızdığını nəzərdə tutaraq "ən qədim və ən təzə şey" kimi ona hörmət göstərilməli olduğu fikrini irəli sürmüşdür. O, şairləri "ərşin bülbülləri", "mələklərlə qohum-qardaşlıq edənlər", "peyğəmbərlərdən sonra gələn kibriyalar" (2, s. 433) adlandırmışdır. Dahi söz ustadı Füzulinin (1494-1556) dövründə nəzmin "xar", "biizzətü-etibar" olmağını istəyən mühafizəkar qüvvələr yuxarıdakı kəlamlara istinad edərək şeirə və şairlərə kəskin hücumlar edirdilər. Mirzə Cəlil: "Dünyada hər bir kəs üçün sözdən böyük yadigar yoxdur, zira ki, mal-mülk tələf olub gedir, amma söz qalır" (9, s. 34) – fikrilə zamanında söylənmiş ictimai məna kəsb edən, xalqın mənafeyinə xidmət edən əbədiyaşar bədii sözə və şeirə böyük əhəmiyyət vermişdir. O, əsl ədəbiyyatla dini ədəbiyyatı, uydurma, yalan, fal ədəbiyyatını, münəccimliyi, növhəxanlığı və qəsidəçiliyi qarşılaşdırır, ümum-

kütlənin üstünlüyü ikincilərə verməyindən dərin narahatlığını nəzərə çatdırır. "Allaha şükür olsun ki, mömin millətimiz belə boşboğaz yazıçılara əhəmiyyət vermək istəməyiblər" – deyərək əsl ədəbiyyatı xalqın dililə boşboğaz yazılar adlandırır. Mirzə Cəlil dövründə "mömin"liklə həqiqi bədii sənət bir araya sığışmayır. Əlbəttə ki, burada əsl dindarlıqdan və möminlikdən söhbət getmir. Onun bu sənəti seçməyinin səbəbi də, eşq və məhəbbət, Aşiq-Məşuqə yox, xalqına və vətəninə olan sevgisi olmuşdur: "Tiflisin Şeytanbazarında rast gəldiyim islam aləmi hər gün və hər saat məni yazmağa vadar edirdi " (7, s. 64). Böyük sənətkar ilk növbədə təvazökarlığı insan üçün ən gözəl keyfiyyətlərdən biri hesab etmişdir. "Ağac bar gətirdikcə başını aşağı əyər" atalar sözünə uyğun olaraq, yazıçı da heç vaxt yaratdığı əsərlərlə öyünməməli, özü-özünü tərifləməməlidir. Bu barədə o, aşağıdakı sətirləri qələmə almışdır: "Mən əsərlərini həvəslə ona-buna göstərən yazıçıları dost tutmaram, bəlkə iyrənərəm. Məni tanıyanlardan heç birisinin yadına gəlməz ki, mən asanlıqla öz əsərlərimi çıxardam bir kəsə göstərəm, ya bir kəsə oxuyam" (7, s. 51).

"Günün şəfəqi çoxdur, ya zəmanəmizin lovğa, cavan, aşiq-məşuq şairlərimizin zahiri şəfəqi?" (5, s. 258) – deyə sual edən böyük tənqidçi belə lovğa şairlərdən birinin surətini "Proletar şairi" hekayəsində (1929) yaratmışdır. "Başının telləri qız saçı kimi daranıb alnına düzülmüş, təm-təzə frenc və kalifeli, beli incə, parıldayan uzunboğaz çəkməli bir centlmen"lə (6, s. 321) "proletar şairi" termini arasında dərin bir uçurum görən görkəmli yazıçı "on səkkiz-iyirmi yaşlı" belə bir şairin geniş xalq kütlələrinin dərdlərini və problemlərini bədii ifadə gücünə malik olmadığını nəzərə çatdırmaq istəyir. Çünki onun özü bu problemlərdən azad və çox uzaqdır. "Tutuşmayınca dər atəş bəlirməz xisləti ənbər" – deyən Azərbaycanın görkəmli şairi İzzəddin Həsənoğlu (XIII əsr) kimi Cəlil Məmmədquluzadə də xalqın içindən çıxmayan ədibin xalqın arzu və istəklərinə bələd olmadığından onları əks etdirməkdə də aciz olduğu həqiqətini irəli sürmüşdür. "Aşağılara yenməyən ədəbiyyat yüksələ bilməz" tezisini bədii ədəbiyyatın əsas qanunu kimi qəbul edən Mirzə Cəlil düzgün mövqe tutmuşdu. Vaxtilə romantizm ədəbi cərəyanının banisi, böyük şairimiz Əli bəy Hüseynzadə (1864-1940) də məhz bu prinsipin düzgün olduğunu qeyd etmişdir.

"Cavabımız" məqaləsində (1911) yumoristik şəkildə: "Heç bir şairə demək olmaz – elə yazma, belə yaz, heç bir cəridə sahibinə demək olmaz məsləkini çöndər" – deyən böyük ədib dolayı yolla olsa da, şair və yazıçılara necə yazmaq, daha doğrusu, necə yazmamaq lazım olduğunu bütün incəlikləri ilə göstərmişdir (3, s. 380). Müasirlik, konkretlik, orijinallıq, elmilik, məzmun və ifadə gözəlliyi, tərbiyəvilik, əxlaqilik, dilin aydınlığı, sadəliyi, xəlqilik, həyatilik, realizm Cəlil Məmmədquluzadənin bədii sözdən tələblərinin ən mühümləri idi. "Sözü qısaca söyləməyin özü də hünərdir" – fikrində haqlı olan istedadlı sənətkar həm həyatda (müasirləri onun həyatda az danışan bir insan olduğunu qeyd edirlər – O.A.), həm də bütün yaradıcılığında bu prinsipə əməl edərək, həqiqətən də, zamanı üçün böyük hünər göstərmişdir.

"Dərs kitablarımız" (1923) məqaləsində orta məktəb şagirdləri üçün nəzərdə tutulmuş dərslikdə "əmələnin qeydinə qalan" bir şeiri məhz ifadə gözəlliyi olmadığına görə yararsız hesab edərək yazır: "Amma bunu da cırıb tulladım. Əgər bunlar həqiqətdə şeirdirlərsə, onda nə lazım yazıq uşaqlarımızı öz əlimizlə şeirdən iyrəndirmək!" (8, s. 375). XX əsrdə – tərəqqi və inkişaf dövründə bizim şairlərin "qafiyə axtarmağı", əsl məna və əsas məzmunu qafiyəyə "qurban gətirib" şeir yazmağı bədii sənətin sirlərinə dərindən bələd olan böyük sənətkarı nə qədər narahat edirsə, o, bunun əksini də qəbul etməmişdir. Böyük tənqidçi sələfi Mirzə Fətəli Axundov kimi şeirdə bu tələblərin hər ikisinə əməl olunmağı əsas saymışdır: "Həm məzmun, həm də ifadə gözəlliyinə malik olan nəzm (Firdovsinin "Şahnamə"si, Nizaminin "Xəmsə"si, Hafizin "Divanı" kimi) nəşəartırıcı və həyəcanlandırıcı olub hər kəs tərəfindən bəyənilmişdir" (1, s. 282). "Can və cisim kimi söz və məna da bir-birindən asılıdır" – deyən Füzuli də, Mirzə Cəlil də hər ikisinin vəhdətdə, üzvi əlaqədə təqdimini sənət üçün vacib şərt saymışdır. O, Bədbəxtçilik" (1924) adlı məqaləsində mənasız şeirlər yazmaqla özünü aldadan şəxsləri "çürümüş şairlər və ya ixtirai şairlər" (yəni heç yox imişlər) (7, s. 243) adlandırır.

Məlumdur ki, bədii ədəbiyyatın ən əsas məqsədi sözün sehrinə, ecazkar qüdrətinə arxalanaraq oxucunu tərbiyələndirmək, onu doğru yola istiqamətləndirməkdən ibarətdir. Ədib əxlaq normalarına sığmayan yazıların tərcümə olunmasına, yayılmasına kəskin etirazını bildirmişdir. "Nəcasat" (3, s. 329) məqaləsində "neçə milyon məşədi və hacıların allahı" Fazil-Məclisi haqqında yazır: "...və mən həmişə Fazil-Məclisinin kitabını açan kimi... xəcalət çəkib xəlvətçə kitabı gizlətmişəm ki, həyalı adamların gözünə sataşmasın" (3, s. 357). Böyük ədib müqəddəs dini kitabların təfsirlərində ailə məsələləri barədə təfsilata varan yazılara yer verilməsi halları ilə razılaşmayaraq bunu mənəvi əxlaqsızlıq və ya qələm zinası hesab edir. "Hacı Zeynalabdin cənabları xərc çəkib, Qazı Mir Kərim ağanın təfsirini çapdan çıxarıb ki, satılan kitabların pulu qazıya çatsın" – deyən yazıçı gəlir məqsədilə bu kimi sözləri yazıb çapa verməyi çox haqlı olaraq "qələm zinası" (3, s. 360) adlandırır. Bu, ədəbiyyat, mətbuat qaydalarına müvafiq deyil, əxlaqilik prinsipinə sığmayır. Çünki nəinki, təkcə Hacı cənabları, hətta heç bir həyalı insan "əhli-xanəsinin içində" bu kitabın müəyyən səhifələrinin oxunmağına razı olmaz.

Böyük Nizami söz ustadlarına rəğbət və hörmət əlaməti olaraq həqiqi şairləri obrazlı şəkildə "ərşin bülbülləri", Mirzə Cəlil isə yalançı şairləri yuxarıdakı ifadəyə perifraz olaraq, "şeir bülbülləri" adlandırır. Gözlənilməz nəticə ilə bitən, satirik-xəfif, incə yumorlardan geniş istifadə olunan "Şeir bülbülləri" hekayə-novellası böyük ədibin şeir sənəti haqqındakı mülahizələrinin jurnalistik yox, bədii formada təqdimi hesab olunmalıdır. Bunun özü də böyük sənətkarlıq tələb edir. Məlumdur ki, Mirzə Cəlil ədəbi janrların bədii sintezi sahəsində çox məharətlidir. Fikrin birbaşa yox, dolayı yolla, quru, cansız, terminlərlə elmi dillə yox, qarşılaşdırma və bədii müqayisələr vasitəsilə yumoristik dillə təqdimi,

qərarın və nəticənin oxucunun özünə buraxılması məhz Mirzə Cəlil sənətinin orijinallığını göstərən amillərdəndir. Burada Qulluqçu Zeynəb arvadın dilindən deyilən hekayə içərisində nağıl da, təsadüfi olmayıb, çox mühüm əhəmiyyətə malikdir. Sadə xalq nümayəndəsinin dilindən verilən açıq və şirin Azərbaycan nağıllarını "şeir məcnunu" köhnə dostunun böyük bir həvəslə oxuduğu "şeir bülbülləri" nin qəliz, ərəb-fars sözlərindən ibarət anlaşılmayan "qiyamət şeirlərinə" qarşı qoyan ədib üstünlüyü yenə də xalq ədəbiyyatına verir. Çünki "doqquz ildir ki, müsəlman dərsi oxuyuram, amma genə bu şairlərin dilini qanmıram" (6, s. 295) – deyən cavan texnikum tələbəsi də, dostunun xanımı da, elə müəllifin özü də bülbül cəh-cəhi kimi sadəcə xoş səslənən, müəyyən məzmuna malik olmayan bu şeirlərin mənasını anlamır. Əslində "Hı, dədə, nə olar ki, bir dəfə də bu çıraqları sənin o qəribə şairlərin yandıralar?" (6, s. 294) – deyən yeni nəslin nümayəndəsi də, "...dostumun bülbüllərinin cəmi ərəbləşmiş şeirləri zülmətin tərkinə düşüb, məndən ötrü həmişəlik fotə getdilər" – deyən görkəmli yazıçı da belə ədəbiyyatı qəbul etmir, hekayədə sözün lüğəvi mənasında qaranlığa qərq olan bu ədəbiyyatı elə "zülmət" hesab edərək, qaranlığa, məhvə məhkumluğunu nəzərə çatdırmaq istəyir. Əsərdə təsadüfi deyil ki, elektrik işığının sönməyi bu kitabların qiraətinə mane olur və yeni, demokratik fikirli insanın yandırdığı işıqda artıq buna ehtiyac qalmayır. Çünki qaranlıq və zülmətlə işıq, nur bir anda mövcud ola bilməz. Əsərdən çıxan fəlsəfi, bədii nəticə də bundan ibarətdir. Yeldai, Səqərül-Qadiri kimi şairlərin xarici təmtəraqlı, batini çürük, mənasız şeirlərindən xalqa heç bir fayda yoxdur. Nağıldakı vəzirin həyatını xilas edən, faydalı məsləhət verən ağıllı və tədbirli Azərbaycan qadını, cəsur və qorxmaz, yenilməkdənsə ölümü özünə şərəf bilən, igid Azərbaycan kişisi də qadının ancaq xarici gözəlliyini vəsf edən şeir bülbüllərinə qarşı qoyulmuşdur.

Bədii əsərin dilinin aydınlığı, sadəliyi, xalqın mənafeyinə xidmət ədəbi dövrün başçısının mühüm şərtlərindən idi. "Osmanlının məşhur və müqtədir şairlərinin qəliz yazmağı, ibarəli yazmağı zənbülməsəl olubdur. Hər bir kəs qələmi əlinə alanda təhsil etdiyi ərəb və fars dillərindən mümkün olduqca və yeri gəldikcə... öz yazdıqlarını həmin bu dillərin ibarələri və kəlmələri ilə doldurardılar. Hərçənd belə bir yazıçılarımız həqiqi yazıçı və yazı ustadları deyil idilər, amma xalqın nəzərində alim görsənirdilər... Amma molla Əli, çün Nəcəfül-Əşrəfdə təhsil tapmışdı, alim adam idi" (7, s. 12-78). Əgər yazıçılıq bundan ibarətdir, dünyadan xəbəri olmaya-olmaya beş sütun hədərən-pədərən yazasan, ...yalan-palanla avam camaatı müştəbeh edəsən," (7, s. 230) – deyən dahi sənətkar yazıçıdan ilk növbədə aktual mövzular, ikinci konkretlik, üçüncü isə həqiqətləri, həyatı doğru-düzgün əks etdirməyi tələb etmişdir. Xalqın anlamadığı bir dildə əsərlər uydurarak özlərini alim kimi göstərənləri həqiqətdə yazıçı və ya şair hesab etməyən ədib əsərlərinin bir çoxunda bu yalançıların bədii obrazını hərtərəfli yaratmış, bədii sözün bütün vasitələrindən istifadə edərək onların maskasını cırıb atmışdır. "Ölülər" də Şeyx Nəsrullah, Cəlalın müəllimi Mirzə Hüseyn (Cəlal anlamadığı bir dildə şeirlər oxuyur), "Anamın kitabı"nda Səməd

Vahid, Hüseyn Şahid də belələrindəndir. Türk dili müəllimi, "elmi-qafiyə", "vəzni-şeir"lə məşğul olan şair Səməd Vahidin kitablarındakı qəliz ərəb, fars, Osmanlı sözlərinin istifadə olunduğu şeirlər həm Azərbaycan oxucuları üçün anlaşılmazdır və həm də ictimai mənadan məhrumdur. Belə "sənayei-nəfisə" nin "məktəblərimizdə balaca cocuqlara" öyrədilməsi, hətta XX əsrdə tədris prosesinin və proqramlarının ən ciddi qüsuru kimi qəbul edilməlidir. Senzorun: "Pəs səbəb nədir ki, Osmanlıdan gələn kitabların hamısı şeirdir?" (6, s. 466) sualına Səməd Vahidin cavabı nəinki təkcə Osmanlı, hətta ümumilikdə Şərq dünyasının nöqsanlarından əvvəlincisi hesab olunmalıdır: "Səbəb budur ki, Osmanlıda cəmi qələm sahibləri şairdi; cəmi doktorlar, mühəndislər, diplomatlar, hətta ministirlər də şairdi, həpsi şairdi" (6, s. 466). Əsərdə dərin psixoloji sarsıntılar altında çıxılmaz vəziyyətdə qalan müsəlmanca elmli Gülbahar çıxış yolunu ailəyə və ya dövlətə nifaq salan, hərəsi o dövr Azərbaycan ziyalılarının bir qrupunun ümumiləşdirilmiş obrazı olan bu üç qardaşın kitablarını etiraz və üsyan əlaməti olaraq cırıb-dağıtmaqda və ən nəhayət, təkrarən bərpa oluna bilməməsi üçün birdəfəlik məhv etməkdə, yandırmaqda görür. Gülbaharın yandırdığı isə təkcə onların sitayiş etdiyi kitablar yox, geniş mənada çürük, puç, məhvəlayiq əqidələri idi: əsərdə son nəticədə bir kitab ("Anamın kitabı") qaldığı kimi, yalnız yeganə birlik, bir əqidə qalır ki, bu da Azərbaycançılıq əqidəsi, ideologiyasıdır! Həyatda olmayan atanın müqəddəs Quran kitabına öz əlilə yazdığı vəsiyyətindəki "Vay o kəsin halına ki, təbiətin ... həmin qanunu pozmaq istəyə!" kimi (6, s. 475) ittihamından sonra qardaşların buna bir daha cəhd etməyəcəyinə dərin inam hissi yaranır.

Beləlilklə, Cəlil Məmmədquluzadənin yeni dövrün ədəbiyyatından tələbləri söz sənətinin möqsəd və vəzifələrini, ideya və qayəsini, məzmun və formasını, hətta dilini dəyişdirməyə xidmət etmişdir. Nəticədə XX əsrin ədəbiyyatı ictimai məzmunu, sadə və aydın dili, xalqın mənafeyinə xidmət, mübariz ruhu, demokratik ideyaların tərənnümü ilə səciyyələnmiş, zamanın sözünü ifadə edə bilmişdir.

ƏDƏBİYYAT

1. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, III c., Bakı: Elm, 1960, 615 s.
2. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, III c., Bakı: Elm, 2009, 736 s.
3. Məmmədquluzadə C. Əsərləri. III c., I hissə? Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1947, 517 s.
4. Məmmədquluzadə C. Əsərləri. 3 cilddə, III c. Bakı: Azərnəşr, 1967, 898 s.
5. Məmmədquluzadə C. 6 cilddə, V c., Bakı: Azərnəşr, 1985, 316 s.
6. Məmmədquluzadə C. Əsərləri. 4 cilddə, I c., Bakı: Öndər, 2004, 664 s.
7. Məmmədquluzadə C. Əsərləri. 4 cilddə. IV c., Bakı: Öndər, 2004, 472 s.
8. Məmmədquluzadə C. Seçilmiş əsərləri. 2 cilddə, II c., Naxçıvan: Əcəmi, 2009, 496 s.

9. Məmmədquluzadə C. Fotoalbom. Bakı: İşıq, 1981, (mətnin müəllifi və tərtibçisi fil. elm. namizədi İsa Həbibov), 190 s., şəkilli.

Айгюн Оруджева

ВЗГЛЯДЫ ДЖАЛИЛА МАМЕДГУЛИЗАДЕ НА ЛИТЕРАТУРУ И ИСКУССТВО

В статье рассматриваются взгляды одного из ярких представителей азербайджанской литературы и критического реализма XX века Джалила Мамедгулизаде на литературу и искусство. Обосновывается тезис, что как великий мыслитель, Джалил Мамедкулизаде придавал огромное значение таким требованиям к литературе нового периода, как современность, актуальность, конкретность, красота содержания и формы, реальное описание жизненных явлений, простота и искренность, патриотизме и народность, средствам выражения языка.

Aygun Orujova

VIEW OF CHIEF OF LITERARY TIME TO LITERATURE AND ART

Jalil Mammadquluzadeh (1869-1932) was one of the leading persons of Azerbaijani literature and critical realism in the XX century. Jalil Mammadquluzadeh's requirements from the writers and poets of "Mullah Nasiraddin" magazine are paid attention. Modernization, topicality, concreteness, the beauty of content and expression, description of life as itself, simplicity, clearness of the language, patriotism, and national character should be considered as important.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

FƏXRƏDDİN EYLAZOV
AMEA Naxçıvan Bölməsi
E-mail: eylazov@yahoo.com

MAHMUD ŞƏBÜSTƏRİNİN "GÜLŞƏNİ-RAZ" ƏSƏRİ VƏ ONUN TƏRCÜMƏ ƏLYAZMALARI HAQQINDA

(AMEA-nın müxbir üzvü, prof. Ə.A.Quliyev tərəfindən təqdim edilmişdir)

Orta yüzilliklərə və sonrakı dövrlərə aid çoxsaylı Şərq qaynaqlarının, demək olar ki, əksəriyyətində Şeyx Mahmud Şəbüstərinin adı hörmətlə anılır. Həmin mənbələrdə müəllifin Təbriz yaxınlığındakı Şəbüstər qəsəbəsində doğulduğu və qısa ömür sürdüyü göstərilir (4, s. 23). Şəbüstəri gənc yaşlarında Misir, Suriya və Hicaza səfərlər edərək bu yerlərdə bir sıra məşhur alimlərlə görüşmüş və bu görüş-söhbətlərin nəticəsi olaraq bir neçə elmi əsərini qələmə almışdır (4, s. 24-25). Şəbüstəri əsərlərinin başlıca mövsuzu olan təsəvvüflə yanaşı, qədim yunan fəlsəfəsinə, məntiqə də dərindən bələd olmuşdur (4, s. 25). Görkəmli Türkiyə alimi Əbdülbaqi Gölpınarlı müəllifin "Gülşəni-raz" əsərinə əsaslanaraq, Şəbüstərinin "İncili de iyice okuyup incelediği" qənaətinə gəlir (8, s. 9).

Ş.M.Şəbüstərinin ən məşhur əsəri vəfatından üç il öncə yazdığı "Gülşəni-raz" məsnəvisidir. Müəllif bu əsərində sufizmdə önəmli yer tutan "vəhdəti-vücud" nəzəriyyəsinin əsaslarını bütövlükdə bir inanc olaraq qəbul etsə də, bununla belə varlığın ancaq Haqqa (Allaha) məxsus olduğu qənaətinə gəlmişdir. Müəllifə görə, Allahdan başqa, heç bir şeyin zatı və müstəqil varlığı yoxdur: bütün varlıqlar bir olan mütləq varlıqdan (Allahdan) törəmişdir. Mütəfəkkir şairə böyük şöhrət qazandıran "Gülşəni-raz" yazıldığı dövrdən başlayaraq, sufi eşqini və sufilərin məcazi mənada işlətdiyi bir sıra anlayışları – rəmzləri açıqlamaq baxımından ən dəyərli və klassik kitablardan biri sayılaraq geniş yayılmışdır. Əsərin çoxlu əlyazmalarının mövcudluğu buna əyani sübutdur (4, s. 7-11). "Gülşəni-raz"dan sonra sufizmlə bağlı yazılan bütün kitablarda ona dönə-dönə müraciət edilmişdir. Bundan əlavə, əsərə çoxsaylı şərhlər yazılmışdır. XIV-XVII yüzilliklərə aid bu şərhlərin ümumi sayı qırxa yaxındır ki, onlardan ən məşhuru Şəmsəddin Məhəmməd bin Yəhya bin Əli Lahicinin (öl. 912/1506-cı il) "Məfatül-ecaz fi şərhi" – "Gülşəni-raz" ("Gülşəni-raz"ın şərhinə aid möcüzələrin açarı) adlı əsəridir (6, s. 51-53). Bu şərhdə "Gülşəni-raz"dakı hər bir beytin geniş izahı verilir. "Gülşəni-raz" əsərinə Əminəddin Təbrizi (Ş.M.Şəbüs-

tərinin çağdaşı – mürşidi olmuşdur), Seyid Yəhya Şirvani (pl. 868/1463-1464), Baba Nemətullah Naxçıvani (öl. 920/1514), Kəmaləddin Hüseyn bin Şərəfəddin Əbdülhəqq Ərdəbili (öl. 950/1543-1544) kimi Azərbaycan alimləri də şərhlər yazmışlar (6, s. 64-65).

Orta yüzilliklərdə "Gülşəni-raz"ın bütöv mətni ilə yanaşı, ayrı-ayrı beytləri də şərh olunmuşdur. Belə şərhlərdən ən məşhuru Cəlaləddin bin Məhəmməd Dəvvani Siddiqiyə (öl. 1502 və ya 1512) məxsusdur (12, s. 336). Azərbaycan MEA Əlyazmalar İnstitutunda saxlanılan XVII yüzilliyə aid bir əlyazma toplusunda onun "Gülşəni-raz" məsnəvisinin bir beytinə fars dilində yazdığı iki vərəqlik şərhi vardır (2, s. 264b-266b). Şərhdə "Gülşəni-raz"dakı təfəkkürlə bağlı birinci sualın cavabındakı ikinci beytin izahı verilir.

Şəbüstərinin "Gülşəni-raz" kitabına çoxsaylı şərhlər yazıldığı kimi, orta yüzilliklərdə onun təsiri ilə qələmə alınan bir sıra əsərlər də ortaya çıxmışdır (12, s. 196). Xəlvəti təriqətinin şeyxlərindən olan İbrahim Tənnurinin (öl. 887/1482) türkcə məsnəvi şəklində yazdığı "Gülzarnamə" kitabında "Gülşəni-raz"ın güclü təsiri vardır. XVII əsr türk müəllifi Sarı Abdulla (öl. 1071/1660) da "Səmərətül-Fuad" adlı əsərində "Gülşəni-raz"ın güclü təsiri vardır. XVII əsr türk müəllifi Sarı Abdulla da "Səmərətül-Fuad" adlı əsərində "Gülşəni-raz"ın ayrı-ayrı yerlərindən yararlanmışdır (8, s. 431). Qeyd edək ki, bu iki əsərdə Şirazinin "Gülşəni-raz" tərcüməsinin də müəyyən təsiri özünü göstərir.

"Gülşəni-raz"ın türkcəyə iki klassik tərcüməsi də məlumdur. Bunlardan biri Şirazinin, ikincisi isə Mahmud Haləvinin tərcüməsidir. Sonuncu tərcümə də Şirazinin tərcüməsi kimi nəzmlədir. 1046/1636-37-ci ildə tamamlanmış bu tərcümə "Gülşəni-raz şərhi" adi ilə də tanınır (8, s. 430).

Şirazinin "Gülşəni-raz" tərcüməsinin əlyazmaları orta yüzilliklərə aid başqa tərcümə əsərləri ilə müqayisədə qat-qat çoxdur. Belə ki, bizim hesablamamıza görə dünyanın müxtəlif muzey və kitabxanalarında "Gülşəni-raz" tərcüməsinin qırx yeddi əlyazma nüsxəsi vardır. Bu əlyazmalardan çoxu Türkiyənin ayrı-ayrı muzey və kitabxanalarındadır ki, bunu da mütərcimin burada yaşaması və daha çox həmin bölgədə şöhrət qazanması ilə izah etmək olar. Tərcümənin Türkiyə kitabxanalarında saxlanılan əlyazmalarından ikisi Ə.Gölpınarlının fikrincə, mütərcimin yaşadığı dövrdə köçürülmüşdür. Onlardan biri İstanbul Universiteti kitabxanasında (şifri: N 829), başqa birisi isə Konya şəhərindəki Mövlana muzeyində saxlanılır (şifri: N 237). Bu əlyazmalardan birincisi tamdır, ikincisində isə əvvəlki ilə müqayisədə sondan 166 beyt əksikdir (7, I, 235). Tarixləri qeyd olunmamış bu əlyazma nüsxələrinin hər ikisinin xətti hərəkəli nəsxdir. İstanbul Universiteti kitabxanasında tərcümənin daha dörd əlyazma nüsxəsi saxlanılır (şifrələri: 731, 763, 6497, 9564) (9, s. 21).

Beləliklə "Gülşəni-raz"ın tərcümə nüsxələrini aşağıdakı ardıcıllıqla göstərmək mümkündür:

1. Hacı Mahmud, № 3773, həcmi - 104 vərəq, xətti-nəsxdir;
2. Hacı Mahmud, № 3479, həcmi – 154 vərəq, xətti-nəsxdir;

3. Hacı Mahmud, № 3327, vərəq 16-128a, tarixi-953/1546-1547;

4. Halet Efendi, N800, 16, məcmuənin 163-226-cı vərəqlərinə yazılmışdır, xətti-təliqdir;

5. Fatih, № 5363, 4;

6. Mihrişah Sultan № 173, 1b-128a, xətti-nəsx, tarixi-hicri 840/1437-ci ildir;

7. Hüsnü Paşa, № 1025;

8. Hamidiye, № 5503, Hamidiye, № 550,3;

9. Ali Nihat Tarlan, № 39, həcmi – 71 vərəq, xətti-nəsx, taxiri – 933/1526-27-ci il, katibi-Məhəmməd Səiddir (9, s. 151);

10. Ali Nihat Tarlan, № 43, həcmi – 157 vərəq, xətti-hərəkəli nəsx, tarixi-1046/1636-cı ildir;

11. Hekimoğlu Ali Paşa, № 500, həcmi – 105 vərəq, xətti-nəstəliqdir;

12. Hacı Reşid bey, № 96, 1;

13. Serez, № 1511;

14. Hüsnü Paşa, № 1025;

15. Esmihan, № 305.

Bundan əlavə İstanbuldakı Ümumi (Genel) kitabxanada tərcümənin iki əlyazması (№ 721 və 722) və Millət kitabxanasındakı Əli Əmiri bölümündə üç əlyazması (№ 906, 907, 908) saxlanılır (9, s. 21). Beləliklə, təkcə İstanbul şəhərindəki dörd kitabxanada tərcümənin bizə bəlli olan 25 ədəd əlyazması vardır.

Türkiyənin Bursa şəhərindəki Orxan kitabxanasında tərcümənin iki əlyazması saxlanılır. Təsəvvüf № 646 şifrli bu əlyazmalardan biri 61 vərəqdən ibarətdir və sondan azacıq əskikdir (10, s. 128-129). 1072/1661-62-ci il tarixli ikinci əlyazma məcmuədədir və onun əvvəlində yazılmışdır (1b-88b).

Bursadakı Ümumi (Gelen) kitabxanada da tərcümənin 2 əlyazması saxlanılır. 721 və 722 şifrli bu əlyazmalardan hər ikisi tamdır: birincisi – 1211/1796-97-ci ildə Hacı Məhəmməd Üsküdari tərəfindən köçürülmüş nüsxə 75 vərəqdən ibarətdir, ikincisi – tarixsiz nüsxə isə daha qədimdir və 206 vərəqdən ibarətdir (10, s. 129-130).

Tərcümənin daha iki əlyazması Türkiyənin aşağıdakı iki kitabxanasında saxlanılır: Manisa II Halk Kütüphanesi, Çaşnigir, № 5188/1 və Cebeci İl Kütüphanesi, № 34/1. Beləliklə, bizə məlum olan kataloqlara əsasən, tərcümənin Türkiyədəki əlyazmalarının ümumi sayı 32-yə bərabərdir.

Şirazinin "Gülşəni-raz" tərcüməsinin Qərbi Avropa ölkələrindəki ayrı-ayrı muzey və kitabxanalarda da aşağıda qeyd olunan 10 ədəd əlyazması saxlanılır:

1. Londondakı Britaniya Muzeyi kitabxanası, Or, nr, 6481, 10.950;

2. Londondakı İndiya Offis kitabxanası, № 1761;

3. İsveçin Upsala şəhərindəki kitabxana, № 113;

4. Marburq (AFR) şəhərindəki Dövlət kitabxanası: № 1075, tarixi – 952/1546-cı il, xətti-nəsx, həcmi-76 vərəqdir;

5. Marburq Dövlət kitabxanası: № 1612, tarixi qeyd olunmamışdır, xətti-nəsxdir, həcmi-121 vərəqdir (9, s. 21);

6. Marburq Dövlət kitabxanası, № 95, məcmuədədir, vərəq 91b-181a;

7. Vyana (Avstriya) kitabxanası, № 1967 (9, s. 72);

8. Vatikandakı Arostol kitabxanası, № 275, XIX əsrə aid edilir, xətti riqə, həcmi-40 vərəqdir;

9. Bodlean kitabxanası, № 2167;

10. Paris Milli kitabxanası, № AF 267;

Tərcümənin üç əlyazması da ABŞ-da Los-Ancelos Universiteti kitabxanasında saxlanılır:

1. B-276, xətti-nəsx, X-XVI əsrə aid edilir;

2. B-604, xətti-nəstəliq, tarixi-1034/1624-25-ci ildir;

3. B-221, xətti-nəsx, IX-X/XV-XVI əsrlərə aid edilir (11, s. 407).

Tərcümənin bir qədim əlyazması da yuxarıda qeyd edildiyi kimi, M.Ə.Tərbiyətin şəxsi kitabxanasında olmuşdur.

Keçmiş Sovet İttifaqı məkanında yalnız Rusiya Federasiyası Elmlər Akademiyasının Sankt-Peterburq şəhərindəki Şərqşünaslıq İnstitutunun kitabxanasında tərcümənin bir əlyazması saxlanılır. Şifri – B-285, tarixi – 907/1501-02ci il, katibi – Müslihəddin ibn Əyyub, həcmi – 74 vərəq, xətti - hərəkələnmiş nəsxdir (5, s. 37-38).

Beləliklə, "Gülşəni-raz" tərcüməsinin dünya kitabxanalarındakı əlyazmalarının ümumi sayı 47-yə çatır. Əlbəttə ki, bu son rəqəm deyildir. Birincisi ona görə ki, biz yalnız müxtəlif dünya muzey və kitabxanalarının respublikamızda mövcud olan əlyazma kataloqlarından istifadə etmişik. İkincisi, dünyada elə kitabxanalar və muzeylər vardır ki, onların əlyazmalarının kataloqları hələ də hazırlanmamışdır. Üçüncüsü isə, tərcümənin əlyazmaları ayrı-ayrı şəxsi kitabxanalarda da ola bilər ki, sonuncuların da kataloqları, demək olar ki, ya tərtib edilməmişdir, ya da əldə yoxdur.

ƏDƏBİYYAT

1. Şeyx Mahmud Şəbüstəri. Gülşəni-raz (elmi-tənqidi mətn, tərtibçi: 1. Q.Məmmədzadə). Bakı: Elm, 1978, 123 s.
2. Məcmuə: M – 251 (Əl. İ.)
3. Türkiye yazmaları toplu katalogu. Hazırlayan: A.N.Tarlan. Ankara, 1981, 283 s.
4. Исмаилов Ш. Философия Махмуда Шабустари. Баку, 1966.
5. Дмитриева Л.В. Описание тюркских рукописей Института востоковедения, Т. III, М.: Наука, 1980, 261 с.
6. Şebüsteri. Gülşen-i raz. Çeviren prof. A.Gölpınarlı. İstanbul, 1989, 108 s.
7. Mevlana muzesi yazmalar katalogu. Hazırlayan Gölpınarlı A. I-III c., Ankara, 1967, 382 s.

8. Letifi. Tezkire. İstanbul, 1316 (ərəb əlifbası ilə).
9. Götz M. Türkishe handschriften. Verzlichnis der orientalishen handschriften in Deutshland. Band XIII, teil 2, Wiesbaden, 1968, 408 s.
10. Ergin M. Bursa kitaplıklarındakı türkçe yazmalar arasında. İstanbul Universiteti Edebiyatı dergisi (TDED). 1952, № 4, 215 s.
11. نسخه هاي خطي كتابخانه دانشكاه لس انجلس. تهران .١٣٦٢
12. محمد علي تربيت .دانشمندان أذربايجان .تهران.١٣٧٨.ص٦٥٥.

Фахраддин Эйлазов

ПРОИЗВЕДЕНИЕ МАХМУДА ШАБУСТАРИ «ГЮЛЬШЕНИ-РАЗ» И О ЕГО ПЕРЕВЕДЕННЫХ РУКОПИСЯХ

Произведение «Гюльшени-Раз», считающееся шедевром в суфийской литературе и в творчестве Шабустари, в разные периоды был переведен разными учеными. Из них можно отметить Али Лахиджи, Аминаддина Табризи, Баба Нематуллах Нахчывани и Алвана Ширази.

В библиотеках мира хранятся свыше 47 переведенных экземпляров «Гюльшени-Раз». Среди них самый совершенный это перевод Ширази.

Fakhraddin Eylazov

MAHMUD SHABUSTARI'S WORK "GULSHENI- RAZ" AND ABOUT ITS TRANSLATED MANUSCRIPTS

"Gulsheni-Raz" – the masterpiece in the mystic literary and in Shabustari's creation in various periods had been translated and explained by different scientist. They are Ali Lahigi, Aminaddin Tabrizi, Baba Nematullah Nakhchivani and Alvan Shirazi.

In the world libraries more than 47 translation copies of "Gulsheni-Raz" are kept. Shirazi's translation is the most perfect copy between them.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

XUMAR MƏMMƏDOVA
Naxçıvan Dövlət Universiteti
E-mail: xmammadova@hotmail.com

"MOLLA NƏSRƏDDİN" JURNALI AMERİKA ALİMİ JANET AFERİNİN TƏDQİQATINDA

(Akademik İ.Ə.Həbibbəyli tərəfindən təqdim edilmişdir)

Müasir dövrdə Amerika elmi – ədəbi tənqidində Azərbaycan mətbuatı məsələlərinə müraciət edən bir sıra müəlliflərin fikir və mülahizələrinə də rast gəlinir. Bu müəlliflər mətbuatımızla bağlı müxtəlif araşdırmalar aparmış, "Molla Nəsrəddin", "Varlıq" jurnalları, həmçinin "Əkinçi" qəzeti ilə bağlı tədqiqatlar ortaya çıxarmışlar. Bu mövzuya müraciət edən belə alimlərdən biri Janet Aferidir. Qeyd edək ki, Janet Aferi yaradıcılığında özünü göstərən əsas məqam müəllifin məhz "Molla Nəsrəddin" jurnalına toxunmasıdır. Xanım Aferi hətta bu jurnalın "Suri – İsrafil"ə örnək olduğunu xatırladır. O yazır: "Suri-İsrafil"i müzakirə etməzdən əvvəl İranda bu mətbu orqanla (Suri-İsrafil – X.M.) bərabər bir neçə digər jurnalı ruhlandıran və Zaqafqaziyada azəri jurnalı olan "Molla Nəsrəddin"ə nəzər salmağa ehtiyacımız var. Səkkiz səhifədən ibarət həftəlik jurnal olan "Molla Nəsrəddin" 1906-cı il 7 apreldə, Tiflisdə mənşəcə iranlı olan Məhəmməd Cəlil Quluzadənin redaktorluğu ilə nəşr olunmuşdur" (5, s. 43). Əlbəttə, xanım Aferi öz təqdimatında müəyyən yanlışlıqlara yol vermiş, səhv olaraq Cəlil Məmmədquluzadənin mənşəcə iranlı olduğunu yazmış, böyük yazıçının adını Məhəmməd Cəlil Quluzadə kimi göstərmişdir. Halbuki eyni məsələlər tanınmış ədəbiyyatşünas, Mirzə Cəlil irsinin yorulmaz tədqiqatçısı, görkəmli cəlilşünas, akademik İsa Həbibbəylinin "Cəlil Məmmədquluzadə" monoqrafiyasında obyektiv elmi həllini tapmışdır. O, əvvəlcə "Molla Nəsrəddin"in yaranma tarixinə nəzər salır: "Məlum olduğu kimi, "Molla Nəsrəddin" jurnalının ilk sayı artıq bir yazıçı və jurnalist kimi ədəbi mühitdə tanınmış C.Məmmədquluzadənin redaktorluğu ilə yeddi aprel 1906-cı ildə tarixdə Tiflis şəhərin-də nəşr olunmuşdur. Bundan əvvəl C.Məmmədquluzadə 1905-ci ilin avqust ayında Tiflisdə "Novruz" adlı qəzet çıxarmağa rəsmi icazə almış, lakin özünün yazdığı kimi, hələlik "ruhanilərə təməllüq" (yaltaqlıq – İ.H.) etmədən "canişin həzrətlərinə... qəsidə oxumadan" qəzet çıxarmaq mümkün olmadığı üçün o, həmin qəzetin nəşrindən imtina etmişdir. Az sonra vəziyyət dəyişmiş, çar hökumətinin

siyasi hadisələrin ciddi təsiri ilə bəyan etməyə məcbur olduğu məlum on yeddi Oktyabr manifestinin elan etdiyi "növ-növ" mətbuat dünyasında əmələ gələn "nəfəs genişliyi onu çoxdan arzu etdiyi satirik jurnal çıxarmağa yenidən həvəsləndirmişdir. Buna görə də C.Məmmədquluzadə 21 fevral 1906-cı ildə Tiflis qubernatoruna müraciət edərək, "Qeyrət" mətbəəsində çap olunmaq şərti ilə "müsəlman ədəbiyyatında əfsanəvi təlxək" kimi tanınan "Molla Nəsrəddin" adlı satirik-yumoristik jurnal çıxarmağa icazə verilməsini xahiş etmişdir. Qısa müddətdə Tiflis polismeysterinin onun indiyədək qeyri-qanuni hərəkətdə olmadığını təsdiq edən arayışından sonra "Molla Nəsrəddin"in nəşrinə razılıq verilmişdir. Bu barədəki 874 saylı şəhadətnamə 17 mart 1906-cı il tarixdə C. Məmmədquluzadəyə çatmışdır. Beləliklə, doğrudan da, "Molla Nəsrəddin"i zəmanə özü yaratmışdır" (1, s. 252-253).

Təəssüf ki, xanım Aferi Mirzə Cəlilin Naxçıvanda anadan olması faktını deyil, onun mənşə etibarilə iranlı olması faktını diqqətə çəkmişdir. Halbuki Cəlil Məmmədquluzadənin nəsil şəcərəsini belə tədqiq edən akademik İsa Həbibbəyli müəllifi olduğu "XX əsrin əvvəlləri Azərbaycan yazıçıları" kitabında yazır: "Cəlil Məmmədquluzadə 1869-cu il, 22 (10) fevralda Naxçıvan şəhərində Məmmədqulu Məşədi Hüseynqulu oğlunun ailəsində dünyaya gəlmişdir" (2, s. 34). Bu fakt bir daha təsdiqləyir ki, Mirzə Cəlil Naxçıvanda anadan olmuşdur. Azərbaycan ədəbiyyatşünaslarının "Molla Nəsrəddin" ilə bağlı fikirlərini öyrəndikdən sonra belə bir qənaətə gəlirik ki, "Molla Nəsrəddin", həqiqətən də, Azərbaycan ədəbiyyatında korifey adını öz üzərinə götürən, mətbuatın inkişafında misilsiz xidmət göstərən əvəzedilməz mətbu orqandır. Xanım Aferi "Molla Nəsrəddin" jurnalında yazılar dərc etdirən müəlliflərin kimliyinə və yaradıcılıqlarına da toxunmuş, onların jurnala olan töhfələrindən söhbət açmışdır. O, jurnalda yazılar dərc etdirən Mirzə Ələkbər Sabir, Məmməd Səid Ordubadi və Nəriman Nərimanovdan söhbət açmışdır. Xanım Aferi jurnalda daim yazıları dərc olunan üç əsas müəllifi diqqət önünə çəkmişdir. Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir və Məmməd Səid Ordubadi. Budur, M.Ə.Sabir haqqında Janet Aferinin məlumatları: "Mənşəcə iranlı və jurnalın əsas yazıçısı, şair və satirik Əli Əkbər Tahirzadə Sabir (ölüm tarixi – 1911) 1862-1911 – X.Ə.)) Zaqafqaziya və İran mədəniyyəti ilə sıx bağlı olmuş, şerləri regionda məhşurlaşmışdır" (5, s. 119). Xanım Aferi burada da səhvə yol vermişdir. Belə ki, o, Mirzə Ələkbər Sabirin İranda anadan olması faktını irəli sürür. Məsələyə aydınlıq gətirmək üçün yenə İsa Həbibbəylinin "İyirminci əsrin əvvəlləri Azərbaycan yazıçıları" kitabına baxaq: "Ələkbər Tahirzadə, (Sabir) Şamaxıda tacir Hacı Zeynalabdinin ailəsində dünyaya gəlmişdir" (30 may) (2, s. 42). Bu mənbə Mirzə Ələkbər Sabirin İranda deyil, məhz Şimali Azərbaycanda – Şamaxıda dünyaya gözaçmasını sübuta yetirən tutarlı dəlildir. Janet Aferi davam edir: "Hop-hop" imzası altında öz poeziyasını xalqa çatdıran Sabir gənc yaşlarında İrana səfər etmiş və burada hakimiyyətin misilsiz gücünün, torpaq sahibkarlarının istismarçı üsul-

idarəsinin din xadimlərinin (üləmaların) azğınlığı, İran cəmiyyəti üzərində Avropa kapitalizminin təsirinin şahidi olmuşdur" (5, s. 119).

Fikrə diqqət yetirəndə aydın olur ki, Sabir iranlı deyil, məhz gənc yaşlarında Şimali Azərbaycandan İrana səfər etmişdir. Deməli, xanım Aferi bunu qələmə almaqla özü öz əvvəlki yanlış fikirlərini inkar etmişdir. Əlbəttə, xanım Aferi mənşəcə iranlı sözünü işlətdikdə Sabiri fars kimi qələmə verməyə çalışmışdır. Çünki onun yaradıcılığında bir dəfə də olsun Cənubi Azərbaycan kəlməsinə rast gəlinmir. Müəllif davam edir: "Redaksiya heyətinin üçüncü üzvü Təbrizdə vətəndaş müharibəsinin iştirakçısı olan və burada özünün "Dumanlı Təbriz" (1938) romanını yazan sosialist yazıçısı Məmməd Səid Ordubadi olmuşdur" (1872-1950 – X.M.) (5, s. 119). Bu məqamda Məmməd Səid Ordubadinin görkəmli tədqiqatçısı Yavuz Axundlunun fikri ilə tanış olmaq yerinə düşər. O, özünün "Məmməd Səid Ordubadi" monoqrafiyasında yazır: "Məmməd Səid Ordubadi – ədəbiyyat tariximizdə qüdrətli roman ustası və müqtədir dramaturq, gözəl şair və tərcüməçi, istedadlı publisist kimi tanınan bu məşhur sənətkar zəngin ədəbi irsi ilə milyonlarla oxucunun qəlbini fəth etmişdir. Təxminən 50 illik bir dövrü əhatə edən yaradıcılığı boyu M.S.Ordubadi ədəbiyyatın demək olar ki, bütün əsas janrlarında qələmini sınamış, irili-xırdalı altı min əsər yazmışdır. Lirik və satirik şerləri, dram, faciə və komediyaları, kiçik hekayələri, felyetonları, ən başlıcası isə, silsilə tarixi romanları onun nə dərəcədə məhsuldar ədəbi fəaliyyət göstərdiyini sübut edir. M.S.Ordubadi, eyni zamanda, elmi-ədəbi yaradıcılıqla məşğul olmuş, ayrı-ayrı qələm sahibləri, Azərbaycan xalqının tarixi simaları, folklor nümunələri, klassik və müasir ədəbiyyatımızın müxtəlif yaradıcılıq problemləri ilə əlaqədar qiymətli mülahizələr söyləmişdir. Bütün bu deyilənlərə Məmməd Səidin səmərəli tərcüməçilik və jurnalistlik fəaliyyətini də əlavə etsək, onun ədəbiyyat və mədəniyyət tariximizdəki əvəzsiz rolu bir daha göz önündə canlanır" (4, s. 3). Ədibin "Molla Nəsrəddin" jurnalındakı fəaliyyəti ilə daha yaxından tanış olmaq üçün Mirzə Cəlilin 31 yanvar, 1925-ci il tarixdə yazdığı məktuba müraciət edək: "Özün bilirsən ki, axır vaxtlar başım ağrıyır və bir şey də yaza bilmirəm. Çoxdan bu fikrim vardı ki, indi yaxşı bəhanə də düşdü o fikri əmələ gətirməyə: Mənim qəti qərarım budur ki, dəxi "Molla Nəsrəddin" jurnalını çıxarmaqdan bilmərrə əl çəkmək, evdə oturmaq və hökumətimizdən beş-on manat pensiya istəmək ki, – elə bilirəm, ona bəlkə haqqım da ola, – və pensiya da olmasa, bir özgə mənbədən müxtəsər xərclik axtarmaq.

Əgər "Molla Nəsrəddin"in nəşri hökumətə lazım olsa, heç sözüm yoxdur, özgə bir imza ilə məcmuənin nəşrinə heç müzaiqəm yoxdur. Hətta, yaza da bilsəm, sətir haqqının sahibi olaram.

Amma bunu yenə deyirəm ki, bundan sonra mənim imzam məcmuədə görünsə, o vədə şikayətçi olsam, gərək heç kəs məndən inciməyə" (1, s. 70).

Bu sətirlərdən görünür ki, Mirzə Cəlillə M.S.Ordubadi arasında təkcə iş əlaqələri deyil, eləcə də qırılmaz dostluq əlaqələri olmuşdur. Amerikalı müəllif Janet Aferinin "sosialist yazıçısı" (6, s. 119) məhfumunu işlətməsinə gəldikdə

isə Yavuz Axundlunun bu fikrini xatırlatmaq yerinə düşər: "Azərbaycan Demoratik Respublikasının süqutundan sonra Ordubadi yeni quruluşu alqışlayır, təbii ki, onun şer yaradıcılığında Qırmızı imperiyanın siyasəti öz əksini tapır. Bu hal təsadüfi deyildi. Çünki Ordubadi illər boyu bu ruhda köklənmişdi" (4, s. 83).

Məmməd Səid Ordubadinin şer yaradıcılığı onun Cənubi Azərbaycana olan marağını, hökumətin irticaçı üsul-idarəsinə olan tənqidi baxışını açıq aydın göstərir. Əlbəttə, amerikalı müəllif hadisələrin mahiyyətinə bu dərəcədə nüfuz etmədiyindən oxuculara qeyri-dəqiq məlumatlar çatdırmışdır.

Janet Aferi "Molla Nəsrəddin"lə bağlı Nəriman Nərimanovun şəxsiyyətinə də toxunmuşdur: "Hümmət" partiyasının üzvü olan digər müsəlman sosialist Nəriman Nərimanov arabir öz yazıları ilə "Molla Nəsrəddin"ə müraciət edirdi" (6, s. 119). Gürcü tədqiqatçısı İlya Moiseviç Dubinskiy – Muxadze onunla bağlı yazır: "Nəriman Nərimanovun mənsub olduğu nəsildən: Soltanməcid Qənizadə, Həbibbəy Mahmudbəyov, Firudinbəy Köçərli, "müəllimlər müəllimi" Süleyman Sani Axundov, "Molla Nəsrəddin"in özü – Çernyayevskinin Nərimanovla eyni dildə "kəşf etdiyi", lakin özünün biliyinə və yaşına görə hazırlıq kursu keçmədən bilavasitə seminariyaya qəbul olunmuş Cəlil Məmmədquluzadə. Mahir yazıçı, gözəl sənətkar, həyatı dərindənbilən, müsəlman aləmində ilk satirik. "Molla Nəsrəddin" jurnalının banisi və redaktoru. Polis idarəsi jurnalın abunəçilərini, oxucularını dərhal etibarsız adamlar siyahısına salır. Öz aləmində düz hərəkət edir. Redaksiya, onun əməkdaşları – böyük şöhrət qazanmış şairlərdən Mirzə Ələkbər Sabir, istedadlı rəssam Əzim Əzimzadə Rusiya inqilabçı-demokrat ideallarına açıq-aydın rəğbət bəsləyirlər. Dövlət quruluşunu, müstəmləkəçilik qayda-qanunlarını, çar idarələrinin özbaşınalığını və satqınlığını, ruhanilərin fanatizmini, acgözlüyünü, cahilliyini ifşa edirlər" (7, s. 11).

Nəriman Nərimanovun həyatı və keçdiyi yolla bağlı axtarış aparan gürcü tədqiqatçısı, göründüyü kimi, "Molla Nəsrəddin" jurnalına yüksək qiymət vermişdir. Müəllif qeyd edir: "1905-ci ildə rus inqilabı məğlub edildikdən sonra rus senzurasından can qurtarmağa çalışan "Molla Nəsrəddin" özünün sosial və siyasi buraxılışlarını qonşu müsəlman ölkələrində yaymağa başlamış və nəticə olaraq İran, Türkiyə, Misir və Şimali Afrikada geniş oxucu kütləsi qazanmışdır" (7, s. 119). Sitatdan göründüyü kimi jurnalın beynəlmiləl xarakter daşıması onun əsrin əvvəllərində yaranan digər mətbu orqanlar üçün ölçü rolunu oynamasından xəbər verir. Xanım Aferi buradakı felyetonları da müzakirə edir: "Molla Nəsrəddin"in din xadimlərini əks etdirən rəngarəng və satirik karikaturaları, despot rejimi, Avropa imperializminin tənqidi qəzetə müxalif qüvvələr yaratdı (6, s. 119). Akademik İsa Həbibbəyli jurnalda karikatura yaradıcılığını daha ətraflı tədqiq edərək "Molla Nəsrəddin"in ənənəvi karikaturaçı rəssamlarını diqqət önünə çəkmişdir: "Molla Nəsrəddin" jurnalında müxtəlif illərdə iyirmi nəfər rəssam iştirak etsə də, onlardan üç nəfəri – Əzim Əzimzadə, Oskar Şmerlinq, İozef Rotter görkəmli karikaturaçı rəssam zirvəsini fəth etmişlər. Oskar Şmer-

linqin başladığı, əsasını qoyduğu, formalaşdığı işi bir az sonra Əzim Əzimzadə (1880-1943) uğurla davam etdirərək xüsusi məktəb yaratmağa nail olmuşdur" (3, s. 10).

"Molla Nəsrəddin"in qadın problemində mübariz mövqeyi xanım Aferinin də diqqətini cəlb etmiş, amerikalı müəllif eyni zamanda qadınların əsrin əvvəllərində irticaçı rejim altında hüquqsuz həyat tərzi, onların mühafizəkar şəraitdə yaşayışları və s. kimi məsələlərə də öz münasibətini bildirmişdir: "Molla Nəsrəddin" eyni zamanda qadın hüquqlarının güclü mühafizəçisi olmuşdur və regionda müsəlman qadınlarının təcrid olunmuş həyat tərzləri ilə bağlı karikaturalar nəşr etdirmişdir" (6, s. 119). Bəli, qadın azadlığı məsələsi əsrin əvvəllərində xüsusi əhəmiyyət kəsb edirdi. Bir sözlə "müsəlman xanımlarının... hər şeyi bilməyə can atan Avropa qadınlarından xəbərsiz qalan baxışlarının pərdəsinin kiçik bir küncünü açmaq" məsələsi "Molla Nəsrəddin"in aktual məsələlərindən idi. Firidun Hüseynov məhz bu mövzuda "Molla Nəsrəddin"də yazıları dərc olunan mollanəsrəddinçilərin yaradıcılığını yüksək qiymətləndirir: "Mollanəsrəddinçilərin yaradıcılığında Azərbaycan qızları və qadınlarının köləliyi, acınacaqlı taleyi geniş planda əks etdirilən ictimai-əxlaqi və ədcəbi-mədəni problemdir. Məişət adiliyindən başlamış, ən böyük cəmiyyət hadisələrinə qədər, həyatda nə varsa, qadın azadlığı, qızların təhsil və tərbiyəsi, hüquq bərabərliyi, insanlıq ləyaqəti, qadın və ana adının ucalığına hörmət etikası ilə sıx bağlı şəkildə təsvir və təlqin olunur. XX əsr Azərbaycan ədəbiyyatında qadın azadlığı mövzusunun köklu şəkildə qoyuluşu və hərtərəfli ədəbi-bədii həlli Cəlil Məmmədquluzadənin adı ilə bağlıdır" (5, s. 158).

Daha sonra xanım Aferi qeyd edir ki, hər şey demokratik şəkildə, həm də sadə xalq dili ilə əhaliyə çatdırıldığına görə Məhəmmədəli şah jurnalın İranda yayımını dayandırmaq istəmiş, ancaq buna nail ola bilməmişdir.

Yazılanlardan belə bir qənaətə gəlirik ki, "Molla Nəsrəddin" mövzusu Janet Aferinin yaradıcılığında özünəməxsus tərzdə işıqlandırılmışdır. Onun müraciət etdiyi mövzuda bəzi anlaşılmazlıqlar (yuxarıda verilib – X.M.) olsa da, "Molla Nəsrəddin" həqiqətləri müəyyən mənada beynəlxalq aləmə çatdırılıb.

ƏDƏBİYYAT

1. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə. Mühiti və müasirləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1997, 680 s.
2. Həbibbəyli İ. XX əsrin əvvəlləri Azərbaycan yazıçıları. Bakı: Nurlan, 2004.
3. Həbibbəyli İ. Molla Nəsrəddin və mollanəsrəddinçilər. Bakı: Yazıçı, 1986, 250 s.
4. Axundlu Y. Məmməd Səid Ordubadi. Bakı: Sabah, 1997, 352 s.
5. Hüseynov F. Molla Nəsrəddin və mollanəsrəddinçilər. Bakı: Yazıçı, 1986, 250 s.
6. Janet Aferi. İran Konstitusiya inqilabı, 1906-1911. Nyu-York, Kolumbiya

Universiteti, 1996, 448 s.
7. İlya Moiseviç Dubinskiy Mukadze. Nəriman Nərimanov. Bakı: Yazıçı, 1978, 243 s.

Хумар Мамедова

ЖУРНАЛ «МОЛЛА НАСРЕДДИН» В ИССЛЕДОВАНИЯХ АМЕРИКАНСКОЙ УЧЁНОЙ ДЖАНЕТ АФЕРИ

Статья посвящена исследованию журнала «Молла Насреддин». Здесь изучены исследования азербайджанских и американских учёных, связанные с журналом «Молла Насреддин».

Khumar Mammadova

THE JOURNAL “MOLLA NASRADDIN” IN THE RESEARCH OF AMERICAN SCHOLAR JANET AFARY

The article is devoted to researches of Janet Afary in the journal of “Molla Nasraddin”. There are different comparisons in thoughts and considerations between Azerbaijani and American scholars in this article.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

MƏHSƏTİ İSMAYIL
AMEA Naxçıvan Bölməsi
E-mail: mehsetiismail@yahoo.com

AZƏRBAYCAN TOYLARINDA XINAYAXMA MƏRASİMİ VƏ XINA

(Redaksiya heyətinin üzvü, f.e.d., prof. M.A.Cəfərli tərəfindən təqdim edilmişdir)

Milli mədəniyyətimizin təməl daşlarından biri də toy adətləridir. Ailə qurulması insan həyatının ən əhəmiyyətli bir mərhələsidir. Ailə qurulanda isə icra olunan bütün adət-ənənələrin əsas mahiyyətini qurulacaq ailənin möhkəmliyi və xoşbəxtliyi təşkil edir. Toy şənliyinin, əyləncələrin də başlıca məqsədi budur. Toy adətlərində ənənəvi adətlərdən biri də xınayaxmadır. Xınayaxma yalnız azərbaycanlılar üçün deyil, ümumtürk mədəniyyəti üçün xarakterik bir adətdir. Adət geniş arealda yayılmasına baxmayaraq eyni özəllikləri daşıyır. Naxçıvandan toplanmış çoxsaylı nümunələr bu adətin ənənəvi zənginliyini açıq şəkildə göstərir. Naxçıvanda oğlan toyundan bir gün öncə oğlan evində xına yoğrulub qız evinə aparılır. Xalq arasında ən çox "xına yoğurmaq", yaxud da "xınanı dəmləmək" ifadələri işlənir. Xınanın hazırlıq mərhələsini izlədikdə aydın olur ki, bu ifadələr bənzətmə xarakterli olub xınanın daha effektli boyanması üçün istifadə edilən üsullardır. Əgər xına dəm alıb qatı şəkil alarsa, istiliyi keçməmiş yaxılsa daha gözəl boyanar. Xına oğlan adamlarından başı bütün biri (yəni evlənib ayrılmayan) gəlinin əllərinə, ayaq barmaqlarına xına yaxır. Sonra bu qabdan yeddi subay qız əllərinə xına qoyur. Doğu və Güney Doğu Anadoluda qız və oğlanın xına gecələri ayrı-ayrı keçirilir. Qüzey İraqda, Türkmənlərdə xına ancaq qız evində keçirilir. Gəlinin xınasını da həmçinin qisməti bol olan bir kimsə yaxarmış (7, s. 210-211). Güney Azərbaycanda – İskəmərdə toy gününün axşamına xınagecəsi deyilir (1, s. 174). İnama görə gəlinin əl barmaqlarına "**fındıqça"** adlandırılan xınayaxma xoş günə işarədir. Fındıqça xınayaxmanın iki şəkli var:

1.Yalnız dırnaqlara qoyulan xına.

2. Barmaqların birinci bükümünə qədər səliqə ilə qoyulan xına.

Xına ayaq barmaqlara bəzi yerlərdə isə ayağın altından pəncələrə qədər yaxılır. Güney Azərbaycanda "yarpaq hənası" adlandırılan xınayaxma növü də maraqlıdır. Qadınlar müxtəlif şəkilli yarpaq və gülləri qurudar sonra toylarda gəlinin əlinə, barmaqlarına yapışdırıb üstündən xına yaxarmışlar. Yarpaq və gül

ləçəklərinin düşməməsi və xınanın axmaması üçün hər iki tərəfdən taxta qaşıq bağlayarmışlar. Xına quruyandan sonra əllər açılıb yuyularmış. Bu növ xınayaxma isə "yarpaq hənası" adlanarmış. "Əlin yarpaq hənada deyil ki" deyimi də buradan götürülmüşdür. (6, s. 130-131). Hazırda Naxçıvanda da bu deyimin işlənmə yeri və məqamı eyni ilə ifadə olunmaqdadır. İş buyurulan birisi digərinə "əlin-ayağın xınalı deyil ki" deyə etirazını bildirir. Yaxud da iş buyuranın sözünü yerə salmaq mənasında "əlim xınalıdı" deyir. Anadolu Türklərində də xına bəzəyinin bir çox ceşidi mövcuddur; sıvama, pişik pəncəsi, dilbər dodağı, quş gözü, iplik xına və sair (10). Naxçıvanda **xına, xına yaxdı, xına gecəsi**, Ordubadın bəzi kəndlərində isə **qızbaşı** adlandırılan xüsusi mərasim icra olunur. Bu adət Türkiyənin Əmirdağ yörəsində də "kızbaşı" adlanır (10). Ordubadın Sabirdizə kəndindən topladığımız məlumata görə Qızbaşı mərasimdə yalnız qadınlar iştirak edir. Mərasim gecə keçirilir. Bir çox yerlərdə gecə nə oğlan evi, nə qız evinin adamları yatmırlar. Xına gecəsində Naxçıvanın bütün kəndlərində **haxışta, hakuşka, hakışta** adlandırılan mərasim sözləri deyilir.

Araxçına qızıl qoy, haxışta,
Dövrəsinə düzdür qoy, haxışta,
Məni sənə verməzlər, haxışta,
Get atını hazır qoy, haxışta (5, s. 95).

Armud ağacı haça, haxışta.
Əlim dolaşdı saça, haxışta.
İgid ona deyərəm, haxışta.
Sevdiyin ala qaça, haxışta.

Üstüpünün malları, haxışta.
Mələşər davarları, haxışta.
Bəyimizə qurban olsun, haxışta.
Gəlinin xalaları, haxışta (2, s. 375-387).

Lakin Ordubad rayonunun Sabirkənd kəndindən topladığımız materiala görə mərasimə verilən ad və onun sözləri fərqlidir. Mərasim Anadolu türklərinin xına gecəsi mərasiminə daha çox yaxındır. Çünki xına gecəsi qızların nəğmə oxumasına məhz burada rast gəlinir. Xına gecəsində söylənən Naxçıvana xas deyişməli haxıştalar bu nəğmədən fərqlidir. Anadoluda Qızbaşı mərasiminin sözləri nəğmə kimi oxunur.

Oyna bənövşəli gəlin,
Əlləri guşəli gəlin.
Ərin sənə başmax alıp,
Ayağına geyəsən gəlin.
Oyna bənövşəli gəlin,
Əlləri guşəli gəlin,
Ərin sənə yaylıx alıp,

Başına salasan gəlin.
Oyna bənövşəli gəlin,
Əlləri guşəli gəlin,
Ərin sənə paltar alıp,
Əyninə geyəsən gəlin.
Oyna bənövşəli gəlin,
Əlləri guşəli gəlin,
Ərin üstə arvad aldı,
Özünü döyəsən gəlin (5, s. 42-43).

Şərur bölgəsinin kəndlərində isə Novruz bayramında, toyda və xına gecəsində gülümeylər deyilir.

Baxçamızda nar şirin, gülüm hey,
Heyva şirin, nar şirin, gülüm hey.
Sağ olsun qohum-qardaş, gülüm hey,
Hamısınnan yar şirin, gülüm hey.

Saşda daraq olaydım, gülüm hey,
Yolda iraq olaydım, gülüm hey.
Yar içəri girəndə, gülüm hey,
Dönüb çıraq olaydım, gülüm hey (2, s. 294).

Mərasim şənlik və əyləncələr üzərində qurulur. Haxıştanın sözləri oğlan evi və qız evinin adamları arasında qarşılıqlı hazırcavablıqla ritm və addım oyunu ilə birlikdə deyilir. Hər iki tərəf hazırcavablıqla üstünlük qazanmaq istəyir. Bu qarşılıqlı haxıştada qız-gəlinlər əl çalır və xorla **"hakuşka"** deyir. Məclisə şənlik əhval-ruhiyyəsi vermək üçün əlavə oyun səhnələri hazırlanır. Oyunçu gülməli şəkildə geyinib bəzənir müxtəlif mahnılarla rəqslərlə məclisi şənləndirir. Gəlinin dilindən "mən gəlmişəm" başlığında deyilən sözlər əyləncə xarakterlidir. Naxçıvan şəhər sakini Əsədova Qarateldən topladığımız nümunədə belə deyilir:

Mən gəlmişəm al geyinəm allanam,
Gəlməmişəm dərd-qəm yeyəm saralam.
Mən gəlmişəm sarı geyəm sallanam,
Gəlməmişəm çit-mit geyəm allanam,
Mən gəlmişəm ənnik vuram ağaram,
Gəlməmişəm çörəh yapam qaralam.
Mən gəlmişəm istəkana qənd qoyam,
Gəlməmişəm ürəyimə dərd qoyam.
Mən gəlmişəm inəh sağam yağ yığam,
Gəlməmişəm təzəh, peyin, ot yığam.
Mən gəlmişəm araba minəm bağ gəzəm,
Gəlməmişəm eşşək minəm dağ gəzəm.
Mən gəlmişəm qızıl taxam, nazlanam,

Gəlməmişəm əl-ayağım qaraldam.
Mən gəlmişəm aş bişirəm aş çəkəm,
Gəlməmişəm qor-qoduğa baş çəkəm.

Göründüyü kimi, xına mərasimi Naxçıvanda bölgələr üzrə eyni xarakterdə keçirilir. Mərasimi biri-birindən fərqləndirən isə mərasimdə deyilən sözləridir. Ümumtürk mədəniyyətinin bir qolu sayılan xına mərasimi Anadoluda, Orta Asiyada, Cənubi Azərbaycanda eyni qayda ilə keçirilir. Y. Kalafat qeyd edir ki, xına Anadolunun hər tərəfində yayqındır. Həmçinin Ovabağ kəndində oğlan evi tərəfindən göndərilmiş olan xına gəlinin əl və ayaqlarına yaxılır. Sonra qadınlar öz aralarında əylənir. Burada maraqlı olan odur ki, gəlin köçən qıza ağıt söyləyərək və onu ağladarlar (7, s. 284). Burada söylənən ağıt bizim yas mərasimlərində səs avazı ilə deyilən ağı və bayatılara yaxındır. Mövzusu ayrılıq və qürbət olan ağıtlar xüsusi yanğı və qüssə ilə oxunur. Ağıtın söylənməsi və gəlinin ağlaması mərasimə hüzünlü hava versə də bu ata ocağından ayrılıq həsrətini ifadə edir.

Sazaklarda ev yapma anam o batar gider,
Uzaklara kız verme anam o yiter gider,
El kadarcık ekmeğin anam o bana yeter.

Ben balı pekmez sanırdım,
Çanaktan almaz sanırdım,
Anadan babadan ayrılan kızı,
El yüzüne bakmaz sanırdım. (10)

Bu sözləri hüzünlü avazla söyləyər, gəlini ağlatmağa çalışarlar. Amma istər ağıtlarda, istərsə haxıştalarda coğrafi mühit təsvir olunur. Hətta ümumi mövzulu haxıştalara adam adları da əlavə olunur.

Oğlan adın Talıbdı, haxışta
Gün dağları alıbdı. haxışta
Verdiyin qızıl üzük, haxışta
Barmağımda qalıbdı, haxışta

Türkiyənin Adana bölgəsinin Qədirli ilçəsində ata evindən ayrılan qızın giley, bəddualı ağıtı Ordubad bölgəsindən topladığımız nəğmə ilə oxşardır.
Adana variantı:

Ana gızın çokmuydu,
Gırılası emmilerim,
Heç oğlunuz yokmuydu (10)

Ordubad variantı:

Daday daday dad aldı məni,
Almadı qohum-qardaş yad aldı məni (5, s. 100).

Azərbaycan toylarında isə xına gecəsi şən əhval-ruhiyyədə keçir və ağlamaq, kədərli sözlər müşahidə olunmur. Yalnız səhəri günü atanın xeyir-duasından sonra qız ağlayaraq vağzalı (gəlin-bəy havası da deyilir) sədaları ilə

evdən ayrılır. Bu da eyni ayrılıq ağlamasıdır. Hətta gəlin köçən zaman qız ağlamırsa demək sevinir. Qədim ənənələrə görə bu ayıb sayılırdı. Evindən, ata-anasından, bacı-qardaşlarından ayrıldığına görə isə qızın ağlaması təbii qəbul olunurdu. Naxçıvanda xına gecəsində gəlinin başına noğul, konfet tökərlər. Evli olmayanlar bu şirinlikdən götürməyə çalışarlar. İnama görə toy, nişan şirinliyindən yeyənlərin də bəxti açılar. Araşdırmacı Y.Kalafat məlumat vermişdir ki, İç Anadoluda xına gecəsində gəlinə bal şərbəti verərlər (7, s. 75). Şərurdan topladığımız materiala görə toyda bəy hamamı günü bəyə və onun dostlarına süd şərbəti paylanarmış. Güney Azərbaycandan toplanmış materiala görə Xalxalda oğlan üçün məxsusi xına yaxdı gecəsi olmayıb, amma bəy hamamı mərasimində bəy hamamına xına göndərilərmiş (3, s. 68-69).

Güney Azərbaycanın zəngin folklor mühitində xına yaxma mərasimi əski ənənəçiliyə söykənir. Gəlin aparılmadan bir-iki gün əvvəl qız evində xına yaxmağa dəvət olunarmış. Həvəskar çalğıçılar dəstəsi gələnləri əyləndirərmişlər. Qadınlar saçlarına, ayaqlarına, əllərinə, qızlar isə əllərinə xına yaxarmışlar. Burada da bəzi qadınlar yalnız fındıqça xına qoyarlar (buradakı fındıqça dırnaqlara qoyulur). Güney Azərbaycanın bəzi şəhərlərində, Marağa ətrafında oğlanın da xına yaxdı gecəsi olarmış (3, s. 68-69).

Əfşar-Tikab (Tikantəpə) mahalında xına mərasimində gəlin təntənə ilə gətirilib kürsüdə oturdarlar bəyin yengəsi bir tərəfdə, gəlinin yengəsi digər tərəfində dayanar. İki qab xına gətirərlər gəlin barmağını xına qabından birinə batırar və yengə ilə həmən qab oğlan evinə göndərilər. İkinci xına qabından isə uşağı ölməyən bir qadın gəlinin əllərinə xına qoyarmış. Xınanı qoymazdan əvvəl sikkə pulu xınaya bulaşdırıb gəlinin ovcuna qoyarlar, gəlin əlini yumar və möhkəm saxlayar. Cavan qızlar gəlinin əlindən sikkəni çıxartmaq üçün çalışarlar. Gəlinin ovcunu kim açа bilsə pul da ona çatır. Oğlan evində də bu adət icra olunur. Burada isə bəy sikkəni alanı gəlin gününün səhəri keçirilən "şabaş"a dəvət edir. Gəlin ata evindən çıxarılanda da oğlan evinin adamı belə bir nəğmə oxuyar;

Əlləri xına gül bağlar,
Qız gedər anası ağlar (9, s. 159).

Gəlin köçən qız isə ata-anasının qarşısında diz çöküb onların əllərindən bir də ata evinin darvazasından öpər. Qız qapıdan çıxanda isə arxasınca bir çölmək sındırarlar ki, ər evində qalsın boşanmasın (3, s. 159-163).

Ümumiyyətlə, əl və ayağa xına yaxılması xoş günə işarədir. Xına ta qədim zamanlardan analarımızın, nənələrimizin bəzək növü kimi bilinmişdir. Qurban bayramlarında, qurbanlıq heyvanların üzərinə xına yaxıb tüklərini boyamaq xeyirli əlamət sayılmışdır. Sünnət olunacaq oğlan uşaqlarının əllərinə kiçik toyundu deyə xına yaxılması adəti də vardır. Xınanı həmçinin cənnət əlaməti, cənnət nişanəsi adlandırırlar. Yaşlı nəsil qadınlar saçlarına, əl-ayaqlarına hər zaman xına yaxar və bunu o biri dünyaya hazırlıqla izah edərlər. Hətta bir çox insanlar öləcəkləri zaman əl-ayaqlarına xına yaxılmasını vəsiyyət edərlər. Ölən

insanlara bir neçə halda xına qoyulması adəti mövcuddur. Əgər bu dünyadan nakam gedibsə, övladı, toy-büsatı olmayıbsa, yaxud gənc yaşlarında vəfat edibsə belə qadınların əl-ayağına xına yaxılar. Etnoqraf Q.Qadirzadə cavan, nişanlı adamlar öləndə xınanın küllə qarışdırıldığını və "xınan külə qarışsın" ifadəsinin burdan qaynaqlandığını demişdir (8, s. 88).

Qüzey Kipr türklərində qadın ölülərin əl və ayaq barmaqlarının arasına, əllərinə, ovcuna, qulaqlarının arxasına, saçlarına yoğrulmamış quru xına, ya da su ilə yoğrulmuş xına yaxma adəti vardır. Xına yaxılanda bu dünyada yerinə yetirmədikləri vəzifələri üçün axirətdə hesab verməyəcəklərinə, sorğu soruşulmayacağına, yəni bağışlanacaqlarına inanılarmış. Xına saxsı qabda yoğrulur, bismillah deyilərək pambığa batrılıb ölüyə yaxılır. Bu zaman ölünün adı çəkilərək "al axirət xınanı" deyilir. Sıra ilə barmaq arasına, ovuca, qoltuq altına sonisə başa yaxılır və qab sındırılarmış (4, s. 131).

Naxçıvanda əzizi ölmüş yas saxlayan qadınlar bir il müddətində xına qoymazlarmış. Yalnız il mərasimi keçiriləndən sonra yaxın qohumları xına, qənd, çay payı ilə mərhumun ailəsini yasdan çıxartmağa gedərlərmiş. Bəzən gələnlər təkidlə xınanı isladıb yas sahibi olan qadınların saçlarını boyayarlarmış. Belə hərəkətlər hörmət əlaməti sayılırmış.

Beləliklə, uzun zaman kəsimində icra olunan etnik adətlər ənənə şəklini qorumaqla yanaşı, həm də zənginlik qazanır. Milli ənənələrə meyl edilməsi sözlü mətnlərin müxtəlif və çoxvariantlı olması üçün təməl yaradır.

ƏDƏBİYYAT

1. Ağkəmərli A. Bizi yaşadan tarix İskəmər. İskəmər, 1999, 320 s.
2. Azərbaycan folklor antologiyası. Naxçıvan folkloru. I c., Naxçıvan: Əcəmi, 2010, 512 s.
3. Azərbaycan folklorundan nümunələr. Toplayan Cavid Səlamullah. II c., Fərzanə, 1358, 438 s.
4. Bağışkan T. Kıbrıs Türk halkbiliminde ölüm. Ankara: KKTC Milli Eğitim, Kültür, Genclik ve spor Bakanlığı yayınları, 1997, 403 s.
5. El sözü, yurd yaddaşı. Folklor toplusu. Toplayıb tərtib edən İsmayıl M. Bakı: Elm, 2010, 168 s.
6. Hacıyeva Q. Dilimiz, tariximiz, yaddaşımız. Bakı: Araz, 2008, 200 s.
7. Kalafat Y. Dedem Korkut aşağı eller: Ankara: Berikan Yayınevi, 2008, 201 s.
8. Qədirzadə H. Q. Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr. Bakı: Elm, 2003, 368 s.
9. Yekanizare P. Azərbaycan şifahi el ədəbiyyatına bir baxış. Əndişe, 1377, 209 s.
10. www. turkuler. com/yazi/kina.asp. Yıldızkaya Ö.F. Kına ağıtları.

Мехсети Исмаил

ОБРЯД КРАШЕНИЯ ХНОЙ И ХНА НА АЗЕРБАЙДЖАНСКИХ СВАДЬБАХ

В статье исследовано место и значение обряда крашения хной на азербайджанских свадьбах и поминках. Исследование показывает, что крашение хной не только является одним из обрядов в ночь хны, а также имеет символическое значение. В этом обряде от ображена цельность семьи, а красный цвет является символом счастья женихов. Крашение хной присутствует не только в свадебных обрядах, а также связано с трауром, так как дети, жених или невеста, не достигшие желаемого, также красятся хной. По верованиям древних людей, хна является символом счастья и рая.

Mehseti Ismayil

CEREMONY DYEING BY HENNA AND HENNA IN THE AZERBAIJAN WEDDINGS

In article the place and value of a ceremony dyeing by henna in the Azerbaijan weddings and mournings is investigated. Research shows that dyeing by henna not only is one branches of a ceremony in night of henna, and also has symbolical value. In this ceremony it is represented the entiere families, and red color is a symbol of happiness of grooms. Dyeing by henna is present not only at wedding ceremonies, and also is connected with mourning. As children and the groom or the bride who has not reached wished also it is painted with henna. On beliefs of ancient people henna is a happiness and paradise symbol.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

ƏKRƏM HÜSEYNZADƏ
AMEA Naxçıvan Bölməsi
E-mail: ekremhuseynzade@yahoo.com

NAXÇIVANDA İLANLI DAĞI VƏ ƏLİNCƏ QALASI İLƏ BAĞLI RƏVAYƏTLƏR VƏ SEMANTİK ŞƏRHLƏR

(Redaksiya heyətinin üzvü, f.e.d., prof. M.A.Cəfərli tərəfindən təqdim edilmişdir)

İlanlı dağ və ya başqa deyilişlə Haça dağ həm quruluşuna görə, təbiətinə görə, həm də bu dağla bağlı inanclar, ata sözləri, rəvayət və əfsanələr baxımından çox maraqlıdır. Ulu öndərimiz Heydər Əliyevin bu dağla bağlı söylədikləri fikirlər bu dağın öyrənilməsinə və tədqiqinə marağı daha da artırmışdır. Məşhur Rusiya rəssamı Nikas Safronovun Bakıda sərgisinin açılışı zamanı Heydər Əliyev çıxışında demişdir: "Mən Azərbaycan Rəssamlar İttifaqına mənə bağışladığınız bu rəsm əsərinə görə təşəkkür edirəm. Bu mənzərə rəsmi, həqiqətən, nadir bir əsərdir. Naxçıvanda olmayan, Naxçıvanı əhatə edən dağları görməyən bu əsərin əhəmiyyətini tam qiymətləndirə bilməz. Yəqin ki, mən bu əsərin həmin qeyri-adi dağı – İlanlı dağı nə dərəcədə dəqiq əks etdirdiyinə hələ sonra da baxacağam.

Mən bir çox ölkələrdə olmuşam, çox dağlar görmüşəm. Amma Naxçıvandakı kimi dağlara və İlanlı dağ kimi dağa şəxsən mən rast gəlməmişəm. Bəlkə də digər, daha maraqlı, daha gözəl dağlar var, lakin bu dağ özünəməxsusluğu ilə fərqlənir, belə dağı təbiətin özü yaradıbdır. Maraqlıdır ki, günün müxtəlif vaxtlarında, günəş şüalarından asılı olaraq bu dağın rəngi köklü surətdə dəyişir. Bu nə isə nadir bir haldır. Mən bu dağın zirvəsinə qalxmamışam. Bu, çox çətindir. Amma uşaqlıq, gənclik çağlarımda mən bu dağın ətəklərində dəfələrlə olmuşam və həmişə də heyran qalmışam..."(1).

Məşhur realist rəssam Bəhruz Kəngərli günəş şüalarının düşməsinə görə bu dağın rənginin dəyişməsinin üç dəfə rəsmini çəkmişdir (3, s. 21)."1921-ci ildə çəkilmiş bu üç əsər rəssamın təbiətə bəslədiyi şairanə münasibəti: onun təbiətdə baş verən müxtəlif halların kolorit zənginliyini incəliklərinə qədər qavramaq, real tərzdə ifadə etmək qabiliyyətinə malik olduğunu sübut edir" (9, s. 36).

Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 85 və 86-cı ildönümü münasibətilə Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təşəbbüsü ilə təşkil edilmiş heyətin tərkibinə mən də daxil olmaqla 2008 və 2009-

cu ilin may ayının ilk ongünlüyündə bu dağın zirvəsinə iki dəfə qalxmış və "Heydər zirvəsi" adlandırılan zirvəyə Azərbaycanın üç rəngli bayrağını və ulu öndərimiz Heydər Əliyevin baralyefini sancmaq şərəfinə nail olmuşam. Zirvəyə qalxanadək 7 yerdə nəhəng siklop tikililər, 10-15 m hündürlükdə divar hasarlar mövcuddur. Bu dağda qədim gözətçi məntəqələrinə rast gəlmək olur. Xüsusi tonqal qalama yerləri vardır ki, yaxınlaşan təhlükə zamanı yandırılan tonqalın tüstüsü ilə Əlincə qalaya, oradan da Çalxan qalaya xəbər vermək mümkün olmuşdur. "Bu dağda eramızdan əvvəl 820-810-cu illərə aid qədim yazı – mixi yazı nümunələri də vardır"(14, s. 263).

İlanlı dağın zirvəsini 1998-ci il may ayının 10-da Azərbaycan alpinistləri fəth etmiş və onu ulu öndər Heydər Əliyevin anadan olmasının 75 illiyi münasibətilə "Heydər zirvəsi" adlandırmışlar. "Heydər zirvəsi" Qafqaz sıra dağlarının şimal hissəsində dəniz səviyyəsindən 3751 metr hündürlükdə yerləşir. Hər il bu zirvəyə qalxaraq xalqımızın ümummilli liderinin orada qoyulmuş büstünü ziyarət etmək bir ənənəyə çevrilmişdir ki, 2010-cu ildə də bu şərəfli ənənəni yenə də həyata keçirmişik.

Naxçıvan folklor mətnlərində *İlanlı dağı, Əlincə yurdu haqqında maraqlı əfsanə və rəvayətlər mövcuddur.*

*Bir ə*fsanəyə görə, 7500 il bundan əvvəl baş vermiş tufan zamanı Nuh peyğəmbər və ona iman gətirənlərin mindiyi nəhəng gəmi ilk dəfə Naxçıvanda quruya çıxmış və burada məskən salmışdır. İnanılır ki, bəşəriyyətdə yeni nəsil bu torpaqdan törəyərək, müxtəlif ölkələrə yayılmışdır. Həmin əfsanəyə görə, Nuhun gəmisi bir dağa toxunur. Nuh deyir ki, bu o dağdan kəm deyil. Beləcə, dağın adı Kəmki qaldı. Nuh peyğəmbər buradan Ağrı dağ istiqamətinə yola düşür və ora çatanda "Ağır dağ" deyir və buradan da o dağ "Ağrı dağı" adlanır. Daha sonra nəhəng gəmi hərəkət edərək digər bir dağın zirvəsinə çırpılmaqla o iki yerə haçalanmış və Nuh demiş "İnan dağ". Bu dağa xalq arasında İlanlı dağ və ya İlan dağ deyilmiş, iki yerə bölündüyündən isə Haça dağ demişlər.

Ümumiyyətlə, qədim dövr insanlarının mifik təfəkküründə fövqəladə güclərə bağlanan, insanı heyrətləndirən nəhəng dağların yaranması ilə bağlı maraqlı təsəvvürlər olmuşdur. İnsanların iradəsi mənəvi və fiziki gücü dağ əzəməti ilə ölçülmüşdür. Qədim türk mifik düşüncəsinə görə dağlar yurd yerinin bəlgəsi, qoruyucusu, sığınacaq yeri olmuşdur. Xalq düşmən hücumlarından qorunmaq üçün məhz dağlardan təbii istehkam kimi istifadə etmiş, dar gündə ora sığınmışdır.

İlanlı dağı Culfa rayonunun Əlincə ərazisində yerləşir. Yeri gəlmişkən həm "İlanlı", həm də "Əlincə" kəlmələrinin – toponimlərinin sementik mənasını izah etməyə zəruri ehtiyac duyulur.

Kəlbəcər rayonunda da İlandağ vardır. Tutqunçay hövzəsində 2487 m. hündürlükdə yerləşir. Naxçıvan MR Culfa rayonu bölgəsində yerləşən İlanlı dağının hündürlüyü isə 2415 m.-dir. Hər iki dağ vulkan, maqma mənşəli dağlardır. Qeyd etdiyimiz kimi Naxçıvanda yerli əhali bu dağa "İlanlı dağı" və ya "Haça

dağ” deyir. İlanlı dağın Naxçıvanda (Haçadağ) və Şirvanda (Laləli) iki adla tanınması regionallıqla şərtlənir. Xalqın bu deyim forması toponimin qədimliyini bildirmək mənasında da əhəmiyyətlidir. Ad çox uzaq bir yol keçdiyi üçün ilkin mənasından uzaqlaşmış, bugünkü sadə təsəvvür forması üstünlük qazanmışdır. Qeyd edək ki, Türkiyə respublikasında bu gün də İl və İlçə sözləri inzibati-ərazi vahidi kimi işlənməkdədir. Türkiyənin bütün ərazisi inzibatı cəhətdən 67 ilə bölünmüşdür. Rəfiq Özdək yazır: “Türklərin bir çox dövləti və müxtəlif tayfaları hakimiyyətləri altına alaraq qurduqları böyük dövlətlərə xaqanlıq, ya da qısaca İl və ya El deyilirdi. İmperatorluq səviyyəsinə çatmamış dövlətlər də bəzən “İl” və ya “El” adıyla anılırdı” (13, s. 29). Bu söz (İl) dövlət mənasında bir çox məqamlarda “Gültəkin” abidəsi mətnlərində də işlədilmişdir:

1. Türk millətinin birləşib el tutduğu zaman buraya vurdum (bu daşa yazdım).
2. Ötükən ormanında otursan, əbədi il tutaraq oturacaqsan (10, s. 112).
3. Bəylər də, millət də doğru imiş. Onun üçün eli qorumuşlar.
4. Elli-obalı millət idim, elim hanı? Kimə el qazanıram? (10, s. 113)
5. Türk milləti, sənin elini, sənin adətini kim poza bilər? (10, s. 114)

Bu misallarda “el” sözü əsasən dövlət (hakimiyyət), ərazi, tayfa, nəsil, torpaq, el-oba (xalq), var-kar, adəti olan xalq, vəzifə və s. mənalarında çoxmənalı söz kimi işlənmişdir. Türk tarixində xan və ya xaqanlar özlərinin adına “il” sözünü də əlavə edərdilər: Məsələn: “İltəris xaqan”, “Kat İl Xan”. 551-ci ildə jujanları darmadağın edən Hun sərkərdəsi Bumın “İl xan” titulunu qəbul edir. İl xan – dövlətin birinci başçısı mənasında, Kat (qat, təbəqə, rütbə-yüksək) İl xan isə yüksək, ali dövlət xanı kimi düşünülürdü .

Naxçıvandan toplanmış folklor mətnlərindən birinin ilk cümləsinə nəzər salaq: “Naxçıvanda il adı”. Məlumdur ki, İlandağ – ərazisində çoxlu yaşayış məskəni vardır. Deməli, adın birinci tərəfi (il) bölgə mənasında işlənmişdir. Burada “İlan” sözündə olan -an şəkilçi cəmlik bildirən komponentdir. İlan – illər mənasındadır. “İlandağ” ərazisi böyük strateji əhəmiyyəti olan yaşayış məskəni olduğu zaman ən çox “illər” (kəndlər) bu ərazidə olduğundan, Əlincə həmin “İL”in (dövlət mərkəzinin) “incə”sində – yanında, böyründə yerləşmişdir. Beləliklə, toponimin adında i-ə fərqləşməsi baş vermişdir. İlincə – Əlincə şəklinə düşmüşdür. Onu da nəzərə almaq lazımdır ki, sözün bu formada dəyişilməsi dilimizin akustik rahatlığı ilə də bağlı olmuşdur. Bu toponim qədim türk-oğuz toponimi kimi hun toponimləri ilə həmahəng səsləşir.

Bəzi tədqiqatçılar “İlanlı” toponimini “Elam” dövləti ilə bağlayır. Lakin bu ona görə məqbul sayıla bilməz ki, qədim türk dilli xalqların vətənində ilk adı heç kəs digər xalqdan, digər dildən “borc almaz”. Sadəcə toponimlərinin adının izahında, ərazidə milli mənsubiyyət ön plana çəkilməlidir.

Tədqiqatçı alim F.H.Rzayev İlandağ toponimi haqqında dəyərli fikirlər yazır: “İl – “yurd”, “Vətən”, “El”; An (Ann) – “Göy tanrısı”, “Tanrı”, “Dağ-dağ”, “Taq-tay”, “Azərbaycan toponimikasının əsasları” kitabında, coğrafiya dərslik-

lərində və digər mənbələrdə toponim İlandağ kimi göstərildiyindən araşdırmalara əsaslanaraq İlandağ dağını "Elin tanrı dağı" anlamında qəbul etmək olar" (12, s. 41). Məlumdur ki, tarixi onomastikanın araşdırılması xalqın qədim tarixi, etnogenezi problemlərinin qaranlıq qalmış bir sıra məqamlarına da aydınlıq gətirir .

Naxçıvan folklor mətnlərində mifoloji obraz, epizod və motivlərdən danışarkən professor M.A.Cəfərli yazır ki, bu mətnlər bütün mənalı elementləri ilə sıx şəkildə Naxçıvan geolandşafına – Naxçıvan torpağına bağlıdır (4, s. 36) ...Naxçıvanlı mətn daşıyıcısı üçün Haçadağ, Ağrı dağ (Böyük Ağrı, Bala Ağrı) adı təbiət obyektləri deyildir. Bu dağları insanlar müqəddəs saymış və onların Tanrısı yaratmışdır, – düşüncəsində olmuşlar (4, s. 23).

Naxçıvandan toplanmış "İki dağ" əfsanəsində deyilir ki, qədim zamanlarda yer üzündə iki dev varmış. Devlərin biri Məğribdə, biri Məşriqdə yaşayırmış. Onlar "İki qoçun başı bir qazanda qaynamaz" – deyib, Naxçıvanda görüşmək qərarına gəlirlər. Uzun səfərdən sonra onlar görüşüb xeyli vuruşurlar. Əfsanədə deyilir ki, devlərdən biri qadınımış, kişi devinsə bundan xəbəri yoxumuş. Toppuz vuruşunda qadın devin toppuzu kişi devin başını iki yerə haçalayır. Kişi devin toppuzu da nə təhər bərk dəyirsə, qadın dev ağrı alır və uşaq salır. Kişi dev çox peşman olur. Devlərin vuruşu göylərə xoş getmir. Hər iki devi Tanrı daşa döndərir. Xeyli sonralarsa devlər iki dağa dönüb aralıdan bir-birinə baxırlar. O vaxtdan kişi dev "Haçadağ", qadın dev isə "Ağrı dağ" adlanır. Ağrı dağın yanında balası da vardır (11, s. 76-77).

Tədqiqatçı folklorşünas alim R.Babayev qeyd edir ki: Naxçıvan nümunələrində divlərlə bağlı təsəvvürlər yetərincə güclüdür. Bölgədən toplanmış nağıllarda bir xarakterik cəhət diqqəti cəlb edir: divlər adam cildinə düşəndə üç şeyi gizlədə bilmirlər – dişləri gen, saçları sarı, gözləri göy olur. Bu da pisliyin, mənfinin zahiri tanıtma "nişanlarıdır"(2, s. 234).

Naxçıvandan bütün əzəməti ilə qardaş Türk elində seyr edilən Ağrı dağı ilə bağlı əfsanələrdə də mifoloji görüşlər əsas yer tutur. "Ağrı və Haça dağ" əfsanəsinə görə bu iki dağ qədim zamanlarda möhkəm dost olubmuş. Bir gün sözləri düz gəlmir və hər iki dağ dava edir. Onlardan biri hücum çəkib o birinə ağır zərbə endirir. Bu zərbədən dağ bala salır, qayıdıb dostunun başına bir yumruq endirir. Bu zərbədən o biri dağın başı yarılıb haçalaşır. Əfsanədə deyilir ki, o zamandan bala salan dağa Böyük Ağrı, balasına Bala Ağrı demişlər. Başı yaralanan dağı da Haça Dağ adlandırmışlar. Hər iki dağ tutduqları işdən xəcalət çəkmiş və həmişə üz-üzə dayanıb bir-birinə uzaqdan baxaraq, biri o birindən bağışlanmasını xahiş etmişdir. Göründüyü kimi folklor semantikasında dağlar canlı obrazlar kimi təsvir edilir. İnsana xas xarakter onlara da şamil olunur.

Burada hər iki mifoloji əfsanə etioloji – yəni izahedici məzmundadır. Haçadağ və Ağrı dağ naxçıvanlı mətn daşıyıcısının əski inamları, dini-mifoloji düşüncəsi ilə sıx bağlıdır .

Başqa bir əfsanədə İlan dağı "Alın dağı" kimi də yozulmuşdur. Nuhun gə-

misinin zərbəsindən ikiyə ayrılmış ləkəsiz geniş alına bənzəyən zirvəsində sanki Naxçıvanın keçmişi və indisi ağ kağızdakı sehrli misra kimi həkk olunmuşdur.

Bu dağlarla bağlı adqoyma formullarından danışan tədqiqatçı, folklorşünas alim R.Babayev yazır: "Əfsanələrin birində göstərilir ki, Nuh Qısırdağa deyir, sənin övladın olacaq. Qısırdağ ağrı çəkir, oğlu olur. Ağrı çəkdiyi üçün adı Ağrıdağ olur. Qeyri-adi doğuluş və adqoyma motivləri bu mətndə başqa şəkildə təqdim edilir: övladı olmadığından dağa Qısırdağ deyilir. Bu əsfanədə Nuh Nəbi hami statusundadır – məhz o, Qısırdağa "qaibdən dürlü xəbər söylədi". Sənin oğlun olacaq" (2, s. 232).

Bir başqa folklor mətnində İlandağdakı ilanlarla Arazın o tayında Diri dağdakı ilanların döyüşməsindən bəhs olunur. İlandağa hücum edən Diri dağın ilanlarının daha çox və güclü olmasına baxmayaraq İlandağın ilanları qalib gəlirlər. İlandağın qayaları da, daşları da ilanların qanlarından qızarır, bu gün də onlar qırmızıdır. Daşların, qayaların qırmızılılığının bu cür izahı əski inamlarla bağlıdır.
Ümumtürk mifologiyasında dağlar Tanrıya uzanan yol, Tanrıya çatmaq üçün bir məqam hesab edilir. Əski mifoloji türk düşüncəsində dağlar yerin dirəyidir. Mahmud Kaşğarlının əski türkcədə "Tenğri tağ birle yerig basurdı" – "Tanrı, dağlarla yeri basdırdı daha sağlam yaptı" (8, s. 77) sözləri bu fikirləri bir daha təsdiq edir. Bu mifik düşüncə, motiv dünya mifologiyası üçün də xarakterikdir. Belə ki, Həzrəti Məhəmməd (s.ə.s) peyğəmbərin Hira dağında – mağarada vəhy alması

Hz. Musa (ə.s.) peyğəmbərə vəhyin Turu-Sinada gəldiyi məlumdur. Hz. İbrahim (ə.s.) peyğəmbərin Hz. İsmayılı (ə.s.) qurban kəsmə mərasimi də dağda – Mina dağında baş verib. "Kitabi-Dədə Qorqud" dastanında Qazlıq dağı, müqəddəs Dəmir dağın əridilməsi, Ərgənəkondan çıxış, Qaf dağı, Göytürklərdə Ötükən dağı, Mərkəzi Asiyada Tanrı dağları və s. dağlar mövzu etibarilə eyni mifik düşüncə tərzini, məkanı və məqamı ifadə edir.

ƏDƏBİYYAT

1. Heydər Əliyev. Ölkəmizin paytaxtında məşhur Rusiya rəssamı Nikas Safronovun sərgisinin açılışında çıxışı. "Azərbaycan" qəz., 17 may, 1998-ci il.
2. Babayev R. İnanclarda yaşadılan div // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, cild 6, № 3, 2010.
3. Бехруз Бек Кенгерли. Каталог. Баку, 1947, 24 с.
4. Cəfərli M.A. Folklor və etnik milli şüur. Bakı: Elm, 2005, 109 s.
5. Hacıyev İ.M., Məmmədov Ş.A. Naxçıvan və naxçıvanlılar. Bakı: Elm, 2001, 280 s.
6. Həbibbəyli İ.Ə. Yaşayış yerləri adlarının dəqiqləşdirilməsi proqramı. Naxçıvan Dövlət Universitetinin Xəbərlər bülleteni, 2003, № 8.
7. İsmayıl M.R. Naxçıvan əfsanələri. Naxçıvan: Elm, 2008, 208 s
8. Kaşqari Mahmud. Divanü Luğat-ü-Türk. 4 cilddə, I c., Bakı: Ozan, 2006,

512 s.
9. Kərimov K. Bəhruz Kəngərli. Bakı: Maarif, 1962, 60 s.
10. Quliyev Ə. A. Orxon-Yenisey abidələrində toponim və etnonimlər. Bakı: Nurlan, 2004.
11. Naxçıvan folkloru Antologiyası. Tərtib edənlər: Məhərrəm Cəfərli, Rafiq Babayev. Naxçıvan: Əcəmi, 2010, 509 s.
12. Rzayev F.H. Qədim Şərur oykonimlərinin mənşəyi. Bakı: Nurlan, 2006, 242 s.
13. Rəfiq Özdək. Türkün qızıl kitabı. 3 cilddə, Bakı: Yazıçı, 1996, 242 s.
14. Naxçıvan Ensiklopediyası. 2 cilddə, I c., Naxçıvan, 2005, 397 s.

Акрам Гусейнзаде

СЕМАНТИЧЕСКИЙ ОБЗОР И ЛЕГЕНДЫ О ЗМЕИНОЙ ГОРЕ И КРЕПОСТИ АЛИНДЖА В НАХЧЫВАНЕ

Статья посвящена легендам о Змеиной горы и крепости Алинджа в Нахчыване. Здесь приведены семантические отзывы про топонимы Змеиной горы и крепости Алинджа. Место и роль гор в мифических мышлениях и верованиях древних людей проанализированы на основе народных примеров.

Akram Huseynzade

LEGENDS AND SEMANTIC COMMENTARIES IN ABOUT MOUNTAIN SNAKE AND THE ALINJA FORTRESS NAKHCHIVAN

The article is about legends of mountain Snake (Ilanli) and Alinja fortress in Nakhchivan region. It is shown semantic commentaries about this mountain and fortress. The places and the role of the mountains in mythic thinking and believes of ancient people are analysed on the base of folklore examples.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

İNCƏSƏNƏT

NİZAMİ ALIYEV
AMEA Naxçıvan Bölməsi
E-mail: nizamialiyev@yahoo.com

BƏHRUZ KƏNGƏRLİNİN MƏİŞƏT JANRINDAKI ƏSƏRLƏRİ HAQQINDA

(Akademik İ.M.Hacıyev tərəfindən təqdim edilmişdir)

Görkəmli Azərbaycan rəssamı Bəhruz Kəngərlinin bədii irsi ilə yaxından tanış olan hər bir kəs yaxşı bilir ki, onun yaradıcılığında portret janrı əsas yerlərdən birini tutur. Ona görə də rəssam, məişət janrında yaratdığı çoxfiqurlu kompozisiyalardakı obrazların xarakterik xüsusiyyətlərini, natura görünüşlərini və portret oxşarlıqlarını real və canlı şəkildə əks etdirməyə yüksək səviyyədə nail ola bilmişdir. Bəhruz kəngərlinin "Elçilik" (8, s. 81), "Naxçıvan toyu" (5), "Qaçqınlar" (6), "Qazıyev etüd çəkir" (1), "Naxçıvan çaparı" (8, s. 83), "İki qadın" (2), "Namaz" (7), "İki qaçqın qız" (3), "Kəndli oraq ilə" (4) və s. əsərlərində bu cəhətləri aydınca görmək mümkündür. Bu əsərlərin əksəriyyəti birfiqurlu, ikifiqurlu və üçfiqurlu kompozisiyalardan ibarətdirsə, "Elçilik" və "Naxçıvan toyu" əsərlərində olan fiqurların sayı daha çoxdur.

"Elçilik" əsəri doqquz, "Naxçıvan toyu" isə otuz dörd fiqur əsasında qurulmuşdur. "Naxçıvan toyu" əsəri Bəhruz Kəngərlinin yaradıcılığında ən çox fiqurlu kompozisiyası olmaqla bərabər, həm də ən böyük formatlı (31x25 sm) qrafika əsəridir. Bu tabloda çəkilən fiqurlardan otuz ikisi canlı naturadan, iki fiqur isə güzgüyə düşən əks əsasında təsvir edilmişdir. Hər iki kompozisi-yaya diqqətlə baxdıqda onların oxşar cəhətlərinin həddindən artıq çox olduğunu görmək olur. Belə ki, elçilik və toy mərasimlərinin keçirildiyi interyer, evlərin döşənmə tərzi, tablolarda təsvir edilən qadınların sifət bənzərliyi, xarakterik cizgiləri və geyimləri, taxçalardakı məişət əşyaları və s. detallar olduqca oxşardır. Əsərlərdəki bənzərliklər təkcə natura oxşarlığı ilə kifayətlənmir. Tablolardakı kompozisiyaların məkan, plan görünüşü, fiqurların anatomik quruluşu, praporsiyonal ölçüləri, rəng effekti və kolorit, yaxı tərzi və işıq-kolgə münasibətləri də eynidir. Onu da qeyd etməliyik ki, Bəhruz Kəngərli naturalist bir rəssam kimi

imkan düşdükcə fürsətdən istifadə edərək, iştirakçısı olduğu real həyat hadisələrini, o cümlədən elçilik, toy və s. mərasimləri olduğu kimi kətana köçürməklə çox canlı və dinamik obrazlar, həmçinin zəngin milli koloritə əsaslanan dəyərli sənət əsərləri yaratmağa müvəffəq olmuşdur. "Elçilik" və "Naxçıvan toyu" əsərlərini təhlil edərkən, bir daha Bəhruz Kəngərlinin təəssübkeş bir rəssam kimi milli adət və ənənələrimizi nə qədər dərindən bildiyini və onlara sadiq qaldığını aydınca görürük.

Şəkil 1. Elçilik

Rəssam, "Elçilik" əsərini (şəkil 1) ta qədim zamanlardan bəri xalqımızın zəngin etnoqrafik adət və ənənələri içərisində özünəməxsus yeri olan, "qızistəmə" prosesinə həsr etmişdir. Bəhruz bəyin bu əsəri mükəmməl kompozisiya quruluşuna malikdir. O, əsərin birinci planında dörd qadın təsvir etmişdir. Zəngin milli geyimlərlə bəzənmiş bu qadınlar, xalılarla döşənmiş evin bir küncündə bardaş qurub çay süfrəsi arxasında söhbət edirlər. Qadınlardan ikisi körpə uşaqlıdır. Onlardan biri qucağındakı uşağa nəlbəkidəki çayı içirdir. Digəri isə, dizləri üzərinə uzatdığı körpəni yırğalıyaraq yatırtmağa çalışır.

Bəhruz Kəngərli realist bir rəssam kimi yaratdığı bütün obrazların təkcə natura quruluşuna deyil, eyni zamanda onların üz ifadələrinə və digər xarakterik xüsusiyyətlərinə də ciddi diqqət yetirmişdir. O, qadınları və uşaqları mürəkkəb pozalarda və çətin rakurslarda çəkməsinə baxmayaraq, fiqurlar üçün tələb olunan proporsional ölçüləri olduqca düzgün vermişdir. Qurduğu interyerin perspektiv-plan quruluşuna gəldikdə isə rəssam onun öhdəsindən böyuk ustalıqla gəlmişdir. Rəssam kompozisiyanın hər bir planını fiqurlara uyğyn olaraq ayrı

ayrılıqda verməklə perspektiv dərinlik yaratmış və realistik görüntü əldə etmək üçün rəng effektlərindən düzgün istifadə edə bilmişdir.

Bəhruz Kəngərli "Elçilik" əsərinin birinci planında tablonun baş fiqurlar kimi elçiliyə gələn qadının və ev sahibəsinin portretlərini çəkmişdir. Kompozisiyadan göründüyü kimi qız "alış-verişi" məhz bu iki qadın arasında aparılır. Rəssam əsərin əsas mahiyyətini – elçi qadının üzündəki xoş ifadədə cəmləşdirməyi bacarsa da, bununla kifayətlənməmiş, adət və ənənələrimizə sadiq qalaraq elçinin şirin çayı qarışdırması ilə, qızın "həyinin" alındığını göstərməyə çalışmışdır. Rəssam bu sevinci ikinci qadının, yəni ev sahibəsinin üzündə çəkdiyi təbəssümdən də onun razılığını aydınca hiss etdirmişdir. Əsərin əsas obrazlarından biri sayılan elçilənən qız üçüncü planda, mətbəxdən evə açılan qapının arasında təsvir edilib. O, sinidəki şirin çayları digər qonaqlara gətirmək üçün hazır dayanıb anasının işarəsini gözləyir. Rəssam ikinci planda isə iki az yaşlı qiz fiquru çəkib. Onlar evin sol küncündəki taxtın üstündə əyləşib diqqətlə qonaqlara qulaq asırlar. Bu qızlardan biri 7-8, digəri isə 9-10 yaşlarında olar.

"Elçilik" əsərinin üstün cəhətlərindən biri də, XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda yaşamış ortabab ailələrin həyat tərzlərini öyrənmək üçün dəyərli mənbə olmasındadır.

Qeyd etdiyimiz kimi Bəhruz Kəngərli bir qayda olaraq öz personajlrını canlı naturaya əsaslanıb fırçaya alar, həyat həqiqətlərini rəsm əsərləri üçün başlıca meyar hesab edərdi. Bu baxımdan rəssamın "Naxçıvan toyu" əsəri (şəkil 2) də çoxfiqurlu kompozisiya kimi, milli dəyərlərimizi incəliklə qabardan, məişət janrında çəkilmiş ən dəyərli əsərlərdən biri kimi qiymətləndirilməlidir. "Naxçıvan toyu" əsəri xüsusi elementlərlə səciyyələnən nadir rəsm əsərlərindən biridir. Rəssam bu tabloda, cərəyan edən hadisələri və personajları çox da böyük olmayan bir evin interyerində təsvir etməyi ustalıqla bacarmışdır. Tablodakı çəkilmiş fiqurların əsasının qadın və qızlardan ibarət olması, əsərin qız toyuna həsr oldunduğunu göstərir. Rəssam evin dörd bir küncündə dövrə vurub oturmuş və onların arxasında ayaq üstə durmuş qadınları və qızları təsvir etmişdir. Onlar Şərq üçlüyünün – kaman və qoşa nağaranın müşayyəti ilə qaval çalıb oxuyan müğənninin sehirli səsinə qulaq asır və ortada şövqlə rəqs edən qadına əl çalırlar. Məclisdə anaları ilə toya gəlmiş azyaşlı oğlan uşaqlarından və musiqiçilərdən başqa digər kişilərin olmaması, əsərin qız toyuna həsr olunduğunu bir daha sübut edir. Rəssam əsərdəki obrazların hər birinin üzündəki xarakterik cizgiləri əks etdirən – sevinc, kədər, düşüncə və s. ifadələri ayrı-ayrılıqda böyük ustalıqla təsvir etmişdir. Rəssamın bu tablosu XX əsrin əvvələrində Naxçvanda fəaliyyət göstərmiş musiqi qrupları, onların imacları, geyim tərzləri və ifa etdikləri alətləri öyrənmək baxımından da qiymətli sənət əsəri sayılır. Eyni zamanda "Naxçıvan toyu" təkcə bədii dəyərlərinə görə deyil, tabloda təsvir olunan qadın, uşaq və kişi fiqurlarının üzərlərindəki milli geyimləri, yerə döşənmiş xalça və kilimləri, taxçalardakı məişət əşyaları və digər ev avadanlıqlarının zəngin-

liyi ilə də, tədqiqatçıların diqqətini cəlb edən etnoqrafik əsər kimi xüsusi əhəmiyyətə malikdir.

Şəkil 2. Naxçıvan toyu

Bəhruz Kəngərlinin bu əsərini digərlərindən fərqləndirən əsas cəhətlərdən biri də, burada təsvir olunan insan fiqurlarının digər əsərlərə nisbətən daha çox və dinamik pozalarda olmasıdır. Adətən portret ustası kimi tanınan rəssam, çəkdiyi əsərlərdə bir və ya iki passiv pozalarda, əsasən – oturmuş, durmuş, yatmış obrazlar təsvir etdiyi halda, "Naxçıvan toyu" əsərində 25 qadın, 6 uşaq, və 3 kişi fiqurunu necə təsvir etmişdir? Yəqin ki, rəssam bu qədər çox fiquru olan əsəri birdən-birə yaratmamışdır. Çox güman ki, onun "Naxçıvan toyu"na qədər bizə məlum olmayan neçə-neçə belə çox fiqurlu kompozisiyaları olmuşdur.

Bildiyimiz kimi Bəhruz Kəngərlinin bədii irsinin böyük bir hissəsi hələ də, ayrı-ayrı şəxslərin kolleksiyalarında və bilmədiyimiz yerlərdə saxlanılır. XX əsrin əvvəllərində Bakıda çıxan "İqbal", "Tərcuman" qəzetlərində və rus dilində nəşr olunan "Каспий" (10) qəzetlərinin yazdığına görə 1914-cü ilin iyun ayının 14-də hələ tələbə ikən Bəhruz Kəngərli Naxçıvan şəhərində ilk fərdi satış-sərgisini təşkil etmişdir. Bu sərgidə nümayiş etdirilən çoxlu portret və mənzərə əsərlərindən "Qazı bəy dağı", "Qürub mənzərəsi", "Müsəlman xanımı çarşavda", "Ayın tutulması", "Sail", "Ağrı dağı", "Gecə mənzərəsi", "Rəqs edənlər", rəssamın öz portreti və s. tamaşaçıların diqqətini daha çox cəlb edirdi (11). Həmin sərgi haqqında "İqbal" qəzetində dərc edilmiş bir məqalədə "Həman" imzası ilə çıxış edən naməlum müəllif yazır ki, "Cavan rəssamımız doğrudan-doğruya gələcəkdə mayei iftixarımız olacaqdır. Şayan təşəkkür burasıdır ki, nohəvəs rəssamın qələmə aldığı rəsmlər öz həyatımızdan götürülmüş milli rəsmlərdir...

Bəhruz bəy cənablarının bundan daha gözəl, bundan daha artıq rəsmlər yaratmağa nail olmasını arzu edirik" (9; 8, s. 16-17). Məqalədə müəllifin adını çəkdiyi əsərlər içərisində Naxçıvan bölgəsi üçün xarakterik olduğunu xüsusi ilə qeyd etdiyi "Müsəlman ailəsində qış kürsüsü" çox fiqurlu kompozisiyasının tamaşaçılar tərəfindən ən çox bəyənilən əsərlərdən biri olduğunu və yerli kolleksionerlər tərəfindən alındığını yazır. Təəssüflər olsun ki, əsərin sonrakı aqibəti haqqında heç bir məlumatımız yoxdur. Çox guman etmək olar ki, Bəhruz Kəngərlinin bir çox əsərləri hələ də kimlərinsə şəxsi kolleksiyalarında qorunub saxlanılır. Belə ki, 24 yanvar 2005-ci il tarixdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Kino İşləri şöbəsinin mudiri, kinorejissor Cəlil Əhməd oğlu Fərəcov Bəhruz Kəngərlinin indiyə qədər kimsəyə məlum olmayan "Namaz" əsərini (şəkil 3) təmənnasız olaraq Bəhruz Kəngərli muzeyinə bağışlamışdır. Muzeyin ekspozisiyasında öz daimi yerini alan bu əsər, sulu-boyayla "qoznaq" kağızı üzərinə çəkilmiş, 17,5 x 23,5 sm. ölçüsündədir. 1915-ci ildə çəkilmiş bu əsərin 96 yaşı olmasına baxmayaraq, qədirbilən insanların əlinə düşmüş və çox yaxşı şəraitdə qorunub saxlanılmışdır. Vətənpərvər Naxçıvan vətəndaşlarının vicdanına güvənərək inanırıq ki, "Müsəlman ailəsində qış kürsüsü" əsərini də Bəhruz Kəngərli muzeyində görmək bir gün bizlərə nəsib olacaqdır.

Şəkil 3. Namaz

Bəhruz Kəngərlinin "Müsəlman ailəsində qış kürsüsü" əsərini görməsək də, onun haqqında müəyyən fikirlər söyləyə bilərik. Belə ki, XX əsrin əvvəllərində azərbaycanlı ailələrinin say etibarilə çox olduğunu və əsasən bir yerdə yaşadıqlarını yaxşı bilirik. Hətta, evin böyük oğlanları belə, evləndikdən sonra ata ocağında qalar və onlardan ayrılmazdılar. Qış kürsüsünün Naxçıvan bölgəsinə xas olmasının əsas səbəblərindən biri də sərt iqlim şəraiti ilə əlaqədardır. Bildiyimiz kimi Naxçıvanın yayı isti, qışı isə çox soyuq keçir. Bəzən qışda temperatur mənfi 30 dərəcədən də aşağı düşür. Naxçıvan təbiətinin əsasən çılpaq və meşə örtüyünün az olmasını nəzərə alsaq, onda naxçıvanlılar üçün qışda yanacağın nə qədər dəyərli olduğunu hər kəs bilər. Qış kürsüsünə gəldikdə isə onu yanacağa qənaət etməklə əsasən bir evdə qurardılar. Bu evin bir adı da "qış evi" idi. Qış evinin digər evlərdən fərqi taxta döşəməsinin və düz xətli tavanının olmamasıdır. Ona görə ki, bu evin ortasında baddan (xüsusi gil qarışığı) təndir qoyar və döşəməni isti olsun deyə saman qarışdırılmış palçıqla və ya gəçlə suvayardılar. Sonra evə həsir, onun üzərindən keçə, keçənin ustundən palaz və ya kilim, ən axırda isə gəbə doşəyərdilər. Gəbənin üstündən, oturmaq üçün xüsusi döşəkçələr, dirsəklənmək üçün isə yastıq və mütəkkələr qoyardılar. Evin tavanını günbəz və ya piramida formasında tikər, ortasından da baca qoyardılar ki, təndirin tüstüsü oradan sorulub çıxsın. Qış evinin, əsasən cənub divarında pəncərə olurdu ki, bu pəncərəyə də "yan baca" deyilərdi. Yan bacanın əsas funksiyası qış evini günəş işığı ilə təmin etmək və evi havalandırmaqdan ibarət idi. Axşamlar çölməyi təndirdən çıxartdıqdan sonra, təndirin ağzını duvaqla qapıyıb süfrə açardılar. Bütün ailə üzvləri kürsü masası ətrafında toplaşıb şam xörəyini yedikdən sonra, kürsü yorganı açılardı. Hamı yorğanını üstünə çəkib, süfrəyə tökülmüş quru yemiş və çərəzlərdən yeyər, böyüklərin söylədikləri nəsihətləri və şirin söhbətləri dinləyərdilər. Bəzən də uzun qış gecələrini qısaltmaq üçün oxunan dastan və hekayələrə qulaq asa-asa təndirin istisindən məst olub yuxuya gedər və elə oradaca mışıl-mışıl yatardılar. Əgər nəzərə alsaq ki, o vaxt istənilən bir müsəlman ailəsinin tərkibi minumum 10, maksimum 20 nəfərdən çox olub, onda bu əsərdəki fiqurların sayının ən azı 15 nəfərdən çox olduğunu güman etmək mümkündür. Bu isə onu deməyə əsas verir ki, Bəhruz Kəngərli hələ tələbə ikən çətin rakurslarda təsvir olunmuş çoxfiqurlu kompozisiyalar üzərində də müvəfəqiyyətlə işləmişdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Dövlət İncəsənət Muzeyi (ADİM); f. Q – 513/4084.
2. Azərbaycan Dövlət İncəsənət Muzeyi (ADİM); f. Q – 989.
3. Azərbaycan Dövlət İncəsənət Muzeyi (ADİM); f. Q – 674/4109.
4. Azərbaycan Dövlət İncəsənət Muzeyi (ADİM); f. Q – 509/4133.
5. Bəhruz Kəngərli Muzeyi (BKM): f.T.S.Ə – 1.
6. Bəhruz Kəngərli Muzeyi (BKM): f.T.S.Ə – 8.

7. Bəhruz Kəngərli Muzeyi (BKM): f.T.S.Ə – 56.
8. Kərimov K. Bəhruz Kəngərli. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1962, 102 s.
9. "İqbal" qəz., 1914, 16 iyun.
10. "Каспий" qəz., 1914, 17 iyun.
11. "Tərcüman" qəz., 1914, 24 iyun.

Низами Алыев

О ПРОИЗВЕДЕНИЯХ БЕХРУЗ КЕНГЕРЛИ В БЫТОВОМ ЖАНРЕ

В статье дана обобщенная информация о произведениях в бытовом жанре первого профессионального художника Азербайджана Бехруз Кенгерли. Здесь впервые дан научно-художественный анализ некоторых произведений художника таких, как "Нахчыванская свадьба", "Сватовство", "Намаз", "Зимнее сидение в мусульманской семье". Кроме того здесь рассказывается о произведениях "Газиев пишет этюд", "Нахчыванский вестовой", "Крестянин с серпом" и др., написанных художником в этом жанре.

Nizami Aliyev

ABOUT THE WORKS OF BAHRUZ KANGARLI ON PUBLIC GENRE

İn the article the author has given widely information about the first professional painter of Azerbaijan Bahruz Kangarli`s works on public genre.

The painter`s works "Nakhchivan toyu" ("Nakhchivan`s wedding party"), "Elchilich" ("Proposal making"), "Namaz" ("Prayer"), "Musalman ailasinda qish kursusu" ("Winter hitting chursu (device) in Moslem family") have been comparative scientific and art investigated for the first time by the article author.

The same time the author gave information about the painter`s works "Qaziyev etud chachir" ("Gaziyev is drawing etud"), "Nakhchivan chapari" ("Nakhchivan messenger"), "Kandli orag ila" ("Peasant with sickle") etc.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

ƏLƏKBƏR QASIMOV
AMEA Naxçıvan Bölməsi
E-mail: elekbergasimov@mail.ru

TARİXİ ŞƏXSİYYƏTLƏRƏ HƏSR OLUNMUŞ ƏSƏRLƏRİN NAXÇIVAN TEATRINDA SƏHNƏ TƏCƏSSÜMÜ

(Akademik İ.Ə.Həbibbəyli tərəfindən təqdim edilmişdir)

128 il bundan əvvəl – 1883-cü il mart ayının 11-də, yeni təqvimlə 24-də müstəqil olaraq meydana gələn Naxçıvan Teatrı Azərbaycanın başqa şəhərlərində yaranan teatrlara nisbətən milli teatr hərəkatında daha möhkəm mövqe tutmuş, Azərbaycan teatr sənətinin inkişafına daha güclü və səmərəli təsir göstərmiş, çoxəsrlik və zəngin milli mədəniyyətimiz tarixində öz yerini müəyyənləşdirmişdir.

1923-cü ildə Naxçıvan Vilayət Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Naxçıvan Teatrına "Dövlət Dram Teatrı" adı verilir. Məhz həmin vaxtdan üzübəri Naxçıvan Teatrının səhnəsində eyni zamanda tarixi şəxsiyyətlərin həyat və fəaliyyətinə həsr olunmuş əsərlərin də tamaşaya qoyulması mərhələsi başlayır.

1924-cü ildə teatrın işini yaxşılaşdırmaq, aktyorların peşə ustalığını daha da artırmaq məqsədilə Azərbaycanın tanınmış teatr xadimlərindən biri, görkəmli səhnə ustadı Kazım Ziya Bakıdan Naxçıvana dəvət edilir. Bir müddət Naxçıvan Dövlət Dram Teatrında çalışan Kazım Ziya aktyorların nitqi üzərində gərgin işləyərək onlara səhnə danışığının incəliklərini aşılayır, rol üzərində aktyor işinin xüsusiyyətlərini açıqlayır və beləliklə də yaradıcı kollektivin püxtələşməsinə öz töhfəsini vermiş olur (2, s. 55).

Kazım Ziya özünün rejissorluq qabiliyyətindən də istifadə edərək Naxçıvan səhnəsində Vano Macedaşvilinin "Qaçaq Kərəm" pyesini də tamaşaya qoyur. Məhz bu əsər Naxçıvan Teatrında həm gürcü dramaturgiyasından ilk nümunə kimi, həm də tarixi şəxsiyyətlərə həsr olunmuş ilk tamaşa kimi səciyyələndirilməlidir. Adından göründüyü kimi əsər Azərbaycanda qaçaq hərəkatının əfsanəvi nümayəndələrindən biri Kərəm İskəndəroğluna həsr olunmuşdur. Atasının intiqamını aldıqdan sonra Kərəm əvvəl Yelizavetpol (Gəncə) Quberniyasında, sonralar isə Gürcüstan, Şimali Qafqaz, Cənubi Azərbaycan və Türkiyə ərazisində fəaliyyət göstərmişdir. 1885-ci ildə "Narodnaya volya" jurnalı yazmışdı ki, məşhur Kərəm bütün Zaqafqaziya üçün təhlükəyə çevrilmişdir. "Mak-

sim Qorkisə onun haqqında belə yazırdı: "Kərəm yalnız Zaqafqaziyada deyil, Kuban kazakları arasında da şöhrət tapmış, əfsanələşdirilmiş qaçaq kimi məşhurdur." İgidliyi, mərdliyi və xeyirxahlığına görə Kərəmə böyük məhəbbət və ehtiram bəsləyən xalqlar onun haqqında üç dastan, neçə-neçə rəvayət, xeyli nəğmə qoşmuşlar. Onun haqqında onlarla kitab çap olunmuşdur ki, V.Macedaşvilinin "Qaçaq Kərəm" pyesi də bu qəbildəndir.

Kazım Ziyanın quruluşunda Naxçıvan Teatrında hazırlanıb göstərilən "Qaçaq Kərəm" tamaşası bir neçə baxımdan qiymətli olmuşdur. Buna görə də rəğbətlə qarşılanan bu tamaşa uzun müddət teatrın repertuarında qala bilmişdi. Bu tamaşada Kazım Ziya bir neçə gənc aktyor yetişdirib onları ilk dəfə səhnəyə çıxarmışdı. Naxçıvan Teatrının ilk aktrisalarından olan Xədicə Qazıyevanın da səhnədə birinci rolu məhz "Qaçaq Kərəm" tamaşasındakı Sirab olmuşdur.

"Qaçaq Kərəm" tamaşasından düz 15 il sonra Naxçıvan Teatrı tarixi şəxsiyyətlərə həsr olunmuş əsərə müraciət etmişdir. Bu, Səməd Vurğunun "Vaqif" pyesi idi. Tamaşaya Həsən Əliyev quruluş vermişdi. Bakıdan dəvət olunan bu rejissor qısa zamanda teatrın truppası ilə səmimi və mehriban münasibət yaradaraq çox gözəl aktyor ansamblı seçə bilmişdi. Muxtar respublikanın mədəni həyatında böyük hadisəyə çevrilmiş bu tamaşada 4 tarixi şəxsiyyət səhnədə görünürdü: Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Qarabağ xanı İbrahimxəlil xan və Ağaməhəmməd şah Qacar. Əsər dövrün diqtəsilə qələmə alındığından tarixi hadisələr təhrif edilməklə İbrahim xan və Qacar obrazları da tamaşaçıya tamamilə yanlış aspektdən çatdırılmışdı. Buna baxmayaraq aktyorlar üzərlərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlmiş və nəticədə maraqlı bir tamaşa alınmışdı.

Aprel ayının 12-də göstərilən ilk tamaşada aktyor heyəti belə olmuşdur: Vaqif – İbrahim Həmzəyev, Vidadi – Səməd Mövləvi, Qacar – Sadıq Həsənzadə, Xuraman – Xədicə Qazıyeva, İbrahim xan – Mirhəsən Mirişli, Eldar – İsa Musayev, Vəzir – Abbas Quluyev (sonralar Sovet İttifaqı Qəhrəmanı – Ə.Q.), Gülnar – Firuzə Əlixanova, Əli bəy – Nadir Rzayev, şeyx Alı – Rza İsfəndiyarlı, təlxək – Əliheydər Həsənzadə, kürd Musa – Əyyub Haqverdiyev. Tamaşanın rəssamı o dövrdə teatrın baş rəssamı vəzifəsində çalışan Şamil Qazıyev olmuşdur. İlk tamaşada iştirak edə bilməyən Səməd Vurğun teatrın kollektivinə təbrik te-leqramı göndərmişdi (2, s. 75).

Ümumiyyətlə, "Vaqif" tamaşası Naxçıvan Teatrında dəfələrlə, müxtəlif rejissorların quruluşunda tamaşaya qoyulmuşdur. 40-cı, 50-ci, 60-cı və 70-ci illərin repertuarında "Vaqif" tamaşası yeni quruluşlarda tamaşaçıya təqdim olunmuşdur. Son quruluş 1976-cı ildə S.Vurğunun 70 illiyi münasibətilə hazırlanan tamaşa olmuşdur. Uzun illər Naxçıvan Teatrında Vaqif rolunun məharətli ifaçısı, xalq artisti İsa Musayev, Qacar rolunun əvəzedilməz ifaçısı, muxtar respublikanın əməkdar artisti Kazım Hüseynov, Xuraman rolunun məlahətli ifaçısı, xalq artisti Zəroş Həmzəyeva, kürd Musa rolunun daimi ifaçısı, xalq artisti Əyyub Haqverdiyev olmuşlar. Quruluşçu rejissor Baxşı Qələndərlinin və quruluş-

çu rəssam Məmməd Qasımovun hazırladıqları "Vaqif" tamaşası daha uğurlu olmuşdur. Bu tamaşa barədə irəlidə daha ətraflı söhbət açacağam.

Teatrın repertuarında uzun müddət özünə möhkəm yer tutan "Qaçaq Nəbi" tamaşasına ilk dəfə İ. Həmzəyev 1940-cı ildə quruluş verərək özü də baş rolu ifa etmişdir. Böyük Vətən müharibəsinin əvvəlindən sonunadək xalq qəhrəmanının şücaətini tərənnüm edən bu tamaşa ilə kollektiv dəfələrlə döyüşən ordu qarşısında, hərbi hissələrdə və hospitallarda çıxış etmişdir. Sonralar da həmin tamaşa 1946 və 1950-ci illərdə İ.Həmzəyevin yeni quruluşlarında tamaşaya qoyulmuşdur. Hər üç quruluşda Həcər rolunun əvəzedilməz ifaçısı Z.Həmzəyeva olmuşdur (3, s. 118).

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Ümummilli liderimiz Heydər Əliyevin təbirincə desəm, "Naxçıvan Teatrının Həmzəyevlər dövrü"ndə, yəni 1940-cı və 50-ci illərdə İbrahim Həmzəyev tarixi şəxsiyyətlərə həsr olunmuş əsərlərə daha intensiv müraciət etmiş və bu dövrdə Zeynal Xəlilin "Qatır Məmməd", Osman Sarıvəllinin "Babək", Mehdi Hüseynin "Nizami" pyesləri əsasında hazırlanmış tamaşalarda baş rollarda çıxış etmişdir. 1958-ci ildə isə İ. Həmzəyev Nəriman Nərimanovun "Nadir şah" faciəsinə də uğurlu quruluş vermişdir. Bu tamaşada baş rolu İsa Musayev ifa etmişdir (4, s. 33-35).

1964-cü ildə Naxçıvan Teatrının tarixində çox mühüm və əlamətdar bir hadisə baş verir. Teatr həmin ilin yayında, şəhərin mərkəzində inşa olunmuş yeni, əzəmətli, üçmər təbəli, binaya köçürülür. Arxitektor H. Məcidovun müəllifi olduğu bu möhtəşəm yeni teatr binası beş ilə ərsəyə gəlmişdi. Demək olar ki, 1964-cü ilin yanvar ayından Naxçıvan Teatrının profili rəsmi surətdə dəyişdirilmiş və ona "musiqili dram teatr" adı verilmişdi. Yeni binaya köçürüldükdən sonra isə teatr Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı adlandırıldı. Naxçıvan Teatrında bundan sonra hazırlanan tamaşaların əksəriyyətində musiqiyə və mahnılara daha çox yer verildi.

Yeni binada ilk dəfə tamaşaya qoyulan və açılış münasibətilə nümayiş etdirilən əsər də tarixi şəxsiyyətə həsr olunan pyes idi. Hələ köhnə binada məşqlərinə başlanmış "Məhsəti" tamaşasının yeni binadakı premyerası çox böyük uğurla keçmiş, tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdı. Adından göründüyü kimi ədəbiyyatımızda ilk şairə kimi tanınan Məhsəti Gəncəvinin həyatından bəhs edən bu mənzum pyes o zamanlar artıq istedadlı gənc şair kimi tanınan Kəmalə Ağayevanın dramaturgiya sahəsində ilk qələm təcrübəsi idi.

Tamaşada Məhsətilə yanaşı, Nizami Gəncəvinin, Gəncə hökmdarının, Bəlx hökmdarının da obrazları canlanır. Həmin şəxsiyyətləri səhnədə müvafiq olaraq Zəroş Həmzəyeva, İldırım Cabbarov, Məmməd Quluyev, Xədicə Qazıyeva yaradırdılar. Tamaşanın quruluşçu rejissoru, teatra yenicə baş rejissor təyin olunmuş Baxşı Qələndərli maraqlı aktyor ansamblı ilə məzmunlu quruluş verməyə nail olmuş, teatrın baş rəssamı Məmməd Qasımov isə yeni səhnənin texniki imkanlarından məharətlə istifadə edərək, gözoxşayan dekorlar, əlbəsələr

və geyimlər vermişdi. Bəstəkar Məmməd Ələkbərovun gözəl, yaddaqalan musiqisi və mahnıları tamaşanın təsir qüvvəsini xeyli artırmışdı.

1965-ci il Naxçıvan Teatrının tarixinə və ümumiyyətlə muxtar respublikanın mədəni həyatına ən unudulmaz illərdən biri kimi həkk olunmuşdur. Həmin il iyun ayının 14-dən 21-dək respublikamızın paytaxtında – "Bakıda Naxçıvan MSSR Mədəniyyət həftəsi" keçirilmişdi. Muxtar respublikanın şair və yazıçıları, musiqi kollektivlərilə yanaşı Dövlət Musiqili Dram Teatrı da repertuarında olan üç tamaşa ilə ilk dəfə paytaxt tamaşaçıları qarşısında hesabat vermişdi. O dövrün mətbuatından məlum olur ki, bu tamaşalardan "Məhsəti" daha böyük müvəffəqiyyət qazanmış, ədəbi və teatr tənqidi tərəfindən yüksək qiymətləndirilmişdi.

Həmin vaxt baş rejissor Baxşı Qələndərlini Naxçıvan Teatrı üçün tapıntı adlandıran görkəmli alim və ictimai xadim Cəfər Cəfərov yazmışdı: "...Təəccüblü deyilmidir ki, Naxçıvan Teatrının indiki gəlişi Bakıya ümumiyyətlə ilk gəlişidir? Burada haşiyə çıxaraq deməliyik ki, qoy bu gəliş ənənəyə çevrilsin,.. Deyildiyi kimi, Naxçıvan Teatrı köklü, əsaslı teatrdır. Burada bir çox qocaman aktyorlar vardır ki, uzun müddətdən bəri Naxçıvanla bağlıdır. 80 yaşlı İsfəndiyarlının bu gün də Naxçıvan Teatrında çalışması rəmzi məna kəsb edir. Naxçıvanın truppasında yaxşı bir sabitlik keyfiyyəti vardır...

...Naxçıvanlıların müstəqilliyə meylini çox bəyənirik. Onların gətirdikləri əsərlərdən, xüsusən "Məhsəti"dən duyuruq ki, teatrın bu sahədəki səyləri təkcə özü üçün deyil, ümumiyyətlə Azərbaycan Teatrı üçün çox bərəkətli ola bilər. Teatrın tamaşalarını müzakirələrdə "Məhsəti"ni Akademik Teatrın səhnəsində göstərmək (hazırlamaq – Ə.Q.) arzusu bildirildi və olsun ki, bu, arzu olaraq qalmayacaqdır... Bizim gördüyümüz "Məhsəti" göstərir ki, Qələndərli teatr üçün tam mənası ilə tapıntıdır və gələcəkdə böyük xeyir verə biləcəkdir. Ən yaxşı cəhət burasıdır ki, Qələndərlinin rejissorluğunda ciddi bir səliqə, mədəniyyət və müasirlik duyulmaqdadır" (1, s. 81).

Bakı səfərindən sonra, 60-cı illərin sonunadək Naxçıvan Teatrının səhnəsində tarixi şəxsiyyətlərə həsr olunmuş üç tamaşa hazırlanmışdır: 1967-ci ildə Cəlal Məmmədovun "Dan ulduzu", 1968-ci ildə Səməd Vurğunun "Vaqif" və Adil Babayevin "Yarımçıq şəkil" əsərləri.

"Dan ulduzu" tamaşası 60-cı illərin məşhur pambıqçısı, Azərbaycanın ilk qadın-mexanizatoru, Sosialist Əməyi Qəhrəmanı Sevil Qazıyevanın xatirəsinə həsr olunmuşdu. Baxşı Qələndərlinin quruluş verdiyi bu tamaşanın rəssamı Məmmədəli İsmayılov, baş rolun ifaçısı isə öz məharətli oyunu ilə yadda qalan Tamara Məmmədova idi.

1968-ci ildə tamaşaya qoyulan "Vaqif" əvvəlkilərdən öz səviyyəsilə xeyli fərqlənirdi. Bu tamaşanın da rejissoru B. Qələndərli, quruluşçu rəssamı isə M.Qasımov olmuşdur. Tamaşada Vaqifi İsa Musayev, Vidadini Rza İsfəndiyarlı, Xuramanı Zəroş Həmzəyeva, İbrahim xanı Məmməd Quluyev, Qacarı Kazım Hüseynov, Təlxəyi Əkbər Qardaşbəyov, Əli bəyi Nizami Həmzəyev böyük us-

talıqla yaradırdılar. Uşaqlıq yaddaşıma Naxçıvan Teatrının monumental tamaşalarından biri kimi həkk olunmuş "Vaqif"də xalq artisti İsa Musayev özünün fərqli və cazibədar oyunu ilə böyük rəğbət qazanmışdı. Əgər İ.Həmzəyevin yaratdığı Vaqif humanist şair, sadiq dost, qayğıkeş ər, mehriban ata, insanpərvər vəzir, namuslu vətəndaş təsiri bağışlayırdısa, İ. Musayevin ifasında dövrün haqsızlıq və təqiblər məngənəsində çarpışan ailə başçısı, mübariz şair, vətənpərvər dövlət xadimi, qeyrətli diplomat, səmimi dost, gördüyü əyriliklərə qarşı barışmaz bir Vaqif təqdim olunurdu.

"Yarımçıq şəkil" tamaşası nakam sənətkarımız, milli realist rəssamlığımızın öncülü Bəhruz Kəngərlinin yarımçıq həyatından bəhs edirdi. Tamaşadakı hadisələr Naxçıvan şəhərində baş verir. "Yarımçıq şəkil" tamaşasında baş rolları Əkbər Qardaşbəyov və Sofya Hüseynova (sonralar hər ikisi xalq artisti) ifa etmişlər. Bu tamaşa bir neçə il repertuarda özünəlayiq yer tuta bilmişdi.

1974-cü ildə teatrın müraciət etdiyi iki tarixi əsərin hər ikisi bu həyatdan vaxtsız və faciəvi şəkildə köçmüş böyük ziyalılarımız Əliqulu Qəmküsara və Mikayıl Müşfiqə həsr olunmuşdu. Məmmədəli Tarverdiyevin "Qəmküsar" tamaşasında baş rolu İsa Musayev ifa etmiş, Mustafa İskəndərzadənin "Səni kim unudar?" tamaşasında isə Müşfiq obrazını dünyasını vaxtsız dəyişmiş istedadlı aktyor Qurban Ələkbərov yaratmışdı.

1980-ci ildə bütün sovet teatrları kimi Naxçıvan Dövlət Musiqili Dram Teatrı da V.İ.Leninin anadan olmasının 110 illiyinə hazırlaşaraq bu münasibətlə Yuri Yakovlevin "Oğlum Volodya" pyesini tamaşaya qoydu. Aprel ayının 22-də premyerası olan bu tamaşanın quruluşçu rejissoru Vəli Babayev, rəssamı Yuran Məmmədov, bəstəkarı Elxan Muradov idi. Volodya Ulyanov rolunu Vaqif Əsədov (indi xalq artisti) ifa etmişdi (5, s. 355).

1983-cü ildə Vaqif Əsədovun quruluşunda hazırlanan Həmid Arzulunun "Əlincə qalası" tamaşasında bir neçə tarixi şəxsiyyətin obrazı canlanır. Mərkəzi planda duran Teymurləng rolunda Aydın Şahsuvarovun (sonralar xalq artisti) məharətli oyunu böyük maraq və rəğbətlə qarşılanmışdı. Tamaşanın quruluşçu rəssamı M.Qasımov olmuşdur. Bu tamaşadan sonra 1991-ci ilədək teatrda tarixi şəxsiyyətlərə həsr olunmuş əsərlərə müraciət edilməmişdir.

1990-cı ilin 20 yanvar faciəsinin ildönümünə teatr Rafiq Səməndərin "Şəhidlər" tamaşası ilə münasibətini bildirdi. Əsərdən irəli gələrək tamaşada da əsas tarixi şəxslər İlham və Fərizədir. Həmin rolları Rza Xuduyev və Yasəmən Ramazanova ifa etmişlər. Tamaşanın quruluşçu rejissoru Əsgər Əsgərov, quruluşçu rəssamı Əbülfəz Axundov idi.

Qeyd etmək lazımdır ki, Naxçıvan Teatrında tarixi şəxsiyyətləri tərənnüm edən tamaşalara müraciət müstəqillik dövründə daha intensiv və səmərəli olmuşdur. Belə ki, bu teatrın səhnəsində 1992-ci ildə Anarın "Sizi deyib gəlmişəm"ində Mirzə Cəlili (rej. Kamran Quluyev, baş rolda Əli Əliyev), 1997-ci ildə N.Nərimanovun "Nadir şah"ında Nadir şahı (rej. Elçin Mirzəbəyli, baş rolda Kamran Quluyev), 1999-cu ildə N.Həsənzadənin "Atabəylər"ində Nizami

Gəncəvini, Əcəmi Naxçıvanini, Qızıl Arslanı (rej. Mərahim Fərzəlibəyov, həmin rollarda Həsən Ağasoy, Xəlil Hüseynov, Kamran Quluyev), 2000-ci ildə H.Cavidin "Topal Teymur"unda Əmir Teymuru, Yıldırım Bayazidi (rej. K.Quluyev, rollarda Kamran Quluyev, Daməd Xəlilov), 2002-ci ildə N.Həsənzadənin "Pompeyin Qafqaza yürüşü"ndə məşhur sərkərdə Pompeyi (rej. M. Fərzəlibəyov və K.Quluyev, baş rolda Kamran Quluyev) görürük (5, s. 586-589).

2004-cü ildə İlyas Əfəndiyevin "Hökmdar və qızı" faciəsi Rövşən Hüseynovun quruluşunda tamaşaya qoyuldu. Bu tamaşada da bir neçə tarixi obrazla rastlaşmışıq: Qarabağ xanı İbrahimxəlil xan (Kamran Quluyev), onun qızı Ağabəyim (Elmira Kərimova), Cavad xan (Həsən Ağasoy), Kəlbəli xan (Şirzad Abutalıbov), Məhəmməd xan (Elxan Şeyxov), Sisianov (Rza Xuduyev), Lisaneviç (Vüsal Rzayev) və s. Tamaşada hökmdar qızını oynayan Elmira Kərimovanın (indi respublikanın əməkdar artisti) emosional ifası rəğbətlə qarşılanmış və çox yüksək qiymətləndirilmişdir. Quruluşçu rəssam Səyyad Bayramov olmuşdur.

Bir müddət sonra Naxçıvan Teatrında daha iki tarixi əsərə quruluş verildi – İlyas Əfəndiyevin "Şeyx Xiyabani" və Adil Babayevin "Yarımçıq şəkil" faciələri hazırlandı. Hər iki tamaşada Rza Xuduyev (indi xalq artisti) baş rolda iştirak edirdi.

2005-ci ildə teatrda hazırlanan Nəbi Xəzrinin "Atillanın atlıları" əsərinə quruluşu və musiqi tərtibatını K.Quluyev, bədii quruluşu Ə.Axundov vermişdi. Atillanı Rza Xuduyev ifa edirdi.

2007-ci ildə isə Naxçıvan Teatrı üç tarixi əsərə yeni quruluşda müraciət etmişdir. Bunlar Kəmalənin "Məhsəti", Həmid Arzulunun "Əlincə qalası" və Hüseyn Cavidin "Səyavuş" əsərləri idi. "Məhsəti" tamaşasının quruluşçu rejissoru R.Hüseynov, quruluşçu rəssamı S.Bayramovdur. Məhsəti rolunda Elmira Kərimova, Nizami rolunda Vidadi Rəcəbli, Gəncə hökmdarı rolunda Kamran Quluyev, Əmir Əhməd rolunda Rza Xuduyev, Bəlx hökmdarı rolunda Nazlı Hüseynquluyeva çıxış edirlər.

"Əlincə qalası" tamaşasında quruluşçu rejissor, xalq artisti Kamran Quluyev Teymurləng rolunu Əli Əliyevə (indi respublikanın əməkdar artisi) həvalə etmişdir. Bədii quruluş muxtar respublikanın əməkdar rəssamı Əbülfəz Axundova, musiqi tərtibatı isə muxtar respublikanın əməkdar incəsənət xadimi Şəmsəddin Qasımova məxsusdur.

H.Cavidin 125 illiyinə həsr olunmuş "Səyavuş" tamaşasının da rejissoru K.Quluyev, rəssamı Ə. Axundov, bəstəkarı Yaşar Xəlilovdur. Tamaşada Səyavuşu Rza Xuduyev, Rüstəm Zalı Əli Əliyev, Keykavusu Həsən Ağasoy, Əfrasiyabı Yusif Allahverdiyev oynayırlar. Burada xatırlamaq yerinə düşər ki, "Səyavuş" Naxçıvan Teatrında ilk dəfə 1962-ci ildə İ.Həmzəyevin rejissorluğu və M.Qasımovun bədii quruluşunda tamaşaya qoyulmuşdu. Həmin tamaşa da H.Cavidin yubileyinə – 80 illiyinə həsr edilmişdi.

2008-ci ildə teatr yerli müəllif olan Həsənəli Eyvazlının "Araz sahilində doğan Günəş" adlı əsərini tamaşaya qoydu. Tamaşada 1921-ci ilin tarixi hadisələri əks olunur, proseslər "Moskva" və "Qars" müqavilələrinin işığında cərəyan edir. Burada tarixi şəxsiyyətlərin böyük bir qalereyası ilə rastlaşırıq: Behbud ağa Şahtaxtinski (Rza Xuduyev), Nəriman Nərimanov (Əli Əliyev), İbrahim Əbilov (Elxan Şeyxov), Mirzədavud Hüseynov (Xəlil Hüseynov), Bahadır Vəlibəyov (Rövşən Hüseynov), Tağı Səfiyev (Şirzad Abutalıbov), Atatürk (Kamran Quluyev), Veysəl bəy Ünüvar (Vidadi Rəcəbli), Yusif Kamal (Yusif Allahverdiyev), Stalin (Həsən Ağasoy), Çiçerin (Əbülfəz İmanov), Vladimirski (Vüsal Rzayev) və s. Tamaşanın rejissoru K. Quluyev, rəssamı Ə.Axundovdur.

Naxçıvan Dövlət Musiqili Dram Teatrının tarixi şəxsiyyətlərə həsr olunmuş ən yeni tamaşası Müzəffər Nəsirlinin "Qönçəbəyim nəğməsi" faciəsi əsasında hazırlanıb. 2010-cu il aprel ayının 7-də premyerası olan bu tamaşanın quruluşunu xalq artisti Rövşən Hüseynov, bədii quruluşunu muxtar respublikanın əməkdar rəssamı Səyyad Bayramov, musiqi tərtibatını muxtar respublikanın əməkdar artisti Əbülfət Babayev vermişlər. Əsərdə Kəngərlilər nəslindən olan sonuncu Naxçıvan xanı Ehsan xanın qızı, şairə Qönçəbəyimin nakam həyatının son dövrü əks olunur.

Tamaşada Qönçəbəyimi Zəminə Baxşəliyeva, Ehsan xanı Kamran Quluyev, Nikolos Barataşvilini Rza Xuduyev, İbrahim bəyi Bəhruz Haqverdiyev, Süleyman xanı Xəlil Hüseynov, knyaz Melikovu Zakir Fətəliyev, xanəndə Səttarı Hünər Əliyev canlandırırlar.

2011-ci ildə Naxçıvan Dövlət Musiqili Dram Teatrı öz repertuarında tarixi şəxsiyyətlərə həsr olunmuş iki əsərə yer ayırmışdır: Məmməd Cəfər "İnsanlar və talelər" və Şəfaət Mehdiyev "Mirzə Fətəli". Bu pyeslərdə Cəlil Məmmədquluzadənin və M.F.Axundovun həyatlarından mühüm məqamlar əks olunmuşdur. Hazırda teatrda xalq artisti Kamran Quluyevin quruluşunda "İnsanlar və talelər" tamaşasının məşqləri gedir. Baş rolun ifaçısı respublikanın əməkdar artisti Əli Əliyevdir.

Ümumiyyətlə, ədəbiyyat və incəsənətdə, xüsusən də teatrda və kinoda tarixi əsərlərə müraciət etməyin və həmin əsərlərdəki tarixi simaların bir daha xatırlanması milli yaddaşın formalaşmasına, vətənpərvərlik hisslərinin güclənməsinə, gənc nəslin mənəvi yetkinliyinə çox müsbət təsir göstərir. Bu mənada Naxçıvan Teatrının səhnəsində hazırlanan belə tamaşalar bu gün mühüm əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Cəfərov C. Əsərləri. 2 cilddə, I c., Bakı: Azərnəşr, 1968, 364 s.
2. Xəlilov Ə. Naxçıvan Teatrının tarixi. Bakı: ATC, 1964, 92 s.
3. Kərimov İ. Məqalələr. 2 cilddə, I c., Bakı: Qapp-Poliqraf, 2003, 297 s.
4. Qazıbəyov R., Vəzirov C. İbrahim Həmzəyev. Bakı: Azərnəşr, 1982, 52 s.

5. Naxçıvan Teatrının Salnaməsi. Naxçıvan: Əcəmi, NPB, 2010, 735 s.

Алекбер Гасымов

СЦЕНИЧЕСКОЕ ВОПЛОЩЕНИЕ ПРОИЗВЕДЕНИЙ В НАХЧЫВАНСКОМ ТЕАТРЕ, ПОСВЯЩЕННЫХ ИСТОРИЧЕСКИМ ЛИЧНОСТЯМ

В этой статье речь о том, что после присвоения статуса «государственного драматического театра» (1923 г.) старейшему Нахчыванскому театру, были поставлены спектакли, посвященные историческим личностям.

Кроме того, здесь дана информация о том, какую важную заслугу имели режиссеры, художники, композиторы и особенно актеры вместе с авторами при постановке спектакля.

Alakbar Gasimov

THE EMBODYMENT OF THE WORKS DEVOTED TO THE HISTORICAL PERSONALITIES IN NAKHCHIVAN THEATRE

In the article it is spoken about the embodyment of the works devoted to the historical personalities after giving the status of “state dramatic theatre” to the ancient Nakhchivan Theatre (1923).

Here is also given the information about the authors together with the producers, painters, composers, especially actors who have important services in creation of these spectacles.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

İQTİSADİYYAT

ASİF ŞİRƏLİYEV
Naxçıvan Dövlət Universiteti

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN AQRAR NƏZƏRİYYƏSİ VƏ AQRAR SİYASƏTİ

(AMEA-nın müxbir üzvü Ə.X.Nuriyev tərəfindən təqdim edilmişdir)

Xalqımızın ümummilli lideri Heydər Əliyev digərlərindən daha çox fərqli olaraq nəinki böyük dövlət xadimi, dünya miqyaslı politoloq və siyasətçi, istetadlı idarəçi, real düşünməyi və real qərarlar işləyib hazırlamaq bacarığına malik olan şəxsiyyət və dünya şöhrətli diplomat olmaqla, həm də nəzəriyyəçi idi. Heydər Əliyev qeyri adi və fövqəladə zəkası və ağlı sayəsində ictimai həyatın bütün sahə və münasibətlərinə dərin reaksiya verməyi və nüfuz etməyi də bacarırdı.

Bunu onun aqrar bölmənin inkişafı və tərəqqisinin bütün meyllərini tam öyrənmək əsasında onun nəzəriyyəsini və siyasətini də işləyib hazırlanmasından görmək olar. Onu Heydər Əliyevin əsərlərindən, o cümlədən bu yaxınlarda çapdan çıxmış 32 cildlik əsərlərindən, sərəncam və nitqlərindən, habelə müəllifi və icraçısı olub işləyib hazırladığı sosial-iqtisadi inkişaf proqramlarından və çıxışlarından görmək olar.

Ümummilli lider nəinki, sovet dövrünün, həmçinin sosializmdən bazar iqtisadiyyatına keçid dövrünün və bazar iqtisadi sisteminin aqrar nəzəriyyəsi və aqrar siyasətinin müəllifidir.

Ümummilli liderin aqrar nəzəriyyəsi və aqrar siyasətində torpaq, ona xas olan münasibətlər, bütünlükdə aqrar baxışları, ərzaq proqramı, əhalinin ərzaqla təminatlı istiqamətləri, imkan və yolları öz əksini tapmışdır. Bu nəzəriyyə və siyasət eyni zamanda ölkəmizin bazar iqtisadiyyatına keçid və bazar şəraitində aqrar məsələlərin həllini də şərtləndirir və təcəssüm etdirir. Bundan başqa onun aqrar nəzəriyyəsi və aqrar siyasətində aqrar iqtisadiyyatının kompleks inkişafı məsələləri də dərindən və bütöv əks edilmişdir.

Bunu da nəzərə xüsusilə gətirmək gərəkdir ki, onun aqrar nəzəriyyəsi və aqrar siyasətinin təşəkkülü və formalaşması hələ keçmiş SSRİ-nin mövcud ol-

duğu bir şəraitində-çox çətin bir zəmində başlanmışdır və bütün 35 illik hakimiyyəti dövründə bu nəzəriyyənin və siyasətin tam işləyib hazırlanmasını diqqət mərkəzində saxlamış, onun reallaşdırılması və həyata keçirilməsinin istiqamətlərini də işləyib hazırlamışdır. Bütünlükdə ümummilli liderin aqrar nəzəriyyəsi və aqrar siyasəti ölkəmizdə aqrar bölmə, kənd təsərrüfatı istehsalı əhalinin ərzaqla keyfiyyətli və etibarlı qaydada təmin etməsini, həmişəlik olaraq yalnız öz daxili imkanlar hesabına bu məsələlər reallaşdırılmalı, ərzaq idxalı gec-tez tamamilə və bütünlüklə aradan qaldırılması və ixtisar edilməsi məsələlərini baş istiqamət kimi nəzərdə tutur. Bütün bunlar ölkənin və dövlətin normal, inamlı inkişafının başlıca komponentlərindən və prioritetlərindən birincisi və başlıcası olmalıdır.

Eyni zamanda ümummilli liderin aqrar nəzəriyyəsi və aqrar siyasətində kənd təsərrüfatının bütünlükdə aqrar-sənaye kompleksinin qarşısında duran sosial-iqtisadi məsələlərin həlli ilə yanaşı, həmin məsələlərin həyata keçirilməsi istiqamətləri, imkanları, yolları və mənbələri də təsnifləşdirilmiş, onların konkret vəzifələri də qəti olaraq müəyyən edilmişdir. Bütün bunlar göstərir ki, Azərbaycan xalqının ümummilli lideri ölkə üçün, xalqdan ötəri özünün həm müəllifi və həm də icraçısı, təşkilatçısı olduğu aqrar nəzəriyyəsi və aqrar siyasətini bütöv və tam qaydada hazırlamış və onun reallaşdırılmasının əsasını və sxemlərini də qurmuş və yaratmışdır. Bu mənada ümummilli lider Heydər Əliyevin aqrar nəzəriyyəsi və aqrar siyasəti öz elmi-nəzəri, metodoloji imkanı, səviyyəsi və dərinliyinə görə müstəqil nəzəriyyə olması, əsasları və sübutları ilə fərqlənir.

Ümummilli lider Heydər Əliyev ölkəmizin bazar iqtisadiyyatına keçməsi ilə bağlı özünün aqrar nəzəriyyəsi və aqrar siyasətini daha da zənginləşdirmiş, bu istiqamətin və bazar iqtisadi sisteminin aqrar nəzəriyyəsi və aqrar siyasətinin həyata keçirilməsinin əsas və başlıca istiqamətlərini də sistemləşdirmişdir. Çünki, aqrar islahatlarının həyata keçirilməsinin istiqamətləri, onların reallaşdırılması, bazar şəraitində aqrar bölmənin inkişafı, onun təsərrüfatçılığının əsas formalarının işlənib hazırlanması və tətbiqi birbaşa ümummilli lider Heydər Əliyevin rəhbərliyi, iştirakı ilə həyata keçirilmişdir.

Bu istiqamətlərdən bəzilərinin göstərilməsi çox aktual, praktik əhəmiyyətli, həm də zəruridir. Beləki, ümummilli lider özünün aqrar nəzəriyyəsi və aqrar siyasətinə əsaslanan istiqamətləri həyata keçirərkən belə bir tələbi qarşıya qoymuşdur: kənddə yaşayan hər kəs – ixtisas və peşəsindən asılı olmayaraq torpaq payı almalıdır (5). Dünyanın bir sıra ölkələrində belə tezislər irəli sürülmüş, nəticə etibarilə yuxarıda göstərilən şəxslər və təbəqələrə torpaq payı verilməmişdir. Fakt odur ki, aqrar islahatı nəticəsində hər kəs və hamı torpaq payı almış, fiziki və hüquqi şəxs kimi kəndli-fermer təsərrüfatı yarada bilmişlər. Bu ümummilli lider Heydər Əliyevin aqrar nəzəriyyəsi və aqrar siyasətinin real olaraq həyata keçirilməsi kimi qiymətləndirilməlidir.

Aqrar bölmədə bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan, bazarın məna və mahiyyətinə uyğun olan əməyin təşkili və idarə edilməsi formalarının təşək-

külü öz mahiyyəti etibarilə ümumilli liderin aqrar nəzəriyyəsi və aqrar siyasətinin tələblərinin reallaşdırılmasının praktiki sübutudur. Beləki, hazırda əkinçilik və heyvandarlıq sahələrində müxtəlif təsərrüfatçılıq formaları qərarlaşmışdır.

Bundan başqa ümummilli liderin aqrar nəzəriyyəsi və aqrar siyasətində ölkənin aqrar-sənaye kompleksi (ASK) ölkə əhalisinin ərzağa və emal sənayesinin xammala olan ehtiyac və tələbi birbaşa başlıca vəzifə və funksiyası kimi əsaslandırılmışdır (3). Buna uyğun olaraq həmin vəzifə və funksiyasını normal icra etmək üçün bu kompleksin möhkəmləndirilməsi, daha da inkişaf etdirilməsi, habelə tənzimlənməsi dövlət və onun digər direktiv orqanlarının prioritet vəzifəsi və fəaliyyəti kimi qarşıya qoyulmuşdur. ASK-nın maddi-texniki bazasının möhkəmləndirilməsi, aqrar bölməyə verilən maşın-mexanizm, enerji-yanacaq məhsullarının qiymətlərinin kənd təsərrüfatı məhsullarının satış qiymətləri arasındakı uyğunsuzluğu aradan qaldırılması da nəzərdə tutulur. Habelə, kənddə sahibkarlığa dəstək verilməsi, onun möhkəmləndirilməsi və lazımi səviyyədə fayda verməsi üçün əsaslı tədbirlərin görülüb həyata keçirilməsi vahid aqrar nəzəriyyə və aqrar siyasətinin başlıca tələblərindən biri kimi irəli sürülmüş və reallaşdırılması müəyyənləşdirilmişdir.

Məlumdur ki, ölkəmizdə kənd təsərrüfatına yararlı torpaqların azlığı dövriyyədə olan torpaqlardan daha səmərəli və faydalı istifadə edilməsini, daha doğrusu əkinçiliyin intensivləşdirilməsini ön plana çəkir. Yaxşı haldır ki, ulu öndərin aqrar nəzəriyyəsi və aqrar siyasətində bu amil nəzərdə tutulmuş iqtisadi və artımın bu tipi ölkənin aqrar bölməsində müvəffəqiyyətlə tətbiq olunur və özünün sosial-iqtisadi faydasını verməkdədir.

Ölkəmizdə kənd təsərrüfatı məhsullarının bəzi növlərinin istehsalının bəzi stimullaşdırılmasının daha da gücləndirilməsi və aqrar bölmənin özünün də diversifikasiyası-şaxəliliyi məsələsi də hazırlanmış və tətbiq olunmuş mövcud aqrar nəzəriyyəsi və aqrar siyasətinin ən zəruri tələblərindən birini təşkil edir.

Bundan başqa kənd təsərrüfatında sahibkarların kreditləşdirilməsi, onlara aşağı faizlə kredit verilməsi istehsalının maddi bazasının möhkəmləndirilməsinə və bu əsasda əkinçilik və heyvandarlıq məhsullarının sabit, davamlı və dayaqlı çoxalmasına həlledici təsir göstərir, sahibkarların məhsul istehsalının dinamik inkişafına inamını daha da artırır. Onu qeyd edək ki, bu tətbiq olunan nəzəriyyənin və siyasətin başlıca tələblərindən biridir.

Ölkədə ümummilli lider Heydər Əliyevin aqrar nəzəriyyəsi və aqrar siyasəti həm də aqrar bölməni idarə edən deyil, onlara aqrotexniki, zootexniki, baytarlıq və s. digər tədbirlərin həyata keçirilməsində kənd sahibkarlarına qayğı və xidmət göstərən bir təşkilatın-kənd təsərrüfatı şöbələrinin qərarlaşması tələbini də nəzərə alır.

Onu da göstərmək olar ki, aqrar nəzəriyyəsi və aqrar siyasətində və aqrar islahatında istehlak cəmiyyətlərinin yeni təşkili nəzərdə tutulmuş, kənd sahibkarlarının məhsullarının açılıb-satılmasında onların rolunun yüksəldilməsi-

nə, artırılmasına xüsusi diqqət yetirilmişdir. Bu istiqamətdə indi də həmin cəmiyyətlər tərəfindən məqsədyönlü iş aparılır.

Qeyd etmək lazımdır ki, əkinçilik və heyvandarlıq məhsulları istehsalçılarının sığortalanması, kənd təsərrüfatı ərzaq və digər məhsullarının idxalı üzrə gömrük resurslarının təkmilləşdirilməsi məsələləri ümummilli liderin də aqrar nəzəriyyəsində və aqrar siyasətində öz əksini əsaslı olaraq tapa bilmişdir.

Həmçinin ümummilli lider Heydər Əliyevin hələ birinci hakimiyyəti dövründə aqrar nəzəriyyənin və aqrar siyasətin normal reallaşdırılması üçün mühüm əhəmiyyət kəsb edən qanunlar, əsasnamə, təlimat, digər normativ-hüquqi sənədlər toplusu işlənib hazırlanmış və həyata keçirilməyə başlanmışdır (2).

Ümummilli liderin aqrar nəzəriyyəsinin və aqrar siyasətinin tələbləri onun rəhbərliyi dövründə normal reallaşdırılmış, ölkədə aqrar islahatının sabit inkişafı təmin edilmişdir. Beləki, hələ sovet dövründə Azərbaycan Respublikası keçmiş ittifaqın 11 dəfə keçici qırmızı bayrağını almış, regionlarda 250-dən çox aqrar məhsulunun emalı, saxlanması müəssisələri yaradılmış, ölkəmizin müstəqilliyi dövründə də bu müvəffəqiyyətlər dinamik səciyyə daşımışdır.

Hazırda da ümummilli lider Heydər Əliyevin aqrar nəzəriyyəsi və aqrar siyasəti Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə inamla, ardıcıl olaraq və uğurla həyata keçirilir, kənd təsərrüfatı məhsulları istehsalı ildən ilə çoxalır, aqrar bölmənin dinamik inkişafı təmin olunur, ərzaq, regionların sosial iqtisadi inkişafı məsələlərinə dair dövlət proqramları qəbul edilərək vaxtından əvvəl yerinə yetirilir. Bunun sayəsində də ölkə əhalisinin ərzaq buğdası, ət, kartof, meyvə, tərəvəz və bir sıra digər ərzaq məhsullarına olan tələbatı tamamilə və bütünlüklə daxili istehsalımız hesabına ödənilir. Ümummilli lider Heydər Əliyevin aqrar nəzəriyyəsi və aqrar siyasəti Azərbay-canın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında inamla reallaşdırılır, aqrar məhsulların istehsalı dinamik surətdə artır. Beləki, 2009-cu ildə Muxtar Respublikada 185,2 mln. manatlıq əkinçilik və heyvandarlıq məhsulları yaradılmışdır ki, bunu da Muxtar Respublika üçün astronomik rəqəm hesab etmək olar.

Bu isə ümummilli lider Heydər Əliyevin aqrar nəzəriyyəsi və aqrar siyasətinin konkret və əməli nəticəsidir.

Bütün bunlara arxalanaraq demək olar ki, ümummilli liderimiz Heydər Əliyevin aqrar nəzəriyyəsi və aqrar siyasətindən özümüzlə yanaşı həmçinin, hətta müstəqil dövlətlər birliyi və Cənubi-Şərqi Avropanın bazar iqtisadi sisteminə yenicə keçmiş ölkələr də istifadə edə bilər, bəhrələnə bilərlər.

ƏDƏBİYYAT

1. Aqrar məsələlərinə dair xalqımızın ümummilli lideri Heydər Əliyevin çıxışları və nitqləri. Toplu. Bakı, 1993-2033-cü il.
2. Aqrar məsələlərinə dair Azərbaycan respublikasının prezidenti Heydər Əliye-

vin sərəncam və fərmanları. Toplu. Bakı, 1993-2033-cü il.
3. “Aqrar islahatlarının əsasları haqqında” Azərbaycan Respublika qanunu, 18 fevral, 1995-ci il.
4. “Sovxozların və kolxozların islahatı haqqında” Azərbaycan Respublika qanunu, 18 fevral, 1995-ci il.
5. “Torpaq islahatı haqqında”. Azərbaycan Respublika qanunu, 18 fevral, 1995-ci il.

Асиф Ширалиев

АГРАРНАЯ ТЕОРИЯ И АГРАРНАЯ ПОЛИТИКА ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

В статье раскрывается сущность аграрной теории и аграрной политики общенационального лидера Гейдара Алиева, характеризуются их отличительные особенности. Далее в ней обосновываются основные направления реализации аграрной теории и аграрной политики Гейдара Алиева.

Asif Shiraliyev

NATIONAL LEADER HAYDAR ALIYEV’S AGRARIAN THEORY AND AGRARIAN POLICY

In the article the main point of Haydar Aliyev’s agrarian theory and agrarian policy is cleared up, its main different features are grounded. Except this national leader Haydar Aliyev’s directions of realizing of agrarian theory and agrarian policy are classified.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

POLAD ƏLİYEV
AMEA Naxçıvan Bölməsi
E-mail: aliyev_polad@yahoo.com

İQTİSADİ NƏZƏRİYYƏDƏ MİLLİ GƏLİRİN BÖLÜŞDÜRÜLMƏSİ İLƏ BAĞLI MÜASİR KONSEPSİYALAR

(AMEA-nın müxbir üzvü Ə.X.Nuriyev tərəfindən təqdim edilmişdir)

Marjinal fayda və marjinal məhsuldarlıq tədqiqatlarında diqqət milli gəlirin funksional bölgüsü ilə əlaqəli makroiqtisadi problemlərdən istehsal amillərinin qiymətlərinin müəyyənləşməsi ilə əlaqəli mikroiqtisadi problemlərə çevrilmişdir. Ancaq daha sonralar müasir nəzəriyyədə bölgü makro iqtisadi tədqiqatların yenidən diqqət mərkəzinə çəkilib. Keynsin ümumi nəzəriyyəsi ilə əlaqəli bu diqqət yeni bir əhəmiyyət qazanmış oldu. Belə ki, Keyns nəzəriyyəsində bölgü münasibətlərinə toxunulmuş və kapitalist iqtisadiyyatının iki əsas problemini tam məşğulluq və gəlir bölgüsü olduğunu vurğulamaqla yanaşı, daha çox birinci problemi həll etməklə məşğul olmuşdur. "Mənfəət, faiz və pulun ümumi nəzəriyyəsi" əsərində C.Keyns iqtisadi tənzimləmə sahələrində irəli sürmüş olduğu proqramda dövlət tənzimlənməsinin sonuncu istiqaməti kimi onun ədalətlilik funksiyası ilə bağlı olan məsələnin-son dərəcə aşağı gəlir əldə edən əhali qrupunun mənafelərinin qorunması üçün gəlirlərin yenidən bölgüsü mexanizmindən istifadə məsələsinin də ön plana çəkilməsini tövsiyə etmişdir (3, s. 412). Onun fikrincə, gəlirlərin yenidən bölgüsü siyasəti aşağı təminatlı əhalinin tələbini yüksəldə bilər, bununla da bütün alıcıların pula olan tələbatları yüksələr, cəmiyyətin istehlak yönümlülüyü meyli güclənər. Keynisə görə istehsalın artması gəlirləri, bu da öz növbəsində istehlak xərclərinin və ümumilikdə tələbin həcminin artmasına səbəb olur. Lakin gəlirlərin artması ilə istehlakın marjinal artım meyli azalır, qənaətin marjinal artım meyli yüksəlir. Beləliklə, gəlirlərin artımı tələbin həcminin artması və quruluşunun dəyişməsi ilə nəticələnir ki, bu da məşğulluğun artması və istehsal amillərindən səmərəli istifadəyə səbəb olur. Keynisin tətbiq etdiyi təhlil üsulları özündən sonra gələn iqtisadçılar tərəfindən inkişaf və bölgü nəzəriyyələri üçün istinad nöqtəsini formalaşdırmışdır. Keynisçi iqtisadçılardan olan K.E.Bouldinq ölkə gəlirinin bölgüsünü həm nəzəri tədqiqat baxımından, həm də iqtisadi siyasət baxımından ən mühüm iqtisadi problem kimi nəzərdən keçirmiş, nisbi əmək haqqı və nisbi mənfəət kimi gəlirləri tədqiq

edən mikro bölgü nəzəriyyəsinin əmək haqqı ilə mənfəətin ümumi səviyyəsi və bölgü quruluşunu müəyyənləşdirən amillərin öyrənilməsində yetərli olmayacağını, bununla da makro bölgü nəzəriyyəsinin lazım olduğunu ifadə etmişdir. Milli gəlirin əmək və qeyri-əmək gəlirləri kimi iqtisadiyyatda ev təsərrüfatları və firmalar kimi institusional vahidlər arasındakı bölgü kimi tədqiq edən K.E.Bouldinq bu bölgünü investisiya, qənaət, likvidlilik seçiminin müəyyənləşdirdiyini iddia etmişdir (6, s. 257). A.M.Karter milli gəlirin əmək və qeyri-əmək amilləri arasındakı funksional bölgüsünün əsas müəyyənləşdiricisinin qənaət-investisiya bərabərliyi olduğunu fikrini irəli sürmüşdür. Onun tədqiqatının əsas məqsədi gəlirin bu gəlir kateqoriyaları arasındakı bölgüsündəki dəyişikliyin onun istehsal səviyyəsinə necə təsir etdiyini öyrənməkdir. Beləliklə, o, gəlir bölgüsünü deyil, bölünən gəlirdə meydana çıxan dəyişmənin, başqa sözlə desək, yenidən bölgünün nəticəsini tədqiq etmişdir. A.Karterə görə, cəmiyyətdəki investisiya meyli mənfəətin həcmi tərəfindən müəyyənləşir, nisbi əmək haqqının həcmi artar, mənfəətin həcmi azalarsa bu investisiya fəaliyyətinə bununla da, istehsalın artımına mənfi təsir edər. Milli gəlirin əmək haqqı və qeyri əmək haqqı gəlir kateqoriyaları kimi investorlar və zəhmətkeşlər arasındakı bölgüsünü tədqiq edən N.Kaldorda "Bölgünün alternativ nəzəriyyəsi" adlı əsərində A.M.Karter kimi tam məşğulluq halındakı bir iqtisadiyyatda nisbi amil paylarının investisiyanın həcmi tərəfindən müəyyənləşdirildiyini iddia edib. Kaldor nəzəriyyəsinə əsaslanan Rotşildə görə iqtisadiyyatda aşağı səviyyəli infilyasiya və sürətli böyümənin olması şəraitində bununla əlaqəli olaraq investisiyalara olan tələbin, investisiyaların həcminin artması və tərəflərin bölgüylə bağlı davranışları gəlir bölgüsündəki payların müəyyənləşməsində təsirli ola bilər (7, s. 231). Ümumiyyətlə isə Rotşild nəzəriyyəsi tam məşğulluq, aşağı infilyasiya, sürətli iqtisadi artım şəraitində investorların qərarları, gəlir bölgüsü, investisiyanın həcmi arasında qarşılıqlı əlaqəni öyrənir. Kaldordan fərqli olaraq Paşinetti fəhlələrin də, öz yığımları qarşılığında müəyyən gəlir əldə etdiyini iddia edirdi. Paşinettiyə görə, işçilər vəsaitlərini birbaşa investisiya qoyuluşu kimi istifadə etmir, müəyyən faiz qarşılığında kapitalistlərə verir. Yəni, onlar qənaətlərindən istifadə etmələrinə görə onlara mənfəət təmin edən fiziki istehsal vasitələri deyil, onlara faiz gəliri təmin edən qiymətli kağızlar əldə edir. Onun nəzəriyyəsinə görə, uzun dövrdə makroiqtisadi tarazlıq şəraitində bu faizlərin həcmi mənfəətin həcminə bərabərləşəcək, məcmu mənfəətin bir hissəsini təşkil edəcək, bununla da fəhlələr həm mənfəət, həm də əmək haqqı əldə edəcəkdir.

S.Veyntraub "Gəlir bölgüsü nəzəriyyəsinə bir yanaşma" adlı əsərində iqtisadiyyatda məşğulluğun və milli gəlirin tarazlıq səviyyəsinin yüksəlməsi ilə faiz və renta gəlirlərinin azalacağını iddia etmişdir. Onun fikrincə, əmək haqqının həcmi məcmu təklif elastikliyinə bağlıdır. Məcmu təklif elastikliyinin, xüsusilə qısa dövrdə azalan məhsuldarlıq qanunu ilə əlaqədar olaraq birdən az olması halında milli gəlirdə əmək haqqının payının azalmasını iddia etmək olar. Mənfəətin nisbi payı əmək haqqı, faiz və renta gəlirlərindən asılıdır. Bu gəlir

kateqoriyalarının məşğulluq və milli gəlirin artması ilə azalması mənfəət payının azalmasına səbəb olacaq (7, s. 256). 1930-cu illərin axırlarında B.Seliqmen, P.Samuelson, C.Xiks kimi iqtisadçılar iqtisadi problemlərin, o cümlədən bölgü prosesi ilə bağlı məsələlərin şərhinə neoklassik və keynisçi yanaşmalardan heç birinin reallığı tam əks etdirə bilməyəcəyi qənaətinə gəldikləri üçün sosial-iqtisadi hadisə və prosesləri, o cümlədən bölgü münasibətlərini bu iki cərəyanın tələbin həcmi, bazar quruluşu, qiymətin müəyyən edilməsi, gəlirlərin istehsal amilləri üzrə başlıca mənbələrinin müəyyən edilməsi ilə bağlı nəzəri müddəalarının sintezləşməsi əsasında izah etməyə çalışmışlar. Belə ki, nəzəri sintezləşmə məcmu tələbin kredit vasitəsilə stimullaşdırılması yolu, istehlakı məhdudlaşdırmağı nəzərdə tutan klassik metodların əlaqələndirilməsi, oliqapolist rəqabətin mövcudluğuna, qiymət, xərc və gəlir arasındakı nisbətin real dəyərlərə əsaslanmasına və gəlirlərin J.B.Seyin nəzəriyyəsində olduğu kimi üç istehsal amili ilə (əmək-əmək haqqı, kapital-mənfəət, torpaq-renta) müəyyənləşməsinə əsaslanır.

1930-cu illərdən sonra təsərrüfat fəaliyyətlərində inhisarlaşma meylinin artması M.Kaletski, C.Robinson, A.Mitra kimi iqtisadçıların amil paylarının müəyyənləşməsi ilə bağlı nəzəriyyələrində bazar quruluşunun təsirinin də nəzərə alınması ilə nəticələnib. Qeyri-təkmil rəqabət şəraitində firma davranışları və inhisarlaşma dərəcəsinə bağlı qiymət mexanizminin istehsal amillərinin qiymətinə təsirini ilk dəfə M.Kaletski tədqiq etmişdir. Onun nəzəriyyəsinə görə, hər hansı bir sektorda funksional bölgü inhisarlaşma dərəcəsi və ona bağlı olaraq dəyişən orta mənfəət həcmi tərəfindən müəyyənləşir (6, s. 351). Belə ki, M.Kaletski göstərirdi ki, hər hansı bir sektorda əmək payının həcminin yüksəkliyini (aşağılığını) inhisarlaşma dərəcəsi və məcmu xərclər içində qeyri-əmək haqqı xərclərinin azlığı (çoxluğu) ilə əlaqəlidir. M.Kaletski inhisarlaşma dərəcəsinin təkcə gəlirlərin kapitalistlərlə işçilər arasındakı bölgüsünü deyil, həmçinin gəlirlərin kapitalistlər arasındakı bölgüsünə də təsir etdiyini göstərib. Bununla da o, təkcə ayrı amillər arasındakı bölgü münasibətlərini deyil, eyni amil daxilindəki bölgü münasibətlətlərini də gözdən keçirib. Lakin onun nəzəriyyəsi bölgü problemi ilə bağlı kəskin bir həll yolu göstərmir.

C.Robinson isə qeyri-təkmil rəqabət şəraitində istehsal amillərinin qiymətlərinin formalaşması xüsusiyyətlərini və onu müəyyənləşdirən amilləri öyrənmişdir. Onun bölgü modeli N.Kaldor və Paşinettinin modelinə oxşayır. Belə ki, onun da nəzəriyyəsində əmək haqqı və mənfəətin gəlir payı istehsal amillərinin təklifi və onların qarşılıqlı əvəzolunma elastikliyindən asılı olduğu iddia edilir.

C.Xiks, R.Xarrod, R.Solou kimi iqtisadçılar isə öz nəzəriyyələrində texnoloji inkişafın da amil paylarının formalaşmasına, başqa sözlə desək, bölgü münasibətlərinə təsirini tədqiq etmişdir (9, s. 411). C.Xiksin bölgü modelində hər hansı bir amilə qənaətlə nəticələnən texnoloji inkişafın həmin amilin milli gəlirdəki payını azaldacağını ifadə edib. C.Xiksdən fərqli olaraq, R.Xarrod kapitalın marjinal məhsuldarlığının sabit olmasını qəbul edərək, texnoloji inkişa-

fın yalnız əmək amilinə təsir göstərəcəyinə inanırdı. Onun müddəalarına görə, neytral texnoloji inkişaf kapital və əməyin milli gəlirdəki payının eyni həcmdə qalması ilə nəticələnir. Onun fikrincə, neytral olmayan texnaloji inkişafın mənfəətin sabit həcmində kapitalın istehsaldakı payının dəyişməsi ilə nəticələnir. C.Xarroddan fərqli olaraq, R.Solou neytral texnoloji inkişafı sabit əmək haqqı səviyyəsində əməyin orta məhsuldarlığını sabit saxlayan kapitalın təsirliliyini artıran texnoloji inkişaf kimi xarakterizə edib. Onun fikrincə, neytral olmayan texnoloji inkişafın sabit əmək haqqı səviyyəsində orta əmək məhsuldarlığının artmasına səbəb olması, əməyə qənaət edən texnoloji inkişaf olduğundan əməyin payı azalacaq, kapitalın payı artacaq, tərsinə orta əmək məhsuldarlığının azalmasına səbəb olan texnoloji inkişaf isə əmək tutumunun yüksəlməsi ilə nəticələnəcək. Beləliklə də əməyin payı artacaq, kapitalın payı azalacaqdır. Amillərin payının artmaması üçün əmək məhsuldarlığının dəyişməsinə səbəb olmayan neytral texnoloji inkişaf lazımdır.

E.Xekser, B.Ohlin, P.Samuelson kimi iqtisadçılar öz tədqiqatlarında bölgü prosesində xarici ticarətin də təsirlərini müəyyənləşdirməyə çalışmışlar. Belə ki, bu alimlərin fikrincə, istehsal amillərinin qarşılıqlı əvəzləmə imkanının olmaması şərti ilə müxtəlif məhsulların istehsalı üçün istehsal amillərinin müxtəlif nisbətdə birləşməsi ilə yanaşı ayrı-ayrı ölkələrin amillərinin müxtəlif həcmdə mövcud olması və bununla əlaqədar olaraq onların və onların istehsalında üstün iştirak etdiyi əmtəələrin qiymət fərqi xarici ticarətin baş verməsinin əsas səbəbi olmaqla birlikdə öz-özlüyündə bu ölkələrdə amillərin qiymətlərinə təsir göstərir, onlar arasındakı bu fərqi azaldır. Qiymətlərin bərabərləşməsi teoremi E.Xekser və B.Ohlinin xarici ticarət nəzəriyyəsinin iki əsas teoremindən biridir. Onlardan biri hər bir ölkənin özündə bol olan, qiyməti daha aşağı olan amil tutumlu əmtəələrin istehsalı üzrə ixtisaslaşmasıdır. İkincisi, amil qiymətlərinin bərabərləşməsidir. Bu teoremə görə, ölkələr arasında amillərin hərəkəti olmadan da əmtəələrin sərbəst xarici ticarəti ilə amil qiymətləri bərabərləşər. V.Leontiyev isə Xekser-Ohlin teoremini təsdiqləmək istiqamətində apardığı tədqiqatı nəticəsində digər ölkələrə görə kapital amili ilə daha zəngin olan ABŞ-ın əmək tutumlu əmtəələr ixrac edib, kapital tutumlu əmtəələr idxal etməsi kimi ziddiyətli nəticə əldə etmişdir. V.Leontiyev bu nəticəni ABŞ-da əmək məhsuldarlığının daha yüksək olması ilə əsaslandırmışdır. Çünki burada bir əmək ili digər ölkələrin üç əmək ilinə bərabərdir. ABŞ-da əmək məhsuldarlığının yüksək olmasının səbəbi təkcə əmək vahidinə düşən kapitalın yüksəkliyi deyil, yaxşı təşkilatlanma, investisiya zehniyyəti, müvafiq iş mühiti kimi amillərin də təsiri vardır. P.Samuelson xarici ticarətdəki maneələrin ortadan qaldırılması ilə, ölkədə zəngin olan istehsal amillərinin milli gəlirdəki payının artması halında qıt istehsal amillərinin milli gəlirdəki payının azalmasının ölkənin rifahına mənfi təsir göstərməyəcəyini, birincinin ölkəyə təmin edəcəyi qazancın ikincinin zərərindən üstün olmasıyla əsaslandırmağa çalışmışdır. Ümumiyyətlə, bölgü məsələsinə makroiqtisadi mövqedən yanaşan Keyns və onun ardıcılları dövlətin iqtisadi-

ictimai həyata geniş müdaxiləsinin tərəfdarı olmuşlar, qeyri-əmək gəlirlərinin və onların mənbələrinin sosial mənsubluğunu, ədalətsiz bölgünü kapitalizmin ən böyük nöqsanı kimi qiymətləndirmişdilər. Beləliklə, tədqiqatlardan da gördüyümüz kimi bölgü münasibətlərini keynisçilər isə əmək və mülk gəlirləri kimi funksional səviyyədə öyrənmişlər. Bölgü prosesində iştirak edən iqtisadi subyektlər və onların əldə etdiyi gəlir kateqoriyasını isə keynisçi iqtisadçılar işçilər, sahibkarlar, torpaq sahibləri, kapital sahibləri və oların gəlirlərini əmək haqqı, mənfəət, renta, faiz kimi təsnifləşdirmişlər.

Keynisçi iqtisadçılarda rəqabətin qeyri məhdudluğu və qiymətlərin tez-tez dəyişməsi qəbul olunmur. Onlar qeyri təkmil rəqabət, texnoloji inkişaf, oliqapoliya inhisar qiymətləri kimi şərtlər əsasında gəlirlərin həcmi onların arasındakı proporsiyaların müəyyənləşdiricisi kimi kapital qoyuluşu, kapitalın yığım norması, iqtisadi artım, artan şəxsi istehlak, likvidlilik seçimini göstəriblər.

İqtisadi nəzəriyyədə bölgü prosesində əldə olunan müxtəlif gəlir paylarının, habelə müxtəlif xarakterli iqtisadi subyektlərin gəlirlərinin həcminin sosial iqtisadi inkişafı təmin edən optimal proporsiyası haqda fikirlər nə qədər müxtəlif görünsə də bu fikirlərə görə iqtisadçıları təmsil etdikləri iqtisadi cərəyandan, məktəbdən asılı olmayaraq iki qrupda birləşdirmək olar. Bunlardan biri A.M.Kartır, N.Kaldor, K.E.Bouldin, Paşinetti, A.Mitra, Rotşild kimi iqtisadçıları aid etmək olar ki, onlar istehlakdan daha çox qənaət-investisiya fəaliyyətinə əhəmiyyət verilməsini düzgün saymışlar, bununla da bərabərsizliyin tərəfdarları kimi çıxış etmişlər, onu arzu olunan hal kimi qiymətləndirmişlər. Çünki, gəlirlərin qeyri-bərabər bölgüsü investisiya fəaliyyətinin genişlənməsinin maddi təminatı olan qənaəti stimullaşdırır. C.Robinson, R.Xarrod, S.Xansen, C.Xiks kimi iqtisadçılar isə daha çox istehlaka və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə diqqət yetirmişlər bununla da, sosial aspektli ədalətli bölgünün, gəlirlərin bərabərləşdirilməsinin və bölgü prosesində bərabərsizliyin azaldılmasının tərəfdarı olmuş, bölgü prosesində dövlətin fəal iştirakının ümumi sosial iqtisadi inkişaf, iqtisadi artım baxımından daha əlverişli olduğunu sübut etməyə çalışmışlar.

ƏDƏBİYYAT

1. Harvey J. Müasir ekonomis. Bakı: Nurlan, 2008, 648 s.
2. İqtisadi təlimlər tarixi (dərslik). M.X.Meybullayevin ümumi redaktəsilə, Bakı: Nurlar, 2002, 415 s.
3. Keyns C.M. Məşğulluq mənfəət və pulun ümumi nəzəriyyəsi. Azərbaycan dilində, Bakı: Qanun, 2001, 441 s.
4. Muradov Ş.M. İnsan Potensialı: əsas meyllər reallıqlar, problemlər. Bakı: Elm, 2004, 656 s.
5. Quliyev F. T. Millət və dövlət gəlirləri. Bakı: Nağıl evi, 2004, 328 s.
6. Aydın Yalçın. İqtisadi doktorinlər və sistemlər tarihi. Yalova, 1991, 402 s.

7. Hüseyn Arif. İqtisada giriş. Bursa: Ezgi kitabevi yayınları, 1997, 582 s.
8. Носова С.С Экономическая теория / Учебник, М.: Кнорус, 2008, 800 с.
9. Campbell R. McConell, Stanley L. Brue, Microeconomics, USA, New-York: McGraw-Hill Companies, 1999, 547 p.

Полад Алиев

СОВРЕМЕННЫЕ КОНЦЕПЦИИ, СВЯЗАННЫЕ С РАСПРЕДЕЛЕНИЕМ НАЦИОНАЛЬНОГО ДОХОДА В ЭКОНОМИЧЕСКОЙ ТЕОРИИ

В статье анализированы и оценены факторы и условия, устанавливающие характер отношений распределения между членами кейнианской школы, а также положения, связанные с формированием механизма распределения, дающий толчок социально-экономическому развитию.

Polad Aliyev

MODERN CONCEPTIONS CONNECTED WITH DISTRIBUTION OF NATIONAL INCOME IN ECONOMICS

In the article thesis connected with investigation of factors, conditions the defining character of distribution relations between the of delegation keynesian economic school, and also forming of distribution mechanism of ensuring the social economic development is analyzed and is valued.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

CAVADXAN QASIMOV
AMEA Naxçıvan Bölməsi
E-mail: Cavadxan 384. @ mail. ru

NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA AQRAR SEKTORDA MƏŞĞULLUĞUN BƏZİ XÜSUSİYYƏTLƏRİ

(Redaksiya heyətinin üzvü, i.e.d., prof. A.İ.Şirəliyev tərəfindən təqdim edilmişdir)

Bütün dövrlərdə aktuallığını saxlayan üç məsələ vardır ki, bu da insan, torpaq və məşğulluq anlayışlarından ibarət olmaqla hazırda da ən zəruri məqsəd kimi özünü göstərməkdədir. Hər bir insanın şəxsi və ictimai tələbatlarının əksər hissəsinin təmin olunduğu aqrar sektorda məşğulluq bütövlükdə cəmiyyətin mövcudluğunun iqtisadi əsasını təşkil etməkdədir. Buna görə də aqrar sektor və məşğulluq anlayışlarına elmi cəhətdən yanaşmaq, onu bu əsasda dəyərləndirmək və mahiyyət vermək çox zəruridir. Hər iki məsələ iqtisad elminin daim tədqiq edərək araşdırdığı, öyrəndiyi və təhlil etdiyi iqtisadi proseslərin cəmidir. Elə məhz bu elmin inkişafında böyük rolu olan iqtisadi məktəblər və onların carçıları həmin məsələlərə müxtəlif yönlərdən yanaşmışlar. Fikrimizi əsaslandırmaq üçün XVIII əsrin ikinci yarısında mövcud olmuş Fiziokrat (yunan sözü olub, "fizis"-təbiət, "kratos" isə hakimiyyət deməkdir (2, s. 23)) iqtisadi məktəbinin baxışlarına istinad edə bilərik. Həmin cərəyanın nümayəndələrindən olan Fransua Kene (1694-1774), Jak Turqo (1727-1781), Viktor Mirabo (1715-1789) və başqaları aqrar sektorun səmərəli iqtisadi fəaliyyət baxımından əlverişliliyini göstərmişlər. İdeyalarını sərvət və gəlir sahəsində irəli sürən həmin məktəbin tərəfdarları hər iki məqsədin gerçək olmasında istehsalın zəruri olmasının başlıca şərt olması qənaətində idilər.

Təbiidir ki, həm sərvət toplamaq, həm də gəlir əldə etmək üçün məşğul olmaq çox zəruridir. Fiziokratların istehsal deyərkən yalnız əkinçilik sahəsini nəzərdə tutmaları hələ üç əsr bundan əvvəl aqrar sektorun məşğulluq potensialına verdikləri dəyərin yüksək olduğunu göstərməkdədir. Təsadüfi deyildir ki, F.Kene "fermerlər", "taxıl" və digər bu kimi çoxsaylı elmi əsərləri ilə aqrar sektorda məşğulluq məsələsini geniş tədqiq edərək əsaslandırmaqla fermer təsərrüfatlarının inkişafı və genişləndirilməsinin zəruriliyini göstərirdi. J.Turqo isə özünün "Sərvətin yaranması və bölgüsü haqqında düşüncələr" adlı əsərində digər fiziokratların görüşlərinə şərik çıxaraq sərvətin toplanmasında təbiətin və

torpağın xüsusi önəminə diqqət çəkmiş və buradakı əkinçi əməyinə məhsuldar əmək kimi yanaşmışdır (3, s. 38). Yəni məşğulluğun təminatında aqrar sektorun roluna önəm vermişdir.

Aqrar sektor və məşğulluq günümüzə də aktual məsələ olaraq daxil olmuşdur. Böyük məşğulluq potensialını özündə əks etdirən aqrar sektor dövlətimizin ardıcıl qayğısı ilə daha da güclü mexanizmlərlə inkişaf etdirilməkdədir və bu ölkəmizin bütün regionlarında özünü göstərir. Belə bölgələrdən biri də tarixən milli iqtisadi inkişafda müstəsna rol oynayan Naxçıvan Muxtar Respublikasıdır ki, burada da ərazinin kənd təsərrüfatı sahəsində əlverişli olması diqqəti cəlb edir.

Naxçıvan MR-də istər əhalinin əksər hissəsinin (70%-dən artıq) kənd yerlərində yaşaması, istərsə də ərazisinin əsasən dağlıq relyefə malik olmasının nəticəsidir ki, burada insanların gündəlik fəaliyyət sahələri də məhz aqrar bölmə ilə bağlıdır. Bu da aqrar sektorda əhalinin məşğulluq imkanlarının genişləndirilməsinə əlverişli şərait yaradır. Naxçıvan MR-də aqrar sektorda əhalinin məşğulluq səviyyəsini aşağıdakı cədvəl vasitəsi ilə belə ifadə etmək olar:

Cədvəl 1

Naxçıvan Muxtar Respublikasının inzibati ərazi vahidləri üzrə kənd təsərrüfatı sahəsində məşğul olan əhalinin sayı

S/№	Rayonların adı	Sahəsi (kv. km)	Aqrar sahədə çalışan insanların sayı (min nəfər)
1	Babək	1250	26940
2	Şərur	1165	36572
3	Culfa	995	16586
4	Ordubad	972	17481
5	Şahbuz	815	8957
6	Kəngərli	682	11853
7	Sədərək	151	5681
8	Naxçıvan şəhəri	15	4126
	Naxçıvan MR üzrə:	5363	128196

Mənbə: Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatları

Göründüyü kimi, Naxçıvan Muxtar Respublikası üzrə kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən cəmi əhalinin sayı 128196 nəfər təşkil etməkdədir.

Naxçıvan MR iqtisadiyyatında da aqrar sahədə əhalinin məşğulluq probleminin həllində uğurlu nəticələrin əldə olunması üçün zəruri olan əlverişli imkanları aşağıdakı kimi xarakterizə etmək olar:

1) ərazinin torpaq və iqlim şəraiti əlverişli olmalıdır, yəni kənd təsərrüfatına yararlı olan torpaqların həcmi iqtisadi və coğrafi cəhətdən geniş və münbit olmalıdır;

2) su potensialı kifayət qədər olmalıdır. Yəni suvarma sistemləri və süni suvarma imkanları çox yüksək səviyyədə təmin olunmalıdır. Zərurət yarandıqda

operativ şəkildə yeni kanalların çəkilməsinə ciddi diqqət yetirilməlidir;

3) kifayət qədər əmək ehtiyatlarına malik olmalıdır və işsizlik probleminin səmərəli həllinə nail olunmaqla məşğulluq potensialının gücləndirilməsinə çalışılmalıdır;

4) iqtisadi potensialı yüksək olmalıdır. Yəni iqtisadi inkişaf göstəriciləri ümidverici olmalıdır. Digər tərəfdən gözlənilməz çatışmamazlıqların tez bir vaxtda aradan qaldırılmasında çeviklik nümayiş olunmalıdır.

Fikrimizcə, Naxçıvan MR-də aqrar sahədə məşğulluq məsələlərinin həllinin coğrafi amillərlə daha sıx bağlılığı mövcuddur. Bunları aşağıdakı kimi qeyd etmək olar: 1) iqlim amili; 2) torpaq amili.

Birinci amil aqrar sahənin məşğulluq potensialının formalaşmasında və genişlənməsində çox mühüm əhəmiyyətə malikdir. Qeyd edilən həmin amillərin mövcudluğu ilə birlikdə Naxçıvan Muxtar Respublikası özünün kəskin kontinental və quru iqlimi ilə digər bölgələrdən fərqlənir. Burada günəş radiasiyasının çoxluğu, atmosfer dövranının mürəkkəbliyi və relyefin çox müxtəlif olması ərazidə əsas iqlim yaradan amillərdir. Araz boyu düzənlikdə və dağ ətəklərində (1000-2500 m) soyuq qış, quru və isti yay xarakterikdir. Dağlıq zonada (2500-3000 m), xüsusi ilə Batabat yaylağında kifayət qədər yağmurlu, soyuq qış və sərin yay hökm sürməkdədir.

Bundan əlavə, günəşli saatların çoxluğu nəticəsində ərazidə ümumi radiasiyanın miqdarı böyükdür. Bu da təbii bir haldır ki, məşğulluğun səmərəliliyini təmin edən amillər və meyarlar içərisində məhz günəş radiasiyalarını da qeyd etmək olar.

Naxçıvan Muxtar Respublikasının əhalisinin məşğulluq probleminin səmərəli həll edilməsi istiqamətində torpaq amilinin də özünəməxsus rolu vardır. Elə məhz bu amilin zəruriliyini nəzərə alaraq MR üzrə bəzi ərazilərin torpaqlarından və onların MR-in ümumi ərazisindəki xüsusi çəkisindən bəhs etmək istərdik.

Qeyd edək ki, Naxçıvan MR-in qədimdən bəri suvarılan, becərilən torpaqları əsasən Arazboyu düzənlik sahələridir. Məhz bu baxımdan da MR-də əsas əkinçilik bölgəsi elə bu sahədir. Burada onu göstərək ki, Naxçıvan Muxtar Respublikasının ərazisinin 32,1 faizini təşkil edən Arazboyu düzənlik zonaya Babək və Şərur rayonları ərazisinin bir hissəsi, Ordubad və Culfa rayonlarının cənub-qərb və qərb hissələri daxil olmaqla, 172,2 min hektarlıq torpaq sahəsi aiddir. Müvafiq hesablamalar apararkən aydın olur ki, bu sahədə təqribən 31129 nəfər əhali çalışmaqdadır. Bu ərazilərdə və çay vadilərində əsasən əkinçilik inkişaf edib. Ancaq dağlıq zonada isə heyvandarlıq özünü göstərmişdir. Onu göstərək ki, elə məhz əkin sahələrinin 90%-dən çoxu Arazboyu düzənliyinin payına düşür. Naxçıvan MR ərazisinin 29,8%-ni təşkil edən Alçaq dağlıq qurşağa 159,8 min hektarlıq torpaq sahəsi, MR ərazisinin 28,4%-ni təşkil edən Orta dağlıq qurşağa 152,3 min hektarlıq torpaq sahəsi və MR ərazisinin 9,7%-ni təşkil edən Yüksək dağlıq qurşağa isə 52 min hektarlıq torpaq sahəsi düşür (1).

Hesab edirik ki, ərazidə mövcud olan hər iki amil burada əhalinin məşğulluq probleminin həllində bir-birini tamamlamaqla, bir-biri ilə qarşılıqlı əlaqədə olmaqla özünəməxsus rola malikdir. Regionda dağlıq və düzənlik sahələrdə geniş miqyasda əlverişli məşğulluq imkanları vardır. Yuxarıda vurğuladıqlarımıza əlavə olaraq və aqrar sahədə əlverişli məşğulluq potensialının mövcud olmasının coğrafi amillərlə qarşılıqlı vəhdət təşkil etməsini və buna görə də iqtisadi fəaliyyətin səmərəlilik xarakteristikasını aşağıdakı cədvəl vasitəsi ilə (cədvəl 2) göstərmək olar:

Cədvəl 2

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı sahələrinin ərazi üzrə səciyyəsi

S. №	Yüksəklik qurşaqları	Sahəsi (km^2-lə)	Xüsusi çəkisi(faizlə)	Təsərrüfat sahələrinin yerləşdirilməsininqiymətləndirilməsi
1	Arazboyu düzənlik qurşaq (600-1000-1200 m)	1720	32,1	Tütün, bostan-tərəvəz, meyvə, üzüm, taxıl və yem bitkilərinin yetişdirilməsi üçün əlverişlidir.
2	Alçaq dağlıq qurşaq (1200-1800 m)	1600	29,8	Tütün, meyvə, üzüm, tərəvəz, taxıl bitkilərinin və arıçılığın inkişafı üçün əlverişlidir.
3	Orta dağlıq qurşaq (1800-2500 m)	1523	28,4	Bağçılığın, ətlik-südlük heyvandarlığın və yem bitkilərinin yetişdirilməsi üçün əlverişlidir.
4	Yüksək dağlıq qurşaq (2500-3000 m və ondan yüksək sahələr)	523	9,7	Heyvandarlıqda yay otlaqlarının təmayülü kimi istifadəyə əlverişlidir.

Qeyd: Cədvəl Naxçıvan MR Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Nəzərə alsaq ki, sözü gedən ərazinin əksər hissəsi (üçdə ikisi) dağlıq sahələrdən və aqrar potensialı çox olan düzənliklərdən ibarətdir, onda buradakı məşğulluq imkanları özünü daha qabarıq, daha əhatəli şəkildə göstərər. Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikasının mülkiyyət növləri üzrə ümumi torpaq sahəsi haqqında son məlumatı aşağıdakı cədvəl vasitəsi ilə göstərə bilərik:

Fikrimizcə, Naxçıvan MR-də aqrar sahədə əhalinin məşğulluq imkanlarının səmərəli şəkildə təmin olunması üçün aşağıdakı istiqamətlərdə əməli işlər həyata keçirilməlidir:

1) kənd yerlərində infrastruktur tədbirlərinin geniş vüsət almasına diqqətlə yanaşmaq: suvarma potensialının təkmilləşdirilməsi, maddi texniki təminatın yaxşılaşdırılması və s;

2) insanların malik olduqları torpaqların təbii fəlakətlərdən qorunması üçün operativ tədbirlərin həyata keçirilməsi.

Cədvəl 3

Naxçıvan MR-in inzibati ərazilərində torpaq sahəsinin mülkiyyət növləri üzrə quruluşu

S. №	Rayonlar	Dövlət	Bələdiyyə	Xüsusi (özəl)	Cəmi
1	Şərur rayonu	43156	27760	14284	85200
2	Babək rayonu	40765	38957	13771	93493
3	Ordubad rayonu	24517	64059	4426	93002
4	Kəngərli rayonu	18109	40507	6912	65528
5	Culfa rayonu	18086	73202	8119	99407
6	Şahbuz rayonu	21930	54236	4822	80988
7	Sədərək rayonu	10439	1439	3256	15134
8	Naxçıvan şəhəri	799	2053	696	3548
9	Naxçıvan MR	177801	302213	56286	536300

Mənbə: Naxçıvan MR Dövlət Statistika Komitəsi

Bunu ona görə qeyd edirik ki, elə hallar olur ki, çay kənarlarında yerləşən torpaq sahələri su səviyyəsinin qalxması, çay kənarının aşınması (sellər, uçqunlar və digər hadisələr də aid olmaqla) nəticəsində yox olur. Təbiidir ki, bu da öz növbəsində insanların məşğulluq imkanlarının məhdudlaşmasına gətirib çıxara bilir. Çox vaxt çaylara gələn sellər çayın istiqamətini dəyişərək ot sahələrinin və digər həyətyanı ərazilərin zay olmasına şərait yaradır. Buna görə də müvafiq texnikalardan istifadə etməklə çayların əvvəlki və ya mümkün istiqamətini bərpa etməklə sözü gedən məsələnin həll edilməsi zəruridir;

3) kəndlinin istehsal etdiyi məhsulun təhvil verilməsini təmin etmək üçün müvafiq alış məntəqələrinin zəruriliyi də diqqəti cəlb edir. Belə olarsa, onda kənd təsərrüfatı məhsullarının artım tempi də öz yüksək səviyyəsini daim saxlayacaq. Məsələn: regionun torpaq və iqlim şəraitini nəzərə alaraq burada üzümçülüyün inkişafını məhz bu yolla təmin etmək mümkün ola bilər. Bunu digər məhsullar üçün də aid etmək olar.

Qeyd etdiyimiz kimi, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Aşağıdakı cədvələ diqqət edərkən görürük ki, MR-in kənd təsərrüfatına yararlı olan 175,3 min hektar torpaq sahəsi vardır. Bu rəqəm ümumi torpaq sahəsinin 32,7%-ni təşkil edir. Kənd təsərrüfatına yararlı torpaqların (01.01.2010-cu il tarixə) 59,2 min hektarı və ya 33,8%-ni əkinlər, 5,6 min hektarını və ya 3,2%-ni çoxillik əkmələr, 107,1 min hektarını və ya 61,1%-ni otlaqlar, 3,4 min hektarını və ya 1,9%-ni biçənəklər, 0,029 min hektarını və ya 0,02%-ni isə dincə qoyulmuş sahələr təşkil edir (1).

Cədvəldən göründüyü kimi, son illərdə muxtar respublikanın ümumi torpaq fondunda əkin üçün yararlı olan torpaq sahələrinin və eləcə də əkin sahələrinin xüsusi çəkisi yüksəlməyə doğru davam edir. Bu da məşğulluq potensialının gücləndirilməsi üçün müəyyən əhəmiyyət kəsb edir.

Cədvəl 4

Naxçıvan MR-də mövcud torpaq sahəsi və onun bölgüsü (min hektar)

	01.01.1999	01.01.2001	01.01.2003	01.01.2004	01.01.2007	01.01.2010
Ümumi torpaq sahəsi	536,3	536,3	536,3	536,3	536,3	536,3
o cümlədən, kənd təsərrüfatına yararlı torpaq sahəsi ondan:	155,6	157,2	172,5	162,4	175,3	175,3
-əkin yeri						
-çoxillik əkmələr	26,6	29,5	42,2	36,3	49,3	59,2
-dincə qoyulmuş	2,8	11,1	6,6	0,7	5,2	5,6
sahələr	21,6	0,8	7,1	5,8	3,0	0,029
-otlaqlar	100,6	112,4	113,2	116,3	114,4	107,1
-biçənəklər	4,0	3,4	3,4	3,3	3,4	3,4
Meşələr	2,5	2,2	2,4	2,7	2,6	2,7

Mənbə: Naxçıvan MR Dövlət Statistika Komitəsi

Ümumiyyətlə, Naxçıvan MR-in son illərdə keçdiyi iqtisadi yüksəliş proseslərinə nəzər salarkən bir daha aydın olur ki, burada həyata keçirilən bütün tədbirlər məqsədyönlülük və səmərəlilik prinsiplərinə söykənir və buna görə də əldə olunan uğurlu nəticələr milli iqtisadi inkişafa mühüm dəstək olmaqdadır.

ƏDƏBİYYAT

1. Naxçıvan MR Dövlət Statistika Komitəsinin cari məlumatları
2. Şirəliyev A.İ. İqtisadi nəzəriyyə. Bakı: Elm 2004, 420 s.
3. İqtisadi nəzəriyyə. T.S.Vəliyev, Ə.P.Babayev, M.X. Meybullayev redaktəsi ilə. Bakı: Çaşıoğlu, 1999, 684 s.

Джавадхан Гасымов

НЕКОТОРЫЕ ОСОБЕННОСТИ ЗАНЯТОСТИ В АГРАРНОМ СЕКТОРЕ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

В статье обсуждаются систематические меры по проблемам обеспечения, относящиеся к аграрной области занятости населения Азербайджанской Республики. Обсуждаются всесторонние проблемы в аграрной области, проблемы трудящихся в результате целесообразной политики в каждом регионе, точнее в НАР. Здесь отражается задача обеспечения занятости населения в аграрной области.

Javadhan Kasimov

SOME FEATURES OF THE EMPLOYMENT IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC IN THE AGRARIAN SECTOR

In the article it is dealt with taking measure connected maintenance issues of employment problem of population in the agrarian field in the Azerbaijan Republic systematically. The results of driving policy in all country including Nakhchivan Autonomous Republic are analised. In the article the stimulation issues of security of population employment is also reflected.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

DAVUD NASİRİ
AMEA Naxçıvan Bölməsi

BÖYÜK AZƏRBAYCANDA AZAD İQTİSADİ ZONALARIN YARADILMASI VƏ SƏRHƏDYANI TİCARƏTİN PERSPEKTİVLƏRİ

(Redaksiya heyətinin üzvü, prof. A.İ.Şirəliyev tərəfindən təqdim edilmişdir)

Müasir mərhələdə dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında da bazar münasibətlərinin dərinləşməsi, biznes fəaliyyətinin genişlənməsi istiqamətində Azad İqtisadi Zonaların - ələlxüsus sərhədyanı ticarət zonalarının yaradılmasının mühüm iqtisadi önəmi vardır. Azad iqtisadi zonaların yaradılması ideyası və təşəbbüsləri respublikanın ilk müstəqillik illərində israrlı konteksdə quruculuq zirvəsinə irəliləmişdi. Lakin bu mühüm sistemə keçiddə aşkarlanan müəyyən təcrübə kasadlığı, hazırsızlıq meylinin mövcudluğu və başlıca olaraq iqtisadi inkişafın artım templərinin məhdudluğu müvafiq zonaların təşəkkülünü bir qədər ləngitmişdir. Bu gün ölkədə yenə də Azad İqtisadi Zonaların yaradılması məsələsi daha aktual xarakter almışdır.

Son illər AİZ-in inkişafı dünya iqtisadiyyatında nəzərə çarpan hadisələrdən biridir. Bu məsələ MDB ölkə liderlərinin sammitlərində də diqqət mərkəzində olmuş, nəticədə Azad İqtisadi Zonaların formalarından biri olan "Azad ticarət zonalarının yaradılması haqqında" saziş imzalanmışdır. Respublikada belə zonaların yaradılması üzrə iş 1994-cü ildə BMT-nin inkişaf proqramı ilə başlanmış, lakin 1999-cu ildə bir sıra səbəblər üzündən dayandırılmışdır. Həmin illərdə Sumqayıt şəhərində AİZ-in yaradılması layihəsinə BMT-nin Azərbaycan Respublikasındakı nümayəndəsi Pablo Lembo başçılıq etmişdir. Sumqayıt şəhərində yaradılması nəzərdə tutulan iqtisadi zona mühüm spesifik xüsusiyyət daşıdığından və respublika Azad İqtisadi Zona quruculuğunun mərkəzi obyektinə çevrildikdən onun səciyyəvi cəhətlərinin araşdırılması məqsədəuyğun olardı. Təəssüflə qeyd olunmalıdır ki, Sumqayıtda yaradılması nəzərdə tutulan Azad iqtisadi zona konsepsiyasının səmərəliliyi kompleks şəkildə tədqiqatdan keçirilməmişdir. BMT-nin Sənaye İnkişafı Təşkilatının (UNİDO) xəttilə Sumqayıt AİZ-nin yaradılması üçün müəyyən tədqiqatlar aparılmışdır. Onun əhəmiyyətini heç də azaltmaq fikrində deyilik. Lakin bu tədqiqatların özündə də müəyyən qaranlıq qalan məqamlar olmuşdur. Müvafiq zonanın adının tez-tez dəyişməsi, onun Sumqayıt ixracat zonası və ya Sumqayıt xüsusi zonası kimi

adlandırılması buna əyani sübutdur. Digər tərəfdən, Sumqayıt Azad İqtisadi Zonasının yaradılmasının ümumi layihəsi və proqramı geniş ictimaiyyətə tam şəkildə çatdırılmamışdır. Sumqayıt Azad iqtisadi zonasının yaradılmasının başlıca vəzifəsi şəhərin əsas aparıcı istehsal sahələrinin dirçəldilməsi və müasir tələblərə cavab verən səviyyəyə çatdırılması, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi, ekoloji mühitin sağlamlaşdırılması, şəhərin elmi-texniki potensialından maksimum istifadə edilməsi problemlərinə yönəlmişdir.

Dünya təcrübəsinə görə AİZ, həmçinin sərhədyanı ticarət yalnız istehlak mallarının müəyyən əraziyə rüsumsuz idxalını deyil, əsasən ölkənin müəyyən ərazisinin iqtisadiyyatını qısa müddətdə canlandıra bilən istehsal sahələrinin dirçəlməsinə kömək edəcək idxalı özündə birləşdirmişdir.

Azərbaycanda azad iqtisadi zonaların müxtəlif formalarını, xüsusən də azad ticarət zonalarını yaradarkən, güzəştli rejimin tətbiqi təkcə ayrı-ayrı müəssisələrə, sahə və ya ərazilərə güzəştlərin verilməsi ilə deyil, əksinə, XXI əsrdə respublikanın texnoloji inkişafını təmin edəcək təsərrüfatlaşmanın yeni formalarının, sənaye istehsalının, xarici iqtisadi əlaqələrin inkişafı məqsədilə onların stimullaşdırılması əsasında həyata keçirilməlidir. Digər strateji istiqamət isə Azərbaycanın nəqliyyat-coğrafi yerləşməsinin üstünlüklərinin və ölkənin liman ərazilərinin potensialının reallaşdırılmasıdır. Bir sıra sərhədyanı rayonlarda azad ticarət zonalarının, azad gömrük zonalarının yaradılması ölkənin dünya təsərrüfatı sisteminə inteqrasiyasını sürətləndirə bilər, həmçinin bu ərazilərə mal və kapital axınını istiqamətləndirər.

Azərbaycanda sərhədyanı ticarət zonalarının yaradılmasının əsas istiqamətlərindən biri belə zonaların Dağıstan Respublikası RF sərhəddində formalaşdırılması və inkişafı hesab edilir. Artıq bunun üçün müəyyən zəminlər də vardır. Belə ki, 2001-ci ildən etibarən Dağıstanda "Dağıstan" azad iqtisadi zonası, həmçinin Rusiyanın cənub bölgələrində "Şimali Qafqaz" assosiasiyası fəaliyyət göstərir. Bu ərazidə azad ticarət zonasının yaradılması sərhədyanı ticarətin artmasına, hər iki ölkənin daxili rayonlarının iqtisadiyyatının canlandırılması və inkişafına yardım edə bilər. Yeni müəssisələrin tikintisi, yeni texnologiyanın və istehsal üsulunun tətbiqi, infrastrukturun yaradılması və möhkəmləndirilməsi, təhsilin səviyyəsinin, əhalinin məşğulluğunun və ixtisasının artırılması yerli əhalinin həyat səviyyəsinin yüksəldilməsinə və regionda sabitliyin yaranmasına gətirib çıxaracaqdır. Azərbaycan hər zaman Rusiya Federasiyası, İİR və Gürcüstan ilə qarşılıqlı fayda əsasında hərtərəfli əlaqələrin inkişaf etdirilməsinə böyük önəm vermişdir. Tarixi sərhədlərə malik olan bu ölkələr arasında iqtisadi, elmi-texniki və mədəni potensialın reallaşdırılması əsas məqsədlərdən hesab edilir. Son zamanlar Azərbaycanın Rusiya,Türkiyyə, İran və Gürcüstan arasında iqtisadi və siyasi əlaqələrin genişləndirilməsi buna sübut ola bilər.

Böyük iqtisadi potensialı olan Rusiya nəhəng daxili bazara malik bir ölkədir. Məhz buna görə ikitərəfli əlaqələrin dərinləşdirilməsi labüddür ki, bu da sonda ticarət-iqtisadi əlaqələrin inkişafında özünü büruzə verəcəkdir. Azərbay-

can və Dağıstan arasında ticari-iqtisadi münasibətlər regional əməkdaşlıqda xüsusi yer tutmalıdır.

İki qonşu ölkə sərhəddində sərhədyanı ticarət zonasının yaradılmasının faydalılığı kimi sərhədyanı rayonlarda və ölkəmnin bəzi şəhərlərində Dağıstan xalqının əsas millətlərindən olan çoxlu sayda ləzgilərin yaşaması faktıdır. Bu cür vəziyyətə Quba, Xaçmaz, Dəvəçi, Nabran, Xudat və s. ərazilərdə rast gəlmək olar. Bunun qarşılığında da Dağıstan tərəfdə azərbaycanlılar yaşamaqdadırlar. Çin kimi ölkənin təcrübəsi göstərir ki, orada azad iqtisadi zonaların inkişafında başlıca rolu çin milliyətinə mənsub investorlar və onların kapitalı oynamışdır. Digər tərəfdən isə yaddan çıxarmaq olmaz ki, həm Dağıstanda, həm Azərbaycan Respublikasında əhalinin çoxu islam dininə sitayiş edir ki, bu da inteqrasiya faktorlarından biridir. Digər amillərə isə, tarixi adətləri, mədəniyyəti göstərmək olar. Bundan başqa qeyd etmək lazımdır ki, rus-azərbaycan ticari-iqtisadi münasibətlərinin, daşımaların əsas hissəsi Dağıstan ərazisindən həyata keçirilir, beynəlxalq əhəmiyyətli avtomobil və dəmir yollarından istifadə edilir, Bakı-Novorossiysk kəməri ilə neftin tranziti həyata keçirilir. Beləliklə, Azərbaycanla Dağıstan sərhəddində sərhədyanı ticarət zonasının yaradılması böyük əhəmiyyət kəsb edə bilər.

Sərhədyanı ticarət zonasının yaradılması Naxçıvan MR ilə Türkiyə Respublikası sərhəddində də baş tuta bilər. Muxtar respublikanın Ermənistan tərəfindən blokada şəraitində saxlanması, daim müharibə təhlükəsi, ölkənin əsas ərazisindən təcrid edilməsi burada güclü iqtisadiyyatın yaradılmasını və muxtar respublikanın müdafiə qabiliyyətinin artırılması qaçılmazdır. Naxçıvanda bazar iqtisadiyyatı prinsiplərinin bərqarar olması, təsərrüfat həyatının canlanması sərhədyanı ticarətin və Azad İqtisadi Zonaların yaradılması ilə həyata keçə bilər. Muxtar respublika ərazisində mərmər, duz, dolomit, tikinti materialları, mineral sular ehtiyatlarının zənginliyi iqtisadiyyatın inkişafında böyük rol oynaya bilər. Bu əraziyə investisiyaların axınını isə azad iqtisadi zonaların yaradılması ilə cəlb etmək olar. Naxçıvan iqtisadiyyatının və əhalisinin ağır vəziyyəti fonunda AİZ-in yaradılma məqsədlərindən biri kimi daxili bazarın yüksək keyfiyyətli məhsullarla doldurulmasını nəzərə alaraq, bu sahədə ilk növbədə Azərbaycanın Dövlət Neft Fondunun ehtiyatlarından istifadə etmək mümkündür. Həmçinin bu ərazinin yüksək səviyyədə idarə edilməsi, zonanın inkişaf etdirilməsi üçün səhmdar cəmiyyətin təşkili də fayda verə bilər. Bu zaman əhalinin pul vəsaitlərinin neft kontraktlarından fərqli olaraq uzunmüddətli layihələrdə iştirakı təmin edilə bilər. Bundan başqa, ölkənin bu ərazisində AİZ-in yaradılması üçün böyük imkanlar vardır: investisiya mühiti, istismara verilmiş yeni beynəlxalq aeroport, elm, mədəniyyət, sənayenin inkişafına təkan verəcək digər imkanlar və s.

Azərbaycanın İran İslam Respublikası ilə uzun sərhədə malik olması, bu ölkələr arasındakı əhalinin dil, din və mədəniyyət baxımından yaxınlığı nəzərə alınaraq sərhədyanı ticarət zonalarının yaradılması məqsədəuyğun olardı.

Bildiyimiz kimi, sərhədyanı ticarət – həmsərhəd dövlətlərin sərhədyanı rayonlarında yerləşən müəssisələr və həmin rayonlarda yaşayan fiziki şəxslər arasında əmtəə mübadiləsidir. Ölkə qanunvericiliyinə əsasən sərhədyanı ticarət bu ölkənin hüquqi şəxslər ilə sərhədyanı ərazidə daimi yaşayış yeri olan fiziki şəxslər arasında, xarici hüquqi şəxslərlə bu ölkənin həmsərhəd dövlətlərlə beynəlxalq müqavilələrində müəyyən edilən müvafiq sərhədyanı ərazidə daimi yaşayış yeri olan fiziki şəxslər arasında aparıla bilər. Sərhədyanı ticarət obyekti sərhədyanı ərazi hüdudlarında istehsal edilən, yalnız yerli ehtiyacların təmin edilməsi üçün nəzərdə tutulan və sərhədyanı ərazi hüdudlarında istehlak edilən mallardır. Sərhədyanı ticarət çərçivəsində malgöndərmələrin əsasını yerli ixrac resursları, bazar fondları, yerli istehsal malları və xidmətləri təşkil edir. Sərhədyanı ticarət qarşılıqlı sərfəli əmtəə mübadiləsinin, firmalararası əməkdaşlığın, kooperasiya əlaqələrinin, istehsalat təcrübəsi mübadiləsinin müxtəlif formalarının inkişafına şərait yaradır. Sərhədyanı ticarətin inkişafı qonşu ölkələr arasında ziddiyyətlərin kəskinləşməsini və münaqişələr yaranmasını istisna edən münasibətlərin möhkəmlənməsi üçün də böyük əhəmiyyət kəsb edir.

Fikrimizcə sərhədyanı ticarətin yaradılması və genişləndirilməsi hər iki ölkənin maraqları baxımından sərfəlidir. Bu gün sərhədyanı əməkdaşlıq konsepsiyasının təkmilləşdirilməsi, orta və uzunmüddətli proqnozlar əsasında sərhədyanı regionların ticarət və iqtisadi əməkdaşlığının inkişaf etdirilməsini həyata keçirmək məsələləri xüsusi əhəmiyyət daşıyır. Bu məsələlərin həlli yerli istehsal mallarının artırılmasına, sərfəli əmtəə mübadiləsinə gətirib çıxarar və ən əsası isə sərhəd bölgələrində məşğulluğun təmin olunmasına müsbət təsir göstərər.

Təhlillər göstərir ki, Azərbaycanın iqtisadi inkişafında sərhədyanı ticarətin və Azad İqtisadi zonaların əhəmiyyətli payı ola bilər. Belə ki, Azərbaycan bu sahədə işlək mexanizm hazırlamalı, qonşular – Rusiya, İran və Gürcüstanla münasibətləri qarşılıqlı maraqlar çərçivəsində qurmalıdır.

ƏDƏBİYYAT

1. Heydərov K. Gömrük işinin əsasları. Bakı: 2004.
2. Avropa Yenidənqurma və İnkişaf Bankının Sənədi "Azərbaycan üzrə ölkə strategiyası". 18 sentyabr 2007-ci il tarixində Direktorlar Şurası tərəfindən təsdiq edilmişdir.
3. Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya / İqtisadiyyat və beynəlxalq münasibətlər üzrə II beynəlxalq konfransın materialları. Bakı: Qafqaz Universiteti, 2007.
4. "Xarici investisiyanın qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 15 yanvar 1992-ci il.
5. "Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 16

iyun 2007-ci il.
6. Azərbaycan Respublikası Prezidentinin 6 mart 2007-ci il tarixli "Xüsusi iqtisadi zonaların yaradılması haqqında" Aktı. Bakı, 2007.
7. Ломакин В.К. Мировая экономика. М.: ЮНИТИ, 2003.

Давуд Насири

СОЗДАНИЕ СВОБОДНЫХ ЭКОНОМИЧЕСКИХ ЗОН В АЗЕРБАЙДЖАНЕ И ПРИГРАНИЧНАЯ ТОРГОВЛЯ

Статья посвящена вопросам свободных экономических зон в Азербайджане и перспективы приграничной торговли на материале Азербайджана в условиях расширения экономической интеграции между странами на современном этапе. В ней констатируется, что формирование и функционирование свободных экономических зон и приграничная торговля создают благоприятную среду с точки зрения интересов между экономическими субъектами, что способствует дальнейшему ускорению этих связей. В статье проанализированы достигнутые успехи и выявлен потенциал Азербайджанской Республики в этой области.

Dawood Nasiri

THE CREATION OF FREE ECONOMIC ZONES AND PERSPECTIVES OF BORDERING TRADE IN GREAT AZERBAIJAN

The article "The creation of Free Economic Zones and perspectives of bordering trade in Great Azerbaijan" is about the importance of economic intergation among countries. The creation fact of Free Economic Zones and bordering trade forms fruitful surroundings among economic subjects and serves the development of economic relations. In this article the achievements in this field have been analysed and today's opportunities of the Azerbaijan Republic have been evaluated.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

NURİYYƏ İBRAHİMOVA
Naxçıvan Dövlət Universiteti

REGİONLARDA AQRAR İSTEHSALIN DAYANIQLI İNKİŞAFININ VƏ İSTEHSAL-İQTİSADİ ƏLAQƏLƏRİN QURULMASININ OBYEKTİV ZƏRURİLİYİ

(Redaksiya heyətinin üzvü, i.e.d., prof. A.İ.Şirəliyev tərəfindən təqdim edilmişdir)

Məlumdur ki, kənd təsərrüfatı və bütövlükdə aqrar sahə ölkə iqtisadiyyatının formalaşdırılması və dayanıqlı inkişafında önəmli yerə və rola malikdir. Tarixi təcrübə göstərir ki, bu sahədə baş verən hər hansı destruktiv tendensiyalar son nəticədə cəmiyyət üzvlərinin kənd təsərrüfatı və ərzaq məhsullarına, iqtisadi sahələrin isə xammala olan tələbatının ödənilməsində problemlər yaradır.

Son dövrlərdə sənaye sahələrinin yüksək inkişafı nəticəsində aqrar sahə iqtisadiyyatın geridə qalmış sahələrindən birinə çevrilmiş, bu isə nəticə etibarilə kənd yerlərinin sosial-iqtisadi inkişaf səviyyəsinin aşağı düşməsinə gətirib çıxarmışdır. Lakin, elmi-texniki tərəqqinin bütün sahələrdə olduğu kimi, aqrar sahədə istehsalın sənayeləşməsinə və əmək məhsuldarlığının yüksəlməsinə səbəb olması danılmazdır. Ümumiyyətlə, aqrar sferanın ölkənin milli təhlükəsizliyinin təmin edilməsindəki rolu aşağıdakı formalarla şərtləndirilir:

- sənayenin xammalla təmin edilməsi;
- ölkə əhalisinin kənd təsərrüfatı və ərzaq məhsullarına olan ehtiyaclarının ödənilməsi;
- kənd yerlərində yaşayan əhalinin gəlirlərinin artırılması, onların həyat səviyyəsinin yaxşılaşdırılması və səmərəli məşğulluğunun təmin edilməsi;
- ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi, əhalinin yerli istehsal hesabına kənd təsərrüfatı məhsulları ilə ərzaq təminatının yaxşılaşdırılması;
- respublikanın milli aqrar iqtisadiyyatının təşəkkülü və onun sahə strukturunun təkmilləşdirilməsi;
- yüngül sənayenin, həmçinin yeyinti və emal sənaye sahələrinin formalaşması və inkişafı;
- ölkənin təbii-istehsal resurslarından səmərəli istifadə edilməsi;
- kəndin sosial inkişafının təmin edilməsi və s.

Başqa sözlə isə,

"- aqrar sahənin bazar iqtisadi münasibətlərinə uyğun qanunvericilik ba-

zası yaradılmışdır; İstehsalın stimullaşdırılması və daxili bazarın qorunması istiqamətində əsaslı tədbirlər həyata keçirilir;

- aqrar sahədə bazar iqtisadiyyatına keçid şəraitində özəl mülkiyyətçilər ordusunun yaradılması, yəni sahibkarlıq qurumlarının formalaşdırılması müvəffəqiyyətlə həyata keçirilir;
- bazarın tələbi əsasında istehsalın yeni strukturu təkmilləşir;
- iqtisadi böhranın qarşısı alınmışdır; 1996-cı ildən başlayaraq kənd təsərrüfatı məhsulları istehsalında yüksək artım tempi əldə olunur;
- mülkiyyətçilərin yeni vərdiş və biliklərin öyrənilməsinə və müasir texnologiyaların tətbiqinə istiqamətlənmiş təbəqəsi genişlənməkdədir;
- daxili bazarda yerli istehsalın xüsusi çəkisi artmaqdadır;
- aqrar sahənin ixrac potensialı ilbəil yüksəlir" (5, s. 6-7).

Akademik Z.Səmədzadəyə görə isə "makroiqtisadi səviyyədə əldə edilmiş inkişafa yönümlü sabitlik regionlar və müəssisələr səviyyəsində iqtisadi fəallığı nəzərdə tutur. İqtisadi sistemin müxtəlif səviyyələrinin inkişafının xarakteri, tempi və miqyasında bir-birini üzvi vəhdətdə tamamlayan meyllərin mövcudluğu, regionların inkişafı prioritetlərini, imkanların reallaşdırılması dərəcəsini qiy-mətləndirməyi tələb edir" (7, s. 17).

Aqrar sahənin inkişafı yerli kənd təsərrüfatı məhsulları istehsalçıları üçün xüsusilə mühüm önəm daşıyır. Bu sahənin yerli əmtəə istehsalçıları üçün əhəmiyyəti – kənd təsərrüfatı və ərzaq məhsullarının insanların maddi tələbatlarını ödəməsi, habelə kənddə yaşayan əhalinin özü üçün kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı və adekvat gəlir əldə etmələri, kənd yaşayış məntəqələrindən miqrasiyanın qarşısının alınması, sahibkarlığın və təşəbbüskarlığın inkişaf etdirilməsi milli aqrar bazarda azad rəqabət mühitinin formalaşdırılması ilə şərtlənir (6, s. 82-89). Aqrar sahənin inkişafının istehlakçıların sosial vəziyyətində oynadığı rol keyfiyyətli kənd təsərrüfatı məhsullarına olan ehtiyacların ödənilməsi, sərfəli qiymətə qida məhsullarının əldə edilməsi, keyfiyyətsiz ərzaq idxalının azaldılması və ya qarşısının alınması, daxili bazarın qorunması, qiymətlərin stabilliyinin təmin edilməsi ilə şərtlənir.

Ümumiyyətlə, kənd təsərrüfatında fəaliyyət amilləri iki qrupa bölünür: təbii və sosial-iqtisadi amillər. Bütün təsərrüfat prosesləri bu qruplara daxil olan amillərlə qarşılıqlı əlaqəli şəkildə həyata keçirilir. Təbii amillər torpaq, bitki, heyvan və təbii-iqlim şəraiti aiddir. Sosial-iqtisadi amillər isə idarəetmədən, istehsalın və əməyin təşkilindən, təsərrüfatçılıq elementlərindən, maşın, traktor və texnoloji sistemdən ibarətdir. Əmtəə istehsalçıları üçün bu amillərin qarşılıqlı əlaqəsini və yerini müəyyən etmək olduqca vacibdir.

Təcrübədə sübut olunmuşdur ki, aqrar sahədə təbii amillərin faydalılığı ilk növbədə idarəetmə – təşkil – texnologiya ardıcıllığı ilə işləyən və torpaq – bitki – heyvan ardıcıllığı ilə biri-birinə təsir edən sosial-iqtisadi amillərin səmərəliliyindən və əsaslandırılmasından asılıdır. İdarəetmə əsas amildir və onun əsas vəzifəsi istehsalı və texnologiyanı səmərəli təşkil etməkdən, səmərəli təşkilatçılıq

mexanizmini yaratmaqdan ibarətdir. Bu vəzifələr yerinə yetirilmədikdə idarəetmə, yaxud idarəedici aparat dəyişdirilir. İstehsal və bütövlükdə təsərrüfatçılıq mexanizmini təşkil etmək məqsəd deyil, onlar texnologiyanın nəticələrinə xidmət edir, öz təyinatına uyğun olmadıqda isə səmərəli nəticə vermir, onlar mənasızlaşır və deməli, dəyişdirilməlidir.

Təbii amillərə – torpaq, bitki və heyvanlara texnologiya birbaşa təsir edir və həmin amillər üçün optimal şərait yaradır. Texnologiya da həlledici amildir. Nəzərə alınmalıdır ki, sosial-iqtisadi amillərdən hər hansı birini dəyişdirmək, dəyişik salmaq, yaxud ilahiləşdirmək yolverilməzdir.

Maddi bazanın, iqtisadi mexanizmin, təsərrüfatçılıq və mülkiyyətçilik formalarının əlverişli şəkildə uzlaşdırılması təsərrüfatçılıq aləmində olduqca vacib məsələdir. Maddi baza təbii amillərə birbaşa təsir edir. Maddi baza texnologiya vasitəsilə təbii amillər üçün optimal şərait yaradır. İqtisadi mexanizm (qiymət, vergi, gömrük, kredit, məqsədli investisiya) texnologiya və maddi baza yaratmaq üçün vəsait rolunu oynayır. Mülkiyyət və təsərrüfatçılıq formaları da öz növbəsində səmərəli mexanizm yaratmaq işinə xidmət edir. Mülkiyyətçilik forması, təsərrüfatçılıq forması və iqtisadi mexanizm yalnız möhkəm maddi baza olan şəraitdə səmərə verir. Digər tərəfdən də maddi baza və səmərəli texnologiya iqtisadi mexanizmin təsərrüfatçılıq və mülkiyyət formalarının fəal təsiri altında formalaşdıqda daha faydalı olur.

Bazar iqtisadiyyatı şəraitində təsərrüfatçılıq fəaliyyəti maddi bazaya, iqtisadi bazar mexanizminə və intellektual təminata əsaslanır. İqtisadi mexanizm isə göstəriş, yaxud seçmə qaydası ilə işləmir. O da faktiki olaraq hamı üçün eynidir. Fəaliyyətin intellektual təminatı müvəffəqiyyət qazanmağın bünövrəsini təşkil edir.

Təsərrüfatçılıq üçün zəruri olan şərait geniş formada istehsal vasitələrindən, texnologiyadan, iqtisadi mexanizmdən, istehsal-idarə heyətindən və hüquqi tənzimləmədən asılıdır. Əlbəttə, bütün bu imkanlar yüksək nəticəliliyi yalnız kompleks halında olduqda təmin edir. Lakin fakt budur ki, ölkədə ərzaq problemi uzun müddət idarəedici amillərdən istifadə edilməklə demək olar ki, həll olunmuşdur. Məsələn, gah torpaq üzərində xüsusi mülkiyyət tətbiq edilmiş, gah kollektivləşmə həyata keçirilmiş, gah da kimyalaşdırma və meliorasiya tətbiq olunmuş, təsərrüfatlararası kooperasiya və inteqrasiya inkişaf etdirilmiş, gah da briqada podratı və icarə sistemi genişləndirilmişdir. İndi torpaq və istehsal vasitələri üzərində xüsusi mülkiyyət yenidən bərpa edilir.

Resurs təminatı, maliyyələşdirmə, qiymət, vergi, elmi-informasiya təminatı – aqrar təsərrüfatçılıqda həlledici amillərdir (2, s. 208-235). Bu amillərdən hələlik mükəmməl istifadə olunmur. Nəzərə alınmalıdır ki, ərzaq problemi insanlar tərəfindən yaradılır və obyektiv olaraq fəaliyyət göstərən üç şərt vasitəsilə həll edilir:

Birinci şərt – güclü maddi baza olmadan ölkənin daxili tələbatını tam təmin etmək üçün kənd təsərrüfatı və ərzaq məhsulları istehsal etmək mümkün

deyil.

İkinci şərt – yüksək səmərəli iqtisadi mexanizm olmadan tələb olunan miqdarda məhsuldar adamları kənd təsərrüfatı istehsalına cəlb etmək mümkün deyil.

Üçüncü şərt – müasir mərhələdə müxtəlif mülkiyyət və təsərrüfat formaları olmadan tələb olunan miqdarda adamları yüksək səmərəli kənd təsərrüfatı istehsalına cəlb etmək mümkün deyil.

Kənd təsərrüfatı istehsalının xarakterik cəhətlərindən biri də, onun mövsümi xarakter daşımasıdır. İstehsalın mövsümi xarakteri əmək və istehsal vasitələrindən istifadə edilməsinə də təsir göstərir, əmək cismi olan torpaq əkildikdə, toxum səpildikdə və məhsul becərildikdə əməyin təsiri altında olur. Qalan vaxtlarda isə istehsal prosesi təbii qüvvələrin təsiri ilə baş verir. Kənd təsərrüfatında maşın və mexanizmlərdən istifadə mövsümi xarakter daşıyır. Məsələn, toxumsəpən maşınlardan 7-10 gün, taxılyığan kombaynlardan 9-15 gün istifadə edilir.

Kənd təsərrüfatı istehsalının mövsümi xarakteri məhsuldarlığa və qiymətlərə də müəyyən təsir göstərir (1, s. 81). Məsələn, yaz və yay aylarında tərəvəz məhsulları, payız aylarında meyvə nisbətən ucuz olur; qış aylarında tərəvəzin istehsalı daha çox xərc tələb edir və səmərəlilik nisbətən aşağı olur.

Kənd təsərrüfatı istehsalının xarakterik xüsusiyyətlərindən biri də, bir sahənin tullantısından digər sahədə istifadə edilməsidir. Bitkiçilik sahəsinin qalığı olan küləş və s. heyvandarlıq sahəsində yem kimi heyvandarlığın tullantısı olan peyindən isə əkinçilikdə gübrə kimi istifadə olunur. Kənd təsərrüfatının müxtəlif sahələri arasında olan bu qarşılıqlı əlaqəni təbiətin bərqərar etdiyi tullantısız texnologiya adlandırmaq olar. Bu texnologiyadan elmi cəhətdən əsaslandırılmış qaydada istifadə edilməsi kənd təsərrüfatı istehsalının səmərəliliyini xeyli yüksəltməyə imkan yaradır.

Yeni iqtisadi münasibətlər şəraitində aqrar sahənin formalaşması və onun keyfiyyətcə yeni mərhələyə daxil olması – iqtisadiyyatda bu sahənin mütərəqqi texnologiyalarla silahlanmasını və məhsuldarlığın səviyyəsinin yüksəlməsini zəruri etmişdir. Sözün geniş mənasında, aqrar sahə məhsul istehsalı, onun emalı, saxlanılması və istehlakçılara çatdırılmasına qədər bütün proseslərin məcmusunu özündə əks etdirir. Problemə məhz bu aspektdən yanaşdıqda aqrar iqtisadiyyat anlayışının daha geniş məna daşıması qənaətinə gəlmək olar.

ƏDƏBİYYAT

1. Abbasov Q.H., Həsənov M.Q. Aqrar bazar və onun iqtisadi mexanizmi. Bakı: Elm, 2002, 112 s.
2. Alıyev İ.H. Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi. Bakı: Elm, 2003, 315 s.
3. Aqrar islahatların nəticələri və dayanıqlı inkişaf problemləri. Respublika elmi-praktik konfransının materialları. Bakı: Az.ETKTİ və Tİ-nun mətbəəsi,

2006, 319 s.
4. Əhmədov N.H. “Regional ərzaq bazarı və onun formalaşması istiqamətləri”. Bakı: Elm, 2005, 160 s.
5. Əliyev F.C. Ev təsərrüfatı gəlirləri, həyat səviyyəsi və yoxsulluq. Bakı: Elm, 2000, 192 s.
6. Xəlilov H.A. Aqrar iqtisadiyyatda sistem transformasiyaları və modernləş-dirmə şəraiti. Bakı: Elm, 2005, 228 s.
7. Səmədzadə Z.Ə. Dünya iqtisadiyyatı: Çin iqtisadi mövcüzəsi. Bakı: Elm, 2001, 317 s.

Нурия Ибрагимова

ОБЪЕКТИВНАЯ НЕОБХОДИМОСТЬ УСТРОЙСТВА ПРОИЗВОДСТВЕННО-ЭКОНОМИЧЕСКИХ СВЯЗЕЙ И СТОЙКОГО РАЗВИТИЯ АГРАРНОГО ПРОИЗВОДСТВА В РЕГИОНАХ

В статье обсуждается стойкое развитие аграрного производства в регионах, объективная необходимость устройства производственно-экономических связей, установления важной роли сельского хозяйства и аграрного сектора в формировании и стойком развитии экономики страны.

Nuriyya Ibrahimova

STABLE DEVELOPMENT OF THE AGRARIAN PRODUCTION AND OBJECTIVE NECESSITY OF BUILDING OF PRODUCTING ECONOMICAL CONNECTIONS IN THE REGIONS

Stable development of the agrarian production and objective necessity of building of producting economical connections in the regions, forming the important place of agriculture and agrarian area completely are discussed in article.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

TURAL MƏMMƏDOV
Azərbaycan Turizm İnstitutu
E-mail: Tural@mail.ru

KƏND TURİZMİNİN İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

(Redaksiya heyətinin üzvü, i.e.d., prof. A.İ.Şirəliyev tərəfindən təqdim edilmişdir)

Azərbaycanın iqtisadi inkişafı yeni sahələrin inkişafına da şərait yaratmışdır. Bu yeni sahələrdən biri də turizm sahəsidir. Turizm sahəsinin inkişafı üçün Azərbaycanın güclü təbii şəraiti vardır. Bu təbii şəraitlərdən yaxşı istifadə etməklə Azərbaycanda turizmin, xüsusilə də kənd turizminin inkişafına şərait yaratmaq lazımdır. Bunun inkişafı üçün müəyyən ölkələrin təcrübələrindən, xüsusilə də Türkiyənin təcrübəsindən istifadə etmək lazımdır. Kənd turizminin inkişafı üçün əvvəlcə bölgə xalqına turizm şüuru qazandırılması və turistlərə kənd mühitində yerləşmə imkanlarının təqdim edilməsi istiqamətində nümunələr vermək lazımdır. Dünyanın hər yerində turizmin inkişafına dövlətlər və sivilizasiyalar səviyyəsində böyük maraq göstərilir. Elə buna görə də, hazırda beynəlxalq maliyyə qurumları və təşkilatları turizmin inkişafına öz maraq və diqqətlərini artırırlar.

Ölkəmiz zəngin turizm resurslarına malikdir: meşə, dağ, çay, bulaqlar, şəlalələr, dəniz, istisu, müalicə ocaqları, qoruqlar, saysız tarixi yerlər buranı turistlər üçün cəlbedici məkana çevirir. Özünəməxsus adət-ənənələri, kulinariyanın zəngin olması buranı daha cazibədar edir.

Dünya turizm sənayesində kənd əraziləri kənd turizmi möhkəm yer tutmuşdur. İri şəhərlərdən aralanıb sakit yaşıl guşədə istirahət etməklə insanlar fiziki və psixoloji bərpaedici təsirə məruz qalırlar. Kənd yerində istirahət seçiminin motivləri tamam müxtəlif ola bilər (3, s. 163).

Dəbdəbəli kurortlara vəsaitinin olmaması: vəsaitin az və ya çox olmasından asılı olmayaraq təbiətə yaxın olmaq şansı: ekoloji cəhətdən təbii-üzvi ərzaqla qidalanmaq imkanı: kənd təsərrüfatı işlərinə qoşulmaq imkanı, kənd həyatı və adətlərini öyrənmək imkanı və s.

Kənd qonaq evi adətən bir ailəyə məxsus olmaqla, qısamüddət ərzində buraya qonaq gəlmiş istirahətçiyə (turistə) yerləşdirmə, qidalanma, lazım gəldikdə ekskursiya və digər xidmətləri təqdim edən kiçik mehmanxana müəssisəsidir.

Ölkəmizin iri sənaye mərkəzlərindən və xaricdən gələn insanlarla adi kənd evində yaşayıb istirahət etmək arzusu var. Bu növ turistlər kənd həyatını dadmaqla yanaşı müvafiq səviyyədə xidmətin olmasını istəyir. Bizim kənd evlərində isə əksər hallarda bu cür şərait yoxdur.

Azərbaycanda kənd turizmi mövsümi xarakter daşıyır və yalnız yay aylarına təsadüf edir. Kənd turizmi əsasən Nabran zonasında Quba, Şəki, Qax, Şamaxı, Göygöl və digər rayonların istirahət zonalarına yaxın yerlərdə inkişaf etmişdir. Naftalan şəhərində, Qalaaltı, Lənkəran, Masallı istisu sanatoriyalarının yaxınlığında yerləşən kəndlərdə isə müalicəyə gələn insanlar üçün yerləşdirmə və qidalanma xidmətləri təklif olunur. Bu kənd evlərində normal səviyyədə sanatoriya qovşaqları olmur (3, s. 164).

Hər bir regionun iqtisadi durumu onun məhsuldar qüvvələrinin ərazi və sahə quruluşu, yerləşməsi, istifadə dərəcəsi son nəticədə bütün sosial sferanın və onun əsas göstəricisi olan rekreasiya tələbatını, turizm xidmətini müəyyənləşdirir. Azərbaycanda mövcud coğrafi-iqtisadi potensial, transformasiya sürəti və bütövlükdə iqtisadi və təbii əhali artımı turizmin inkişafı üçün bazar xüsusiyyətlərinə uyğun amilləri və nəticələri formalaşdırır. Respublikada əhalinin kənd yerlərində yaşaması, sahibkarlığın kənd yerlərində inkişafa zəruriyyəti turizm yolu ilə mümkünlüyü onun əsas obyektivliyini təmin edir. Regionların kompleks inkişafına turizmin təsiri qarşılıqlı əlaqədə həll edilir. Turizmin sahələrinin seçilməsi hər bir bölgə üçün potensiala uyğunlaşdırılır. Hansı turizm növünün səmərəliliyi çox meyarlı fəaliyyət və proqnozlara görə müəyyənləşir. Belə proqnozlardan ən mühümü sosial meyarlardır (1, s. 46).

Ancaq buna baxmayaraq bu gün Azərbaycanın turizm üçün əlverişli coğrafi şəraiti, müxtəlif iqlim qurşaqlarının, zəngin heyvanat aləminin, dənizinin və dənizsahili qumluqların, qədim mədəni tarixi irsin, milli ənənələrin, zəngin milli mətbəxin olması diqqəti cəlb edən amillərdir. “Böyük İpək Yolu”nun Azərbaycan ərazisindən keçməsi ölkəmizin dünyaya inteqrasiya olunmasına təkan verir. Ümumiyyətlə, Çindən gəlib Azərbaycan ərazisindən keçən “Böyük İpək Yolu”nun (e. ə. II əsrdə kəşf olunub) yenidən bərpası başqa ölkələrin də beynəlxalq turizm bazarında iştirak etməsinə əlverişli şərait yaradır. Ümumdünya Turizm təşkilatı da bu gün “Böyük İpək Yolu”nun bərpasına xüsusi maraq göstərir. Bu təşkilat Ukraynanın Sudak şəhərində “Böyük İpək Yolu ilə Krım 2003” adlı beynəlxalq forum keçirmiş, bu məsələni reallaşdırmaq və onun həllini sürətləndirmək üçün hələ 1991-ci ildə Xivədə, 1994-cü ildə Səmərqənddə, 2002-ci ildə Buxarada xüsusi bəyannamələr qəbul etmişdir. Həmin təşkilatın səyi nəticəsində “Böyük İpək Yolu”nun turizm layihəsinə 24 dövlət üzv olmuşdur. Sevindirici haldır ki, son illərdə Azərbaycana gələn və Azərbaycandan başqa ölkələrə gedən turistlərin sayı gündən-günə artır. Bu turistlərin də əksəriyyəti kəndlərə üz tuturlar. Bunun inkişafı üçün müəyyən şərait yaradılır.

Burada əsas məsələ turistlərə kənd həyatı yaşatmaqla, şəhər mühitindən uzaqlaşdırmaq və bununla da kənd həyatından, mənzərəsindən, yaşayış tərzin-

dən zövq almasına imkan yaratmaqdır. Kənd həyatında turistlər şəhərin səs-küyündən, şəhər həyatından uzaqlaşaraq kənddə, sakit bir kənd həyatı yaşamaq arzusunu həyata keçirmək istəyidir.

Beləliklə, turistlər 5 ulduzlu otellərdən çıxaraq, kənd həyatı haqqında məlumat sahibi olacaqlar, mədəniyyət və ənənələrimizi tanıma fürsəti tapacaqlar. Təbii gözəlliklərimizin və Azərbaycan qonaqpərvərliyinin ən yaxşı nümunəsi təbii mühitlərdir, yəni kəndlərimizdir.

Kənd evlərində istirahət edənlərin sayını dəqiq müəyyən etmək mümkün deyil. Çünki kənd evlərinin sahibləri qəbul etdikləri turistləri və əldə etdikləri gəlirləri barədə məlumatlar vermirlər. Statistik hesabatların verilməməsi o deməkdir ki, kənd qonaq ev sahibləri yerli vergi orqanlarında qeydiyyata durmurlar və nəticədə yerli büdcəyə vergi ödənişindən yayınırlar. Azərbaycanda kənd turizmin yarım-leqal halda fəaliyyət göstərməsi, əslində turizmin bu sahəsinin sivil formada inkişafını gecikdirir. Azərbaycan Respublikasının "Ailə kəndli təsərrüfatı haqqında" qanununda göstərilir (3, s. 164).

Turizmə olan bu münasibətin əsasında sözsüz ki, ilk növbədə ölkənin sosial-iqtisadi maraqları dayanır. Bu sosial-iqtisadi maraqların təminatı üçün isə, Azərbaycan Respublikasının kifayət qədər imkanları və təbii-coğrafi potensialı vardır. Dünyada mövcud olan 11 iqlimin 9-nun Azərbaycanda olması bu ölkənin turizm üçün əlverişli bir məkan olması haqqında aydın təsəvvür yaradır. Elə bu faktın özü də kənd yerlərinin xüsusi gözəlliyə malik olması bu imkanları daha da artırır. Azərbaycanın beynəlxalq turizm marşrutuna daxil olması üçün kifayət edir. Ölkəmizin dənizi, aranı, dağı, meşələri, çayları, bulaqları, gölləri, yaylaqları turistlərin buraya cəlb olunması üçün diqqəti çəkən obyektlərdir. Ölkəmizdə sahibkarlıq inkişaf etdikcə bu obyektlərin hər birində turizm mərkəzlərinin yaradılması imkanları artır. Digər tərəfdən Azərbaycan xalqının maddi rifahı yaxşılaşdıqca turizm səfərlərinə çıxmaq meylləri də çoxalır. Artıq imkanlı azərbaycanlıların xarici turizm səfərlərinə çıxanlarının da sayı gündən-günə artır. Bu gün insanların hər birinin maraqlarının tam şəkildə təminatı üçün turizmin təşkili ilə məşğul olan peşəkar kadrlara çox böyük ehtiyac vardır. Peşəkar turizm mütəxəssisləri ayrı-ayrı bölgələrin fiziki və iqtisadi coğrafiyasını dərindən öyrənməli, həmin bölgələrdə turizmin təşkilinin təcrübi və elmi əsaslarını işləyib hazırlamağı bacarmalıdırlar.

Birləşmiş Millətlər Ətraf Təşkilatı (UNEP) tərəfindən edilən bir araşdırmaya görə bütün dünyada dağların turizm obyekti kimi olmasında iqtisadi, ictimai və ekoloji şərtlərin təzyiqi nəticəsində dağlardakı təbii quruluş ciddi zərərlər görməyə başlamışdır. Lüks yerləşmə şəraitinin qurulması, yeni bir məskən obyekti dağların təbii quruluşunu pozan turizm faktlarından hesab edilir. Ona görə də kənd turizmini təbiətə ziyan vurmadan inkişaf etdirmək lazımdır.

Kəndlərimiz turizmin bu növünün inkişafına şərait yaratmalıdır. Qonaqpərvər və gülər üzlü bölgə insanları kənd turizminin inkişafına təkan verəcəyinə, bu sahənin daha da genişlənməsinə şərait yaradacaqdır. Təbii, mədəni və ta-

rixi zənginliklərimizə sahib olduğumuz dəyərləri ön plana çıxarmanın yolları tapılmalıdır. Təbii şəraitə malik olan kəndlərimizin təbii strukturlarını pozmadan, turizm infrastrukturlarını hazırlayaraq markalaşma işlərini başlatmalıyıq. Bu mövzuda hər kəsə böyük vəzifə və məsuliyyətlər düşür.

Türkiyənin bu sahədəki, təcrübəsindən yararlanaraq Azərbaycanda da bu sahəni yaradıb, inkişaf etdirmək olar. Azərbaycanın buna tam təbii resursları (iqlim, torpaq, hava, su və s.) şəraiti vardır. Bu şəraitə əsasən Azərbaycanda bu turizm növünü ən gəlirli sahəyə çevirmək olar. Çünki bu təbiətin əvəzolunmaz hədiyyəsidir.

Azərbaycanda kənd turizminin inkişafı üçün hər cür imkan vardır. Burda əsas şərt kənd əhalisinin turistlərə isti münasibəti, kəndlərimizin coğrafi-iqlim şəraiti bu sahənin inkişafına müsbət təsir edə bilər. Azərbaycanın coğrafi-iqlim şəraiti bu sahənin inkişaf etdirilməsinə və istər daxili, istərsə də xarici turistləri cəlb etməyə tam şəraiti vardır. Azərbaycanın dörd bir tərəfində də bu turizm növünü inkişaf etdirməyə şəraiti var. Bu turizmin inkişafı üçün kəndlərdə yaşayan yerli kənd əhalisinin turistlərə isti-yaxşı münasibətdə olması əsas şərtlərdəndir. Kəndlərimizdə yaşayan isti və qonaqpərvər insanlarımız bu mövzuya olduqca həssaslıqla yanaşmalı, bunun inkişafı üçün əlaqədar təşkilatlar bu sahənin yaradılması və inkişafına sərmayə yatırmalıdır.

Turistlərin istəyinə uyğun şəraitin yaradılması, onlara müvafiq xidmətin göstərilməsi müəyyən maddi xərclər tələb edir. Lakin bu xərclər yaxın gələcəkdə artıqlaması ilə ev sahibinə qayıdacaqdır. Belə ki, kənd evinin sahibi turistlərə hər cür rahatlığı olan ev (evin bir hissəsini, 1-2 otaq və ya bütünlüklə ev) və yemək (turistlərin istəyi ilə) təqdim etməklə bərabər, onlara bələdçilik, tərcüməçilik, nəqliyyat xidməti göstərmək, ev heyvanları və quşları bəsləmək üçün qısa müddətli imkan yaratmaqla əlavə xidmət haqqı əldə edə bilər. Kənd turizmi yalnız evlərdə gecələmək və qidalanmadan ibarət deyildir. Kənd turizmi eyni zamanda turistlərə, onların istəyi ilə regionun təbiət yerlərinə və antropoloji abidələrə ekskursiyaların təşkili, turistlərə regionda yaşayan əhalinin adət-ənənələri ilə tanış etmək deməkdir (3, s. 165).

Bu insanların olduqları yerdən ayrılaraq yaylalara getmələri və orada qalaraq bütün ehtiyaclarını təmin etmələri bir turizm hərəkəti olmaqdadır. Ayrıca yayla fəaliyyətləri, yayla mədəniyyəti və insan ayağı dəyməmiş təbiətdə yaşamaq, digər insanların da marağına səbəb olmuş və bu yaşama tərzinə uyğun sağlam, nəticə olaraq da "yayla turizmi" şəklində bir turizm növünü meydana çıxarmışdır.

Azərbaycanda da Türkiyənin təcrübəsinə dayanaraq yayla turizmini inkişaf etdirmək olar. Çünki yayla turizminin inkişafı üçün Azərbaycanda təbii resurslar var.

Yayla turizm mərkəzlərinin yaradılması üçün əsas şərtlər

– Təbii dəyərlərə istiqamətli potensialın zəngin olması,
– Vətəndaş arxitektura xarakterinin olması,

– Şəhər mərkəzinə nəqliyyatın asan təmin edilən olması,
– Bölgə xalqının ictimai quruluşunun turizmə yaxın olması,
– Fəaliyyətin iqtisadi cəhətdən davam etdirilə bilməsi,
– Digər turizm növləri ilə inteqrasiyasının təmin edilə bilən olmasıdır.
– Çöl seqmentində yaşayanların da turizm gəlirlərindən pay almasının təmin edilməsi,
– Turizm sərmayəçisi üçün iqtisadi baxımdan uyğun və cazibədar yayla turizm mərkəzlərinin yaradılması,
– Yayla turizminin inkişafı üçün xidmət müxtəlifliyinin təmin edilməsi,
– Yayla turizminə istiqamətləndiriləcək turist profilinin təyin olunması

Yayla turizmi imkan verir ki, kənd əhalisi eləcə də ümumiyyətlə əhalinin heyvanlarını otlatmaq və heyvanlarına qış üçün otlar yığmaq üçün, həm də yay şərtlərinə görə daha sərin və uyğun yerdə yaşamaq üçün yaylaya çıxsınlar.

Bununla yanaşı kənd kəndlilərin, hər il ənənəvi olaraq təşkil etdikləri və ətraf ellərin də sıx maraq göstərdiyi şənliklərin təşkil edildiyi sahələr də mövcuddur. Lakin, bu zonada turizmin inkişafı üçün müəyyən kiçik problemlər var ki, onlar da həll edilməlidir. Bu da onunla yanaşı olan bir çox problemi aşkara çıxarır. Bu turizm növü necə inkişaf etdiriləcək ki, onun təbiətə heç bir ziyanı dəyməsin? Daha çox heyvandarlığa istiqamətli yaylalar, turizmin inkişafına necə təsir edəcək.

Nazirlik, yayla turizminin inkişaf etdirilməsinə istiqamətli qərarlarında xüsusi arxitekturanın qorunması, çox qatlı quruluşlaşmalara icazə verilməməsi, bölgənin hər cür təbii qaynaqlarının qorunması kimi ekoturizmin bu kimi şərtlərinə plan və proqramlarında yer versə də, praktik həyatda vəziyyətin fərqli inkişaf etdiyi göz qabağındadır. Yaylalarda əhalinin sıx məskunlaşması, sürətli betonlaşma, təbiətin korlanması və s. bu kimi məsələlər yaylaların ən böyük problemi olaraq qalmaqdadır (4,).

İnfrastruktur problemlərinin ətrafı korlamadan aradan qaldırılması, ev pansionçuluğu, kiçik günübirlik təsislər kimi yerləşmə təsislərinin açıla bilməsi üçün təşviq və kredit verilməsi kimi müəyyən tədbirlərin alınması, düşünülən təsislərin və ətraflarının ekoloji, iqtisadi, mədəni və fiziki daşıma tutumlarının təyin olunaraq turizm fəaliyyətlərinin təbiətə zərər vermədən reallaşdırılmasının təmin edilməsi kimi bir silsilə tədbirin tez bir zamanda keçirilməsi lazımdır. Bunların sistemli bir şəkildə həyata keçirilməsi isə ancaq bu bölgələrdə icra ediləcək davam etdirilə bilən ekoturizm siyasəti ilə mümkün olacaq.

Davam etdirilə bilən ekoturizm, bu turizm növünə aid olan bütün tərəflər arasında təsirli bir əməkdaşlığı meydana gətirəcək təsirli sistemlərə ehtiyac vardır. Turizm planlaması sektorun özü ilə məhdud olmamalı, yerli xalqı və digər sektorları da daxil etməlidir. Bu planlama, prioritetləri, dəyərləri və yerli xalqın məlumatlarını dərində yoxlamalı, yerli xalqın iştirakını gücləndirməli, təqib və idarə mexanizmlərinə imkan tanımalıdır.

Dünyada dağların əhəmiyyətinə və qarşı-qarşıya qaldığı problemlərə diqqət çəkmək məqsədiylə 2002-ci ili Birləşmiş Millətlər Təşkilatı tərəfindən "Dağlar İli" elan edilmiş və dünyanın bir çox bölgəsində seminarlar, konfranslar, təşkilatlar təşkil edilmişdi.

Ölkəmiz hələ təxribata uğramamış, davam etdirilə bilən ekoturizmə malik təbii resursa sahibdir. Bununla birlikdə bütün dünyada diqqət çəkilən bu proseslərin reallaşdırılması üçün bir çox tədbirləri görməyi unutmamaq lazımdır.

Ekoturizmin inkişaf etdirilməsi və rəhbərliyi üçün təhsil fəaliyyətləri bir əsas vəzifədir. Bu sahə ilə məşğul olan işçilər, yerli xalq, ekoturizmin, davam etdirilə biləcəyi və bu sahədəki maliyyə məsələlərində ümumi xüsusiyyətlər haqqında təhsil almalıdırlar. Bölgəyə girişin miqdarının təyin olunması və təhsil keyfiyyəti ekoturizmin inkişafı üçün həyati əhəmiyyət daşıyır.

Aparılan araşdırmalar, önümüzdəki illərdə dəyişən turizm anlayışına paralel olaraq kütlə turizminə istiqamətli motivasiyalarda azalma görülərkən, təbiət ilə inteqrasiya olunan, ətrafa həssas, fərqli mədəniyyət və həyat formalarıyla inteqrasiya olunmağa imkan verən turizm məhsullarına istiqamətli motivasiyaların artacağı istiqamətində inkişaf etdirilir.

Kənd turizmindən və onun inkişaf etmiş forması olan İcma Əsaslı Turizmdən əyalətin əldə etdiyi fayda və xərclər.

Kənd ev sahiblərinə birbaşa fayda –

- Yeni gəlir mənbələri və yeni iş yerləri
- Ucqar kəndlərdə iqtisadi imkanların yaradılması

İcmanın əldə etdiyi fayda –

- Kiçik həcmli təsərrüfat fəaliyyətinin artması, əlavə gəlir və məşğulluq
- Kütləvi turizmin standartlaşdırılması
- Mədəni turizmin dəstəklənməsi
- Ekologiyanın qorunmasında kənd əhalisinin maraqlı olması
- Həyat səviyyəsinin (sosial) yüksəlməsi

Ev sahblərinin birbaşa xərcləri –

- İlkin xərclər (evlərdə müvafiq rahatlıqların yaradılması)
- Gündəlik xərclər (daxili infrastrukturun saxlanması, inkişafı, icma fonduna ödənişlər)

İcma xərcləri –

- Kənddə infrastrukturun yaxşılaşmasına xərclər
- Reklama və turagentlərə ödənilən xərclər (3, s. 166).

Dünya miqyasında kənd turizmi növü də çox geniş yayılmışdır. Kənd turizmi növü ilə əsasən yerli sakinlər özləri məşğul olurlar. Onlar turistləri evlərində yaradılmış şəraitdə qəbul edir, onlara ailə xidməti göstərirlər. Lakin kənd turizmin təşkili də peşəkarlıqla həyata keçirilməlidir. Kənd turizmi əhalinin yerli istehsalın müxtəlif növlərinə olan marağını da artırır. Bu növün inkişafı kənd əhalisinin gəlirini artırır, onların həyat tərzini yaxşılaşdırır. Bu növün

inkişaf etdirilməsi fərdi xarakter daşıyır və bunun üçün kapital qoyuluşuna ehtiyac yoxdur. Belə ki, əsasən stasionar xarakter daşıyan bu turizmin növünün infrastrukturu tədricən formalaşır. Xüsusilə, zaman-zaman əldə olunan gəlir hesabına yerli xidmət növlərinin yaradılması imkanı formalaşır. Kənd turizmi özünəməxsus rəngarəngliyə malikdir. Bu turizmə əsasən ailəvi şəkildə maraq göstərilir. İnsanlar ekoloji gözəlliklərə malik olan ərazilərdə ildə bir dəfə ailə ilə birlikdə istirahət etməyini, kəndin təbii imkanlarından yararlanmağı xoşlayırlar. Sözsüz ki, cəlbedici təbii coğrafi quruluşa malik olan kəndlər insanları özünə daha çox cəlb edir. Dağlarda, meşə ərazilərində, çay və göl ətrafında yerləşən kəndlərdə dincəlmək və səmərəli istirahət etmək insanlar üçün çox maraqlıdır. Dağ kəndlərində turistlər üçün at çapmaq yarışları, atla müxtəlif tarixi yerlərə səyahətlər, mənzərəli guşələrə gəzintilər təşkil etmək olar. Bu gəzintilərin özünəməxsus infrastrukturları və iaşə xidmət sahələri də yaradılmalıdır. Bu vasitə ilə sənaye mərkəzlərindən uzaq olan kəndlərdə insanların böyük bir qrupunu işlə təmin etmək imkanı da yaranır. Meşə, çay və göl ətrafındakı kəndlərdə də atlardan istifadə etməklə turistlərin istirahət və əyləncəsini maraqlı gəzinti və səfərlərlə zənginləşdirmək mümkündür. Çaylarda və göllərdə qayıqlarla gəzintilər təşkil edərkən turistlərin təhlükəsizliyinin qorunmasına xüsusi diqqət yetirmək lazım gəlir. Dağ turizmi zamanı alpinizmə maraq göstərən insanların maraqlarını nəzərə almaqla yanaşı onlar üçün həmin təhlükəsizlik tədbirləri görməyə böyük ehtiyac vardır. Bu növ istirahət və əyləncəni təşkil edən turist təşkilatçısı təhlükəsizliyi təmin etmək üçün bəzi qorxulu dağ ərazilərinə, qayalara çıxmağa ciddi qadağalar qoymalıdır (2, s. 33).

ƏDƏBİYYAT

1. Əlirzayev Ə.Q., Aslanova S.İ. Turizmin inkişafının sosial-iqtisadi problemləri. Bakı: Adiloğlu, 2006, 163 s.
2. Hüseynov İ.H., Əfəndiyeva N.T. Turizmin əsasları. Bakı: Mars-Print, 2007, 374 s.
3. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. Azərbaycan Turizm İnstitutu "Turizm və rekreasiya: problemlər və perspektivlər" III Respublika Elmi Praktik Konfransının materialları. Bakı: Mütərcim, 2010, 227 s.
4. www.tourism.gov.az

Турал Мамедов

ПУТИ РАЗВИТИЯ СЕЛЬСКОГО ТУРИЗМА

В этой статье представлены осуществляемые мероприятия с целью привлечения туристов в Азербайджан. Обсуждаются систематические меры и проблемы, связанные с их осуществлением в Азербайджане. Пере-

числяются необходимые шаги для решения данного вопроса. Выясняются последовательные меры развития туризма в Азербайджане. Здесь определяется стратегия развития туризма, обсуждаются вопросы ее применения.

Tural Mammadov

THE WAYS OF DEVELOPING OF THE VILLAGE TOURISM

Kind of village tourism has spread on a world wide very widelies, too. It is discussed the local inhabitants with kind of village tourism. But forming of the village tourism must be implemented professionally, too. Village tourism increases the interest among the population, too.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

HƏSƏN MƏMMƏDOV
Naxçıvan Dövlət Universiteti
E-mail: hesenmemmedov@hotmail.com

REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAF STRATEGİYASININ NƏZƏRİ-METODOLOJİ ASPEKTLƏRİ

(Redaksiya heyətinin üzvü, i.e.d., prof. A.İ.Şirəliyev tərəfindən təqdim edilmişdir)

Regionların sosial-iqtisadi inkişaf strategiyası dedikdə, mahiyyət etibarı ilə bölgələrdə məskunlaşan əhalinin maddi və mədəni rifah halının yaxşılaşması istiqamətinə yönəlmiş, elmi əsaslara söykənən kompleks sosial-iqtisadi tədbirlər nəzərdə tutulur. İstər nəzəri, istərsə də praktiki baxımdan yanaşıldıqda regionlarda əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində aparılan məqsədyönlü tədbirlər, ümumilikdə ölkənin dinamik inkişafına xidmət etməklə, sosial-iqtisadi dirçəlişə dönməz xarakter verir.

Regionların sosial-iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi prosesi regional iqtisadiyyatın strateji idarəedilməsi ilə üzvü bağlıdır. Bu mürəkkəb proses qarşıya qoyulmuş strateji məqsədə çatmaq üçün regionlarda aparılan idarəetmə dəyişikliklərini özündə ehtiva edir.

Region iqtisadiyyatının strateji idarəedilməsi mürəkkəb və olduqca çoxsahəli sosial-iqtisadi proses olub, aşağıdakı istiqamətləri özündə birləşdirir.

1. Strategiyanın müəyyənləşdirilməsi. Bu, kompleks tədqiqat və təhlillərə əsaslanaraq, regionun mövcud potensial imkanlarını və maliyyə iqtisadi vəziyyətini dəqiq müəyyənləşdirməkdən başlayır. Tədqiqat və təhlillərin aparılması üçün ilk növbədə mükəmməl informasiya və kommunikasiya sistemi qurulmalı, mövcud iqtisadi münasibətlər şəraitində dövlətin sosial-iqtisadi inkişafında regionun yeri və rolu müəyyənləşdirilməlidir.

2. Strategiyanın seçilməsi. Bu məqsədlə məyyən edilmiş çoxvariantlı, alternativ strateji istiqamətlər təhlil edilib, öyrənilməli, risk faktorları qiymətləndirilməlidir. Ən az riskli, optimal strateji məqsədlər seçilməlidir.

3. Strateji planlaşdırma və proqnozlaşdırma. Mahiyyət etibarı ilə bu metod dəqiq mənbəələrə əsaslanaraq hazırlanmış planlaşdırma və proqnozlaşdırma yolu ilə strateji məqsədə nail olma mexanizmidir. Seçilmiş strateji məqsədlərin effektiv həyata keçirilməsini təmin etmək üçün mütləq strateji planlaşdırma və proqnozlaşdırma metodları tətbiq edilməlidir. Çünki istənilən idarəetmə səviyyəsində iqtisadi effektivlik strateji inkişaf prioritetlərinin müəyyən edilməsini

tələb edir. Bu isə planlaşdırma və proqnozlaşdırma olmadan mümkün deyildir. Bir sözlə, strateji planlaşdırma və proqnozlaşdırma inkişafı nəzərdə tutulan sosial-iqtisadi hadisə və proseslərin modernləşdirilməsi və reallaşdırılması metodudur.

Son dövrdə dünyanı bürüyən maliyyə böhranı və onun səbəbləri belə qənaətə gəlməyə əsas verir ki, hər hansı bir qeyri-müəyyənlik şəraitində iqtisadiyyatın dinamik inkişafına nail olmaq üçün strateji planlaşdırma və proqnozlaşdırma aparılması vacib və əhəmiyyətlidir.

4. Strateji nəzarət. Bu metodun köməyi ilə strateji məqsədə çatma prosesində əsas göstəricilər qiymətləndirilir, qarşıya çıxan hər hansı bir maneə və kənarlaşmaların səbəbləri aşkar edilib, vaxtında aradan qaldırılır, iqtisadi tənzimləmə metodları seçilib, müəyyən edilir (8).

Region iqtisadiyyatının strateji idarəedilməsinin vacib elementi iqtisadi inkişafın strateji planlaşdırılmasına mərhələli yanaşma metodudur. Strateji menecmentdə qeyd edildiyi kimi mərhələli yanaşma metodundan istifadə edilərək, regionun, eləcə də ölkənin sosial-iqtisadi inkişafının vahid xətt üzrə həll edilməsinə nail olmaq mümkündür.

İqtisadi inkişafın strateji planlaşdırılmasına mərhələli yanaşma metodunun tətbiqində başlıca məqsəd regionlarda fəaliyyətdə olan ayrı-ayrı təsərrüfat subyektlərinin inkişaf mərhələlərini müəyyənləşdirmək və ardıcıl olaraq planlaşdırılıb, sosial-iqtisadi prioritetlərin mərhələli yerinə yetirilməsini təmin etməkdən ibarətdir (2).

Ölkənin iqtisadi siyasətinin əsasını təşkil edən regionların sosial-iqtisadi inkişaf strategiyası idarəolunan, prioritet sistem kimi aşağıdakı funksiyalara malikdir:

- analtik informasiya funksiyası. Qeyd etdiyimiz kimi regionlarda mövcud olan və yaradılması məqbul hesab edilən sosial- iqtisadi fəaliyyət sahələrinin effektivliyini yüksəltmək məqsədilə informasiya sistemlərinin xidmətindən səmərəli istifadə etmək vacib və əhəmiyyətlidir. Müasir informasiya və kommunikasiya sistemlərinin köməyi ilə məlumatların toplanılması, işlənilməsi, təhlil edilib qiymətləndirilməsi nəticəsində üstünlük təşkil edən fəaliyyət sahələrinin müəyyənləşdirilməsi və bu istiqamətdə optimal qərar variantının hazırlanması mümkündür;

- planlaşdırma funksiyası. Bu funksiya bütün səviyyələrdə regionun sosial-iqtisadi inkişaf strategiyasının istiqamətlərini əsaslandırır, inkişafın məqsədini və gələcək perspektivlərini müəyyən edir (7).

Planlaşdırma funksiyasının əsas elementləri plan və planauyğun proqnozlaşdırmadır. Bu elementlər strateji məqsədə çatmağın əsas şərti olmaqla, sistemin perspektivli inkişafını təmin edir.

Yeni sosial-iqtisadi münasibətlərə keçid heç də planlaşdırma prinsipini dəyişmir, əksinə cəmiyyətin həyat fəaliyyətinin qanunauyğunluğunu əks etdirməklə, onun məqsədyönlü inkişafını təmin edir.

Regionlarda nəzərdə tutulan sosial-iqtisadi proseslərin həlli zamanı optimal variantların seçilməsində, qarşıya qoyulmuş məqsədin ümumi xəttinin müəyyənləşdirilməsində planlaşdırma funksiyası mühüm rol oynayır. Eyni zamanda bu funksiyanın tətbiqi hesabına qarşılıqlı əks əlaqəni təmin edən şəbəkə sistemi yaradılır ki, bu da iqtisadiyyatın bütün sahələrində əmək məhsuldarlığını artırır, iqtisadi inkişafın yüksəlməsinə şərait yaradır və son nəticədə nəzərdə tutulan məqsədyönlü fəaliyyət təmin olunur. Ona görə də regionlarda sosial-iqtisadi sferanın məqsədyönlü inkişafını təmin etmək üçün planlaşdırmadan mütləq istifadə edilməlidir (4).

Aparılan tədqiqatlardan belə nəticəyə gəlmək olur ki, əhalinin həyat səviyyəsini artırmaq, onların maddi və mədəni rifah halını yaxşılaşdırmaq məqsədilə regionların sosial-iqtisadi inkişaf strategiyasının nəzəri və metodoloji aspektlərindən mükəmməl istifadə edilməlidir.

İqtisadi ədəbiyyatlarda regionların sosial-iqtisadi inkişaf strategiyası ilə əlaqədar bir-birindən fərqli iki nəzəri istiqamət mövcuddur. Bunlar Proporsional və Disproporsional İnkişaf Strategiyası adlanır. Birinci istiqamətin tərəfdarlarına görə dövlət regionlar arasında investisiyaların proporsional qaydada bölüşdürülməsini həyata keçirməklə, kompleks inkişafı təmin etməlidir. İkinci istiqamətin müəlliflərinə görə isə investisiyaların bütövlüklə ölkə regionları üzrə proporsional bölüşdürülməsi məqsədəuyğun deyildir. Bu, inkişafdan çox, ölkənin maliyyə vəsaitlərinin dağılması hesabına, iqtisadi geriliyə səbəb ola bilər. Maliyyə vəsaitlərindən daha səmərəli istifadə məqsədilə onlar, vəziyyətdən çıxış yolunu, bir və ya bir neçə regional inkişaf mərkəzləri yaradıb, həmin istiqamətdə investisiya qoyulmasında görürlər (7).

Azərbaycan Respublikası hökuməti ölkədə mövcud vəziyyəti nəzərə alaraq, regionların sosial-iqtisadi inkişaf strategiyasını müəyyən edərkən ikinci istiqamətə üstünlük vermişdir. Nəticədə ilk dörd il ərzində xeyli işlər görülmüş, ikinci mərhələdə isə regionların sosial-iqtisadi inkişafı dövlət proqramı uğurla həyata keçirilməkdədir (1).

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişaf strategiyası, ümumilikdə, ölkənin dönməz xarakter kəsb edən dinamik inkişafının tərkib hissəsidir. Məhz buna görə də Azərbaycan hökuməti tərəfindən son illər həyata keçirilməyə başlanılan tədbirlər, xüsusilə də regionların sosial-iqtisadi inkişaf strategiyası sahəsində qəbul olunmuş normativ-hüquqi və mərhələli proqram xarakterli sənədlər belə qənaətə gəlməyə əsas verir ki, yaxın gələcəkdə ölkədə yoxsulluğun əsaslı şəkildə azaldılması, əhalinin maddi və mədəni rifah halının nəzərə çarpacaq dərəcədə yüksəlməsi, həyat səviyyəsinin yaxşılaşması təmin olunacaqdır. Nəticədə regionlararası tarazlı sosial iqtisadi inkişafa nail olmaq gerçəkləşəcəkdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər). Bak: Nurlan, 2004, 160 s.
2. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2009-2013-ci illər).www.ier.az
3. Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı (2003-2005-ci illər). Bakı, 2003, 306 s.
4. Mahmudov M.M., Mahmudova İ.M. Regional iqtisadiyyatın tənzimlənməsi. Bakı: Şur. 2001, 430 s.
5. Məmmədov X.Ə., Mirzəyev S.Q. İqtisadi islahatlar strateji inkişaf yolumuzdur. Bakı: Nurlan, 2002, 374 s.
6. Qasımov Ə. Regional siyasətin bəhrələri və inkişaf istiqamətləri. Bakı, 2006, 519 s.
7. Bağırzadə E.R. Azərbaycan Respublikasında Regional İnkişaf Strategiyası və yoxsulluğun azaldılması. Elmi-Praktiki Konfrans materialları. Bakı: İqtisad Universiteti, 2005, 131-138 s.
8. Via55@ rambler.ru

Гасан Мамедов

ТЕОРИЯ И МЕТОДОЛОГИЧЕСКИЕ АСПЕКТЫ СТРАТЕГИИ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ РЕГИОНОВ

Статья посвящена вопросам теории и методологическим аспектам стратегии социально-экономического развития регионов.

В статье показываются основные направления управления социально-экономическим развитием регионов и определены основные принципы и функции эффективного социально-экономического развития регионов.

Hasan Mammadov

THEORY AND METODOLOGICAL ASPECTS OF SOCİO-ECONOMIC DEVELOPMENT OF REGIONS

The article deals with the theory and methodological aspects of socio-economic development of regions.

This paper presents the main directions of socio-economic development of regions and the basic principles and functions of effective socio-economic development of regions.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

BİBLİOQRAFİYA

MƏHƏRRƏM CƏFƏRLİ
AMEA Naxçıvan Bölməsi,
E-mail: meherremceferli@yahoo.com
RAFİQ BABAYEV
AMEA Naxçıvan Bölməsi
E-mail: rafik_babayev@yahoo.com

ETNOKOSMİK YADDAŞ: YENİ BAXIŞ SİSTEMİ

(AMEA-nın müxbir üzvü, prof. Ə.A.Quliyev tərəfindən təqdim edilmişdir)

Tarixin gözü zaman-zaman mifin sözünə dikilib; mifoloji şüurdan tarixi şüura keçid mifin tarixə transformasiyasını aktuallaşdırıb.

Dövlət müstəqilliyimizin bərpasından sonra bütün bunların öyrənilməsində yeni baxışı reallaşdıran tədqiqatlara maraq daha da artmışdır.

Bu yönümdən Azərbaycan MEA-nın Folklor İnstitutu Mifologiya şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Seyfəddin Rzasoyun oğuzların mifoloji görüşlərinin bərpası, genezisi, mifik dünya modeli, təsnifatı ilə bağlı tədqiqatları filoloji fikrin diqqət mərkəzindədir. Alimin "Oğuz mifinin paradiqmaları" (B., 2004), "Oğuz mifi və Oğuznamə eposu" (B., 2007), "Mifologiya və folklor: nəzəri-metodoloji kontekst" (B., 2008) kimi monoqrafiyalarında araşdırılması çox çətin problemlər qoyulmuş, ciddi elmi perspektivlərə malik məsələlərə toxunulmuşdur. Prof. Kamil Vəli Nərimanoğlu müəllifin "Oğuz mifi və Oğuznamə eposu" əsərinə yazdığı "Türk mif poetikasına yeni baxış" adlı ön sözündə, haqlı olaraq, göstərir ki, S.Rzasoy Oğuznamə eposunda ritual-mifoloji dünya modelini bərpa edərkən ayrı-ayrı semantemləri, nəzəri-epistemioloji konteksti, tarixi düşüncə kodundan mif koduna baxışı, türk dünya modelinin semiotik-kosmoloji təbiətini bacarıqla açır.

Oğuz mifologiyası arxaik düşüncə konkstruksiyası – mifoloji dünya modeli olmaqla türkün yaşadığı torpağı bütövlükdə modelləşdirmiş, işarə sisteminə çevirmiş, bu torpağın üzərində mövcud olan bütün gerçəklik obyektlərini oğuz dünyası olaraq "pasportlaşdırmışdır". Dünyanı dəyərləndirmə, milli özünüdərk və özünüifadə mifin ciddi nəzarəti altındadır.

Seyfəddin Rzasoyun oğuz mifologiyasının bərpası istiqamətində uzun illər ərzində apardığı araşdırmalarını ümumiləşdirməklə onların ilkin yekun nəticəsi olan "***Oğuz mifologiyası"*** monoqrafiyasında *(B., "Nurlan", 2009, 363 s.)* oğuz mifologiyası son dərəcə geniş, nəhəng hadisə kimi tədqiqata cəlb olunub.

Elmi fikir dövriyyəsinə "oğuz mifologiyası", "türk mif metamodeli" kimi anlayışların ***ilk dəfə*** daxil edildiyi bu monoqrafiyada öncə oğuz mifologiyasının bərpasının nəzəri-metodoloji modeli və təhlil aparatı işlənərək hazırlanmış, "oğuz mifologiyası Azərbaycan mifologiyasının türk mifoloji dünya modeli əsasında formalaşması zamanı dominant təşkilolunma sxemi rolunu oynamış və Azərbaycan-türk mifologiyasının məzmun etibarilə Azərbaycan-oğuz mifologiyası kimi təşkil olunmasını təmin etmişdir" – qənaətinə gəlinmişdir.

Müəllif etnokosmik yaddaş və etnik təfəkkür elementlərini bir-birindən ayrılmaz, biri digərini şərtləndirən məsələlər kimi təqdim etmişdir. Mif insan, təbiət və həyat haqqında ibtidai görüşləri özündə inikas edən fantaziya yox, məhz qəbul və təqdim olunan tarixdir: mifoloji obrazlar, özünəməxsus təhkiyə vasitəsi ilə ifadə olunmuş milli gerçəklikdir. Alim oğuz mifologiyası üçün başlıca, müəyyənedici olan simanı – etnik-milli sifəti ortaya qoymuşdur.

Oğuz mifologiyası obrazlar aləmi, semantikası, strukturu baxımından zəngin hadisə olduğu üçün, əslində, tədqiqatçı geniş seçim imkanları ilə üz-üzə qalmışdır.

Alim oğuz mifologiyasını dörd fəsildə sistemli şəkildə öyrənmişdir.

"Oğuz mifologiyasının bərpasının nəzəri-metodoloji modeli" adlanan ***birinci fəsil*** daha çox nəzəri xarakterlidir və fəslin problemi "Nəzəriyyə" və "Metod" adlanan yarımfəsillərdə əhatə və həll olunmuşdur.

Birinci fəsildə "Oğuz dünya modeli gerçəkliyi qavrayışın xüsusi formasıdır və o, özünün bu mənasında həm də "oğuz mifologiyasıdır" – qənaətinə gələn S.Rzasoy çoxmənalı anlayış olan oğuz mifini məna səviyyələri biri digərini şərtləndirən sistem kimi tədqiq və təqdim edir. Alim yazır: "Söhbət oğuz mifinin türk mifinin nüvəsini təşkil etməsi, yaxud oğuz mifologiyasının tarixi-mədəni mahiyyətindən gedir".

Mifdə yaşayan gerçəklik obyektiv gerçəkliyin mifoloji düşüncə prizmasından qavranmasının məhsuludur ki, buradakı sferada mif (milli) tarix adına, haqlı olaraq, iddia edir.

"***Oğuz mifologiyasının ritual modeli"*** adlanan ***ikinci fəsil*** "Mifoloji kosmogenez modeli", "Kosmosun ritual modeli", "Ov ritualının strukturu", "Ulu toy ritualının strukturu", "Qurultay ritualının strukturu", "Dünya modelinin təsvir kodları və səviyyələri" kimi yarımfəsilləri özündə birləşdirir.

Hər bir xalqın mifologiyası bəşər cəmiyyətinin özünü bir toplum halında qavradığı vaxtdan başlayaraq özü haqqında yaratdığı tarixdir. Bu cəhətdən ikinci fəsildə oğuz ritual-mifoloji dünya modelinin bərpası zamanı alim tərəfindən dörd funksional tezis irəli sürülərək əsaslandırılmışdır:

– Oğuz mifi etnik özünüifadənin düşüncə kodu olaraq türk etnosunun aparıcı laylarından olan oğuzların etnokosmik düşüncə və mətn hadisəsidir;

– Oğuz mifi etnik epos kontekstində janr və say baxımından zəngin mətn korpusu ilə təmsil olunan oğuz eposunun arxetipidir;

– Oğuz eposu oğuz mifinin paradiqmalar sistemini təşkil edir;

– "Oğuz mifi" konkret sintaqmatik mənasında Qara xanın oğlu Oğuz kağan haqqında mif-mətndir.

Əsərdə oğuz mifoloji obrazlarının struktur-semantik xüsusiyyətləri mifoloji obraz və onun mahiyyəti, mifoloji varlığın funksionallığı istiqamətlərində tədqiq olunur, oğuz dünya modeli "gözdən doğulma" mifologemi əsasında öyrənilir, bu əsasda oğuz mifoloji kosmogenizinin paradiqmalar sistemi aşkarlanır. O da əlamətdardır ki, tədqiqatçıların indiyə qədər diqqət yetirmədikləri orijinal doğuluş mifologemi – "gözdən doğulma" ilə bağlı S.Rzasoyun qənaətləri xüsusi maraq doğurur. Alim yazır: "Gözdən doğulma" mifologem kimi, oğuz kosmogenezində oğuz dünyasının yaradılmasını nəql edir və xüsusi semantik aktuallığa malik funksional formullardan biridir".

"Oğuz kağan" şəcərəsindən bəhs edilərkən göstərilir ki, bu şəcərə özündə oğuz ritual-mifoloji dünya modelini gerçəkləşdirir.

Kosmosun ritual modelindən bəhs edən müəllif belə qənaətə gəlir:

– ritual proqramlaşdırılmış hərəkətdir;

– bu hərəkətin strukturu kosmoqonikdir;

– bu, oğuz kosmoqoniyası baxımından Oğuz kağanla bağlı yaradılış aktının "teatrallaşdırılması"dır.

Bu fəsildə ov ritualının, ulu toy ritualının, qurultay ritualının strukturu, dünya modelinin təsvir kodları və səviyyələri araşdırılır. Qeyd edək ki, bu istiqamətlərdə müəllif çox əhəmiyyətli işlər görmüş, oğuz dünya modelinin kosmoloji struktur səviyyələri, hər bir səviyyəyə uyğun təsir dili – davranış kodları ilə bağlı maraqlı nəticələr əldə etmişdir.

Miflər onlardakı obrazların, bədii təxəyyülün estetik imkanlarından daha çox, milli düşüncənin əski sakral modelləri kimi maraq doğurur.

"Oğuz mifologiyasında xaos və onun paradiqmaları" adlanan ***üçüncü fəsil*** "Yalançı dünya paradiqması", "Xaosun dəli paradiqmaları", "Dəli Domrul paradiqması". "Dəli Qarcar paradiqması", "Dəli Ozan // Bamsı Beyrək paradiqması", "Xaosun paremioloji paradiqmaları" kimi yarımfəsilləri əhatə edir.

Fəsildəki istiqamətlər türk mifologiyasının obrazlar sisteminə münasibətdə doğru elmi yanaşma olmaqla bərabər, həm də müəllif düşüncəsi və yanaşmasının elmi-nəzəri özünəməxsusluğunu əks etdirir.

S.Rzasoy yazır: "Oğuz mifinin bərpası yönündə apardığımız təcrübə prosesində gəldiyimiz qənaətlərdən biri budur ki, istər ayrılıqda oğuz mif tipinin, istərsə də bütövlükdə oğuz mifləri sisteminin – mifologiyasının tədqiqinin ən böyük problemi oğuz xaosunun bərpasıdır".

Aparılan araşdırmalar 4 əsas nəticəni reallaşdırmışdır:

– oğuz mifoloji düşüncəsində xaos ayrıca dünya şəklində təsəvvür olunmuş və "Yalançı dünya" adlanmışdır;

– "yalan" və "yalançılıq" oğuz modelinin uyğun olaraq əsas prinsip və davranış formasını təşkil edir;

– "dəli" (semantemi) və "dəlilik" (statusu) bütün hallarda hər hansı şəkildə xaosla ritual bağlılığın işarə vahidləridir;

– oğuzların "kiçik ölüm" adlandırdıqları "yuxu" semantemi xaosa giribçıxmanın mediativ mexanizmidir.

Üçüncü fəsildə xaosun dəli paradiqmalarından danışılarkən Dəli Domrul, Dəli Qarcar, Dəli Ozan // Bamsı Beyrək paradiqmaları araşdırılır, tədqiqatçıları uzun illər ərzində çox düşündürmüş bu məsələlər orijinal şəkildə həll edilir. Dəli Domrulun, Dəli Qarcarın oğuzda başqalarından tamamilə fərqlənən hərəkətləri elmi şərhini tapır, qeyd olunur ki, dəlilik (Dəli Domrul, Dəli Ozan // Bamsı Beyrək) xaosun paradiqması olub, bütün hallarda ikili semantikaya malik (diri və ölü, kosmos və xaos) obrazların keçid statusunu bildirir. Sinergetik sistem özəllikləri və etnik-mədəni sistemin özünəməxsusluqları dolğun şəkildə üzə çıxarılır, xaosun paremioloji paradiqmaları kimi "Dəlidən doğru xəbər", "Dəli qırmızını sevər", "Yalanın ömrü az olar" vahidləri təhlilə cəlb olunur.

Monoqrafiyanın ***"Oğuz mifologiyasının paradiqmatik struktur modelləri"*** adlanan ***sonuncu fəsli*** "Fratrial əcdad modeli", "Ölüb-dirilən obraz modeli", "Ölüb-dirilən mətn modeli", "Qam-Ata modeli", "Koroğlu modeli" kimi yarımfəsillərdən ibarətdir və burada, adından göründüyü kimi, oğuz mifoloji dünya modelinin struktur səviyyələri rekonstruksiya edilmişdir.

Məlumdur ki, "Kitabi-Dədə Qorqud", "Koroğlu" eposlarında oğuz mifi geniş paradiqmatik sıra və cərgələr yaratmışdır. S.Rzasoy yazır: "Oğuznamələr oğuz kosmoqonik mifinin bərpası üçün zəruri informasiya verir. Ancaq KDQ belə bir kosmoqonik mifi də öz içinə almaqla məzmun baxımından çox iri, rəngarəng, başlıcası, bütöv ola biləcək informasiya sisteminə malikdir. KDQ-nin süjetləri onların tematik və funksional tipləri baxımından öyrənilməyib".

Paradiqmatik sıra və cərgələrin geniş tədqiqi zamanı monoqrafiyada "Kitabi-Dədə Qorqud" və "Koroğlu" eposları yeni müstəvidən təhlilə cəlb olunur, müqayisələr aparılır, zəruri obraz və süjetlər aktuallaşdırılır. Salur Qazandan, Alp Aruzdan Oğuz Kağanın fratrial əcdad paradiqmaları kimi bəhs olunur.

Ölüb-dirilən obraz modelini "Kitabi-Dədə Qorqud" mətnində izləyən alim bir-biri ilə bağlı iki anlanma planı təqdim edir:

– Oğuz-Xaos invariant strukturunun oğuz düşüncəsində daim yaşayan arxetipi;

– Oğuz-Xaos invariant strukturunun oğuz düşüncəsində yaratdığı təkrarlanan, ritmləşən paradiqmalar cərgəsi.

"Ölüb-dirilən mətn modeli", "Qam-Ata modeli", "Koroğlu modeli" adlanan yarımfəsillərdə də konkret istiqamətlər üzrə araşdırmalar aparılmış, ciddi nəticələr ortaya qoyulmuşdur.

Monoqrafiyada oğuz mifinin qəhrəmanlıq kodu ilə son transformativ paradiqmalar sistemi kimi "Koroğlu" eposundan danışılaraq göstərilir ki, oğuz ritual-mifoloji dünya modelinin strukturu, kosmosla xaos arasında funksional münasibətlər eposda birbaşa dəli paradiqmasında gerçəkləşmişdir.

Oğuz xanla Koroğlu arasında paralellik izlənilir, Koroğlu obrazının ritual-mifoloji strukturunda Oğuz mifinin Qorqud Ata arxetipi bərpa olunur.

Müəllif Koroğlu obrazını müxtəlif istiqamətlərdə təhlil etməklə yeni elmi baxışın təqdiminə nail olmuşdur. Koroğlunun evlənmə aktının kosmoqonik miflə müəyyənləşən invariant səviyyəsi, Koroğlunun ritual rolunun reallaşdırıldığı, yerinə yetirildiyi səviyyə öyrənilmiş, mədəni qəhrəman, əcdad Koroğlu invariantının ritualın başçısı səviyyəsində reallaşan struktur modeli rekonstruksiya edilmişdir.

Belə hesab edirik ki:

1. Seyfəddin Rzasoyun "Oğuz mifologiyası" monoqrafiyası ciddi nəzəri və praktiki əhəmiyyətə malikdir. Tədqiqat elmi yeniliklərlə zəngindir. Nəticə və qənaətlərin yeniliyi müəllifin apardığı gərgin araşdırmaların, problemin həllinə orijinal şəkildə yanaşa bilməsinin nəticəsidir.

2. "Oğuz mifologiyası" monoqrafiyası ümumtürk mifologiyasının diferensial modeli olan oğuz mifoloji təsəvvürlər sisteminin bərpası istiqamətində təkcə Azərbaycan folklorşünaslığında deyil, ümumtürk folklorşünaslığı və dünya türkologiyasında orijinal və unikal tədqiqatdır. Belə ki, indiyə qədərki araşdırmalarda oğuz eposu, oğuz folkloru kimi məsələlərdən geniş şəkildə bəhs açılsa da, "oğuz mifologiyası" anlayışı elm üçün tamamilə yeni konseptdir.

3. Mifoloji sistemin struktur-semiotik metodla bərpası təcrübəsi Azərbaycan folklorşünaslığında ilk dəfə olaraq S.Rzasoyun tədqiqatlarında həyata keçirilmişdir. "Oğuz mifologiyası" monoqrafiyasında strukturalizm və semiotikanın bir çox ana postulatlarını işlək tezislər kimi ələ alan müəllif metodun mövcud tətbiqi nümunələrini mexaniki şəkildə tətbiq etməkdən imtina etmiş, struktur-semiotik yanaşmanı tarixi-müqayisəli metodun tətbiqi modelləri ilə sintez edərək, oğuz mifinin bərpasına yönəlik yeni yanaşma üsulunu hazırlaya bilmişdir.

4. Oğuz mifi monoqrafiyada folklorşünaslığımızda ilk dəfə olaraq ritual-mifoloji kontekstdə təhlil olunmuşdur. Bu da müəllifə oğuz mifologiyasını, onun funksional struktur modelini bərpa etməyə imkan vermişdir.

5. Əsərdə oğuz mifoloji xaosunun modelləşdirilməsi ümumən dünya türkologiyası üçün tamamilə orijinaldır. Tədqiqatda xaosun bərpası elmimizə oğuz mifoloji dünya modelinin obrazlar sisteminin, "Kitabi-Dədə Qorqud" və "Koroğlu" eposlarının, ümumən epik düşüncənin tədqiqində tamamilə yeni baxış nöqtəsi təqdim edir.

6. Monoqrafiyada Azərbaycan eposu üçün xarakterik olan dəli obrazlarının ritual-mifoloji mahiyyətinin aşkarlanması unikaldır.

Əlbəttə, monoqrafiyanın elmi məziyyətləri təkcə bu deyilənlərlə məhdudlaşmır. Bunlar bizdə "isti izlər" əsasında əldə etdiyimiz təəssüratlardır. Şübhəsiz ki, oxucular məzmun və mündəricə baxımından çox zəngin olan bu kitabda çoxlu elmi həqiqətlərlə üzləşəcəklər.

Магеррам Джафарлы, Рафиг Бабаев

ЭТНОКОСМИЧЕСКАЯ ПАМЯТЬ, НОВАЯ СИСТЕМА ЗРЕНИЯ

Статья посвящена монографии «Огузская мифология» Сейфеддина Рзасоя, заведующего отделом «Института Фольклора» НАН Азербайджана.

Исследуя важные проблемы в монографии, авторы статьи, высоко оценивают практическую и теоретическую важность произведения.

При исследовании монографии авторы выявили многие важные научные результаты.

Maharram Jafarli, Rafig Babayev

ETHNOSPACE MEMORY: NEW LOOKİNG SYSTEM

The article is devoted to the chief of the Mythology department of the National Academy of Sciences of Azerbaijan Folklore İnstitute, candidate of philology Seyfaddin Rzasoy`s book "Oghuz mythology". In article the authors dealt with the main characters of this trace and high marked its theoretical and practical importance.

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

YUBİLEYLƏR, XATİRƏLƏR

ELMİMİZİN APARICI VƏ TANINMIŞ NÜMAYƏNDƏSİ

Akademik Nailə Vəlixanlının adı respublikamızın elmi və mədəni ictimaiyyətinə çox yaxşı tanışdır. O, bütün şüurlu həyatını Azərbaycan elminə – Azərbaycan tarixinin orta əsrlər dövrünə həsr etmiş və bu sahədə böyük nailiyyətlər qazanmışdır. Tanınmış şərqşünas-alim bir sıra problem məsələlərin ilk və kamil tədqiqatçısı kimi böyük nüfuz qazanmışdır. Son illərdə isə akademik N.Vəlixanlı AMEA-nın vitse-prezidenti və Milli Azərbaycan Tarixi Muzeyinin direktoru kimi geniş elmi və təşkilati fəaliyyəti ilə də elmin və mədəniyyətin inkişafında müstəsna rol oynayır.

Nailə Vəlixanlı 1940-cı il dekabr ayının 25-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Orta təhsilini 132 nömrəli məktəbdə almışdır. 1963-cü ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb şöbəsini, 1967-ci ildə Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun aspiranturasını bitirmiş, 1968-ci ildə namizədlik, 1994-cü ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. O, AMEA Şərqşünaslıq (1963-1992) və Tarix (1992-1998) İnstitutlarında baş laborantdan başlayaraq, aparıcı elmi işçi vəzifələrinədək yüksəlmişdir. 1998-ci ildən Milli Azərbaycan Tarixi Muzeyinin direktorudur.

Akademik N.Vəlixanlının tədqiqatlarında Ərəb xilafəti və Azərbaycan əlaqələri, ərəb müəlliflərinin əsərlərində Azərbaycan, Azərbaycanın Orta əsrlər tarixinin mənbəşünaslıq problemlərinin öyrənilməsi, regionun sosial-iqtisadi münasibətləri, siyasi-mədəni tarixi və tarixi coğrafiyası kimi məsələlər mühüm yer tutur. O, Azərbaycan tarixinə dair orta əsr ərəb mənbələrinin üzə çıxarılması ilə məşğul olmuşdur. Alimin tədqiqatları nəticəsində Azərbaycan tarixinin mənbəşünaslığı kimi orta əsr ərəbdilli müəlliflərin məlumatlarını əldə etmiş, onları ümumiləşdirmiş və tariximiz üçün əhəmiyyəti və yeri göstərilmişdir. Bu cəhətdən müəllifin "IX-XII əsrlər ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında" (B., 1974, 224 s.) əsəri təqdirə layiqdir. Ərəb müəllifləri Azərbaycanın tarixi, iqtisadiyyatı, coğrafi mövqeyi, faydalı qazıntıları, ticarət yolları, bitki örtüyü və heyvanlar aləmi, burada yaşayan əhalinin etnik tərkibi, onların adət-

ənənələri və s. barədə qiymətli və maraqlı məlumatlar vermişlər. Bütün bunları nəzərə alan akademik N.Vəlixanlı öz əsərində İbn Xordadbehin, Əl-Yəqubinin, İbn-əl-Fəqihin, İbn Rustanın, Qulama İbn Cəfərin, Əl-Məsudinin, Əl-İstəxrinin, İbn-Haqvəlin, Əl-Müqəddəsinin, Əl-İdrisinin və başqalarının əsərlərində Azərbaycana aid olan parçaların tərcüməsini vermişdir. Həmin müəlliflər Bərdə, Ərdəbil, Dərbənd, Beyləqan, Varsan, Naxçıvan, Qəbələ, Xunan, Bərzənd, Şabran və b. şəhərlər, onların coğrafi mövqeyi haqqında ətraflı danışmışlar. Müəllif təkcə ərəb müəlliflərinin əsərlərindən parcalar verməmiş, onları şərh etmiş, qeydlər və izahlar yazmışdır.

Akademik N.Vəlixanlı bu istiqamətdə elmi fəaliyyətini davam etdirmiş və İbn Xordadbehin "Yollar və ölkələr haqqında kitab"ını (B., 1986, 428 s.) rus dilində çap etdirmişdir. Müəllifin bu əsəri təkcə Azərbaycanın deyil, xilafət tərkibinə daxil olan onlarca ölkənin tarixini və tarixi coğrafiyasını öyrənmək baxımından çox əhəmiyyətlidir. İbn Xordadbehin bu əsəri ilk dəfə tam şəkildə rus dilinə tərcümə edilmişdir. Müəllif kitabda olduqca əhatəli və məzmunlu giriş, müqayisəli elmi şərh vermiş, əsərdə 11 xəritə, coğrafi və şəxs adları göstəricisi əlavə etmişdir ki, bu da əsərin elmi əhəmiyyətini artırmışdır. Təsadüfi deyildir ki, Nailə Vəlixanlının bu əməyi keçmiş Sovetlər birliyi və eləcə də xarici ölkə alimləri tərəfindən çox yüksək qiymətləndirilmişdir.

Qeyd etdiyimiz kimi, bir sıra mənbələri, sənədləri Azərbaycan oxucusuna, beynəlxalq ictimaiyyətə çatdırmaq sahəsində akademik N.Vəlixanlı səmərəli çalışmış və "Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə" kitabını (B., 1990, 384 s.) rus dilində çap etdirmişdir. Dağlıq Qarabağı Ermənistana birləşdirmək üçün hər cür vasitələrə əl atan erməni millətçilərinin fəallaşdığı, uydurma və yalan dolu informasiya ilə dünya ictimaiyyətini aldatdığı bir vaxtda çoxsaylı məqalələrdən, arayışlardan, məlumatlardan, tarixi sənədlərdən, mənbələrdən, arxiv sənədlələrindən, tarixi materiallardan ibarət olan bu toplunun nəşr olunmasının çox böyük elmi, siyasi və tarixi əhəmiyyəti vardır.

Akademik N.Vəlixanlı ərəbdilli yazılı mənbələri Azərbaycan və rus dillərinə tərcümə etməklə yanaşı, həmin mənbələrə və başqa sənəd və materiallara əsaslanaraq Azərbaycanın orta əsrlər tarixinə və tarixi coğrafiyasına dair çoxsaylı məqalələrin, "Ərəb xilafəti və Azərbaycan" monoqrafiyasının (B., 1993, 157 s.) da müəllifidir. Bu əsərlərdə müxtəlif orta əsr ərəb mənbələrinin müqayisəli təhlili nəticəsində Azərbaycanın VII-XII əsrlər dövrünün müxtəlif məsələləri araşdırılmış, ölkənin və ona həmhüdud vilayətlərin sərhədləri müəyyənləşdirilmiş, mütəxəssislərin ümumi fikrinə görə elmdə son vaxtlaradək hakimlik edən erməni və gürcü tədqiqatçılarının ərəb dövrü Azərbaycanın tarixi əsərlərinə olan yersiz iddialarını aradan qaldırmalı olmuşdur. Bununla yanaşı, ərəb istilasının ilk və sonrakı mərhələləri, Azərbaycandakı ərəb inzibati idarə sistemləri, ərəb işğalının nəticə, təsir və izləri, Azərbaycanın o dövr şəhərləri və ticarəti, eləcə də Xəzər dənizinə dair müxtəlif mənbələrdəki məlumatlar hərtərəfli və dərin tədqiq edilmişdir. N.Vəlixanlının Ərəb Xilafətinin tarixinə, Böyük İpək

Yoluna həsr etdiyi elmi və dövrün aktual məsələlərinə dair publisistik məqalələrini oxucular maraqla qarşılamışlar. O, müxtəlif mənbələrdəki məlumatların müqayisəli təhlili nəticəsində Azərbaycanın Xilafət dövrü sərhədlərini müəyyənləşdirmiş, müxtəlif alimlərin iddialarına qarşı öz obyektiv mövqeyini əsaslandırmışdır. Bu baxımdan Nailə Vəlixanlının "Azərbaycanın tarixi coğrafiyası" kitabına (B., 1987, 148 s., rus dilində) daxil edilən "Ərəb işğalı nəticəsində Azərbaycanın tarixi coğrafiyasının dəyişməsi" mövzusunda yazdığı elmi-tədqiqat işi də Azərbaycanın ərəb hakimiyyəti dövrünə aid mübahisəli sahələrini dəqiqləşdirən xəritələri xüsusi qeyd edilməlidir.

Akademik N.Vəlixanlının son illərdə əldə etdiyi böyük nailiyyətlərdən biri də elmi təşkilatçılığı və redaktorluğu ilə çoxcildli "Azərbaycan tarixi"nin II cildinin işıq üzü görməsidir (B., "Elm", 1998, 596 s.). Azərbaycan tarixinin III-XIII əsrlərin birinci rübünədək olan dövrünü əhatə edən bu cildin hər səhifəsi bilavasitə onun elmi redaktəsindən keçmiş, bu cildə girişlə yanaşı əsas müəlliflərdən biri kimi təqribən 10 çap vərəqi həcmində müxtəlif problemlərə dair mətn yazmışdır.

Akademik N.Vəlixanlının son illərdə yazdığı "Naxçıvan – ərəblərdən monqollaradək (VII-XII əsrlər)" monoqrafiyası (B., "Elm", 2005, 152 s.) çox böyük elmi dəyərə malikdir və Azərbaycan tarixşünaslığına layiqli töhfədir. Kitabda Naxçıvanın VII-XII əsrləri əhatə edən geniş bir dövrü işlənilmişdir. AMEA-nın müxbir üzvü Yaqub Mahmudov kitabdan bəhs edərkən yazır ki, "Bu sanballı tədqiqatda, ilk dəfə olaraq, Naxçıvanın təqribən 600 illik bir dövrünü əhatə edən tarixi müxtəlif dillərdə olan ilk mənbələrin, ədəbiyyatın dərin elmi təhlili və müqayisəli tənqidi yolu ilə xronoloji ardıcıllıqla tədqiq edilir".

Görkəmli alim bu tədqiqatında bir sıra erməni alimlərinin araşdırmalarını alt-üst edir, Naxçıvanın məhz Azərbaycan şəhəri olmasını, Səlcuqlar və Atabəylər dövründə isə çox mühüm siyasi-iqtisadi və mədəni mərkəzə çevrilməsini əsaslandırır. Müəllif tərəfindən ilk dəfə olaraq Naxçıvanın Ərəb Xilafəti, feodal dövlətləri və Azərbaycan atabəyləri dövləti dövrünün siyasi tarixi sistemli şəkildə araşdırılır. N.Vəlixanlının bu monoqrafiyası və ilk mənbələr əsasında hazırladığı, xaricdə və respublikamızda nəşr etdirdiyi elmi məqalələrin tariximizin orta əsrlər dövrünün öyrənilməsi üçün çox böyük əhəmiyyəti vardır. Görkəmli tarixçimiz ilk mənbələrin, xüsusilə, orta əsr ərəb mənbələrinin çox az sayda olan tədqiqatçılarından və ən yaxşı bilicilərindən biridir.

Akademik N.Vəlixanlı on ildən artıq bir dövrdə Milli Azərbaycan Tarixi Muzeyinə rəhbərlik edir. Onun muzeyə rəhbərliyi dövründə dövlətin dəstəyi və şəxsən ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və nəzarəti ilə Milli Azərbaycan Tarixi Muzeyi tamamilə ən yüksək səviyyədə təmir olunmuş və nəticədə bu elm və mədəniyyət müəssisəsi ölkənin ən iri, dünya əhəmiyyətli muzeyinə çevrilmişdir. N.Vəlixanlının rəhbərliyi dövründə bu zəngin mədəniyyət ocağı dünyanın qabaqcıl muzeyləri səviyyəsinə çatdırılmışdır. N.Vəlixanlının direktor olduğu dövrdə eksponatların xüsusiyyətlərinə uyğun yerləşdirilməsi,

bir sıra arxeoloji və etnoqrafik eksponatların, rəsm əsərlərinin Muzeyin laboratoriyasında bərpa edilməsi, ekspozisiyanın yeniləşdirilməsi üçün müvafiq muzey avadanlıqlarının əldə olunması, muzeyə işgüzar gənc kadrların cəlb edilməsi kimi tədbirlər həyata keçirilmişdir. N.Vəlixanlının elmi redaktorluğu ilə Muzeyin elmi əsərlərinin nəşrinin bərpa olunması, elmi baxımdan samballı, poliqrafik cəhətdən nəfis şəkildə toplıuların işıq üzü görməsi, muzey materialları əsasında muzeyin tarixində ilk dəfə olaraq elmi katoloqların hazırlanması, bilavasitə onun müəllifliyi və redaktorluğu ilə "Azərbaycanda dövlətçilik və onun rəmzləri", "Azərbaycan bayraqları", "Azərbaycan Tarixi Muzeyi" və b. kitab-albomların, kataloqların, elmi əsərlərin çap olunması, Muzeyin kompakt disketinin hazırlanması Muzeyə və onun kollektivinə böyük uğur gətirmişdir. Muzey rəhbərinin təşəbbüsü ilə Milli Azərbaycan Tarixi Muzeyi ilə Almaniya, Norveç, Rusiya, Türkiyə, Ukrayna, İran və b. ölkələrin muzeyləri arasında əlaqələr yaradılmış, müştərək tədbirlər həyata keçirilmişdir.

Akademik N.Vəlixanlı 40 ilə yaxındır ki, elmi fəaliyyətlə yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olur. O, Bakının müxtəlif ali təhsil müəssisələrində Azərbaycan tarixindən, Mənbəşünaslıq və tarixşünaslıqdan mühazirələr oxuyur, yüksək ixtisaslı, vətənpərvər gənclərin yetişməsi üçün öz bilik və bacarığını əsirgəmir.

Nailə Vəlixanlı ölkəmizdə və xaricdə nəşr olunan bir sıra jurnalların redaksiya heyətlərinin üzvü, 1981-ci ildən isə AMEA-nın "Xəbərlər (tarix, fəlsəfə, hüquq seriyası)" jurnalının məsul katibi, son illər isə baş redaktoru kimi fəaliyyət göstərmiş, yüksək səviyyəli, aktual, problemləri özündə ehtiva edən məqalələrin hazırlanmasında yaxından iştirak edir.

Akademik N.Vəlixanlı bir sıra beynəlxalq və ümumittifaq səviyyəli elmi məclislərdə (Moskva, Tbilisi, Ankara, Berlin, Budapeşt, Stavanger və b.) maraqlı mövzularla məruzə etmiş, Azərbaycan elmini ləyaqətlə təmsil etmişdir. Onun elmi xidmətləri, təşkilatçılıq qabiliyyəti layiqincə qiymətləndirilmişdir: 2001-ci ildə o, AMEA-nın müxbir üzvü, 2007-ci ildə həqiq üzvü və vitse-prezidenti seçilmişdir. Akademik N.Vəlixanlı Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə ölkə Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Azərbaycan tarixinin orta əsrlər dövrünün ən yaxşı tədqiqatçısı, muzey işinin mükəmməl bilicisi, mehriban, xeyirxah, nəcib və qayğıkeş həmkarımızı – akademik Nailə Vəlixanlını yubileyi münasibəti ilə səmimi qəlbdən təbrik edir, ona cansağlığı və yeni yaradıcılıq uğurları arzulayırıq.

İSMAYIL HACIYEV
AMEA Naxçıvan Bölməsinin
sədri, akademik

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN XƏBƏRLƏRİ
İctimai və humanitar elmlər seriyası, 2011, №1

ИЗВЕСТИЯ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА
Серия общественных и гуманитарных наук, 2011, №1

NEWS OF NAKHCHIVAN SECTION OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
The series of social and humanities sciences, 2011, №1

TARİXÇİ BORCU VƏ VƏTƏNDAŞLIQ MÖVQEYİ

Azərbaycan elmində klassik akademik düşüncə ilə yanaşı, yeni akademiklər nəsli də formalaşmaqdadır. Klassik elmi ənənənin davamı olmaqla bərabər, həm də dövlət müstəqilliyi dövrünün, açılan dünyanın gətirdiyi zəngin informasiya və sərbəst yanaşma, habelə milli mənafeləri ön mövqeyə çəkmək akademik korpusdakı yeniləşmənin əsas əlaməti kimi nəzərə çarpır. Bu mənada elmdə klassik ənənə möhkəm təməl, etibarlı bünövrə, müasirlik isə yeniləşmə, qlobal düşüncə ilə birlikdə proseslərin, elmi fikrin ölkənin və xalqın maraqlarına uyğunlaşdırılması funksiyalarını həyata keçirir. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, Milli Məclisin deputatı, Əməkdar elm xadimi, akademik İsmayıl Hacıyevin elmi fəaliyyəti klassik elmi ənənə ilə müasirləşməni üzvi surətdə özündə cəmləşdirir.

Tariximizdə özünəməxsus yeri və əhəmiyyəti olan Əlincə qalasının ətəyindəki Xanəgah kəndində anadan olması (1951), uşaqlıq və ilk gənclik illərini burada keçirməsi, orta məktəbi məşhur Haçadağla üzbəüz Göydərə məktəbində başa çatdırması akademik İsmayıl Hacıyevin tarixçi olmaq arzusunun ilkin cücərtilərini təşkil edir. Naxçıvanın kənd məktəblərinin inkişafında özünəməxsus xidmətləri olan atası Muxtar müəllimin xarakterindəki dərin maarif yanğısı onun elmi-pedaqoji fəaliyyət yolunu seçməsində mühüm rol oynamışdır. Beləliklə, tarixi-coğrafi faktorlarla maarifçi-mənəvi amillərin birgə təsiri İsmayıl Hacıyevin gələcək fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsinə zəmin yaratmışdır. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsini fərqlənmə diplomu ilə bitirməsi bütün bunların qanunauyğun məntiqi nəticəsi idi. Tələbəlik illərində ali məktəb tələbələrinin Bakıda keçirilən ümumittifaq konfransında etdiyi məruzənin diploma layiq görülməsi, təhsildə fərqləndiyi üçün "Əla təhsilə görə" nişanı ilə təltif edilməsi İsmayıl Hacıyevin hərtərəfli yüksək hazırlığının göstəriciləri kimi diqqəti çəkmişdir. Bütün bunlardan sonra bir neçə il Əlincə-Xanəgah ətrafı kəndlərdə tarix müəllimi işləməsi regionun tarixini, burada tarixən mövcud olmuş siyasi-ideoloji cərəyanların və qurumların mahiyyətini, toponimlərdə yaşayan qədim izləri ilkin mənbələr və el-oba yaddaşı əsasında öyrənməsi üçün məşq rolunu oynamışdır. Kənd müəllimi ikən topladığı mate-

riallar əsasında yazıb vilayət və rayon qəzetlərində, habelə respublika mətbuatında çap etdirdiyi məqalələrdə sonrakı peşəkar tarixçi fəaliyyətin ilkin əlamətləri, cizgiləri, konturları öz əksini tapmışdır. İctimai-pedaqoji mühitdə diqqəti cəlb edən bu keyfiyyətlər 1977-ci ildə onu Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutuna (indiki Naxçıvan Dövlət Universitetinə – İ.H.) gətirən yolun pillələri kimi təbii bir prosesinin konkret addımları idi. Ailə mühitindən, ali məktəb həyatından və pedaqoji fəaliyyətdən əldə etdiyi təcrübə zəminində İsmayıl Hacıyev qısa müddətdə Naxıvan Dövlət Universitetində özünü bacarıqlı, səviyyəli müəllim kimi təsdiq etmişdir. Ali məktəb fəaliyyətinin başlanğıcında çap etdirdiyi pedaqoji-metodiki xarakterli məqalələr və bu aspektdə etdiyi məruzələr onun müəllimlik bacarıqlarını elmi baxımdan daha da möhkəmləndirmişdir. İsmayıl Hacıyevin bu ali təhsil ocağında müəllimlikdən tarix-filologiya fakültəsinin dekan müavinliyinə, dosentlikdən professorluğa qədər keçdiyi məsuliyyətli və şərəfli yol onu yeni nəsillərin yaddaşına peşəsinə ürəkdən bağlı olan yüksək hazırlıqlı və tələbkar müəllim kimi həkk etmişdir. Naxçıvan Dövlət Universitetində 1997-2003-cü illərdə tədris işləri üzrə prorektor vəzifəsində çalışarkən regionda ali təhsilin inkişafına göstərdiyi prinsipial münasibət universitetin tarixində ciddi izlər buraxmışdır. Müəllim kimi tələbələri cəlb edən İsmayıl Hacıyev prorektor vəzifəsindəki səmərəli fəaliyyəti ilə özünü həm də təşkilatçılıq sahəsində də yaxşı cəhətdən göstərmişdir.

Akademik İsmayıl Hacıyevin elmi tərcümeyi-halı da Naxçıvan Dövlət Universiteti ilə üzvi surətdə bağlıdır. Azərbaycan Milli Elmlər Akademiyası Abasqulu ağa Bakıxanov adına Tarix İnstitutunun ixtisaslaşdırılmış şurasında "Böyük Vətən müharibəsi illərində Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında qadınların iştirakı" mövzusunda müdafiə etdiyi namizədlik dissertasiyası (1992) ali məktəbdə pedaqoji fəaliyyət zamanı hazırlanmışdır. Bu, Azərbaycanda müharibə dövrü qadın hərəkatına həsr olunmuş dissertasiya səviyyəsində birinci elmi-tədqiqat işi kimi mühüm əhəmiyyət kəsb edir. Dissertasiyada Böyük Vətən müharibəsi dövründə ön və arxa cəbhə ilə əlaqədar bir sıra məsələlər ilk dəfə tədqiqata cəlb olunmuşdur. Bütövlükdə bu əsər Böyük Vətən müharibəsi və Azərbaycan mövzusunun daha da zənginləşdirilməsinə və tamamlanmasına xidmət etmişdir. Əsərdən, eyni zamanda, Böyük Vətən müharibəsi dövrü tədris olunarkən elmi mənbə kimi də istifadə olunur.

Bundan başqa, İsmayıl Hacıyevin elmi tərcümeyi-halında mühüm yer tutan "Naxçıvan Muxtar Respublikası Azərbaycanın milli dövlətçilik tarixində" adlı doktorluq dissertasiyası da Naxçıvan Dövlət Universitetində yaradılmış birdəfəlik Dissertasiya Şurasında müdaifə olunmuşdur (1999). Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri, görkəmli elm xadimi, akademik Azad Mirzəcanzadənin rəhbərlik etdiyi Rəyasət Heyətinin tam tərkibdə iştirakı ilə və nüfuzlu tarixçi alimlərdən təşkil olunmuş Dissertasiya Şurası üzvlərinin qarşısında böyük uğurla müdafiə edilmiş elmi-tədqiqat işinə görə elə həmin gün Naxçıvanda keçirilmiş səyyar kollegiya iclasında

İsmayıl Hacıyevə tarix elmləri doktoru alimlik dərəcəsinin verilməsi barədə qərarın qəbul edilməsi və hətta diplomun dəqdim olunması elm tarixində nadir hadisələrdəndir. Əsas iş yerinin Naxçıvan Dövlət Universiteti olduğu illərdə Azərbaycanla yanaşı, Türkiyə Cümhuriyyətində və İran İslam Respublikasında keçirilən beynəlxalq miqyaslı simpoziumlarda və qurultaylarda etdiyi məruzələr, xarici ölkələrdə çap etdirdiyi məqalələr elm adamı kimi onun ölkədə və beynəlxalq aləmdə tanınmasına şərait yaratmışdır. Tanınmış alim, bacarıqlı təşkilatçı, tarix elmləri doktoru İsmayıl Hacıyevin 2003-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəhbərliyi tərəfindən Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin sədri vəzifəsinə irəli çəkilməsi artıq elmi-ictimai mühitdə diqqəti cəlb etmiş cavan alimə göstərilən böyük etimadın ifadəsi idi. Eyni zamanda, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi onun elmi mühitdəki mövqeyini daha da möhkəmləndirmişdir. Hazırda akademik İsmayıl Hacıyev AMEA-nın Naxçıvan Bölməsinin sədri kimi regionda Azərbaycan elminin inkişaf etdirilməsi yollarında uğurla və səmərəli şəkildə fəaliyyət göstərir. Naxçıvanda yaradılmış tarix, arxeologiya və iqtisadiyyat üzrə Dissertasiya Şurasının sədri, AMEA Naxçıvan Bölməsinin "Xəbərlər" jurnalının baş redaktoru vəzifələrində o, elmi fikrin inkişafına və yeni elmi nəslin formalaşmasına layiqincə və bacarıqla xidmət edir. AMEA-nın "Məruzələr" və "Xəbərlər" jurnallarının, Naxçıvan Dövlət Universiteti "Elmi əsərlər" məcmuəsinin, Türkiyədə nəşr olunan "Dialoq Avrasiya" və "Meridian" dərgilərinin redaksiya heyətinin üzvü kimi o, mühüm elmi nəticələrin ictimaiyyətə çatdırılması məsələsinə tələbkarlıqla yanaşır. Onun yaxından iştirakı, redaktorluğu və həmmüəllifliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müəyyən etdiyi dövlət sifarişi kimi çapdan çıxmış ikicildlik "Naxçıvan ensiklopediyası" (2005), "Naxçıvan abidələri ensiklopediyası" (2008), "Naxçıvanın tarixi atlası" (2009) kitabları Azərbaycan tarixşünaslığına Naxçıvan məktəbinin sanballı töhfələri sayılmağa layiq əsərlərdir. Müəlliflər kollektivi tərəfindən hazırlanmasına baxmayaraq, bu sanballı nəşrlərin ərsəyə gəlməsində akademik İsmayıl Hacıyevin elmi-təşkilati xidmətləri ayrıca qeyd olunmuşdur. Otuzdan çox monoqrafiya, kitab və broşuranın, 230 elmi məqalənin müəllifi kimi o, Azərbaycanın yeni dövr tarixşünaslığında məhsuldar alimlərdən biri kimi qəbul olunur. Əhatə etdiyi altı elmi-tədqiqat institutunun elmi istiqamətlərinin müəyyən olunması, həmin qurumların normal işinin təşkili onların hər birində bu cür mühüm nəticələrin əldə olunmasına şərait yaradır. AMEA-nın Naxçıvan Bölməsi Bioresurslar İnstitutunda Naxçıvan Muxtar Respublikasının iki cildlik "Qırmızı kitabı"nın meydana çıxması geniş mənada Azərbaycan təbiətşünaslıq elminin nailiyyətlərindən sayıla bilər. Bütövlükdə dövlətin böyük qayğısı sayəsində və aparılan məqsədyönlü elmi-təşkilati işlərin nəticəsində AMEA-nın Naxçıvan Bölməsi ölkəmizin ikinci əsas elmi mərkəzinə çevrilmişdir.

Tarixçi alim kimi akademik İsmayıl Hacıyevin fəaliyyətində Azərbaycan dövlətçiliyinin tədqiq edilib öyrənilməsi məsələləri ön mövqedə dayanır.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi şəxsiyyətinin və dövlətçilik məktəbinin öyrənilib ümumiləşdirilməsi onun elmi araşdırmalarında xüsusi yer tutur. "Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası" (2003) monoqrafiyası və görkəmli dövlət xadiminin çoxcəhətli fəaliyyətinə həsr olunmuş sanballı məqalələri Azərbaycan Heydər Əliyevşünaslığını qiymətli əlavələrlə zənginləşdirən əsərlərdir. Həmmüəllifi olduğu "Mustafa Kamal Atatürk və Naxçıvan" kitabında (2007) Azərbaycanın dövlətçilik ənənələri, xüsusən ulu öndər Heydər Əliyevin dövlət xadimi olaraq böyük xidmətləri qardaş Türkiyə Cümhuriyyətinin qurucusu Atatürklə müqayisədə elmi təhlildən keçirilərək dəyərləndirilmişdir. Tanınmış tarixçi alimin Naxçıvan Muxtar Respublikasına həsr olunmuş əsərlərində də Heydər Əliyev xətti əsas meyardır. Nəticə olaraq akademik İsmayıl Hacıyevin tədqiqatlarında ümummilli lider Heydər Əliyev dünyanın nadir siyasi şəxsiyyətlərindən biri, müstəqil Azərbaycan dövlətinin banisi, Naxçıvan Muxtar Respublikasının xilaskarı kimi yüksək qiymətləndirilir.

Azərbaycan dövlətçiliyinin Naxçıvan məktəbinin tədqiqində akademik İsmayıl Hacıyevin xüsusi xidmətləri vardır. "Naxçıvan Muxtar Respublikası Azərbaycanın milli dövlətçilik tarixində" adlı doktorluq dissertasiyasında ölkəmizin ayrılmaz tərkib hissəsi olan bu diyarın çoxəsrlik tarixinin ümumiyyətlə dövlətçiliyimizin inkişafındakı yeri, rolu və əhəmiyyəti ilk dəfə sistemli şəkildə elmi cəhətdən araşdırılıb ümumiləşdirilmişdir. O, qədim dövr və orta əsrlərdən yeni dövrə və müstəqillik mərhələsinə qədər Naxçıvanın tarixinə Azərbaycan dövlətçiliyi zəminində qiymət vermiş, tarixin ayrı-ayrı dövrlərində mövcud olmuş və az öyrənilmiş bir çox məsələlərə, o cümlədən "Naxçıvan şahlığı" dövrünə, Naxçıvan xanlığının idarəetmə sisteminə, Araz-türk Respublikasına, Moskva, Qars və Gümrü müqavilələrinin Naxçıvanın tarixindəki roluna, Naxçıvan Sovet Sosialist Respublikasının fəaliyyət dairəsi kimi problemlərə aydınlıq gətirmişdir. "Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan" problemlərini Azərbaycan tarixşünaslığında elmi dövriyyəyə akademik İsmayıl Hacıyev gətirmişdir. Naxçıvan Muxtar Respublikasının keçdiyi keşməkeşli inkişaf yolu akademik İsmayıl Hacıyevin tədqiqatlarında bütün yönləri və əsas inkişaf mərhələləri etibarilə əsaslı şəkildə öyrənilmişdir. O, Azərbaycan dövlətçiliyinin Naxçıvan məktəbinin ən ardıcıl və sanballı tədqiqatçısıdır. Etibarlı arxiv sənədlərinə, dəqiq elmi mənbələrə, dürüstləşdirilmiş informasiyalara, dövri mətbuat materiallarına istinad etmək, tarixi hadisələrin və faktların mahiyyətini açmağa üstünlük vermək İsmayıl Hacıyevin tarixçi alim kimi özünəməxsusluğunu müəyyən edir. Azərbaycan, Türkiyə, Rusiya və İranın arxivlərində, kitabxana və muzeylərindəki materiallarla yaxından tanışlığı onun tədqiqatlarının mənbəşünaslıq bazasının genişliyinə şərait yaratmışdır. Bundan başqa, akademik İsmayıl Hacıyevin tədqiqatları tarixi prosesləri yalnız əks etdirməklə bitmir, alimin vətəndaşlıq mövqeyinin, vətənpərvərlik missiyasının ifadəsi kimi də diqqəti cəlb edir. Bu cəhətdən onun Naxçıvana qarşı əsassız erməni iddialarına cavabının ifadəsi olan məqalələri və məruzələri ictimai mühitdə Azərbaycan elminin vətəndaşlıq

mövqeyinin bəyanatları kimi səslənir. İsmayıl Hacıyevin bu qəbildən olan tədqiqatlarında vətənpərvərlik notları tutarlı, dəlilli-sübutlu faktlar, əsaslandırılmış müddəalar vasitəsilə ifadə edildiyi üçün tarixi mənbəyə çevrilə bilir. Həmin məqalələrin ingilis və rus dillərində də çap edilməsi saxta erməni iddialarının geniş miqyasda cavablandırılması, real gerçəkliyin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması baxımından da əhəmiyyətlidir.

Yetirmələri olan 16 nəfər elmlər doktorları və namizədlər də elmdə tarixi yanaşma ilə vətəndaşlıq mövqeyinin müasirlik ruhunda təqdim etmək prinsipini uğurla davam etdirirlər.

Müasirlik İsmayıl Hacıyevin tədqiqatlarında ana xətlərdən biridir. Azərbaycan dövlətçiliyinin müstəqillik dövrünün, ölkəmizin yeni epoxasının, bu fonda Naxçıvan Muxtar Respublikasının hazırkı intibah mərhələsinin tədqiqi və təbliği sahəsində akademik İsmayıl Hacıyevin apardığı çoxtərəfli və ardıcıl elmi-təşkilati iş müasir tariximizin fəlsəfəsinin nəzəri cəhətdən aydınlaşdırılmasına və obyektiv təqdimatına imkan verir. Naxçıvan Muxtar Respublikasının tarixi-statistik baxımdan öyrənilməsinin nəticəsi kimi meydana çıxmış bir çox əsərləri, o cümlədən həmmüəllifi olduğu "İntibahın 15 ili" monoqrafiyasındakı (2010) araşdırmaları ilə o, ən yeni tarixə müasirlik işığında yanaşmanın nümunəsini göstərmişdir.

Akademik İsmayıl Hacıyev müasir prosesləri də dəyərləndirərkən möhkəm dövlətçilik amilini əsas prinsip kimi ön mövqeyə çəkməyi zəruri sayır. Naxçıvan Muxtar Respublikasının son on beş ilinin təhlil edilib qiymətləndirilməsinə həsr olunmuş aşağıdakı mülahizələr də cəmiyyətin, konkret olaraq regionun inkişaf etdirilməsində dövlətçilik faktorunun rolunun ciddi surətdə nəzərə alınması əsasında meydana çıxmışdır: "Son on beş ildə Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında, sosial-iqtisadi və mədəni inkişafında heç bir dövrlə müqayisə olunmayacaq səviyyədə hərtərəfli inkişaf baş vermiş, inkişafın Naxçıvan modeli yaranmışdır. Bu inkişaf və dəyişikliklər o qədər yüksək səviyyəyə çatmışdır ki, bir çox hallarda bunu inkişafın Naxçıvan möcüzəsi kimi də xarakterizə edirlər.. Möcüzənin əsasında ümummilli lider Heydər Əliyevin düşünülmüş, ölçülüb-biçilmiş siyasətinin nəticəsində hazırlanan siyasi və sosial-iqtisadi kurs, bu kursu yaradıcılıqla inkişaf etdirən .. ölkə Prezidenti İlham Əliyevin məqsədyönlü fəaliyyəti dayanır.

Naxçıvan Muxtar Respublikasının inkişafı .. Muxtar Dövlətə uğurla rəhbərlik edən Ali Məclisin Sədri Vasif Talıbovun adı və səmərəli fəaliyyəti ilə bağlıdır. Onun əqidə bütövlüyü, Heydər Əliyev siyasi kursuna sədaqəti, yorulmaz fəaliyyəti, yüksək tələbkarlığı və prinsipiallığı, .. vətənpərvərliyi əldə olunan nailiyyətlərin əsas şərti olmuşdur".

Tanınmış tarixçi alim və bacarıqlı təşkilatçı İsmayıl Hacıyev ictimai həyatda da yaxından və fəal iştirak edir. O, ikinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı seçilmişdir. Üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuş İsmayıl Hacıyev hazırda da Milli

Məclisin üzvü kimi siyasi-ictimai fəaliyyətini uğurla davam etdirməkdədir. Ölkəmizdə dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə alim-vətəndaş kimi xidmət göstərmək, Naxçıvan Muxtar Respublikasında gedən proseslərdə fəal iştirak etmək akademik İsmayıl Hacıyevin fəaliyyətində qabarıq nəzərə çarpır. Uğurla rəhbərlik etdiyi AMEA Naxçıvan Bölməsinin əhatə etdiyi elmi-tədqiqat institutlarının işini müasir tələblər səviyyəsində qurmaq, sanballı elmi-tədqiqat işlərinə imza atmaq, yeni elmi nəsilləri hazırlamaq yollarında qazandığı nailiyyətlər, əldə etdiyi mühüm elmi nəticələr akademik İsmayıl Hacıyevin altmış illik ömrünün layiqli elmi hesabatıdır. Azərbaycan elminin formalaşmış klassik ənənələrini davam etdirib yaşadan və yeni dövr elmi mühitimizi layiqincə təmsil edən akademik İsmayıl Hacıyevin indiki hesabatından bundan sonrakı fəaliyyətinə də gur işıq düşür.

İSA HƏBİBBƏYLİ
Naxçıvan Dövlət Universitetinin rektoru,
akademik

MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

1. Jurnalın əsas məqsədi elmi keyfiyyət kriteriyalarına cavab verən orijinal elmi məqalələrin dərc edilməsindən ibarətdir.
2. Jurnalda başqa nəşrlərə təqdim edilməmiş yeni tədqiqatların nəticələri olan yığcam və mükəmməl redaktə olunmuş elmi məqalələr dərc edilir.
3. Məqalənin həmmüəlliflərinin sayının üç nəfərdən artıq olması arzuolunmazdır.
4. Məqalələrin keyfiyyətinə, orada göstərilən faktların səhihliyinə müəllif birbaşa cavabdehdir.
5. Məqalələr Azərbaycan MEA-nın həqiqi və müxbir üzvləri, redaksiya heyətinin üzvlərindən biri tərəfindən təqdim edilməlidir.
6. Məqalələr üç dildə – Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasəsi verilməlidir.
7. Məqalənin mətni jurnalın redaksiyasına fərdi kompyuterdə, A4 formatlı ağ kağızda, "14" ölçülü hərflərlə, səhifənin parametrləri yuxarıdan 2 sm, aşağıdan 2 sm; soldan 3 sm, sağdan 1 sm məsafə ilə, sətirdən-sətrə "defislə" keçmədən, sətir aralığı 1,5 interval olmaq şərti ilə rus və azərbaycan dilində Times New Roman şriftində yazılaraq, 1nüsxədə çap edilərək, disketlə birlikdə jurnalın məsul katibinə təqdim edilir. Mətnin daxilində olan cədvəllərin parametri soldan və sağdan 3,7 sm olmalıdır.
8. Səhifənin sağ küncündə "12" ölçülü qalın və böyük hərflərlə müəllifin (müəlliflərin) adı və soyadı yazılır.
9. Aşağıda işlədiyi təşkilatın adı 1 interval ara verməklə, "12" ölçülü adi və kiçik hərflərlə yazılır (məs: AMEA Naxçıvan Bölməsi; Naxçıvan Dövlət Universiteti). Sonra 1 sətir boş buraxılmaqla aşağıdan "14" ölçülü hərflərlə məqalənin adı çap edilir. Məqalənin əsas mətni yenə də 1 sətir boş buraxılmaqla aşağıdan yazılır.
10. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır və istifadə olunmuş ədəbiyyat xülasələrdən əvvəl "12" ölçülü hərflərlə, kodlaşdırma üsulu və əlifba sırası ilə göstərilməlidir. "Ədəbiyyat" sözü səhifənin ortasında qalın və böyük hərflərlə yazılır.
    Ədəbiyyat siyahısı yazıldığı dildə adi hərflərlə verilir. Məs:
    Kitablar:
    Qasımov V.I. Qədim abidələr. Bakı: İşıq, 1992, 321 s.
    Kitab məqalələri:
    Həbibbəyli I.Ə. Naxçıvanda elm və mədəniyyət /Azərbaycan tarixində Naxçıvan, Bakı: Elm, 1996, s. 73-91
    Jurnal məqalələri:
    Baxşəliyev V.B., Quliyev Ə.A. Gəmiqaya təsvirlərində yazı elementləri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 74-79
11. Məqalənin xülasəsində müəllifin adı və soyadı "12" ölçülü kiçik, qalın hərflərlə; mövzunun adı böyük, qalın hərflərlə; xülasənin özü isə adi hərflərlə

yazılır. Xülasə məqalənin məzmununu tam əhatə etməli, əldə olunan nəticələr ətraflı verilməlidir.

12. Məqalədəki istinadlar mətnin içərisində verilməlidir. Məs: (4, s. 15)
13. Məqalələrin ümumi həcmi, qrafik materiallar, fotolar, cədvəllər, düsturlar, ədəbiyyat siyahısı və xülasələr də daxil olmaqla 5-7 səhifədən çox olmamalıdır.
14. Məqaləyə müəlliflər haqqında məlumat (soyadı, adı və atasının adı, iş yeri, vəzifəsi, alimlik dərəcəsi və elmi adı, ünvanı, e-mail adresi, iş və ev telefonları) mütləq əlavə olunmalıdır.

QEYD: AMEA Naxçıvan Bölməsinin "Xəbərlər" jurnalına təqdim olunan məqalələrin sayının çoxluğunu və "Tusi" nəşriyyatının imkanlarının məhdudluğunu nəzərə alaraq bir nömrədə hər müəllifin yalnız bir məqaləsinin çap edilməsi nəzərdə tutulur.

XƏBƏRLƏR
AMEA Naxçıvan Bölməsinin elmi nəşri
№ 1 (22)

Nəşriyyatın direktoru: *Qafar Qərib*
Redaktor: *Zülfiyyə Məmmədli*
Korrektor: *Yelena Muxtarova*
Operatorlar: *İlhamə Əliyeva, Aynur Əliyeva*
Proqramçı mühəndis: *Taleh Maqsudov*

Yığılmağa verilmişdir: 05.02.2011
Çapa imzalanmışdır: 07.03.2011
Kağız formatı: 70 x 108 1/16
20 çap vərəqi. 320 səhifə
Sifariş № 32. Tiraj: 300

AMEA Naxçıvan Bölməsinin "Tusi" nəşriyyatında çap edilmişdir.

Ünvan: *Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 35.*

E-mail: tusinesr@rambler.ru